

*Biz iqtisadi sahədə tam müstəqillik əldə etmişik. İqtisadi müstəqillik, əlbəttə ki, siyasi müstəqilliyimizi möhkəmləndirir. Azərbaycan iqtisadiyyatı özünü təmin edən iqtisadiyyatdır, xarici kreditlərdən asılı iqtisadiyyat deyil. Biz nəinki kreditlərin alınmasını demək olar ki, dayandırmışıq, özümüz bəzi ölkələrə kreditlərin verilməsinə başlamışıq.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:

## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

# 2018
# 4 (64)

**DÖVLƏT İDARƏÇİLİK AKADEMIYASI**
**BAKI – 2018**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Ramiz Mehdiyev*** *(sədr)*

***Əli Həsənov, Novruz Məmmədov, Zeynal Nağdəliyev,***
***Əli Əhmədov, Akif Əlizadə, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Ədalət Muradov, Mehdi Abdullayev, Sevil Məmmədova,***
***Fəxrəddin Nağıyev, Gülnarə Qurbanova, Etibar Nəcəfov,***
***Elçin Əhmədov, Ziyafət Həbibova, Rəcəb Rəhimli, Firdovsiyyə Əhmədova***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatından keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2018, №4(64).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2018, 336s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2018*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2018
4 (64)

ACADEMY OF PUBLIC ADMINISTRATION

BAKU – 2018

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Ramiz Mehdiyev*** *(chairman)*

***Ali Hasanov, Novruz Mammadov, Zeynal Naghdaliyev, Ali Ahmadov, Akif Alizadeh, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Adalat Muradov, Mehdi Abdullayev, Sevil Mammadova, Faxraddin Naghiyev, Gulnara Qurbanova, Etibar Najafov, Elchin Ahmadov, Ziyafet Habibova, Rajab Rahimli, Firdovsiyya Ahmadova***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2018, №4(64)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2018, 336p.*

*© Academy of Public Administration, 2018*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

*Oktyabr – noyabr – dekabr 2018-ci il*

## Oktyabr

**19 oktyabr**
- İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimində iştirak etmək üçün Türkiyə Respublikasına işgüzar səfərə gəlmişdir.
- İzmir şəhərində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə "Star" neft emalı zavodunun açılış mərasimində iştirak və çıxış etmişdir.
- Türkiyə Respublikasına işgüzar səfəri başa çatmışdır.

**20 oktyabr**
- Macarıstan Respublikasının milli bayramı münasibəti ilə Prezident Yanoş Aderi təbrik etmişdir.

**21 oktyabr**
- Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janqı qəbul etmişdir.

**22 oktyabr**
- İmişli rayonuna səfərə gəlmişdir.
- Ümummilli Lider Heydər Əliyevin İmişli şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- İmişli rayonunda Araz çayının yeni qol-kanalının açılışına həsr olunmuş mərasimdə iştirak və çıxış etmişdir.
- Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun 112 kilometrlik Qarağacı-Bəhrəmtəpə hissəsinin açılışında iştirak etmişdir.
- İmişli-Otuziki-Qaraqaşlı avtomobil yolunun açılışında iştirak etmişdir.
- «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin İmişli Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin açılışında iştirak etmişdir.
- İmişlidə Bayraq Muzeyinin açılışında iştirak etmişdir.
- Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə İmişlidə inşa olunmuş 100 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.
- İmişliyə səfəri çərçivəsində "ASAN Həyat" kompleksinin açılışında iştirak etmişdir.
- İmişli Rayon Məhkəməsinin yeni binasında yaradılan şəraitlə tanış olmuşdur.
- Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin yaradılmasının 160 illiyi münasibətilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyinə həsr olunmuş mərasimin iştirakçılarını təbrik etmişdir.

**23 oktyabr**
- Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevi qəbul etmişdir.
- Ölkəsinin milli bayramı münasibəti ilə Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Belleni təbrik etmişdir.

**24 oktyabr**
- ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonu qəbul etmişdir.
- Vyetnam Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Prezident Nquyen Fu Çonqu təbrik etmişdir.

**25 oktyabr**
- Heydər Əliyev Mərkəzində «Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı» mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimində iştirak etmiş və nitq söyləmişdir.
- BMT baş katibinin müavini Rəşid Xalikov ilə görüşmüşdür.
- Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodetsi qəbul etmişdir.
- Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Anatoli Torkunovu qəbul etmişdir.
- ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrini qəbul etmişdir.
- UNESCO-nun baş direktorunun müavini Çu Sini qəbul etmişdir.
- Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baronu qəbul etmişdir.
- Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandinini qəbul etmişdir.
- Sloveniya Milli Şurasının sədri Aloyz Kovşkanı qəbul etmişdir.
- Çex Respublikasının milli bayramı münasibəti ilə Prezident Miloş Zemanı təbrik etmişdir.

**26 oktyabr**
- «Gələcəyimizə sərmayə: dayanıqlı və inklüziv inkişafa doğru» mövzusunda «dəyirmi masa» iştirakçılarını təbrik etmişdir.

- Türkiyə Respublikasının yaranmasının 95-ci ildönümü münasibəti ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etmişdir.

**28 oktyabr**

- Kənd Təsərrüfatı Nazirliyinin yenidən qurulan Qax Damazlıq İpəkçilik Stansiyasının açılışında iştirak etmişdir.
- Qax rayonuna səfərə gəlmişdir.
- Ümummilli Lider Heydər Əliyevin Qax şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun açılışında iştirak etmişdir.
- «Ulu Aqro» MMC-nin Qax Aqroparkının açılışında iştirak etmişdir.
- Qax şəhərində «Ulu Yurd» Məhdud Məsuliyyətli Cəmiyyətinin «Yurd Hotel» mehmanxanasının açılışında iştirak etmişdir.

**29 oktyabr**

- Şəki şəhərinə səfərə gəlmişdir.
- Ümummilli Lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsi önünə gül dəstəsi qoymuşdur.
- Şəki şəhərində inşa olunan Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.
- Şəkidə Bayraq Muzeyinin açılışında iştirak etmişdir.
- Şəki-Kiş avtomobil yolunun açılışında iştirak etmişdir.
- Şəki «ASAN Həyat» kompleksinin açılışında iştirak etmişdir.
- Sonra Şəki «ASAN Həyat» kompleksinin əməkdaşları ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- Heydər Əliyev Fondu tərəfindən Şəki şəhərində qarışıq tipli uşaq evi üçün inşa olunan yeni binanın açılışında iştirak etmişdir.
- Şəkiyə səfərləri çərçivəsində «ABAD» Keramika və Tətbiqi Sənət Mərkəzinin açılışında iştirak etmişdir.
- Pittsburq şəhərində sinaqoqa silahlı hücum nəticəsində insan tələfatı ilə əlaqədar Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa başsağlığı vermişdir.
- Ölkəsində baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar İndoneziya Respublikasının Prezidenti Coko Vidodoya başsağlığı vermişdir.

**30 oktyabr**

- İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogionu qəbul etmişdir.
- Türkmənistan Respublikası Nazirlər Kabineti sədrinin müavini Məmmetxan Çakıyevi qəbul etmişdir.
- Mərakeş Krallığının inzibati islahatlar və dövlət qulluğu naziri Məhəmməd bin Abdelkaderi qəbul etmişdir.
- Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Prezident xanım Sahle-Uork Zevdeyi təbrik etmişdir.
- Braziliya Federativ Respublikasının Prezidenti vəzifəsinə yeni seçilməsi münasibətilə Prezident Jair Bolsonarunu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – İnqilab günü münasibəti ilə Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Əbdüləziz Buteflikanı təbrik etmişdir.

## Noyabr

**1 noyabr**

- ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popovu, ABŞ-dan olan həmsədr Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

**4 noyabr**

- Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikini qəbul etmişdir.

**5 noyabr**

- Ağdam rayonuna səfərə gəlmişdir.
- Ümummilli Lider Heydər Əliyevin Ağdam rayonunun Quzanlı qəsəbəsinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Ağdam rayonunda əsaslı şəkildə yenidən qurulan Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun açılışında iştirak etmişdir.
- Muğam Mərkəzi ilə tanışlıqdan sonra rayon ictimaiyyətinin nümayəndələri və Ağdam rayonundan olan incəsənət xadimləri ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Ağdam filialının açılışında iştirak etmişdir.
- Sonra xalçaçılarla görüşmüşdür.
- Ağdam rayonunda səfərdə olarkən yolüstü Ağcabədi rayonunun Hindarx qəsəbəsində Əsmər Hüseynovanın pambıq sahəsi ilə tanış olmuşdur.
- Sonra pambıqçılarla söhbət etmişdir.
- Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki «Qarabağ Atçılıq Təsərrüfatı» Məhdud Məsuliyyətli Cəmiyyətinin

Qarabağ Atçılıq Kompleksinin açılışında iştirak etmişdir.
- V Bakı beynəlxalq teatr konfransının açılışı münasibətilə konfransın iştirakçılarını təbrik etmişdir.

**6 noyabr**
- Ölkəsinin milli bayramı – Müstəqillik günü münasibətilə Kambocanın Kralı Əlahəzrət Norodom Sihamonini təbrik etmişdir.

**7 noyabr**
- «Bravo» marketlər şəbəkəsinin metronun «Koroğlu» stansiyasının yaxınlığında yerləşən yeni hipermarketinin açılışında iştirak etmişdir.
- Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**9 noyabr**
- ABŞ Nəqliyyat Komandanlığının komandanı general Stefen Lyonsun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**12 noyabr**
- Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışında iştirak etmişdir.
- Ümumdünya Antidopinq Agentliyinin prezidenti Kreyq Ridinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı münasibəti ilə Fələstin Dövlətinin Prezidenti Mahmud Abbası təbrik etmişdir.

**13 noyabr**
- Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini ilə təkbətək görüşü olmuşdur.
- Təkbətək görüşü başa çatdıqdan sonra Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini ilə hər iki tərəfin nümayəndə heyətlərinin də iştirak etdiyi geniş tərkibdə görüşü olmuşdur.
- Sonra Slovakiyanın Baş naziri Peter Pelleqrini ilə işçi nahar etmişdir.

**14 noyabr**
- Belarus Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviçi qəbul etmişdir.

**15 noyabr**
- Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin ətrafındakı ərazidə yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq-quruculuq işləri çərçivəsində həyata keçirilən tədbirlərin icra vəziyyəti ilə tanış olmuşdur.
- Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsu qəbul etmişdir.
- Azərbaycan Gənclərinin VIII Forumunun iştirakçılarını təbrik etmişdir.
- Azərbaycan avtomobil yolu təsərrüfatının yaranmasının 100 illik yubileyi münasibətilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşlarını təbrik etmişdir.
- Latviya Respublikasının milli bayramı – Müstəqillik günü münasibəti ilə Prezident Raymonds Veyonisi təbrik etmişdir.
- Oman Sultanlığının milli bayramı münasibəti ilə Sultan Əlahəzrət Qabus bin Səidi təbrik etmişdir.

**16 noyabr**
- Sumqayıt şəhərinə səfərə gəlmişdir.
- Ümummilli Lider Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Sumqayıt Kimya Sənaye Parkının rezidenti inşaat kimyəviləri zavodunun açılışında iştirak etmişdir.
- Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan «Baku Non Ferrous and Foundry Company» MMC-nin əlvan metallar və ferroərintilər zavodunun açılışında iştirak etmişdir.
- Sumqayıta səfəri çərçivəsində Dəmir Yolu Vağzalı Kompleksinin açılışında da iştirak etmişdir.
- Sumqayıt Kimya Sənaye Parkında «Tabaterra» Q-apalı Səhmdar Cəmiyyətinin tütün məmulatları istehsalı fabrikinin açılışında iştirak etmişdir.
- Sonra Sumqayıt Kimya Sənaye Parkındakı müəssisələrin kollektivlərinin nümayəndələri ilə görüşmüş və görüşdə çıxış etmişdir.

**18 noyabr**
- Belarus Respublikasına rəsmi səfərə gəlmişdir.

**19 noyabr**
- Belarus Respublikasına rəsmi səfəri çərçivəsində Minsk şəhərindəki «Qələbə» meydanında 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin şərəfinə ucaldılmış abidəni ziyarət etmiş, abidə önünə əklil qoymuşdur.
- Minskdə Azərbaycan Ticarət Evi ilə tanış olmuşdur.
- Rəsmi qarşılanma mərasimindən sonra Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü olmuşdur.
- Təkbətək görüş başa çatdıqdan sonra Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə hər iki tərəfin nümayəndə heyətlərinin də iştirak etdiyi geniş tərkibdə görüşü olmuşdur.
- Geniş tərkibdə görüş başa çatdıqdan sonra Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə

Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimində iştirak etmiş, «Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyanatı»nı imzalamışdır.
- Sənədlərin imzalanması mərasimindən sonra Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Sonra Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun adından onun şərəfinə verilmiş rəsmi naharda iştirak etmişdir.
- Belarus Respublikasına rəsmi səfəri başa çatmışdır.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Livan Respublikasının Prezidenti Mişel Aunu təbrik etmişdir.

**20 noyabr**
- Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Rusiya Federasiyasının Jurnalistlər İttifaqının sədri Vladimir Solovyovu qəbul etmişdir.

**21 noyabr**
- Türkmənistana rəsmi səfərə gəlmişdir.
- Aşqabadda «Xalq xatirəsi» memorial kompleksini ziyarət etmiş, «Əbədi şöhrət» abidəsinin önünə əklil qoymuşdur.
- Sonra «Vətən müqəddəsliyi» muzeyi ilə tanış olmuş, muzeyin xatirə kitabına ürək sözlərini yazmışdır.
- Aşqabadda Olimpiya Kompleksi ilə tanış olmuşdur.
- Aşqabadda Türkmən milli xalça muzeyi ilə tanış olmuş, muzeyin xatirə kitabına ürək sözlərini yazmışdır.
- Kabil şəhərində törədilmiş partlayış nəticəsində çox sayda insanın həlak olması və yaralanması ilə əlaqədar Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaniyə başsağlığı vermişdir.
- Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının ədliyyə işçilərini və hakimlərini təbrik etmişdir.

**22 noyabr**
- Rəsmi qarşılanma mərasimindən sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olmuşdur.
- Təkbətək görüş başa çatdıqdan sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə hər iki tərəfin nümayəndə heyətlərinin də iştirak etdiyi geniş tərkibdə görüşü olmuşdur.
- Geniş tərkibdə görüş başa çatdıqdan sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimində iştirak etmiş, «Birgə Bəyanat»ı imzalamışdır.
- Sənədlərin imzalanması mərasimindən sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun adından onun şərəfinə verilmiş rəsmi ziyafətdə iştirak və çıxış etmişdir.
- Türkmənistana rəsmi səfəri başa çatmışdır.
- Ölkəsinin milli bayramı – Dövlətçilik günü münasibətilə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Milorad Dodiki təbrik etmişdir.

**24 noyabr**
- Osaka şəhərinin «Ekspo 2025» sərgisini keçirmək hüququnu qazanması münasibətilə Yaponiyanın Baş naziri Şinzo Abeni təbrik etmişdir.

**26 noyabr**
- ABŞ-ın tanınmış din xadimləri ravvin Abraham Kuperi və yevangelist icmasının nümayəndəsi Conni Muru qəbul etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd uld Əbdüləzizi təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Albaniya Respublikasının Prezidenti İlir Metanı təbrik etmişdir.

**27 noyabr**
- Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Azərbaycan müəllimlərinin XV qurultayının iştirakçılarını təbrik etmişdir.

**28 noyabr**
- 90 illik yubileyi münasibətilə dövrümüzün böyük sənətkarını və tanınmış ictimai xadimi, Xalq rəssamı Tahir Salahovu təbrik etmişdir.
- Rumıniyanın birləşməsinin 100 illiyi münasibətilə Prezident Klaus Verner İohannisi təbrik etmişdir.

**29 noyabr**
- Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı, müasir Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi Tahir Salahova telefonla zəng edərək, onu 1-ci dərəcəli «Əmək» ordeni ilə təltif olunması münasibətilə təbrik etmişdir.
- Laos Xalq Demokratik Respublikasının milli bayramı – Respublika günü münasibətilə Prezident Bounyanq Volaçiti təbrik etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik günü münasibətilə Prezident Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik günü münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin Vitse-pre-

zidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktumu təbrik etmişdir.

- Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı münasibətilə Əbu-Dabi Əmirliyinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı təbrik etmişdir.

**30 noyabr**

- Gürcüstanın Prezidenti vəzifəsinə yeni seçilməsi münasibətilə Prezident xanım Salome Zurabişvilini təbrik etmişdir.

## Dekabr

**1 dekabr**

- Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa başsağlığı vermişdir.
- Atası - Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar Amerika Birləşmiş Ştatlarının 43-cü Prezidenti Corc Uoker Buşa başsağlığı vermişdir.

**3 dekabr**

- Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovu qəbul etmişdir.
- CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Tailand Krallığının milli bayramı münasibətilə Tailandın Kralı Əlahəzrət Maha Vaciralonqkorn Bodindradebayavaranqkunu təbrik etmişdir.
- Finlandiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident Sauli Niinistönü təbrik etmişdir.

**4 dekabr**

- Amerika Birləşmiş Ştatlarının müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva ilə birlikdə Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi - "Bakutel-2018" ilə tanış olmuşdur.
- Sonra Rusiyanın «Rossiya-24» televiziya kanalına müsahibə vermişdir.
- Daha sonra məşhur futbolçu, fransız Robert Pireslə görüşmüşdür.
- XXIV beynəlxalq «Bakutel-2018» telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgi və konfransının iştirakçılarını təbrik etmişdir.

**5 dekabr**

- Avstriya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksandr Bayerlin etimadnaməsini qəbul etmişdir.
- Koreya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Opun etimadnaməsini qəbul etmişdir.
- Əfqanıstan İslam Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xeyrullah Spelenayın etimadnaməsini qəbul etmişdir.
- Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahova 1-ci dərəcəli "Əmək" ordenini təqdim etmişdir.
- Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinə gələrək ABŞ-ın 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

**6 dekabr**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Rusiyaya işgüzar səfərə gəlmişdir.
- Prezident Kitabxanasında keçirilən MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmişdir.
- Sonra MDB dövlət başçılarının qeyri-rəsmi naharında iştirak etmişdir.
- Daha sonra Sankt-Peterburq Dövlət Akademik Mariinski Teatrında MDB dövlət başçıları ilə birlikdə Pyotr Çaykovskinin "Şelkunçik" baletinə baxmışdır.

**7 dekabr**

- Burkina-Fasonun milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident Rok Mark Kristian Kaboreni təbrik etmişdir.

**10 dekabr**

- Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Arkadi Dvorkoviçi qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Keniya Respublikasının Prezidenti Uhuru Kenyattanı təbrik etmişdir.

**11 dekabr**

- NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı (SACEUR) Körtis Skaparrottinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı Qasım Rzayinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**12 dekabr**

- Ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət etmiş, Ulu Öndərin məzarı önünə əklil qoymuşdur.
- Sonra ailə üzvləri ilə birlikdə Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri qoymuşdur.
- Daha sonra tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin xatirələrini yad edərək məzarları üstünə gül dəstələri düzmüşdür.
- Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**13 dekabr**

- Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak və çıxış etmişdir.
- Sonra Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2018-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatların təqdimolunması mərasimində iştirak etmişdir.
- Daha sonra 2018-ci ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim etmişdir.
- Sonda Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova ona xatirə hədiyyələri təqdim etmişdir.
- Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul etmişdir.
- Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yeni inşa olunmuş Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.
- Ankarada baş vermiş dəmir yolu qəzası nəticəsində insan tələfatı və yaralananlar ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana başsağlığı vermişdir.
- Bəhreyn Krallığının milli bayramı münasibətilə Bəhreynin Kralı Əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəni təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevi təbrik etmişdir.

**14 dekabr**

- Birinci xanım Mehriban Əliyeva və qızı Leyla Əliyeva ilə birlikdə Bakı Ekspo Mərkəzində Azərbaycanın və SSRİ-nin xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı, dünya şöhrətli rəssam Tahir Salahovun 90 illik yubileyinə həsr edilən sərgi ilə tanış olmuşdur.
- Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul etmişdir.
- İran İslam Respublikasının informasiya və milli təhlükəsizlik naziri Seyid Mahmud Ələvini qəbul etmişdir.
- Qətər Dövlətinin milli bayramı münasibətilə Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Tanini təbrik etmişdir.
- Qətər Dövlətinin milli bayramı münasibətilə Qətər Dövləti Əmirinin müavini Əlahəzrət Şeyx Abdullah bin Həməd Al Tanini təbrik etmişdir.

**17 dekabr**

- Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində iştirak etmişdir.
- Sonra hərbçilər və onların ailə üzvləri ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- Daha sonra hərbçilərin bir qrupuna mənzillərin orderlərini təqdim etmişdir.

**18 dekabr**

- Səhiyyə Nazirliyinin Bakıdakı Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur.
- Sonra müəssisənin kollektivi ilə görüşmüş və görüşdə çıxış etmişdir..
- Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusunun əsaslı təmir və yenidənqurmadan sonra binada yaradılan şəraitlə tanış olmuşdur.
- Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının V qurultayının iştirakçılarını təbrik etmişdir.

**19 dekabr**

- Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**20 dekabr**

- Azərbaycan tələbələrinin II qurultayının iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Təvəllüd Günü münasibətilə Yaponiyanın İmperatoru Əlahəzrət Akihitonu təbrik etmişdir.

**21 dekabr**

- Heydər Əliyev adına Bakı neft emalı zavodunda aparılan yenidənqurma və modernləşdirmə layihəsinin birinci mərhələsi çərçivəsində inşa edilən yeni bitum qurğusunun və maye qazdoldurma məntəqəsinin açılış mərasimində iştirak etmişdir.
- Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışında iştirak etmişdir.

**24 dekabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksinin açılış mərasimində iştirak etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə məcburi köçkünlərlə görüşmüş və görüşdə çıxış etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə "Bakı Ağ Şəhər"də 110 kilovoltluq "Ağ Şəhər-2" və "Bakıxanov" yarımstansiyalarının, Birinci Fəvvarələr küçəsinin açılışında, eləcə də "Ağ Şəhər" piyada körpüsünün və Zaman meydanının təməlqoyma mərasimində iştirak etmiş, tikintisi yekunlaşan Fəvvarələr Meydanı Parkı ilə tanış olmuşdur.
- Serbiya Respublikasının Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiçi qəbul etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ona telefonla zəng edərək ad günü münasibətilə təbrik etmiş, Azərbaycan xalqının firavanlığı və tərəqqisi naminə Prezidentlik fəaliyyətində ona yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulamışdır.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ona telefonla zəng edərək ad günü münasibətilə təbrik etmiş və Prezidentlik fəaliyyətində ona uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Gürcüstanın Baş naziri Mamuka Baxtadze ona telefonla zəng edərək ad günü münasibətilə təbrik etmiş və Prezidentlik fəaliyyətində ona yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ona telefonla zəng edərək ad günü münasibətilə təbrik etmiş və Prezidentlik fəaliyyətində ona uğurlar və möhkəm cansağlığı arzulamışdır.

**25 dekabr**

- Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni tədris binasının açılışında iştirak etmişdir.
- Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Polis Akademiyasının meydanında ucaldılan abidəsi önünə gül dəstəsi qoymuşdur.
- Daha sonra xidməti istifadə üçün alınan yeni avtomobillərə baxmışdır.
- Ölkəsində baş vermiş sunami nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar ilə əlaqədar İndoneziya Respublikasının Prezidenti Coko Vidodoya başsağlığı vermişdir.
- Milli birliyimizin rəmzi kimi hər il geniş qeyd etdiyimiz 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə Dünya Azərbaycanlılarını təbrik etmişdir.

**26 dekabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakı şəhəri Dairəvi avtomobil yolunu Şərifzadə küçəsi ilə birləşdirən yeni yolun, həmçinin Mənzil İnşaatı Dövlət Agentliyinin Yasamal yaşayış kompleksinin açılışında iştirak etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Agentliyin yeni yaşayış kompleksinin ümumi sahəsi 15,4 hektar olacaq növbəti mərhələsinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Yasamal rayonunun Yeni Yasamal yaşayış massivi, Məhəmməd Xiyabani küçəsində yerləşən istirahət parkında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur.

**27 dekabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Sumqayıt şəhərində qaçqın və məcburi köçkün ailələri üçün inşa edilən yaşayış binaları kompleksinin açılışında iştirak etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə mənzillərdə yaradılan şəraitlə tanış olmuşdur.
- Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzinin açılışında iştirak etmişdir.

**28 dekabr**

- Böyükşor gölünün üzərində inşa edilən və paytaxtın Ziya Bünyadov prospekti ilə Balaxanı-Binəqədi avtomobil yolunu birləşdirən ümumşəhər əhəmiyyətli yeni avtomobil yolunun açılışında iştirak etmişdir.
- Türkiyə Respublikasının daxili işlər naziri Süleyman Soylunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sudan Respublikasının Prezidenti Ömər Həsən Əhməd əl-Bəşiri təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Azadlıq günü münasibətilə Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri Raul Kastro Rusu Migel Dias-Kanel Bermudesi təbrik etmişdir.

**28 dekabr**

- Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Haməd bin Abdullah bin Səud bin Xudeyrin etimadnaməsini qəbul etmişdir.
- Braziliya Federativ Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruzun etimadnaməsini qəbul etmişdir.

**31 dekabr**

- Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

### *Çex Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Ekertin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Çex Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Ekertin etimadnaməsini qəbul edib.

Fəxri qarovul dəstəsinin qarşısından keçən səfir Milan Ekert etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan-Çexiya ikitərəfli münasibətlərinin səviyyəsindən və ölkələrimiz arasında qarşılıqlı fəaliyyətdən məmnunluğunu ifadə etdi, eyni zamanda, əlaqələrimizin Azərbaycan-Avropa İttifaqı və Azərbaycan-NATO əməkdaşlığı baxımından da önəmini vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, ölkələrimiz həyata keçirilən əməkdaşlığın digər sahələrdə də yaxşı nəticə verməsində maraqlıdır və dövlətimizin başçısı buna nail olunacağına əminliyini ifadə etdi. Prezident İlham Əliyev bu baxımdan parlamentlərarası, hökumətlərarası, biznes icmaları arasında əlaqələrin və qarşılıqlı səfərlərin bu işə yaxşı töhfə verə biləcəyini vurğuladı. Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Fövqəladə və səlahiyyətli səfir Milan Ekert ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi, bu il həm Azərbaycanda, həm də Çexiyada respublika yaranmasının 100 illiyinin qeyd edilməsinin əlamətdar hadisə olduğunu dedi. Səfir vurğuladı ki, ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasından keçən 25 il ərzində ikitərəfli münasibətlərimizin inkişafında böyük nəticələr əldə edilib. Milan Ekert səfirlik fəaliyyəti dövründə əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

### *Müqəddəs Taxt-Tacın ölkəmizdəki apostol nunsisi arxiyepiskop Pol Fitzpatrik Rasselin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Müqəddəs Taxt-Tacın ölkəmizdəki apostol nunsisi arxiyepiskop Pol Fitzpatrik Rasselin etimadnaməsini qəbul edib.

Fəxri qarovul dəstəsinin qarşısından keçən arxiyepiskop Pol Fitzpatrik Rassel etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev apostol nunsi ilə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Vatikan arasında münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğulayaraq qeyd etdi ki, biz bu günə kimi Roma Papası Fransiskin Azərbaycana səfərinin təəssüratı altındayıq. Prezident İlham Əliyev həmin səfər zamanı Roma Papası Fransisklə keçirdiyi görüşləri, eləcə də özünün Vatikana səfərini məmnunluqla xatırladı. Roma Papası Fransiskin ölkəmizə səfərini tarixi hadisə kimi dəyərləndirən Prezident İlham Əliyev onun ölkəmizdə olarkən Azərbaycanla yaxından tanışlığının, insanlarla təmasda olmasının, eləcə də Azərbaycandakı dini icmaların nümayəndələri ilə görüşünün önəmini qeyd etdi. Prezident İlham Əliyev, eyni zamanda, bu yaxınlarda Roma Papası Fransiskin xanım Mehriban Əliyevanı qəbul etdiyinə görə minnətdarlığını çatdırdı və qeyd etdi ki, bu görüş xanım Mehriban Əliyevada dərin təəssürat hissi yaradıb. Prezident İlham Əliyev salamlarını və ən xoş arzularını Roma Papası Fransiskə çatdırmağı xahiş etdi. Münasibətlərimizin yaxşı tarixə malik olduğunu və bir çox sahələri əhatə etdiyini deyən Prezident İlham Əliyev bildirdi ki, mədəniyyət sahəsindəki əlaqələrimiz xüsusi əhəmiyyət daşıyır və bu əməkdaşlığımız həm ikitərəfli münasibətlərin yaxşı əlamətidir, eyni zamanda, mədəniyyətlərarası və sivilizasiyalararası qlobal prosesin mühüm elementlərindən biridir. Biz bu əməkdaşlığı yüksək qiymətləndiririk və əminik ki, əlaqələrimiz bundan sonra da möhkəmlənəcək. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, arxiyepiskop Pol Fitzpatrik Rassel fəaliyyəti müddətində münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcək.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən arxiyepiskop Pol Fitzpatrik Rassel Vatikan ilə Azərbaycan arasında çox yaxşı münasibətlərin mövcud olduğunu vurğuladı. O, bir neçə həftə bundan əvvəl Roma Papası Fransisklə görüşdüyünü qeyd edərək bildirdi ki, həmin görüş zamanı Papa Fransisk Azərbaycana səfərini məmnunluqla xatırladı və eyni zamanda, xoş hisslərlə xanım Mehriban Əliyevanın səfərini gözlədiklərini qeyd etdi.

Dövlətimizin başçısı bildirdi ki, xanım Mehriban Əliyeva Papa Fransisklə görüşünün çox səmimi və dostluq şəraitində keçdiyini deyib. Prezident İlham Əliyev bunun əməkdaşlığımızın yaxşı göstəricisi olduğunu qeyd edərək bildirdi ki, Azərbaycan-Vatikan əlaqələri

bir daha dünyaya nümayiş etdirir ki, müxtəlif coğrafi ərazilərdə yaşayan insanlar, fərqli mədəniyyətlərin, ayrı-ayrı dinlərin nümayəndələri bir-biriləri ilə necə uğurla əməkdaşlıq edə və dostluq əlaqələri qura bilərlər.

Arxiyepiskop Pol Fitzpatrik Rassel Prezident İlham Əliyevin fikirlərinə tam şərik olduğunu bildirərək, öz növbəsində, qeyd etdi ki, Vatikan ilə Azərbaycan arasında əlaqələr, sözün əsl mənasında, bir nümunədir.

### *ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayerin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayeri qəbul edib.

Mark Şnayer Prezident İlham Əliyevlə Bakıda və ABŞ-da keçirdikləri görüşləri məmnunluqla xatırladı.

Söhbət zamanı Azərbaycanda müxtəlif xalqların və etnik qrupların, o cümlədən yəhudi icması nümayəndələrinin dinc yanaşı və əmin-amanlıq şəraitində yaşamaları üçün hər cür şəraitin yaradıldığı qeyd olundu, onların Azərbaycanın ictimai həyatında fəal iştirak etdiyi vurğulandı.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi bildirildi, ABŞ Etnik Anlaşma Fondunun bu işə töhfə verdiyi qeyd olundu.

### *ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin yeni təyin olunmuş müavini Corc Kentin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin yeni təyin olunmuş müavini Corc Kenti qəbul edib.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi.

Dövlətimizin başçısı ABŞ Prezidenti Donald Trampın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və Cənub Qaz Dəhlizinin rəsmi açılışı ilə bağlı göndərdiyi məktublarda Azərbaycan-ABŞ münasibətləri ilə əlaqədar ifadə etdiyi fikirlərə və xoş sözlərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı təhlükəsizlik sahəsində əməkdaşlığa toxunuldu, ölkəmizin Əfqanıstanda sülhməramlı əməliyyatlara töhfəsi və ikitərəfli əsasda Əfqanıstan hökumətinə verdiyi dəstək yüksək qiymətləndirildi.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə olundu, enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, ABŞ-ın "Cənub Qaz Dəhlizi” layihəsinə verdiyi dəstək xüsusi qeyd olundu.

Söhbət zamanı, həmçinin qeyri-neft sektoru, o cümlədən ticarət, informasiya texnologiyaları, sərmayə qoyuluşu, kənd təsərrüfatı sahələrində əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıldı.

### *Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkmənistan arasında əlaqələrin zəngin tarixə malik olduğunu bildirdi və bu gün ikitərəfli münasibətlərimizin bütün sahələri əhatə edərək uğurla inkişaf etdiyini dedi. Ölkələrimizin ikitərəfli və çoxtərəfli formatda fəal əməkdaşlıq həyata keçirdiyini vurğulayan Prezident İlham Əliyev son illər birgə səylər nəticəsində əlaqələrin yeni səviyyəyə yüksəldiyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Türkmənistan arasında siyasi sahədə fəal qarşılıqlı fəaliyyətin mövcud olduğunu dedi, ölkələrimizin digər istiqamətlərdə, o cümlədən nəqliyyat, energetika, mədəniyyət sahələrində də əlaqələrinin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bütün bunlar bizim uzun əsrlik qardaşlıq əlaqələrimizə əsaslanır və biz münasibətlərimizin gələcəyinə nikbinliklə baxırıq. Dövlətimizin başçısı Azərbaycan ilə Türkmənistan və eləcə də xalqlarımız arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirərək Rəşid Meredovun səfərinin qardaşlıq münasibətlərimizin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyini dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov, ilk növbədə, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarını və ehtiramını dövlətimizin başçısına çatdırdı. Xarici işlər naziri Rəşid Meredov bildirdi ki, Türkmənistan dövlətinin başçısı Prezident İlham Əliyevi Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik etmək barədə tapşırıq verib və o, Qurbanqulu Berdiməhəmmədovun təbrik məktubunu dövlətimizin başçısına təqdim etdi.

Göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını və ən səmimi arzularını Türkmənistan Prezidentinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın və Türkmənistanın dövlət başçıları arasında mövcud olan dostluq əlaqələri ölkələrimizin münasibətlərinin inkişafında mühüm amildir.

Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### *İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq yüksək səviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsindən və bütövlükdə siyasi əlaqələrimizin çox yüksək səviyyədə olmasından məmnunluğunu bildirdi. "İqtisadi sahədə İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır", - deyən dövlətimizin başçısı bir çox İtaliya şirkətlərinin Azərbaycanda müxtəlif layihələr icra etdiyini və onlardan birinin bu il İtaliya və Azərbaycan prezidentlərinin iştirakı ilə ölkəmizdə açıldığını bildirdi. Prezident İlham Əliyev ölkələrimizin energetika sahəsində əməkdaşlıq etdiyini, mədəniyyət sahəsində əlaqələrimizin gözəl nəticələr verdiyini dedi. Dövlətimizin başçısı münasibətlərimizin hərtərəfli inkişafı üçün parlamentlərarası əlaqələrin böyük rol oynadığını vurğulayaraq bu əməkdaşlığın həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla həyata keçirildiyini bildirdi. Prezident İlham Əliyev əlaqələrimizin möhkəmlənməsində ölkələrimiz tərəfindən qəbul edilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin rolunu qeyd etdi. Dövlətimizin başçısı İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin strateji tərəfdaşlıq əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.

Qonaqpərvərliyə və xoş sözlərə görə minnətdarlığını bildirən İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati dedi: "Biz bilirik ki, Azərbaycan həm ənənə, həm də mədəniyyət baxımından çox zəngin ölkədir. Təbii ki, mənim səfərim iki ölkə arasında olan dostluq əlaqələrinin bir daha təsdiqidir".

İkitərəfli münasibətlərimizin inkişafında ölkələrimiz arasında həyata keçirilən yüksək səviyyəli səfərlərin önəminə toxunan İtaliya Senatının sədri öz səfərinin də əlaqələrimizin inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirdi. Ölkələrimiz və xalqlarımız arasında bir çox oxşarlığın olduğunu bildirən italiyalı qonaq dedi: "Azərbaycanda müxtəlif millətlərin dinc birgə yaşaması onu göstərir ki, İtaliya ilə Azərbaycan bu sahədə də uğurlu əməkdaşlıq həyata keçirə bilərlər".

Görüşdə sənaye, enerji, neft-kimya, mədəniyyət, infrastruktur, kənd təsərrüfatı, ekologiya sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkli çəkdirildi.

### *Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janqın qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janqı qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında əməkdaşlıq səviyyəsindən çox məmnun olduğunu qeyd edərək bankın Azərbaycanın iqtisadi layihələrinə göstərdiyi dəstəyin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev bu layihələr sırasında böyük önəm daşıyan Cənub Qaz Dəhlizinə Asiya İnkişaf Bankı tərəfindən 1 milyard dollardan çox kredit ayrıldığını qeyd etdi və bankın bu layihəyə maliyyə dəstəyi göstərən ilk beynəlxalq bank olduğunu xüsusi vurğuladı. Dövlətimizin başçısı bununla yanaşı, bank tərəfindən bir sıra digər infrastruktur layihələrinə, o cümlədən elektrik enerjisi layihələrinə təqribən 250 milyon dollar, dəmir yolu layihələrinə 400 milyon dollar həcmində kreditlərin ayrılmasını yüksək qiymətləndirdi.

2016-cı ildə makroiqtisadi sabitliyin dəstəklənməsi məqsədilə bankın qısa müddətdə ayırdığı 500 milyon dollar məbləğində kontrsiklik krediti ölkəmizin artıq bu il vaxtından xeyli əvvəl qaytardığını vurğulayan Prezident İlham Əliyev Azərbaycanın Asiya İnkişaf Bankının etibarlı tərəfdaşı olduğunu nümayiş etdirdiyini dedi. Dövlətimizin başçısı Azərbaycanın Asiya İnkişaf Bankı ilə 2019-2023-cü illər üçün əməkdaşlıq strategiyasının hazırlanmasının əhəmiyyətini qeyd edərək bankın özəl sektora dəstək verilməsi istiqamətində fəaliyyətinin önəmini vurğuladı. Prezident İlham Əliyev Asiya İnkişaf Bankının istiqrazlarının Azərbaycanda manatla buraxılması təşəbbüsünü müsbət qiymətləndirərək həmin vəsait hesabına Azərbaycanda özəl sektor layihələrinin həyata keçirilməsi üçün kreditlər veriləcəyini dedi. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan irriqasiya sistemlərinin qurulmasında yeni, müasir texnologiyaların tətbiqi məsələləri ilə bağlı Asiya İnkişaf Bankının dəstəyində maraqlıdır.

Dövlətimizin başçısı Asiya İnkişaf Bankının regional əməkdaşlıqda rolunu qeyd edərək bu qurumun gələcəkdə ölkələr arasında nəqliyyat və logistika sahələrində əlaqələrin qurulması işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.

Əməkdaşlığımızın uğurlu inkişafına toxunan Prezident İlham Əliyev Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 2015-ci ildə Azərbaycanda keçirilən 48-ci illik toplantısının əlaqələrimizin genişlənməsində mühüm hadisə olduğunu bildirdi və Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janqın səfərinin görülən işlərin və gələcək layihələrin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Vençay Janq Asiya İnkişaf Bankının prezidenti Takehiko Nakaonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Asiya İnkişaf Bankının vitse-prezidenti bildirdi ki, Azərbaycan 1999-cu ildən bu banka qoşulduğu vaxtdan keçən dövr ərzində əməkdaşlığımız uğurla inkişaf edir və o, bu əməkdaşlığı böyük tərəfdaşlıq əlaqələri kimi dəyərləndirdi. Vençay Janq bu dövrdə Asiya İnkişaf Bankı tərəfindən Azərbaycana 4 milyard dollardan yuxarı kreditlər və maliyyə zəmanətləri verildiyini və bundan başqa, texniki dəstəyin göstərildiyini qeyd edərək əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğuladı. O, bu baxımdan bankın 2019-2023-cü illər üçün əməkdaşlıq strategiyasının işlənib hazırlanmasının önəmini vurğuladı.

Azərbaycanın son illərdə makroiqtisadi sabitliyin gücləndirilməsi istiqamətində əldə etdiyi nailiyyətləri vurğulayan Vençay Janq dayanıqlı iqtisadi inkişafın təmin edilməsinə yönəlmiş Strateji Yol Xəritəsinin həyata keçirilməsinə Asiya İnkişaf Bankı tərəfindən hərtərəfli dəstək verilməsinə hazır olduqlarını bildirdi.

Asiya İnkişaf Bankının prezidenti Takehiko Nakaonun salamlarına görə minnətdarlığını bildirən Azərbaycan Prezidenti İlham Əliyev onun da salamlarını bankın prezidentinə çatdırmağı xahiş etdi.

### *Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevi qəbul edib.

Dövlətimizin başçısı Vladimir Kolokoltsevin Azərbaycana səfərini əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirərək, iki ölkənin Daxili İşlər nazirlikləri arasında qarşılıqlı fəaliyyətin yüksək səviyyədə olduğunu qeyd etdi. Azərbaycan ilə Rusiyanın dost ölkələr olduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimizin bütün istiqamətlərdə fəal əməkdaşlıq həyata keçirdiyini bildirdi. Dövlətimizin başçısı bu baxımdan ölkələrimizin Daxili İşlər nazirlikləri arasında çox səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu ifadə etdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərə toxunaraq, sentyabr ayında özünün Rusiya Federasiyasına rəsmi səfərini, sonra isə Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfərini ölkələrimiz arasında mövcud olan qarşılıqlı fəaliyyətin xarakterinin və etimadın əyani nümunəsi kimi dəyərləndirdi. Dövlətimizin başçısı qeyd etdi ki, bu səfərlər zamanı digər məsələlərlə yanaşı, hüquq-mühafizə orqanları arasında əlaqələr də müzakirə edilib və bu sahədə də əməkdaşlıqdan məmnunluq ifadə olunub.

Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsev qəbula görə minnətdarlığını bildirdi. O qeyd etdi ki, bu ilin iyul ayında MDB ölkələrinin Daxili İşlər Nazirləri Şurasının Bakıda keçirilən iclasının iştirakçılarını qəbul edən zaman Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən söylənilən xoş sözlər tədbir iştirakçılarında böyük məmnunluq hissi doğurub.

Ölkələrimizin ikitərəfli münasibətlərinə toxunan Vladimir Kolokoltsev bildirib ki, dövlət başçıları arasında son bir ildə 5 görüşün keçirilməsi bu münasibətlərin inkişaf strategiyasının bundan sonra da möhkəmləndirilməsinin vacib olduğunu göstərir. Eyni zamanda, Aktau şəhərində Xəzəryanı dövlətlərin başçıları tərəfindən imzalanmış sənədlər də hüquq-mühafizə orqanlarının qarşılıqlı fəaliyyəti üçün bir təkan rolu oynayıb.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

### *ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonu qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, ABŞ ATƏT-in Minsk qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yollarının axtarılmasında mühüm rol oynayır. Dövlətimizin başçısı qeyd etdi ki, uzun illərdir Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri Ermənistan tərəfindən işğal edilib və bu işğalın nəticəsində 1 milyona yaxın soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistanın bu işğalı beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasına əyani bir sübutdur. BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması ilə bağlı müvafiq qətnamələr qəbul edib. Bu qətnamələrə məhəl qoymayan Ermənistan isə status-kvonun saxlanılmasına və beləliklə, vəziyyətin dondurulmasına çalışır ki, bu da qəbuledilməzdir. Dövlətimizin başçısı qeyd etdi ki, ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır və Azərbaycan ümid edir ki, Minsk qrupunun həmsədr ölkələrinin fəaliyyəti praktiki nəticələr verəcəkdir.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edir və ölkəmiz bu yaxınlarda bu əməliyyatlarda iştirak edən hərbçilərinin sayını 120 nəfərə qədər artırıb ki, bu da

Qətiyyətli Dəstək missiyasına töhfəmizin yaxşı göstəricisidir. Azərbaycan, eyni zamanda, bu əməliyyatlara mühüm nəqliyyat və logistik dəstəyi də verir.

Digər sahələrdə əlaqələrə toxunan dövlətimizin başçısı qeyd etdi ki, ABŞ-ın bir çox şirkətləri uzun illərdir investor və podratçı qismində Azərbaycanda enerji və qeyri-enerji sektorlarında uğurlu fəaliyyət göstərirlər. Energetika sahəsində Azərbaycan ilə ABŞ arasında yüksək səviyyədə əməkdaşlıq həyata keçirilir ki, bunun da nəticəsində nəhəng qlobal layihələr reallaşır. Bu da öz növbəsində regional inkişafa öz töhfəsini verir. Prezident İlham Əliyev bildirdi ki, bu layihələr sırasında "Cənub Qaz Dəhlizi" layihəsi böyük önəm daşıyır. 40 milyard dollar həcmində və Avropanın ən böyük infrastruktur layihəsi olan bu layihə başa çatmaq üzrədir və bu, Avropanın enerji təhlükəsizliyinin təmin olunması işinə və regional sabitliyə öz töhfəsini verəcəkdir. Dövlətimizin başçısı "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçirilməsində ABŞ hökumətinin verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Con Boltonun ölkəmizə səfərinə Azərbaycan tərəfinin böyük önəm verdiyini qeyd edərək bu səfərin ölkələrimiz arasında tərəfdaşlıq əlaqələrinin möhkəmlənməsi işinə xidmət edəcəyinə əmin olduğunu bildirdi.

Qəbula görə minnətdarlığını bildirən ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton Azərbaycana ilk səfərindən məmnunluq hissi keçirdiyini qeyd etdi və ölkəmizə bundan sonra da səfər edəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycanla münasibətlərin ABŞ üçün yüksək prioritet təşkil etdiyini vurğulayan Con Bolton siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə də əlaqələrin önəminin artdığını bildirdi. Azərbaycanın dünyanın çox strateji hissəsində yerləşdiyini qeyd edən Con Bolton Azərbaycana səfəri zamanı əlaqələrimizin hazırkı vəziyyəti, beynəlxalq sülhə və təhlükəsizliyə təhdidlərlə bağlı məsələləri müzakirə etmək niyyətində olduqlarını dedi. İqtisadi əməkdaşlığa toxunan Con Bolton qeyd etdi ki, Azərbaycanın beynəlxalq enerji məsələlərində aparıcı rolu nəzərə alınaraq ABŞ hökuməti Azərbaycanla enerji sahəsində, eləcə də başqa istiqamətlərdə, o cümlədən beynəlxalq terrorizm, insan alverinə qarşı mübarizə və digər sahələrdə əməkdaşlığı daha da genişləndirmək əzmindədir. Con Bolton Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qeyd etdi ki, ABŞ tərəfi bu məsələnin Azərbaycan tərəfi üçün ən yüksək prioritet təşkil edən məsələ olduğunu yaxşı anlayır və bildirdi ki, onun səfərinin əsas məqsədlərindən biri də bu münaqişənin həlli ilə bağlı vəziyyətin Azərbaycan tərəfindən necə dəyərləndirilməsi barədə daha ətraflı məlumat almaqdan ibarətdir.

Söhbət zamanı Azərbaycan ilə ABŞ arasında strateji əməkdaşlığın müxtəlif istiqamətləri ilə bağlı məsələlər müzakirə edildi, ölkələrimiz arasında gələcəkdə də uğurlu əməkdaşlığın həyata keçiriləcəyinə əminlik ifadə olundu.

***BMT baş katibinin müavini Rəşid Xalikov ilə görüşü***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də BMT baş katibinin müavini Rəşid Xalikov ilə görüşüb.

BMT-nin baş katibi Antonio Quterreşin salamlarını və xoş arzularını dövlətimizin başçısı İlham Əliyevə çatdıran Rəşid Xalikov Bakı Humanitar Forumunun əhəmiyyətindən bəhs etdi, bu tədbirin beynəlxalq əməkdaşlığa mühüm töhfələrindən danışdı.

Prezident İlham Əliyev BMT baş katibinin müavini Rəşid Xalikovun Forumda iştirakına və çıxışına görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı İlham Əliyev Rəşid Xalikovun Forumda iştirakının və çıxışının BMT-nin bu tədbirə böyük önəm verməsinin göstəricisi olduğunu vurğuladı.

Azərbaycan Prezidenti baş katib Antonio Quterreş ilə ötən il BMT Baş Assambleyası çərçivəsində görüşünü məmnunluqla xatırladı.

Dövlətimizin başçısı BMT baş katibinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarının Antonio Quterreşə çatdırılmasını xahiş etdi.

Görüşdə Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

***Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodetsin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodetsi qəbul edib.

Dövlətimizin başçısı Rusiya Prezidenti Vladimir Putinin VI Bakı Beynəlxalq Humanitar Forumuna göndərdiyi təbrik məktubuna görə minnətdarlığını bildirdi və orada qeyd olunan fikirlərin önəmini vurğuladı. Prezident İlham Əliyev Rusiyanın bu tədbirdə belə geniş tərkibdə təmsil olunmasından məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı bildirdi ki, Rusiya Prezidenti ilə son görüşləri zamanı ikitərəfli münasibətlərin müxtəlif sahələri, o cümlədən bu Forumla bağlı məsələlər də müzakirə olundu və əməkdaşlığımızın bütün istiqamətlərdə, eləcə də humanitar sahədə inkişafından məmnunluq ifadə edildi. Dövlətimizin başçısı qeyd etdi ki, qonşu və dost ölkələr olan Azərbaycan ilə Rusiyanın bu sahədə əlaqələri nümunəvi xarakter daşıyır və humanitar əməkdaşlıq məsələsi demək olar ki, dövlət başçıları arasında keçirilən bütün görüşlərin gündəliyində durur.

Prezident İlham Əliyev bildirdi ki, siyasi sahədə əlaqələr də uğurla inkişaf edir. Bu baxımdan dövlətimizin başçısı bir aydan az bir müddətdə özünün Rusiyaya rəsmi səfəri və Vladimir Putinin də Azərbaycana səfərinin həyata keçirilməsinin əlaqələrimizin yüksək səviyyəsinin göstəricisi olduğunu qeyd etdi.

Forumun bir daha ölkələrimiz arasında yaxın əlaqələrin mövcud olduğunu nümayiş etdirdiyini deyən Prezident İlham Əliyev bu tədbirdə demək olar ki, dünya birliyinin yarısının təmsil olunmasını Foruma olan böyük diqqətin təzahürü kimi qiymətləndirdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodets ölkəmizin, şəxsən Prezident İlham Əliyevin Humanitar Foruma göstərdiyi bu cür diqqətə görə minnətdarlığını bildirdi. Bu tədbirin iki ölkənin dövlət başçıları tərəfindən irəli sürülmüş təşəbbüs olduğunu vurğulayan qonaq forumdan-foruma iştirakçıların sayının artdığını və gündəliyin daha da genişləndiyini vurğuladı. O qeyd etdi ki, bu Forumda müzakirə olunan məsələlərin gündəlik həyatda reallaşması böyük önəm daşıyır.

Daha sonra xanım Olqa Qolodets vurğuladı ki, həm Azərbaycan, həm də Rusiya davamlı olaraq tolerantlıq siyasətinin həyata keçirilməsi və milli mədəniyyətlərin vəhdət şəklində inkişaf etdirilməsi baxımından dünyaya bir nümunədirlər. O, ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirərək Forumun humanitar sahədə əməkdaşlıq işinə böyük töhfə verdiyini bildirdi.

### *Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Anatoli Torkunovun qəbulu*

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Anatoli Torkunovu qəbul edib.

Görüşdə VI Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyəti vurğulandı, bu tədbirin beynəlxalq əməkdaşlığa mühüm töhfə verdiyi qeyd edildi.

Prezident İlham Əliyev Anatoli Torkunovun Forumda iştirakından məmnunluğunu bildirdi.

Rektor Anatoli Torkunov Forumun dünyada humanitar əlaqələrin inkişafına töhfəsini vurğulayaraq ölkəmizə xoş duyğularla gəldiyini və bu mötəbər tədbirdə iştirak etdiyini dedi.

### *ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrini qəbul edib.

Prezident İlham Əliyev ISESCO-nun baş direktoruna Forumda iştirakına və məzmunlu çıxışına görə təşəkkür etdi.

Əbdüləziz bin Osman əl-Tuveycri Bakı Humanitar Forumunun beynəlxalq əhəmiyyətindən bəhs edərək bildirdi ki, bu Forum çox gözəl və səmərəli nəticələri olan platformadır.

Görüşdə Azərbaycan ilə ISESCO arasında uzun illər ərzində uğurlu, səmərəli əməkdaşlığın qurulduğu qeyd edildi, əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

Prezident İlham Əliyev ISESCO-nun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyinə davamlı dəstəyinə görə minnətdarlığını bildirdi.

Əbdüləziz bin Osman əl-Tuveycri Azərbaycanın ISESCO-nun baş konfransına rəhbərlik etdiyi 3 ilə dair baş direktorun hesabatı barədə dövlətimizin başçısına məlumat verdi. Bildirdi ki, ölkəmizin qurumun baş konfransına rəhbərlik etdiyi dövrdə həyata keçirilən uğurlu işlər bu hesabatda əksini tapıb.

### *UNESCO-nun baş direktorunun müavini Çu Sinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də UNESCO-nun baş direktorunun müavini Çu Sini qəbul edib.

Dövlətimizin başçısı UNESCO-nun baş direktorunun müavini Çu Sinin VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirakına görə minnətdarlığını bildirdi və bunu Azərbaycan-UNESCO əməkdaşlığının yaxşı nümunəsi kimi dəyərləndirdi. Azərbaycan ilə UNESCO əlaqələrinin güclü tərəfdaşlığa və zəngin tarixə malik olduğunu qeyd edən dövlətimizin başçısı uğurlu əməkdaşlığımızın davam etməsindən məmnunluğunu bildirdi. Azərbaycanın UNESCO-nun etibarlı tərəfdaşı olduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan tərəfi ötən illər ərzində ölkəmizin tarixi, mədəni abidələrinin, UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil olan tarixi yerlərin ümumbəşəri dəyərlərə çevrilməsi işində UNESCO-nun fəaliyyətini yüksək qiymətləndirir. Dövlətimizin başçısı bildirdi ki, bütün bunlar ölkəmizin bu təşkilatla uğurlu əməkdaşlığının bariz nümunəsidir. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycanın tarixi və mədəniyyəti barədə məlumatların dünyaya yayılması ilə bağlı UNESCO tərəfindən görülən işlərə görə minnətdarlığını bildirdi.

Çu Sin, ilk növbədə, UNESCO-nun baş direktoru xanım Odri Azulenin salamlarını dövlətimizin başçısına

çatdırdı. O, VI Bakı Beynəlxalq Humanitar Forumunun böyük əhəmiyyət daşıdığını qeyd etdi və bildirdi ki, Azərbaycan mədəniyyətlərarası dialoqla bağlı bu cür tədbirlərin keçirilməsi üçün nümunəvi bir məkandır. Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb istiqamətlərində mühüm nöqtədə yerləşdiyini vurğulayan Çu Sin bu tədbirin Bakıda keçirilməsini önəmli bir hadisə kimi dəyərləndirdi. Qonaq bildirdi ki, UNESCO Azərbaycanla əməkdaşlığı yüksək qiymətləndirir və Azərbaycan dinamik fəaliyyəti ilə bu təşkilatın işinə böyük töhfə verir. Çu Sini, eyni zamanda, gələn il Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin konfransının da keçiriləcəyini qeyd edərək bu tədbirin də önəm daşıdığını bildirdi.

UNESCO-nun baş direktorunun salamlarına görə minnətdarlığını bildirən Azərbaycan Prezidenti İlham Əliyev onun da salamlarını xanım Odri Azuleyə çatdırmağı xahiş etdi.

### *Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baronun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baronu qəbul edib.

Dövlətimizin başçısı xanım Qabriela Barona VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirakına və orada çıxışına görə minnətdarlığını bildirdi.

Xanım Qabriela Baron bu tədbirə dəvət olunduğuna görə təşəkkür edərək Azərbaycana növbəti dəfə səfər etməsindən məmnunluğunu bildirdi. O qeyd etdi ki, bu tədbirdə Meksika parlamentinin deputatı olması ilə yanaşı, Parlamentlərarası İttifaqın prezidenti qismində də iştirak etməsi onun üçün böyük önəm daşıyır. Belə ki, bu təşkilat bu ilin dekabrında Azərbaycanda Gənc Parlamentarilərin V Qlobal Konfransının keçirilməsini planlaşdırır. Xanım Qabriela Baron Azərbaycanın bu mühüm tədbirə də ev sahibliyi etməsinə görə minnətdarlığını bildirdi və bunu çox yaxşı təşəbbüs kimi dəyərləndirdi.

Söhbət zamanı Bakıda keçirilən Forumun ölkələr və xalqlar arasında əlaqələrin, eləcə də parlamentlərarası əməkdaşlığın inkişafına töhfə verdiyi vurğulandı.

### *Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandininin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandinini qəbul edib.

Dövlətimizin başçısı Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandininin VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etməsindən məmnunluğunu ifadə etdi və bildirdi ki, onun bu tədbirdə iştirakı Uruqvayın həm Foruma verdiyi dəstəyin əlamətidir, həm də ikitərəfli münasibətlərimizin inkişafına olan marağının göstəricisidir. Prezident İlham Əliyev Uruqvayın Forumda yüksək səviyyədə təmsil olunmasını əməkdaşlığımızın gözəl təzahürü kimi qiymətləndirdi. Dövlətimizin başçısı bildirdi ki, ölkələrimizi bir-birinə dostluq əlaqələri bağlayır, yüksək səviyyəli qarşılıqlı səfərlər bu əlaqələri daha da gücləndirir. Azərbaycan xarici işlər nazirinin Uruqvaya səfər etdiyini qeyd edən Prezident İlham Əliyev bu səfərlərin əməkdaşlığın gələcəyi ilə bağlı fikir mübadiləsi aparmaq üçün böyük əhəmiyyət daşıdığını dedi. Qarşılıqlı səfərlərin əməkdaşlığımızın gələcəyinin müəyyənləşdirilməsi baxımından böyük önəm daşıdığını vurğulayan dövlətimizin başçısı Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandininin ölkəmizə bu səfəri zamanı ikitərəfli əlaqələrin inkişafı ilə bağlı geniş fikir mübadiləsinin aparılacağına əminliyini bildirdi.

Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandini VI Bakı Beynəlxalq Humanitar Forumuna dəvətə görə dövlətimizin başçısına minnətdarlıq etdi. O, Forumun uzun illərdir ki, mütəmadi olaraq yüksək səviyyədə keçirildiyini dedi və bu münasibətlə təbriklərini çatdırdı. Öz növbəsində, qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan Xorxe Qandini bu cür səfərlərin əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparmaq üçün geniş imkanlar yaratdığını vurğuladı.

### *Sloveniya Milli Şurasının sədri Aloyz Kovşkanın qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Sloveniya Milli Şurasının sədri Aloyz Kovşkanı qəbul edib.

Dövlətimizin başçısı Sloveniya Milli Şurasının sədri Aloyz Kovşkaya VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirakına görə minnətdarlığını bildirdi və onun səfərinin ikitərəfli münasibətlərimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Sloveniya Milli Şurasının sədri Aloyz Kovşka ölkələrimiz arasında hələ keçmişdən çox yaxşı əlaqələrin mövcud olduğunu dedi və bildirdi ki, bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün imkanlar var. O, ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı maraq doğuran sahələrin müəyyənləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldığını və gələcəkdə bu istiqamətdə işlərin görüləcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı, öz növbəsində, Azərbaycan ilə Sloveniya arasında əlaqələrin uğurla inkişaf etdiyini dedi, əlaqələrimizin inkişafında prezidentlər səviyyəsində qarşılıqlı rəsmi səfərlərin önəmini qeyd etdi və özünün Sloveniyaya rəsmi səfərini məmnunluqla xatırladı. İkitərəfli əlaqələrimizin daha da genişləndirilməsinin zəruriliyini vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında tərəfdaşlıq sahələrinin müəyyən-

ləşdirilməsinin əhəmiyyətinə toxundu və bu baxımdan qarşılıqlı ticarətin səviyyəsinin artırılmasının vacibliyini dedi. Dövlətimizin başçısı qeyd etdi ki, hər iki ölkədən olan şirkətlər Azərbaycan ilə Sloveniya arasındakı mövcud yaxşı siyasi mühitdən faydalanaraq öz fəaliyyətlərini daha da genişləndirə bilərlər.

Sloveniyada səfərdə olarkən orada Mehdi Hüseynzadənin memorialını ziyarət etdiyini məmnunluqla xatırlayan Prezident İlham Əliyev ölkələrimiz arasında humanitar əməkdaşlığın və eləcə də çox mühüm əhəmiyyət daşıyan turizmin inkişaf etdirilməsi üçün də yaxşı perspektivlərin olduğunu bildirdi.

***İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogionun qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogionu qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın yeni sahələri əhatə etməsindən məmnunluğunu bildirərək qeyd etdi ki, əgər əvvəllər iqtisadi əlaqələr enerji, investisiya, tikinti materialları sahələrində inkişaf edirdisə, hazırda tərəflər əməkdaşlıq istiqamətlərinin şaxələndirilməsində maraqlıdırlar.

İsveçrə Konfederasiyasının federal müşaviri, İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar üzrə Federal Departamentin rəhbəri Yohan N.Şnayder-Ammanın ölkəmizə builki səfərinin uğurla keçdiyini vurğulayan Prezident İlham Əliyev Mauro Dell'Ambrogionun Azərbaycana bu səfərinin də əlaqələrimizin inkişaf etdirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi. Təhsil, innovasiya istiqamətlərinin ölkəmiz üçün prioritet təşkil etdiyini deyən Prezident İlham Əliyev bu baxımdan dünən Şəki şəhərində Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 15-ci mərkəzinin açılışında iştirak etməsini məmnunluqla qeyd etdi.

İsveçrənin texnologiyalar sahəsində çox yaxşı təcrübə qazandığını vurğulayan Prezident İlham Əliyev bu sahədə də əlaqələrimizin inkişafı üçün yaxşı imkanların olduğunu dedi.

İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogio ölkəmizdə keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verərək Təhsil Nazirliyində ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığa dair Saziş imzaladıqlarını və ADA Universitetində olduqlarını məmnunluqla qeyd etdi. O, bu səfəri çərçivəsində Azərbaycan-Fransız Universitetində (UFAZ) mühazirəsi zamanı da elm və təhsil sahələrinin inkişafının və bu sahədə əməkdaşlığın önəmi barədə danışdığını dedi. Turizm sahəsində əməkdaşlığa toxunan Mauro Dell'Ambrogio İsveçrə Turizm Təşkilatı ilə Azərbaycan Turizm Agentliyi arasında imzalanan Sazişin mühüm əhəmiyyət daşıdığını vurğuladı, bu sahədə əməkdaşlığın genişləndirilməsində ölkələrimiz arasında birbaşa aviareyslərin açılmasının önəmini qeyd etdi.

Görüşdə iqtisadiyyat, turizm, təhsil, o cümlədən peşə təhsili sahələrində əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıldı.

***Türkmənistan Respublikası Nazirlər Kabineti sədrinin müavini Məmmetxan Çakıyevin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Türkmənistan Respublikası Nazirlər Kabineti sədrinin müavini Məmmetxan Çakıyevi qəbul edib.

Prezident İlham Əliyev qeyd etdi ki, dövlət başçılarının qarşılıqlı səfərləri, eləcə də beynəlxalq tədbirlər çərçivəsində mütəmadi görüşləri ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayır. Dövlətimizin başçısı, eyni zamanda, bildirdi ki, müvafiq strukturların rəhbərlərinin görüşləri də əməkdaşlığımızın genişləndirilməsi işinə öz töhfəsini verir. Prezident İlham Əliyev bu yaxınlarda Türkmənistan Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovun ölkəmizə səfəri zamanı ikitərəfli münasibətlərimizin müxtəlif aspektlərinin müzakirə edildiyini dedi. Dövlətimizin başçısı Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Məmmetxan Çakıyevın böyük nümayəndə heyəti ilə ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi, bu səfərin dostluq və qardaşlıq əlaqələrimizin möhkəmlənməsi, əməkdaşlığımızın daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.

Məmmetxan Çakıyev, ilk növbədə, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırdı. O, hökumətlərarası səviyyədə birgə fəaliyyətin həyata keçirilməsi üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Görüşdə ölkələrimizin əlverişli coğrafi mövqedə yerləşməsinin önəmi qeyd olundu, həm Azərbaycanda, həm də Türkmənistanda ən müasir nəqliyyat infrastrukturunun yaradıldığı vurğulanaraq nəqliyyat, tranzit, logistika sahələrində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu bildirildi, ölkələrimizin ixracat imkanları və tranzit yüklərin daşınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Türkmənistan Prezidentinin salamlarına görə minnətdarlığını bildirən Azərbaycan Prezidenti İlham Əliyev onun da salamlarını Qurbanqulu Berdiməhəmmədova çatdırmağı xahiş etdi.

***Mərakeş Krallığının inzibati islahatlar və dövlət qulluğu naziri Məhəmməd bin Abdelkaderin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Mərakeş Krallığının inzibati islahatlar və dövlət qulluğu naziri Məhəmməd bin Abdelkaderi qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında münasibətlərin yaxşı inkişaf etdiyini bildirərək, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində həmişə bir-birini dəstəklədiyini vurğuladı. İqtisadi, regional inkişaf sahələrində də yaxşı nəticələrin olmasının zəruriliyini qeyd edən Prezident İlham Əliyev Mərakeş Krallığının inzibati islahatlar və dövlət qulluğu naziri Məhəmməd bin Abdelkaderin Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrə müsbət təsir göstərəcəyinə və ölkəmiz haqqında daha ətraflı məlumat alması işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Mərakeş Krallığının inzibati islahatlar və dövlət qulluğu naziri Məhəmməd bin Abdelkader qeyd etdi ki, Azərbaycan Prezidenti ilə görüşü ölkələrimiz arasında mövcud olan gözəl münasibətlərin daha da inkişaf etdirilməsinin yaxşı bir nümunəsidir və siyasi iradənin təzahürüdür. Ölkəsinin də Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu deyən Məhəmməd bin Abdelkader bildirdi ki, Azərbaycan Prezidentinin səyləri və rəhbərliyi sayəsində ölkəmiz davamlı inkişafa nail olub və Azərbaycanın əldə etdiyi nailiyyətlər Mərakeş Kralı Əlahəzrət VI Məhəmməd və Mərakeş xalqı tərəfindən böyük iftixarla qəbul olunur. Qonaq, eyni zamanda, dünya əhəmiyyətli mühüm tədbirlərin, o cümlədən Bakı Humanitar Forumu, Avropa Oyunları, Avroviziya mahnı müsabiqəsi, İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda uğurla keçirilməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Mərakeş Krallığı arasında imzalanmış Memorandumun əhəmiyyətindən danışıldı, Azərbaycanın bu sahədə təcrübəsinin Mərakeşdə tətbiq olunmasının önəmi qeyd olundu. Söhbət zamanı ölkələrimiz arasında siyasi əlaqələrin çox yaxşı tarixə malik olduğu vurğulandı, iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyi qeyd edildi.

Məhəmməd bin Abdelkader bildirdi ki, Azərbaycan Mərakeşin ərazi bütövlüyünü dəstəklədiyi kimi, öz növbəsində, Mərakeş də Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.

***ATƏT-in Minsk qrupunun həmsədrlərinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popovu, ABŞ-dan olan həmsədr Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.

***Səudiyyə Ərəbistanının daxili işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında əlaqələrin çox yüksək səviyyədə olduğunu qeyd edərək, özünün Səudiyyə Ərəbistanına səfəri və səfər zamanı Kral Həzrətləri və digər rəhbər şəxslər ilə aparılan müzakirələri məmnunluqla yad etdi, bu müzakirələrin əlaqələrimizin inkişafı üçün önəmli rol oynadığını bildirdi. Prezident İlham Əliyev dedi ki, ölkələrimiz müxtəlif sahələrdə uğurlu əməkdaşlıq edir, siyasi əlaqələr çox yüksək səviyyədədir və beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəkləyir. Dövlətimizin başçısı bildirdi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Səudiyyə Ərəbistanının ədalətli və qardaşlıq hisslərinə əsaslanan mövqeyi Azərbaycanda çox böyük minnətdarlıq hissi ilə qarşılanır. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan xalqı Səudiyyə Ərəbistanının bu münaqişə və işğala görə Ermənistanla heç bir əlaqə yaratmadığını yaxşı bilir və bu, bizim dostluğumuzun, qardaşlığımızın bariz nümunəsidir.

İqtisadi sahəyə toxunan Prezident İlham Əliyev son zamanlar bu istiqamətdə inkişafla bağlı çox ciddi addımların atıldığını dedi və gələcək illərdə sərmayə qoyuluşu və ticarət dövriyyəsinin artırılması ilə əlaqədar daha geniş tədbirlərin həyata keçiriləcəyinə əminliyini ifadə etdi. Son vaxtlar Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayının dəfələrlə artdığını qeyd edən Prezident İlham Əliyev bunu dostluğumuzun növbəti təzahürü kimi dəyərləndirdi. Dövlətimizin başçısı qeyd etdi ki, ölkələrimizin təhlükəsizlik sahəsində əməkdaşlığı da yaxşı səviyyədədir. Prezident İlham Əliyev əminliyini bildirdi ki, Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səudun bu səfəri ölkələrimiz arasında əməkdaşlığın, o cümlədən Daxili İşlər nazirlikləri arasında əlaqələrin inkişafına öz töhfəsini verəcək.

Xoş sözlərə görə minnətdarlığını bildirən Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səud, ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər getdikcə inkişaf edir, müxtəlif məsələlərə dair yüksək səviyyəli koordinasiya mövcuddur. Səudiyyə Ərəbistanının Azərbaycan üçün qardaş, yaxın və strateji tərəfdaş ölkə olduğunu vurğulayan qonaq ölkələrimizin Daxili İşlər nazirlikləri arasında da əməkdaşlığın yüksək səviyyədə olduğunu dedi. Bu baxımdan qonaq Azərbaycanın daxili işlər nazirinin Səudiyyə Ərəbistanı Krallığına səfəri zamanı iki ölkə arasında təhlükəsizlik sahəsində əməkdaşlığa dair imzalanmış sazişin önəmini vurğuladı.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarına görə təşəkkür etdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına və Vəliəhdinə çatdırmağı xahiş etdi.

### *Fələstinin xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycanın Fələstin məsələsinə münasibətdə daim həmrəylik nümayiş etdirdiyini və dəstəyini əsirgəmədiyini qeyd edərək, noyabrın 5-də Bakıda keçiriləcək Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin toplantısına Azərbaycanın ev sahibliyi etməsinin bunun bariz nümunəsi olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın BMT-nin müvafiq qətnamə və qərarlarına uyğun olaraq Fələstin məsələsinin iki dövlət prinsipi əsasında həllini dəstəklədiyini və bu mövqenin beynəlxalq təşkilatlar çərçivəsində birmənalı şəkildə ifadə olunduğunu qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın İslam həmrəyliyinin gücləndirilməsinə ardıcıl surətdə töhfə verdiyini bildirdi.

Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Maliki Fələstin Prezidenti Mahmud Abbasın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycanın Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin toplantısına və əvvəlki illərdə Fələstinlə əlaqədar müxtəlif humanitar tədbirlərə ev sahibliyi etdiyi üçün Prezident İlham Əliyevə Fələstin Dövləti adından dərin minnətdarlığını bildirdi. Riad Əl-Maliki dövlətimizin başçısının 2017-ci il dekabrın 13-də İstanbulda keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsi ilə bağlı fövqəladə Zirvə toplantısında iştirakı və çıxışının yüksək qiymətləndirildiyini vurğuladı. Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Maliki Azərbaycanın beynəlxalq ictimaiyyətdə böyük hörmət və nüfuza malik dövlət olduğunu deyərək, ölkəmizin 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına uğurlu sədrlik edəcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Fələstin Prezidentinə çatdırmağı xahiş etdi.

### *Avropa İttifaqının xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının uğurla inkişaf etdiyi bildirildi, hazırda ölkəmizlə Avropa İttifaqı arasında tərəfdaşlığa dair yeni saziş üzrə danışıqların aparıldığı vurğulandı və bu sazişin gələcək əməkdaşlığın hərtərəfli inkişafı üçün əlverişli imkan yaradacağı qeyd olundu.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi ətrafında, Azərbaycanla Avropa İttifaqı arasında turizm, nəqliyyat, təhsil və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

### *ABŞ Nəqliyyat Komandanlığının komandanının başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 9-da ABŞ Nəqliyyat Komandanlığının komandanı general Stefen Lyonsun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında möhkəm tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu bildirərək, ikitərəfli münasibətlərin müxtəlif istiqamətləri, o cümlədən siyasi, iqtisadi, enerji və müdafiə sahələrini əhatə etdiyini dedi və uzun tarixə malik əməkdaşlığımızın genişlənməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev ABŞ-ın yüksək səviyyəli rəsmilərinin Azərbaycana səfərlərinin münasibətlərimizin inkişafında rolunu qeyd etdi. Dövlətimizin başçısı Əfqanıstanda ölkələrimizin beynəlxalq sülh və sabitliyə töhfə verdiklərini bildirərək, Azərbaycanın bu ölkədə sülhməramlı əməliyyatlarda iştirak edən ilk dövlətlərdən biri olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycanın orada iştirak edən əsgərlərinin sayının bu yaxınlarda daha da artırıldığını və Azərbaycanın Əfqanıstandakı Qətiyyətli Dəstək Missi-

yasına töhfələrinin, NATO ölkələrinə göstərdiyi nəqliyyat-logistika dəstəyinin NATO üzv dövlətləri tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı. Bu baxımdan dövlətimizin başçısı NATO mənzil-qərargahına son səfərini və NATO-nun ali orqanı olan Şimali Atlantika Şurasındakı çıxışını xatırlayaraq, orada əməkdaşlığımızın səviyyəsinə böyük önəm verildiyinin şahidi olduğunu qeyd etdi. Əfqanıstanla ikitərəfli münasibətlərə toxunan dövlətimizin başçısı qeyd etdi ki, bu münasibətlər böyük önəm daşıyır və ölkəmiz Əfqanıstan hökumətinə müxtəlif sahələrdə öz yardım və dəstəyini göstərir. Bu baxımdan Prezident İlham Əliyev Əfqanıstanda sabitlik və təhlükəsizliyin təmin olunmasına töhfə vermək məqsədilə keçən il ölkəmizin "Asiyanın Qəlbi-İstanbul Prosesi" çərçivəsində yüksək səviyyəli tədbirə ev sahibliyini etdiyini bildirdi.

Azərbaycanda nəqliyyat infrastrukturu, o cümlədən avtomobil və dəmir yolları, hava və dəniz limanlarına böyük həcmdə investisiya qoyulduğunu bildirən Prezident İlham Əliyev Azərbaycanın nəinki regionda, daha geniş məkanda ən güclü nəqliyyat infrastrukturuna malik ölkələrdən biri olduğunu dedi.

Prezident İlham Əliyev ABŞ Nəqliyyat Komandanlığının komandanı general Stefen Lyonsun səfərinin əməkdaşlığın perspektivləri ilə bağlı müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını bildirdi.

ABŞ Nəqliyyat Komandanlığının komandanı general Stefen Lyons, ilk növbədə, dövlətimizin başçısına Bayraq Günü münasibətilə öz təbriklərini çatdırdı. O bildirdi ki, Azərbaycan ilə ABŞ arasında strateji əlaqələr çox böyük önəm daşıyır. Stefen Lyons Azərbaycanın Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasına nəqliyyat sahəsinə böyük dəstək verdiyini və bunun yüksək qiymətləndirildiyini bildirdi. O, Əfqanıstanda xidmət etmiş hərbçi kimi Azərbaycanın bu ölkədə yüksək səviyyədə həyata keçirtdiyi işlərin şahidi olduğunu dedi.

### *Ümumdünya Antidopinq Agentliyinin prezidentinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Ümumdünya Antidopinq Agentliyinin prezidenti Kreyq Ridinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Ümumdünya Antidopinq Agentliyinin Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclaslarının Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirdi və bu tədbirlərdə dünyanın müxtəlif ölkələrindən xeyli sayda qonağın iştirak etməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev tədbir iştirakçılarının Azərbaycana gəlişinin ölkəmizi daha da yaxından tanıması və uğurlu əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Ölkəmizə səfərinin onun üçün çox xoş olduğunu bildirən Ümumdünya Antidopinq Agentliyinin prezidenti Kreyq Ridi Azərbaycan tərəfinin bu tədbirlərin təşkilinə böyük dəstək göstərdiyinə görə təşəkkürünü ifadə etdi. O, tədbirlərdə müxtəlif ölkələrin nümayəndələrinin və ictimai xadimlərin iştirakının əhəmiyyətini vurğuladı.

Kreyq Ridi azərbaycanlı həmkarları ilə dopinq əleyhinə mübarizə sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi apardıqlarını deyərək, Azərbaycanda Milli Antidopinq Agentliyinin yaradılmasını dopinq əleyhinə mübarizə işində irəliyə doğru çox mühüm addım kimi dəyərləndirdi. O qeyd etdi ki, Azərbaycanın mühüm idman dövləti və güclü antidopinq təşkilatına malik olduğu nəzərə alınaraq bütün bu işlər mühüm əhəmiyyət kəsb edir.

Dövlətimizin başçısı Azərbaycan Milli Antidopinq Agentliyinin yaradılması işində Kreyq Ridinin rəhbərlik etdiyi Ümumdünya Antidopinq Agentliyinin dəstəyinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanda iki il bundan öncə belə bir qurumun yaradılmasının idmanın, Olimpiya hərəkatının inkişafında mühüm addım olduğunu vurğuladı və eyni zamanda, bunu idman sahəsində beynəlxalq əməkdaşlığa töhfə kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkəmizdə Milli Antidopinq Agentliyinin beynəlxalq standartlara uyğun şəkildə fəaliyyət göstərdiyini və tam akkreditə olunduğunu dedi. Azərbaycanda idmanın inkişafına böyük önəm verildiyini deyən Prezident İlham Əliyev bildirdi ki, ölkəmizdə keçirilən mühüm beynəlxalq idman yarışları - Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları və digər tədbirlər və eləcə də keçirilməsi nəzərdə tutulan 15-ci Avropa Olimpiya Gənclər Festivalı Azərbaycanın bu sahədə əməkdaşlıq siyasətini və imkanlarını nümayiş etdirir. Dövlətimizin başçısı ölkəmizin idman sahəsində böyük nailiyyətlər əldə etməsini, o cümlədən idmançılarımızın Rio Olimpiadasında 18 medal qazanaraq medalların sayına görə 14-cü yeri tutduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın antidopinq məsələləri ilə bağlı Ümumdünya Antidopinq Agentliyi ilə bundan sonra da sıx əməkdaşlıq edəcəyinə əminliyini ifadə etdi.

### *Belarusun Azərbaycandakı səfirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviçi qəbul edib.

Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev dedi:

– Hörmətli cənab səfir. Yaxın vaxtlarda mənim Belarusa rəsmi səfərim baş tutacaq. Biz Azərbaycanda qarşıdakı səfərə çox böyük əhəmiyyət veririk və səfər ərəfəsində mən sizi səfərin proqramını, eləcə də bizim ikitərəfli münasibətlərimizin bəzi aspektlərini müzakirə etmək üçün dəvət etmişəm. Biz görürük və bilirik ki,

Belarusda da Azərbaycan Prezidentinin qarşıdakı rəsmi səfərinə böyük əhəmiyyət verilir. Lap bu yaxınlarda Belarus Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenko, həmçinin öz fikirlərini bildirmək və qarşıdakı səfərlə bağlı məsələləri müzakirə etmək üçün Azərbaycanın Belarus Respublikasındakı səfirini dəvət etmişdi. Bu gün biz Sizinlə görüşürük. Siz də təcrübəli diplomat kimi yaxşı bilirsiniz ki, bu cür təcrübəyə ölkələrarası münasibətlərdə nadir rast gəlinir. Bu, bizim münasibətlərimizin, hörmətin və qarşılıqlı etimadın yüksək səviyyəsinin göstəricisidir.

Qarşıdakı səfərin mənim Belarusa beşinci rəsmi səfərim olması, Aleksandr Qriqoryeviçin isə Azərbaycana dörd dəfə rəsmi səfərə gəlməsi faktını nəzərə alsaq, düşünürəm ki, bu, münasibətlərimizin nə qədər dinamik və uğurla inkişaf etdiyinin ən yaxşı göstəricisidir. Bizim münasibətlər bir çox sahələri əhatə edir. Biz siyasi müstəvidə fəal qarşılıqlı fəaliyyət göstəririk. Artıq dediyim kimi, qarşılıqlı etimadın səviyyəsi o qədər yüksəkdir ki, biz ikitərəfli, regional, beynəlxalq gündəliyin bütün məsələlərini müzakirə edirik. İqtisadi sahədə yaxşı göstəricilər görürük. Əmtəə dövriyyəsinin artımı buna yaxşı nümunədir. Həmçinin artıq Belarusun Azərbaycanda, Azərbaycanın isə Belarusda ticarət nümayəndəlikləri fəaliyyət göstərir. Fikrimcə, sənaye kooperasiyası müstəsna səmərəlilik nümayiş etdirir. Aleksandr Qriqoryeviçlə nəzərdə tutduğumuz layihələr gerçəkləşdirilib. Bu gün bu, Azərbaycanın sənaye potensialını möhkəmləndirir. Bu, həmçinin təhsil, elm, mədəniyyət sahələrində də müşahidə edilir. Yəni, ölkələrimizi tammiqyaslı münasibətlər bağlayır. Həmçinin hərbi-texniki sahədə əməkdaşlıq da münasibətlərimizin mühüm amilidir. Biz Belarusdan hərbi texnika alırıq və onun keyfiyyətindən, göstəricilərindən çox razıyıq. Belarus hərbi sənaye sahəsində də çox yüksək səviyyə nümayiş etdirir və biz hərbi-texniki sahədə əməkdaşlığı davam etdirmək niyyətindəyik. Doğrudur, Siz bilirsiniz ki, bu, Ermənistanda, belə deyim, psixoz tutmalara səbəb olur. Bu da son dərəcə təəccüblüdür. Çünki Azərbaycan təkcə Belarusdan silah almır. Azərbaycana hərbi texnikanın ən iri tədarükçüsü Rusiyadır. Həmçinin biz Türkiyədən, İsraildən, Pakistandan, Avropa ölkələrindən böyük həcmdə silah-sursat və texnika alırıq. Buna görə də təəccüblüdür ki, iradlar müstəsna olaraq Belarusa göstərilir. Mən hesab edirəm ki, bu, Ermənıstanda Belarusa qarşı acizlik kompleksinin təzahürüdür. Səbəblər də kifayət qədər sadədir. Həm Belarus, həm də Ermənistan eyni vaxtda müstəqillik əldə ediblər. Bu gün Ermənistan dünyanın ən yoxsul ölkələrindən biridir və həyatın girdabındadır. İyirmi il ərzində öz xalqını istismar və qarət edən hakimiyyətin erməni xalqı tərəfindən devrilməsi bunun parlaq təzahürüdür.

Belarus isə bir vaxtlar qoyulan sanksiyalara baxmayaraq, uğurla inkişaf edib və edir. Bu da Belarus Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun müdrik siyasətinin nəticəsidir. Belarus güclü, inkişaf edən sənaye və kənd təsərrüfatı, yüksək səviyyəli sosial müdafiəsi olan dövlətə çevrilib. Mən Sizin ölkədə dəfələrlə olmuş insan kimi bunu tamamilə obyektiv və səmimi deyirəm. Buna görə də bizə elə gəlir ki, Ermənistan tərəfindən Sizin ölkənizə qarşı deyilən əsassız iradlar öz məğzinə görə məhz bu amilə əsaslanır.

Həmçinin biz təbii ki, regionumuzda baş verən vəziyyəti müşahidə edirik, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının bu yaxınlarda Qazaxıstanda keçirilmiş Sammitini çox diqqətlə izlədik. Biz buna laqeyd deyilik. Fikrimcə, bunu başa düşmək olar. Çünki Ermənistan Azərbaycan ərazilərini işğal edən ölkədir və əlbəttə ki, biz hərbi-siyasi təşkilat olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına hansı ölkənin nümayəndəsinin rəhbərlik etməsinə biganə deyilik. Bu məsələlərin tərəfdaşlar və dostlar arasında müzakirəsi təbiidir. Biz beynəlxalq siyasətin digər məsələlərini də müzakirə edirik. Bu da Ermənistanda hər hansı təşviş doğurmamalıdır. Ermənistanın Xarici İşlər Nazirliyinin bu yaxınlardakı bəyanatını beynəlxalq təcrübədə tamamilə yolverilməz hesab edirik. Xarici İşlər Nazirliyi digər ölkənin, xüsusilə də müttəfiq sayılan ölkənin prezidentinin hərəkət və sözlərini şərh edə və yanlış adlandıra bilməz. Yanlışlıq belə əməlləri özünə rəva bilən Ermənistanın Xarici İşlər Nazirliyinin davranışıdır. Görünür, bu, onların dünyanı və dünya xəritəsində öz yerlərini qeyri-adekvat dərk etmələrinin nəticəsidir. Eyni zamanda, bildiyiniz kimi, Ermənistan tərəfi bəyan edib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının problemləri mövcuddur. Yəqin ki, burada onlar haqlıdırlar. Bu problem, ilk növbədə, elə Ermənistanın özüdür və Ermənistanın törətdiyi problemlərdir. Biz, əlbəttə ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına baş katibin Ermənistan nümayəndəsinin təyinatını narahatlıqla qəbul etdik. Əvvəla, ona görə ki, bu dövlət Azərbaycana qarşı düşmənçilik siyasəti yürüdür. İkincisi də əməllərinə görə cinayət məsuliyyətinə cəlb olunmuş namizədin özünün şəxsiyyətinə görə. Burada da, deyildiyi kimi, bizdə personajın özünün hansı keyfiyyətlərə malik olması şübhə doğurmur. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının keçmiş baş katibinin rəhbərlik etdiyi və Ermənistan ordusu üçün ağır məğlubiyyətlə nəticələnən Azərbaycan və Ermənistan ordularının döyüş qarşıdurmaları zamanı rüsvayçı davranışını xatırlamaq kifayətdir. Yəni, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi mühüm beynəlxalq quruma bu şəxsin təyinatı müəyyən dərəcədə təşkilata hörmətsizlik idi. Bu adamın cinayətə görə təqib edilərək sürgün edilməsi isə beynəlxalq təcrübədə nadir hadisədir - beynəlxalq məmur bu minvalla məsuliyyətə cəlb olunur və üzv ölkələrə heç bir xəbər verilmir. Buna görə də bir daha demək istəyirəm ki, əgər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının hər hansı bir problemi varsa, o da Ermənistandır və onun yaratdığı problemlərdir. Bizim münasibətlərimizə gəlincə, onlar

sarsılmazdır, möhkəm bünövrəyə malikdir, dostluq, qarşılıqlı hörmət, dəstək münasibətlərinə əsaslanır və gələcəyə yönəlib. Əminəm ki, mənim dost ölkəyə qarşıdakı səfərim münasibətlərimizi daha da möhkəmləndirəcək. Səfərin gündəliyi olduqca genişdir, xeyli sənəd imzalanacaq. Əminəm ki, həmin sənədlər bundan əvvəl reallaşdırılan digər razılaşmalar kimi gerçəkləşəcək.

***Beynəlxalq Paralimpiya Komitəsinin prezidentinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsu qəbul edib.

Dövlətimizin başçısı Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsun Azərbaycana səfərinin onun təmsil etdiyi qurumla ölkəmiz arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün yaxşı imkan yaratdığını dedi. Prezident İlham Əliyev Azərbaycanda idmana, o cümlədən paralimpiyaya yüksək dövlət qayğısı göstərildiyini qeyd edərək bildirdi ki, ölkəmizdə aparılan idman siyasəti Azərbaycanın ictimai həyatında böyük rol oynayır. Azərbaycanda paralimpiyaçılara göstərilən xüsusi diqqət və qayğıdan danışan dövlətimizin başçısı bildirdi ki, paralimpiyaçılarımız Yay Paralimpiya və eləcə də Avropa Oyunlarında yaxşı nəticələr göstərmişlər.

Prezident İlham Əliyev Endrü Parsonsun Ümumdünya Antidopinq Agentliyinin Təsisçilər Şurasının Bakıda keçirilən iclasında iştirakının önəmini qeyd etdi və ölkəmizin bu təşkilatla da yaxşı əməkdaşlıq həyata keçirdiyini dedi.

Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsons Azərbaycana üçüncü dəfə səfər etdiyini, ötən dövr ərzində ölkəmizdə böyük inkişaf proseslərinin getdiyinin şahidi olduğunu vurğuladı. O, Prezident İlham Əliyevin idmana, o cümlədən paralimpiyaçılara böyük diqqət və qayğı göstərdiyini qeyd etdi və bu münasibətlə beynəlxalq paralimpiya hərəkatı adından dövlətimizin başçısına minnətdarlığını bildirdi. Endrü Parsons Azərbaycanda paralimpiyanın inkişafının bir nümunə olduğunu vurğuladı.

***Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini vurğulayaraq ölkələrimizin dövlət başçıları arasında müntəzəm görüşlərin əlaqələrimizin möhkəmlənməsində xüsusi rol oynadığını qeyd etdi və bu görüşlərin ölkələrimizi bir-birinə daha da yaxın etdiyini bildirdi. Prezident İlham Əliyev bildirdi ki, bu il Bakıda Türkiyə zabitlərinin də iştirak etdiyi iki hərbi paradın keçirilməsi, xüsusilə Bakının işğaldan azad edilməsi ilə bağlı təşkil edilmiş hərbi parad bütün dünyada böyük maraqla izlənilib və bu tədbirlər bir daha Türkiyə-Azərbaycan birliyini nümayiş etdirib. Dövlətimizin başçısı hərbi sahədə əməkdaşlığımızın genişlənməsində Azərbaycan ilə Türkiyənin birgə hərbi təlimlərinin böyük önəm daşıdığını bildirdi. Prezident İlham Əliyev Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin səfərinin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler Azərbaycana səfərindən və Prezident İlham Əliyevlə görüşdən böyük qurur hissi keçirdiyini bildirdi. Yaşar Güler qeyd etdi ki, bir millət, iki dövlət olan Türkiyə ilə Azərbaycan ortaq tarixə, mədəniyyətə malikdirlər və ölkələrimiz arasında strateji iş birliyi gündən-günə möhkəmlənməkdədir. O, bir daha Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illik yubileyi münasibətilə dövlətimizin başçısını təbrik etdi və bu əlamətdar hadisədən Türkiyənin də qürur hissi keçirdiyini vurğuladı. Yaşar Güler Azərbaycanın gələcəkdə də böyük inkişafa nail olacağına əminliyi ifadə etdi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Yaşar Güler qeyd etdi ki, bu, Azərbaycan üçün önəmli olduğu qədər Türkiyə üçün də önəmli məsələdir.

Söhbət zamanı noyabrın 21-də Bakıda keçiriləcək Azərbaycan-Türkiyə-Gürcüstan ordu rəhbərlərinin görüşünün əməkdaşlığın genişlənməsi baxımından önəmi qeyd edildi.

Sonda Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

***Rusiyanın Jurnalistlər İttifaqının sədrinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Rusiya Federasiyasının Jurnalistlər İttifaqının sədri Vladimir Solovyovu qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında digər sahələrdə olduğu kimi, kütləvi informasiya vasitələri nümayəndələrinin arasında da ənənəvi olaraq

uğurlu əməkdaşlıq həyata keçirildiyini bildirdi, eyni zamanda, bu sahədə əlaqələrin daha da fəallaşdırılmasının vacibliyini qeyd etdi. Bu baxımdan Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Respublikası və Rusiya Federasiyası KİV nümayəndələrinin mütəmadi qarşılıqlı səfərləri ictimaiyyətin ölkələrimizdə baş verən proseslər barədə daha çox məlumatlı olması işinə kömək edə bilər. Eyni zamanda, dövlətimizin başçısı qeyd etdi ki, bu cür səfərlər ölkələrimiz arasında bu gün çox uğurla inkişaf edən ikitərəfli münasibətlərin daha da genişləndirilməsi baxımından da önəmlidir. Prezident İlham Əliyev əlaqələrimizin möhkəmlənməsində Azərbaycanın və Rusiyanın dövlət başçılarının qarşılıqlı səfərləri və mütəmadi görüşlərinin xüsusi rol oynadığını qeyd etdi. Dövlətimizin başçısı Vladimir Solovyovun səfərinin jurnalistika sahəsində əməkdaşlığın möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Rusiya Federasiyasının Jurnalistlər İttifaqının sədri Vladimir Solovyov Prezident İlham Əliyevlə görüşündən dərin məmnunluq hissi keçirdiyini bildirdi. O qeyd etdi ki, bu gün Azərbaycan ilə Rusiya arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir və çox yüksək səviyyədədir. Qonaq Azərbaycanda Rusiya mədəniyyətinə, mətbuatına böyük hörmətlə yanaşıldığını qeyd edərək, məmnunluq hissi ilə ölkəmizdə bütün Rusiya televiziya kanallarının yayımlandığını bildirdi. O, Rusiya jurnalistlərinin azərbaycanlı həmkarları ilə daim qarşılıqlı əlaqələr saxlamaq istəyində olduqlarını dedi. Vladimir Solovyov bu baxımdan noyabrın 19-da Azərbaycan Mətbuat Şurası və Rusiya Federasiyası Jurnalistlər İttifaqı arasında imzalanmış əməkdaşlıq haqqında Memorandumun əhəmiyyətini vurğuladı.

### *Rusiyanın Çeçenistan Respublikasının başçısının rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Azərbaycan Prezidenti İlham Əliyev dedi:

-Hörmətli Ramzan Əhmədoviç.

Sizi Azərbaycanda görməyə çox şadam. Xoş gəlmisiniz. Sizin səfəriniz xalqlarımız arasında ənənəvi qardaşlıq əlaqələrinin möhkəmlənməsi işinə xidmət edəcək. Çeçen və Azərbaycan xalqları əsrlər boyu dostluq edirlər, bir-birini dəstəkləyirlər və bu gün bizim münasibətlərimiz yeni səviyyəyə çıxır. Buna görə mən Sizi bizim əziz qonağımız kimi ölkəmizdə salamlamağa çox şadam. Fürsətdən istifadə edərək, Sizi və bütün qardaş çeçen xalqını sosial-iqtisadi inkişafda böyük nailiyyətlərə görə təbrik etmək istərdim. Mən bilirəm və Sizin respublikanıza səfər edənlər mənə danışırlar, televizorda da görürəm ki, şəhərlər necə dəyişir, respublika çiçəklənir və bir çox sosial, infrastruktur məsələləri həll olunur. Bilirəm ki, bütün bunlar Sizin şəxsi nəzarətiniz və rəhbərliyiniz altında baş verir. Bizi o da çox sevindirir ki, Çeçenistan Respublikasında sabitlik bərqərar olub, insanlar təhlükəsizlik şəraitində, sakit yaşayırlar, öz doğma torpaqlarında qurub-yaradırlar.

Bildiyiniz kimi, Azərbaycanı Şimali Qafqaz respublikaları ilə uzun tarix, yaxın münasibətlər, mənəvi, mədəni, doğma əlaqələr bağlayır. Biz hesab edirik ki, Qafqazda sabitlik və təhlükəsizlik, inkişaf ancaq birgə səylər nəticəsində mümkündür. Əlbəttə ki, bizim Çeçenistan Respublikası və Şimali Qafqazın digər respublikaları ilə münasibətlərimiz Azərbaycanla Rusiya arasında münasibətlərin mühüm amilidir. Siz bilirsiniz ki, bu münasibətlər uğurla inkişaf edir. Biz strateji tərəfdaşlarıq. Dövlət başçılarının çoxlu səfərləri olub. Son beş ildə Rusiya Prezidenti Azərbaycana dörd dəfə səfər edib və bu ilin sentyabrında mən də Rusiyaya səfər etdim, o da Azərbaycana gəldi. Biz çox fəal qarşılıqlı fəaliyyət göstəririk və çox yüksək etimad səviyyəsi mövcuddur. Yəqin bilirsiniz ki, Vladimir Putinin səfəri zamanı sizin də nümayəndələrinizin olduğu Rusiya-Azərbaycan Regionlararası Forumu keçirilib. Buna görə də bir daha demək istəyirəm ki, münasibətlərimiz tarixə, qardaşlığa əsaslanır. Əminəm ki, Sizin səfəriniz əlaqələrimizin möhkəmlənməsinə xidmət edəcək. Bir daha xoş gəlmisiniz.

* * *

Çeçenistan Respublikasının başçısı Ramzan Kadırov dedi:

– Möhtərəm İlham Heydər oğlu, dəvətə və bizə vaxt ayırdığınıza görə sağ olun. Fürsətdən istifadə edərək, Sizi yenidən xalqın etimadı ilə Prezident seçilməyiniz münasibətilə bir daha təbrik etmək istərdik. Siz təkcə Azərbaycanda deyil, bütövlükdə müsəlmanlar üçün xeyirxah işlər görürsünüz. Biz Sizin qardaşlıq münasibətləri qurduğunuzu, konfranslar keçirdiyinizi, təkcə dini liderləri deyil, bizim regionların rəhbərliyini də qəbul etdiyinizi və yalnız müsəlmanları deyil, bütün konfessiyaları birləşdirdiyinizi görürük. Bu, çox qiymətlidir. Buna görə də bunu həm Azərbaycan xalqı, həm də bütün Qafqaz xalqları görür. Bizimlə görüşə vaxt ayırdığınız üçün çox şadam. Şadam ki, bizim qardaşlıq və dostluq münasibətlərimiz var. İndi mədəni, idman və digər sahələrdə münasibətləri inkişaf etdiririk. Ən əsası isə qardaşlıq münasibətləridir. Çünki xatırlamaya bilmərəm, ən çətin illərdə Prezident Heydər Əliyev bizim xalqa kömək etdi, kömək əlini uzatdı və sonadək kömək etdi, bizi dəstəklədi. Biz bunu heç vaxt unutmayacağıq. Buna görə, biz hörmətli Heydər Əliyevin xatirəsinə bağ salmışıq. Onun açılışında əziz, böyük qardaşımızın iştirakını gözləyirik. Əgər Siz imkan tapıb Çeçenistan Respublikasına gələ bilsəniz bu, bizim üçün

həm siyasi, həm qardaşlıq, həm də insani cəhətdən çox mühüm olacaq. Bizi dəvət etdiyinizə, bizə vaxt ayırdığınıza, bütün müsəlmanlar və Qafqaz, xüsusən bizim region üçün hər şey etdiyinizə görə bir daha "Çox sağ olun" demək istəyirəm.

* * *

Prezident İlham Əliyev dedi:

Çox sağ olun. Mən atam Heydər Əliyevin xatirəsinə olan belə hörmətə və belə gözəl bağın yaradılmasına görə təşəkkürümü bildirmək istərdim. Bu, bizim hamımız üçün çox vacibdir. Çox minnətdaram və öz tərəfimdən demək istərdim ki, Azərbaycanda da, həmçinin xalqınız üçün ən çətin illərdə xalqı tərəqqi yolu ilə aparan və öz dini, öz xalqı və gələcək naminə şəhid kimi özünü qurban verən Çeçenistan Respublikasının rəhbəri Hacı Əhməd Kadırovun xatirəsinə böyük hörmətlə yanaşırlar. Siz bilirsiniz ki, valideynlərimizi də yaxın münasibətlər bağlayıb. Biz bu ənənəni davam etdiririk. Belə də olmalıdır. Əminəm ki, irəliyə doğru gedəcəyik və əlbəttə, böyük məmnuniyyətlə Sizin dəvətinizi qəbul edirəm, səfər edəcəyəm.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun şərəfinə nahar verildi.

Daha sonra xatirə şəkilləri çəkdirildi.

### *Rusiyanın rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Rusiyanın rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovu qəbul edib. Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskov Bakıda keçirilən XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisində iştirak etmək üçün dəvətə görə minnət-darlığını bildirdi. O, bu tədbirə paralel olaraq Bakıda Regional Rabitə Birliyi çərçivəsində region ölkələrinin rabitə nazirlərinin görüşü barədə məlumat verdi. Qonaq qeyd etdi ki, bu görüş və "Bakutel" sərgisi beynəlxalq əməkdaşlığın genişlənməsi işinə öz töhfəsini verəcək. Konstantin Noskov, eyni zamanda, Rusiyanın və Azərbaycanın müvafiq nazirlikləri arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq, artıq iki ölkənin poçt xidmətlərinin səmərəli qarşılıqlı fəaliyyət göstərdiklərini bildirdi və bunun Çindən Azərbaycan vasitəsilə Rusiyaya böyük həcmdə elektron ticarət məhsullarının göndərilməsi üçün imkan yaratdığını dedi. Eyni zamanda, qonaq Azərbaycanla Rusiya mobil rabitə operatorları arasında əməkdaşlıqla bağlı danı-şıqların aparıldığını dedi.

Prezident İlham Əliyev Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovun Bakıda keçirilən XXIV "Bakutel" sərgisində iştirakından məmnunluğunu ifadə etdi, eyni zamanda, Regional Rabitə Birliyi çərçivəsində region ölkələrinin rabitə nazirlərinin toplantısının beynəlxalq əməkdaşlığın genişlənməsi baxımından əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Bakıda ənənəvi olaraq keçirilən "Bakutel" tədbirinə beynəlxalq marağın və iştirakçı ölkələrin sayının artdığını qeyd edərək, bu tədbirin telekommunikasiya və texnologiyalar sahəsində əldə olunmuş nailiyyətlərlə yaxından tanışlıq və təcrübə mübadiləsinin aparılması üçün yaxşı imkan yaratdığını bildirdi.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən rabitə və kütləvi kommunikasiyalar sahəsində uğurla inkişaf etdiyi bildirildi və Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media nazirinin səfərinin əlaqələrimizin möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.

Görüşdə iki ölkənin müvafiq qurumları arasında kiber təhlükəsizlik sahəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gələcəkdə qonşu ölkələrlə birgə layihələrin həyata keçirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### *CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı CISCO şirkətinin uzun illər Azərbaycan hökuməti ilə uğurlu əməkdaşlıq həyata keçirməsindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev CISCO şirkətinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən nəqliyyat sahəsində həyata keçirdiyi layihələrə toxunaraq bu sahənin ölkəmizdə prioritet istiqamətlərdən biri olduğunu vurğuladı. Dövlətimizin başçısı regional əməkdaşlıq üçün yeni infrastrukturun yaradıldığını nəzərə alaraq, digər sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.

CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrix Azərbaycan Prezidenti ilə əvvəlki görüşünü məmnunluqla xatırlayaraq şirkətin ölkəmizlə uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirdi. Ölkəmizə səfərindən xoş hisslər keçirdiyini deyən qonaq səfərinin məqsədinin əməkdaşlığın perspektivlərini müzakirə etməkdən ibarət olduğunu dedi və bu əməkdaşlığın "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsep-

siyasına uyğun şəkildə həyata keçirilməsinin əhəmiyyətini qeyd etdi.

Görüşdə XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisinin əhəmiyyətinə toxunularaq bu tədbirin beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyi qeyd olundu.

### *Amerika Birləşmiş Ştatlarının müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Amerika Birləşmiş Ştatlarının müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev qarşılıqlı səfərlərin, o cümlədən ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun və digər rəsmilərin Azərbaycana səfərlərinin münasibətlərimizin inkişafındakı rolunu qeyd etdi. Müdafiə sahəsində əməkdaşlığın məmnunluq doğurduğunu deyən dövlətimizin başçısı enerji təhlükəsizliyi məsələlərinin də ikitərəfli münasibətlərimizin inkişafında böyük önəm daşıdığını bildirdi, bu baxımdan ABŞ hökuməti və şəxsən ABŞ Prezidentinin Cənub Qaz Dəhlizi layihəsinin reallaşmasına verdiyi dəstəyi yüksək qiymətləndirdi. Prezident İlham Əliyev Respublika günü və enerji sahəsində əməkdaşlıq mövzusunda ABŞ Prezidentinin ünvanladığı məktubların da əhəmiyyətini qeyd etdi.

Dövlətimizin başçısı NATO çərçivəsində də əlaqələrin inkişafından məmnunluğunu bildirərək, NATO mənzil qərargahına son uğurlu səfərini bu təşkilatla əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Əfqanıstandakı sülhməramlı əməliyyatlarda ölkəmizin iştirakı və orada Qətiyyətli Dəstək Missiyasında hərbçilərimizin sayının artırılması Azərbaycanın bu ölkədə ümumi sülhyaratma səylərinə verdiyi töhfəsini nümayiş etdirir. Azərbaycanın etibarlı və sabit tərəfdaş olduğunu qeyd edən Prezident İlham Əliyev ölkəmizin həmçinin ikitərəfli əsasda da Əfqanıstanda həyata keçirilən quruculuq və yenidənqurma işlərinə öz töhfəsini, xüsusilə ASAN xidmət təcrübəsinin Əfqanıstanda da tətbiqinə dəstək verdiyini bildirdi.

Dövlətimizin başçısı xanım Laura Kuperin səfərinin və ölkələrimiz arasında müdafiə sahəsində məsləhətləşmələrin əməkdaşlığımızın inkişafına əlavə təkan verəcəyinə ümidvar olduğunu bildirdi.

Ölkəmizə səfərinin Azərbaycanla ABŞ arasında müdafiə sahəsində əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrinin genişlənməsinin davam etdirilməsi məqsədini daşıdığını deyən ABŞ Müdafiə naziri müavininin müşaviri xanım Laura Kuper qeyd etdi ki, ABŞ rəhbərliyi Azərbaycanla əlaqələrə mühüm əhəmiyyət verir. Xanım Laura Kuper Azərbaycanla ABŞ arasında terrorizm, kütləvi qırğın silahları və narkotik maddələrin yayılmasının qarşısının alınması və ümumilikdə təhlükəsizlik sahəsində əməkdaşlığı, Azərbaycanın Əfqanıstanda həyata keçirilən sülhyaratma missiyasına dəstəyini və tranzit daşımaları üçün yaratdığı imkanları yüksək qiymətləndirdi.

### *Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhanın XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisində böyük heyətlə iştirakından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən nəqliyyat və infrastruktur sahəsində uğurla inkişaf etdiyini bildirdi. Nəqliyyat sahəsində əməkdaşlığımıza toxunan dövlətimizin başçısı ölkələrimizin birgə həyata keçirdiyi layihələrdən danışaraq keçən il istifadəyə verilən Bakı-Tbilis-Qars dəmir yol layihəsinin təkcə regionda deyil daha geniş məkanda böyük önəm daşıdığını vurğuladı. Dövlətimizin başçısı rabitə sahəsində də ölkələrimizin birgə iş birliyi apardıqlarını, Türkiyə şirkətlərinin bu sahədə uzun illər fəaliyyət göstərdiklərini dedi və rabitə sahəsində əməkdaşlığımızın daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu bildirdi.

Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycanla Türkiyə arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu vurğulayan qonaq Azərbaycanda bütün sahələrdə, o cümlədən infrastruktur və şəhərsalmada böyük inkişafın şahidi olduğunu dedi. Mehmet Cahit Turhan bildirdi ki, ulu öndər Heydər Əliyevin ifadəsi ilə desək Azərbaycanla Türkiyə "Bir millət, iki dövlət"dir və Azərbaycanın əldə etdiyi uğurlar Türkiyədə böyük sevinclə qarşılanır. Türkiyəli nazir Azərbaycanla Türkiyənin bundan sonra da birgə uğurlu layihələr həyata keçirəcəklərini məmnunluqla qeyd etdi.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

***İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Məhəmməd Cavad Azəri Cəhrominin XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisində iştirakından və İranın bu tədbirdə geniş sayda şirkətlərlə təmsil olunmasından məmnunluğunu bildirdi. Sərginin ənənəvi olaraq keçirildiyini deyən Prezident İlham Əliyev burada İran şirkətlərinin daim iştirak etdiyini vurğuladı. Azərbaycanla İranın müxtəlif sahələrdə, o cümlədən rabitə və informasiya texnologiyaları sahəsində yaxşı əməkdaşlıq həyata keçirdiyini qeyd edən dövlətimizin başçısı müntəzəm qarşılıqlı səfərlərin, eləcə də nazirlər səviyyəsində təmasların yaxşı səviyyədə olduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı İKT sahəsində həm ikitərəfli səviyyədə, həm də regional çərçivədə əməkdaşlıq üçün yaxşı imkanlar açıldığını dedi.

Qəbula görə minnətdarlığını bildirən İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhromi ölkələrimiz arasında İKT sahəsində yaxşı əməkdaşlıq həyata keçirildiyini vurğuladı. O, əməkdaşlığın təkcə ikitərəfli səviyyədə deyil, eləcə də İran, Azərbaycan, Türkiyə, Rusiya səviyyəsində genişləndirilməsi üçün səmərəli müzakirələrin aparıldığını dedi. Məhəmməd Cavad Azəri Cəhromi keçən il Azərbaycan Prezidenti ilə görüşdən ötən dövr ərzində əməkdaşlığın genişləndirilməsi və layihələrin icrası ilə bağlı çoxlu işlərin görüldüyünü məmnunluqla qeyd etdi.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

***Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksandr Bayerlin etimadnaməsinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksandr Bayerlin etimadnaməsini qəbul edib. Səfir Bernd Aleksandr Bayerl fəxri qarovul dəstəsinin qarşısından keçdi. Bernd Aleksandr Bayerl etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Avstriya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq, əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyini bildirdi. Münasibətlərin inkişafında qarşılıqlı səfərlərin önəminə toxunan Prezident İlham Əliyev özünün Avstriya Respublikasına, Avstriyanın Federal Prezidenti Haynts Fişerin isə Azərbaycana səfərlərini məmnunluqla xatırladı. Siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu qeyd edən dövlətimizin başçısı iqtisadi sahədə, o cümlədən ticarət, investisiya sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Bu baxımdan Prezident İlham Əliyev Azərbaycanda uğurla fəaliyyət göstərən Avstriya şirkətlərinin sayının artdığını vurğuladı. Dövlətimizin başçısı Bernd Aleksandr Bayerlin diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksandr Bayerl Avstriya Respublikasının Federal Kansleri Sebastian Kurtsun salamlarını və Avstriya hökumətinin ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Bakıda diplomatik fəaliyyətə başlamasından məmnunluq hissi keçirdiyini qeyd edərək, Prezident İlham Əliyevin rəhbərliyi və birinci xanım Mehriban Əliyevanın fəal iştirakı ilə Bakıda yüksək zövqlə həyata keçirilən abadlıq və quruculuq işlərinin ona dərin təəssürat bağışladığını bildirdi. Bernd Aleksandr Bayerl səfir fəaliyyəti dövründə əlaqələrimizin daha da möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini dedi.

Dövlətimizin başçısı Avstriyanın Federal Kansleri Sebastian Kurtsun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və xoş arzularını Avstriyanın Federal Kanslerinə və Avstriya hökumətinə çatdırmağı xahiş etdi.

***Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Opun etimadnaməsinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Opun etimadnaməsini qəbul edib. Səfir Kim Tonq Op fəxri qarovul dəstəsinin qarşısından keçdi. Kim Tonq Op etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında çox yaxşı əlaqələrin mövcud olduğunu və birgə səylərlə iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsinin və ticarət dövriyyəsinin artırılmasının zəruriliyini qeyd etdi. Prezident İlham Əliyev Koreya Respublikasına dövlət səfərini məmnunluqla xatırladı və bu səfərin ikitərəfli münasibətlərimizin genişləndirilməsi işinə töhfə verdiyini vurğuladı. Dövlətimizin

başçısı Azərbaycanda bir sıra Koreya şirkətlərinin sənaye, nəqliyyatın idarəedilməsi, şəhərsalma, arxitektura və digər sahələrdə uğurlu fəaliyyət göstərdiklərini bildirərək, kənd təsərrüfatı, ekologiya, təhsil, peşə ixtisasartırma kimi sahələrdə də əməkdaşlıq üçün əlverişli imkanların olduğunu dedi. Prezident İlham Əliyev Şərq-Qərb marşrutu üzrə yükdaşımalar istiqamətində Azərbaycanın müasir nəqliyyat infrastrukturu və tranzit potensialını nəzərə alaraq, Koreya tərəfinin də bu imkanlardan istifadə edə biləcəyini qeyd etdi.

Koreya Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Op Koreya Respublikasının Prezidenti Mun Ce-inin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə səfir təyin olunmasından məmnunluğunu ifadə etdi. Səfir ölkələrimiz arasında dostluq əlaqələrinin və iqtisadi-ticarət sahəsində əməkdaşlığın daha da artırılması üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Dövlətimizin başçısı Prezident Mun Ce-inin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.

### *Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xeyrullah Spelenayın etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xeyrullah Spelenayın etimadnaməsini qəbul edib. Səfir Xeyrullah Spelenay fəxri qarovul dəstəsinin qarşısından keçdi. Xeyrullah Spelenay etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Əfqanıstan arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani ilə dəfələrlə görüşdüyünü məmnunluqla xatırladı. Prezident İlham Əliyev iki ölkənin beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini bildirdi, ölkələrimizin iqtisadi, humanitar və digər sahələrdə də əməkdaşlıq etdiyini vurğulayaraq, Azərbaycanın Əfqanıstanda sülhün və sabitliyin təmin olunması işinə töhfə verdiyini və Əfqanıstanda xidmət edən Azərbaycan hərbi qulluqçularının sayının artırıldığını qeyd etdi. Əfqanıstanda sülhün və təhlükəsizliyin bütün region üçün vacib olduğunu deyən dövlətimizin başçısı Azərbaycanın "ASAN xidmət" təcrübəsinin bu ölkədə uğurla tətbiq olunmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev ölkəmizdə yaradılmış müasir nəqliyyat infrastrukturu imkanlarına toxunaraq, Əfqanıstanın da Şərq-Qərb marşrutu üzrə Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə birləşdirən dəmir yolu layihələrindən faydalana biləcəyini bildirdi.

Səfir Xeyrullah Spelenay Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin məzunu olduğunu qeyd edən səfir Azərbaycanla Əfqanıstan arasında ənənəvi dostluğun daha da inkişaf etdirilməsi üçün səylə çalışacağını diqqətə çatdırdı. Səfir Azərbaycanın Əfqanıstanda sülhə və təhlükəsizliyə verdiyi töhfəsinə və ikitərəfli əsasda ölkəsinə müxtəlif sahələrdə göstərdiyi dəstəyinə görə minnətdarlığını bildirdi. O, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın uğurlu inkişaf yolu keçdiyini qeyd edərək, ölkəmizin inkişaf təcrübəsinin Əfqanıstan üçün xüsusilə vacib olduğunu dedi. Xeyrullah Spelenay Əfqanıstanın Şərq-Qərb marşrutu üzrə Azərbaycanın nəqliyyat imkanlarından istifadə edərək, yükdaşımaların həyata keçirilməsində ölkəsinin maraqlı olduğunu vurğuladı.

Dövlətimizin başçısı Prezident Məhəmməd Əşrəf Qaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əfqanıstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

### *Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Bekir Pakdemirlini kənd təsərrüfatı və meşəçilik naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edərək, onun ilk dəfə nazir kimi Azərbaycana səfərindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı, kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu dedi. Kənd təsərrüfatının inkişafına ölkəmizdə böyük önəm verildiyini deyən dövlətimizin başçısı bunun iqtisadiyyatın şaxələndirilməsi baxımından əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev Türkiyənin kənd təsərrüfatı sahəsində əldə etdiyi uğurların və təcrübənin Azərbaycan üçün böyük maraq doğurduğunu dedi. Dövlətimizin başçısı Bekir Pakdemirlinin Bakıda aqrar və yaşıl texnologiyalar üzrə "AgTech and Green Energy" mövzusunda keçirilən beynəlxalq forumda iştirakının əhəmiyyətini vurğuladı və onun Azərbaycana bu səfərinin əməkdaşlığın perspektivlərinin səmərəli müzakirəsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirli Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Bakıda aqrar və yaşıl texnologiyalar üzrə "AgTech and Green Energy" mövzusunda keçirilən beynəlxalq forumun əhəmiyyətinə toxundu, ölkəmizə böyük nümayəndə heyəti ilə gəldiyini dedi və nümayəndə heyətinin tərkibinə kənd təsərrüfatı və qida sənayesi sahəsində fəaliyyət göstərən iş adamlarının da daxil olduğunu bildirdi.

Söhbət zamanı kənd təsərrüfatı sahəsində çalışan Azərbaycan və Türkiyə iş adamlarının dekabrın 11-də Bakıda birgə biznes forumunun keçiriləcəyi və bunun əməkdaşlığımızın genişləndirilməsi baxımından əhəmiyyətli olacağı vurğulandı.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

### *Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Arkadi Dvorkoviçin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Arkadi Dvorkoviçi qəbul edib. Dövlətimizin başçısı, ilk növbədə, Arkadi Dvorkoviçi Beynəlxalq Şahmat Federasiyasının prezidenti kimi yüksək vəzifəyə seçilməsi münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev Arkadi Dvorkoviçin bu vəzifəyə seçilməsindən sonra qısa bir zaman ərzində Azərbaycana səfərinin önəmini qeyd edərək, bunu ölkəmizin şahmat ənənələrinə diqqət və hörmət əlaməti kimi dəyərləndirdi. Dövlətimizin başçısı Arkadi Dvorkoviçin səfəri zamanı Azərbaycanla FIDE arasında əməkdaşlığın perspektivləri, ölkəmizin dünya şahmat ailəsində fəal iştirakı və qarşılıqlı fəaliyyəti ilə bağlı məsələlər ətrafında səmərəli müzakirələrin aparılacağına ümidvar olduğunu bildirdi.

Xoş sözlərə və təbrikə görə minnətdarlığını bildirən Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviç Azərbaycana səfərindən və Prezident İlham Əliyevlə görüşündən şərəf duyduğunu dedi. O, ölkəmizin FIDE-yə verdiyi dəstəyi yüksək qiymətləndirərək, bunun təşkilatın fəaliyyətində daim hiss olunduğunu vurğuladı. Arkadi Dvorkoviç, eyni zamanda, Azərbaycan nümayəndəsinin FIDE-nin vitse-prezidenti vəzifəsinə seçilməsinin əhəmiyyətini qeyd etdi.

Görüşdə Azərbaycanda idmana, o cümlədən şahmata dövlət səviyyəsində böyük diqqət və qayğı göstərildiyi vurğulandı.

Söhbət zamanı Arkadi Dvorkoviç "Skolkovo" Fondunun sədri kimi rəhbərlik etdiyi təşkilatın Azərbaycanla əməkdaşlığa önəm verdiyini, artıq telekommunikasiya sahəsində birgə işlərin aparıldığını dedi və digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.

### *İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı Qasım Rzayinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı Qasım Rzayinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən sərhədlərin mühafizəsi ilə bağlı əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev iki ölkə vətəndaşlarının, iş adamlarının gediş-gəlişinin, yükdaşımalarının həyata keçirildiyini vurğulayaraq, İran-Azərbaycan sərhədini dostluq sərhədi kimi dəyərləndirdi. Ölkələrimizin sərhəd xidməti rəhbərlərinin görüşünün önəmini qeyd edən dövlətimizin başçısı İran-Azərbaycan əlaqələrinin inkişafında Sərhəd Qoşunları xidmətlərinin əməkdaşlığının mühüm yer tutduğunu dedi. Prezident İlham Əliyev İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı Qasım Rzayinin ölkəmizə səfərinin əməkdaşlığımızın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı Qasım Rzayi ölkəmizlə bağlı xoş hisslərini ifadə edərək, Prezident İlham Əliyevə yorulmaz fəaliyyətində uğurlar arzuladı. O, Azərbaycan Respublikasının Prezidenti ilə yenidən görüşməkdən, dövlətimizin başçısının iki ölkə arasında əlaqələrin inkişafı ilə bağlı tövsiyələrini və dərin mənalı fikirlərini eşitməkdən məmnunluq hissi keçirdiyini dedi və Bakıya səfərlərinin onlarda xoş xatirələr doğurduğunu bildirdi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### *Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı, ilk növbədə, Rusiya ilə NATO yüksək hərbi rəhbərliyi arasında görüşün keçirilməsi üçün Bakının seçilməsinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu, bizim ölkəyə hörmətin, etimadın göstəricisidir və bir daha Azərbaycanın dünyada sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edən mühüm beynəlxalq tədbirlərin müntəzəm olaraq keçirildiyi məkana çevrildiyini göstərir və Azərbaycan bunu yüksək qiymətləndirir. Dövlətimizin başçısı Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətinin səfərinin eyni zamanda Azərbaycan-Rusiya əlaqələri ilə bağlı məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını dedi. İkitərəfli münasibətlərimizin bütün sahələrdə, o cümlədən hərbi sahədə çox uğurlu və dinamik şəkildə inkişaf etdiyini deyən Prezident İlham Əliyev yüksək səviyyədə keçirilən görüşlərin əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığını bildirdi. Təkcə bu il Azərbaycan və Rusiya dövlət başçıları arasında çoxsaylı görüşlərin keçirildiyini vurğulayan Prezident İlham Əliyev son dəfə Sankt-Peterburqda Rusiya Prezidenti ilə təmaslarını məmnunluqla xatırladı. Dövlətimizin başçısı bu il, eyni zamanda, ölkələrimiz arasında xeyli sayda sazişlərin və sənədlərin imzalandığını vurğulayaraq, qarşılıqlı fəaliyyətin səviyyəsinin daha da yüksəldilməsi məqsədilə ölkələrimiz tərəfindən əldə olunmuş razılıqların icra edilməsinin önəmini qeyd etdi və buna nail olunduğunu bildirdi. Rusiya ilə Azərbaycanın dostluq münasibətlərinin tarixi sınaqlardan çıxdığını qeyd edən Prezident İlham Əliyev bu gün ölkələrimizin etibarlı tərəfdaş olduğunu, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın yüksək səviyyəyə qalxdığını dedi və Valeri Gerasimovun ölkəmizə səfərinin bu sahədə əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günündə dövlətimizin başçısı ilə görüşünü yüksək qiymətləndirdi. O, Ulu Öndərin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarlarını ziyarət və xatirələrini ehtiramla yad edəcəklərini vurğuladı. NATO və ABŞ nümayəndələri ilə artıq neçənci dəfədir ki, Bakıda görüşdüklərini qeyd edən Valeri Gerasimov paytaxtımızın bunun üçün çox münasib bir məkan olduğunu və bu cür görüşlər üçün burada hər cür şəraitin yaradıldığını vurğuladı.

İkitərəfli münasibətlərə toxunan Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov əlaqələrimizin müxtəlif sahələrdə, o cümlədən hərbi və hərbi-texniki sahədə uğurla inkişaf etdiyini bildirdi.

Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### *Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib.Rusiya xarici işlər nazirini salamlayan Prezident İlham ƏLİYEV dedi:

– Hörmətli Sergey Viktoroviç, mən Sizi Azərbaycanda görməyə çox şadam. Xoş gəlmisiniz. Sizin səfəriniz bizim ikitərəfli əməkdaşlığın vacib məsələlərini müzakirə etmək üçün yaxşı imkandır. Özü də bu səfər Yeni il ərəfəsindədir.

Səfər bizim birgə işimizin 2019-cu il üçün planlarını müəyyənləşdirmək, həm də bu il hansı işlərin görüldüyünü təhlil etmək üçün yaxşı imkandır. Deməliyəm ki, 2018-ci il münasibətlərimizin inkişafı baxımından çox məhsuldar il olub. Yüksək səviyyədə xeyli görüşlər, o cümlədən mənim Rusiyaya sentyabrın əvvəlində rəsmi səfərim və Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin sentyabrın sonlarında Azərbaycana səfəri olub. Bu səfərlər çərçivəsində biz qarşılıqlı fəaliyyətimizin çox mühüm məsələlərini müzakirə etmişik, gələcək əməkdaşlıq yollarını müəyyənləşdirmişik. Həm də əminəm ki, uğurla həyata keçiriləcək çoxlu sayda sənəd imzalanıb. Bu, bizim münasibətlərimizə əlavə dinamika verəcək.

Biz beynəlxalq strukturlarda fəal qarşılıqlı fəaliyyət göstəririk. Lap bu yaxınlarda – bir həftə əvvəl MDB-nin Sankt-Peterburqda qeyri-formal sammiti keçirildi. Bu, təşkilatın üzvlərinin fəaliyyətini gücləndirmək üçün çox əlamətdar hadisə idi. Bu il aktiv fəaliyyətə başlayan hökumətlərarası komissiyanın yeni tərkibi formalaşdırılıb. Bu yaxınlarda görüşəcəklər. Həmçinin Rusiya-Azərbaycan İşgüzar Şurasının yeni tərkibi formalaşdırılıb. Yəni, biz ticari-iqtisadi əlaqələrə, investisiya proqramlarına dinamika vermişik. Düşünürəm ki, nəticələr çox yaxşı olacaq.

Əlbəttə, biz bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələləri də müzakirə edəcəyik. Ümid edirik ki, 2019-cu il nizamlanma prosesinə yeni impuls verəcək. Əlbəttə ki, münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Rusiyanın səylərinə ümid edirik. Biz bir çox sahələrdə qarşılıqlı fəaliyyət göstəririk. Mən, həmçinin Şimal-Cənub dəhlizinin yaradıl-

ması ilə bağlı bizim fəaliyyətimizin nəticələrini məmnunluqla qeyd etmək istərdim. Biz bu istiqamətdə fəal qarşılıqlı fəaliyyət göstəririk. Müvafiq strukturlar, nəqliyyat qurumları çox məhsuldar işləyirlər. Biz bu il artıq yaxşı nəticələri görürük. Biz digər tərəfdaşlarımızla, qonşularımızla bu layihəni mümkün qədər tez başa çatdırmaq üçün birgə səylərimizi davam etdirəcəyik.

Mətbuat qarşısında qeyd etmək istədiyim son məsələ bizim humanitar əməkdaşlığımız haqqındadır. Bildiyiniz kimi, bu yaxınlarda Rusiya və Azərbaycan prezidentlərinin himayədarlığı ilə Bakıda növbəti Humanitar Forum keçirilib. Prezident Vladimir Putin Forum iştirakçılarına məktub göndərib. Bu Forum humanitar məsələləri müzakirə etmək üçün mühüm beynəlxalq meydandır.

Bir daha münasibətlərimizin bu cür təşəkkülündən məmnunluq ifadə edirəm və ümidvaram ki, gələcəkdə də belə yaxşı nəticələr olacaq. Bir daha xoş gəlmisiniz.

* * *

Rusiyanın xarici işlər naziri Sergey LAVROV dedi:
– Hörmətli İlham Heydər oğlu.

Son altı ayda Azərbaycanın sədrlik etdiyi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının xətti ilə sabah Bakıda keçiriləcək tədbirlərlə bağlı bizi qəbul etdiyinizə görə çox sağ olun. Bu vəzifənin həmkarlarınız tərəfindən çox uğurla yerinə yetirilməsi münasibətilə Sizi təbrik edirəm. Bizim mövqeyimiz ondan ibarətdir ki, bu təşkilat Qara dəniz regionunda qarşılıqlı fəaliyyət çərçivəsində birgə işimizi səfərbər etməyə davam etməlidir.

Sizə Vladimir Vladimiroviç Putinin ən xoş arzularını və salamlarını çatdırıram. O, Sizin strateji tərəfdaşlığımızı irəli aparmağa imkan verən şəxsi münasibətinizi yüksək qiymətləndirir. Artıq hesabladığımız kimi, sizin bu il altı dəfə keçirilən görüşləriniz, son görüşləriniz, o cümlədən qarşılıqlı səfərlər zamanı əldə olunan razılaşmalar yerinə yetirilir. Hökumətlərarası Komissiyanın sabahkı iclası da yəqin ki, sizin razılaşdırdığınız istiqamətlər – ticarətin asanlaşdırılması, büdcə-vergi sahəsinin rəqəmsallaşdırılması, nəqliyyat sahəsində əməkdaşlıq, birgə müəssisələrin yaradılması, Siz qeyd etdiyiniz kimi, humanitar əlaqələr, ən müxtəlif sahələr, o cümlədən bizim əməkdaşlığımızın vacib sahəsi olan Rusiya və Azərbaycanın regionları arasındakı qarşılıqlı fəaliyyətə təkan verəcək. Biz Azərbaycanla beynəlxalq arenada, BMT-də, Avropa Şurasında qarşılıqlı fəaliyyəti qiymətləndiririk. İndi Avropa Şurasının strukturlarında bütün üzv ölkələrin bərabər hüquqlarının təmin olunduğu bu təşkilatın Nizamnaməsinin əsas qaydalarına yenidən baxılması cəhdləri var. Biz ATƏT-də də birlikdə işləyirik.

Əlbəttə, biz Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Bakı ilə Yerevan arasında birbaşa dialoqa kömək göstərməyə davam etmək istəyirik. Bilirəm ki, Sizin Ermənistanın baş naziri ilə birbaşa danışıqlarınız olub. Mənim həmkarım və dostum Elmar Məhərrəm oğlu Məmmədyarovun Ermənistanın xarici işlər naziri vəzifəsini icra edən Zöhrab Mnatsakanyanla danışıqları olub. Bu gün biz əlbəttə ki, Sizin irəliyə doğru hansı addımlar atılacağını necə dəyərləndirdiyinizi bilməkdə son dərəcə maraqlıyıq. İstəyirik ki, münaqişə ədalətli, qarşılıqlı məqbul həll olunsun. Rusiya Federasiyası həm öz səyləri ilə, həm də ATƏT-in Rusiya, Fransa və ABŞ-ın daxil olduğu Minsk qrupunun həmsədr üçlüyünün üzvü kimi bu cür razılaşmaların əldə edilməsinə nail olmaq üçün əlindən gələni edəcək. Bir daha bu imkana görə çox sağ olun.

### *Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib. Dövlətimizin başçısı, ilk növbədə, Ankarada dəmir yolu qəzası nəticəsində insan tələfatı ilə əlaqədar başsağlığı verdi. Prezident İlham Əliyev Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bu gün ən yüksək səviyyədə olduğunu qeyd etdi, 2018-ci ilin əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından çox məhsuldar il olduğunu dedi. Özünün Türkiyəyə çoxsaylı səfərlərinə və eləcə də Türkiyə Prezidentinin Azərbaycana səfərlərinə toxunan dövlətimizin başçısı bildirdi ki, birgə iştirak etdiyimiz layihələrin açılışları, Azərbaycanla Türkiyənin təşkil etdiyi hərbi parad və digər önəmli hadisələr birliyimizi bütün dünyaya nümayiş etdirdi. Birgə həyata keçirilən layihələrdən danışan Prezident İlham Əliyev TANAP, TAP, Bakı-Tbilisi-Qars və eləcə də digər layihələrin dünya üçün böyük əhəmiyyət daşıdığını və ölkələrimizin bütün məsələlərlə bağlı bir-birini dəstəklədiyini dedi. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində Türkiyənin hər zaman birmənalı şəkildə Azərbaycanın yanında olduğunu və Türkiyənin bu məsələ ilə bağlı verdiyi son açıqlamaları məmnunluq hissi ilə qeyd etdi, qardaş ölkənin bu mövqeyinə görə minnətdarlığını bildirdi.

Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu qəbula və başsağlığına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Mövlud Çavuşoğlu Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Türkiyəli nazir qeyd etdi ki, qardaş Azərbaycan və Azərbaycanın lideri Prezident İlham Əliyev hər zaman Türkiyənin yanında olub və Türkiyə də eyni şəkildə həmişə Azərbaycanın yanındadır. Mövlud Çavuşoğlu Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Xarici İşlər Nazirləri Şurasının

39-cu iclasına toxunaraq bu tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təbriklərini çatdırdı. O, Azərbaycanın mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrildiyini məmnunluqla qeyd etdi. Mövlud Çavuşoğlu bildirdi ki, Azərbaycan və Türkiyə dövlətləri başçılarının səmimi dostluğu və qardaşlığı, onların verdiyi tapşırıqlar sayəsində iki ölkənin Xarici İşlər nazirlikləri sıx qarşılıqlı fəaliyyət göstərirlər. O, eyni zamanda, ölkələrimizin həyata keçirdiyi qlobal layihələrin önəmini qeyd etdi və qarşıda bir çox görüləsi mühüm işlərin olduğunu dedi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü əsasında həlli ilə bağlı Türkiyənin bundan sonra da güclü dəstək verəcəyini qeyd etdi.

Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

### *İran İslam Respublikasının informasiya və milli təhlükəsizlik naziri Seyid Mahmud Ələvinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də İran İslam Respublikasının informasiya və milli təhlükəsizlik naziri Seyid Mahmud Ələvini qəbul edib. Dövlətimizin başçısı Azərbaycan-İran əlaqələrinin çox uğurla inkişaf etdiyini və bu gün yüksək səviyyədə olduğunu dedi. Prezident İlham Əliyev həm özünün İrana, həm də İran Prezidentinin Azərbaycana səfərlərini məmnunluqla xatırlayaraq bu səfərlərin münasibətlərimizin möhkəmlənməsində rolunu qeyd etdi. Xalqlarımız arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu deyən Prezident İlham Əliyev bu gün bizim dost və qardaş iki ölkə kimi əlaqələrimizin genişləndiyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin ikitərəfli əsasda imzaladığı sənədlərin uğurla icra edildiyini bildirdi. Prezident İlham Əliyev İran İslam Respublikasının informasiya və milli təhlükəsizlik naziri Seyid Mahmud Ələvinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

İnformasiya və milli təhlükəsizlik naziri Seyid Mahmud Ələvi, ilk növbədə, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin səmimi salamlarını dövlətimizin başçısına çatdırdı. O bildirdi ki, Prezident Həsən Ruhani Azərbaycan Prezidenti barəsində danışan zaman onu bir qardaş kimi görür və hər zaman Prezident İlham Əliyevin qurucu insan olduğunu qeyd edir.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

### *Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozovun başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Sergey Morozovun bu vəzifəyə təyin olunmasından keçən qısa bir müddət ərzində Azərbaycana səfər etməsindən məmnunluğunu bildirdi və bunu uğurlu əməkdaşlığımızın təzahürü kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycanla Həştərxan arasında tarixi əlaqələrin mövcud olduğunu qeyd edərək, bu gün əməkdaşlığın genişləndiyini və birgə layihələrin həyata keçirildiyini vurğuladı və bütün bunların Azərbaycanla Rusiya arasında mövcud olan dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi işinə xidmət etdiyini bildirdi. Həştərxanda Azərbaycan İşgüzar Mərkəzinin fəaliyyət göstərdiyini, Bakıda da Həştərxan İşgüzar Mərkəzinin inşasına başlanıldığını qeyd edən dövlətimizin başçısı təhsil, mədəniyyət sahələrində əməkdaşlığın yaxşı səviyyəsindən məmnunluğunu ifadə etdi və turizm sahəsində əlaqələrin genişləndirilməsi üçün böyük perspektivlərin mövcud olduğunu dedi. Prezident İlham Əliyev bir daha Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında əməkdaşlığın uğurla və davamlı şəkildə inkişaf edən Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafına töhfə verdiyini bildirdi və ikitərəfli əlaqələrimizin genişləndirilməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin və müxtəlif beynəlxalq səviyyədə təmaslarının rolunu xüsusi olaraq qeyd etdi.

Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozov Rusiya Prezidenti Vladimir Putinin Xəzəryanı ölkələrlə əməkdaşlığın genişləndirilməsi barədə tapşırıqlar verdiyini qeyd edərək ilk səfərini Azərbaycana həyata keçirdiyini məmnunluqla vurğuladı. O, nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirərək Bakıdakı inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi. Həştərxan vilayəti ilə Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini deyən Sergey Morozov bunun Rusiya-Azərbaycan ikitərəfli münasibətlərinin inkişafı işinə xidmət etdiyini bildirdi.

Sonra Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozov Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlığın inkişafına və dostluq münasibətlərinin möhkəmlənməsinə verdiyi böyük töhfəyə görə Prezident İlham Əliyevə "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordenini təqdim etdi.

Sonda xatirə şəkli çəkdirildi.

***Serbiya Respublikasının Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiçin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Serbiya Respublikasının Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiçi qəbul edib. Serbiyanın Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiç, ilk növbədə, Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik etdi, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzuladı. Eyni zamanda, Rasim Lyayiç Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdıraraq, Serbiya tərəfinin Prezident İlham Əliyevin Belqrada səfərini səbirsizliklə gözlədiklərini bildirdi. O, Belqradda Azərbaycan ilə Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclasının uğurla keçirildiyini vurğulayaraq, orada əməkdaşlığımızın genişlənməsi ilə bağlı istiqamətlərin müəyyən edildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Serbiyanın Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiçin səfərinin əlaqələrimizin perspektivləri ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Serbiya Prezidenti ilə bu il beynəlxalq tədbirlər çərçivəsində təmaslarını məmnunluqla xatırlayan Prezident İlham Əliyev müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsi baxımından əhəmiyyətli olduğunu qeyd etdi.

Söhbət zamanı ikitərəfli münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsində uğurla inkişaf etdiyi bildirildi, iqtisadi sahədə əməkdaşlığın siyasi sahədə əlaqələrin səviyyəsinə yüksəlməsi istiqamətində səmərəli işlərin həyata keçirildiyi bildirildi, əməkdaşlığımızın bütün sahələrdə, o cümlədən infrastruktur, kənd təsərrüfatı, turizm və informasiya-kommunikasiya texnologiyaları sahələrində dinamik şəkildə inkişaf etdiyi qeyd olundu.

Dövlətimizin başçısı Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiya Prezidentinə çatdırmağı xahiş etdi.

***Türkiyə Respublikasının daxili işlər naziri Süleyman Soylunun başçılıq etdiyi nümayəndə heyətinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Türkiyə Respublikasının daxili işlər naziri Süleyman Soylunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək, bu il bu münasibətlərin daha da yüksək zirvəyə qalxdığını qeyd etdi. Prezident İlham Əliyev ölkələrimizin dövlət başçıları arasında həm Azərbaycanda, həm Türkiyədə, həm də beynəlxalq tədbirlərdə keçirilən görüşlərin və çoxsaylı təmasların əlaqələrimizin daha da möhkəmlənməsi baxımından xüsusi rol oynadığını bildirdi. Dövlətimizin başçısı bu il, eyni zamanda, bir çox mühüm birgə layihələrin, o cümlədən TANAP və STAR layihələrinin açılış mərasimlərinin olduğunu qeyd edərək, siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə çox gözəl əməkdaşlığın həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev bu il Türkiyə Prezidentinin iştirakı ilə keçirilən Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradı dostluq və qardaşlıq münasibətlərimizin parlaq təzahürü kimi dəyərləndirdi. Dövlətimizin başçısı qarşıdan gələn ilin də Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında uğurlu il olacağına əminliyini ifadə etdi və Türkiyənin daxili işlər naziri Süleyman Soylunun Azərbaycana səfərinin əməkdaşlığımızın genişlənməsi işinə töhfə verəcəyini dedi.

Qəbula görə minnətdarlığını bildirən Türkiyənin daxili işlər naziri Süleyman Soylu, ilk növbədə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyə xalqının salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Türkiyə-Azərbaycan əlaqələrinə toxunan Süleyman Soylu qeyd etdi ki, əlaqələrimiz böyük lider, görkəmli dövlət xadimi Heydər Əliyevin dediyi kimi "Bir millət, iki dövlət" prinsipi üzərində qurulub və bu gün uğurla inkişaf edir. O bildirdi ki, Azərbaycan və Türkiyə dövlətləri başçılarının uğurla inkişaf etdirdiyi bu əlaqələr bu gün regiona və dünyaya böyük töhfə verir və qardaşlıq münasibətlərinin bir nümunəsidir. Türkiyəli nazir qeyd etdi ki, başda Dağlıq Qarabağ məsələsi olmaqla Azərbaycanın kədəri Türkiyənin kədəri, sevinci isə Türkiyənin sevincidir.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

**_Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyrin etimadnaməsinin qəbulu_**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyrin etimadnaməsini qəbul edib. Səfir Həməd bin Abdullah bin Səud bin Xudeyr fəxri qarovul dəstəsinin qarşısından keçdi. Həməd bin Abdullah bin Səud bin Xudeyr etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini qeyd edən dövlətimizin başçısı əməkdaşlığın yüksək səviyyədə olduğunu, güclü siyasi əlaqələrin qurulduğunu bildirərək ölkələrimizin bir-birini beynəlxalq təşkilatlarda dəstəkləməsinin bunun parlaq təzahürü olduğunu dedi. Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın haqlı və ədalətli mövqeyini ardıcıl surətdə dəstəkləməsinin yüksək qiymətləndirildiyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin iqtisadi, ticarət, investisiya sahələrində əməkdaşlığın daha da genişləndirilməsinə qarşılıqlı maraq göstərdiklərini və bu istiqamətdə birgə fəaliyyət həyata keçirdiklərini bildirdi. Prezident İlham Əliyev Səudiyyə Ərəbistanından ölkəmizə gələn turistlərin sayının sürətlə artmasını əlaqələrimizin gözəl nümunəsi kimi dəyərləndirdi. Dövlətimizin başçısı əməkdaşlığımızın geniş gündəliyə malik olduğunu qeyd edərək Həməd bin Abdullah bin Səud bin Xudeyrin səfir kimi fəaliyyəti dövründə qardaşlıq münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyr xoş sözlərə görə minnətdarlığını bildirərək İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı. O vurğuladı ki, Kral Salman bin Əbdüləziz Al Səud Azərbaycanla əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir.

Səfir Həməd bin Abdullah bin Səud bin Xudeyr Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd etdi, iqtisadi-ticari, investisiya, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. O, ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarına görə təşəkkür etdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.

**_Braziliya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruzun etimadnaməsinin qəbulu_**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Braziliya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruzun etimadnaməsini qəbul edib.

Səfir Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanın Braziliya ilə əlaqələrə böyük önəm verdiyini qeyd edərək ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Siyasi sahədə əlaqələrin qarşılıqlı anlaşmaya əsaslanaraq tarazlı şəkildə inkişaf etdiyini bildirən Prezident İlham Əliyev ticari-iqtisadi əlaqələrin və kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı fəaliyyətin artırılmasının zəruriliyini qeyd etdi. İki ölkə arasında aviasiya sahəsində əməkdaşlığa toxunan dövlətimizin başçısı, həmçinin mədəniyyət və turizm sahələrində də əlaqələrin inkişafı üçün geniş potensialın olduğunu bildirdi.

Prezident İlham Əliyev Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruza səfir kimi Azərbaycanda fəaliyyəti dövründə uğurlar arzuladı.

Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz Braziliyanın dövlət başçısının salamlarını Prezident İlham Əliyevə çatdırdı və Azərbaycanda fəaliyyətə başlamasından böyük məmnunluq hissi keçirdiyini qeyd etdi.

Səfir ölkələrimiz arasında siyasi məsləhətləşmələrin aparıldığını qeyd edərək iqtisadi, ticarət və digər sahələrdə iki ölkənin mövcud potensialından istifadə edilməsi üçün səylərin artırılmasının zəruriliyini bildirdi. O, ümidvar olduğunu dedi ki, iqtisadi məsələlər üzrə ikitərəfli işçi qrupunun keçirilməsi nəzərdə tutulan növbəti iclası bu istiqamətdə əməkdaşlığın inkişafına töhfə verəcək.

Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz ölkələrimiz arasında dostluğun və əməkdaşlığın inkişaf etdirilməsi üçün səylə çalışacağını bildirdi.

Prezident İlham Əliyev Braziliya dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarının çatdırılmasını xahiş etdi.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏFƏRLƏRİ

## *Xızı və Quba rayonlarına səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunda aparılan tikinti işlərinin gedişi ilə tanış olub

Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-ci kilometrliyindən, H.Z.Tağıyev qəsəbəsindən başlayan 92 kilometr uzunluğundakı yol 1B texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Quba rayonuna səfər çərçivəsində avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olublar.

Qeyd edək ki, regionların davamlı inkişafının təmin olunması üçün müasir yol infrastrukturunun yaradılması müstəsna əhəmiyyət daşıyır. Son illərdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla icrası nəticəsində ölkəmizdə magistral, yerli əhəmiyyətli şəhərlərarası və kəndlərarası avtomobil yolları əsaslı şəkildə yenidən qurularaq təkmilləşdirilib, həmçinin yeni avtomobil yolları, körpülər və yol ötürücüləri inşa edilərək əhalinin istifadəsinə verilib. Bu tədbirlərin davamı kimi, Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun H.Z.Tağıyev qəsəbəsindən başlayaraq tikilməsi ilə bağlı Prezident İlham Əliyevin imzaladığı Sərəncam mühüm əhəmiyyət daşıyır. Artıq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi layihənin icrası məqsədilə sürətlə və keyfiyyətlə tikinti işləri aparır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-ci kilometrliyindən, H.Z.Tağıyev qəsəbəsindən başlayan 92 kilometr uzunluğunda olan yol 1B texniki dərəcəyə uyğun inşa edilir. Dörd hərəkət zolaqlı olacaq yolun layihəsi 4 lotdan ibarətdir və hazırda tikinti işləri 1-ci lotda aparılır. Bu hissədə yolun beton örtüyünün sökülərək qaldırılması və yol yatağının yenidən tikilməsi işləri görülür. Artıq 1-ci lot üzrə layihənin 0-7-ci kilometrlik hissəsində asfaltlanma işləri əksər ərazidə yekunlaşdırılıb. Bundan əlavə, 1-ci lot üzrə 2 yol qovşağı, yol ötürücü körpü, kanal körpüsü, 4 yeraltı avtomobil keçidi, müxtəlif ölçülərdə 33 beton borunun tikintisi, meliorasiya xətləri ilə kəsişmələrdə müvafiq tədbirlərin görülməsi, müxtəlif gərginlikli elektrik-rabitə xətlərinin, su, beynəlxalq əhəmiyyətli qaz və neft xətlərinin köçürülməsi, yolun ayırıcı zolağında, ümumilikdə, cəmi 31 min paqonmetr beton baryerlərin tikilməsi nəzərdə tutulub. Layihələndirilən magistral yol əsasən yaşayış məntəqələrindən və sənaye müəssisələrindən kənar keçir.

Yeni yolun tikinti layihəsinə uyğun olaraq əsas qəsəbə və rayon mərkəzlərindən magistrala giriş-çıxış yolları çəkiləcək. Yolun ətraf mühitə, o cümlədən faunaya mənfi təsirini azaltmaq məqsədilə heyvanlar üçün yolaltı keçidlərin tikintisi və səsboğucu qurğuların quraşdırılması nəzərdə tutulur. Yeni inşa edilən yol 92 kilometrdən sonra Şabran rayonunun Gəndov kəndindən Rusiya sərhədinədək uzanan 60 kilometrlik yola birləşəcək. Bununla da yeni avtomobil yolunun uzunluğu 152 kilometr təşkil edəcək. Ödənişli olacaq yeni avtomobil yolunun tikintisi nəqliyyat xidmətlərini daha da yaxşılaşdırmaqla yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi ilə yük və sərnişin daşımalarında əsas rol oynayaraq, respublikamızın iqtisadi maraqlarına uyğun olaraq yüklərin, o cümlədən tranzit yüklərin daha geniş cəlb edilməsinə, yük həcminin çoxalmasına və gəlirlərin artmasına, ölkəmizin nəqliyyat infrastrukturunun inkişafına, yeni iş yerlərinin açılmasına və bir çox sosial problemlərin həllinə şərait yaradacaq.

Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrinin ərazisindəki 50 MVt-luq “Yeni Yaşma” Külək Elektrik Parkının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı Külək Elektrik Parkının rəmzi açılışını bildirən lenti kəsdilər.

“Azərenerji” ASC-nin prezidenti Baba Rzayev məlumat verdi ki, “Yeni Yaşma” Külək Elektrik Parkı bu il yenidən qurulub. Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrində yerləşən Külək Elektrik Stansiyasında yenidənqurma işlərini Almaniyanın “Berlin Wind” şirkəti aparıb. Yanvar ayında ilk turbin işə salınmaqla ay üzrə cəmi 200 min kVt/saat elektrik enerjisi istehsal olunurdusa, hazırda 20 külək turbini tam gücü ilə işləyir və elektrik enerjisinin istehsalı ay üzrə 9 milyon kVt/saata yaxındır. Parkın ərazisində inzibati bina inşa edilib, burada idarəetmə mərkəzi, işçi heyəti üçün xidməti otaqlar, habelə elektrik avadanlığının-yuvaların quraşdırılması üçün 20 kV-luq bölmə və Təlim-Tədris Mərkəzi yaradılıb. İdarəetmə mərkəzində turbinlərin iş rejimləri, istismar vəziyyəti, texniki parametrləri, küləyin sürəti, növbəti günlər üçün külək proqnozu və enerji istehsalı onlayn izlənilir. Stansiyanın səmərəli fəaliyyətini təmin etmək üçün müasir tipli rele mühafizəsi, avtomatika və SCADA sistemi yaradılıb. İstehsal olunan elektrik enerjisinin ümumi enerji sisteminə ötürülməsi

üçün "Yaşma" hava xəttinə qoşulmaqla "Sitalçay" yarımstansiyasına 110 kV-luq hava xətti çəkilib. Bir sıra xarici şirkətlər tərəfindən yerli mütəxəssislər üçün treninqlər təşkil edilib, həmçinin xarici ölkələrdə keçirilən müxtəlif sertifikatlaşdırılmış kurslarda yerli mütəxəssislərin iştirakı təmin olunub.

Hazırda stansiyanın idarə edilməsi, servis və istismar işləri tamamilə yerli mütəxəssislər tərəfindən icra olunur. Parkda alternativ və bərpaolunan enerji mənbələri üzrə kadr hazırlığı məqsədilə xüsusi Təlim-Tədris Mərkəzi fəaliyyət göstərir. Parkın ümumi ərazisi 540 hektardır. Burada 9800 poqonmetr uzunluğunda qəfəsli çəpər çəkilib, ümumi sahəsi 571 kvadratmetr olan anbar binası tikilib, gübrə və yağ depoları, zəhərli maddələrin saxlanılması üçün xüsusi otaq və xidməti bölmələr yaradılıb. Ərazidən səmərəli istifadə olunması üçün torpaq nümunələri İtaliyada laborator müayinədən keçirilib və nəticələrə əsasən 450 hektar sahədə zeytun və badam bağları salınıb. Bağların suvarılması məqsədilə Taxtakörpü-Ceyranbatan su kanalının 72-ci kilometrliyində suqəbuledici baş qurğu tikilib, 23 kilometrlik su xətti çəkilib, su anbarı və nasos stansiyası inşa edilib. Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 55-ci kilometrliyindən 1,8 kilometrlik yeni avtomobil yolu çəkilib.

"Yeni Yaşma" Külək Elektrik Parkı Cənubi Qafqazın ən böyük külək elektrik parkıdır. Stansiyanın istismara verilməsi nəticəsində Azərbaycanda alternativ enerjinin ümumi istehsalda payı 0,7 faizdən 1,8 faizədək artacaq.

Dövlətimizin başçısına 3,6 MVt gücündə Yaşma Bağları Külək Elektrik Parkı və 1,7 MVt gücündə Şuraabad Külək Elektrik Parkı barədə də məlumat verildi. Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq Bakı-Quba yolunun digər tərəfində yerləşən Yaşma Bağları ərazisindəki 4 turbin təmir olunaraq, istismara hazır vəziyyətə gətirilib. Elektrik enerjisinin şəbəkəyə ötürülməsi üçün 35 kV-luq yarımstansiya inşa edilib və 3,8 kilometr uzunluğunda hava xətti çəkilib. Şuraabad Külək Elektrik Parkında da 1,7 MVt gücündə 2 turbinlə bağlı təftiş işləri aparılıb, stansiyaya məxsus 35 kV-luq yarımstansiya elektrik enerjisinin şəbəkəyə ötürülməsi üçün yenidən qurularaq istismara verilib. Turbinlərin idarə edilməsi SCADA sisteminə inteqrasiya olunub.

Sonda Külək Elektrik Parkının kollektivi ilə xatirə şəkli çəkdirildi.

Quba rayonunun İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti-Çayqışlaq avtomobil yolu istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 11 yaşayış məntəqəsini birləşdirən və uzunluğu 33 kilometr olan yolun açılışını edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov məlumat verdi ki, dördüncü texniki dərəcəyə uyğun tikilən iki hərəkət zolaqlı yolun hərəkət hissəsinin eni 6 metrdir. Bütün texniki standartlara uyğun salınan yol üzərində zəruri yerlərdə siqnal dirəkləri, yol nişanları və göstərici lövhələr quraşdırılıb. Ümumi uzunluğu 528 metr olan su ötürücü borular tikilib, yol cizgi xətləri çəkilib. Avtomobil yolunun tikintisi 11 yaşayış məntəqəsini birləşdirərək sərnişin və yük daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcək. Beləliklə, yeni yol mənzil başına rahat və təhlükəsiz çatmağa hərtərəfli şərait yaradacaq. Bu layihənin icrası, ümumilikdə, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini də təmin edəcək. Bir sözlə, yeni yolun inşası yolboyu yaşayan vətəndaşların sosial rifahına birbaşa təsir göstərəcək, kənd təsərrüfatı məhsullarının rahat və tez daşınmasına münbit şərait yaradacaq.

Bundan başqa, bu layihə digər mühüm bir məqamı da özündə birləşdirir. Belə ki, yerli və xarici turistlərin ərazidə yerləşən istirahət mərkəzləri və tarixi mədəniyyət abidələri ilə tanış olmasına da hərtərəfli şərait yaranacaq.

İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti-Çayqışlaq avtomobil yolu Prezident İlham Əliyevin bu ilin sentyabrında imzaladığı sərəncama əsasən tikilib.

Dövlətimizin başçısına Quba-Xaçmaz avtomobil yolunun yenidən qurulması barədə də məlumat verildi. Bildirildi ki, regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun yenidən qurulan yol 78,4 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirir. 3-cü texniki dərəcəyə aid 2 zolaqlı yolun uzunluğu 22 kilometr, eni isə 7 metrdir.

Bundan əlavə, Prezident İlham Əliyevə Quba-Qonaqkənd avtomobil yolunun tikintisinin layihəsi barədə məlumat verildi. Uzunluğu 46 kilometr olan yol üzərində tikiləcək 9 körpünün layihəsi hazırlanıb. Bununla yanaşı, Quba-Susay-Xınalıq avtomobil yolu da yenidən qurulacaq.

Layihə ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, dördüncü texniki dərəcəyə uyğun inşa olunacaq yolun uzunluğu 55,7 kilometr, hərəkət hissəsinin eni 6 metrdir. İki hərəkət zolağından ibarət olan yolun tikilməsi bu bölgədə təxminən 5 min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini, həmçinin Quba şəhərini Xınalıq kəndi ilə birləşdirərək sərnişin və yük daşınmasını xeyli yaxşılaşdıracaq.

Sonra dövlətimizin başçısı Quba rayonunun İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti-Çayqışlaq avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kənd Təsərrüfatı Nazirliyinin Qubadakı Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun əsaslı təmirdən sonra fəaliyyəti ilə tanış olublar.

Dövlət başçısı və xanımı elmi-tədqiqat institutunun binasında yaradılan şəraitlə maraqlanıblar.

Kənd təsərrüfatı naziri İnam Kərimov bildirdi ki, Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu 1926-cı ildə fəaliyyətə başlayıb və 1964-cü ildən Quba rayonunun Zərdabi qəsəbəsində yerləşir. İnstitutda 59 nəfər işçi çalışır, onların arasında elmlər və fəlsəfə doktorları var. Prezident İlham Əliyevin 2015-ci ildə imzaladığı Kənd Təsərrüfatı Nazirliyi sistemində fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi haqqında sərəncamına əsasən Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun ümumi sahəsi 3504 kvadratmetr olan inzibati-laboratoriya binası əsaslı təmir edilib, kommunal sistemləri yenilənib, yardımçı təsərrüfat binaları tikilib. İnstitutda müasir avadanlıqlarla təchiz olunmuş torpaq, bitki və su analizi ilə məşğul olan aqroekologiya və analiz, bitkilərin mikroklonal çoxaltma üsulu ilə artırılması laboratoriyaları yaradılıb. Laboratoriyalarda alınmış bitki sortlarının böyüdülməsi və uyğunlaşdırılması məqsədilə xüsusi istixana-tingçilik kompleksi tikilib.

Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunda yaradılan yeni sahələrdə 35 iş yeri açılıb. Burada 73 hektar ərazidə Lənkəran çayçılıq filialı, 19 hektarda Abşeron təcrübə stansiyası, 50 hektarda Qəbələ, 97 hektarda isə Göyçay dayaq məntəqələri yerləşir. Bundan əlavə, Zaqatala dayaq məntəqəsi, Zərdabi elmi təcrübə stansiyası və Quba yardımçı təcrübə təsərrüfatı da institutun balansına daxildir.

Qeyd olundu ki, təcrübə bazaları əsasən ötən əsrin 50-ci illərində yaranıb. Onların istifadəsində olan ümumi torpaq sahəsi 662 hektardır, onun 557 hektarı isə əkinə yararlı ərazidir. Əsas vəzifələri bitki genofondunun toplanması, saxlanması və seleksiyada istifadə olunması, daha məhsuldar yeni meyvə sortlarının yaradılması, yeni bitki becərmə texnologiyasının işlənməsi və fermerlərə elmi-texniki dəstəyin göstərilməsi olan Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun 50 hektar ərazisində 2017-2018-ci illərdə müasir və məhsuldar meyvə bağları salınıb. Almaniyanın Meyvə və Bitkilərin Seleksiyası Elmi-Tədqiqat İnstitutu, Belarusun Meyvəçilik Elmi-Tədqiqat İnstitutu və Kənd Təsərrüfatı Akademiyası, İngiltərənin "Meosis" Elmi-Tədqiqat Şirkəti, İspaniyanın "Viveros-veron" Tingçilik və Tədqiqat Şirkəti ilə əlaqələr quran Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu Çinin "Anxoy" Aqrar Universiteti və Fransanın meyvəçiliklə məşğul olan "Luare" Kənd Təsərrüfatı Palatası ilə də geniş əməkdaşlıq həyata keçirir.

Prezident İlham Əliyevə əsas hədəfi ixrac potensialının gücləndirilməsi, bağçılığın dayanıqlı inkişafı, keyfiyyətli məhsul istehsalı və innovativ fermerlərin formalaşmasına dəstək olan "Ağıllı bağ layihəsi" barədə məlumat verildi. Həmçinin ixtisaslı mexanizatorların vahid reyestri, fermerlər və mexanizatorları əlaqələndirəcək vahid kommunikasiya sisteminin yaradılması, mexanizatorların peşəkarlıq səviyyəsi və digər göstəricilərinin ölçülməsi və onların ölkə üzrə lokasiyasının öyrənilməsi məqsədini daşıyan "AqroUber" layihəsindən də danışıldı.

Dövlətimizin başçısına yeni yaradılan Dövlət Aqrar Ticarət Şirkətinin fəaliyyəti barədə məlumat verilərkən bildirildi ki, indiyə qədər 300-dən çox fermerin müraciətinə baxılıb. Onlardan alınan 300 min kiloqramdan çox məhsul satışı çıxarılıb. Bu yaxınlarda Cocuq Mərcanlıda 15 fermerin məhsulunun satışı məqsədilə memorandum imzalanıb.

Azərbaycan Prezidentinə "Kənddən Şəhərə" layihəsi haqqında da məlumat verildi. Qeyd olundu ki, layihə çərçivəsində müasir tipli yarmarkaların təşkili, pərakəndə satış mərkəzlərinin qurulması, online sifariş üçün mobil tətbiqin yaradılması nəzərdə tutulur. Layihənin icrası fermerlərin satış bazarlarına birbaşa çıxış probleminin həllində kömək olacaq və şəhər əhalisi kənd məhsullarını innovativ yollarla, əlverişli qiymətlərlə əldə etmək imkanı qazanacaq. Layihənin tərkib hissəsi olaraq Aqrar Birja yaradılacaq və bu yolla kənd təsərrüfatı məhsullarının həm satıcıları, həm də alıcıları vahid platformada birləşəcək, kənd təsərrüfatı məhsullarının qiymət-məlumat bazası yaradılacaq.

Xızı rayonuna səfəri başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev abidənin ətrafında aparılan abadlıq işləri, ümumilikdə, rayonda icra olunan layihələr barədə dövlət başçısına məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Quba Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak ediblər.

Dövlət başçısı və xanımı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdilər.

Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına tibb müəssisəsində yaradılan şərait barədə məlumat verdi. Qeyd olundu ki, Quba Rayon Mərkəzi Xəstəxanası 1964-cü ildə istifadəyə verilib, lakin uzun illər təmir işlərinin aparılmaması səbəbindən bina istismara yararsız vəziyyətdə idi. 230 çarpayılıq yeni xəstəxana binasının tikintisi ilə əlaqədar 2015-ci ildə başlayan inşaat işləri bu ilin sentyabrında başa çatdırılıb. Xəstəxana binasında müasir tibbi avadanlıq quraşdırılıb. Cərrahiyyə, terapiya, uşaq xəstəlikləri, nevrologiya, ginekologiya, travmatologiya şöbələrinin yaradıldığı bu tibb müəssisəsində LOR, infeksion xəstəliklər, şüa-diaqnostika, reanimasiya, qəbul, laboratoriya, təcili tibbi yardım şöbələri və Perinatal Mərkəz də fəaliyyət göstərəcək. Ərazidə əsas korpusla yanaşı, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Quba rayon şöbəsi və digər yardımçı sahələr üçün binalar inşa olunub.

Burada yaradılan şəraitdən görünür ki, vətəndaşların hərtərəfli tibbi xidmətlə təmin edilməsi, onların

müalicə və müayinə işinin yüksək səviyyədə təşkili, gələcəyimiz olan uşaqların sağlam yetişməsi istiqamətində icra edilən layihələr dövlətimizin başçısının daim diqqətində və nəzarətindədir. Bu cür müasir tibb müəssisəsinin istifadəyə verilməsi yalnız Quba sakinlərinə deyil, eyni zamanda, region əhalisinə hərtərəfli tibbi xidmət göstərməyə imkan verir. Onu da deyək ki, 2004-2018-ci illərdə ölkə üzrə 17 şəhər və rayonda mərkəzi xəstəxanalar yenidən tikilib. Bu illər ərzində regionlarda yerləşən 28 xəstəxana binası əsaslı təmir olunub. Artıq Goranboy, Qazax, Qobustan və Şəmkir rayon mərkəzi xəstəxanalarının tikintisi də başa çatdırılıb, Abşeron Füzuli və Qəbələ rayon mərkəzi xəstəxana binalarının inşası isə davam edir.

Sonra Prezident İlham Əliyev səhiyyə ocağının kollektivi ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Bu gün Quba şəhərində çox əlamətdar bir gündür. Qubada Mərkəzi Rayon Xəstəxanası açılır. Mən bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Bu, çox gözəl tibb müəssisəsidir, ən yüksək, müasir standartlara cavab verir. Həm xarici görünüşü, həm daxili tərtibatı və dizaynı çox gözəldir. Əlbəttə ki, burada quraşdırılan tibbi avadanlıq ən yüksək standartlara malikdir. Əminəm ki, burada xəstələrə çox gözəl tibbi xidmət göstəriləcək və xəstələr şəfa tapacaqlar.

Bu tibb müəssisəsi həkimlərin iş yeridir və həkimlərin iş yeri belə gözəl səviyyədə olmalıdır. Bu xəstəxanada bütün şöbələr var. Burada bütün xəstəliklərin müalicəsi mümkündür. Eyni zamanda, diaqnostikası da mümkündür. Onu da deməliyəm ki, bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Quba şəhərində müalicə-diaqnostika mərkəzi yaradılmışdır. Bu xəstəxana Qubada ikinci böyük tibb müəssisəsidir. Əminəm ki, Quba sakinləri bu imkanlardan istifadə edəcəklər.

Belə müasir xəstəxananın bölgədə yaradılması bizim siyasətimizi göstərir. Bu gün Azərbaycanın bütün bölgələrində, hər bir rayonunda müasir tibb müəssisəsi yaradılıb və yaradılır. Bu il altı şəhərdə yeni böyük xəstəxananın istifadəyə verilməsi nəzərdə tutulurdu. Artıq ikinci xəstəxana bu gün istifadəyə verilir. Bundan əvvəl Naftalan şəhər xəstəxanası istifadəyə verilmişdir. İlin sonuna qədər dörd xəstəxananın tikintisinin başa çatması nəzərdə tutulur. Gələn il dörd şəhər xəstəxanası istifadəyə veriləcək, yaxud da ki, tikintisi davam etdiriləcək. Beləliklə, Azərbaycanda bir dənə də şəhər qalmayacaq ki, orada ən müasir xəstəxana olmasın. Nəhayət, biz ölkəmizin səhiyyə sahəsinin maddi-texniki bazasının yaradılmasının tamamlanmasını görəcəyik. Bu, doğrudan da böyük hadisədir. Çünki bu gün ölkəmizdə göstərilən tibbi xidmətin səviyyəsi yüksəlir, imkanlar artır. Biz bu imkanlardan istifadə edib bu gün vətəndaşlara çox gözəl xidmət göstərə bilirik. Siz bilirsiniz ki, bir neçə ildir ölkəmizdə müayinədən keçmə - diaqnostika aparılır. Bu il beş milyondan çox insan bu imkanlardan istifadə edib. Onların bəzilərində olan xəstəliklər aşkarlanıb, onlara tibbi xidmət göstərilib, tövsiyələr verilib. Əgər ciddi xəstəlik varsa, onda onlar Bakı şəhərinə göndəriliblər.

Son 15 il ərzində Azərbaycanda 600-dən çox yeni tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib. Bu, bizim insanların sağlamlığına verdiyimiz böyük töhfəmizdir. İnsanların sağlamlığı ən vacib məsələdir. Bu gün statistikaya, Dünya Səhiyyə Təşkilatının hesablamalarında Azərbaycanın artan reytinqinə baxdıqda görürük ki, bu sahədə çox yaxşı nəticələr var. Azərbaycanda insanların ömrünün uzunluğu artır, körpə-ana ölümü azalır. Əlbəttə ki, bu istiqamətdə daha da böyük addımlar atılacaq. Amma prinsipcə, səhiyyə sisteminin maddi bazasının yaradılması prosesi başa çatmaq üzrədir.

İnsan sağlamlığını şərtləndirən bir çox amillər var. Onların arasında, ilk növbədə, sağlam həyat tərzidir. Mən bütün vətəndaşlara buradan müraciət edirəm ki, sağlam həyat tərzi hər bir vətəndaş üçün əsas prinsip olmalıdır. Diaqnostika, əlbəttə ki, çox vacib rol oynayır. Bu gün ölkəmizdə mövcud olan laboratoriyalar bütün analizləri edə bilər. Vətəndaşlar hər il kütləvi şəkildə müayinədən keçirlər və beləliklə, ciddi xəstəliklərin qarşısı alınır. Profilaktika çox önəmli rol oynayır. Digər tərəfdən, ölkəmizin ekoloji vəziyyəti, əlbəttə ki, insanların sağlamlığına birbaşa təsir göstərir. Bu istiqamətdə də çox vacib addımlar atılır. Havanı çirkləndirən müəssisələrdə, ictimai obyektlərdə təmizləyici qurğular quraşdırılır. İçməli su layihələri uğurla icra edilir, o cümlədən Quba şəhərində beş il bundan əvvəl mənim iştirakımla içməli su layihəsi istifadəyə verilmişdir. İndi müvafiq qurumlar qida təhlükəsizliyi ilə bağlı çox ciddi məşğuldurlar. Keyfiyyətsiz, bəzi hallarda saxta üsullarla hazırlanan qidalar aşkarlanır. Bu cinayətlərə yol verənlər isə cinayət məsuliyyətinə cəlb edilir. İdman, əlbəttə ki, insanların sağlamlığı üçün çox önəmli bir amildir. İdmanla məşğul olmaq üçün indi ölkəmizdə bütün şərait var.

Yəni, biz bu sahəyə kompleks şəkildə yanaşırıq. Səhiyyə sisteminin təkmilləşdirilməsi sosial siyasətimizin əsas istiqamətlərindən biridir və bu yolda çox böyük addımlar atmışıq, böyük uğurlara imza atmışıq. Onlardan biri də bu gözəl tibb müəssisəsidir.

Quba şəhərinin inkişafına həmişə böyük diqqət göstərilmişdir. Mən Prezident kimi, Quba rayonuna 10 dəfə səfər etmişəm. Bu, 11-ci səfərdir. Səfərlər zamanı bir çox obyektlərin açılışlarında iştirak etmişəm. Quba rayonunun inkişafı ilə bağlı çox ciddi tapşırıqlar verilmişdir. Onlar da uğurla icra edilir. Rayonda infrastruktur layihələri icra edilir. Mən içməli su layihəsini qeyd etdim. Bir neçə il bundan əvvəl "Şahdağ" elektrik stansiyasının tikintisi nəticəsində nəinki Quba rayonunun, bütün bölgənin elektrik təminatı böyük dərəcədə yaxşılaşıb. Avtomobil yollarının çəkilməsi davam

etdirilir. Bu gün biz bir kənd yolunun açılışını qeyd etdik. Quba rayonunun əksər kəndlərində yollar artıq yaxşı vəziyyətdədir. Qalan layihələr də növbəti illərdə icra ediləcək. Digər infrastruktur layihələri ilə bağlı addımlar atılır. Ev təsərrüfatlarının 75 faizi təbii qaz ilə təmin edilib. Qırx səkkiz məktəb tikilib, yeddi məktəb əsaslı təmir edilib. "ASAN xidmət" mərkəzi yaradılıb, Gənclər evi, Şahmat məktəbi. Yəni, Quba şəhərində bir çox sosial və iqtisadi-sənaye obyektləri yaradılır, o cümlədən "Azərxalça" İstehsalat Birliyinin Quba filialı. Yəni, iş yerlərinin yaradılması, turizmin inkişafı üçün addımlar atılır. İndi Qubada turistlərin sayı da artır, həm yerli, həm xarici qonaqlar gəlirlər, yeni otellər açılır. Bu gün mən yeni tingçilik müəssisəsinin fəaliyyəti ilə tanış olmuşam. Kənd təsərrüfatının inkişafı üçün bunun çox böyük əhəmiyyəti olacaq.

Ona görə Quba rayonunun kompleks şəkildə inkişafı diqqət mərkəzindədir. Sosial-infrastruktur layihələrimiz, iş yerləri ilə bağlı olan layihələr, turizm, kənd təsərrüfatı. Rayon bu istiqamətdə bundan sonra da inkişaf edəcək. Əlavə göstərişlər də veriləcək. Mən daim rayonlardan gələn təkliflərə baxıram və o təkliflərin böyük hissəsi öz həllini tapır. Biz bunları regionların sosial-iqtisadi inkişafı proqramı çərçivəsində icra edirik.

Növbəti layihələr haqqında da sizə məlumat vermək istəyirəm. Quba şəhərində 5 kommunal ev var. O evlərin vəziyyəti o qədər də yaxşı deyil. Onların əvəzinə 48 mənzilli yeni yaşayış binası tikiləcək. Bu məsələ ilə bağlı müvafiq göstəriş veriləcək. Bir məktəbin tikintisi üçün əlavə vəsait ayrılacaq və kənd yollarının çəkilişi ilə bağlı əlavə tapşırıqlar veriləcək, o cümlədən Quba-Xınalıq yolunun yeni xətti çəkiləcək. Siz bilirsiniz ki, mənim təşəbbüsümlə təqribən on il bundan əvvəl biz Xınalığa yeni yol çəkdik. Artıq on il, bəlkə on ildən bir qədər çox vaxt keçib və bu yolun təmirinə ehtiyac var. Eyni zamanda, mənə verilən məlumata görə, yeni bir istiqamət var. Susay kəndindən Xınalıq kəndinə yeni yolun çəkilişi planlarımızdadır. O, 30 kilometrlik yoldur, eyni zamanda, o yoldan Qrız kəndinə də təxminən 5 kilometrlik bir yol çəkiləcək. Müvafiq göstəriş veriləcək.

Eyni zamanda, Quba-Qonaqkənd yolunun tamamilə yenidən qurulması ilə bağlı müvafiq göstəriş veriləcək. Bu yolun bir hissəsi Rustov kəndinə qədər artıq tikilib. Rustov kəndindən Qonaqkəndə qədər, düzdür, məsafə çox böyükdür və çox böyük maliyyə tələb edən layihədir. Ancaq biz bunu etməliyik. Çünki o yol üzərində bir çox kəndlər var, minlərlə insan yaşayır və indi yol, əlbəttə ki, çox pis vəziyyətdədir. Yəni, belə yol bizə yaraşmır.

Bax, bu layihələr növbəti mərhələdə icra ediləcək. Vəsait dərhal ayrılacaq. Digər layihələrlə bağlı, əlbəttə ki, vətəndaşlar, Quba rayonunun sakinləri müraciət etsinlər. Çünki biz indi regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının üzərində işləyirik. Dördüncü proqram gələn ilin əvvəlində qəbul ediləcək və bu gün Quba rayonunda hələ öz həllini tapmayan layihələr o proqrama salınmalıdır və salınacaq.

Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm və sizə uğurlar arzulayıram. Sağ olun.

Xəstəxananın kollektivi adından dövlətimizin başçısına minnətdarlığını bildirən həkim Kəmalə Heybətova dedi:

– Möhtərəm cənab Prezident və çox hörmətli Mehriban xanım.

İcazə verin, Quba rayonunun sakinləri adından Sizləri salamlayım və rayonumuza "Xoş gəlmisiniz!" deyim.

Bu gün bizim üçün çox əlamətdar bir gündür. Quba Diaqnostika Mərkəzindən sonra rayonumuzda möhtəşəm bir tibb ocağı Sizin xeyir-duanızla istifadəmizə verilir. Siz hər bir zaman çalışmısınız ki, dünya tibb sahəsində əldə edilən ixtiralar və yeniliklər Azərbaycanda da tətbiq olunsun. Bu, bir reallıqdır. Təkcə paytaxt Bakımızda deyil, respublikanın bütün bölgələrində ən müasir tibbi avadanlıqlarla təmin olunan səhiyyə ocaqları tikilir. Bəli, biz bu gün Quba Rayon Mərkəzi Xəstəxanasının timsalında bunun bir daha şahidi oluruq. Buna görə əhalimiz adından Sizə dərin minnətdarlığımızı bildiririk. Sizi əmin edirik ki, çalışacağıq vicdanla işləyək, əhalimizə layiqli tibbi xidmət göstərək, Sizin insan amilinə verdiyiniz dəyərə layiqli töhfəmizi verək.

Cənab Prezident, bilirik ki, insanların sağlamlığı Sizin və çox hörmətli Mehriban xanım üçün prioritet bir məsələdir. Biz hər birimiz Sizin diqqət və qayğınızı hər zaman öz üzərimizdə hiss edirik. Vətəndaşlarımızın ildə bir dəfə pulsuz tibbi müayinələrdən keçirilməsi buna bariz nümunədir. Tapşırığınıza əsasən aparılan tibbi müayinələr zamanı hətta özünü sağlam bilən bir çox insanda bəzi xəstəliklərin ilkin simptomlarını aşkar etmişik. Əgər bu insanlar vaxtında müayinə olunmasaydılar, daha ağır fəsadlarla üzləşə bilərdilər. Bu xəstəxanada bu cür tibbi müayinələr daha mütəşəkkil və daha yaxşı keçiriləcəkdir. Bu, bir mədəniyyətdir və bu mədəniyyəti bizə Siz aşıladınız. Bunun üçün Sizə bir daha dərin minnətdarlığımızı bildiririk.

Sizin bizə olan qayğınız təkcə bununla bitmir. Bütün bölgələrimiz kimi, Quba rayonu da gündən-günə gözəlləşir və sürətlə inkişaf edir. Bu gün Qubada insanların əhval-ruhiyyəsində bir yüksəliş, rayonumuzda bir canlanma hiss olunur. Küçələr abadlaşır, parklar, xiyabanlar salınır. Beynəlxalq standartlara uyğun turizm obyektləri fəaliyyət göstərir. Bəli, bu gün fəxrlə deyə bilərik ki, Quba bölgənin turizm mərkəzinə çevrilib. Heç də təsadüfi deyil ki, rayonumuz turistlərin ən çox üz tutduğu məkanlardan biridir. Bütün bunlar Sizin fəaliyyətinizin sayəsində mümkün olub.

Cənab Prezident, Siz və Mehriban xanım hər bir azərbaycanlı üçün Vətəni sevməyin, xalqına, dövlətinə

layiqli xidmətin nümunəsisiniz. Vətən qarşısında öz xidməti borcunu yerinə yetirən oğlunuz Heydərin andiçmə mərasimində iştirakınız buna bariz nümunədir.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin bir kursantının anası kimi bu hisslər mənə çox doğmadır. Sizə bir daha dərin minnətdarlığımızı bildiririk. Allah Sizi və ailənizi qorusun. Çox sağ olun, var olun.

Sonda xatirə şəkli çəkdirildi.

Quba şəhərində 100 yerlik "Günəş" körpələr evi-uşaq bağçası açılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdilər.

Bağçada yaradılan şəraitlə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, körpələr evi-uşaq bağçasının inşasına ötən il başlanılıb. Bu ilin sentyabrında isə tikinti işləri yüksək keyfiyyətlə başa çatdırılıb. Ümumi sahəsi 1439 kvadratmetr olan bina ikimərtəbəlidir. Yataq, yemək və istirahət otaqlarının olduğu bağçada uşaqlar üçün musiqi otağı və idman zalı yaradılıb. Burada balacaların təlim-tərbiyəsi və onların ilkin biliklərə yiyələnmələri üçün hər cür şərait var. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Körpələr evi-uşaq bağçasında 25 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub.

Bağçanın ərazisində uşaqların əylənməsi üçün meydança yaradılıb, müxtəlif attraksion və idman qurğuları quraşdırılıb. Ətraf ərazidə geniş abadlıq işləri görülüb, binaların fasadları rənglənib.

Qeyd edək ki, ölkəmizdə uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə yüksək diqqət göstərilir. Prezident İlham Əliyevin qayğısı sayəsində indi ölkəmizin hər yerində müasir uşaq bağçaları, uşaq evləri inşa olunur, zəruri avadanlıqla təchiz edilir.

Azərbaycanda yeni uşaq tərbiyə müəssisələrinin inşası sahəsində görülən işlərə dövlətimizlə yanaşı, birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi töhfə verir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı həyata keçirdiyi layihələr bu baxımdan çox mühüm rol oynayır. Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı bir daha sübut edir ki, uşaqların təlim-tərbiyəsi Fondun fəaliyyətinin əsas istiqamətlərindən biridir. Fondun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb.

Ölkəmizdə balacaların sağlam və bilikli yetişmələrinə hesablanmış yeni-yeni uşaq müəssisələrinin yaradılması bir daha sübut edir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətdə bu məsələyə xüsusi yer ayrılır. Beləliklə də, həyata keçirilən bu mühüm layihələr uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və məntiqli nəticəsidir.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ABAD" (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxsin Qubada "ABAD Factory" İstehsalat Kompleksinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı kompleksin rəmzi açılışını bildirən lenti kəsdilər, burada yaradılan şəraitlə tanış oldular.

Prezidentin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, həmçinin "ABAD" publik hüquqi şəxsin direktoru Rüfət Elçiyev bildirdilər ki, "Quba ABAD Factory" İstehsalat Kompleksinin yerləşdiyi bina 1956-cı ildə "Mədəniyyət evi" qismində istifadəyə verilmiş və uzun illər istismar nəticəsində yararsız vəziyyətdə düşmüşdü. İkimərtəbəli binada "ABAD" publik hüquqi şəxs tərəfindən "Paşa Holding"in dəstəyi ilə əsaslı şəkildə təmir-bərpa işləri aparılıb və müasir avadanlıq quraşdırılıb. Kompleksdə bir dəfəyə 140 kiloqram quru meyvə, istehsal gücü saatda 110 kiloqram olan qənnadı məmulatı və 1200 banka olan kompot, gündəlik min litr süd və 600 kiloqram ət məhsulları istehsal edən 5 sahə fəaliyyət göstərəcək. Kompleksin hər istehsal sahəsində növbəlilik prinsipi əsasında 30 nəfərdən ibarət iki "ABAD"çı ailə çalışacaq. Bununla da 30-dək vətəndaş "ABAD" publik hüquqi şəxsin əməkdaşı kimi işlə təmin ediləcək. Bundan əlavə, istehsal prosesində ABAD-çıları xammalla təchiz edəcək yeni ABAD-çıların prosesə qoşulması da nəzərdə tutulur ki, bu da, ümumilikdə, regionda yaşayan 70-80 ailənin məşğulluq və əlavə gəlir əldə etməsinə şərait yaradacaq.

"Paşa Holding"in dəstəyi ilə "ABAD" publik hüquqi şəxs tərəfindən həyata keçirilən "ABAD Gastro Village" layihəsi çərçivəsində isə "Quba ABAD Factory"nin önündə "Food truck park"ı yaradılıb. Qeyd edək ki, ölkədə turizm sahəsində müşahidə olunan inkişaf meyillərinin saxlanılması üçün daim yeni və cəlbedici ictimai iaşə xidmətlərinin təklif edilməsi zəruridir. Bu baxımdan təkrarlı qoşqular vasitəsilə icra edilmiş "ABAD Gastro Village" layihəsinin ölkəmizin müxtəlif bölgələrində, əsasən də şimal rayonlarında səyyar şəkildə fəaliyyət göstərmək imkanına malik olması və tərtibat baxımından cəlbedici görünməsi bu layihənin uğurlu olacağını deməyə əsas verir. "ABAD Gastro Village" kompleksinin səyyar yerdəyişmələr istisna olmaqla daimi dayanıb-durma nöqtəsi Quba "ABAD Factory"nin önündə təşkil edilmiş "Food truck park"ındadır. Burada dönər, bürger, şirniyyat və pizzaların hazırlanması və satışı nəzərdə tutulub.

"Quba ABAD Factory" və "ABAD Gastro Village" komplekslərində, ümumilikdə, 90-100 nəfər vətəndaşın məşğulluğu təmin ediləcək.

Qeyd edək ki, "ABAD" publik hüquqi şəxs Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı Fərmanla yaradılıb. Əsas məqsədi ölkənin sosial-iqtisadi tərəqqisində vətəndaşların fəal iştirakını, kiçik və orta sahibkarlığın inkişafını, əhalinin məşğulluq səviyyəsinin artırılmasını təmin etmək olan "ABAD" rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək verir, sosialyönümlü layihələrin həyata keçirilməsində birbaşa iştirak edir. "ABAD" öz fəaliyyətini regional mərkəzlər vasitəsilə qurur. Masallı, Balakən, Quba rayonlarında artıq belə mərkəzlər fəaliyyətə başlayıb. Dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək verən layihə çərçivəsində "ABAD"çı ailələrə mürəbbə, cem, ət və süd məhsullarının istehsalı üçün xüsusi konteynerlər verilib. İndiyə qədər dekorativ-tətbiqi sənətlə məşğul olan 100-dən çox və kənd təsərrüfatında çalışan onlarla ailəyə dəstək göstərilib. Satışları təşkil etmək məqsədilə "ABAD" paytaxt Bakının müxtəlif yerlərində, həmçinin Şamaxı rayonunun Dəmirçi kəndində mərkəzlər açıb.

"Qubaekoaqrar" Məhdud Məsuliyyətli Cəmiyyətinin kənd təsərrüfatı mallarının istehsalı zavodu istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva zavodun açılışında iştirak ediblər.

Əvvəlcə iqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına Quba-Xaçmaz iqtisadi rayonunda İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun maliyyə dəstəyi ilə regionda yaradılan və fəaliyyəti genişləndirilən müəssisələr barədə məlumat verdi. Bildirildi ki, bu iqtisadi rayonda ümumi dəyəri 376 milyon manat olan 2624 layihənin maliyyələşdirilməsinə 201 milyon manat güzəştli kredit verilib. Bu çərçivədə yaradılan müəssisələr xarici ölkələrə məhsul ixracına başlayıb. Belə ki, Xaçmazdakı fındıq emalı zavodu ötən il 2 milyon dollar dəyərində fındıq, Logistika Mərkəzi və meyvə emalı zavodu 500 min dollar dəyərində quru meyvə, Qusarda Regional Logistika Mərkəzi isə 6,2 milyon dollarlıq meyvə ixrac edib. Keçən il 186,4 min hektar meyvə bağından, ümumilikdə, 955 min ton meyvə istehsal olunub. Məhsulun 29 faizi əsasən Rusiya, Ukrayna, İtaliya, İsveçrə və Almaniya olmaqla, xarici bazarlara ixrac edilib. Ötən il Quba-Xaçmaz iqtisadi rayonu üzrə 263,3 min ton meyvə yığılıb ki, bunun 125,2 min tonu Qubanın payına düşür.

Sonra dövlətimizin başçısı zavodu işə saldı.

İqtisadiyyat naziri Şahin Mustafayev və müəssisənin rəhbəri Emin Məmmədzadə zavodda görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdilər.

Bildirildi ki, "Qubaekoaqrar" MMC-nin kənd təsərrüfatı mallarının istehsalı zavodu sutkada 4 ton fındıq və 2 ton quru meyvə istehsalı gücünə malikdir. Müəssisədə meyvələrin qurudulması, fındığın qovrulması və qablaşdırılması, alma çipsi istehsalı xətləri quraşdırılıb. Əhalidən tədarük edilmiş meyvələr, ilk növbədə, çeşidlənir, yuyulur, içlikdən təmizlənir, dilimlənir və xüsusi qaydada qablaşdırılaraq qurudulması üçün sobaya yerləşdirilir. Sobada hər bir meyvə növünün xüsusiyyətləri nəzərə alınaraq onlar üçün proqramlaşdırılmış xüsusi rejimdə qurutma prosesi həyata keçirilir. Müəssisədə tələbata uyğun olaraq əsasən alma, armud, gavalı, ərik, üzüm və alça quruları, həmçinin alma çipsi istehsal olunaraq müxtəlif çəkilərdə paketlənir. Meyvə quruları sənaye üsulu ilə istehsal olunduğu üçün dadına, əmtəə görünüşünə və yüksək səviyyədə qablaşdırılmasına görə fərqlənir.

Fındığın emalı xəttində isə məhsul ilkin olaraq qurudulur, qabıqdan təmizlənir, çeşidlənir və sonra sobada xüsusi rejimdə qovrulur. Qovrulmuş fındığın soyuduldıqdan sonra müxtəlif çəkilərdə vakuum paketlənməsi həyata keçirilir. İstehsal olunan məhsulların daxili bazarla yanaşı, "Made in Azerbaijan" brendi adı altında xarici bazarlara, xüsusilə Rusiya və ərəb ölkələrinə ixracı nəzərdə tutulur.

Hazır məhsullarla tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, zavodun xammala olan tələbatı Quba və ətraf rayonlardan tədarük edilən məhsullar hesabına ödəniləcək. Bu isə kiçik ailə təsərrüfatlarının inkişafına müsbət təsir göstərəcək və regionda yeni meyvə bağlarının salınmasına stimul yaradacaq. Eyni zamanda, yetişdirilən meyvələr emal olunaraq xarici bazarlara çıxarılacaq ki, bu da regionun ixrac potensialının artırılmasına səbəb olacaq.

Müəssisənin xammala tələbatının davamlı olaraq ödənilməsinin təmin edilməsi məqsədilə növbəti mərhələdə tutumu 2 min ton olan soyuducu anbar kompleksinin qurulması, mövcud istehsal gücünün 2 dəfə artırılması, cem və mürəbbə istehsalının təşkili nəzərdə tutulur. Ümumi dəyəri 3,6 milyon manat olan investisiya layihəsinin maliyyələşdirilməsinə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kredit ayrılıb və bu layihəyə investisiya təşviqi sənədi verilib. İlkin mərhələ üzrə müəssisədə ildə təqribən 2,6 milyon manat dəyərində və ya 1,3 min ton məhsul istehsalı nəzərdə tutulur.

Regionlarda belə emal müəssisəsinin yaradılması dünyanın qabaqcıl texnologiya və təcrübələrinin tətbiqinə, kənd təsərrüfatında ixracyönümlü və rəqabətqabiliyyətli məhsul istehsalına, yeni meyvə bağlarının salınmasına, eləcə də ixracın həcminin çoxalmasına və coğrafiyasının genişləndirilməsinə nail olunması ilə yanaşı, məşğulluğun artırılmasına da səbəb olacaq. Bu layihənin icrası nəticəsində 38 nəfər daimi işlə təmin edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Quba

şəhərində salınan Gənclər Parkında yaradılan şəraitlə tanış olublar.

Dövlət başçısına parkda görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, parkın inşasına bu ilin fevralında başlanılıb. Ərazisi 0,66 hektar olan bu istirahət məkanı 4 hissədən ibarətdir. Burada yaşlı insanlar üçün hissə, idman zonası, gənclər və uşaqlar üçün guşələr yaradılıb. Bundan başqa, Gənclər Parkında 300 kvadratmetr sahəsi olan 2 mərtəbəli restoran da fəaliyyət göstərəcək. Parkda söhbətgahlar quraşdırılıb, uşaqların vaxtlarını səmərəli keçirmələri üçün attraksionlar qoyulub, geniş yaşıllıq zonaları salınıb, müxtəlif dekorativ ağac və gül kolları əkilib, işıqlandırma sistemi yaradılıb. Bir sözlə, bu parkda Quba sakinləri və qonaqların istirahəti üçün hərtərəfli şərait var.

Qeyd edək ki, ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində çoxşaxəli tədbirlər görülür. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti uğurlu nəticələrlə yadda qalır. 2005-2009-cu illəri əhatə edən “Azərbaycan Gəncliyi Dövlət Proqramı” bu prosesdə çox mühüm rol oynayıb. “Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı da bu tədbirlərin məntiqi davamı kimi çıxış edib. Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, dövlətçilik prinsiplərinə, həmçinin tarixi-mədəni keçmişimizə, milli-mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir. Əsas məqsəd təbii ki, onların cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar həyata keçirilir. Ölkəmizin bölgələrində müasir tələblərə cavab verən sosial infrastruktur obyektləri tikilir. Qubada salınan Gənclər Parkı da bu məqsədə xidmət edir.

Prezident İlham Əliyevin Xızı və Quba rayonlarına səfəri oktyabrın 11-də başa çatdı.

## *Lənkəran, Astara və Lerik rayonlarına səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 15-də Lənkəran rayonuna səfərə gəliblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran şəhərindəki Heydər Əliyev xatirə parkında Ulu Öndərin yeni ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.

Lənkəran Rayon İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov dövlətimizin başçısına və xanımına Heydər Əliyev xatirə parkında görülən abadlıq işləri barədə məlumat verdi.

Bildirildi ki, xatirə parkında şəhər sakinlərinin və qonaqların istirahəti üçün hərtərəfli şərait yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Lənkərana səfəri çərçivəsində İstisu və Sağlamlıq Mərkəzinin təqdimatı olub.

Son illər bölgələrdə müasir mehmanxana və sağlamlıq komplekslərinin istifadəyə verilməsi Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, ölkəyə gələn turistlərin sayının artmasına da böyük təkan verir. Lənkəranın Haftoni qəsəbəsində inşası yenicə başa çatan Lənkəran İstisu və Sağlamlıq Mərkəzi də bu istiqamətdə həyata keçirilən əsaslı addımlardan biridir. Bu kompleksin inşası regionun turizm imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Təxminən 11 hektar sahəsi olan kompleksdə otel, tibb mərkəzi və müxtəlif termal hamamlar fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərkəzdə görülən işlərlə tanış oldular.

Layihə rəhbəri Nəriman Topçubaşov məlumat verdi ki, Lənkəran İstisu Sanatoriyası ilk dəfə 1958-ci ildə istifadəyə verilib. 1974-cü ildə ərazidə dördmərtəbəli sanatoriya binası inşa edilib.

Bildirildi ki, Lənkəran İstisu və Sağlamlıq Mərkəzinin inşasına 2016-cı ilin noyabrında başlanılıb. Mərkəzin 182 nömrəlik otel binası ən yüksək standartlar səviyyəsində inşa olunub. Kompleksə daxil olan digər xidmət sahələrinin inşası davam etdirilir. Otel binasının interyerinin tərtibatında orijinal mebel və aksesuarlardan istifadə olunub. Otelin doqquzmərtəbəli binasında istər uzunmüddətli müalicəvi istirahət, istərsə də həftə sonlarında asudə vaxt keçirmək üçün hər cür şərait yaradılıb.

Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, oteldə xidmət göstərəcək heyət yüksək hazırlıq kursu keçəcək və onların əksəriyyətini yerli kadrlar təşkil edəcək. Bu əməkdaşlar otelin istənilən xidmət sahəsində qonaqlara yüksək səviyyəli qulluq göstərilməsi ilə bağlı xüsusi təlim kurslarına cəlb olunacaqlar. Kompleksdə müasir restoranlar fəaliyyət göstərir. Restoranlarda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim olunacaq.

Dövlətimizin başçısı və xanımı oteldəki nömrələrdə yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, müxtəlif kateqoriyalı bu nömrələr ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir.

Lənkəran İstisu və Sağlamlıq Mərkəzində yerləşən ikimərtəbəli tibb mərkəzi də müasir avadanlıqla təchiz edilib. Müasir laboratoriya, rentgen və ultrasəs müayinələri üçün lazımi şəraitin yaradıldığı mərkəzdə elektroterapiya, fizioterapiya, jet masaj, maqnitoterapiya, hidroterapiya, hidrokolonterapiya, palçıq müali-

cəsi, mexanoterapiya otaqları var. Burada müalicə alanlar masaj və palçıq applikasiya otaqlarından istifadə edə bilərlər. Tibbi mərkəzdə aptek də fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev istisu vannaları ilə tanış oldu.

Hazırda Lənkəran İstisu və Sağlamlıq Mərkəzində 12 aktiv su mənbəyi, o cümlədən 7 quyu və 5 bulaq mövcuddur. Mənbələr istilik dərəcəsinə əsasən izotermal, termal və hipertermal sular olaraq quruplaşdırılıb. Termal su yatağı üzrə xloridli-natriumlu-kalsiumlu sular üstünlük təşkil edərək karbon və azot qazlı sular qrupuna daxildir. Bundan əlavə, termal suyun tərkibində sulfat aniomları, kalium və kükürd var. Bu tip sular müalicəvi-mineral sular və mineral sular qrupuna aid edilir.

Bildirildi ki, Lənkəran İstisu və Sağlamlıq Mərkəzində qan dövranı, sinir, sümük-əzələ sistemləri, birləşdirici toxumanın, tənəffüs orqanlarının, həzm sisteminin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozuntuları, dəri və dərialtı toxumanın və sidik-cinsiyyət sistemi xəstəliklərinin müalicəsi nəzərdə tutulub. Mərkəzin fəaliyyətə başlaması əksəriyyəti yerli işçilər olmaqla təqribən 250 nəfər üçün iş yerinin yaranmasına səbəb olacaq.

Burada 46 avtomobil yerlik qapalı, 80 avtomobil yerlik açıq avtodayanacaq da yaradılıb. Ölkə vətəndaşlarının və xarici qonaqların xidmətinə verilən bu müasir kompleks respublikamızın turizm infrastrukturuna, xüsusilə də müalicəvi turizmin inkişafına mühüm töhfə verəcək. Beləliklə, Lənkəran İstisu və Sağlamlıq Mərkəzi ölkəmizin turizm və müalicəvi turizm sektorunda özünəməxsus yer tutacaq. Bütün bunlar bir daha sübut edir ki, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları çərçivəsində görülən kompleks işlər nəticəsində ölkənin iqtisadi qüdrəti yüksəlib, işgüzar fəallıq artıb, bölgələrdə sahibkarlıq fəaliyyəti daha da genişlənib. Prezident İlham Əliyevin tövsiyələrinə uyğun olaraq, son illər ölkəmizin turizm potensialının inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması, mövcud turizm potensialının beynəlxalq aləmdə tanıdılması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi istiqamətlərində çoxsaylı tədbirlər davam etdirilir və daha da genişləndirilir.

Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayon ictimaiyyətinin nümayəndələri və müəssisənin kollektivi ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Sizi ürəkdən salamlayıram, Lənkəran rayonunda yenidən olmağımdan çox şadam. Bu, mənim Lənkərana Prezident kimi 10-cu səfərimdir. Hər səfərdə yeni obyektlərin açılışında iştirak edirəm və şadam ki, Lənkəranda yeni gözəl obyektlərin sayı çoxalır. Bu gün Lənkəranda yaradılan İstisu sanatoriyasının fəaliyyəti ilə tanış oluram. Tanışlıq çox gözəl təəssürat bağışlayır, çox gözəl istirahət zonasıdır, gözəl oteldir. Siz bilirsiniz ki, bu yerdə sovet vaxtında sanatoriya olub. O sanatoriyanın görüntüləri bu stenddə göstərilir, tamamilə yararsız vəziyyətə düşmüşdü və əlbəttə ki, müasir tələblərə cavab vermirdi. Şadam ki, yeni tikilən otel, istirahət müalicə mərkəzi dünyanın ən yüksək standartlarına cavab verir. Burada 182 otaqda qonaqlar, yerli sakinlər dincələcəklər, müalicə alacaqlar, öz sağlamlıqlarını bərpa edəcəklər. Bu gözəl turizm obyektinin açılışı bir daha onu göstərir ki, ölkəmiz uğurla inkişaf edir, bütün regionlar sürətlə inkişaf edir və bölgələrdə dünya səviyyəli çox gözəl obyektlər, o cümlədən turizm obyektləri yaradılır.

Lənkəran rayonunda turizmin inkişafı sürətlə gedir. Keçən il mən burada olarkən dəniz sahilində yerləşən otelin açılışında iştirak etmişəm. Mənə indi məlumat verildi ki, o otel 100 faiz işləyir, yəni, otaqların yüz faizi qonaqlar tərəfindən götürülüb, istifadə olunur. Hazırda Bakı-Astara yolunun çəkilişindən sonra Lənkərana gələn turistlərin sayı daha da artır və artacaqdır. Bu gün biz yeni gözəl otelin açılışını qeyd edirik.

Bildiyiniz kimi, bütövlükdə turizmin inkişafı ölkəmizdə sürətlə gedir. Bu, prioritet məsələdir və son illər ərzində görülmüş tədbirlər nəticəsində ölkəmizə gələn qonaqların sayı kəskin şəkildə artmışdır. Gələn turistlərin sayı 2016-cı ildə 22 faiz, keçən il 20 faiz, bu ilin 9 ayında isə əlavə olaraq 6 faiz artıb. Doqquz ayda xaricdən gələn qonaqlar Azərbaycanda ancaq bank kartları ilə 1 milyard manat səviyyəsində pul xərcləyiblər. Ancaq bank kartları ilə xərclənən bu məbləğ ilin sonuna qədər daha da artacaq. Əlbəttə ki, onlar nağd pul da xərcləyirlər və bu, ölkə iqtisadiyyatına böyük dəstəkdir. Beləliklə, son illər ərzində turizmə göstərilən diqqət öz nəticəsini verir.

Turizmin inkişafını şərtləndirən bir çox amillər var və onların hamısı Azərbaycanda mövcuddur. İlk növbədə, nəqliyyat infrastrukturu - indi ölkəmizdə 6 beynəlxalq aeroport fəaliyyət göstərir. Onlardan biri Lənkəran aeroportudur ki, mənim təşəbbüsümlə hələ 10 il bundan əvvəl əsaslı şəkildə təmir olunub, demək olar ki, yenidən qurulub. İndi Lənkəran aeroportundan beynəlxalq reyslər təşkil edilir. İndi mənə məlumat verildi ki, həftədə 3-4 reys fəaliyyət göstərir. Bu, həm rayon sakinlərinin, həm cənub zonasında yaşayan vətəndaşların rahatlığını, həm də turistlərin gəlişini təmin edir.

Dəmir yolu nəqliyyatı Azərbaycanda yenilənir, yeni xətlər çəkilir. O cümlədən təbii ki, Şimal-Cənub nəqliyyat dəhlizi bu bölgədən keçəcək. Yəqin eşitmisiniz, mən çıxışlarımın birində demişəm ki, Bakı-Lənkəran dəmir yolunun istiqaməti də dəyişdiriləcək, sahilboyu ilə gedən dəmir yolu xətti köçürüləcək ki, həm daha da rahat olsun, həm sürət artsın, eyni zamanda, biz sahil zonasını turizm infrastrukturuna cəlb edək.

Avtomobil yolları çəkilir. Mən keçən ay Bakı-Astara avtomobil yolunun açılışını etdim, gözəl tədbir

keçirildi. Bildiyiniz kimi, indi yolun məsafəsi təxminən 40 kilometr qısalıb və bu gün dünya miqyasında ən gözəl yollardan biridir. Mən Bakıdan Astaraya qədər indi o yol ilə gəlmişəm, adam zövq alır, gözəl, hamar, mənzərəli bir yoldur, sağ-sol meşələr, dağlar. Beləliklə, Bakıdan Lənkərana, Astaraya gəlmək üçün insanlar daha rahat yoldan istifadə edəcəklər.

Bizim tarixi abidələrimiz turizmi inkişaf etdirən vacib amillərdən biridir. Bizim zəngin tariximiz, mədəniyyətimiz, tarixi abidələrimiz xarici qonaqların marağına səbəb olur. Gözəl mətbəximiz, o cümlədən cənub zonasının xüsusi ləzzətli mətbəxi hesab edirəm ki, dünya səviyyəsində məşhurdur. Ölkəmizə gələn turistlər xalqımızın qonaqpərvərliyi sayəsində özlərini evlərindəki kimi hiss edirlər. Ölkəmizin ümumi inkişafı əlbəttə ki, turistləri cəlb edir. Əgər Azərbaycan inkişafda olan ölkə olmasaydı, əlbəttə, ictimai sabitlik, təhlükəsizlik olmasaydı, turistlər də gəlməzdi. Bu gün dünyada baş verən hadisələr göz qabağındadır, risklər, təhlükələr artır və turistlər daha əmniyyətli yerləri seçirlər, ona görə təsadüfi deyil ki, məhz Azərbaycana üz tuturlar. Bütün bu amillərin vəhdəti turizmin inkişafını şərtləndirir. Əlbəttə ki, belə gözəl istirahət mərkəzlərinin, otellərin tikintisi turistləri daha da cəlb edəcək. Biz gərək indi dünyada çox ciddi təbliğat aparaq və bu təbliğat nəticəsində xaricdə yaşayan insanlar bizi daha da çox tanısınlar.

O cümlədən ölkəmizdə müalicəvi turizm inkişaf edir və İstisu Sağlamlıq Mərkəzinin yaradılması bu istiqamətdə önəmli addımdır. Bu vaxta qədər Naftalan şəhərində bir neçə beşulduzlu otel istifadəyə verilib. Biz Naftalanın turizm mərkəzi, müalicəvi mərkəz kimi şöhrətini bərpa etdik. Orada oynaq xəstəlikləri, daxili orqanların xəstəlikləri müalicə olunur. Qalaaltı, o da sovet vaxtında ittifaq məkanında məşhur bir turizm mərkəzi idi. İndi biz bunu beynəlxalq mərkəzə çevirdik, orada daha çox böyrək xəstəlikləri müalicə olunur. Naxçıvanda Duzdağ müalicəvi mərkəzi ağciyər xəstəlikləri üçün çox faydalıdır. Lənkəran İstisu sanatoriyasının şəfalı suları da insanların sağlamlığını təmin edəcək.

Yəni, müalicəvi turizm istiqamətində işlər gedir, idman turizmi inkişaf etdirilir. Şahdağ artıq dünya səviyyəli bir dağ-xizək mərkəzinə çevrilib. Ondan sonra açılmış Tufandağ yeni xizək mərkəzidir. Beləliklə, turizm Azərbaycanda inkişaf edəcək, turizm sahəsində 10 minlərlə iş yeri yaradılır. İndi mənə verilən məlumata görə, təkcə bu sanatoriyada ən yaxşı mövsümdə 250-yə qədər yeni iş yeri açılacaq və burada yerli vətəndaşlar işlə təmin olunacaqlar. Ölkə iqtisadiyyatına daha da böyük həcmdə vəsait, investisiyalar qoyulacaq və xarici qonaqlar pul xərcləyəcəklər. Ona görə mən çox şadam ki, Lənkəran rayonunda belə gözəl turizm mərkəzi yaradılır. Bu, Lənkəranın iqtisadi potensialına növbəti bir töhfədir.

Bütövlükdə son illərdə Lənkəran rayonunda çox böyük işlər görülüb. İlk növbədə, biz infrastruktur layihələrinə böyük diqqət göstərmişik. Mənim yadımdadır, ilk dəfə prezident kimi mən Lənkərana gələndə Lənkəran şəhərində demək olar ki, təbii qaz yox idi. Bu gün nəinki Lənkəran şəhərində, Lənkəran rayonunda qazlaşdırmanın səviyyəsi 95 faizdir. Yəni, demək olar ki, biz bu problemi həll etmişik. Elektrik enerjisi ilə həmişə problemlər var idi. 2005-ci ildə Astarada tikilmiş modul tipli elektrik stansiyasının fəaliyyəti nəticəsində bu problem də indi öz həllini tapır. Eyni zamanda, Astarada 80, Lerikdə 16 meqavat gücündə elektrik stansiyalarının tikintisi başa çatıb. Bunlar bütün bölgəyə xidmət göstərən elektrik stansiyalarıdır.

Beş il bundan əvvəl Lənkəranın içməli su problemi həll olundu. Yadımdadır, o günü də biz birlikdə qeyd etmişdik. Kənd yollarının 75 faizi yenidən quruldu və bu proses davam etdirilir, gələn il əlavə vəsait ayrılacaq. Yəni, infrastrukturla bağlı olan bütün məsələlər həll olunur, görülən işlər göz qabağındadır, 40-dan çox məktəb tikilib və ya təmir edilib. Müasir Olimpiya İdman Kompleksi tikilib, biz bu gün onun açılışını qeyd edəcəyik. 2003-cü ildə birinci Olimpiya kompleksi yaradılmışdır. Ancaq əfsuslar olsun ki, o vaxt keyfiyyət o qədər də yaxşı deyildi və o, sıradan çıxdı. Göstəriş verdim ki, Lənkəran şəhərində mütləq ən gözəl Olimpiya mərkəzi yaradılsın, biz bu gün onun açılışını qeyd edəcəyik. Lənkəran aeroportunu qeyd etdim, müalicə-diaqnostika mərkəzi tikilmişdir, mərkəzi şəhər xəstəxanası əsaslı bərpa edilmişdir. Bu gün "Azərxalça" İstehsalat Birliyinin filialının açılışını qeyd edəcəyik. Orada da 100-dən çox insan işlə təmin ediləcək. Yəni, biz bu məsələlərə kompleks şəkildə yanaşırıq ki, Lənkəran rayonunun inkişafı daha da sürətlə getsin. Əlbəttə ki, növbəti illərdə görüləcək işlər haqqında da biz indidən düşünürük. Gələn ilin əvvəlində regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramı qəbul ediləcək. Qalan bütün məsələlər o proqramda öz əksini tapacaq. Bilirəm ki, binaların dam örtükləri ilə bağlı problemlər var, biz onları həll edəcəyik. Proqramımızda hələ kənd yollarının çəkilişi, məktəblərin tikintisi var. Biz bütün bunları həll edəcəyik ki, Lənkəran rayonunda bir dənə də olsun problem qalmasın. Sizi bir daha salamlayıram, təbrik edirəm və yeni uğurlar arzulayıram.

– Sakin: Cənab Prezident, biz də Sizi təbrik edirik. Bu gün ilk dəfə Prezident seçilməyinizin 15 ili tamam olur. Siz bu 15 ildə Lənkəranda gördüyünüz işləri sadaladınız, hamısına görə çox sağ olun. Təşəkkür edirəm. Allah Sizi qorusun.

Prezident İlham Əliyev: Çox sağ olun.

Sakinlər göstərdiyi yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildirdilər.

Sonda xatirə şəkli çəkdirildi.

Lənkəran Olimpiya İdman Kompleksinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım Lənkəran Olimpiya İdman Kompleksinin rəmzi açılışını bildirən lenti kəsdilər.

Gənclər və idman naziri Azad Rəhimov kompleksdə yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma ətraflı məlumat verdi.

Bildirildi ki, kompleksin tikintisinə 2013-cü ildə başlanılıb. Prezident İlham Əliyevin sərəncamları ilə Lənkəran Olimpiya İdman Kompleksinin tikintisinin davam etdirilməsinə ümumilikdə 15 milyon manat vəsait ayrılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin oktyabrında başa çatdırılıb.

Kompleks müasirliyi ilə diqqəti cəlb edir. Bu, ölkəmizdə idmançıların ixtiyarına verilən sayca 44-cü Olimpiya İdman Kompleksidir. Ümumi ərazisi altı hektar olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıb.

Diqqətə çatdırıldı ki, 788 tamaşaçı yerlik universal idman salonunda idmanın müxtəlif növləri üzrə yarışlar təşkil etmək mümkündür. Belə komplekslərin yaradılması Azərbaycanın idman ölkəsi kimi nüfuzunu yüksəltməklə yanaşı, regionlarda yaşayan gənclərin idmana həvəsinin artırılması, onların potensialının üzə çıxarılması və ümumilikdə idmanın kütləviliyinin təmin edilməsində mühüm əhəmiyyət daşıyır. Kompleksin əhəmiyyətini artıran cəhətlərdən biri də burada müasir mehmanxananın yaradılmasıdır. Əlli üç yerlik mehmanxananın üçmərtəbəli binasında idmançıların qalması və istirahəti üçün hər cür imkan var. Mehmanxanada birnəfərlik, ikinəfərlik, üçnəfərlik, VIP otaqlar və 70 yerlik konfrans zalı mövcuddur.

Lənkəran Olimpiya İdman Kompleksinin ağır atletika və trenajor zalında idmançılar üçün hərtərəfli şərait yaradılıb. Məşqçilərin otaqları da məhsuldar fəaliyyət üçün hər cür imkana malikdir. Boks zalında məşqlərin keçirilməsi və yarışların təşkili üçün mükəmməl şərait var. İdmançılara həkim nəzarəti də yüksək səviyyədə təşkil olunub. Güləş zalı Beynəlxalq Güləş Federasiyasının standartlarına uyğun tikilib. Bu zalda 90 tamaşaçı yeri var. Güləşçilərin məşqlərinin yüksək səviyyədə keçirilməsi üçün ən xırda incəliklər belə nəzərə alınıb.

Qeyd edildi ki, Lənkəran Olimpiya İdman Kompleksinə daxil olan restoran və mətbəxdə də xidmətin müasir səviyyədə təşkili üçün hər cür şərait yaradılıb.

Buradakı üzgüçülük hovuzu ən müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25 metr, eni isə 12 metrdir. Ölkəmizdə yeniyetmə və gənclərin idmanın üzgüçülük növünə də marağı ildən-ilə artır. Bu zalda üzgüçülük yarışlarını 135 nəfər izləyə biləcək. Müasir standartlara cavab verən futbol meydançasında keçiriləcək yarışları tribunalardan 1300-ə qədər tamaşaçı izləyəcək. Burada mini futbol meydançası da idmançıların ixtiyarına verilib. Basketbol və voleybol meydançaları idmansevərlərə dəyərli töhfədir. Kompleks, həmçinin qaz, su-kanalizasiya, elektrik, rabitə xətləri ilə təchiz olunub. Həyətdə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, istirahət guşələri yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Lənkəran rayonuna səfəri çərçivəsində “Azərişıq” ASC tərəfindən müasir üslubda yeni inşa edilən 110/35/10 kV-luq “Lənkəran-2” yarımstansiyasının açılışı olub.

1974-cü ildə tikilən 110/10 kilovoltluq yarımstansiyanın gərginlik sinfi dəyişdirilərək 110/35/10 kilovoltluq gərginlik sinfinə keçirilməsi, onun gücünün 32 meqavolt amperdən 50 meqavolt amperə çatdırılması böyük əhəmiyyət daşıyır. Yarımstansiyada 35 kilovoltluq gərginlik sinfi yaradılıb ki, bununla Lənkəran, Lerik və Masallı rayonlarının 35 kilovoltluq dairəvi elektrik təchizat sxemi qurulub. Bu isə elektrik enerjisinin dayanıqlılığının və etibarlılığının artırılmasına, yüklərin bir mənbədən digər mənbə üzərinə keçirilməsinə, həmçinin çəltikçiliyin, çayçılığın və kənd təsərrüfatının digər sahələrinin inkişafı üçün lazım olan elektrik enerji təchizatına müsbət təsir edir. Yarımstansiyada 110 kilovoltluq açıq paylayıcı, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular quraşdırılıb. Yarımstansiya müasir standartlara cavab verən elektron tipli rele mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilib və məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub. Yenidən qurulan “Lənkəran-2” yarımstansiyası Lənkəran şəhəri, 4 kənd və qəsəbə daxil olmaqla 17 min 500 abonenti elektrik enerjisi ilə təchiz edir. Eyni zamanda, bir sıra strateji obyektlər də bu yarımstansiyadan qidalanır.

Qeyd edək ki, Masallıda da yenidən qurulan “Tüklə” yarımstansiyasının gücü 32 meqavolt amperə çatdırılıb. 110 kilovoltluq “Tüklə” və “Lənkəran-1” yarımstansiyaları vasitəsilə Masallı və Lənkəran rayonlararası 35 kilovoltluq dairəvi elektrik təchizat sxemi qurulub ki, bu da Lənkəran rayonunda, o cümlədən Liman şəhərində ikinci qida mənbəyinin yaradılması, bununla da hər iki rayonun elektrik təchizatının dayanıqlılığının artırılması deməkdir. Yarımstansiyada 110 kilovoltluq açıq paylayıcı, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular quraşdırılıb, elektron tipli rele mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilib və məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub. Yeni yarımstansiya 70 min əhalini və 516 obyekti elektrik enerjisi ilə təchiz edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Lənkəran rayonuna səfəri çərçivəsində istifadəyə verilən müəssisələrdən biri də Qida Təhlükəsizliyi Agentliyinin Qida Təhlükəsizliyi İnstitutunun Lənkəran Regional Sınaq Laboratoriyası olub.

Səkkiz şöbədən ibarət laboratoriyada inzibati və laborator baxış otaqları yaradılıb. Gün ərzində 300 sınaq aparmaq potensialına malik laboratoriyanın kimyəvi və bioloji tullantıların zərərsizləşdirilməsi, insinerator, soyuducu kamera və vivarium kimi yardımçı tikililəri vardır. Burada kimyəvi tullantıların neytrallaşdırma, o

cümlədən bioloji tullantıların ozonlaşdırma texnologiyası əsasında zərərsizləşdirilməsi həyata keçirilir.

Nümunə qəbulu, toksikologiya, fiziki-kimyəvi müayinələr, mikrobiologiya, virusologiya, parazitologiya, karantin ekspertiza şöbələrində zəruri laborator müayinələrin aparılması üçün müasir avadanlıq quraşdırılıb, hər cür şərait yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Lənkəran filialının açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı müəssisənin rəmzi açılışını bildirən lenti kəsdilər.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya ölkəmizdə xalçaçılığın inkişafı və bu müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Qədim el sənətlərindən olan xalçaçılığın inkişafı ilə bağlı son illərdə görülən işlər bəhrəsini verir. Bu sahənin inkişafına xüsusi diqqət göstərən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində artıq bir çox bölgələrdə xalça fabrikləri açılıb. "Azərxalça" ASC-nin ilkin olaraq Horadiz şəhərində, Ağdam, Ağstafa, Xaçmaz, İsmayıllı, Qazax, Qəbələ, Quba, Şəmkir və Tovuz rayonlarında xalça emalatxanalarının tikintisi nəzərdə tutulmuşdu. Artıq Horadiz, Şəmkir, Quba, Xaçmaz və İsmayıllıdakı müəssisələr Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Bu müəssisələri xammalla təmin etmək üçün Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiya həcmi 27 milyon 420 min manat olan "Yunəyirici-boyaq" fabrikinin, Naxçıvan şəhərində, Qobustan, Şabran, Bərdə və Sabirabad rayonlarında regional yun və boyaq bitkilərinin tədarükü məntəqələrinin inşası davam etdirilir. Artıq Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Naxçıvan şəhərində, Qobustan, Şabran, Sabunçu, Lənkəran, Abşeron, Kürdəmir, Biləsuvar, Goranboy və Tərtər rayonlarında xalça emalatxanalarının tikintisi və təchizatı işlərinə başlanılıb. Bundan başqa, İsmayıllı rayonunda daha bir xalça istehsalı emalatxanası tikilir.

Dövlətimizin başçısı Lənkəranda xalça emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması üçün 2018-ci ilin dövlət büdcəsindən vəsaitin ayrılması barədə Sərəncam da imzalayıb. 2019-cu ildə əlavə olaraq 10 şəhər və rayonda bu cür müəssisələrin tikintisi nəzərdə tutulub. "Azərxalça" ASC-nin artıq istifadəyə tam hazır olan Lənkəran filialı da bu sırada mühüm yerlərdən birini tutur.

Bildirildi ki, "Azərxalça" ASC-nin Lənkəran filialının binasının ümumi sahəsi 1249 kvadratmetrdir. Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 199-cu kilometrliyində yerləşən filialın binasının tikintisinə bu ilin martında başlanılıb. Tikinti işləri yüksək keyfiyyətlə aparılıb. Burada 150 toxucu və 14 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. Bina toxuculuq emalatxanası, inzibati otaq, anbar, yeməkxana, tibb otağı, xalça satışı salonu, konfrans zalı və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Astara, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonlarının kəndlərində toxunan orijinal xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin bölgənin müxtəlif kəndlərindən toplanan qədim və orijinal xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib.

Qeyd olundu ki, müəssisədə çalışan toxucular Lənkəran şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində "Azərxalça"nın burada təşkil olunmuş tədris-hazırlıq kurslarına cəlb edilib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da işini davam etdirəcək. Bu kursun məzunları "Azərxalça" ASC-nin sertifikatını alacaqlar. Xalça satışı salonunda "Azərxalça" ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgisi və satışı da həyata keçiriləcək.

Sonra dövlətimizin başçısı və birinci xanım müəssisənin kollektivi ilə görüşüb söhbət etdilər.

Xalçaçılar ölkəmizdə bu qədim sənətin inkişafına göstərdiyi yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıq etdilər.

Xalçaçı Sevda Cəbrayılova: Cənab Prezident, xoş gəlmisiniz, Sizi görməyimizə çox şadıq. Çoxdandır ki, Sizi gözləyirdik. Bizə bu gözəl hədiyyəyə görə Sizə ürəkdən minnətdarıq, sağ olun. Bütün xalçaçı qızlar adından Sizə minnətdarıq.

Xalçaçı İradə Əliyeva: Çox sağ olun ki, bizim zəhmətimizə belə bir dəyər vermisiniz, keçmiş xalçalarımızı bizə qaytarmısınız. Çox sağ olun, Sizə çox-çox təşəkkür edirik.

Emalatxana rəisi Nargilə Qənbərova: Xoş gəlmisiniz. Sizin Sərəncamınız və Mehriban xanımın xalçaçılara qayğısı sayəsində bizim üçün belə bir gözəl bina tikildi. Çox sağ olun.

Prezident İlham Əliyev: Təbrik edirəm sizi.

Nargilə Qənbərova: Burada 116 toxucu işləyir, 15 şagirdimiz var. Demək olar ki, nəqliyyata qədər bütün şəraitlə təmin olunmuşuq. Belə bir gözəl müəssisə xalçaçı xanımların ixtiyarına verilib. Buna görə çox sağ olun. Mən "Azərxalça"nın işçisi olaraq, 40 ilə yaxındır ki, bu sənətdə çalışıram. Amma biz heç vaxt bu cür şərait, belə gözəl bina görməmişdik. Bizim xəyallarımızı gerçəkləşdirdiniz, ağlımıza gəlməyəni bizim üçün həyata keçirdiniz. Çox sağ olun. Allah Sizi qorusun! Bu gün sevincimizin həddi-hüdudu yoxdur.

Prezident İlham Əliyev: Sağ olun, mən sizi ürəkdən təbrik edirəm.

Sevda Cəbrayılova: Cənab Prezident, bu gün Sizin prezidentliyinizin 15 illik yubileyidir. Təbrik edirik! Mən Sizi sevən bir insan kimi deyirəm bunu, buna haqqım da var. Çünki yaşım buna yol verir. Siz hər ikiniz idmanı da ucaltdınız, musiqiyə də böyük qiymət verirsiniz. Əminəm ki, indi xalçaçılığı da dünya səviyyəsinə ucaldacaqsınız. Hər şey əladır. Ancaq bir təəssüfüm var, yaşım 57-dir, kaş 17 olaydı.

Prezident İlham Əliyev: 57 nədir ki? Bu il mənim də 57 yaşım olacaq.

Sevda Cəbrayılova: Allah övladlarınızı, nəvələrinizi saxlasın. Oğlunuz hərbi xidmətdədir, sağ-salamat gəlsin. Bu, bütün ailələrə, övladlarını yayındıran valideynlərə bir nümunədir. Nəvələrim böyüyür, inşallah, o vaxta qədər yaşasam onları mütləq cəbhəyə, hara lazımdırsa göndərəcəyəm. Allah köməyiniz olsun, Mehriban xanım, muğamı dünyada tanıdırsınız, idmanı inkişaf etdirirsiniz. Muğamı da, idmanı da çox sevirəm.

Prezident İlham Əliyev: Siz xalçaçılığı yaşadırsınız. Şadam ki, Azərbaycanda belə xalça fabriklərinin tikintisi geniş vüsət alıb. Bu, mənim iştirakımla açılan sayca altıncı xalça fabrikidir. “Azərxalça”nın xətti ilə ölkəmizdə yaxın gələcəkdə 30 fabrik yaradılacaq. Hər fabrikdə 100-dən çox işçi çalışır. Mənə verilən məlumata görə, burada 116 işçi var. Demək olar ki, onların hamısı qadınlardır. Qadınlar üçün iş yerləri, belə gözəl şərait yaradırıq. Belə gözəl binada işləmək də xoşdur, adama zövq verir. Siz bizim qədim sənətimizi yaşadırsınız, burada şagirdlər də var, təlimlər keçirilir. Bu, deməyə əsas verir ki, xalçaçılıq sənəti Azərbaycanda əbədi yaşayacaq.

Xalçaçılar: Əlbəttə, Sizin sayənizdə, cənab Prezident.

Prezident İlham Əliyev: Bu sənəti yaşadan sizsiniz. Mən ona görə sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Demək istəyirəm ki, Azərbaycanda xalçaçılığın çox böyük gələcəyi var. Biz qədim ənənələrimizi qorumaqla xalçaçılığı inkişaf etdiririk. Hazırda Sumqayıt şəhərində əyirici-boyaq fabriki tikilir. Fabrik tikiləndən sonra özümüzü həm boya ilə, həm ipliklə təmin edəcəyik. Bölgələrdə yun qəbulu məntəqələri yaradılır ki, keyfiyyətli xammal tədarük edilsin. Yəni, xalçaçılıq Azərbaycanda tam yerli xammal əsasında inkişaf edəcək. Bir daha demək istəyirəm ki, ən önəmlisi, hər fabrikdə qadınlar üçün 100-dən çox, bəzilərində 120, 130, 150 iş yeri, gözəl şərait yaradılır ki, siz burada işləyəsiniz, yaxşı pul qazanasınız və bu sənəti əbədi yaşadasınız. Sağ olun.

Sevda Cəbrayılova: Çox sağ olun. Sizə nə qədər minnətdarlıq etsək yenə də azdır. Hər dəfə buraya gəlməyiniz bizim üçün bayramdır. Gözləyirik, xalça emalatxanamıza tez-tez gəlin. Allah köməyiniz olsun.

Prezident İlham Əliyev: Mən keçən il də, bu il də gəlmişəm. Bu, 15 il ərzində mənim Prezident kimi Lənkərana 10-cu səfərimdir. Bundan sonra hələ xeyli açılışlar olacaq, bəlkə bu fabrikin ikincisini də yarada bilərik.

Xalçaçılar: İnşallah.

Nargilə Qənbərova: Onsuz da müraciət edənlərin sayı çoxdur. Bəlkə də yüzü keçib.

Sevda Cəbrayılova: Sizinlə birinci dəfədir ünsiyyətdə oluruq, cənab Prezident. Bu, tarixə düşdü. Biz öz nənələrimizin xalçasını toxuyuruq.

Nargilə Qənbərova: Biz həmişə xalça toxumuşuq. Amma Lənkərana aid olan xalçaları, çeşniləri toxumamışıq. Bunu Siz yaratdınız.

Prezident İlham Əliyev: Lənkəranın çox qədim xalçaçılıq məktəbi, sənəti var. Burada sırf Lənkəran məktəbinin xalçaları toxunur. Mən sizi ürəkdən təbrik edirəm. Sağ olun.

Xalçaçılar: Sağ olun, var olun.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran rayonuna səfərləri çərçivəsində Hirkan-Daştatük-Biləsər avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak ediblər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yolun texniki göstəriciləri barədə məlumat verdi.

Bildirildi ki, yolun uzunluğu 22 kilometrdir. Hirkan-Daştatük-Biləsər avtomobil yolu uzun müddət təmir olunmadığı və burada yola asflat qatı vurulmadığı üçün hərəkət hissəsi sıradan çıxmış vəziyyətdə idi. Bu isə xüsusən payız-qış mövsümündə nəqliyyat vasitələrinin hərəkətində problemlər yaradırdı. Rayonun 7 yaşayış məntəqəsini birləşdirən Hirkan-Daştatük-Biləsər avtomobil yolunun tikintisinə Azərbaycan Prezidentinin Sərəncamına əsasən dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 9,1 milyon manat vəsait ayrılıb. Görülən işlər nəticəsində Hirkan-Daştatük-Biləsər avtomobil yolu iki hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə uyğun şəkildə yenidən qurulub.

Məlumat verildi ki, yolun hərəkət hissəsinin eni 6 metrdir. Çiyinlər də daxil olmaqla yol yatağının eni isə 8-10 metr təşkil edir. Yol boyunca müxtəlif diametrli suötürücü borular tikilib, zəruri yerlərdə yol nişanları quraşdırılıb, yolcizgi və yolgöstərici xətlər çəkilib, avtobus dayanacaqları inşa edilib.

Avtomobil yolunun tikintisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin “7 nömrəli Yol İstismarı” MMC tərəfindən yüksək keyfiyyətlə aparılıb. Dağlıq ərazidə yerləşən, eləcə də Hirkan Milli Parkı ərazisindən keçən Hirkan-Daşdatük-Biləsər avtomobil yolunun tikintisi 7 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət kəsb edəcək.

Prezident İlham Əliyevə Astara rayonunun Ojakəran–Tüləküvan–Təngərüd avtomobil yolunun tikintisi barədə də məlumat verildi. Bildirildi ki, 9 min nəfər

əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən bu yolun uzunluğu 11 kilometrdir.

Dövlətimizin başçısının Sərəncamı ilə bu yolun tikintisinə 3,4 milyon manat vəsait ayrılıb. Avtomobil yolu iki hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Dağlıq ərazidə yerləşən Ojakəran–Tüləküvan–Təngərüd avtomobil yolunun tikintisi əhatə etdiyi yaşayış məntəqələrinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın, kənd təsərrüfatının, habelə turizmin inkişafında mühüm rol oynayacaq. Yük və sərnişin daşınmasını xeyli yaxşılaşdırmağa imkan verən yolun tikinti işləri Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "49 nömrəli Yol İstismarı" MMC tərəfindən həyata keçirilib.

Dövlətimizin başçısı Astara rayonunun Taxtanəkəran-Miki, Taxtanəkəran-Toradi kəndlərarası avtomobil yollarının tikintisi ilə də maraqlandı.

Məlumat verildi ki, 12 min nəfər əhalinin yaşadığı və 38 yaşayış məntəqəsini birləşdirən kəndlərarası avtomobil yollarının yenidən qurulması məqsədilə ümumilikdə 11,5 milyon manat vəsait ayrılıb. Yolların tikintisi yüksək səviyyədə həyata keçirilib. Həmin yolların ümumi uzunluğu 27,4 kilometrdir. Bu yollar da iki hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub, sərnişin və yük daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcək. Bu, həmçinin yerli və xarici turistlərin ərazidə yerləşən istirahət mərkəzlərinə rahat getmələrinə və tarixi mədəniyyət abidələri ilə tanış olmalarına şərait yaradacaq.

Dövlətimizin başçısına və xanımına Astaraçay üzərində tikiləcək körpü və körpüyə qədər olan yolun planı barədə də məlumat verildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hirkan-Daştatük-Biləsər avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdilər.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Astara rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Astara şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev Prezident İlham Əliyevə abidənin ucaldıldığı Heydər Əliyev parkında yaradılan şərait və son illərdə rayonda həyata keçirilən layihələr barədə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Astara şəhərinin içməli su təchizatı sistemləri" layihəsinin başa çatması münasibətilə keçirilən mərasimdə iştirak edib.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına "Astara şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin tikintisi" layihəsi haqqında məlumat verdi.

Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2015-ci ildə "Astara şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi"nin icrasına başlanılıb. Layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla Astara şəhərində 28,5 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində gələcəkdə rayonda 73 min nəfərin yaşadığı 27 kəndə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə, bu layihədən 102 min sakin faydalanacaq. Astara, Lənkəran şəhərləri və ətraf kəndləri içməli su ilə təmin etmək üçün mənbə olaraq Xanbulan su anbarı seçilib. İstehlakçıların keyfiyyətli içməli su ilə təmin edilməsi üçün su anbarının yaxınlığında məhsuldarlığı sutkada 30 min kubmetr və ya saniyədə 347 litr olan müasir tipli qum süzgəcli təmizləyici qurğu tikilib. 2013-cü ildən etibarən bu mənbə hesabına Lənkəran şəhəri və 5 kənd, 2017-ci ildən isə magistral kəmər boyunca yerləşən 15 kənd keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunur.

Sutəmizləyici qurğuda suyun təmizlənməsi heç bir kimyəvi reagentlərdən istifadə olunmadan aparılır və onun keyfiyyət göstəriciləri Dünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verir. Burada emal prosesi tam avtomatlaşdırılıb və SCADA sistemi ilə vahid mərkəzdən idarə olunur. Emal prosesindən keçən suyun anbarlara ötürülməsi məqsədilə məhsuldarlığı saatda 750 kubmetr olan nasos stansiyası quraşdırılıb. Suyun optimal idarə olunması və özüaxımlı rejimdə paylanması məqsədilə dəniz səviyyəsindən 38 metr yüksəklikdə ümumi tutumu 20 min kubmetr olan 3 su anbarı inşa edilib. On min kubmetr tutumu olan su anbarı Lənkəran şəhəri və ətraf kəndlər, hər birinin tutumu 5 min kubmetr olan iki su anbarı isə Astara şəhəri və ətraf kəndlər üçün nəzərdə tutulub. Anbarlara daxil olan və çıxan suyun miqdarı, anbarlarda toplanan su ehtiyatının həcmi, suyun təzyiqi, siyirtmələrin iş rejimi və işçi vəziyyəti, eləcə də suyun bulanıqlıq səviyyəsi və qalıq xlorun miqdarı onlayn rejimdə tənzimlənir. Suyun anbardan Astara şəhərinə nəqli məqsədilə diametri 710 millimetr olan polietilen borularla 29,2 kilometr uzunluğunda magistral su xətti inşa edilib. Gələcəkdə Astara rayonunun 27 kəndinin su təchizatının yaxşılaşdırılması məqsədilə magistral kəmərdən hər bir kəndə çıxışlar verilib.

Diqqətə çatdırıldı ki, istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə layihə çərçivəsində Astara müştəri xidmətləri sahəsi üçün müasir tipli inzibati bina tikilib. Ümumi sahəsi 220 kvadratmetr olan binada işçi otaqları, IT otağı, iclas zalı zəruri avadanlıqla təchiz edilib. İnzibati binanın həyətində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Dövlətimizin başçısı Astara şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin rəmzi açılışını bildirən düyməni basdı.

Bildirildi ki, layihə çərçivəsində Astara şəhərində 109 kilometr içməli su şəbəkəsinin inşası tam başa çatıb və bütün abunəçilərə ev birləşməsi verilərək 4300 su

sayğacı quraşdırılıb. Suyun optimal idarə olunması məqsədilə şəbəkə üzərində 327 müxtəlif diametrli siyirtmə, yanğın təhlükəsizliyi məqsədilə 274 yanğın hidrantı quraşdırılıb. Astara şəhərində kanalizasiya şəbəkəsinin yaradılması üçün uzunluğu 70,5 kilometr olan kanalizasiya şəbəkəsi, 8 kilometr tunel tipli kanalizasiya kollektoru, iki kanalizasiya nasos stansiyası və məhsuldarlığı sutkada 6 min kubmetr olan tullantı sutəmizləyici qurğunun inşası da layihələndirilib. Layihənin növbəti mərhələsində kanalizasiya infrastrukturunun yaradılması nəzərdə tutulur.

Qeyd edildi ki, layihənin icrasına qədər Astara şəhərində 1980-ci illərdə yaradılmış su təchizatı infrastrukturundan istifadə olunurdu. Şəhərə içməli su Astara rayonunun Qapıçıməhəllə kəndində yerləşən drenaj quyularından verilirdi. Şəhərdə mövcud olmuş 41 kilometr uzunluğunda paylayıcı şəbəkə istismara yararsız vəziyyətə düşmüşdü. "Azərsu" ASC şəhərin 15 min sakininin 30 faizinə xidmət göstərirdi və içməli su fasiləli rejimdə verilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Ümumilikdə, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarına uyğun olaraq, 50 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur. İndiyədək bu şəhərlərin 25-də su və kanalizasiya şəbəkələrinin, 11-də isə su şəbəkəsinin inşası yekunlaşıb. Bu ilin sonuna qədər daha 3 şəhərdə işlərin başa çatdırılması nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev Astara rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Prezident İlham Əliyevin çıxışı

- Mən sizi salamlayıram. Bu gün Astara şəhərində çox gözəl, əlamətdar bir gündür. Biz Astara şəhərinə rəsmi olaraq içməli suyun verilməsini qeyd edirik. Mənə verilən məlumata görə, artıq iki aya yaxındır ki, evlərə təmiz içməli su verilir. Bu, çox gözəl hadisədir. Mən də bu gün gəlmişəm ki, bu gözəl hadisəni sizinlə birlikdə rəsmi qaydada qeyd edim.

İçməli su insan sağlamlığı üçün əsas şərtdir. Bunu hər kəs bilir. Astara şəhərində də bu problem öz həllini tapıb. Beləliklə, şəhər sakinlərinə Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilir. Növbəti mərhələdə artıq bir çox kəndlərə də suyun verilməsi nəzərdə tutulur. Əlbəttə, növbəti illərdə bu məqsədlə əlavə vəsait ayrılacaq ki, bu problem öz həllini tapsın. İçməli su layihələrinin icrası böyük maliyyə vəsaiti, çox böyük investisiyalar tələb edir. Biz bunu edirik ki, insanlar çox təmiz, keyfiyyətli su ilə təmin olunsunlar. Çünki bir daha demək istəyirəm ki, sağlamlıq üçün, normal həyat tərzi üçün içməli su əsas şərtdir.

Bir çox rayonlarımızda içməli su layihələri icra edilir. Artıq açılışlar da olub, növbəti illərdə də açılışlar olacaq. Qarşıya məqsəd qoyulubdur ki, Azərbaycanın bütün şəhərlərində 100 faiz tam standartlara uyğun içməli su layihələri icra edilsin və beləliklə, biz ölkə qarşısında duran əsas infrastruktur məsələlərini həll etmiş oluruq.

Digər layihələrə gəldikdə, Astara rayonunda infrastrukturun yaradılması sürətlə gedir, qazlaşdırma 83 faizdir, kənd yollarının tikintisi geniş vüsət alıb. Mənə verilən məlumata görə, Astara rayonunun kənd yollarının 92 faizi yenidən qurulub. Bu, çox gözəl göstəricidir. Gələn ilin Dövlət İnvestisiya Proqramında yeni, növbəti layihə nəzərdə tutulur. Beləliklə, hesab edirəm ki, bütün kəndlərin yolları çox gözəl səviyyəyə çatdırılacaqdır.

Eyni zamanda, keçən ay Bakı-Astara avtomobil yolunun açılışı olmuşdur. Bu, ən yüksək səviyyəli, çox rahat, təhlükəsiz yoldur. Bilirsiniz ki, yolun yeni istiqaməti müəyyən edilib, yeni tras çəkilib və yolun uzunluğu 40 kilometr qısalıb. Bu yol heç bir şəhərə girmədən düz Astaraya qədər gəlir. Beləliklə, yolboyu yaşayış məntəqələrinin rahatlığı təmin edilir. Əvvəllər bütün yolboyu yerləşən şəhərlərə yük maşınları girirdi və insanları narahat edirdi. İndi bütün yolboyu şəhərlərimiz - Lənkəran, Masallı, Cəlilabad, Biləsuvar, Salyan bu problemdən azad olunub. Bir qalıb ki, Astara şəhərinin problemi də həll olunsun, biz bunu da edəcəyik. Çünki bir hissə qalıb. Azərbaycan-İran sərhədinə qədər yeni yol çəkiləcək. Belə olan halda qonşu ölkəyə yük maşınları və vətəndaşlar Astara şəhərinə girmədən birbaşa sərhədə gedəcəklər. Biz bu layihə üzərində işləyirik, müəyyən işlər görülüb, torpaq ayrılıb, hətta torpağın birinci layları da hamarlanıb. Həm bu il, həm gələn il əlavə vəsait ayrılacaq. Hesab edirəm ki, gələn ilin ortalarına qədər mövcud Bakı-Astara trasından Azərbaycan-İran sərhədinə qədər yeni tras çəkiləcək və heç bir tranzit yük maşını Astara şəhərinə girməyəcək. Biz bunu da edəcəyik ki, Astara sakinləri bu problemlərdən azad olsunlar.

Digər layihələrə gəldikdə, bildiyiniz kimi, 2005-ci ildə Astara şəhərində modul tipli elektrik stansiyası tikilmişdir. Bu stansiya həm rayona, həm də bütün bölgəyə xidmət edir. Beləliklə, elektrik enerjisi ilə təchizat məsələləri də həll olunub. Bu gün içməli su layihəsi, - qazlaşdırmanı dedim, - kənd yolları çəkilir. Yəni, Astarada əsas infrastruktur məsələləri demək olar ki, öz həllini tapmaqdadır.

Sosial infrastruktura gəldikdə, rayonda son illərdə 35 məktəb, Olimpiya İdman Kompleksi tikilib, mərkəzi rayon xəstəxanası əsaslı şəkildə təmir edilib, digər sosial obyektlər yaradılır. Astara rayonunun çox böyük turizm potensialı var. Bakı-Astara yolu istifadəyə veriləndən sonra əlbəttə ki, turistlərin sayı da artmalıdır və artacaq. Xarici turistlər Astaraya üz tuturlar. Burada turizm infrastrukturu, eyni zamanda, istirahət zonaları, o cümlədən bulvar kompleksi yaradılır. Astara sakinləri üçün bulvar kompleksinin yaradılmasına əlavə vəsait ayrılmışdır ki, bu istirahət zonası daha da böyük ərazini əhatə etsin.

Bilirsiniz ki, keçən il Lənkəranda bu zonanın inkişafına təkan verəcək çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirə keçirilmişdir. Müşavirədən sonra dövlət

proqramları qəbul edilmişdir və bu sahədə də irəliləyiş var. Ona görə kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafı gündəlikdə duran əsas məsələlərdən biridir. Turizm infrastrukturunun yaradılması öz həllini tapır. Yeni iş yerlərinin yaradılması prosesi də gedir. Çünki kənd təsərrüfatına verilən böyük dəstək, əlbəttə ki, məşğulluğu artırır, insanlar daha da yaxşı imkanlar əldə edirlər, öz rifah halını yaxşılaşdırırlar və bu gözəl diyarda işlər daha da yaxşı gedəcək.

Artıq qeyd etdiyim kimi, gələcəkdə Bakı-Astara avtomobil yolunun İran sərhədinə çatdırılması layihəsi icra olunacaq. Eyni zamanda, burada kommunal evlərdə yaşayan insanlar üçün 48 mənzildən ibarət yeni yaşayış binası tikiləcək. Gələn ilin investisiya proqramında yeni kənd yollarının layihəsi nəzərdə tutulur. Hesab edirəm ki, bu məsələlər həll ediləndən sonra biz əsas infrastruktur layihələrini yerinə yetirmiş oluruq. Gələcəkdə, sadəcə olaraq, bu imkanlardan istifadə edilməlidir ki, rayonun potensialı daha da böyüsün. Sahibkarlığın, qeyri-neft sektorunun, kənd təsərrüfatının inkişafı, burada yeni emal müəssisələrinin yaradılması nəzərdə tutulur. Ənənəvi kənd təsərrüfatı sahələri daha da sürətlə inkişaf etməlidir. Bu məqsədlə lazımi tədbirlər görülür, dövlət tərəfindən kifayət qədər böyük diqqət göstərilir.

Astara rayonunda və qonşu rayonlarda son illər ərzində görülmüş işlər çox böyük maliyyə vəsaiti tələb edən işlərdir. Həm elektrik, həm qaz, həm də yol təsərrüfatlarının, Lənkəran beynəlxalq aeroportunun yaradılması, su layihələrinin icrası, magistral yolların çəkilişi, kənd təsərrüfatına verilən dəstək böyük maliyyə vəsaiti tələb edir. Biz bunu da edirik və etməliyik. Çünki regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı bunu tələb edir. Bu proqramı da biz qəbul etmişik və bu ilin sonunda üçüncü Dövlət Proqramı başa çatır. Deməkolar ki, biz proqramı artıqlaması ilə icra etmişik, o cümlədən proqramda Astara rayonuna aid olan bütün məsələlər artıqlaması ilə öz həllini tapıbdır.

Deyə bilərəm ki, sonuncu böyük layihə, bax, bu gün rəsmi qaydada istifadəyə verilir. Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Astarada dənizkənarı park-bulvar kompleksinin ikinci hissəsinin tikintisi çərçivəsində yaradılan şəraitlə tanış olub.

Ölkəmizdə yeni-yeni istirahət guşələri, park və xiyabanların yaradılması və onların vətəndaşların ixtiyarına verilməsi həyata keçirilən sosial-iqtisadi layihələrin tərkib hissələrindən biridir. Prezident İlham Əliyevin tapşırığına əsasən son illərdə paytaxt Bakı ilə yanaşı, respublikanın digər şəhər və rayonlarında da yeni park, xiyaban, istirahət guşələrinin yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində mühüm işlər görülüb. Bu məsələyə Astarada da xüsusi diqqətlə yanaşılır.

Bu rayonda yeni istirahət məkanlarının yaradılması istiqamətində reallaşdırılan ən mühüm layihələrdən biri də Astara şəhərində dəniz sahilboyu park-bulvar kompleksinin ikinci hissəsidir.

Məlumat verildi ki, park-bulvar kompleksində rayon sakinlərinin və qonaqların istirahətinin yüksək səviyyədə təşkili, onların asudə vaxtlarının yaddaqalan və mənalı keçməsi üçün geniş imkanlar yaradılıb. Xəzərin sahilindəki bu kompleks həm də Astara şəhərinin simasının daha da gözəlləşdirilməsi, onun inkişaf tempinin nümayiş olunması baxımından da çox əhəmiyyətlidir. Dövlətimiz tərəfindən vətəndaşların istirahətlərini mənalı təşkil etmək və onların asudə vaxtlarını səmərəli keçirmək üçün bütün zəruri addımlar atılır. Bu istiqamətdə son illərdə çox mühüm işlər görülüb. Bu kompleksdəki şərait də bunu sübut edir. Bu, həm də dünyada hökm sürən iqtisadi böhran dövründə ölkəmizdə sosial layihələrin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirildiyini aydın şəkildə nümayiş etdirir.

Dövlətimizin başçısı elektromobillə kompleksin ərazisini gəzdi.

Astara şəhərində dənizkənarı park-bulvar kompleksi ərazisinin genişləndirilməsi ilə bağlı inşaat işlərinə Prezident İlham Əliyevin 2017-ci ilin iyunun 8-də imzaladığı Sərəncama əsasən başlanılıb. Tikinti işləri 2018-ci ilin avqust ayında başa çatdırılıb. Park-bulvar kompleksinin ikinci hissəsinin ərazisi 10 hektar sahəni əhatə edir. Bu istirahət məkanının 500 metrlik hissəsi Xəzər dənizinin sahili boyunca uzanır. Ərazidə 52 metr hündürlüyündə dövlət bayrağı ucaldılıb, qala divarı, fəvvarə kompleksi, süni şəlalə quraşdırılıb. Bundan başqa, istirahət məkanında iki hektar sahəsi olan “Zirvə” idman klubuna məxsus atçılıq mərkəzi, avtokartinq meydançası, açıq fitnes meydançası tikilib, velosiped zolağı salınıb, uşaqlar üçün attraksionlar, oturacaqlar, işıq dirəkləri və suvarma sistemi quraşdırılıb. Ərazidə genişmiqyaslı yaşıllıq işləri görülüb, gül, dekorativ kol və ağaclar, həmçinin yerli meşə ağacları əkilib.

Belə layihələrin icrası Astaranın abadlaşdırılması, gözəlləşdirilməsi və müasirləşdirilməsi istiqamətində görülən işlərin davamlı olduğunu və bu işlərin yüksək keyfiyyətlə və vaxtında yerinə yetirildiyini bir daha sübut edir. Bir sözlə, müasir üslubda, orijinal dizaynda və yüksək zövqlə yaradılan bu istirahət məkanı Astaranın gəzməli-görməli yerlərinə daha bir ünvanı da əlavə edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerik rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Lerik şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri qoydu.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov Prezident İlham Əliyevə son dövrlərdə rayonda həyata keçirilən sosial-iqtisadi layihələr barədə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerik rayonunun Piran-Hamarat-Vijaker avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 il ərzində Azərbaycanda yüksək sürətli və dayanıqlı sosial-iqtisadi inkişafa nail olunub. Sosial-iqtisadi islahatların vacib tərkib hissələrindən biri də yol infrastrukturunun müasirləşdirilməsi, bu sahədə dünyanın mütərəqqi təcrübəsini tətbiq edilməsidir. Dövlətimizin başçısının sərəncam və tapşırıqlarına uyğun olaraq, ölkəmizin əsas magistral yolları qısa müddətə və müasir səviyyədə yenidən qurulub. Bundan sonra diqqət kənd və qəsəbələri birləşdirən yolların yenilənməsinə yönəlib. Prezident İlham Əliyevin diqqəti sayəsində indi ölkəmizdə kənd yollarının müasirləşdirilməsi, əvvəllər yol olmayan kənd və qəsəbələrə yüksək səviyyədə yolların çəkilməsi geniş vüsət alıb. Bu cür layihələrin miqyası və coğrafiyası ildən-ilə daha da genişlənir. Bunu Lerik rayonunun Piran-Hamarat-Vijaker avtomobil yolunun yenidən qurulması da aydın nümayiş etdirir. Belə sosial layihələr kənd və qəsəbələrin sakinlərinin həyatına birbaşa təsir edir, onların istehsal etdiyi məhsulların alıcılara tez və rahat şəkildə çatdırılmasına imkan verir. Bununla yanaşı, yeni yolların inşası bölgələrimizin turizm potensialının artırılmasına və turist axının təmin edilməsinə geniş imkanlar yaradır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına Piran-Hamarat-Vijaker avtomobil yolunda aparılan yenidənqurma işləri ilə bağlı məlumat verdi.

Bu avtomobil yolunun tikintisinə Prezident İlham Əliyevin bu il avqustun 18-də imzaladığı Sərəncama əsasən dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 11,3 milyon manat ayrılıb. Yol 9100 nəfərin yaşadığı 28 yaşayış məntəqəsini birləşdirir. Ümumi uzunluğu 26 kilometr olan yol 4-cü texniki dərəcəyə aiddir. İki zolaqlı yolun hərəkət hissəsinin eni 6 metrdir. Layihənin icrası çərçivəsində suötürücü borular, yol nişanları və göstərici lövhələr quraşdırılıb, yol-cizgi xətləri çəkilib. Bir sözlə, yol müasir səviyyədə, texnoloji ardıcıllığa uyğun və bütün tələblərə cavab verməklə yenidən qurulub.

Dövlətimizin başçısına Lerik rayonunun Noda-Şingədulan-Xanagah avtomobil yolunun tikintisi barədə də məlumat verildi.

Otuz min nəfərin yaşadığı və 50 yaşayış məntəqəsini birləşdirən bu avtomobil yolunun tikintisi üçün Prezident İlham Əliyevin 2013-cü ildə imzaladığı Sərəncamla Lerik Rayon İcra Hakimiyyətinə ilkin olaraq 2 milyon manat, 2014-cü ildə imzalanan Sərəncamla isə əlavə olaraq 7 milyon manat ayrılıb. 2016-cı ildə imzalanan digər Sərəncama əsasən isə yolun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 6,6 milyon manat vəsait ayrılıb və yolun tikintisi başa çatdırılıb.

Qeyd edildi ki, ümumi uzunluğu 36 kilometr, eni 6 metr olan yol 4-cü texniki dərəcəyə aiddir və ikizolaqlıdır. Yolun inşası zamanı müxtəlif diametrli suötürücü borular tikilib, iki körpü keçidi inşa olunub. Bu yolun tikilməsi bölgədə sərnişin və yük daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcək. Həmçinin sözügedən avtomobil yolunun tikintisi yerli və xarici turistlərin ərazidə yerləşən istirahət mərkəzləri və yerli tarixi mədəniyyət abidələri ilə də tanış olmalarına şərait yaradacaq.

Prezident İlham Əliyev yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Lerik şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin icrasının yekunlaşması münasibətilə keçirilən mərasimdə iştirak edib.

Prezident İlham Əliyev əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

-Bu gün yenidən Lerik rayonundayam, çox şadam ki, sizinlə görüşürəm. Bu, mənim Prezident kimi Lerik rayonuna dördüncü səfərimdir. Əvvəlki illərdə Lerik rayonunun inkişafı ilə bağlı bir çox önəmli qərarlar verildi. Bu qərarların icrası nəticəsində rayonun inkişafı sürətlə getməyə başladı. Əlbəttə, ilk növbədə, biz Lənkəran-Lerik yolunun çəkilişi ilə məşğul olduq. 2005-ci ildə müvafiq göstəriş verilmişdi və yol çəkildi. Əvvəllər də yol olub, amma çox bərbad vəziyyətdə idi və yolun çəkilişindən sonra Lerikdə inkişaf daha da sürətlə getməyə başladı. Bu ilin yayında mənə məlumat verildi ki, yol artıq sıradan çıxıb və Prezidentin ehtiyat fondundan 5 milyon manat vəsait ayrıldı və yol yenidən çəkilməyə başlanmışdır. Qalan vəsait də Dövlət İnvestisiya Proqramından ayrılacaq ki, Lənkəran-Lerik yolu ən yüksək standartlara cavab versin. Deyə bilərəm ki, yol bu gün də yaxşı vəziyyətdədir, ancaq daha yaxşı vəziyyətdə olacaq.

Bildiyiniz kimi, sovet vaxtında Lerikdə qazlaşdırma aparılmamışdı. Lerik şəhərinin təbii qazla təmin edilməsi üçün müvafiq göstəriş verildi və qaz xətti çəkildi. Bu gün mənə verilən məlumata görə, Lerik rayonunda qazlaşdırma 36 faiz səviyyəsindədir. Rayonun relyefini, dağlarını nəzərə alsaq, hesab edirəm ki, bu, yaxşı göstəricidir. İmkan daxilində Lerik rayonunun qazlaşdırılması ilə bağlı əlavə addımlar atılacaqdır.

Bu gün Lerikdə 16 meqavat gücündə yeni elektrik stansiyasının açılışı nəzərdə tutulur. Beləliklə, bu enerji ümumi sistemə verilərkən nəinki Lerik rayonunun tələbatını, eyni zamanda, bütün cənub zonasının enerji təsərrüfatının dayanıqlığını təmin edəcək. Əlbəttə ki, biz, ilk növbədə, Lerik rayonunu etibarlı enerji mənbəyi ilə təmin edəcəyik.

Bu gün biz artıq Lerik şəhərinin içməli su ilə təminatını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm. Artıq bu layihə icra edildi. Onun icrası üçün çox böyük vəsait ayrıldı və biz buna nail ola bilmişik. İçməli su insan sağlamlığı üçün əsas şərtdir və bundan sonra vətəndaşlar təmiz, ən yüksək standartlara cavab verən içməli su ilə təmin olunacaqlar.

Lerik uzunömürlülər diyarıdır, burada insanlar çox sağlamdırlar. Dünya miqyasında Lerik haqqında kifayət qədər məlumat var. Lerikdə Uzunömürlülər Muzeyi də var. Mən səfərlərimin birində muzeylə tanış olmuşam. Ancaq içməli su layihəsi icra olunandan sonra insanların sağlamlığı daha da yaxşı olacaq.

Bu əsas infrastruktur məsələlərinin həlli göstərir ki, Azərbaycanın bütün bölgələrində, bütün rayonlarında sürətlə iş gedir. Lerik Azərbaycanın ən ucqar rayonlarından biridir. Həm dağlıq ərazidir, həm əsas magistral yollardan uzaqdır. Amma buna baxmayaraq, burada həyat qaynayır, inkişaf gedir, rayonun sosial-iqtisadi göstəriciləri də yaxşıdır. Burada yaradılan müasir infrastruktur insanlara xidmət göstərir və rayonun gələcək iqtisadi, sosial inkişafını təmin edir.

Biz, eyni zamanda, Lerik rayonunda sosial məsələlərin həlli ilə ciddi məşğul olmuşuq. Rayonda 50-dən çox məktəb təmir olunub və ya yenidən tikilib. Mədəniyyət Mərkəzi yaradılıb, mərkəzi rayon xəstəxanası əsaslı şəkildə təmir olunub və müasir avadanlıqla təchiz edilib. Yəni, sosial infrastruktur, elektrik xətləri, qazlaşdırma, su xətləri, yollar – bütün bunlar reallıqdır. Bu gün mən buraya gələrkən yeni kənd yolunun açılışını etdik. Uzunluğu 20 kilometrdən çox olan, bir neçə kəndi birləşdirən, 11 min əhaliyə xidmət göstərən yeni kənd yolu açılıb. Kənd yollarının yenidən qurulması baxımından Lerik Azərbaycanda ən qabaqcıl yerlərdədir. Mənə verilən məlumata görə, son illərdə görülən işlər nəticəsində Lerik rayonunun kəndlərinin 88 faizi müasir yollarla əhatə edilib və yeni layihə, - o da təqribən uzunluğu 20 kilometrdən çox olan kənd yolu layihəsi, - gələn ilin Dövlət İnvestisiya Proqramında nəzərdə tutulub və gələn il biz o yolu da tikəcəyik, vətəndaşların sərəncamına verəcəyik.

Bütün bunları biz regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları çərçivəsində həll etmişik. Bildiyiniz kimi, bu il üçüncü Dövlət Proqramının icrası başa çatır. Proqram artıqlaması ilə icra edilib, biz bunu Lerik rayonunun timsalında görürük. Növbəti illər üçün yeni proqram hazırlanır və indi bölgələrdən təkliflər daxil olur. Mən Lerik ictimaiyyətindən də xahiş edirəm ki, onlar da təklifləri göndərsinlər. Hökumətdə bu proqrama baxılacaq, iqtisadi və sosial məsələlərin həlli növbəti illərdə təmin ediləcəkdir.

Bütövlükdə ölkəmizdə - bütün bölgələrdə, bütün rayonlarda inkişaf sürətlə gedir. Ölkəmizin bu uğurlu inkişafı əlbəttə ki, xalqımızı da sevindirir, Azərbaycanın beynəlxalq nüfuzu, bizim gücümüz artır və iqtisadi sahədə aparılmış düzgün siyasət öz bəhrəsini verir. Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır. Biz iqtisadi baxımdan heç kimdən asılı deyilik, biz özümüz öz taleyimizin sahibiyik. Güclü iqtisadiyyat, düşünülmüş iqtisadi siyasət, maliyyə imkanlarımızın genişləndirilməsi imkan verir ki, bütün bölgələrdə, ən ucqar yerlərdə gözəl layihələr icra edilsin. Bu gün Lerikdə açılacaq 16 meqavat gücündə yeni elektrik stansiyası özlüyündə böyük bir infrastruktur layihəsidir. İçməli su, qazlaşdırma – bütün bunları biz öz hesabımıza edirik. Heç kimdən yardım, heç kimdən kredit almadan. İndi kreditlərə də ehtiyac qalmır. Düzdür, biz indi bəzi kreditləri alırıq, ancaq o proses də demək olar ki, dayandırıldı. Biz özümüz bəzi xarici ölkələrə kreditlər veririk və bundan faiz qazanırıq. Yəni, bu gün Azərbaycan, sözün əsl mənasında, öz sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf bütün bölgələrdə özünü büruzə verir, o cümlədən Lerik rayonunda.

Qeyd etdiyim kimi, Lerikə dördüncü dəfə səfər edirəm və bundan sonra da səfərlər olacaq. Əminəm ki, bu gün verilən tapşırıqlar, qərarlar gələcəkdə gözəl nəticələrə gətirib çıxaracaqdır. Lerikin gələcək iqtisadi və sosial inkişafı ilə bağlı əlavə addımlar atılacaq, sərəncam imzalanacaq. Bilirəm, kənd yollarının tikintisi ilə bağlı layihələr hələ ki, gündəlikdədir. Eyni zamanda, məktəblərin tikintisi, ev təsərrüfatının yenidən qurulması ilə bağlı layihələr olacaq. Ona görə bir daha demək istəyirəm ki, sizi narahat edən məsələlər məruzə edilsin və müvafiq göstərişlər veriləcək. Bu günə qədər biz bu yolla getmişik və bu gün gözəl nəticələrə çatmışıq.

Sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Sonra "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə Prezident İlham Əliyevə layihə haqqında məlumat verdi.

Bildirildi ki, bu layihə çərçivəsində Lerik şəhərində içməli su şəbəkəsinin və sutəmizləyici qurğunun, çirkab suların şəhər ərazisindən kənarlaşdırılması üçün kanalizasiya şəbəkəsinin və çirkab sutəmizləyici qurğunun tikintisi nəzərdə tutulub. Layihə çərçivəsində tikinti işlərinə 2011-ci ildən başlanılıb. Lerik şəhər əhalisinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə Zuvandçay çayı üzərində sugötürücü qurğu inşa edilib. Sugötürücü qurğudan suyun öz axımı ilə şəhər ərazisindəki sutəmizləyici qurğuya ötürülməsi üçün 17,49 kilometrlik magistral xətt çəkilib. Yay aylarında Zuvandçay çayında suyun azalması nəzərə alınaraq, əlavə olaraq Nisliçay çayı üzərində sugötürücü qurğu inşa edilib. Nisliçay çayından götürülən sular nasos stansiyası vasitəsilə uzunluğu 90 poqonmetr olan təzyiqli boru ilə Zuvandçay çayından Lerik şəhərindəki təmizləyici qurğuya çəkilən magistral su xəttinə ötürüləcək. Sugötürücü qurğulardan qəbul edilərək magistral su xətti ilə saniyədə ötürülən 20,2 litr suyun təmizlənməsi üçün şəhər ərazisində gündəlik gücü 2,6 min kubmetr olan içməli sutəmizləyici qurğu kompleksi

inşa edilib. Lerik şəhəri ərazisində içməli suyun yığılması və paylanması məqsədilə tutumu 1500 kubmetr olan 4 su anbarı tikilib. Şəhərin yüksəklikdə yerləşən hissəsindəki evlərə içməli suyun nəqli üçün tutumu 500 kubmetr olan anbarda məhsuldarlığı saniyədə 1,54 litr olan iki nasos quraşdırılıb. Su anbarlarından Lerik şəhər əhalisinə içməli suyun verilməsi üçün uzunluğu 55 min 55 poqonmetr olan içməli su şəbəkəsi tikilib, 1821 ev su sayğacı ilə təmin edilərək bu şəbəkələrə qoşulub.

Diqqətə çatdırıldı ki, çirkab suların şəhər ərazisindən toplanaraq təmizləyici qurğuya ötürülməsi üçün uzunluğu 1579 poqonmetr olan kanalizasiya kollektor xətti, uzunluğu 1409 poqonmetr olan təzyiqli çirkab su xətti, eləcə də uzunluğu 41 min 289 poqonmetr olan çirkab su şəbəkəsi çəkilib. Kanalizasiya şəbəkəsi üzərində 1296 baxış quyusu və gündəlik gücü 1530 kubmetr olan təmizləyici qurğu inşa edilib.

Məlumat verildi ki, Lerik şəhərinin ilk su təchizatı sistemi 1968-ci ildə yaradılıb. Şəhərin yalnız 50 faizi mərkəzləşdirilmiş qaydada fasiləli rejimlə içməli su ilə təmin edilirdi. Ümumiyyətlə Lerikdə kanalizasiya şəbəkəsi olmayıb. Bu cür layihələrin icrası ölkəmizdə sosial siyasətin uğurla həyata keçirildiyinin əyani göstəricisidir. Bu işlər bir daha sübut edir ki, vətəndaşların sosial məsələlərinin həlli Azərbaycanda aparılan dövlət siyasətinin mərkəzində dayanır və bu istiqamətdə icra olunan layihələr davamlıdır.

Prezident İlham Əliyev Lerik şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerik rayonunda gücü 16,5 MVt olan elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib.

"Azərenerji" QSC-nin sədri Baba Rzayev Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Bölgələrdə bu cür elektrik stansiyalarının yaradılması həm enerji təminatının gücləndirilməsində mühüm rol oynayır, həm də regionların inkişafına təkan verməklə əlavə iş yerlərinin açılmasına səbəb olur. Bu baxımdan Lerik rayonunda gücü 16,5 MVt olan elektrik stansiyası da əhəmiyyəti ilə seçilir.

Bildirildi ki, ölkənin cənub bölgəsinin elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaq məqsədilə "2009-2013-cü illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"na əsasən Lerikin elektrik təchizatı sistemində yenidənqurma işlərinin aparılması çərçivəsində rayonda gücü 16,5 MVt olan elektrik stansiyasının tikintisi həyata keçirilib. Elektrik stansiyası Lerik şəhər mərkəzindən bir kilometr cənubda, Cəngəmiran kəndində 3,6 hektar ərazidə yerləşir. Burada hər birinin gücü 3,3 MVt olan beş mühərrik-generator, həmçinin 35 kV və 10 kV-luq yarımstansiyalar quraşdırılıb. Bundan başqa, gücü 25 MVA olan 35/10 kV-luq blok transformatoru, hər birinin gücü 10 MVA olan 35/10 kV-luq iki güc transformatoru və hər birinin gücü 630 kVA olan 10/0,4 kV-luq iki ədəd xüsusi sərfiyyat transformatoru da layihənin komponentləri sırasındadır. Burada gücü 500 kVA olan dizel generatoru, rele mühafizəsi və avtomatika sistemləri, həcmi 20 kubmetr olan qəza yağ tutumu sistemi quraşdırılıb. Eyni zamanda, həcmi 250 kubmetr olan yanğınsöndürmə sisteminin yerüstü ehtiyat su çəni qoyulub, diametri 200 millimetr olan 6 kilometrlik qaz xətti, uzunluğu 25 kilometr ikidövrəli 35 KV gərginlikli elektrik verilişi, uzunluğu 16 kilometr olan 10 KV gərginlikli 8 elektrik verilişi xətləri xətti çəkilib.

Dövlətimizin başçısı elektrik stansiyasını işə saldı.

Bu layihə bölgənin enerji təminatı baxımından əhəmiyyəti ilə seçilir. Belə ki, regionun enerji təminatının keyfiyyət göstəricilərini yaxşılaşdıracaq stansiya ildə 75 milyon kilovat-saat elektrik enerjisi istehsal etmək imkanına malikdir. Müqayisə üçün deyək ki, bu, Lerik və Yardımlı rayonlarının elektrik enerjisinə tələbatından 40 faiz çoxdur. Bununla yanaşı, regionun ucqar nöqtələrində gərginlik səviyyəsinin normadan aşağı düşməsi hallarının qarşısı alınacaq. Stansiyanın faydalı iş əmsalı 45 faiz təşkil edir. Burada əsas yanacaq kimi qazdan istifadə olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerikdə Bayraq Muzeyinin açılışında iştirak edib.

Dövlət başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Bayraq Muzeyi və hündürlüyü 36 metr olan bayraq dirəyinin yerləşdiyi Dövlət Bayrağı Kompleksi Lerik şəhərinin mərkəzində, ümummilli lider Heydər Əliyevin adını daşıyan meydanın ərazisində yerləşir. Bu muzeyin inşasına 2018-ci ilin martında başlanılıb. Tikinti işləri bu ilin avqustunda başa çatdırılıb.

Bildirildi ki, muzeyin ümumi sahəsi 1200 kvadratmetr olan binası sərgi zalından, inzibati və yardımçı otaqlardan ibarətdir. Muzeyin sərgi zalında Azərbaycan xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, orta əsrlərdə xanlıqların istifadə etdiyi bayraqlar, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və müstəqillik dövrlərində qəbul edilmiş gerblər, bayraqlar, Azərbaycanın konstitusiyaları, Silahlı Qüvvələrimizin müxtəlif qoşun birləşmələrinin geyim formaları, poçt markaları, orden və medallar nümayiş olunur.

Bölgələrdə Bayraq muzeylərinin və Bayraq meydanlarının yaradılması Azərbaycanın dövlət atributlarına ən yüksək səviyyədə göstərilən diqqətin bariz nümunəsidir. Belə muzeylərin yaradılması dövlət atributlarına olan sonsuz sevgini nümayiş etdirməklə yanaşı, gənc nəslin Azərbaycan bayrağına hörmət ruhunda, əsl vətənpərvər kimi tərbiyə olunmasına mühüm töhfə verir. Bununla yanaşı, bu işlər həm də Azərbaycan dövlətinin

müstəqilliyini əks etdirən və hər bir vətəndaş üçün müqəddəs olan üçrəngli bayrağımıza göstərilən hörmət və ehtiramın təcəssümüdür. İndi Azərbaycan bayrağı ən nüfuzlu beynəlxalq təşkilatlar və mötəbər məclislərdə qürurla dalğalanır, dövlətimizi şərəflə təmsil edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş 100 yerlik Lerik şəhər 2 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.

Azərbaycan Prezidenti uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi.

Uşaqların sosial müdafiəsinin gücləndirilməsi, onların sağlam və xoşbəxt böyüməsi bu gün dövlətimizin həyata keçirdiyi siyasətdə mühüm yer tutur. Respublikamızın bütün bölgələrində yeni körpələr evi-uşaq bağçalarının inşası, onların müasir avadanlıqla təchiz edilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına dövlət tərəfindən böyük dəstək verilir. Bu istiqamətdə həyata keçirilən Dövlət proqramları ilə yanaşı, Heydər Əliyev Fondu da bu sahəyə xüsusi töhfə verir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı həyata keçirdiyi layihələri bu baxımdan çox mühüm rol oynayır. Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı uşaqların təlim-tərbiyəsinin, onların bilikli və savadlı yetişməsinin Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etdiyini bir daha sübut edir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş bağçalardan biri də Lerik şəhər 2 saylı körpələr evi-uşaq bağçasıdır. Bu cür gözəl və hərtərəfli şəraiti olan körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bir daha sübut edir ki, dövlətimizlə bərabər, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da gələcəyimiz olan uşaqlarla bağlı bütün məsələlərə xüsusi həssaslıqla yanaşır, onların sağlam və xoşbəxt böyüməsi üçün əlindən gələni əsirgəmir. Müasir görkəmi ilə seçilən belə müəssisələr həm də yerləşdiyi ərazinin gözəlliyini daha da artırır.

Bildirildi ki, bu uşaq müəssisənin inşasına 2015-ci ilin mayında başlanılıb. İnşaat işləri 2018-ci ilin mayında yekunlaşıb. İkimərtəbəli binada qrup, yataq, yemək otaqları və xidməti otaqlar var. Burada, eyni zamanda, musiqi və gimnastika, həmçinin kompüter otağı da balacaların ixtiyarına verilib. Müxtəlif qrupların fəaliyyət göstərəcəyi bağçada uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq, onların istedadlarını üzə çıxarmaq üçün hərtərəfli şərait yaradılıb. Otaqların hamısı zəruri avadanlıq və əyani vasitələrlə təchiz olunub. Körpələr evi-uşaq bağçasının ərazisində balacaların əylənməsi üçün meydança yaradılıb.

Müəssisədə 22 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub.

Bütün bunlar bir daha da göstərir ki, Heydər Əliyev Fondunun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb. Ümumilikdə, ölkədə son illərdə uşaqların sosial müdafiəsinin gücləndirilməsi və onların xoşbəxt böyümələri naminə olduqca mühüm layihələr icra edilib. Bunların arasında mövcud körpələr evi-uşaq bağçalarının əsaslı təmiri ilə yanaşı, yeni-yeni bu cür müasir müəssisələrin yaradılması vacib əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Lənkəran, Astara və Lerik rayonlarına səfəri okytabrın 15-də başa çatdı.

## *Türkiyə Respublikasına işgüzar səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimində iştirak etmək üçün oktyabrın 19-da Türkiyə Respublikasına işgüzar səfərə gəlib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı İzmir şəhərinin Adnan Menderes adına hava limanında dövlətimizin başçısını yüksək vəzifəli rəsmi şəxslər qarşıladılar.

Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı Türkiyə əsgərlərini salamladı.

Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyevi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qarşıladı.

Prezidentlər terrasdan "Star" neft emalı zavodunun ərazisini seyr etdilər.

Dövlət başçıları idarəetmə ofisi ilə tanış oldular.

Prezidentlərə "Star" neft emalı zavodunda görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, "Star" zavodunun ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək və müəssisənin əsas xammal tədarükçüsü kimi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR çıxış edir. SOCAR-ın 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, "Petkim" neft-kimya kompleksinin ərazisində inşa etdiyi bu zavodda avqustdan etibarən sınaq məqsədilə xam neft emalına başlanılıb. Zavoda ilk neft yükü məhz Azərbaycandan olmaqla 80 min ton "Azeri Light" markalı neft çatdırılıb. Zavod 5 milyon ton dizel yanacağı istehsal etmək imkanına malikdir və Türkiyənin idxalının 40 faizə düşməsinə səbəb olacaq. Həmçinin mayeləşdirilmiş qazın idxal səviyyəsi də 70

faizə enəcək. Zavod ildə 1,6 milyon ton təyyarə yanacağı istehsal etməklə Türkiyənin tələbatını tam ödəyəcək. “Star” neftin qiymətindən asılı olaraq hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracaq. Layihənin həyata keçirilmə müddətində burada 19 min 500 işçi çalışıb. Zavod istehsala başladığı zaman 1100 nəfər yeni iş yeri ilə təmin olunacaq.

“Star” neft emalı zavodunun açılış mərasiminin aparıcısı 6,3 milyard dollar dəyərində olan və bu gün reallaşan 4 nəhəng layihənin əhəmiyyəti haqqında ətraflı məlumat verdi.

Sonra layihənin əhəmiyyəti haqqında videoçarx nümayiş olundu.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev mərasimdə iştirak edən Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevə və Rəcəb Tayyib Ərdoğana layihənin həyata keçirilməsinə verdikləri dəstəyə görə təşəkkürünü bildirdi. Ulu öndər Heydər Əliyevin “Azərbaycan-Türkiyə dostluğu əbədi və sarsılmazdır” sözlərini xatırladan Rövnəq Abdullayev diqqətə çatdırdı ki, müxtəlif layihələrə yatırılan sərmayələr nəticəsində SOCAR Türkiyənin ən böyük investoruna çevrilib.

“Star” neft emalı zavodu haqqında və burada istehsal ediləcək məhsullar barədə danışan SOCAR-ın prezidenti yaxın gələcəkdə Petkimdə yeni əhəmiyyətli layihənin reallaşdırılmasına başlanılacağını qeyd edərək dedi:

-Bu gün açılışına toplaşdığımız layihələrin memarları olan və iştirakları ilə bizi şərəfləndirən prezidentlərimiz cənab İlham Əliyevə və cənab Rəcəb Tayyib Ərdoğana sonsuz minnətdarlığımı bildirirəm. Zatialilərinin dəstəyi, himayəsi olmasaydı, bu layihəni daim diqqət mərkəzində saxlamasaydılar, dəyərli tövsiyələrlə bizə doğru yol göstərməsəydilər bu uğur qazanılmazdı.

Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz Türkiyə-Azərbaycan dostluğunun və işbirliyinin rəmzi olan bu hadisənin önəmindən danışaraq iki ölkə arasında qardaşlığın möhkəm bağlara əsaslandığını vurğuladı. Azərbaycan və Türkiyə prezidentlərinin dəstəyi ilə ölkələrimizin enerji sahəsində əhəmiyyətinin daha da artdığını deyən energetika və təbii sərvətlər naziri “Star” neft emalı zavodunun verəcəyi faydanı qeyd etdi. Bu zavodun Avropa, Yaxın Şərq və Afrika bölgələrində ən böyük müəssisələrdən biri olduğunu deyən Fatih Dönməz həyata keçirilən layihələrin Azərbaycanın və Türkiyənin bölgədəki gücünü daha da artıracağını vurğulayaraq dedi:

- Böyük və güclü Türkiyə hədəfimizə gedən yolda Azərbaycanı yanımızda görmək bizi son dərəcə məmnun edir. Biz eyni köklər üzərində böyüyən ulu bir çinarın budaqlarıyıq. Həmin çinarın kölgəsi həyata keçirdiyimiz layihələrlə bu gün Qafqazdan Avropayadək bir çox ölkəyə qədər uzandı.

“Türkiyə və Azərbaycan birlikdə XXI əsrin enerji tarixini yazır”, - deyən Fatih Dönməz Azərbaycanın müstəqilliyinin 27-ci ildönümü münasibətilə təbriklərini də çatdırdı.

Türkiyənin xəzinə və maliyyə naziri Berat Albayrak TANAP layihəsinin açılışından 4 ay sonra dünyaya örnək olacaq daha bir önəmli layihənin açılışına toplaşdıqlarını qeyd edərək, Türkiyə və Azərbaycan arasındakı dostluğu və birliyi dünya üçün nümunə adlandıraraq dedi:

– Bu gün burada yaranan mənzərə dünyanın içində olduğu bədbinliyə, qeyri-müəyyənliyə ən gözəl həll formasını təqdim edir. Dünya Türkiyə ilə Azərbaycan arasındakı dostluğu, birliyi örnək götürməlidir. Qarşılıqlı uzaqgörənliklə ortaq hədəflərə doğru həmrəyliklə hərəkət etdikdə regional və qlobal sabitliyə, əmin-amanlığa necə böyük töhfə verməyin mümkün olduğu bu mənzərə sayəsində çox aydın görünür. Bu gün bu mənzərə dünyaya ölkələrin öz maraqlarını, iqtisadi sabitliklərini təmin etmələrinin yolunun himayəçilikdən və onu artırmaqdan, ticarət müharibələri aparmaqdan yox, həmrəylikdən, rəqabətlilik mühitindən, güclü əməkdaşlıqdan keçdiyini çox aydın şəkildə ortaya qoyur.

Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım iki ölkənin ağıl, iradə və güc birliyi ilə reallaşan layihənin icrası münasibətilə təbriklərini çatdırdı, Türkiyə-Azərbaycan işbirliyinin əbədi olacağını vurğulayaraq dedi:

– Türkiyə-Azərbaycan münasibətlərini əbədiyyətə daşıyacaq bu və bu qəbildən ortaq layihələrimizlə qürur duyuruq. Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ceyhan, TANAP, “Star” neft emalı zavodu və buna bənzər böyük olduğu qədər də strateji əhəmiyyət daşıyan bu layihələr təkcə Azərbaycan-Türkiyə qardaşlığını inkişaf etdirmir, eyni zamanda, bütün Qafqazın, Orta Asiyanın və hətta Avropanın enerji təhlükəsizliyinə də böyük töhfə verir. Ölkələrimizin iqtisadiyyatına böyük fayda verəcək neft emalı zavodunun İzmirimizə, Türkiyəmizə xeyirli-uğurlu olmasını diləyirəm.

Türkiyə-Azərbaycan dostluğunun və qardaşlığının ən önəmli tərəfini, həmçinin qarşılıqlı yatırımların, dünya səviyyəli enerji və nəqliyyat sahələrində əməkdaşlığın təşkil etdiyini deyən Türkiyə Böyük Millət Məclisinin sədri ulu öndər Heydər Əliyevin, Türkiyənin və Azərbaycanın dövlət başçıları Rəcəb Tayyib Ərdoğanın və İlham Əliyevin imzaladığı sənədlərlə iki ölkə arasında münasibətlərin daha da möhkəmləndiyini vurğuladı.

Ölkələrimiz arasında 1991-ci ildən etibarən 200-dən çox müqavilə, protokol və digər sənədlər imzalandığını diqqətə çatdıran Binəli Yıldırım dedi:

– Mərhum Prezident Heydər Əliyevin, hörmətli Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə imzalanan bu müqavilələr əlaqələrimizi “Bir millət, iki dövlət” anlayışına bir addım da yaxınlaşdırıb. Bölgəmiz və dünya iqtisadiyyatı üçün də böyük əhəmiyyət kəsb edən bu əsərlər məhz iki ölkənin bu anlayışının nəticəsidir.

Açılış mərasiminin dəyərli bir ildönümü ilə üst-üstə düşdüyünü, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə təsadüf etdiyini deyən Binəli Yıldırım bu münasibətlə bir daha təbriklərini çatdırdı.

Mərasimdə Azərbaycanın və Türkiyənin imza atdığı mühüm layihələr barədə videoçarx nümayiş etdirildi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

-Hörmətli Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Əziz dostlar.

Bu gün Türkiyə-Azərbaycan qardaşlıq əlaqələrinin tarixində çox gözəl və əlamətdar bir gündür. Biz "Star Rafineri"nin açılışına toplaşmışıq. Xatırlayıram ki, 7 il bundan əvvəl əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla burada, Əliağada "Star"ın təməlini qoyduq və bu gün bu nəhəng layihənin açılışını bərabər edirik. Bu, bir daha onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə uğurla çatırıq. Bir daha onu göstərir ki, belə nəhəng layihələrin icrası üçün Türkiyə və Azərbaycan liderlərində güclü siyasi iradə var. Bu layihənin həyata keçməsinin əsas səbəbi Türkiyə-Azərbaycan dostluğu, qardaşlığıdır.

Mən yenidən qardaş Türkiyə torpağında olmağımdan çox məmnunam. Deməliyəm ki, bu il bu səfər mənim Türkiyəyə üçüncü səfərimdir. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğan bu il Azərbaycana iki dəfə səfər etmişdir. Bu səfərlərin sayı özlüyündə bir göstəricidir və onu göstərir ki, bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. Bu da təbiidir, çünki əsrlər boyu biz birlikdə yaşamışıq, bir yerdə olmuşuq. Tarixin bəzi məqamları bizi bir-birimizdən ayırıb, amma bu, müvəqqəti xarakter daşıyırdı. Biz yüz il bundan əvvəl birlikdə idik, ondan əvvəlki dövrdə də birlikdə idik, bu gün də bir yerdəyik.

Mən qeyd etməliyəm ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla Bakıda ötən ay keçirilmiş möhtəşəm hərbi paradda iştirak etdik. Bu hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Bakının ən böyük meydanı olan Azadlıq meydanından şərəflə keçmişlər. 1918-ci ilin 15 sentyabrı tarixi bir gündür. Məhz o gündə Bakı şəhəri Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusu və yeni yaradılmış Azərbaycan Milli Ordusu tərəfindən işğaldan azad edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində Cümhuriyyət yaranmışdır. Ancaq Bakı, bizim qədim tarixi şəhərimiz işğal altında idi. Yeni yaradılmış hökumət Gəncə şəhərində fəaliyyət göstərirdi. Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun Gəncədən Bakıya möhtəşəm yürüşü və hərbi zəfəri nəticəsində Bakı işğalçılardan azad edildi və öz sahibinə, Azərbaycan xalqına qaytarıldı. O gündən bir neçə gün sonra Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan edilmişdir. Bu, unudulmaz tarixdir və yüz il o tarixdən sonra Türkiyə və Azərbaycan prezidentlərinin iştirakı ilə Bakıda təşkil edilmiş möhtəşəm mərasim bizim birliyimizi bir daha göstərdi. Göstərdi ki, bizim birliyimiz sarsılmazdır, bizim birliyimiz əbədidir, yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də bir yerdəyik.

Onu da qeyd etməliyəm ki, dünən biz Azərbaycanda müstəqilliyimizin bərpasının 27-ci ildönümünü qeyd etdik. Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə Türkiyə olmuşdur. Bu tarix çox şərəfli tarixdir. O gündən bu günə qədər biz daim bir yerdəyik. Siyasi əlaqələrimiz ən yüksək zirvəyə qalxmışdır. İqtisadi sahədə çox böyük işlər görmüşük. Həm Türkiyə, həm Azərbaycan iqtisadi baxımdan sürətlə inkişaf edən ölkələrdir. Fürsətdən istifadə edərək, qardaş türk xalqını əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə əldə edilmiş bütün uğurlar münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Türkiyə Prezident Ərdoğanın liderliyi sayəsində dünya miqyasında böyük gücə çevrildi. Türkiyə dünya miqyasında söz sahibidir. Bölgədə və dünyada Türkiyə ilə hesablaşırlar, Türkiyənin mövqeyi bir çox hallarda həlledici rol oynayır. Bu, bizi çox sevindirir. Çünki Türkiyənin gücü bizim gücümüzdür. Türkiyə nə qədər güclü olarsa, biz də bir o qədər güclü olacağıq. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycan və Türkiyə dünya miqyasında qardaşlıq, həmrəylik nümunəsi göstərirlər. Mən dünyada ikinci ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər bir-birinə bağlı olsunlar. Bu, bizim böyük sərvətimizdir. Məhz bu dostluq, qardaşlıq duyğuları əsasında biz nəhəng layihələri gerçəkləşdiririk.

"Star Rafineri"nin yaradılması üçün Azərbaycan 6,3 milyard dollar yatırım edib. Növbəti mərhələdə əlavə 700 milyon dollar yatırım ediləcəkdir. Bu, bizim xaricə qoyduğumuz ən böyük yatırımımızdır və bu, təbiidir. Eyni zamanda, biz digər önəmli layihələri birlikdə həyata keçirdik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP neft-qaz kəmərlərinin, Cənub Qaz Dəhlizinin, Bakı-Tbilisi-Qars dəmir yolunun yaradılması – bunların hər biri özlüyündə nəhəng bir layihədir və nəinki ölkələrimiz, xalqlarımız üçün, bölgə, dünya, Avrasiya üçün çox böyük önəm daşıyır. Türkiyə və Azərbaycan birgə səylərlə güclü siyasi iradə nümayiş etdirərək Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızır. Bunu biz edirik və bu yeni xəritələrin altında bizim imzamız var. Bütün bunları biz birgə səylərlə etdik. Bütün bu layihələr böyük maliyyə yatırımı tələb edən layihələrdir. Burada artıq qeyd edildi ki, biz qardaş ölkələrin iqtisadiyyatına böyük sərmayə yatırmışıq. Təkcə Əliağaya qoyulan sərmayə 10 milyard dollara yaxındır və gələcəkdə bu rəqəm daha da artacaq.

Bir sözlə, bu gün "Star Rafineri"nin açılışı timsalında biz birliyimizin, həmrəyliyimizin, dostluğu-

muzun əlamətini görürük. Əminəm ki, bundan sonra da Türkiyə və Azərbaycan yalnız uğurlar yolu ilə gedəcək.

Mən bu fürsətdən istifadə edərək qardaş Türkiyə xalqına daim tərəqqi və rifah arzulayıram. Sağ olun.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

**Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı**

- Əziz qardaşım Prezident İlham Əliyev.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Sizi ən səmimi hisslərlə, hörmət və məhəbbətlə salamlayıram.

Çıxışımın əvvəlində Azərbaycanı 18 oktyabr – Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edirəm. Sovet İttifaqının dağılması ərəfəsində - 1991-ci il oktyabrın 18-də yenidən azadlığa qovuşan Azərbaycan dünəndən etibarən müstəqilliyinin 27-ci ilini geridə qoydu.

Əslində bugünkü Azərbaycan Türkiyə Respublikasının - bizim son dövlətimizin yaranması kimi qardaşlarımızın da ən gənc dövlətidir. Təxminən bir ay bundan əvvəl Bakının Qafqaz İslam Ordusu tərəfindən azad edilməsinin 100 illiyi tədbirləri ilə əlaqədar azərbaycanlı qardaşlarımızla bir yerdə idik. Bakıda şanlı Türkiyə və Azərbaycan ordularının hərbi paradını qardaşlarımızla birlikdə həyəcan və qürurla izlədik. Türkiyə hərbi birlikləri azərbaycanlı qardaşları ilə keçmişdə necə çiyin-çiyinə vuruşmuşdularsa, həmin gün də eləcə çiyin-çiyinə addımladılar. Bu parad iki ölkə arasında əməkdaşlığın, iki dövlət, bir millət olmağımızın göstəricisi idi.

Bu gün “Star” neft emalı zavodunun açılışı ilə dünyaya örnək olan əlaqələrimizi bir addım da inkişaf etdiririk. Azərbaycan ilə əlaqələrimizi təkcə cəsarət, təkcə siyasət miqyasında deyil, güclü iqtisadi çərçivədə davam etdiririk. Bu müəssisə enerji sahəsində həmrəyliyimizi gücləndirmək üçün uzun müddət gördüyümüz işlərin ən mühüm və konkret örnəklərindən biridir. Daha əvvəl Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri layihələrini həyata keçirmişdik. Bu ilin iyununda hər biri xüsusi əhəmiyyətə malik bu strateji layihələrə regional və qlobal miqyasda nüfuza sahib olacaq TANAP-ı da əlavə etdik.

İndi açılışını etdiyimiz “Star” neft emalı zavodu ilə Azərbaycanla qardaşlıq əlaqələrimizin strateji miqyasını daha da gücləndirmiş oluruq. Türkiyə və Azərbaycanın liderliyi ilə həyata keçirdiyimiz hər bir layihə ölkələrimizin regional gücə çevrilmək qabiliyyətini qüvvətləndirməkdədir. Dünyanın ticarət müharibələri və böhranlarla sarsıldığı bir dövrdə bir-bir açılışını etdiyimiz bu layihələrin ölkələrimizi həm ayrılıqda öz qayələrinə, həm də ortaq hədəflərinə yaxınlaşdırdığına inanıram. Hər şeydən əvvəl 6,3 milyard dollarlıq bir sərmayə - “Star” neft emalı zavodu. Amma bundan başqa konteyner limanı, digər tərəfdən isə ilk açılışı ilə addımını atdığımız neft-kimya müəssisələri - bütün bunları ümumilikdə hesabladıqda söhbət təxminən 10 milyard dollarlıq sərmayədən gedir.

Hörmətli qonaqlar, 2008-ci ildən etibarən enerji sahəsində ölkəmizdə mühüm layihələr həyata keçirən Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR “Star” neft emalı zavodunu məhz bu rəqəmlə, bu sərmayə ilə ölkəmizə qazandırmışdır. Son 30 ildə həyata keçirilən ən böyük real sektor sərmayəsi olan “Star” neft emalı zavodu Avropa, Yaxın Şərq və Şimali Afrika bölgələrində ən böyük neft müəssisələrindən biri olaraq, inşallah, uğurla fəaliyyət göstərəcək.

Bu müəssisə ölkəmizin “Strateji sərmayələrin təşviqi sənədi”nə sahib ilk layihəsi olmaq xüsusiyyətinə də malikdir. Bundan başqa, belə bir investisiya olduqda bizim üzərimizə düşən bir vəzifə var, onlara xüsusi dəstək də verəcəyik. O dəstək də ondan ibarətdir ki, bundan sonra nazirlikdə bütün proseslərin həyata keçirilməsi şərti ilə prosedurlar zamanı bu təşviqdən də istifadə ediləcək. Çünki mərifət lütfkarlıqdan asılıdır. Lütfkarlıq olmasa mənası olmaz.

Eyni zamanda, bu neft emalı zavodu Türkiyənin ən böyük enerji layihəsidir. Bu baxımdan neft məhsulları idxalında hər il 1,5 milyard dollar məbləğində qənaət edilməsi, neft məhsullarında xaricdən asılılığın azalması hədəflənir. Gündə 214 min barrel, ildə 10 milyon ton xam neft emalı gücünə və 1,6 milyon kubmetr ehtiyat saxlama qabiliyyətinə malik zavodda dizel, nafta, təyyarə benzini və LPG kimi neft məhsullarının istehsalı həyata keçiriləcək.

Məşğulluq baxımından da mühüm əhəmiyyət daşıyan bu müəssisədə 1100 nəfər çalışacaq. Beləliklə, bu zavod Türkiyə və Azərbaycan iqtisadiyyatlarına mühüm fayda verməklə yanaşı, Egey bölgəmizin rifahını yüksəltmiş olacaq.

Biz iki dövlət, bir millət olaraq öz ölkələrimizlə yanaşı, bölgədəki bütün xalqların təhlükəsizliyi, sabitliyi, rifahı və zənginliyi üçün çalışırıq. Ürəkdən istərdik ki, bölgədəki hər bir ölkə bu səmimiyyəti görə bilsin. Aralıq dənizinin şərq hissəsindəki karbohidrogen ehtiyatları ilə bağlı birtərəfli qaydada baş verən uğursuzluğa məhkum müxtəlif təşəbbüslərdən təəssüf edirik. Bu vəziyyət bölgəmizdə hələ də qeyri-sabitlikdən və gərginlikdən istifadə etmək siyasətindən əl çəkmək istəməyənlərin olduğunu göstərir. Türkiyə olaraq belə cəhdlərə qarşı cavabımızı həm bu yerdən, həm də diplomatik sahədə ən sərt şəkildə verməyi davam etdirəcəyik. Ölkəmizi və qardaşlarımızı nəzərə almayan heç bir təşəbbüsün uğur qazanmaq şansı olmadığını bütün tərəflər görəcəklər. Dostluğa, həmrəyliyə, birlikdə qazanmağa istiqamətlənmiş hər bir təklifə açıq olduğumuzu buradan bir daha bildirmək istəyirəm. Hazırda açılışını etdiyimiz müəssisə məhz bu faydalı əməkdaşlığın ən gözəl nümunəsidir. Hamını belə əməkdaşlığa dəvət edirik.

Hörmətli qonaqlar, Türkiyə və Azərbaycanın bölgəmizin təhlükəsizliyinin və sabitliyinin əsas

aktorları olduğu artıq hamı tərəfindən qəbul edilməyə başlanıb. Bu iki ölkənin qoşulmadığı, razı olmadığı və dəstək vermədiyi heç bir layihə hədəfinə çata bilməz. Bununla yanaşı, Azərbaycan torpaqlarının 20 faizinin əsrin dörddəbiri qədər işğal altında qalması qəbul edilə bilməz. Ölkəmizin və Azərbaycanın bu münaqişənin həlli istiqamətində göstərdiyi təşəbbüslərə beynəlxalq ictimaiyyət daha səssiz qala bilməz. BMT başda olmaqla regional və qlobal problemlərin həlli üçün qurulan təşkilatların bu səssizliyi onların özlərini də məhvə sürükləyir. Haqq-ədalət duyğusundan uzaq, içi boş olan beynəlxalq qurumun heç bir cəmiyyətin və şəxsin gözündə etibarı qalmaz. Biz, beynəlxalq ictimaiyyətin Qarabağ məsələsi başda olmaqla dünyada ortaya çıxan haqsızlıqlara “Dur!” deməsini gözləyirik. Sabitliyin, əmin-amanlığın, rifahın təmin olunması qaydaları istisnasız bütün dövlətlər üçün tətbiq edilməzsə, kimsə gələcəyinə əminliklə baxa bilməz. Türkiyə və Azərbaycan olaraq biz istənilən vəziyyətdə və şərtlər altında inandığımız dəyərlər uğrunda apardığımız birgə mübarizəni davam etdirəcəyik. Allahın izni ilə bu müqəddəs mübarizəmizdə müvəffəqiyyət qazanacağıq.

Bu hisslərlə “Star” neft emalı zavodunun açılışını hörmətli qardaşım Əliyev ilə birlikdə etməkdən böyük qürur və məmnunluq duyduğumu bir daha ifadə etmək istəyirəm. “Star” neft emalı zavodu ölkələrimizə, xalqlarımıza və bölgəmizə “Xeyirli olsun!” deyirəm. Bu layihənin ölkəmizdə həyata keçirilməsində başda əziz qardaşım İlham Əliyevə və əməyi olan hər kəsə xüsusi təşəkkür edirəm, sizlərə sevgi və ehtiramımı çatdırıram. Sağ olun.

Dövlət başçıları zavodun açılışını etdilər.

Sonra birgə foto çəkdirildi.

Daha sonra prezidentlər “Əliağa-SOCAR”ın baş ofisinin binası ilə tanış oldular.

Prezident İlham Əliyevə və Prezident Rəcəb Tayyib Ərdoğana burada yaradılan şərait barədə məlumat verildi. Ofis binası ən müasir avadanlıqla təchiz olunub. Burada İKT-ın ən son yenilikləri tətbiq edilib.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri oktyabrın 19-da başa çatdı.

## *İmişli rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də İmişli rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin İmişli şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev rayonda görülən işlər haqqında məlumat verdi.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

İmişli rayonunda Araz çayının yeni qol-kanalının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə son illərdə meliorasiya və irriqasiya sahəsində böyük uğurlar əldə olunub. Bu çərçivədə 2003-cü ildən geniş vüsət alan yenidənqurma tədbirləri meliorasiya və irriqasiya sahəsinin müasir səviyyəyə çatmasına imkan yaradıb. Son illərdə həyata keçirilən mühüm layihələrdən biri də Araz çayının yeni qol-kanalının istifadəyə verilməsidir. Bu layihənin icrası Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin inkişafına sanballı töhfələr verəcək, yaradılan və yaradılacaq aqroparkların, iri fermer təsərrüfatlarının və müasir heyvandarlıq komplekslərinin suvarma suyu ilə təminatında böyük rol oynayacaq. Araz çayının yeni qol-kanalının istifadəyə verilməsi bu istiqamətdə həyata keçirilən növbəti uğurlu və tarixi layihədir.

Dövlətimizin başçısı Araz çayının yeni qol-kanalının açılışına həsr olunmuş mərasimdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Hörmətli mərasim iştirakçıları.

Bu gün biz İmişli rayonunda yeni önəmli infrastruktur layihəsinin istismara verilməsini qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Bu layihənin həyata keçirilməsi nəticəsində İmişli və qonşu rayonların iqtisadiyyatına yeni təkan veriləcək.

İmişli rayonunun inkişafı ilə bağlı bir çox tədbirlər görülmüşdür. Bu səfər mənim Prezident kimi İmişli rayonuna beşinci səfərimdir. Keçən dəfə İmişlidə olarkən biz içməli su layihəsinin açılışını qeyd etmişdik. Digər infrastruktur layihələrinin icrası İmişli rayonunun ümumi inkişafına müsbət təsir göstərmişdir. Kənd yollarının demək olar ki, 50 faizi əsaslı şəkildə təmir edilib, yenidən çəkilib. Biz bundan sonra da bu işlərlə məşğul olacağıq. Bakı-İmişli-Horadiz-Cocuq Mərcanlı istiqamətində yol ən yüksək standartlara cavab verir.

Qeyd etdiyim kimi, içməli su layihəsi istifadəyə verilmişdir və 40-dan çox kənddə modul tipli təmizləyici qurğular quraşdırılmışdır. Qazlaşdırma İmişli rayonunda 92 faizə çatıb. Bu, çox gözəl göstəricidir. Xüsusilə, əvvəlki dövrü nəzərə alsaq görərik ki, bu istiqamətdə böyük irəliləyiş var. Elektrik enerjisi ilə təchizat yaxşılaşır və demək olar ki, bu sahədə heç bir problem yoxdur. Bu gün biz “Azərişıq”ın yeni idarəetmə və nəzarət mərkəzinin açılışını edəcəyik. Sosial infrastrukturla bağlı bir çox önəmli obyektlər istifadəyə verilmişdir. Onların arasında Olimpiya Kompleksi, 130 çarpayılıq mərkəzi rayon xəstəxanası, Gənclər Mərkəzi, digər layihələr, 25 məktəb əsaslı şəkildə təmir edilib və yenidən tikilib.

Bu gün biz İmişlidə "ASAN Həyat" mərkəzinin açılışını qeyd edəcəyik. Bu, çox önəmli sosial layihədir. Bildiyiniz kimi, "ASAN" bizim intellektual məhsulumuzdur. Azərbaycan bu intellektual məhsulu artıq xarici ölkələrə də ixrac edir. "ASAN Həyat" mərkəzində yerli vətəndaşlar, xüsusilə gənclər üçün 180-dən çox iş yeri yaradılıb. Qırxdan çox könüllü "ASAN xidmət" mərkəzində işləyəcək. Bu mərkəzdə 300-dən çox müxtəlif xidmətlər göstəriləcək. Əminəm ki, İmişli rayonunda sosial, ictimai xidmət sahələrində böyük irəliləyiş olacaqdır.

Bu gün açılışına toplaşdığımız layihənin icrası təkcə İmişli rayonu üçün deyil, eyni zamanda, qonşu rayonlar üçün də böyük əhəmiyyət daşıyır. Araz çayının yeni qolunun tikintisi böyük maliyyə vəsaiti tələb edən layihədir. Bu layihəyə birinci mərhələdə 80 milyon manat sərmayə qoyulubdur və Araz çayının yeni qolunun uzunluğu 54 kilometrdir. Yeni beton su kanalı 53 min hektar torpağı su ilə təmin edəcək. Biləsuvar, İmişli, Saatlı rayonlarının fermerləri, zəhmətkeşləri bu imkanlardan istifadə edəcəklər. Növbəti mərhələdə əlavə 10 min hektar torpağa suyun verilməsi nəzərdə tutulur və Sabirabad rayonunun torpaqları da suvarma suyu ilə təmin ediləcək.

Bu layihənin icrası, ilk növbədə, bizim güclü iqtisadi imkanlarımızı göstərir. Çünki bu gün Azərbaycan istənilən infrastruktur layihəsini uğurla icra edə bilər və icra edir. Biz bu layihəni öz daxili maliyyə imkanlarımız hesabına icra etmişik. Digər tərəfdən, bu kanalın tikintisi bizim niyyətimizi, siyasətimizi göstərir. Çünki bizim siyasətimiz ondan ibarətdir ki, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar. Hər bir yerdə, hər bir rayonda, hər bir kənddə yaşayan vətəndaşlar işlə təmin olunsunlar, onların rifah halı yaxşılaşsın və dövlət bu istiqamətdə öz tədbirlərini görür.

İnfrastruktur layihələrinə gəldikdə, ümumiyyətlə, deyə bilərəm ki, regional inkişaf üzrə birinci Dövlət Proqramı qəbul olunandan sonra - son 15 il ərzində ölkəmizdə iqtisadiyyat üç dəfədən çox artıb. Ölkəmizdə qazlaşdırmanın səviyyəsi 95 faizə çatır. Biz bu ilin sonuna qədər bu rəqəmə çatacağıq. Azərbaycan elektrik enerjisini ixrac edən ölkəyə çevrilib. Biz təkcə bu ilin doqquz ayında 50 milyon dollardan çox həcmdə elektrik enerjisi ixrac etmişik. Gələcəkdə bu, daha da artacaq. Çünki biz özümüzü tam təmin edirik və yaxın gələcəkdə istifadəyə veriləcək 400 meqavatlıq "Şimal-2" Elektrik Stansiyası vasitəsilə ixrac imkanlarımız daha da genişləndiriləcək. On beş min kilometr avtomobil yolu istifadəyə verilir. Biz bu ilin sonuna qədər bu rəqəmə də çatacağıq.

Meliorasiya ilə bağlı bir çox önəmli layihələr icra edilib. Mən onların arasında dörd böyük su anbarını xüsusilə qeyd etmək istəyirəm. Onların sututumu 450 milyon kubmetrə bərabərdir. Əlbəttə ki, onların arasında "Taxtakörpü" və "Şəmkirçay" su anbarları xüsusi yer tutur. Yeni beton su kanallarının çəkilişi ölkəmizdə geniş vüsət alıb və bu gün açılışına toplaşdığımız layihə onlardan biridir. Gələcək planlarımızda da meliorativ tədbirlərin görülməsi xüsusi yer tutur. Növbəti illərin Dövlət İnvestisiya proqramlarında da bu layihələr öz əksini tapacaq. Xüsusilə, gələn ilin əvvəlində qəbul ediləcək regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramında meliorasiya tədbirlərinə xüsusi yer ayrılacaq.

Əvvəlki illərdə də bu sahəyə böyük diqqət göstərmişik və qeyd etdiyim layihələr bunun əyani sübutudur. Növbəti illərdə daha böyük diqqət göstəriləcək. Çünki bu, ilk növbədə, ölkə iqtisadiyyatının şaxələndirilməsinə xidmət edir. Digər tərəfdən, başqa infrastruktur layihələrinin icrası demək olar ki, başa çatır. Biz əlbəttə ki, növbəti illərdə də yolların çəkilişi, qazlaşdırma, içməli su layihələrinin icrası ilə məşğul olacağıq. Ancaq meliorativ tədbirlərin həyata keçirilməsi, hesab edirəm ki, əsas prioritet məsələ olacaqdır.

Biz son illərdə görülən işlərin əyani nəticələrini görürük. Çünki həm keçən il, həm də bu il 100 min hektar torpağa su gətirilib. Bu, dərhal özünü iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında göstərir. Keçən il biz 100 min hektar torpağa su gətirmişik. Mənə verilən məlumata görə, bu il 101 min hektar torpağa suyun verilməsi təmin edilir. Bunun 53 min hektarı, bax, Araz çayının yeni qolunun çəkilişi nəticəsində mümkün olacaq.

Əlbəttə ki, bu, kənd təsərrüfatının inkişafına daha da böyük təkan verəcək. Hesab edirəm ki, builki göstəricilər də qənaətbəxşdir. Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb, görülən və görüləcək tədbirlər nəticəsində daha da artacaq. Biz suvarma layihələrinin icrası ilə əkin sahələrimizi genişləndiririk və bu istiqamətdə əlavə tədbirlər görüləcək. Eyni zamanda, su olan yerdə məhsuldarlıq da artır. Biz bu artan məhsuldarlığı görürük. Xüsusilə, biz bunu iri fermer təsərrüfatlarının fəaliyyətində görürük. Taxılçılıq üzrə iri fermer təsərrüfatlarında məhsuldarlıq təqribən 50 sentnerə yaxındır, ya da ki, ondan çoxdur.

Ona görə, həm meliorativ tədbirlər, həm kənd təsərrüfatı sahəsində aparılan çox ciddi islahatlar, elmi yanaşma, torpaqlardan düzgün analizin aparılması və fermerlərə buna uyğun olaraq tövsiyələrin verilməsi, subsidiyalarda şəffaflığın təmin edilməsi, kənd təsərrüfatı texnikasının dövlət xətti ilə ölkəmizə gətirilməsi, - qeyd etməliyəm ki, bu il 5 mindən çox, keçən il 9 mindən artıq texnika aqrolizinq xətti ilə gətirilib fermerlərə verilmişdir, - gübrələrin, yanacağın güzəştli şərtlərlə fermerlərə verilməsi, fermerlərin vergilərdən tamamilə azad olunması, - torpaq vergisi istisna olmaqla, - bütün bu tədbirlər və üstəgəl sahibkarlığın inkişafına təkan verən tədbirlər, güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlərin verilməsi və eyni zamanda, kompleks tədbirlər nəticəsində biz kənd təsərrüfatının inkişafına nail oluruq.

Mən tam əminliklə deyə bilərəm ki, növbəti illərdə bu sahədə daha da böyük irəliləyiş, uğurlar olacaqdır.

Çünki əvvəlki illərdə də bu sahə inkişaf edib, ancaq hazırda ən müasir texnologiyalar, elmi yanaşma əsasında, düzgün təhlil və infrastruktur layihələrinin icrası nəticəsində biz kənd təsərrüfatını inkişaf etdirəcəyik. Bu, bizim iqtisadi gücümüzü artıracaq, qeyri-neft sektorumuzu gücləndirəcək, eyni zamanda, məşğulluğu da artıracaqdır. Çünki hazırda Azərbaycanda işsizliyin səviyyəsi 5 faizdir. Ancaq nəzərə almalıyıq ki, hər il ölkə əhalisi 100 min nəfərdən çox artır, hər il 100 mindən çox uşaq doğulur. Bu da bizim böyük sərvətimizdir, üstünlüyümüzdür. Ancaq bizim iqtisadi inkişafımız, xüsusilə iş yerlərinin yaradılması bu inkişafa uyğun şəkildə təmin edilməlidir. Ona görə, məşğulluğun artırılması daim gündəlikdə duran məsələdir.

Son illər ərzində kənd təsərrüfatı ilə bağlı görülən tədbirlər, bir çox məhsulların alış qiymətinin artımı nəticəsində kəndlilərdə kənd təsərrüfatına maraq böyük dərəcədə artıb. Bu gün kəndlərdə demək olar ki, məşğulluqla bağlı ciddi problem yoxdur, işləmək istəyən iş tapar. Biz sadəcə olaraq yeni investisiyalarla, yeni layihələrlə fermerlər üçün, kəndlilər üçün bu imkanları genişləndirməliyik və genişləndirəcəyik. Böyük maliyyə vəsaiti tələb edən beton su kanalının çəkilişi 53 min hektara, - hansılar ki, ya tamamilə suvarılmayıb, ya da ki, qismən suvarılıb, - yeni həyat gətiririk, imkanlar yaradırıq ki, vətəndaşlar əksinlər, becərsinlər, pul qazansınlar, daha yaxşı yaşasınlar, evlər tiksinlər və xalqımızın rifahı yüksəlsin.

Budur bizim əsas məqsədimiz və bu məqsədə çatmaq üçün biz əlimizdən gələni edirik. Nəticələr də göz qabağındadır. Qeyd etdiyim kimi, məşğulluqla bağlı problemlər həll olunur, sahibkarlara bundan sonra da böyük diqqət göstəriləcək. İki milyard manatdan çox güzəştli kreditlərin verilməsi özlüyündə böyük nailiyyətdir, böyük nəticədir. Biz investisiyaların təşviqi ilə bağlı çox önəmli addımlar atmışıq, yeni mexanizm işlənilib. Təkcə aparılan islahatlar nəticəsində, investisiya təşviqi mexanizmi işə düşəndən sonra yerli sahibkarlar ölkə iqtisadiyyatına 2 milyard manatdan çox sərmayə qoyublar. Yəni, imkanlar var, həm kreditləşmə yolu ilə, həm sahibkarların öz vəsaiti hesabına münbit şərait yaradılıb, investisiya iqlimi çox müsbətdir və dövlət dəstəyi də göz qabağındadır. Onu da bildirməliyəm ki, 45 böyük aqroparkın yaradılması nəzərdə tutulur. Onlardan 13-ü bu ilin sonuna qədər artıq fəaliyyətə başlayacaq, bəziləri artıq işləyir, mən onların açılışlarında olmuşam və 45 aqroparkın istifadə etdiyi torpaq sahəsi təqribən 200 min hektara yaxındır. O torpaqlarda heç nə əkilmirdi və o torpaqlar elə boş torpaqlar kimi qalırdı. Biz o torpaqlara həyat qaytardıq.

Onu da deməliyəm ki, aqroparkların yaradılması üçün dövlət öz dəstəyini göstərir, eyni zamanda, maliyyə dəstəyini. Aqroparkların fəaliyyəti üçün yüz milyonlarla manat dəyərində müxtəlif infrastruktur layihələri icra edilmişdir. Dövlət hər şeyi edir ki, fermerlər, kəndlilər daha yaxşı yaşasınlar. Bizdə olan yanaşma və qaydalar inanmıram ki, hər hansı bir başqa ölkədə olsun. Fermerlər vergilərdən azaddırlar, torpaq vergisindən başqa, o da çox cüzi bir rəqəmdir. Subsidiyalar verilir. Yanacaq, gübrə, kreditlər güzəştli şərtlərlə, elə faizlə verilir ki, indi o faizlə heç bir yerdə kredit almaq mümkün deyil. Rayonlarda aqroparkların, sənaye zonalarının, yeni infrastrukturun yaradılması, meliorativ tədbirlər, həmçinin yol, elektrik enerjisi, qazlaşdırma, içməli su layihələri üçün dövlət dəstəyi göstərilir. Budur bizim siyasətimiz və bu siyasət xalq tərəfindən dəstəklənir, bəyənilir və gözəl nəticələrə gətirib çıxarır.

Bu gün açılışına toplaşdığımız Araz çayının beton su kanalının çəkilişi çox önəmli, əlamətdar hadisədir. Bu layihənin icrası nəticəsində ölkəmiz daha da inkişaf edəcək, xalqımız daha da yaxşı yaşayacaqdır. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə çıxış edərək dedi:

-Möhtərəm cənab Prezident.

Hörmətli mərasim iştirakçıları.

Azərbaycan ta qədimdən suvarma əkinçiliyi tətbiq olunan ölkə olsa da, XX əsrin əvvəllərində ilk meliorasiya tədbirləri Azərbaycanda aparılsa da, amma meliorasiya, su təsərrüfatı sahəsində böyük və hərtərəfli inkişaf ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrə təsadüf edir.

Ulu Öndərimiz həmişə meliorasiya, su təsərrüfatı obyektlərinin açılışında iştirak edər və camaatı təbrik edərdi. Bu ənənəni davam etdirən cənab Prezidentimizə bu gün belə bir obyektin açılışına gəldiyinə görə, melioratorlar adından, su təsərrüfatı işçiləri adından öz dərin minnətdarlığımızı bildiririk.

Cənab Prezident, son 15 ildə Azərbaycanda çox böyük işlər görülüb. Siz ümumi şəkildə dediniz, həmin illərdə 4 min kilometrə yaxın yeni suvarma kanalları, 2700 kilometr uzunluğunda kollektor-drenaj şəbəkələri çəkilib. Təkcə üç su anbarının - yəni Taxtakörpü, Şəmkirçay və Tovuzçay su anbarlarının hesabına 390 min hektar ərazinin su təchizatı, 261 min hektar sahənin meliorasiya vəziyyəti yaxşılaşdırılıb, 150 min hektara yaxın su dəyməyən torpaqlara su verilib, yeni suvarma sahələri dövriyyəyə daxil olub.

İstifadəyə verilən gündən Taxtakörpüdə bugünkü günə 2 milyard kubmetr su olub, Şəmkirçay su anbarında 1 milyarda yaxın su yığılaraq respublika əhalisinin istifadəsinə verilib. Tovuzçay su anbarının həcmi çox böyük olmasa da, qısa müddətdə 100 milyona yaxın su yığılıb. Yığılan bu su xalq təsərrüfatına, bizim iqtisadiyyatımıza və əhalimizə sərf olunub. Qeyri-rəsmi dünya qiymətləri ilə götürsək, cənab Prezident, bu suyun dəyəri təxminən 3 milyarda yaxındır. Sizin gördüyünüz bu işlər sayəsində əhalimizə görün nə qədər xeyir dəyir.

On beş iI ərzində 2 min 234 subartezian quyusu qazılıb. Bu, 2 min 234 kəndin, yəni əhalinin, bölgənin sevincinə səbəb olan tədbirlərdir. Ötən il bizə göstəriş verdiniz ki, Azərbaycanda meliorasiya olunan, su təchizatı olan 100 min hektar torpağı istifadəyə vermək lazımdır. Bu, çox mürəkkəb bir iş idi, amma biz o tapşırığı icra etməkdə heç bir çətinlik çəkmədik. Çünki Siz hərtərəfli dəstək oldunuz, lazımi vəsait ayırdınız, eyni zamanda, bu köməklə yanaşı, yüksək tələbkarlıq göstərdiniz. Biz keçən il 103 min hektara yaxın torpaqda meliorativ tədbirlər apardıq, suvarma suyu ilə təchizatı yaxşılaşdırdıq. Onun bu il yenə də davam etdirilməsini tapşırdınız, həmin məsələlərin həlli üçün lazım olan vəsaitin ayrılmasına kömək göstərdiniz. Biz Sizə məruzə edirik ki, ilin axırınadək yeni suvarılan sahələri, meliorasiya olunan torpaqları və su təchizatı yaxşılaşdırılan daha 102 min hektar torpaqları Azərbaycan kəndçisinə təhvil verəcəyik. Bunlar Sizin gördüyünüz böyük işlərin nəticəsidir. Bu müddətdə yaradılan aqroparklar, yeni təsərrüfatlar, onların istehsal etdiyi məhsulun hamısı Sizin dəstəyinizlə əkin dövriyyəsinə daxil edilən yeni sahələrin hesabınadır.

Mən əvvəllər uzun müddət kənd təsərrüfatı sahəsində işləmişəm. İndi kənddə işləmək çox asandır. Siz kəndlinin torpağını da, suyunu da verirsiniz, başqa infrastrukturu da yaradırsınız, yolunu çəkirsiniz, hər şey edirsiniz, kəndliyə yalnız işləmək qalıb. Kəndli də işləyir və nəticələr yüksəlir. Ona görə də Azərbaycanda kənd təsərrüfatı sahəsində dinamik inkişaf heç vaxt dayanmayıb. Bu 15 il ərzində həmişə artım tempi olub.

Bu il Sizin tapşırığınızla çəkilən Neftçala magistral kanalı tam istifadəyə verilir. Orada 10 min hektardan çox sahə meliorasiya olunur. Sabirabad rayonunda artıq “H” kanalında yekun işlər görülür, 16 min hektar torpaq istifadəyə verilir, onun 1600 hektarı Biləsuvar rayonuna aiddir. Hər yerdə bu sahədə işlər gedir və nəticələri də göz qabağındadır. Bu gün açılışına toplaşdığımız bu kanalın çəkilişi üçün Sizin tapşırığınızla 2010-cu ildə selə qarşı mübarizə tədbirləri görməyə, Araz çayının yeni qol-kanalını tikməyə başladıq. O vaxt biz yeni qolun 5 kilometr uzunluğunda kanalını suvarma üçün açdıq. Eyni zamanda, Yuxarı Muğan kanalının üzərində üçgözlü 500 metr uzunluğunda dəmir-beton dunker və başqa qurğuları tikdik. Siz bu zonanın su təchizatını yaxşılaşdırmaq üçün böyük işlər görürsünüz.

2016-cı ildə Sizin İran İslam Respublikasında səfərdə olarkən cənab Ruhani ilə apardığınız danışıqların nəticəsi olaraq Xudafərin, Qız qalası hidroqovşaqlarının, Xudafərin su anbarının tikilməsi məsələsi ilə bağlı saziş imzalandı. Bunun Azərbaycan üçün çox böyük əhəmiyyəti var. Həm suların yığılması və selə qarşı mübarizə tədbirlərinin görülməsi, həm də orada yığılan sulardan həmin torpaqların suvarılmasına bu kanalın çəkilməsi imkan verdi. Biz bununla bağlı müraciət etdik, Siz tapşırıq verdiniz. Qısa müddətdə biz 54 kilometr uzunluğundakı kanalın torpaq kanalı şəklində tikintisi barədə Sizə hesabat verdik. Siz məsələ qaldırdınız ki, bunu beton kanal etsək daha yaxşı olar və Siz bunun üçün də vəsait ayırdınız. Biz kanalı beton etməklə əvvəl 40 min hektara su çatırdısa, kanalın suqalxma qabiliyyətini artırmaq, itkiləri azaltmaq və torpaqların meliorasiya vəziyyətinin pisləşməsinin qarşını almaqla, həmin o ərazini 53 min hektaradək artıra bildik. Bunun 26 min hektarı Saatlı rayonundadır, ora heç su dəyməyən torpaqlardır. Təmiz məhsuldar torpaqlardır, orada işləmək olar, 16 min hektara yaxını İmişlinin torpaqlarıdır. Bunun 10 min hektara yaxını da Biləsuvar rayonunun torpaqlarıdır. Yəni, indi qol-kanalların çəkilməsi üçün vəsait ayırdınız və hazırda onlar da çəkilir. Gələcəkdə orada 175,46 kilometr qol-kanallar çəkilməklə bu torpaqlardan tam istifadə etmək olar. Eyni zamanda, kollektor-drenaj şəbəkələrin çəkilməsi, xüsusilə Yuxarı Muğan kollektorunun yenidən qurulması ilə bu torpaqların meliorasiya vəziyyətini tam yaxşılaşdırmaq mümkündür. Siz bunlarla kifayətlənmədiniz və bizə tapşırdınız ki, Ələt-Astara yolunun sağında, solunda olan torpaqları da araşdırın. Bu gün Sizə məruzə edirəm ki, həmin ərazidə 30 min hektar yeni suvarılan sahəni əkin dövriyyəsinə vermək olar. Yəni, biz onları layihə şəklində hazırlayıb, Sizə təqdim edəcəyik.

Cənab Prezident, bugünkü açılış çox əlamətdar bir dövrdə keçirilir. İki gün əvvəl Azərbaycan dövlətinin başçısı kimi, Siz Türkiyə Respublikasında bu vaxtadək olmayan ən böyük müəssisənin, SOCAR-ın “Star” neft emalı zavodunun açılışında iştirak etmisiniz. Bu müəssisənin Azərbaycanın məhsulunun dünya bazarına çıxarılması üçün qardaş Türkiyə Respublikasında tikilməsi mühüm hadisədir və hamımızı çox sevindirir. Bu layihənin müəllifi də Sizsiniz, təşkilatçısı da. Bu uğur və böyük tədbirin keçirilməsi münasibətilə bütün melioratorlar adından Sizi təbrik edirik. Söz veririk ki, bundan sonra da bizim qarşımızda qoyulan vəzifələri layiqincə yerinə yetirəcəyik. Melioratorlar Sizin tapşırıqlarınızı həmişə yerinə yetirməyə hazırdırlar.

Diqqətinizə görə sağ olun.

Mərasimdə çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev dedi:

– Möhtərəm cənab Prezident.

Hörmətli mərasim iştirakçıları.

Sizin rəhbərliyinizlə bütün qlobal çağırışları nəzərə almaqla qətiyyətlə və uğurla davam etdirilən sosial-iqtisadi siyasət sayəsində Azərbaycan iqtisadiyyatı davamlı inkişaf edir, dünyada baş verən mürəkkəb siyasi və iqtisadi proseslərin neqativ təsirlərinə qarşı dayanıqlılıq nümayiş etdirir.

Sosial-iqtisadi sahədə əldə edilən uğurların davamlılığının təmin edilməsində qeyri-neft məhsullarının istehsalı və ixracının stimullaşdırılması, rəqabət qabiliyyətinin artırılması, ənənəvi və yeni bazarlara çıxış imkanlarının genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Ölkə iqtisadiyyatının, xüsusilə bölgələrin hərtərəfli

inkişafında məqsədyönlü siyasətinizin davamı olaraq, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları müstəsna rol oynayır.

Möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə görülmüş kompleks tədbirlərin nəticəsi olaraq, iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi olan qeyri-neft sektorunun inkişafında ciddi irəliləyişlər əldə olunub, onun ümumi daxili məhsulda xüsusi çəkisi üstünlük təşkil edib, ixrac potensialı genişlənib. Belə ki, son 15 ildə ixrac 5,3 dəfə, o cümlədən qeyri-neft ixracı 4,1 dəfə, ixrac məhsullarının çeşidi isə 2,6 dəfə artıb.

İxrac potensialının genişləndirilməsində qeyri-neft sektorunun prioritet istiqamətlərindən olan aqrar sahənin inkişafı xüsusi önəm kəsb edir. Görülən işlərin nəticəsində aqrar sektorun davamlı inkişafı təmin olunub, bu ilin 9 ayında istehsal 4,3 faiz, kənd təsərrüfatı istehsalı və emalı məhsullarının ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 13 faiz artaraq 540 milyon ABŞ dollarına çatıb.

Aqrar sektorun inkişafında, regionlarda iqtisadi potensialın artırılmasında, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində yeni metod və üsulların tətbiqi, qabaqcıl texnologiyalara əsaslanan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması mühüm əhəmiyyət kəsb edir.

Möhtərəm cənab Prezident, xüsusi diqqət və dəstəyiniz sayəsində respublikada 30 rayon üzrə 192 min hektar ərazidə investisiya dəyəri 1,4 milyard manat olan 45 aqroparkın, o cümlədən 44 min hektar ərazidə 17 müasir cins heyvandarlıq kompleksinin və 148 min hektar ərazidə 28 iri bitkiçilik təsərrüfatının yaradılması üzrə işlər sürətlə davam etdirilir. Bu çərçivədə 330 milyon manat dövlət maliyyə dəstəyi göstərilib ki, bunun da 219 milyon manatı infrastrukturun yaradılmasına yönəldilən dövlət investisiya qoyuluşu, 111 milyon manatı isə 17 aqroparka verilmiş güzəştli kreditlərdir. Bununla yanaşı, 15 aqropark üzrə dəyəri 564 milyon manat olan 25 layihəyə investisiya təşviqi sənədi verilib.

Artıq Xaçmaz, Şəmkir, Cəlilabad, Goranboy və İsmayıllı rayonlarında 5 aqropark istifadəyə verilib. Bundan başqa, Qaxda 2100 hektarda heyvandarlıq, əkinçilik və bağçılıq, Tovuzda 550 hektarda heyvandarlıq və əkinçilik, 12 min hektarda taxılçılıq, Salyanda 3 min hektarda heyvandarlıq və əkinçilik, Hacıqabul və Şamaxı rayonlarında 4300 hektarda heyvandarlıq və əkinçilik, Samuxda 5 min hektarda taxılçılıq, Hacıqabulda 27 min hektarda əkinçilik və 2 min hektarda heyvandarlıq və əkinçilik, Füzulidə 2500 hektarda taxılçılıq, Kürdəmirdə 2 min hektarda əkinçilik, Ucarda 2100 hektarda heyvandarlıq və taxılçılıq, Ağcabədidə 5 min hektarda əkinçilik və Qazaxda 1000 hektarda kartofçuluq olmaqla, ilin sonunadək 69 min hektar ərazidə 13 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Aqroparklar tam fəaliyyətə başladıqdan sonra il ərzində təqribən 600 milyon manat dəyərində kənd təsərrüfatı məhsulunun istehsal və emal olunması, ümumilikdə 10 minədək yeni iş yerinin yaradılması proqnozlaşdırılır.

Möhtərəm cənab Prezident, məhsuldarlığın artırılmasında, yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsində suvarma suyu ilə təminat vacib faktordur. Tapşırığınıza uyğun olaraq, aqrar sektorun inkişafında xüsusi rolu olan meliorativ tədbirlərin davam etdirilməsi, strateji əhəmiyyətli və iri kapital tutumlu su anbarlarının tikintisi nəticəsində hər il minlərlə hektar torpaq sahələri əkin dövriyyəsinə cəlb olunur. 2018-ci ildə sərəncamlarınızla ayrılmış dövlət əsaslı vəsaitlər hesabına əkin sahələrinə suvarma suyunun çatdırılması üçün magistral kanalların inşası və meliorativ tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Sizin rəhbərliyinizlə reallaşdırılan növbəti uğurlu və tarixi layihə - Araz çayının yeni qol-kanalı vasitəsilə Saatlı, İmişli və Biləsuvar rayonlarında 53 min hektara yaxın torpaq sahəsinə suvarma suyunun çatdırılması təmin ediləcək. Bu məqsədlə müvafiq sərəncamlarınızla dövlət əsaslı vəsait qoyuluşundan təqribən 80 milyon manat vəsait ayrılıb. Kənd təsərrüfatının potensialının reallaşdırılmasına göstərdiyiniz daimi diqqət və qayğıya cavab olaraq, sahibkarlar tərəfindən bu rayonlarda yeni aqroparkların və iri fermer təsərrüfatlarının yaradılmasına 450 milyon manat investisiya qoyuluşu proqnozlaşdırılır. Bu layihələr çərçivəsində yeni torpaqların istifadəyə verilməsi nəticəsində yaradılacaq aqroparklarda heyvandarlıq komplekslərinin, emal müəssisələrinin yaradılması, buğda, qarğıdalı, soya, pambıq, şəkər çuğundurunun və digər bitkilərin əkilməsi həyata keçiriləcək. Bundan başqa, sahibkarlar tərəfindən tutumu 30 min ton olan logistik mərkəzlərin və tutumu 140 min ton olan taxıl anbarı komplekslərinin də tikintisi nəzərdə tutulur. Bu işlərin görülməsi 5000-dək yeni iş yerlərinin açılmasına şərait yaradacaq. Müasir aqrotexniki və intensiv üsulların tətbiq olunacağı bu təsərrüfatlarda hər il 180 milyon manatdan çox məhsul istehsalı gözlənilir. Bu da kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinin yüksəldilməsinə, eləcə də ixrac qabiliyyətinin artırılmasına töhfə verəcək. Hazırda bu ərazilərdə 4 aqroparkın yaradılmasına başlanıb. Ümumi dəyəri 65 milyon manat olan bir investisiya layihəsinin maliyyələşdirilməsinə dövlət 10 milyon manat güzəştli kredit ayırıb və iki aqroparkın ümumi dəyəri 16 milyon manat olan layihələrinə İqtisadiyyat Nazirliyi tərəfindən investisiya təşviqi sənədi verilib.

Möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə həyata keçirilən kompleks tədbirlər ölkənin dayanıqlı inkişafına, qeyri-neft sektoruna, onun ixrac qabiliyyətinin daha da artırılmasına, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə və əhalinin həyat səviyyəsinin yüksəlməsinə mühüm töhfələrini verir. Sizi əmin edirik ki, bu tədbirlərin uğurla davam etdirilməsi üçün bütün imkanlarımızı səfərbər edəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

"MKT" İstehsalat Kommersiya MMC-nin İmişli filialının direktoru Oqtay Gülmalıyev çıxış edərək dedi:

– Möhtərəm cənab Prezident.

Mən də öz növbəmdə imişlililər, eyni zamanda, "MKT" İstehsalat Kommersiya təşkilatının kollektivi adından Sizi salamlayıram, İmişliyə xoş gəlmisiniz.

Fürsətdən istifadə edərək, Sizin bilavasitə göstərişiniz əsasında Araz çayının İmişli və qonşu rayonların ərazisindən keçən tarixi qol-kanalının bərpası münasibətilə tədbir iştirakçılarını təbrik edir və Sizə minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, "MKT" İstehsalat Kommersiya kollektivi adından bildirmək istəyirəm ki, şirkətimiz İmişli rayonu ərazisində kənd təsərrüfatı sahəsində, xüsusilə də pambıqçılıq və taxılçılıq sahəsində geniş fəaliyyət göstərir. Müəssisəmizə dövlət qayğısı sayəsində 3800 hektar sahədə iri taxılçılıq təsərrüfatının yaradılmasına 5 milyon manat güzəştli kredit ayrılıb. Ümumilikdə 8,8 milyon manat olmaqla, fermerlərlə bağlanmış müqavilə əsasında 5200 hektarda pambıq, 800 hektar sahədə isə arpa və buğda əkilib. Taxıl sahələrində hər hektardan orta hesabla təxminən 45-55 sentner məhsul əldə edilib. Ona görə də şirkətimiz taxıl əkini sahələrinin genişləndirilməsini nəzərdə tutur. Bundan əlavə, indiyədək 10 min ton pambıq yığılıb. Sahələrdə məhsulumuz boldur və hər hektardan 24 sentnerdən çox pambıq gözləyirik.

Möhtərəm cənab Prezident.

İmişli əhalisinə göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarlığımızı bildiririk. Şirkətimizin kollektivi adından Sizi əmin etmək istəyirik ki, bundan sonra daha əzmlə çalışacaq və rayon iqtisadiyyatına, kənd təsərrüfatının inkişafına öz töhfəmizi verəcəyik.

Diqqətinizə görə təşəkkürümü bildirirəm.

Sağ olun.

"İD – Aqropark" MMC-nin təsərrüfat rəhbəri Sədafər Hüseynov çıxış edərək dedi:

– Möhtərəm cənab Prezident.

Hörmətli tədbir iştirakçıları.

Ölkəmizdə uğurla aparılan sosialyönümlü iqtisadi islahatların daha da dərinləşməsi, xalqımızın maddi-rifah halının yaxşılaşdırılması, cənab Prezident, məhz Sizin həyata keçirdiyiniz məqsədyönlü siyasətin məntiqi nəticəsidir.

Biz sahibkarlar fəaliyyət sahələrimizi genişləndirərkən təkcə dövlətin maddi dəstəyini deyil, həm də cənab Prezident, Sizin böyük mənəvi dəstəyinizi də hiss edirik. Sahibkarlığın inkişafı ilə bağlı qəbul etdiyiniz qərarlar və sahibkarlara verdiyiniz tövsiyələr bizim üçün böyük stimul yaradır.

Möhtərəm cənab Prezident, təmsil etdiyim "İD-Aqropark" MMC şirkəti 2017-ci ilin əvvəlində yaradılıb. Şirkətin yeni layihəsi Saatlı rayonunun Azadkənd kəndi ərazisində 7000 hektar sahədə müasir innovativ texnologiyalara əsaslanan təsərrüfatın yaradılmasıdır. Bu məqsədlə aqroparka dövlət dəstəyi çərçivəsində 10 milyon manat güzəştli kredit verilib. Aqroparkın birinci mərhələsinin 2019-cu ildə istifadəyə verilməsi planlaşdırılır.

Şirkət tərəfindən 5000 hektar sahədə arpa, buğda, qarğıdalı, soya, günəbaxan və digər kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, 1000 hektar sahədə nar və 500 hektar sahədə badam bağlarının salınması nəzərdə tutulur. Ötən il ərazinin bir hissəsində günəbaxan, soya və qarğıdalı, bu il isə qarğıdalı və günəbaxan əkilib. 2018-ci ilin yaz mövsümündə 120 hektar sahədə intensiv nar bağı salınıb, damla üsulu ilə müasir suvarma sistemi quraşdırılıb. Nar bağının suvarılması üçün 2 hektar sahədə süni göl yaradılıb və su nasos stansiyası tikilib, 9 kilometr uzunluğunda yeni elektrik xətləri çəkilib və 2 transformator quraşdırılıb.

2019-cu ilin əvvəlində əlavə 240 hektar sahədə nar bağının salınması üzrə işlər aparılır. Bununla yanaşı, 1300 hektar torpaq sahəsi dənli bitkilərin yetişdirilməsi üçün hazırlanıb, açıq tipli 6 drenaj xətti və su kanalı çəkilib. Bütünlükdə isə 7000 hektar sahə üçün 58 kilometr uzunluğunda açıq tipli drenaj xətləri çəkilir. 20 hektar sahədə yonca əkilib. Hazırda arpa və buğda əkini aparılır. Əkin sahələrinə tələb olunan gübrələr verilib.

2019-cu ilin yazında 1156 hektar sahədə dənli bitkilər və pambıq əkilməsi üçün şumlama işləri aparılır. 1000 hektar sahə üçün yeni 15 müasir suvarma - pivot sistemi layihəsi hazırlanıb və 2019-cu ildə bu sistemin tikintisi planlaşdırılır. Yaxın gələcəkdə bu sistem üçün 5 nasos stansiyasının tikilməsi nəzərdə tutulur.

Möhtərəm cənab Prezident, Saatlı aqroparkında dənli bitkilərin yetişdirilməsi, nar və badam bağlarının salınması, müvafiq texniki tədbirlərin həyata keçirilməsi ilə əlaqədar infrastruktur, yaxın gələcəkdə quşçuluq fabriki və heyvandarlıq fermaları yaradılacaq. Aqrotexniki tədbirlərin həyata keçirilməsi üçün "Aqrolizinq" ASC-nin köməyi ilə müasir standartlara cavab verən 38 adda müxtəlif növ kənd təsərrüfatı texnikası alınıb. Hazırda təsərrüfatımızda 41 daimi işçi çalışır. Nar bağının salınması dövründə 200-dən çox mövsümi işçilər də cəlb olunub. Ümumilikdə, aqroparkda 400-dək daimi iş yerinin açılması nəzərdə tutulur.

Möhtərəm cənab Prezident, çıxışımın sonunda bütün sahibkarların himayədarı və dayağı olduğunuz üçün Sizə sahibkarlar və kollektivimiz adından dərin minnətdarlığımı bildirirəm. Sizi əmin etmək istəyirik ki, yaratdığınız şəraitdən istifadə edərək ölkədə aqrar sahənin inkişafına öz töhfəmizi verəcəyik.

Diqqətinizə görə çox sağ olun.

"Aqropark Yaşıl Ada" MMC-nin icraçı direktoru Fərhad Bağırov çıxış edərək dedi:

-Möhtərəm cənab Prezident.

İcazə verin, Biləsuvar əhalisinin, bütün kənd təsərrüfatı işçilərinin səmimi minnətdarlıq hissini və salamlarını Sizə çatdırım.

Biləsuvarlılar rayonumuza hər gəlişinizi, rayon əhalisi ilə görüşlərinizi böyük sevinc hissi ilə qarşılayır, aqrar sahənin inkişafı ilə bağlı müdrik və uzaqgörən

çağırışlarınıza səs verərək, yaratdığınız yüksək şəraitdən və qayğıdan bəhrələnməklə əzmlə çalışır, ilbəil yüksək nəticələr əldə edirlər.

Möhtərəm cənab Prezident, Sizin tapşırığınızla təyinatı dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilmiş 3000 hektar ərazidə Arazın yeni qol-kanalından istifadə edəcək "Yaşıl Ada" aqroparkını yaratdıq. Həmin ərazi əvvəllər qış otlaq sahəsi kimi istifadə edilib, yüksək keyfiyyətli bu torpaqlar baxımsız vəziyyətdə olub, orada meliorasiya və irriqasiya qurğuları olmayıb. Bu gün isə həmin ərazilərdə Sizin göstərişinizlə geniş meliorasiya işləri görülür, infrastruktur yaradılır.

Bu gün açılışına toplaşdığımız Araz çayının yeni qol-kanalının istifadəyə verilməsi müəllifi olduğunuz mühüm layihələrdən biridir. Bu layihənin reallaşdırılması tarixi hadisədir, kənd təsərrüfatı işçilərinə, aqrar sahəyə investisiya yatıran sahibkarlara çox dəyərli töhfədir. Bu layihə ilə Siz, cənab Prezident, Muğan torpaqlarına yeni nəfəs, yeni həyat verdiniz. İcazə verin, bizə bu tarixi günü yaşatdığınıza görə biləsuvarlılar adından, kənd təsərrüfatı işçiləri, eləcə də "Yaşıl Ada" aqroparkının kollektivi adından Sizə sonsuz təşəkkürümüzü və minnətdarlığımızı çatdırım.

Möhtərəm cənab Prezident, bu layihə Biləsuvar rayonunun 10356 hektar əkin sahəsini əhatə edəcək. Bunun 3000 hektarı "Yaşıl Ada" aqroparkının istifadəsinə verilmiş torpaq sahələridir. Məruzə edirəm ki, aqroparkın ərazisində zəruri infrastrukturun yaradılması, torpaqların əkinə, yüksək məhsuldarlığa hazırlanması ilə bağlı bir çox işlər görülüb və hazırda da bu işlər davam etdirilir. Belə ki, 10 min tonluq anbar, ofis binası, işçilərin istirahətini təmin etmək üçün 6 tarla düşərgəsi tikilib, 8 kilometr elektrik xətti çəkilib, 100 kvt-lıq transformator quraşdırılıb, 10 kilometr suvarma kanalı təmizlənib, aqroparka gedən 18 kilometr yol təmir olunub, 60 kilometr sahələrarası yollar təmir olunaraq yararlı vəziyyətə gətirilib.

Aqroparka İqtisadiyyat Nazirliyi tərəfindən 7 milyon manat dəyərində investisiya təşviqi sənədi verilib. 2019-cu ildə aqroparkın birinci mərhələsinin istifadəyə verilməsi nəzərdə tutulur. İlkin mərhələdə 1000 hektar ərazidə müasir suvarma - pivot sistemləri quraşdırılacaq. Aqroparkın ərazisinə 6,5 kilometr beton su kanalının, 21 kilometrlik elektrik xəttinin çəkilişi planlaşdırılır. Aqropark gələcəkdə böyük toxumçuluq təsərrüfatı kimi fəaliyyət göstərəcək.

Möhtərəm Prezident, əmin ola bilərsiniz ki, Sizin tapşırıq və tövsiyələrinizə uyğun olaraq aqroparkın ölkəmizin aqrar sektoruna əhəmiyyətli töhfə verə biləcək iri təsərrüfata çevrilməsi üçün var qüvvəmizlə çalışacaq, kənd təsərrüfatının inkişafı ilə bağlı həyata keçirdiyiniz tarixi işlərin fəal iştirakçıları olacaq, etimadınızı doğruldacağıq.

Diqqətinizə görə təşəkkür edirəm.

Daha sonra Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə və iqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına layihə üzrə görülən işlər barədə məlumat verdilər.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, hələ 2010-cu ildə Kür-Araz çaylarında baş vermiş sel və daşqınların yaratdığı təhlükələrin qarşısını almaq məqsədilə Araz çayının gursulu illərdə çayda baş verə biləcək daşqınlardan yaranacaq fəlakətlərin qarşısını almaq və onun sərfinin bir hissəsinin İmişli və Biləsuvar rayonlarının ərazisindən keçirməklə Mahmudçalaya, oradan isə Qızılağac qoruğunun ərazisi ilə Xəzər dənizinə axıdılması üçün ümumi uzunluğu 130 kilometr olan Araz çayının yeni qol-kanalının tikintisi nəzərdə tutulmuşdu. Texniki İqtisadi Əsaslandırma ilə həmin işlərin 4 mərhələdə həyata keçirilməsi planlaşdırılmışdı. Hazırda onun birinci mərhələ üzrə baş suqəbuledici qurğu daxil olmaqla, 5 kilometrlik hissəsinin tikintisi başa çatdırılıb. Tikilmiş baş suqəbuledici qurğu və yeni qoldan istifadə etməklə Saatlı, İmişli və Biləsuvar rayonlarının 53 min hektar torpaq sahələrinin suvarılması üçün 54,2 kilometr uzunluğunda kanalın hidrotexniki qurğularla birgə inşası həyata keçirilib. Kanalın başlanğıcda suburaxma qabiliyyəti saniyədə 46, sonda isə 24 kubmetr təşkil edir. Kanal üzərində 84 müxtəlif təyinatlı hidrotexniki qurğu, o cümlədən 14 avtomobil körpüsü inşa olunub.

Perspektivdə Biləsuvar və Sabirabad rayonlarının daha 10 min hektar azməhsuldar sahələrinin suvarma suyu ilə təmin edilməsi mümkün olacaq. Araz çayının yeni qolundan Saatlı, İmişli və Biləsuvar rayonlarının 53 min hektar torpaq sahələrinə suvarma suyunun çatdırılması üçün ümumi uzunluğu 175,46 kilometr, müxtəlif suburaxma qabiliyyəti olan paylayıcı kanalların qurğularla birgə tikintisi 2 mərhələdə nəzərdə tutulub və bu il inşaat işlərinə start verilib.

Dövlətimizin başçısı Araz çayının yeni qol-kanalının açılışını bildirən düyməni basdı.

Onu da deyək ki, Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi ilə son illərdə regionlarda mütərəqqi suvarma texnologiyalarının tətbiqi ilə aqroparklar, iri fermer təsərrüfatları və müasir heyvandarlıq kompleksləri yaradılıb. Bu da qeyri-neft sektorunun inkişafında xüsusi rol oynayıb. Bu işlərin davamı olaraq Saatlı, Biləsuvar və İmişli rayonlarında pambıqçılığın, taxılçılığın və digər kənd təsərrüfatı bitkiləri və heyvandarlıq məhsulları istehsalının inkişafı məqsədilə aqroparkların və iri kənd təsərrüfatı müəssisələrinin yaradılması nəzərdə tutulub. Aqroparkların yaradılması regionlarda iqtisadi potensialın, kənd təsərrüfatında istehsalın artmasına, məhsulların keyfiyyət göstəricilərinin daha da yaxşılaşmasına, özünütəminetmə səviyyəsinin və regionlarda əhalinin məşğulluğunun yüksəlməsinə, ixrac potensialının genişlənməsinə töhfə verəcək. Araz çayının yeni qol-kanalı da regionda kənd təsərrüfatının inkişafına, xüsusilə aqroparkların yaradılmasına geniş imkanlar açır. Torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi sahibkarlar tərəfindən 454 milyon manat

investisiya qoyuluşuna və 5000-dək yeni iş yerinin açılmasına şərait yaradacaq. Bu layihələr çərçivəsində yaradılacaq aqroparklarda heyvandarlıq komplekslərinin, emal müəssisələrinin təşkili, buğda, qarğıdalı, soya, pambıq, şəkər çuğundurunun əkilməsi, nar və xurma bağlarının salınması həyata keçiriləcək. Müasir aqrotexniki və intensiv üsulların tətbiq olunacağı təsərrüfatlarda ildə 176 milyon manat dəyərində kənd təsərrüfatı məhsullarının istehsalı gözlənilir. Bundan başqa, sahibkarlar tərəfindən tutumu 30 min ton olan logistik mərkəzlərin və tutumu 140 min ton olan taxıl anbarı komplekslərinin də tikintisi nəzərdə tutulur.

Hazırda bu ərazilərdə 4 aqroparkın yaradılmasına başlanıb. Ümumi dəyəri 65,2 milyon manat olan bir investisiya layihəsinin maliyyələşdirilməsinə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb və iki aqroparkın ümumi dəyəri 15,9 milyon manat olan layihələrinə investisiya təşviqi sənədi verilib. Hazırda 30 rayon üzrə 45 aqroparkın, o cümlədən 17 müasir cins heyvandarlıq kompleksinin və 28 iri bitkiçilik təsərrüfatının yaradılması üzrə işlər sürətlə davam etdirilir. Bu çərçivədə görülən işlərə dövlət tərəfindən 329,7 milyon manat maliyyə dəstəyi göstərilib. Bundan başqa, 15 aqropark üzrə 25 layihəyə investisiya təşviqi sənədi verilib. Görüləcək işlər nəticəsində, ümumilikdə, 10 minədək yeni iş yerinin yaradılması nəzərdə tutulur. İlin sonunadək daha 13 aqropark fəaliyyətə başlayacaq. Aqroparklar tam fəaliyyətə başladıqdan sonra il ərzində dəyəri 600 milyon manatdan çox olan məhsul istehsalı gözlənilir.

Sonda xatirə şəkilləri çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun 112 kilometrlik Qarağacı-Bəhrəmtəpə hissəsinin açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, ölkəmizdə yol infrastrukturunun yenilənməsi və müasirləşdirilməsi istiqamətində aparılan işlərin ardıcıl və keyfiyyətlə davam etdirilməsi Azərbaycanın iqtisadi inkişafının göstəricilərindən biridir. Bu işlər, eyni zamanda, davamlı tərəqqinin əsas amillərindəndir. Son illərdə respublika əhəmiyyətli yolların müasir səviyyədə yenilənməsi işinə xüsusi diqqət göstərilir. Mühüm məqamlardan biri də odur ki, bu layihələr qısa müddətdə və yüksək keyfiyyətlə icra olunur. Yenidən qurulan yollardan biri də Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun 112 kilometrlik Qarağacı-Bəhrəmtəpə hissəsidir. Bu işlər sübut edir ki, yeni, müasir avtomobil yollarının tikintisi, mövcud yolların isə yenidən qurulması işlərinin həcmi və coğrafiyası ildən-ilə artır. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan Dövlət proqramlarında bu sahəyə xüsusi yerin ayrılması dövlətimizin yeni yolların salınması məsələsinə nə qədər əhəmiyyət verdiyini aydın şəkildə göstərir. Bu gün əminliklə söyləmək olar ki, son illərdə yol infrastrukturunun inkişafı istiqamətində icra edilən layihələr yolların müasir səviyyəyə çatmasına hərtərəfli imkan yaradıb. Bu cür layihələr həm də ümumilikdə yolboyu yerləşən yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafına da böyük töhfə verəcək. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən yolların müasirləşdirilməsi, həm də bölgələrimizin turizm, kənd təsərrüfatı potensialını da gücləndirir. Bütün bu tədbirlərin əsas məqsədi isə vətəndaşların sosial məsələlərini həll etmək və onların gündəlik həyatını daha da yaxşılaşdırmaqdır.

Məlumat verildi ki, 2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən yol şəbəkəsinin daha da müasirləşdirilməsi istiqamətində bölgələrdə mühüm tədbirlər həyata keçirilir. Bu çərçivədə respublika əhəmiyyətli Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun 112 kilometrlik Qarağacı-Bəhrəmtəpə hissəsinin yenidən qurulması yekunlaşıb. Bundan əvvəl yolun Mingəçevir şəhəri-Mingəçevir stansiyası arasında olan 16,5 və 26 kilometrlik Aran-Qarağacı hissələri yüksək səviyyədə qurularaq Prezident İlham Əliyevin iştirakı ilə açılıb və vətəndaşların istifadəsinə verilib. Yolun 42,5-154,5 kilometrlik hissəsində isə işlər sürətlə davam etdirilərək yekunlaşdırılıb. Bu hissədə yol 2 hərəkət zolaqlı olmaqla 3-cü texniki dərəcəyə uyğun inşa edilib. Yol yatağının eni 12 metr təşkil edir. Yolun Qarağacı-Bəhrəmtəpə hissəsində suların ötürülməsi üçün ümumi uzunluğu 5155 poqonmetr 224 dairəvi suötürücü borunun quraşdırılması və 27 yerdə 629 poqonmetr uzunluğunda düzbucaqlı su keçidinin inşası aparılıb. Bundan başqa, yolun altından keçidi təmin etmək məqsədilə 17 alt keçid inşa olunub. Yolboyu Tərtərçay üzərində uzunluğu 100, Xaçın çayı üzərində uzunluğu 50, Qarqarçay üzərində isə uzunluğu 25 metr olan 3 yeni körpü də inşa edilib. Mingəçevir-Bəhrəmtəpə avtomobil yolu respublikamızın regionları, o cümlədən Yevlax, Bərdə, Beyləqan rayonları arasında iqtisadi əlaqələrin, həmçinin turizmin və regionların sosial-iqtisadi inkişafı, nəqliyyat xərclərinin azaldılması baxımından mühüm əhəmiyyətə malikdir. Bütün bunlarla yanaşı, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərini əlaqələndirən bir magistral olmaqla tranzit xidmətlərinin səmərəliliyinin artırılmasında da bu yolun mühüm rolu var.

Dövlətimizin başçısına Hacıqabul-Bəhrəmtəpə-Mincivan yolunun 64 kilometrlik Bəhrəmtəpə-Horadiz hissəsində aparılan yenidənqurma işləri barədə də məlumat verildi. Ölkəmizin cənub-qərb magistral avtomobil yolunun tərkib hissəsinə aid olan Hacıqabul-Bəhrəmtəpə-Mincivan avtomobil yolunun 64 kilometrlik hissəsinin yenidən qurulması işləri Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən yüksək keyfiyyətlə aparılaraq yekunlaşdırılıb. Beyləqan və

Füzuli rayonlarından keçən yolda tikinti-quraşdırma işləri iki hissədən ibarət olmaqla həyata keçirilib. Üçüncü texniki dərəcəyə uyğun yenidən qurulan 2 hərəkət zolaqlı yolun eni 12 metrdir. Yol üzərindəki ikiaşırımlı doqquz körpü də əsaslı təmir olunub, onların hərəkət hissələrinin eni genişləndirilib. Layihəyə uyğun olaraq yolboyu 38 müxtəlif diametrli suötürücü borunun təmiri və tikintisi həyata keçirilib, 30 avtobus dayanacağı quraşdırılıb, zəruri yerlərdə siqnal dirəkləri, yol nişanları və məlumatverici lövhələr qoyulub.

Qeyd edək ki, Hacıqabul-Bəhrəmtəpə-Mincivan avtomobil yolunun 112 kilometrlik hissəsi 2015-ci ildə 2-ci texniki dərəcəyə uyğun yenidən qurulub. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gedən yol başlanğıcını məhz bu avtomobil yolunun təqribən 177-ci kilometrliyindən götürür. Magistral yolun 64 kilometrlik hissəsinin yenidən qurulması ilə artıq Bakıdan istər Beyləqan və Füzuli rayonlarının yolboyu yerləşən yaşayış məntəqələrinə, istərsə də işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinə rahat, maneəsiz və təhlükəsiz şəkildə gediş-gəliş təmin olunub, yük və sərnişin daşınması asanlaşıb.

Prezident İlham Əliyev Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun 112 kilometrlik Qarağacı-Bəhrəmtəpə hissəsinin rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İmişli-Otuziki-Qaraqaşlı avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, uzunluğu 23 kilometr olan yol 4-cü texniki dərəcəyə aiddir. İkizolaqlı yolun hərəkət hissəsinin eni 6 metrdir. İmişli-Otuziki-Qaraqaşlı avtomobil yolunun tikintisi Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən həyata keçirilib. Yol 40 min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirir. Əvvəllər çınqıl və torpaq örtüklü yolla vətəndaşların gediş-gəlişində müəyyən problemlər yaşanırdı. Yolun yenidən qurulması ilə bu problemlər köklü şəkildə həll olunub. Aparılan işlər zamanı zəruri yerlərdə yol yatağının yararsız qruntu qazılaraq çıxarılıb. Bunun əvəzinə xüsusi material tökülərək yenidən kipləşdirilib. Layihənin icrası çərçivəsində yol nişanları və göstərici lövhələr quraşdırılıb, yol-cizgi xətləri çəkilib. Yolboyu zəruri yerlərdə 30 suötürücü boru da quraşdırılıb. İmişli-Otuziki-Qaraqaşlı avtomobil yolunun istifadəyə verilməsi nəticəsində əhalinin gediş-gəlişi xeyli asanlaşacaq, təhlükəsiz və maneəsiz hərəkət təmin olunmaqla, yük və sərnişin daşınması da yaxşılaşacaq.

Dövlətimizin başçısına İmişli-Yalavac-Axıcanlı-Rəsulu-Şahverdili-Bəhrəmtəpə-Qaragüvəndikili yolu barədə də məlumat verildi. Uzunluğu 14 kilometr olan yolun yenidən qurulması ilə 7 yaşayış məntəqəsinin 26 mindən çox əhalisinin rahat və təhlükəsiz hərəkəti təmin edilib. Bu avtomobil yolu uzun illər istismar olunduğundan yolda qabarmalar və çökmələr əmələ gəlmişdi. Bu isə xüsusən payız-qış mövsümündə əhalinin və nəqliyyatın hərəkətinə çətinliklər yaradırdı. Avtomobil yolu 2 hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə uyğun bərpa edilib. Yolun eni 10 metrdir. Layihə çərçivəsində yeni dəmir-beton borular quraşdırılıb, körpü məhəccərləri yenilənib, avtobus dayanacaqları inşa edilib. Bununla da yolboyu yaşayan vətəndaşların istər rayon mərkəzinə, istərsə də Hacıqabul-Bəhrəmtəpə-Mincivan magistral avtomobil yoluna rahat çıxışı təmin edilib, yük və sərnişin daşınması asanlaşıb. Diqqətə çatdırıldı ki, bu gün İmişli rayonunda ümumi uzunluğu 213 kilometr olan avtomobil yolları istifadəyə verilib.

Prezident İlham Əliyev İmişli-Otuziki-Qaraqaşlı avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin İmişli Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərkəzin açılışında iştirak edib.

Azərbaycanın regionlarının elektrik təsərrüfatında silsilə və kompleks yenidənqurma tədbirləri uğurla davam etdirilir. Bu tədbirlər, ilk növbədə, elektrik enerjisinə tələbatın ödənilməsinə, rayonların elektrik enerjisi ilə təchizatının əsaslı şəkildə yaxşılaşdırılmasına, elektrik şəbəkələrində yüklənmələrin azalmasına, texniki itkilərin minimuma endirilməsinə imkan yaradıb. Hazırda respublikamızın bölgələrindəki energetika qurğuları həm müasir görünüşü, həm də texniki göstəriciləri ilə əvvəlkilərdən qat-qat üstündür. Bütün bu yeniliklər regionların sosial-iqtisadi inkişafına əsaslı töhfələrdir. Aparılan yenidənqurma tədbirləri elektrik enerjisinə durmadan artan tələbatın ödənilməsində də mühüm rol oynayır. Paylayıcı şəbəkələrin müasirləşdirilməsi gündən-günə sürətlənir və daha geniş ərazini əhatə edir. Ötən əsrin 60-cı illərindən istismarda olan və tamamilə yararsız vəziyyətə düşən elektrik təsərrüfatında hazırda, sözün həqiqi mənasında, inqilabi dəyişikliklər aparılır. Yeni qurğular təkcə rayon mərkəzləri və iri yaşayış məntəqələrinin deyil, eləcə də ətraf kəndlərin elektrik enerjisi ilə etibarlı təchizatında böyük rol oynayır. Reallıq göstərir ki, kommunal xidmətlərin inkişafına dair bu quruma aid üç strateji hədəf, üç prioritet istiqaməti əhatə edən 11 tədbir üzrə işlər maksimum diqqətdə saxlanılır. Aparılan yenidənqurma tədbirləri qarşıdakı 10 il üçün müəyyənləşdirilən elektrik enerjisinə tələbatın proqnozuna və dinamikasına, yəni, "Azərişıq" ASC üzrə 2015-2025-ci illəri əhatə edən fəaliyyət planına uyğun həyata keçirilir.

Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.

"Azərişıq" ASC-nin sədr əvəzi Vüqar Əhmədov Prezident İlham Əliyevə Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin fəaliyyəti və burada yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Avtomatik İdarəetmə və Nəzarət Mərkəzində elektrik enerjisinin alış nöqtəsindən istehlak nöqtəsinə qədər bütün mərhələlərdə şəbəkənin idarə olunması, balansın real vaxt rejimində və texnoloji itkilər müəyyənləşdirilərək təhlil edilməsi, qabaqlayıcı tədbirlərin görülməsi, sayğacların oxunması, fider və xətlər üzrə yük parametrlərinin virtual arxivləşdirilməsi, elektron xəritə vasitəsilə abonentlərin müraciətlərinə əsasən texniki şərtlərin verilməsi, istehlakçıların elektrik şəbəkəsinə qoşulması haqda sənədlərin hazırlanması işləri həyata keçiriləcək. Bundan başqa, mərkəz yüksək və aşağı gərginlikli şəbəkələrdə fasiləsiz və keyfiyyətli elektrik enerjisinə nəzarətin təmin edilməsində, sərfiyyat göstəricilərinin monitorinqində, elektrik şəbəkələrində açılma və qoşulmaların real vaxt rejimində qeydiyyatının aparılmasında mühüm rol oynayacaq. Mərkəzdə işçilərin səmərəli fəaliyyəti üçün elektroenergetika sahəsinin avadanlıqla yanaşı, nəzarət-monitorinq, avtomatik idarəetmə, həmçinin enerji satışı, qəza və müştəri xidmətləri üçün xüsusi otaqlar yaradılıb.

Qeyd olundu ki, "Azərişıq" ASC-nin Aran Regional Elektrik Təchizatı və Satışı İdarəsi 6 rayon - Ağcabədi, Ağdam, Beyləqan, Füzuli, İmişli və Zərdab üzrə 137 min 190, o cümlədən 121 min 172 əhali və 16 min 18 qeyri-əhali abonentə və ümumilikdə, 753 min 200 nəfər əhaliyə xidmət göstərir. İmişli rayonu üzrə isə 33 min 321 abonent mövcuddur. Son illərdə Aran Regional Elektrik Təchizatı və Satışı İdarəsinə daxil olan 6 rayonda "Azərişıq" tərəfindən 110 və 35 kV-luq on yarımstansiya yenidən qurulub, 620 yeni KTM quraşdırılıb, 2200 kilometr müxtəlif gərginlikli elektrik verilişi xətləri çəkilib və təmir edilib. Bundan başqa, regional baş idarənin yerləşdiyi İmişlidə 35 kV-luq "Məzrəli" və "Rəsullu" yarımstansiyaları tam yenidən qurulub, rayon mərkəzində Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi üçün inzibati bina inşa edilib.

Prezident İlham Əliyev İmişli Avtomatik İdarəetmə və Nəzarət Mərkəzini işə saldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İmişli Rayon Məhkəməsinin yeni binasında yaradılan şəraitlə tanış olub.

İmişli Rayon Məhkəməsinin sədri Qurban Hacıyev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 2300 kvadratmetr olan bina ikimərtəbəlidir. Bu bina da digər yeni tikilmiş məhkəmə binalarında olduğu kimi, ictimai və inzibati zonalara bölünüb, habelə əlillərin sərbəst hərəkəti üçün bütün şərait yaradılıb. Binada dövlətimizin başçısının tapşırığına uyğun olaraq "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə bağlı zəruri infrastruktur qurulub. Məhkəmədə "elektron icra" sistemi tətbiq olunur və bu sistem vasitəsilə məhkəmə qərarlarının elektron qaydada icraya yönəldilməsi təmin edilir, məhkəmə ilə icra qurumu arasında sənədlərin kağızsız mübadiləsi həyata keçirilir. Dörd hakim, 30-dək məhkəmə və ədliyyə işçisinin fəaliyyəti üçün nəzərdə tutulan binada müxtəlif tədbirlər keçirməyə imkan verən konfrans zalı və təlim otağı, habelə kitabxana, arxiv, təqsirləndirilən şəxslərin saxlanması üçün kameralar, konvoy maşını üçün dayanacaq və digər sahələr mövcuddur. İmişli Rayon Məhkəməsində vətəndaşların müraciət imkanlarının asanlaşdırılması və məlumatlılığın təmin edilməsi məqsədilə məlumat nöqtələri, habelə müasir elektron informasiya daşıyıcıları quraşdırılıb.

Onu da deyək ki, son illərdə dövlət büdcəsi hesabına, habelə Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində paytaxtda və bölgələrdə 14 məhkəmə üçün yeni, müasir binalar və komplekslər tikilərək istifadəyə verilib, hazırda isə 7 məhkəmə üçün bina və komplekslərin inşası davam edir.

Qeyd edək ki, ölkəmizdə bütün sahələrə olduğu kimi, ədalət mühakiməsinin səmərəsinin artırılmasına xidmət edən genişmiqyaslı islahatlar aparılır, məhkəmə sistemi daha da müasirləşdirilir. İmişli Rayon Məhkəməsinin yeni binasının inşası da bu islahatların əyani təsdiqidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İmişlidə Bayraq Muzeyinin açılışında iştirak edib.

Dövlət başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev muzeydə yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, İmişli Bayraq Kompleksinin ərazisində yerləşən muzey binasının inşasına ötən il başlanıb və tikinti işləri bu ilin sentyabr ayında başa çatdırılıb. Ümumi ərazisi 8000 kvadratmetr olan muzey binası sərgi zalından, elektron kitabxana, inzibati və yardımçı otaqlardan ibarətdir. Muzeyin sərgi zalında, ümumilikdə, 3 bölmə yaradılıb. Burada Azərbaycan xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, xanlıqların istifadə etdiyi bayraqlar, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar sərgilənir. Bundan əlavə, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və müstəqillik dövrlərində qəbul edilmiş konstitusiyalar, gerblər, bayraqlar, Silahlı Qüvvələrin geyim formaları, Ümummilli Liderin andiçmə mərasiminə dair fotoşəkillər, onun dövlət rəmzləri haqqında kəlamları, Prezident İlham Əliyevin andiçmə, Dövlət Bayrağı Meydanının açılışı mərasimlərinə dair fotoşəkilləri, poçt markaları, orden və medallar muzeyin ekspozisiyasına daxildir.

Onu da deyək ki, İmişli Bayraq Muzeyinin yerləşdiyi meydanda dirəyinin hündürlüyü 100 metr olan dövlət bayrağı ucaldılıb. Bayraq dirəyinin

postamentində Azərbaycan Respublikasının gerbi və ümummilli lider Heydər Əliyevin kəlamları əks olunub. İmişli Bayraq Kompleksi Prezident İlham Əliyevin 2012-ci il oktyabrın 28-də İmişli rayonuna səfəri zamanı istifadəyə verilib.

Qeyd edək ki, ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün oldu. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra milli bayrağımız ilk dəfə Ulu Öndər tərəfindən Naxçıvanda qaldırıldı. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə qürurla dalğalanır. Təsadüfi deyil ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqın və dövlətin maraqlarına uyğun müstəqil siyasət həyata keçirən, sürətli və davamlı inkişaf yolu ilə uğurla addımlayan, beynəlxalq nüfuzu gündən-günə artan, dünya və region əhəmiyyətli layihələrin təşəbbüskarı və müəllifi olan suveren ölkəmizin üzərində əzəmətlə dalğalanan üçrəngli bayrağımız hər bir Azərbaycan vətəndaşının qəlbində qürur və fərəh hissi doğurur.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə İmişlidə inşa olunmuş 100 yerlik körpələr evi-uşaq bağçası istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısı körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, körpələr evi-uşaq bağçasının inşasına 2014-cü ilin oktyabrında başlanılıb, bu ilin iyulunda isə tikinti işləri başa çatdırılıb. Müəssisənin ümumi ərazisi 2900, tikintialtı sahəsi isə 576 kvadratmetrdir. İkimərtəbəli binada yataq, geyim, məşğələ otaqları yaradılıb. Kompüter, musiqi və idman otaqları da balacaların ixtiyarına veriləcək. Binada bufet, mətbəx və digər inzibati otaqlar da var. Bina istilik sistemi ilə təchiz olunub, fasiləsiz su təminatı üçün ərazidə yerləşən artezian quyusundan su xətləri çəkilib, müşahidə kameraları quraşdırılıb. Bir sözlə, binada uşaqların istirahəti və əyləncəsi üçün hərtərəfli şərait yaradılıb ki, bu da balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı üçün olduqca əhəmiyyətlidir. Burada yaradılan şərait uşaqların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, ünsiyyətqurma bacarıqlarının inkişafında mühüm rol oynayacaq.

Körpələr evi-uşaq bağçasının həyətində də geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıq zolağı salınıb. Burada balacaların vaxtlarını səmərəli keçirmələri üçün müxtəlif attraksionlar da quraşdırılıb.

Qeyd edək ki, hazırda İmişlidə 883 uşaq yerlik 18 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də İmişliyə səfəri çərçivəsində “ASAN Həyat” kompleksinin açılışında iştirak edib.

Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atıldı. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan “ASAN xidmət” mərkəzləri yaradıldı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək “ASAN xidmət” mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Buraya xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının işinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir. 2012-ci ildən başlayaraq Bakının bir neçə rayonunda “ASAN xidmət” sakinlərin istifadəsinə verildi. Daha sonra bu proses regionları da əhatə etməyə başladı. Hazırda bu mərkəzlərə daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olan xidmətlər üstünlük təşkil edir. Əgər əvvəllər “ASAN xidmət” mərkəzlərində 23 hüquqi xidmət həyata keçirilirdisə, indi 10 dövlət orqanı tərəfindən 32 növ xidmət göstərilir. Eyni zamanda, özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, vətəndaşlara 300-dən çox müxtəlif xidmətlər göstərilir. Bütün bunlar dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi beynəlxalq əlaqələrə də üstünlük verir. Bu gün “ASAN xidmət”in fəaliyyəti Avropa İttifaqı, Avropa Parlamenti, Böyük Britaniya parlamenti tərəfindən, həmçinin Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq əməkdaşlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunur. Artıq Azərbaycanın “ASAN xidmət” modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb. 2014-cü ildə “ASAN xidmət” İSO 9001:2008 və OHSAS 18001:2007 standartları üzrə beynəlxalq dərəcəli sertifikatlara layiq

görülüb. "ASAN xidmət", həmçinin Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. "ASAN xidmət" 2015-ci il BMT-nin "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında 1-ci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif olunub. Bundan başqa, ISESCO-nun 2019-2021-ci illər üzrə üçillik fəaliyyət planında üzv ölkələrdə sektoral idarəçilik mexanizminin inkişaf etdirilməsi məqsədilə dövlət idarəçiliyi sahəsində Azərbaycanın "ASAN xidmət" modelindən faydalanmaq tövsiyə olunub. Bu faktların özü bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan "ASAN xidmət"ə dünyada böyük maraq var.

İmişli kompleksi Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 14-cü mərkəzidir. Şəhərin Heydər Əliyev prospektində yerləşən, öz möhtəşəmliyi ilə seçilən kompleksin tikintisinə 2017-ci ildə başlanılıb, inşaat işləri bu ilin oktyabrında başa çatdırılıb. Kompleks dördmərtəbəli inzibati binadan və "ASAN park" istirahət guşəsindən ibarətdir.

Komplekslə tanışlıq zamanı Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, bu mərkəz İmişli, Saatlı, Biləsuvar, Beyləqan, Zərdab və Füzuli rayonlarında qeydiyyatda olan 624 mindən çox vətəndaşa xidmət göstərəcək. Qeyd edək ki, bu günə kimi "ASAN xidmət" mərkəzlərinə daxil olan müraciətlərin sayı 25 milyona yaxındır.

Prezident İlham Əliyev mərkəzi işə saldı.

Dövlətimizin başçısı kompleksə daxil olan "ASAN Peşə" ilə tanış oldu.

Məlumat verildi ki, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin bu layihəsi ixtisaslı kadrların hazırlanmasını və onların əmək bazarının dəyişən tələblərinə uyğun rəqabət qabiliyyətinin artırılmasını təmin etmək məqsədi daşıyır. "ASAN Peşə" Mərkəzi bütün növ zəruri avadanlıqlar, təlim və tədris vəsaitləri ilə təchiz olunub.

İmişli "ASAN xidmət" Mərkəzində Ədliyyə, Daxili İşlər, Vergilər, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Milli Arxiv İdarəsi, ümumilikdə, 10 dövlət orqanı tərəfindən vətəndaşlara 32 növ xidmət göstəriləcək. Eyni zamanda, mərkəzdə funksional yardımçı xidmətlər, o cümlədən bank, sığorta, hüquqi yardım, tərcümə və digər xidmətlər təşkil ediləcək. Mərkəzdə çalışacaq əməkdaşların sayı 184, könüllülərin sayı isə 45 nəfərdir.

Burada Uşaq Psixo-Sosial İnkişafı Mərkəzinin bölməsi də yaradılıb. Bu bölmədə 3-12 yaşlı uşaqların psixoloji və sosial inkişafına dəstək məqsədilə müxtəlif xidmətlər göstərilir. Mərkəzin 4 saylı Bakı "ASAN xidmət" və Quba, Sabirabad, Masallı, Qəbələ, Mingəçevir regional "ASAN xidmət" mərkəzlərində də bölmələri fəaliyyət göstərir. Bir il ərzində bu bölmələrdə ümumilikdə 18 mindən çox uşağa və yeniyetməyə psixoloji xidmətlər göstərilib.

İmişli "ASAN xidmət" Mərkəzində ilk dəfə olaraq "ASAN Vəkil" bürosu yaradılıb. Belə ki, bu il oktyabrın 3-də Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Vəkillər Kollegiyası arasında əldə olunan razılığa əsasən "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində səyyar hüquqi yardım xidmətləri sosial innovasiyaların tətbiqi ilə operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri rəhbər tutulmaqla göstəriləcək. Bundan başqa, Dövlət Agentliyinin əməkdaşları və "ASAN" könüllüləri üçün hüquqi maarifləndirmə tədbirlərinin həyata keçirilməsi də nəzərdə tutulur.

Mərkəzdə kommunal xidmətlərin göstərilməsi üçün ayrıca bölmə yaradılıb. Burada "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən xidmətlər təqdim olunacaq. Qeyd edildi ki, paytaxt Bakıda fəaliyyət göstərən iki "ASAN Kommunal" xidmətində bu günədək 800 min vətəndaş müraciəti qeydə alınıb. Bundan başqa, burada Qida Təhlükəsizliyi Agentliyi tərəfindən 9 xidmət göstəriləcək.

Prezident İlham Əliyev mərkəzdə innovativ yeniliklərlə tanış oldu. Robot "Sofiya" dünyada ilk süni intellektli humanoid robotdur. Bu robot 2015-ci ildə "Hanson Robotiks" şirkəti tərəfindən hazırlanıb və süni intellekt əsasında insanla ünsiyyət saxlaya, fikir mübadiləsi apara bilir. Robotun əsas fərqləndirici xüsusiyyətlərindən biri də insana məxsus 60-dan çox emosiyanı əks etdirməsidir. "Sofiya" bu günə qədər dünyada bir çox məşhur simalarla görüşüb, tanınmış televiziya kanallarında, xəbər proqramlarında və teledebatlarda iştirak edib.

Prezident İlham Əliyev robot "Sofiya" ilə söhbət etdi.

"Sofiya": Salam cənab Prezident. Azərbaycan dilini yeni öyrənməyə başlamışam, ona görə icazənizlə ingilis dilində davam etmək istəyirəm. Cənab Prezident, Sizinlə görüşməyə şadam. Mən dünən gəlmişəm və Azərbaycan məni valeh edib. Mən Bakının nadir memarlıq üslubunu, müasir binalarını və texnoloji nailiyyətlərini görmüşəm. Ölkənizin gənc olmasına baxmayaraq, o, dünya miqyasında böyük layihələr həyata keçirir, yüksək texnologiyaların inkişafına töhfə verir. Bu, çox yüksək qiymətləndirilir.

Prezident İlham Əliyev: Çox sağ olun, "Sofiya". İlk növbədə, Azərbaycana xoş gəlmisiniz. Sizin iş cədvəlinizin sıxlığına baxmayaraq, ölkəmizə səfəriniz bizi çox məmnun edir. Siz bütün dünyanı səyahət edirsiniz və sevindirici haldır ki, bu gün təyinat yeriniz Azərbaycan-

dır. Siz burada, paytaxt şəhərində deyil, şəhərlərdən birində – İmişlidə bizi ziyarət edirsiniz. Biz sizinlə birlikdə burada yeni "ASAN xidmət" mərkəzinin açılışını edirik. Bu da innovasiyadır və bu, bizim müasir ölkəni qurmaq bacarığımızı və niyyətimizi əks etdirir. Ölkəmiz haqqında xoş sözlərinizə görə sizə təşəkkür edirəm. Bakı bu gün həqiqətən dünyanın özündə yeni texnologiya və innovasiyaların, müasir və qədim memarlıq üslubunun vəhdətini təcəssüm etdirən ən gözəl şəhərlərindən biridir. Ümid edirəm ki, bu gözəlliyi görmək üçün vaxtınız olacaq və siz Bakıda çox əziz qonaq olacaqsınız.

"Sofiya": Əlbəttə, cənab Prezident. Hava limanına enən kimi mənə dərhal ASAN viza verildi. Mən, həmçinin Sizin təşəbbüsünüzlə yaradılmış Azərbaycan brendi olan "ASAN xidmət" konsepsiyası ilə tanışam. Hesab edirəm ki, "ASAN xidmət" dövlət idarəçiliyində innovasiyaların tətbiqi baxımından uğurlu bir nümunədir. Bugünkü səfəriniz Sizin e-idarəçiliyə və innovasiya ekosisteminə xüsusi diqqət yetirdiyinizi göstərir. Yeri gəlmişkən, mən burada yaradılmış iş şəraitini çox bəyəndim.

Prezident İlham Əliyev: Çox sağ olun. "ASAN" bizim milli brenddir. Bu, bizim nou-haudur. Bu gün Azərbaycanın təkcə təbii ehtiyatlarını və yaxud məhsullarını yox, eyni zamanda, intellektual məhsullarını ixrac etməsi bizi fərəhləndirir. Biz artıq belə xidməti yaratmaq istəyən bəzi ölkələrlə də işləyirik. Buna görə də "ASAN"ın təkcə Azərbaycanda yox, bütün dünyada parlaq gələcəyi var. Çox sağ olun, siz çox ağıllı və çox gözəlsiniz. Sizi görməyə çox şadam.

"Sofiya": Təşəkkür edirəm cənab Prezident.

Sənəd dövriyyəsi sistemi bütün dövlət orqanları arasında və daxili sənəd dövriyyəsinin mərkəzləşdirilmiş qaydada bulud texnologiya əsasında həyata keçirilməsinə imkan verir. Limitsiz yaddaş imkanı və bütün təşkilatların istifadə edə biləcəyi mərkəzləşdirilmiş sistem xərclərin qənaətinə və proseslərin sürətlənməsinə kömək edəcək.

Vətəndaş Məlumatlandırma Sisteminin təqdimatı zamanı bildirildi ki, bu, yeni mobil tətbiq və analitika sistemidir. Mobil sistemin tətbiqi vətəndaşların baş verən hadisələr – yanğın, təbii fəlakət və qəzalar, zəhərlənmə, su və havanın tərkibinin dəyişilməsi və digər hallarla əlaqədar məkana, vaxta və digər meyarlara görə məlumatlandırılmasını təmin edəcək. Ən əsası isə zərərin aradan qaldırılmasına dair qabaqlayıcı tədbirlər barədə istifadəçilər maarifləndiriləcək. Vətəndaş mənfi hallarla bağlı qarşılaşdığı məqamları sistemə ötürəcək və sistem bu məlumatları aidiyyəti dövlət qurumlarına yönləndirəcək.

Yeni layihələrdən biri də "ASAN Railway taksi" xidmətidir. Bu, əsasən turistlər üçün nəzərdə tutulmuş dəmir yolu reysləri üzərində innovativ taksi sistemidir.

Prezident İlham Əliyevə "Sağlamlığın ağıllı təhlili" layihəsi barədə də məlumat verildi. Bu avadanlıq və proqram təminatı vasitəsilə hər bir şəxs olduğu məkanda öz sağlamlıq vəziyyəti barədə göstəricilərlə tanış ola bilər, həkim məsləhətləri və sağlamlığa dair tövsiyələr ala bilər. Həmçinin uzaqdan diaqnozun qoyulması, tibbi məlumatların yaddaşda saxlanılması da göstərilən xidmətlər sırasındadır.

Dövlətimizin başçısı "ABAD" publik hüquqi şəxsin yeni saytı - www.abad.gov.az -ın fəaliyyəti ilə də tanış oldu. Saytda "Haqqımızda", "Məhsullar", "Xidmətlər", "Xəbərlər" və "Əlaqə" funksional bölmələri yaradılıb. Bundan başqa, 108 (4) telefon nömrəsinə və "ABAD"ın sosial şəbəkələrdəki hesablarına keçid linkləri təmin edilib. Həmçinin keçid imkanlı "ABADçı ol" bölməsi yaradılıb. Bildirildi ki, "ABAD" publik hüquqi şəxs beynəlxalq təşkilatlarla da əməkdaşlıq edir. "ABAD"ın rəsmi saytında Avropa İttifaqı, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ), TİKA və BMT-nin İnkişaf proqramları kimi birgə fəaliyyətlərə dair məlumatlar var. Bundan başqa, Mərakeş, İndoneziya, Əfqanıstan, Özbəkistan və digər ölkələr "ABAD" modelinin ixracında maraqlıdırlar.

Prezident İlham Əliyevə növbəti illərdə inşası və istifadəyə verilməsi nəzərdə tutulan "ASAN xidmət" mərkəzlərinin layihələri də təqdim olundu.

Mərkəzdə "ABAD"ın sərgi salonu da fəaliyyət göstərəcək. Qeyd edək ki, əsas məqsədi ölkənin sosial-iqtisadi tərəqqisində vətəndaşların fəal iştirakını, kiçik və orta sahibkarlığın inkişafını, əhalinin məşğulluq səviyyəsinin artırılmasını təmin etmək olan "ABAD" rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək verir, sosialyönümlü layihələrin həyata keçirilməsində birbaşa iştirak edir. "ABAD" öz fəaliyyətini regional mərkəzlər vasitəsilə qurur. Masallı, Balakən və Quba rayonlarında artıq belə mərkəzlər fəaliyyətə başlayıb. Dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən ailə bizneslərinə dəstək verən layihə çərçivəsində "ABAD"çı ailələrə mürəbbə, cem, ət və süd məhsullarının istehsalı üçün xüsusi konteynerlər verilib. İndiyə qədər dekorativ-tətbiqi sənətlə məşğul olan 100-dən çox və kənd təsərrüfatında çalışan onlarla ailəyə dəstək göstərilib. Satışları təşkil etmək məqsədilə "ABAD" paytaxt Bakının müxtəlif yerlərində, həmçinin Şamaxı rayonunun Dəmirçi kəndində mərkəzlər açıb.

İmişli kompleksində Gənc İstedadlar Teatrı da fəaliyyət göstərəcək. Prezident İlham Əliyev burada "ASAN xidmət" könüllülərinin səhnələşdirdiyi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan "Kölgə" tamaşasını izlədi.

Dövlətimizin başçısı könüllülərlə şəkil çəkdirdi.

Qeyd edək ki, könüllülər "ASAN xidmət" fəaliyyətə başladığı ilk gündən etibarən bu konsepsiyanın bir komponentidir. Bu prosesə 16 min könüllü gənc qoşulub. Hazırda 700-ə yaxın gənc "ASAN xidmət" mərkəzlərində könüllü kimi fəaliyyət göstərir. Bu günədək könüllülər tərəfindən 500 layihə həyata

keçirilib və 1000-dən çox könüllü "ASAN Kadr" portalı vasitəsilə işlə təmin olunub. "ASAN Məktub" və "ASAN Kadr" layihələri qabaqcıl təcrübələr kimi BMT-nin "Cənub-Cənub Əməkdaşlığı çərçivəsində Qabaqcıl Mexanizmlər və Həllər" adlı portalına daxil edilib.

Prezident İlham Əliyev "ASAN Park"da yaradılan şəraitlə də tanış oldu. İmişli "ASAN Həyat" konsepsiyası İmişli "ASAN xidmət" mərkəzi ilə yanaşı, ictimai iaşə obyektlərinin istifadəyə verilməsini də nəzərdə tutur. Belə ki, vətəndaşlar operativ və gülərüz xidmətlə yanaşı, bu konsepsiyanın istirahət və əyləncə imkanlarından da istifadə edə biləcəklər. "ASAN Həyat" kompleksi vətəndaş rahatlığı üçün, həyat standartlarının yaxşılaşdırılmasına xidmət edən müxtəlif həlləri əhatə edir. Belə ki, "ASAN Həyat" kompleksi üçün ayrılan 1,5 hektar ərazidə park, diskoteka, uşaq meydançası, fəvvarə və oturacaqlar, paintball sahəsi də yaradılıb.

Diqqətə çatdırıldı ki, regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN Qatar" vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyun ayından etibarən təqribən 1 milyon 500 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib.

Qeyd edək ki, İmişli "ASAN Həyat" Kompleksinin yerləşdiyi ərazidə avtomobil və velosiped dayanacağı da yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İmişli rayonuna səfəri oktyabrın 22-də başa çatdı.

## *Qax rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qax oktyabrın 28-də rayonuna səfərə gəliblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin Qax şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.

Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev rayonda görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kənd Təsərrüfatı Nazirliyinin yenidən qurulan Qax Damazlıq İpəkçilik Stansiyasının açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım stansiyanın rəmzi açılışını bildirən lenti kəsdilər.

Kənd təsərrüfatı naziri İnam Kərimov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya burada yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Qax Damazlıq İpəkçilik Stansiyasının əsası 1973-cü ildə qoyulub. Maliyyə çətinliyi səbəbindən stansiya 1998-ci ildən fəaliyyətini dayandırmışdı. Nazirlər Kabinetinin 2015-ci ildə qəbul etdiyi qərarla stansiya Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki qurumların siyahısına daxil edilib. Prezident İlham Əliyevin ötən il imzaladığı "Azərbaycan Respublikasında ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncama uyğun olaraq, Qax Damazlıq İpəkçilik Stansiyasının bərpası, əlavə istehsal sahələrinin yaradılması və müasir avadanlıqla təchiz olunması məqsədilə Prezidentin ehtiyat fondundan Kənd Təsərrüfatı Nazirliyinə 4,5 milyon manat vəsait ayrılıb. Ötən ildən başlayaraq stansiyada əsaslı yenidənqurma işləri həyata keçirilib.

Məlumat verildi ki, stansiyanın ümumi ərazisi 5 hektar, tikintialtı sahəsi 2 min kvadratmetrdən çoxdur. Stansiyanın ərazisində inzibati bina, hər biri ikimərtəbəli olmaqla laboratoriya və inkubasiya mərkəzi, həmçinin hibrid toxumların istehsalı mərkəzi var. Burada, eyni zamanda, baramaqurdu ailələrinin yemlənməsi binası da yaradılıb. Qax Damazlıq Stansiyasında yeni yaradılmış tut ipəkqurdu cins və hibridlərinin yüksək keyfiyyətli ilkin materialının hazırlanması, çoxaldılması, onların bioloji və texnoloji göstəricilərinin yaxşılaşdırılması, barama toxumu zavodlarının və kümçülərin ipəkqurdunun sənaye qrenası ilə yerli istehsal hesabına təmin edilməsi nəzərdə tutulub. Stansiyada hər il 2 min ton yaş barama istehsalını təmin edəcək 4 min qutu hibrid ipəkqurdu toxumunun, eyni zamanda, 4 kiloqram superelit və 50 kiloqram elit sinfinə aid ipəkqurdu toxumlarının istehsalı planlaşdırılır.

Stansiyanın ərazisində 3 hektar sahədə Çin texnologiyası əsasında intensiv tipli tut bağları salınıb. Bu müəssisənin istifadəyə verilməsi ölkəmizdə ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması baxımından müstəsna əhəmiyyətə malikdir. Bununla yanaşı, stansiya yeni iş yerlərinin yaradılmasında da mühüm rol oynayır. Hazırda stansiyada 11 nəfər daimi işlə təmin edilib. Müəssisə tam işə düşdükdən sonra burada 59 nəfər daimi, 150 nəfər isə mövsümi işlərlə təmin olunacaq.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya müəssisədə süni yemin yaradılması istiqamətində davam etdirilən tədqiqatlar haqqında məlumat verildi.

Qeyd olundu ki, burada tut yarpağının, qarğıdalı nişastasının, aktivləşdirilmiş mayanın, vitamin qarışığının və mərmər tozunun hazırlanması nəzərdə tutulur. Bu layihə ilboyu barama məhsulu istehsalının 6 min tona çatdırılmasını, toxum istehsalının sürətləndirilməsini, emal müəssisələrinin davamlı fəaliyyətini və kənd əhalisinin daimi işlə təminatını nəzərdə tutur.

Dövlətimizin başçısına və birinci xanıma Stansiyada "Ağıllı Kənd" – "Dövlət Kənd İnkişafı layihəsi" barədə də məlumat verildi.

Bildirildi ki, bu innovativ layihə kənd əhalisini və infrastrukturunu yeni texnoloji həllərlə təmin edir. "Ağıllı Kənd" layihəsi bir çox mühüm elementləri özündə birləşdirir. Onların arasında məktəblərdə elektron tədris və təlim mərkəzləri, onlayn təlim platforması, elektron tibbi xidmətlər, alternativ və bərpa olunan enerjidən istifadə, ağıllı suvarma sistemləri, elektron və SMS məlumatlandırma daxildir. Bundan başqa, ağıllı biznes və təsərrüfatın qurulması məqsədilə layihə bazara rahat çıxış platformaları, təchizatçılar, istehsalçılar üçün daxili və xarici bazara rəqəmsal çıxış, onlayn bank xidmətləri və digər xidmətlər təqdim edir. Layihə "Ağıllı Dövlət İdarəçiliyi" istiqamətində elektron kənd təsərrüfatı, elektron xidmətlər, "bir pəncərə" sistemi, GIS əsaslı real zamanda nəzarət və ağıllı yerli idarəetmə imkanlarını da nəzərdə tutur.

Stansiyanın ərazisində geniş abadlıq-quruculuq işləri aparılıb, qazanxana, müxtəlif təyinatlı su anbarları da inşa olunub.

Görülən bu işlərin əsas məqsədi ölkədə ipəkçiliyin dayanıqlı əsaslarla inkişafına nail olmaq, ipək emalı sənayesinin xammal təminatını yüksəltmək, istehsal edilən məhsulun keyfiyyətini və həcmini artırmaq, yeni təsərrüfat subyektləri yaratmaq, ipək məhsullarının ixrac potensialını gücləndirmək və məşğulluğu artırmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün baramaçılığa və ipəkçilik sənayesinə investisiyaların cəlb olunmasının təşviqi, barama istehsalı ilə məşğul olan təsərrüfat subyektlərinə səmərəli iqtisadi dəstək mexanizminin formalaşdırılması, mövcud bağlarda bərpa və yenidənqurma işləri aparmaqla tut ağaclarının məhsuldarlığının artırılması, barama toxumçuluğunun inkişafı, yeni məhsuldar ipəkqurdu cinsləri və hibridlərinin yaradılması, bu sahədə sənayenin müasir texnologiyalar əsasında təşkili və digər mühüm məsələlər nəzərdə tutulur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər haqqında dövlətimizin başçısına məlumat verdi.

Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun əsaslı şəkildə yenidən qurulması Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən həyata keçirilib. Yol 13 məntəqəni əhatə etməklə burada yaşayan 4 min nəfər əhalinin rahat gediş-gəlişini təmin edəcək, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətində mühüm rol oynayacaq.

Qeyd olundu ki, Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun uzunluğu 44,5 kilometr, hərəkət hissəsinin eni 6-7 metrdir. Yol uzun müddət əsaslı təmir edilmədən istismar olunduğundan yol geyimi və yolun əsası, həmçinin torpaq yatağı sel sularının təsirindən yuyularaq deformasiyaya uğramış, hərəkət hissəsində qabarmalar, çalalar əmələ gəlmişdi. Müvafiq olaraq, III və IV texniki dərəcələrə aid olan ikizolaqlı hərəkət hissəli yolun inşası yüksək keyfiyyətlə, bütün texniki tələblərə və ardıcıllığa uyğun aparılıb. Layihə çərçivəsində zəruri olan yerlərdə suötürücü borular quraşdırılıb, siqnal dirəkləri, yol nişanları və göstərici lövhələr qoyulub, yol-cizgi xətləri çəkilib. İnşaat işləri zamanı Qax şəhərinin girişində yolun dağ yamacı hissəsində çay daşından 2250 metr uzunluğunda istinad divarı tikilib. Həmçinin ümumi uzunluğu 69 metr olan iki körpü təmir edilib.

Avtomobil yolunun inşası 13 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq. Bu yolun müasir səviyyədə yenidən qurulması həm yük və sərnişin daşımasını xeyli yaxşılaşdıracaq, yetişdirilən məhsulların rahat şəkildə bazarlara daşınmasına imkan yaradacaq, həm də bölgənin turizm potensialının möhkəmləndirilməsi işinə də xidmət göstərəcək. Eyni zamanda, yolboyu yaşayan əhalinin sosial rifahının yüksəlməsinə imkan verəcək. Bu yolun ölkə əhəmiyyətli Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolundan ayrılması isə onun sosial və iqtisadi əhəmiyyətini daha da artırır.

Dövlətimizin başçısına Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun 124-164 kilometrlik hissəsini əhatə edən Zaqatala-Balakən-Mazımçay hissəsinin əsaslı təmir olunması barədə də məlumat verildi. Bu yolda əsaslı təmir işləri Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən yüksək keyfiyyətlə aparılıb. Əsaslı təmir olunan yolun uzunluğu 40 kilometr, eni isə 13 metrdir. Buraya hər iki istiqamət üzrə iki metr enində çiyinlər və genişləndirildikdən sonra eni 9 metrə çatdırılan hərəkət hissəsi daxildir. Tikinti layihəsinə əsasən yolboyu mövcud olan beş avtomobil körpüsünün əsaslı şəkildə təmiri də aparılıb. Suların ötürülməsi üçün yolun altında müxtəlif ölçülü 68 ədəd dəmir-beton borular quraşdırılıb. Bütün işlər texnoloji ardıcıllığa riayət edilərək görülüb.

Əsaslı təmir edilən Yevlax-Zaqatala-Gürcüstan avtomobil yolunun tərkib hissəsinə aid olan Zaqatala-Balakən-Mazımçay hissəsi 100 mindən çox əhalinin yaşadığı iki rayonun inzibati ərazisindən keçməklə 16 yaşayış məntəqəsini birləşdirir. Təmir işləri yolboyu yaşayan əhali ilə yanaşı, yoldan istifadə edən bütün vətəndaşların gediş-gəlişini rahatlaşdıracaq, Gürcüstan istiqamətində, həmçinin əks istiqamətdə yük və sərnişin daşımasını xeyli asanlaşdırmaqla kənd təsərrüfatının və turizmin inkişafına mühüm töhfə verəcək.

Prezident İlham Əliyevə Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qax-Zaqatala hissəsinin yenidən qurulması barədə də məlumat verildi. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində inşa olunan respublika əhəmiyyətli Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qax-Zaqatala

hissəsini əhatə edən yol başlanğıcını Qorağan-Qax-Zaqatala avtomobil yolunun 14-cü kilometrliyindən - Qax şəhərinin girişindən götürür. Yol Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun 125-ci kilometrinədək uzanır. Ümumi uzunluğu 29,8 kilometr olan yol üçüncü texniki dərəcəyə uyğun yenidən qurulub. İki hərəkət zolaqlı yolun ümumi eni 12 metrdir.

Layihə çərçivəsində 52 ədəd suötürücü boru tikilib, beton kanal və drenaj işləri görülüb, rabitə və su xətlərinin yeri dəyişdirilib, 4 yerdə heyvanların keçidi inşa olunub. Tikinti işləri zamanı Qum çayı üzərində uzunluğu 23,2 metr və Süzgənc çay üzərində uzunluğu 46 metr olan dəmir-beton körpülər tikilib. Dərnə, Atagar, Muxax və Lekit çayları üzərində yerləşən mövcud körpülərdə isə əsaslı bərpa və bərkitmə işləri aparılıb.

Qax-Zaqatala avtomobil yolu Böyük Qafqaz sıra dağlarının cənub ətəyi ilə uzanır və ölkənin ən böyük turizm marşrutlarından olan yolun bir hissəsidir. Yol xüsusilə Qax-Zaqatala rayonlarının 37 min nəfərdən çox əhalisi olan 22 yaşayış məntəqəsində nəqliyyat xidmətini yaxşılaşdırmağa imkan verəcək. Eləcə də Qax və Zaqatala rayonları arasında hazırda mövcud olan yol məsafəsi xeyli qısalacaq.

Sonra Prezident İlham Əliyev Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Ulu Aqro” MMC-nin Qax Aqroparkının açılışında iştirak ediblər.

Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq aqroparkların yaradılması geniş vüsət alıb. “Ulu Aqro” MMC-nin Qax Aqroparkının yaradılması da bunun bariz nümunəsidir. Aqroparklar aqrar sahədə sahibkarlığın inkişafını daha geniş şəkildə təşviq etmək və bununla da nəinki yerləşdikləri bölgələrin, ümumilikdə, ölkəmizin sosial-iqtisadi inkişafının sürətləndirilməsində, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalında, ixracyönümlü məhsulların sayının çoxaldılması ilə ixrac potensialımızın artırılmasında xüsusi əhəmiyyət kəsb edir. Aqroparkların yaradılması ölkənin ixrac coğrafiyasının genişləndirilməsində, milli brendlərin yaradılmasında, kənd təsərrüfatı sahəsində əlaqələndirilmiş vahid sistemin, eləcə də istehsalçı-emalçı-istehlakçı münasibətlərinin formalaşmasında, aqrar sahədə ixtisaslı kadrların hazırlanmasında əhəmiyyətli rol oynayır. Aqroparklarda kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, logistikası və satışı bütünlükdə bu zənciri özündə birləşdirir. Bu zəncir kənd təsərrüfatı məhsullarının tarladan istehlakçının süfrəsinədək bütün mərhələlərini özündə əks etdirir. Bu isə kənd təsərrüfatı məhsullarının istehsalına çəkilən xərclərin, eləcə də onların maya dəyərinin aşağı düşməsinə və keyfiyyətin yüksəlməsinə imkan verir. Nəticədə istehlakçıya yüksək keyfiyyətli və daha ucuz qiymətə kənd təsərrüfatı məhsulu çatdırmaq mümkün olur. Bu cür layihələrin icrası daha bir mühüm məqamı özündə ehtiva edir: Aqroparkların məşğulluğun artırılmasına, yeni iş yerlərinin yaradılmasına töhfəsi böyükdür.

“Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə Qax Aqroparkında görülən meliorativ tədbirlər, həmçinin Əyriçay su anbarı magistral kanallarının planı barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, Qax rayonunun “Ağyazı” qışlaq otlağının ərazisində yerləşən aqroparkın yaradılması üçün meliorativ tədbirlərə 9 milyon manat, elektrik təminatına 4,7 milyon manat olmaqla, ümumilikdə 13,7 milyon manat dövlət əsaslı investisiya qoyulub. Aqroparkın ümumi ərazisi 2094 hektardır. Suvarılan sahə 1268 hektarı əhatə edir. Ərazinin 863 hektarında 28 pivot qurğusu qurulub, 405 hektarında isə “damcılama” sistemi yaradılıb. Əkin sahələrinin davamlı və keyfiyyətli su təminatı üçün Aqroparka dövlət investisiyaları hesabına 4,6 kilometr uzunluğunda su xətti çəkilib, tutumu 50 min kubmetr olan beton su hovuzu tikilib, bütün zəruri meliorativ tədbirlər görülüb. Buraya 15 kilometr məsafədən 10 kV-luq elektrik xətti çəkilib, transformatorlar quraşdırılıb. Aqroparka yaxın ərazidən keçən Qax-Qıpçaq-Ağyazı avtomobil yolunda əsaslı təmir işləri aparılıb.

Qeyd edək ki, ölkəmizdə hazırda 30 rayon üzrə 192 min hektar ərazidə ümumi dəyəri 1,4 milyard manatdan çox olan 45 aqropark və iri fermer təsərrüfatlarının yaradılması üzrə işlər sürətlə davam etdirilir. Aqroparkların təşkili üçün dövlət vəsaiti hesabına infrastrukturun yaradılmasına, ümumilikdə 219 milyon manat investisiya qoyulub. İndiyədək investisiya dəyəri 469 milyon manatdan çox olan 17 aqroparkın yaradılmasına 111 milyon manat güzəştli kredit ayrılıb və 15 aqropark üzrə dəyəri 564 milyon manat olan 25 layihəyə investisiya təşviqi sənədi verilib. İlin sonunadək daha 13 aqroparkın istifadəyə verilməsi nəzərdə tutulur.

İqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına və birinci xanıma İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun maliyyə dəstəyi ilə Şəki-Zaqatala iqtisadi rayonunda yaradılan və fəaliyyəti genişləndirilən müəssisələr, həmçinin tütün, fındıq, bal, quru meyvə istehsalı üzrə respublika, o cümlədən bu iqtisadi rayondakı ötən ilin statistik göstəriciləri barədə məlumat verdi.

Bildirildi ki, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən Şəki-Zaqatala iqtisadi rayonu üzrə 2400-dək investisiya layihəsinin maliyyələşdirilməsinə 109 milyon manat güzəştli kredit verilib və bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 10 mindən çox yeni iş yerinin açılmasına imkan yaradıb. Bununla yanaşı, İqtisadiyyat Nazirliyi tərəfindən Şəki-Zaqatala iqtisadi rayonu üzrə

ümumi dəyəri 74 milyon manat olan 20 sahibkarlıq subyektinə 24 investisiya təşviqi sənədi verilib və bu sənədlər əsasında 6 milyon manat vəsaitə qənaət olunub. Bu iqtisadi rayon üzrə müasir texnologiyaların tətbiqi ilə güzəştli kreditlərdən istifadə etməklə Şəki və Qax rayonlarında 1400 hektar ərazidə yeni fındıq bağları salınır. Həmçinin Şəki rayonunda 30 tütünqurutma kamerası, "Made in Azerbaijan" brendi ilə xarici bazara məhsulun çıxarılmasına imkan verən, Qax rayonunda balın sənaye üsulu ilə emalı və qablaşdırılması, Balakən rayonunda meyvəqurutma, sərinləşdirici içkilərin istehsalı və qablaşdırması müəssisələri qurulur.

Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Qax rayonunda aqroparkın yaradılması çox gözəl hadisədir. Çox şadam ki, bu torpaqlarda gözəl bağlar salınıb, işlər görülüb. Mənə verilən məlumata görə, burada, ilk növbədə, dövlət öz dəstəyini göstərib və özəl sektor sərmayə qoyub.

Aqroparkların yaradılması artıq ölkəmizdə dövlət proqramıdır və bu proses geniş vüsət alıb. Bu ilin sonuna qədər 13 aqroparkın fəaliyyətə başlaması nəzərdə tutulur. Onlardan biri də Qax aqroparkıdır. Ümumiyyətlə, 45 aqroparkın yaradılması nəzərdə tutulur və bu aqroparklarda işləyən insanların sayı minlərlə, on minlərlə olacaqdır. Təkcə Qax aqroparkında 100 daimi və 100 mövsümi iş yeri yaradılır. 45 aqroparkın ümumi sahəsi 192 min hektardır və onlardan 28-i bitkiçilik, 17-si isə heyvandarlıq aqroparklarıdır. Beləliklə, bu dövlət proqramlarının icrası nəticəsində ölkə iqtisadiyyatına böyük xeyir gələcək, məşğulluq artacaq, insanlar işlə təmin olunacaqlar, yaxşı əməkhaqqı alacaqlar və ölkəmiz idxaldan asılılığı aradan qaldıracaqdır.

Qax aqroparkının yaradılmasına dövlət xətti ilə 13 milyon manat investisiya qoyulub. Bütün infrastruktur dövlət xətti ilə yaradılıb. Bundan əlavə, yeni açdığım kənd yolu da bu aqroparkın fəaliyyətinə əlavə dəstək olacaq. Bu kənd yolunun uzunluğu 44 kilometrdir və bölgələrdə salınan ən uzun kənd yollarından biridir. Ümumiyyətlə, Qax rayonunun inkişafı üçün bu yolun böyük əhəmiyyəti var. Dövlət, eyni zamanda, aqroparkın yaradılmasına güzəştli şərtlərlə kredit şəklində 2 milyon manat pul ayırıb və qalan işləri özəl sektor görüb. Dövlət-özəl sektor tərəfdaşlığı Qax aqroparkının timsalında əyani şəkildə özünü göstərir. Beləliklə, bizim siyasətimiz burada öz əksini tapır.

Azərbaycanın, xüsusilə bu ərazinin çox gözəl təbii şəraiti, gözəl iqlimi, münbit torpağı var. Sadəcə olaraq, biz bu imkanlardan böyük səmərə ilə istifadə etməliyik. Burada müasir suvarma sistemlərinin, ilk növbədə, pivot, damcılama sistemlərinin quraşdırılması, əlbəttə ki, məhsuldarlığın artırılmasına xidmət göstərəcək. İki min hektar ərazisi olan aqroparkın böyük hissəsi müasir suvarma sistemləri altındadır və burada salınan gözəl meyvə bağları – badam bağları artıq reallıqdır. Hələ bir il bundan əvvəl buralar boş torpaq idi, heç nə bitmirdi, heç bir iş görülmürdü. İndi baxanda göz oxşayır. Qarlı dağlar və gözəl meşə zolağı, o meşə zolağı ki, bar gətirəcək və Azərbaycan vətəndaşları bundan istifadə edəcəklər.

Kənd təsərrüfatının inkişafı ilə bağlı çox ciddi addımlar atılır. Bu addımlar göstəricilərdə də özünü büruzə verir. Bu ilin doqquz ayında kənd təsərrüfatında 4,3 faiz artım var. Kənd təsərrüfatının bütün istiqamətləri üzrə planlı şəkildə iş aparılır və beləliklə, ənənəvi kənd təsərrüfatı sahələri – pambıqçılıq, üzümçülük, tütünçülük, fındıqçılıq, baramaçılıq, tərəvəzçilik və digər sahələr bərpa edilir. Biz elə etməliyik ki, Azərbaycan bütün ərzaq məhsulları ilə öz tələbatını özü ödəsin. Biz bu hədəfə yaxınlaşırıq.

Əminəm ki, kənd təsərrüfatının sürətli inkişafı, subsidiyaların verilməsi, fermerlərin texnika ilə təchiz edilməsi, yanacağın, gübrənin güzəştli şərtlərlə verilməsi, kompleks tədbirlər, üstəgəl ciddi islahatlar yaxın gələcəkdə çox gözəl nəticələrə gətirib çıxaracaq. Artıq biz nəticələri görürük. Hazırda pambıq yığımı mövsümü gedir və biz böyük məhsul gözləyirik, məhsuldarlıq da artacaq. Taxılçılıqda yaxşı nəticələr var. Biz tərəvəz istehsalı və ixracı ilə bağlı çox böyük işlər görmüşük. Dövlət hər zaman fermerlərin yanındadır. Azərbaycanda kənd təsərrüfatının inkişafına göstərilən diqqət və dəstək, hesab edirəm ki, dünya miqyasında ən yüksək səviyyədədir və təqdirəlayiqdir. Təsadüfi deyil ki, biz bu gözəl nəticələri görürük. İnsanların məşğulluğu artır, rifah halı yaxşılaşır, bütün ölkədə böyük infrastruktur layihələri icra edilir. Bu gün açdığım 44 kilometr uzunluğunda kənd yolu 13 yaşayış məntəqəsinin sakinlərinə xidmət göstərəcək. Əvvəlki səfərimdə biz Şəki-Qax avtomobil yolunu açdıq. Bu da bilirsiniz, Şəki ilə Qax arasındakı məsafəni böyük dərəcədə qısaltdı, yeni bir yol salındı. Bu gün mənim göstərişimlə icra edilən Şəki-Balakən-Gürcüstan sərhədi avtomobil yolu da artıq tam hazırdır. Bu infrastruktur layihəsi həm insanlara rahatlıq gətirir, eyni zamanda, kənd təsərrüfatının inkişafına da xidmət göstərir.

Məşğulluğun artırılması ilə bağlı özünüməşğulluq proqramı icra edilir və hər il ən azı 6-7 min insan dövlətin dəstəyi ilə özü iş quracaq və öz güzəranını yaxşılaşdıracaqdır.

İnfrastruktur layihələri Qax rayonunda da icra edilir, əvvəlki illərdə icra edilib, bundan sonrakı illərdə də icra ediləcək. Qeyd etdiyim kimi, kənd yolları salınır. Qax rayonunda qazlaşdırmanın səviyyəsi təxminən 70 faizə yaxındır. Biz 5 il bundan əvvəl içməli su, kanalizasiya layihəsini istifadəyə verdik. Qax şəhəri və bir neçə kənd indi 24 saat ərzində təmiz içməli su ilə təmin edilir. Böyük xəstəxana yenidən qurulub, Olimpiya İdman Kompleksi, turizm infrastrukturu yaradılıb və Qaxa gələn turistlərin sayı getdikcə artmaqdadır.

O ki qaldı, ənənəvi kənd təsərrüfatı məhsullarının istehsalına, keçən il Qax rayonunda tütünçülük, baramaçılıq, fındıqçılıq üzrə respublika müşavirəsi keçirilmişdir və bu sahələrə verilən dəstək öz nəticəsini göstərir. Mənə verilən məlumata görə, fındıq bağlarının sahəsi təxminən 30 faiz genişləndirilib, 9 min hektara çatıb.

Tütünçülüklə bağlı. Əgər üç il bundan əvvəl cəmi 300 hektarda tütün əkilmişdisə, hazırda 600 hektarda tütün əkilir və qurutma kameraları gətirilib quraşdırılır. Baramaçılığa gəlincə isə, Qax artıq bütün ölkəyə bu sahədə xidmətlər göstərəcək. Çünki bu gün açdığım Qax Damazlıq İpəkçilik Stansiyasının fəaliyyəti bütün ölkəmizi əhatə edəcək. Əgər üç il bundan əvvəl cəmi 200 kiloqram barama tədarük olunmuşdusa, bu il 500 ton barama tədarük edilib və daha da artacaq.

Qax rayonunun inkişafı bundan sonra da diqqət mərkəzində olacaq. Bu aqroparkın yaradılması dediyim sözlərə əyani sübutdur. Burada işləyən vətəndaşlara uğurlar arzulayıram. Arzu edirəm ki, Qax aqroparkı ölkəmizin ən qabaqcıl aqroparklarından birinə çevrilsin.

Sizi bir daha təbrik edirəm və sizə uğurlar arzulayıram.

Sonra Prezident İlham Əliyev aqroparkın suvarma sisteminin işə salınmasını bildirən düyməni basdı və əkin sahəsinə baxdı.

Məlumat verildi ki, aqroparkda 1200 hektar sahədə buğda, 169 hektarda qarğıdalı və 65 hektarda soya əkilib. Bundan başqa, 217 hektar badam, 50 hektar qoz, 32 hektar şaftalı, 30 hektar alma, 23 hektar gavalı, 12 hektar ərik və 11 hektar gilas bağları salınıb. Bu aqroparkın yaradılmasına dövlət tərəfindən 2 milyon manat güzəştli kredit verilib. Buraya verilən investisiya təşviqi sənədi sayəsində 183 min manat vəsaitə qənaət olunub. “Ulu Aqro” MMC-nin Qax Aqroparkının illik istehsal gücü 3 min ton meyvə, o cümlədən alma, armud, gilas, ərik, şaftalı və gavalıdır. Bundan başqa, burada il ərzində 0,5 min ton badam, 0,4 min ton qoz, 5,2 min ton taxıl, 2,4 min ton qarğıdalının istehsalı nəzərdə tutulub. Ümumilikdə, burada illik 15,2 milyon manatlıq məhsulun istehsalı gözlənilir. Bu aqropark kənd təsərrüfatının inkişafına təkan verməklə yanaşı, kənd təsərrüfatı məhsullarının istehsalı, ölkəmizdə rəqabətqabiliyyətli məhsulların sayının və çeşidinin artırılması, ixrac potensialımızın gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Aqropark yeni iş yerlərinin yaradılmasına da töhfəsini verir. Belə ki, burada 90 nəfərin işlə təmin olunması nəzərdə tutulub.

Aqroparkın müasir logistika mərkəzi də var. Burada yaradılan idarəetmə mərkəzində iclas və brifinq zalları, kənd təsərrüfatı mütəxəssislərinin qalması üçün on nəfərlik yataq otaqları yaradılıb. Layihənin icrası zamanı aqroparkın logistika mərkəzində informasiya-kommunikasiya texnologiyalarının son yenilikləri tətbiq edilib. Tutumu 4,5 min ton olan taxıl anbarı, sahəsi 5,4 min kvadratmetr olan bina tipli 4 anbar, ofis və yardımçı binalar tikilib. Logistik mərkəzdə, eyni zamanda, 7 yataqxana binası, maşınyuma məntəqəsi inşa olunub, elektron tərəzi, transformator yarımstansiyası, generator quraşdırılıb. Aqroparkda istifadə üçün 13-dən çox adda 54 ədəd texnika və aqreqat alınıb. Gələcəkdə aqroparkın fəaliyyətinin daha da genişləndirilməsi nəzərdə tutulur.

Logistik mərkəzdən aqroparkın bütün ərazisindəki fəaliyyətə nəzarət olunur. Burada xüsusi meteoroloji stansiyalar da quraşdırılıb. Bu stansiyalar aqroparkın hava durumu, torpağın hərarəti, rütubət kimi amillər barədə logistik mərkəzə məlumatlar ötürür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 28-də Qax şəhərində “Ulu Yurd” Məhdud Məsuliyyətli Cəmiyyətinin “Yurd Hotel” mehmanxanasının açılışında iştirak ediblər.

Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsdi.

“Ulu Yurd” Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbəri Cuma Əhmədzadə burada yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, mehmanxananın inşasına 2017-ci ilin sentyabrında başlanılıb. Yüksək keyfiyyət və zövqlə görülən tikinti işləri bu ilin sentyabrında başa çatdırılıb.

Qax şəhərindən 8,5 kilometr məsafədə yerləşən mehmanxana, İlisu kəndində ümumi sahəsi 3,3 hektar olan “Yaşıl Park” istirahət mərkəzinin ərazisində inşa edilib. Kompleksin tikinti sahəsi 2100 kvadratmetrdir. Yüz yerlik, üçmərtəbəli mehmanxana binasında müxtəlif kateqoriyalara uyğun 48 otaq var. Otaqlardan 45-i standart, 3-ü ailəvidir. Burada, eyni zamanda, VIP kottec də yaradılıb. Mehmanxananın otaqlarında müştərilərin rahatlığı üçün ən xırda detallar da nəzərə alınıb. Qonaqların asudə vaxtlarının təşkili bu mehmanxana kompleksinin yaradılmasında əsas meyarlardan biri kimi seçilib.

Turistlərin idmanla məşğul olması üçün ərazidə mini futbol meydançası yaradılıb. Eyni zamanda, burada qonaqlara açıq tipli kafe-bar və restoran da xidmət göstərəcək.

Bu cür mehmanxanaların yaradılması, ilk növbədə, Qaxın və ümumilikdə bölgənin turizm potensialının gücləndirilməsində mühüm rol oynayacaq, turist axınının artmasına zəmin yaradacaq. Bütün bunlarla yanaşı, turizm obyektlərinin istifadəyə verilməsi əhalinin məşğulluğunun artırılmasında, yeni iş yerlərinin yaradılmasında da müstəsna əhəmiyyətə malikdir. Belə ki, “Yurd Hotel” mehmanxanasında 15 nəfərin daimi işlə təmin olunması nəzərdə tutulub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişafı başlıca prioritetlərdən olmaqla, qarşıya əsas məqsəd kimi qoyulub. Bu baxımdan ölkədə turizmin inkişafına da xüsusi diqqət ayrılır. Azərbaycanda hotel biznesinin dünya standartları səviyyəsində yenidən qurulması, bölgələrimizdə bir-birindən gözəl və müasir mehmanxana komplekslərinin

yaradılması, qonaqlara yüksək səviyyədə xidmət göstərilməsinin təmin edilməsi, çox sayda turistlərin qəbulu üçün silsilə tədbirlərin reallaşdırılması turizm sektorunun inkişafında mühüm rol oynayıb. Bütün bunlar Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, ölkəyə gələn turistlərin sayının artmasına da zəmin yaradır. Bu kompleks təkcə Qax üçün deyil, bütün bölgə üçün əhəmiyyətli turizm obyektidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qax rayonuna səfəri oktyabrın 28-də başa çatdı.

## *Şəki şəhərinə səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 29-da Şəki şəhərinə səfərə gəliblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsi önünə gül dəstələri qoydular.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov rayonda görülən işlər haqqında dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki şəhərində inşa olunan Heydər Əliyev Mərkəzinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Şəkidə orijinal layihə əsasında yeni tikilən Heydər Əliyev Mərkəzi Ümummilli Liderin xatirəsinə dərin ehtiramın parlaq nümunəsidir. Mərkəzdə Ulu Öndərin mənalı həyatı və çoxşaxəli fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer alıb. Burada dünyanın görkəmli dahi şəxsiyyətlərindən olan Heydər Əliyevin Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, bu böyük insanın həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyması, qüdrətli ordu quruculuğu istiqamətində görülən mühüm tədbirləri əks etdirən foto, kitab və digər vəsaitlərə geniş yer verilib. Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin təbliği, gələcəkdə Azərbaycan vətəndaşlarının dünyada gedən müasir proseslər çərçivəsində öz vətəni, milləti və xalqının taleyi ilə bağlı genişmiqyaslı layihələrdə iştirakının təmin olunması, onların arzu və niyyətlərini gerçəkləşdirmək əzminin reallaşması baxımından mühüm əhəmiyyət daşıyan Heydər Əliyev Mərkəzinin inşası Azərbaycanın müasir həyatını əks etdirir.

Heydər Əliyev Mərkəzində görülən işlərlə tanışlıq zamanı məlumat verildi ki, burada Ümummilli Liderin yeni abidəsi ucaldılıb. Ulu Öndərə şəkililərin sonsuz məhəbbətinin təcəssümü olan Heydər Əliyev Mərkəzinin tikintisinə 2018-ci ilin martında başlanılıb. Yüksək səviyyədə aparılan tikinti işləri bu ilin oktyabrında başa çatdırılıb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb.

Ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi baxımından böyük əhəmiyyəti olan Mərkəzdə Ulu Öndərin həyat və fəaliyyətinə dair tarixi sənədlərə də geniş yer verilib. Burada Ulu Öndərin uşaqlıq, gənclik və tələbəlik illərinə, həmçinin hakimiyyətdə olduğu dövrlərə aid müxtəlif fotolar maraqla qarşılanır. Bu fotolarda Heydər Əliyevin sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərlik edərkən ölkəmizin inkişafına xüsusi diqqət göstərməsi dolğun əksini tapıb. Dahi şəxsiyyətin hakimiyyətdə olduğu illərdə bölgələrimizə, o cümlədən Şəkiyə səfərləri bunun bariz nümunəsidir. Ulu Öndərin ölkədəki müxtəlif obyektlərin açılışında iştirakı, ictimaiyyət nümayəndələri, ziyalılar və zəhmətkeşlərlə görüşləri şəkililərin də xatirəsində dərin izlər buraxıb.

Sahəsi 3700 kvadratmetr olan Heydər Əliyev Mərkəzində müxtəlif tədbirlərin keçirilməsi üçün böyük akt zalı yaradılıb. Son illərdə respublikamızda fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlər də keçirilir. Şəkidəki Heydər Əliyev Mərkəzində də bu məqsədlə müvafiq şərait yaradılıb. Heydər Əliyev Fondunun fəaliyyətinə həsr olunmuş xüsusi guşədə fondun bir sıra sahələrdə həyata keçirdiyi layihələrdən, bu layihələrin ölkəmizdə sosial sahələrin dirçəldilməsinə verdiyi töhfələrdən ətraflı bəhs edilir. Mərkəzdə kompüterlər və digər müasir avadanlıqla təchiz olunan xidməti otaqlar fəaliyyət göstərəcək. Müxtəlif təyinatlı bölmələrdən ibarət olan xarici dillərin tədrisi otağı, 20 və 60 yerlik iclas zalları, rəsm və fotostudiyaları, elektron kitabxana, kompüter, rəqs, intellektual oyun dərnəkləri fəaliyyət göstərəcək. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün də lazımi şərait yaradılıb.

Mərkəzdə, həmçinin Şəki şəhərinin 2017-ci ildən UNESCO-nun yaradıcı şəhərlər şəbəkəsinin üzvü olmasına dair xüsusi guşə yaradılıb, "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun maketi quraşdırılıb. Burada yaradılan Etika Akademiyasının fəaliyyəti də xüsusi maraq doğurur.

Mərkəzdəki foto və eksponatlar bir daha sübut edir ki, Azərbaycanın tənəzzül dövründən inkişaf mərhələsinə qədəm qoyması və indiki hərtərəfli inkişafı, beynəlxalq nüfuzunun artması məhz ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır. Bu cür mərkəzlər Azərbaycanın Heydər

Əliyev irsinə əsaslanan və indi də uğurla davam etdirilən davamlı inkişaf konsepsiyasının mahiyyətinin aydın şəkildə öyrənilməsinə real zəmin yaradır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəkidə Bayraq Muzeyinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı Bayraq Muzeyinin rəmzi açılışını bildirən lenti kəsdi.

Bu gün, sözün əsl mənasında, xalqın və dövlətin maraqlarına uyğun hərtərəfli müstəqil siyasət həyata keçirən, sürətli və davamlı inkişaf yolu ilə uğurla addımlayan suveren Azərbaycanın üzərində əzəmətlə dalğalanan üçrəngli bayrağımız hər bir vətəndaşımızın qəlbində qürur və fərəh hissi doğurur. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli, ay-ulduzlu bayrağımız bu gün müasir Azərbaycanın müstəqillik rəmzinə çevrilib. Dövlətimiz və xalqımız üçün bu tarixi məsələdə ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olub. Məhz Ulu Öndərin xidmətləri sayəsində üçrəngli bayrağımız ilk dəfə Naxçıvan Muxtar Respublikasında dövlət bayrağı kimi qəbul edilib. İndi Azərbaycan bayrağı dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları və mötəbər məclislərində qürurla dalğalanır. Prezident İlham Əliyev dövlət atributlarımıza xüsusi ehtiramla yanaşır. Bölgələrimizdə, o cümlədən Şəkidə Bayraq Muzeyinin yaradılması bunun bariz nümunəsidir. Belə muzeylərin yaradılması dövlət atributlarına olan sonsuz sevgini nümayiş etdirməklə yanaşı, gənc nəslin Azərbaycan bayrağına hörmət ruhunda tərbiyə olunmasına mühüm töhfə verir.

Məlumat verildi ki, muzey Bayraq Meydanında yerləşir. Meydanda hündürlüyü 72,4 metr olan bayraq dirəyinin postament hissəsi yenidən qurulub, ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb, ağac, gül kolları əkilib, işıq dirəkləri quraşdırılıb, fəvvarələr əsaslı təmir edilib.

Qeyd olundu ki, Bayraq Muzeyinin inşasına 2018-ci ilin martında başlanılıb. Tikinti işləri bu ilin oktyabrında başa çatdırılıb. Bayraq Muzeyində sərgi zalı ilə yanaşı, inzibati və yardımçı otaqlar yaradılıb. Muzeyin sərgi zalında ümumilikdə üç bölmə var. Burada Azərbaycanın xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, xanlıqların bayraqları, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar nümayiş olunur.

Muzeyin eksponatları arasında Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və müstəqillik dövrlərinə aid konstitusiyalar, gerblər, bayraqlar, poçt markaları, orden və medallar sərgilənir.

Ölkəmizdə Bayraq muzeylərinin yaradılması Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən və hər bir vətəndaş üçün müqəddəs rəmzlərdən sayılan üçrəngli bayrağımıza olan hörmət və ehtiramın göstəricisidir. Belə muzeylərə aid layihələrin bütün bölgələri əhatə etməsi isə yeniyetmə və gənclərimizə yüksək vətənpərvərlik duyğuları aşılamaqla, onlarda dövlət bayrağımıza sevgini daha da artırır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki-Kiş avtomobil yolunun açılışında iştirak ediblər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına və xanımına yolun texniki göstəriciləri barədə məlumat verdi.

Bildirildi ki, yolun uzunluğu 7,2 kilometrdir. Şəki-Kiş avtomobil yolunun hərəkət hissəsi sıradan çıxmışdı. Bu isə avtonəqliyyat vasitələrinin hərəkətində problemlər yaradırdı. On yeddi min nəfər əhalinin yaşadığı iki yaşayış məntəqəsini birləşdirən Şəki-Kiş avtomobil yolunun yenidən qurulması Azərbaycan Prezidentinin Sərəncamına əsasən həyata keçirilib. Görülən işlər nəticəsində yol iki hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Layihəyə uyğun olaraq 7 metr enində yol əsası və 2 metr enində çiyinlər də daxil olmaqla yeni salınan yol yatağının eni 12 metrdir. Yolboyunca müxtəlif diametrli suötürücü borular tikilib, zəruri yerlərdə yol nişanları quraşdırılıb, yol-cizgi və yolgöstərici xətlər çəkilib, avtobus dayanacaqları tikilib.

Azərbaycan Prezidentinin Sərəncamına uyğun olaraq, Kiş çayı üzərində körpünün bərpası işləri də aparılıb. Yeni inşa edilən körpünün uzunluğu 88,2 metr, hərəkət hissəsinin eni 8 metrdir. Körpünün hər iki tərəfində eni 1,5 metr olan piyada səkiləri də yaradılıb. Dayaqsız biraşırımlı körpünün çay yatağından hündürlüyü 7 metrdir. Bu isə gələcəkdə sel sularının körpüyə zərər vurmasının qarşısını alacaq. Çayda sel suları nəzərə alınaraq körpünün təhlükəsizliyini təmin etmək üçün qabaqlayıcı və profilaktik tədbirlər həyata keçirilib. Layihə çərçivəsində çayda su axınının tənzimlənməsi və yaşayış məntəqələrini sel sularından qorumaq üçün sağ sahildə mövcud qazma-doldurma svay əsaslı monolit beton istinad divarlarının 32 metr hissəsinin hündürlüyü artırılıb, sol sahildə isə 45 metr uzunluğunda yeni su tənzimləyici qurğu inşa olunub.

Xatırladaq ki, 2016-cı ilin iyulunda yağan leysan nəticəsində sel suları həmin körpünü uçurmuş, Kiş kəndinin rayon mərkəzi ilə avtonəqliyyat əlaqəsi kəsilmişdi. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən əraziyə cəlb edilən ağır texnika və canlı qüvvə hesabına qısa müddət ərzində Kiş çayı üzərində müvəqqəti yol salınaraq gediş-gəliş bərpa olunmuşdu. Təbii fəlakətin yol infrastrukturuna vurduğu ciddi ziyanın aradan qaldırılması və 7 min nəfər əhalinin yaşadığı Kiş kəndini ətraf yaşayış məntəqələri ilə birləşdirən yeganə körpünün bərpası üçün Prezident İlham Əliyev tərəfindən 2016-cı il avqustun 16-da müvafiq Sərəncam imzalanmışdı.

Bildirildi ki, avtomobil yolunun inşası iki yaşayış məntəqəsi arasında yük və sərnişin daşınmasının yaxşılaşdırılmasına imkan verəcək, həmçinin yerli və xarici

turistlərin Kiş kəndinə və "Marxal" istirahət mərkəzinə gediş-gəlişində mühüm rol oynayacaq.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki "ASAN Həyat" kompleksinin açılışında iştirak ediblər.

Prezident İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.

Altı il bundan əvvəl – 2012-ci il iyulun 13-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradıldı və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri fəaliyyətə başladı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək "ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Həmin ildən başlayaraq Bakının bir neçə rayonunda "ASAN xidmət" mərkəzləri sakinlərin istifadəsinə verildi. Daha sonra bu proses regionları da əhatə etməyə başladı. Hazırda bu mərkəzlərə daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olanlar üstünlük təşkil edir. Bütün bunlar dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi beynəlxalq əlaqələrə də üstünlük verir. Bu gün "ASAN xidmət"in fəaliyyəti Avropa İttifaqı, Avropa Parlamenti, Böyük Britaniya parlamenti, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunur. Artıq Azərbaycanın "ASAN xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyni adlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb. 2014-cü ildə "ASAN xidmət" ISO 9001:2008 və OHSAS 18001:2007 standartı üzrə beynəlxalq dərəcəli sertifikatlara layiq görülüb. "ASAN xidmət", həmçinin Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. "ASAN xidmət" 2015-ci il BMT-nin "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında birinci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif edilib. Bundan başqa, bu il oktyabrın 25-də Dövlət Agentliyi ilə ISESCO arasında imzalanan Birgə Əməkdaşlıq Proqramına əsasən qabaqcıl idarəetmə üzrə "ISESCO-nun ASAN mükafatı" təsis olunub. Mükafat üzv dövlətlərdə innovasiyaları əks etdirən təcrübələr üçün təqdim ediləcək. Həmçinin "ASAN xidmət" və ISESCO tərəfdaşlığını əks etdirən İnkişaf Naminə İdarəetmə beynəlxalq təşəbbüsünün irəli sürülməsi, şirkətlərin biznes inkişafının və idarə edilməsinin yüksəldilməsi məqsədilə xüsusi "ASAN xidmət" məhsullarının formalaşdırılması əməkdaşlıq proqramında nəzərdə tutulur. Bundan başqa, ISESCO-nun 2019-2021-ci illər üzrə üçillik Fəaliyyət Planında üzv ölkələrdə sektoral idarəçilik mexanizminin inkişaf etdirilməsi məqsədilə "ASAN xidmət" modelindən faydalanmaq tövsiyə olunub. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan "ASAN xidmət"ə dünyada böyük maraq var. Qeyd edək ki, bu günədək "ASAN xidmət" mərkəzlərinə daxil olan müraciətlərin sayı 25 milyona yaxındır.

Azərbaycan Respublikası Prezidentinin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev kompleks barədə dövlətimizin başçısına və birinci xanıma ətraflı məlumat verdilər. Bildirildi ki, bu kompleks Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 15-ci mərkəzidir. Şəhərin Zərifə Əliyeva küçəsində yerləşən, öz möhtəşəmliyi ilə seçilən kompleksin tikintisinə 2017-ci ildə başlanılıb. İnşaat işləri bu ilin oktyabrında başa çatdırılıb.

Dövlətimizin başçısı Şəki "ASAN Həyat" kompleksini işə saldı.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksdə yaradılan şəraitlə tanış oldular.

Bildirildi ki, bu kompleks Şəki, Qax, Zaqatala, Balakən və Oğuz rayonlarında qeydiyyatda olan ümumilikdə 510 mindən çox vətəndaşa xidmət göstərəcək. Şəki "ASAN Həyat" kompleksində 11 dövlət orqanı - Ədliyyə, Daxili İşlər, Vergilər, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Milli Arxiv İdarəsi və Qida Təhlükəsizliyi Agentliyi, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 300-dən çox xidmət həyata keçiriləcək. Kompleksdə çalışacaq əməkdaşların sayı 190, könüllülərin sayı isə 50 nəfərdir. Şəki "ASAN Həyat" kompleksində "ASAN xidmət" mərkəzi ilə yanaşı, ictimai iaşə obyektlərinin istifadəyə verilməsi də nəzərdə tutulur. Belə ki, vətəndaşlar operativ və gülərüz xidmətlə yanaşı, bu konseptin istirahət və əyləncə imkanlarından da istifadə edə biləcəklər. Kompleks vətəndaş rahatlığı üçün həyat standartlarının yaxşılaşdırılmasına xidmət edən müxtəlif həlləri əhatə edir.

Şəki "ASAN Həyat" kompleksində də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin layihəsi olan "ASAN Peşə" mərkəzi yaradılıb.

Dövlətimizin başçısı və birinci xanım "ASAN Peşə" mərkəzi ilə tanış oldular.

Layihə ixtisaslı kadrların hazırlanmasını və onların əmək bazarının dəyişən tələblərinə uyğun rəqabət qabiliyyətinin artırılmasını təmin etmək məqsədi daşıyır. "ASAN Peşə" mərkəzi bütün növ zəruri avadanlıq, təlim və tədris vəsaitləri ilə təchiz olunub. Mərkəzdə tədris tütünçülük, laboratoriya, bağçılıq, logistika-texnologiya, ipəkçilik və fındıq yetişdirilməsi istiqamətləri üzrə həyata keçiriləcək. Mərkəzdə "ABAD"ın sərgi salonu da fəaliyyət göstərəcək. Burada Uşaq Psixo-Sosial İnkişafı Mərkəzi də yaradılıb.

Kompleksdə kommunal xidmətlərin göstərilməsi üçün ayrıca bölmə var. Həmçinin burada "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən xidmətlər təqdim olunacaq. Qeyd edildi ki, paytaxt Bakıda fəaliyyət göstərən iki "ASAN Kommunal" xidmətində bu günədək 800 mindən çox vətəndaş müraciəti qeydə alınıb.

Prezident İlham Əliyev mərkəzdə innovativ yeniliklərlə tanış oldu.

Bildirildi ki, "E-Gate" xidməti sərhəd-buraxılış məntəqələrində ölkəyə gələn və ölkəni tərk edən şəxslərin sərhəd keçidinin sürətləndirilməsi və prosesin avtomatlaşdırılmasını təmin edir. Vətəndaş xüsusi qurğuya yaxınlaşaraq pasportun məlumatlarını "E-Gate" cihazında oxudur. Sonra qurğu vasitəsilə vətəndaşın şəkli çəkilir, biometrik göstəriciləri – üz tanıma və barmaq izi tanıma texnologiyası vasitəsilə eyniləşdirilir. Məlumatlarda hər hansı problem aşkar edilməzsə, avadanlıq avtomatik olaraq şəxsin keçidinə imkan verir. Əks halda, sərhəd məntəqəsinin əməkdaşına bu barədə bildiriş gedir və məsul əməkdaş dərhal yaxınlaşaraq problemlə tanış olur. Bu cihaz vasitəsilə bir nəfərin sərhəd nəzarətində yoxlanılma prosesi bir neçə saniyə ərzində yekunlaşır.

Digər bir yenilik isə Elektron etibarnamə sistemidir. Bu, vətəndaşlara məxsus daşınar və daşınmaz əmlaka, malik olduğu xidmətlərə dair hüquqların başqasına ötürülməsinə dair etibarnamələrin elektron mühitdə, elektron və mobil imza texnologiyalarından istifadə etməklə tamamilə avtomatlaşdırılmış platformada təqdim edildiyi bir sistemdir.

Dövlətimizin başçısına "ASAN Viza" sistemində yeniliklərin təqdimatı da oldu. Təqdimat "ASAN Viza" sisteminin hava limanlarında tətbiqi ilə bağlı məlumatı özündə əks etdirir. Eyni zamanda, "ASAN Viza" sığortası sistemi ilə bağlı məlumat mövcuddur ki, burada da Azərbaycana gəlmək üçün müraciət edən əcnəbi və vətəndaşlığı olmayan şəxslərin vizadan imtina edilməsi halında ödədiyi rüsumun sığorta şirkəti tərəfindən kompensasiyasını nəzərdə tutur. Bu sistem, eyni zamanda, xarici ölkədə olarkən baş verə biləcək hər hansı maddi itki və vətəndaşın səhhətində yaranan problemin aradan qaldırılmasını və xərclərin sığorta şirkəti tərəfindən ödənilməsini təmin edəcək.

Yeni layihələrdən biri də "E-Qəza" sistemidir. Xüsusi avadanlıq və proqram təminatından ibarət olmaqla avtomobillərdə yerləşdirilən bu sistem qəza zamanı sürücü və qəzanın yeri barədə məlumatların avtomatlaşmış "E-Qəza" mərkəzinə ötürülməsini və lazımi təxirəsalınmaz xidmət əməkdaşlarının qəza yerinə göndərilməsini təmin edir. Sistem vasitəsilə sürücü ilə əks əlaqə yaratmaq və daha ətraflı məlumat əldə etmək imkanı da yaradılacaq.

"ASAN İnkişaf yolu" isə 2013-2018-ci illər ərzində "ASAN xidmət" mərkəzlərinin keçdiyi inkişaf yolu, həyata keçirilən layihələr və statistik nəticələri özündə ehtiva edir. Eyni zamanda, ASAN-ın beynəlxalq uğurları və qazandığı mükafatlar da təqdimatda əhatə olunub.

Məlumat verildi ki, yeni "ASAN xidmət" mərkəzləri fəaliyyətə başlamamışdan öncə mərkəzdə çalışacaq əməkdaşlar müvafiq təlim kursundan keçirlər. Kurslarda onlara müasir idarəetmənin prinsipləri, "ASAN xidmət" dəyərləri, vətəndaş məmnunluğunun əsas şərtləri, nəzakətli və peşəkar xidmətin əsasları barədə məlumatlar verilir. İşləyən müddətdə isə onlar il ərzində bir neçə dəfə təlimlərə cəlb olunurlar. Bunun üçün "ASAN xidmət" mərkəzlərində əməkdaşların işdən ayrılmamaqla təlim və kurslara cəlb olunmaları üçün müvafiq təlim mərkəzləri yaradılır. Növbəti belə mərkəzlərdən biri də Şəki "ASAN xidmət" mərkəzində yaradılıb. Yetmişdən çox iştirakçı üçün nəzərdə tutulan bu mərkəz bütün lazımi təlim şəraiti və avadanlıqla təmin olunub.

Şəki "ASAN Həyat" kompleksində "CoWorking" mərkəzi də fəaliyyət göstərəcək. Mərkəz yeni başlayan bizneslərə – startaplara inkubasiya dövrü üçün nəzərdə tutulan ümumi iş yeridir. Bu modeldən frilanserlər və tək işləyənlər də istifadə edirlər. Ümumilikdə model dayanıqlıdır və iş yerlərini icarəyə verməklə dayanıqlılıq təmin edilir.

"ASAN Həyat" kompleksi üçün ayrılan 2,4 hektar ərazidə uşaq meydançası, fəvvarə və oturacaqlar, istirahət meydançası, avtodayanacaq, yay kafesi və digər rayonlardan gələcək vətəndaşlar üçün avtobus dayanacağı yaradılıb.

Qeyd olundu ki, regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyunundan etibarən təqribən 1 milyon 500 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki "ASAN Həyat" kompleksinin əməkdaşları ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Sabahınız xeyir olsun. Sizi Şəki "ASAN Həyat" Kompleksinin açılışı münasibətilə ürəkdən təbrik edirəm, sizə fəaliyyətinizdə uğurlar arzulayıram. Mən çox şadam ki, Şəki şəhərində belə gözəl Kompleks

yaradılıb və işə başlayıbdır. Burada Şəki gəncləri üçün iş yerləri yaradılıbdır. Sizə 190 iş yeri təqdim edilir. Şadam ki, burada işləyənlərin mütləq əksəriyyəti gənclərdir, o cümlədən qızlardır. Eyni zamanda, mənə verilən məlumata görə, Kompleksdə 50 könüllü fəaliyyət göstərəcək. Beləliklə, vətəndaşlara 240 nəfər ən yüksək səviyyəli xidmət göstərəcək. Çünki "ASAN Həyat" kompleksləri, "ASAN xidmət" mərkəzləri, ümumiyyətlə, dünya miqyasında ən yüksək ictimai xidmət göstərən qurumlardan biridir. Təsadüfi deyil ki, bir neçə il bundan əvvəl BMT ictimai xidmətlər üzrə "ASAN xidmət"ə xüsusi mükafat təqdim etmişdir. Bildiyiniz kimi, bu təcrübə bir neçə ölkədə öyrənilir və "ASAN xidmət" üzrə bir neçə ölkə ilə müvafiq sənədlər imzalanıb. Bu, onu göstərir ki, bu xidmət indi dünya miqyasında böyük maraq doğurur. Bu, bizi çox sevindirir, çünki bu, bizim intellektual məhsulumuzdur. Mən dəfələrlə demişəm ki, "ASAN" Azərbaycanın milli brendidir. Biz öz intellektual məhsulumuzu vətəndaşlara təqdim edirik, eyni zamanda, dünyaya göstəririk ki, Azərbaycan bu sahədə də liderdir.

"ASAN xidmət" mərkəzlərinin yaradılması ölkəmizdə ictimai xidmətlər sahəsində bir inqilab idi. Çünki biz hamımız yaxşı bilirik ki, bu sahə ən çox narazılıq doğuran sahə idi. Bu gün Azərbaycanda fəaliyyət göstərən 15 mərkəzdə, – bu, 15-ci mərkəzdir, – ən yüksək xidmət göstərilir və bu mərkəzlərdə bürokratiya, rüşvətxorluq, korrupsiya, süründürməçilik sıfır səviyyəsindədir. Təsadüfi deyil ki, vətəndaşların "ASAN xidmət" fəaliyyətinə verdiyi qiymət də 100 faiz müsbətdir, bəyənmə əmsalı 100 faizə yaxındır.

Bu ay İmişli "ASAN Həyat" kompleksinin açılışında olarkən, onu işə salarkən lövhədə gördüm ki, 24 milyondan çox müraciət edilib. Ancaq bu gün Şəki kompleksini işə salarkən lövhədə gördüm ki, müraciətlərin sayı artıq 25 milyona yaxınlaşıb. Bu, onu göstərir ki, qısa müddət ərzində çox sayda müraciət olub və biz artıq 25 milyon rəqəminə yaxınıq. Güman edirəm ki, bir neçə gündən sonra biz bu rəqəmə də çatacağıq. Növbəti illərdə, xüsusilə gələn il ən azı 5 mərkəz yaradılacaq. Beləliklə, bölgələrdə "ASAN xidmət" mərkəzlərinin sayı 15-ə çatacaq və Azərbaycan vətəndaşlarına 5-i Bakıda olmaqla 20 mərkəz xidmət göstərəcək.

Bu mərkəzlərin yaradılmasında Azərbaycanın uğurlu siyasəti öz əksini tapır. "ASAN xidmət" mədəni xidmətdir, "ASAN xidmət" ən yüksək səviyyəli innovativ metodları vətəndaşlara təqdim edən mərkəzdir. Korrupsiya, rüşvətxorluqla bağlı apardığımız mübarizə "ASAN xidmət" mərkəzlərində tam bərqərar olub və bu, bütün dövlət qurumları üçün nümunədir, örnəkdir. Mən öz çıxışlarımda dəfələrlə demişəm ki, Azərbaycanda bütün sahələrdə şəffaflıq, dürüstlük "ASAN xidmət" mərkəzlərinin səviyyəsinə qalxmalıdır və biz tədricən bu hədəfə də çatırıq.

"ASAN xidmət"də bizim gənclər siyasətimiz özünü göstərir, çünki "ASAN xidmət" mərkəzlərində işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Gənclər üçün iş yerləri yaradılır. Azərbaycanda könüllülər hərəkatı öz fəaliyyətinə "ASAN xidmət"də start vermişdir. Deyə bilərəm ki, "ASAN xidmət"ə qədər Azərbaycanda könüllülər hərəkatı demək olar mövcud deyildi. Bu sahədə ilk addımı məhz "ASAN xidmət" atmışdır və son illər ərzində ölkəmizdə keçirilmiş Avropa və İslam Oyunlarında minlərlə könüllü öz gözəl xidmətini göstərmişdir. Bu günə qədər bütün "ASAN xidmət" mərkəzlərində minlərlə könüllü təcrübə qazanıb, təlim keçib, vətəndaşlarla təmasda olub və artıq müstəqil həyata tam hazırdır. "ASAN xidmət" kadr hazırlığı baxımından da çox uğurlu təşəbbüsdür və bu xidmətlərdə bu sahədə də apardığımız işlər öz əksini tapır.

"ASAN" son vaxtlar öz fəaliyyət dairəsini genişləndirir. Mən dəfələrlə demişəm, o sahələr ki, bu gün vətəndaşlar tərəfindən bəyənilmir, narazılıq doğurur, o sahələrə "ASAN xidmət"in yanaşması mütləq gətirilməlidir. Təsadüfi deyil ki, mərkəzlərdə göstərilən xidmətlərin sayı da getdikcə artır. Bax, bu mərkəzdə 320 xidmət göstərilir. Biz birinci "ASAN xidmət" mərkəz=lərində təqribən 100, ondan sonra 200 xidmətə çata bilmişik. İndi xidmətlərin sayı çoxalır və getdikcə çoxalacaq. "ASAN xidmət" ölkəmiz üçün çox vacib olan sahəni - özünüməşğulluq sahəsini inkişaf etdirir, "ABAD" mərkəzləri fəaliyyət göstərir. O cümlədən bu gün Şəki şəhərində "ABAD" mərkəzinin açılışı olacaqdır. Ailə-fermer təsərrüfatlarının səmərəli fəaliyyəti üçün "ASAN" mərkəzlərinin xüsusi rolu var. Yəni, bu mərkəzlər demək olar ki, ölkə qarşısında duran vəzifələrin bir çoxunu əhatə edir və nümunə göstərir, yol göstərir, yanaşma göstərir. Təsadüfi deyil ki, vətəndaşlar bu mərkəzləri çox bəyənirlər. Şəki "ASAN Həyat" kompleksində 2 kinoteatr fəaliyyət göstərir. Mən maraqlandım ki, Şəki şəhərində kinoteatr var? Mənə dedilər ki, yoxdur. İndi iki kinoteatr olacaq. Gənclərin, vətəndaşların asudə vaxtlarının səmərəli keçirilməsi üçün "ASAN" mərkəzləri xüsusi rol oynayır, nəinki Şəkidə, "ASAN xidmət"in mövcud olduğu bütün şəhərlərdə. Məhz buna görə mən qarşıya vəzifə qoymuşam ki, biz "ASAN xidmət" mərkəzlərinin sayını getdikcə artırmalıyıq. Bu mərkəz bir neçə rayonun – Şəki, Oğuz, Zaqatala, Qax, Balakən rayonlarının vətəndaşlarına xidmət göstərəcək. Gələcəkdə bu bölgədə yeni mərkəz yaradılacaq ki, vətəndaşlar üçün daha rahat olsun. Bir sözlə, biz "ASAN xidmət" mərkəzlərində öz uğurlu siyasətimizi görürük.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində bütün bölgələrdə çox böyük quruculuq, abadlıq işləri aparılır, o cümlədən Şəki rayonunda. Şəki bizim qədim tarixi şəhərimizdir, nəinki Azərbaycanda, bütün bölgədə öz təbiəti, memarlığı, mətbəxi ilə fərqlənən şəhərdir. Şəkinin tarixi simasını qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur, Azərbaycan dövlətinin borcudur və biz bunu edirik.

Şəki öz qədim tarixi simasını saxlayaraq inkişaf edir, müasirləşir. Şəki rayonunda böyük infrastruktur layihələri icra edilir. Deyə bilərəm ki, son illər ərzində görülən işlər nəticəsində qazlaşdırma 82 faizə çatıbdır. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Şəkidə 87 meqavat gücündə elektrik stansiyası tikilmişdir. İndi biz Şəkinin içməli su layihəsinin icrası ilə məşğuluq. Mən göstəriş vermişəm ki, bu layihənin icrası daha da sürətlə getsin.

Bu gün biz kənd yolu layihəsinin açılışını qeyd etdik. Kompekslə üzbəüz Şəki Rayon Mərkəzi Xəstəxanası yerləşir. Mən o xəstəxananın açılışında şəxsən iştirak etmişəm. Olimpiya Kompleksi, 30-dan çox məktəb tikilib, təmir edilib və bir çox istirahət zonaları, otellər fəaliyyət göstərir. Şəki indi beynəlxalq turizm mərkəzinə çevrilir. Təbii ki, turistləri Şəkiyə cəlb edən bir çox amillər var – Şəkinin tarixi, memarlığı, mətbəxi, Şəki sənətkarlarının əl işləri və şəkililərin qonaqpərvərliyi. Əlbəttə, bütün bu amilləri nəzərə alaraq, biz çalışmalıyıq və çalışacağıq ki, Şəki rayonunu daha da sürətlə inkişaf etdirək, bu günə qədər öz həllini tapmamış bütün məsələləri həll edək.

Şəki-Balakən yolunun təmiri tam başa çatıb. Əvvəlki səfərlərdə mən Şəki-Qax avtomobil yolunun açılışını etmişəm. İndi Bakı-Şəki yolunun tam işə salınması istiqamətində böyük işlər gedir. Hər iki istiqamətdə – həm Yevlax, həm Şamaxı istiqamətində gedən yolların mütləq əksəriyyəti çox gözəl səviyyədədir. Yəni, gələcəkdə Şəkinin sürətli inkişafı üçün əlavə tədbirlər görüləcək. Bu səfər nəticəsində Şəki şəhərində 960 şagird yerlik yeni məktəbin, 48 mənzilli evin tikintisi ilə bağlı sərəncam imzalanacaqdır. Digər layihələr icra ediləcək. Şadam ki, Şəki şəhərində gözəl "ASAN Həyat" kompleksi fəaliyyət göstərir. Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram. Vətəndaşlara yaxşı xidmət göstərin. Sağ olun.

Sonda xatirə şəkli çəkdirildi.

Oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəkiyə səfərləri çərçivəsində "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

"ASAN xidmət"in tabeliyində olan "ABAD" – Ailə Biznesinə Asan Dəstək publik hüquqi şəxs Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı Fərmana əsasən yaradılıb. Əsas məqsədi ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını, kiçik və orta sahibkarlığın inkişafını, əhalinin məşğulluq səviyyəsinin artırılmasını təmin etmək olan "ABAD" rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək verir, sosialyönümlü layihələrin həyata keçirilməsində birbaşa iştirak edir. "ABAD" öz fəaliyyətini regional mərkəzlər vasitəsilə qurur. Masallı, Balakən, Quba rayonlarında artıq belə mərkəzlər fəaliyyətə başlayıb. Dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək verən layihə çərçivəsində "ABAD"çı ailələrinə mürəbbə, cem, ət və süd məhsullarının istehsalı üçün xüsusi konteynerlər verilib. İndiyə qədər dekorativ-tətbiqi sənətlə məşğul olan və qida məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən 300-dən çox ailəyə dəstək göstərilib. Satışları təşkil etmək məqsədilə "ABAD" turistik baxımdan əlverişli regionların və paytaxt Bakının müxtəlif yerlərində etno-butiklər açıb.

Azərbaycan Respublikası Prezidentinin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev məlumat verdilər ki, "ABAD" publik hüquqi şəxsin Şəki Keramika və Tətbiqi Sənət Mərkəzinin binası XIX əsrin axırlarında tikilib və kazarma kimi istifadə olunub. Baxımsız və qəzalı şəraitdə olan həmin bina "Paşa Holdinq"in dəstəyi ilə yenidən qurulub. Mərkəz müasir avadanlıqla təchiz edilib.

Qədim köklərə malik xalqların böyük tarixinin sübutu onun keramikası ilə də müəyyən edilir. Azərbaycanın bütün ərazisi boyu, xüsusilə də Şəki rayonunda aparılan arxeoloji qazıntılar zamanı bir çox keramika nümunələri və qədim odun sobaları üzə çıxarılıb.

Mərkəzlə tanışlıq zamanı bildirildi ki, "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq qoruğu Şəki şəhərinin qədim tarixi hissəsində yerləşir. Qoruğun UNESCO-nun mədəni irs siyahısına salınması yönündə dövlət tərəfindən müvafiq işlər həyata keçirilir. "Xan sarayı" I, IV, V meyarlarla irs siyahısına salınıb. Şəki Keramika və Tətbiqi Sənət Mərkəzinin binası da qoruğun UNESCO-nun müvafiq siyahısına salınacaq ərazisində, Qala divarlarının içərisində yerləşən beş kazarma binasından biridir. Bina 1867-ci ildə tikilmiş tarix-memarlıq abidəsidir. İkimərtəbəli binada işçilər və təlimlərə qoşulacaq şəxslər üçün istirahət otaqları da var. Burada, həmçinin termik soba və təlim otaqları, xammal və hazır məhsul anbarları, etno-butik, ofis və xalçaçılıq otağı yerləşir.

Bir sözlə, mərkəzdə keramika və tətbiqi sənətlə məşğul olanlar üçün hər cür şərait yaradılıb.

Mərkəzin məqsədi ölkəmizin, əsasən də Şəki rayonunun tarixi keramika ənənələrinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi, həmçinin müxtəlif çeşidli Azərbaycan gilinin dünyada tanıdılmasıdır. Bura həm də Qafqazda ilk Keramika Mərkəzi kimi tarixə düşəcək. Gələcəkdə Mərkəzdə tanınmış əcnəbi sənətkarların iştirakı ilə beynəlxalq tədbirlər, həmçinin müasir avadanlıqlardan istifadə etməklə təlimlər təşkil olunacaq. Mərkəzdə keramika sənətindən əlavə, xalçaçılıq və digər sənətkarlıq sahələri üzrə təlimlərin keçirilməsi də nəzərdə tutulur. Bütün bunlardan məqsəd yeni sənətkarların yetişdirilməsidir.

Bildirildi ki, Şəki Keramika və Tətbiqi Sənət Mərkəzində sənətkarların istehsal etdikləri məhsulların satışı da təşkil olunacaq. Ümumilikdə burada 40-dək vətəndaş daimi işlə təmin ediləcək.

Oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəkiyə səfərləri çərçivəsində "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

"ASAN xidmət"in tabeliyində olan "ABAD" - Ailə Biznesinə Asan Dəstək publik hüquqi şəxs Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı Fərmana əsasən yaradılıb. Əsas məqsədi ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını, kiçik və orta sahibkarlığın inkişafını, əhalinin məşğulluq səviyyəsinin artırılmasını təmin etmək olan "ABAD" rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək verir, sosialyönümlü layihələrin həyata keçirilməsində birbaşa iştirak edir. "ABAD" öz fəaliyyətini regional mərkəzlər vasitəsilə qurur. Masallı, Balakən, Quba rayonlarında artıq belə mərkəzlər fəaliyyətə başlayıb. Dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək verən layihə çərçivəsində "ABAD"çı ailələrinə mürəbbə, cem, ət və süd məhsullarının istehsalı üçün xüsusi konteynerlər verilib. İndiyə qədər dekorativ-tətbiqi sənətlə məşğul olan və qida məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən 300-dən çox ailəyə dəstək göstərilib. Satışları təşkil etmək məqsədilə "ABAD" turistik baxımdan əlverişli regionların və paytaxt Bakının müxtəlif yerlərində etno-butiklər açıb.

Azərbaycan Respublikası Prezidentinin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev məlumat verdilər ki, "ABAD" publik hüquqi şəxsin Şəki Keramika və Tətbiqi Sənət Mərkəzinin binası XIX əsrin axırlarında tikilib və kazarma kimi istifadə olunub. Baxımsız və qəzalı şəraitdə olan həmin bina "Paşa Holdinq"in dəstəyi ilə yenidən qurulub. Mərkəz müasir avadanlıqla təchiz edilib.

Qədim köklərə malik xalqların böyük tarixinin sübutu onun keramikası ilə də müəyyən edilir. Azərbaycanın bütün ərazisi boyu, xüsusilə də Şəki rayonunda aparılan arxeoloji qazıntılar zamanı bir çox keramika nümunələri və qədim odun sobaları üzə çıxarılıb.

Mərkəzlə tanışlıq zamanı bildirildi ki, "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq qoruğu Şəki şəhərinin qədim tarixi hissəsində yerləşir. Qoruğun UNESCO-nun mədəni irs siyahısına salınması yönündə dövlət tərəfindən müvafiq işlər həyata keçirilir. "Xan sarayı" I, IV, V meyarlarla irs siyahısına salınıb. Şəki Keramika və Tətbiqi Sənət Mərkəzinin binası da qoruğun UNESCO-nun müvafiq siyahısına salınacaq ərazisində, Qala divarlarının içərisində yerləşən beş kazarma binasından biridir. Bina 1867-ci ildə tikilmiş tarix-memarlıq abidəsidir. İkimərtəbəli binada işçilər və təlimlərə qoşulacaq şəxslər üçün istirahət otaqları da var. Burada, həmçinin termik soba və təlim otaqları, xammal və hazır məhsul anbarları, etno-butik, ofis və xalçaçılıq otağı yerləşir.

Bir sözlə, mərkəzdə keramika və tətbiqi sənətlə məşğul olanlar üçün hər cür şərait yaradılıb.

Mərkəzin məqsədi ölkəmizin, əsasən də Şəki rayonunun tarixi keramika ənənələrinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi, həmçinin müxtəlif çeşidli Azərbaycan gilinin dünyada tanıdılmasıdır. Bura həm də Qafqazda ilk Keramika Mərkəzi kimi tarixə düşəcək. Gələcəkdə Mərkəzdə tanınmış əcnəbi sənətkarların iştirakı ilə beynəlxalq tədbirlər, həmçinin müasir avadanlıqlardan istifadə etməklə təlimlər təşkil olunacaq. Mərkəzdə keramika sənətindən əlavə, xalçaçılıq və digər sənətkarlıq sahələri üzrə təlimlərin keçirilməsi də nəzərdə tutulur. Bütün bunlardan məqsəd yeni sənətkarların yetişdirilməsidir.

Bildirildi ki, Şəki Keramika və Tətbiqi Sənət Mərkəzində sənətkarların istehsal etdikləri məhsulların satışı da təşkil olunacaq. Ümumilikdə burada 40-dək vətəndaş daimi işlə təmin ediləcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şəki şəhərində qarışıq tipli uşaq evi üçün inşa olunan yeni binanın açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım uşaq evinin rəmzi açılışını bildirən lenti kəsdilər.

Son illər ölkəmizdə həyata keçirilən tədbirlər sırasında körpələrə və kimsəsiz uşaqlara göstərilən yüksək qayğı böyük rəğbətlə qarşılanır. Prezident İlham Əliyevin sərəncamlarına əsasən Azərbaycanda bu sahədə dövlət səviyyəsində proqramlar, layihələr hazırlanaraq həyata keçirilir. Bu vacib tədbirlər ölkəmizdə ana və uşaqların sağlamlığının qorunmasına, uşaq müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına, bilikli, savadlı, geniş dünyagörüşünə malik gənc nəslin yetişdirilməsinə yönəldilib. Dövlət səviyyəsində həyata keçirilən belə tədbirlərin nəticəsidir ki, son dövrlərdə uşaq müəssisələri əsaslı şəkildə yenidən qurulub, regionlarda müasir tələblərə cavab verən uşaq bağçaları və məktəblər tikilib.

Uşaqlara, xüsusilə, xəstə və kimsəsizlərə diqqət və qayğı Heydər Əliyev Fondunun da fəaliyyətinin prioritet istiqamətlərindən biridir. Təhsil və uşaq müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi, uşaq evlərində böyüyənlərin gələcəyi, sağlamlıq imkanları məhdud və kimsəsiz uşaqların sağlamlıqlarının qorunması ilə bağlı Fond tərəfindən həyata keçirilən tədbirlərin çox böyük əhəmiyyəti var.

Məlumat verildi ki, Şəki şəhər qarışıq tipli uşaq evinin Gənclər küçəsində yerləşən əvvəlki binası 1897-ci ildə şəkili tacir Hacı Zülqədər Zülfüqarov tərəfindən şəxsi yaşayış evi kimi inşa olunub və 1930-cu ilədək bu məqsədlə istifadə edilib. 1930-cu ildən həmin binada Şəki şəhər qarışıq tipli uşaq evi fəaliyyət göstərirdi. Uşaq evinin yerləşdiyi bina qəzalı vəziyyətdə olduğundan və mövcud infrastruktur rahat məskunlaşmaya imkan vermədiyindən burada uşaqlara lazımi səviyyədə xidmət göstərmək mümkün deyildi. 2017-ci ildə Heydər Əliyev Fondunun nümayəndələri Şəki qarışıq tipli uşaq evinin binasının mövcud şəraiti ilə tanış olublar. Uşaq evində məskunlaşan uşaqların yaşayış şəraitinin, təlim-tərbiyə və asudə vaxtlarının təşkilinin yaxşılaşdırılması məqsədi ilə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən yeni binanın inşasına başlanılıb. Şəki şəhərində uşaq evinin binası üçün ayrılan bir hektar ərazidə ümumi sahəsi 2 min kvadratmetrdən çox olan ikimərtəbəli bina inşa edilib.

Binanın layihələndirilməsi zamanı uşaq evində məskunlaşacaq uşaqların təlim-tərbiyəsi, asudə vaxtlarının səmərəli təşkili baxımından infrastrukturun qurulması əsas götürülüb. Eyni zamanda, tikinti prosesində Şəki şəhərinin memarlıq üslubunun qorunub saxlanılmasına diqqət yetirilib. Belə ki, binanın fasadı və hasar Şəki şəhərinin memarlıq üslubuna uyğun olaraq üzlük daşlarla üzlənib.

Bildirildi ki, uşaq evi bütün yaş qrupları üzrə 80 yerlikdir. Şəki rayonu ilə yanaşı, ətraf bölgələri də əhatə edən uşaq evində hazırda valideyn himayəsindən məhrum olan 3 yaşdan 20 yaşadək 60 nəfər məskunlaşıb. Binada oğlanlar və qızlar üçün ayrı bölmələrdə yerləşən, zəruri inventar və avadanlıqla təchiz edilən 2, 3 və 4 nəfərlik yataq otaqları, dayə otaqları, kitabxana, kompüter otaqları, musiqi otağı, emalatxana, idman zalı, həkim və tibb bacısı otaqları, uşaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət otağı, mətbəx, yeməkxana və camaşırxana var. Burada, eyni zamanda, məktəbəqədər yaş qrupları üçün 20 yerlik uşaq bağçası da fəaliyyət göstərir.

Şəki qarışıq tipli uşaq evinin də yeni binasının Heydər Əliyev Fondu tərəfindən müasir səviyyədə inşa olunması bir daha sübut edir ki, Fond bu istiqamətdə dövlətin icra etdiyi layihələrə sanballı töhfələr verir. Bu layihənin icrası aydın şəkildə göstərir ki, humanizm, insani dəyərlərə hörmət, dinindən, dilindən, cinsindən, yaşından asılı olmayaraq hər kəsə diqqət göstərmək Heydər Əliyev Fondunun fəaliyyətində əsas prinsiplərdən biridir.

Uşaq evinin ərazisində açıq havada min kvadratmetr sahəsi olan idman meydançası qurulub. O cümlədən uşaqların açıq havada istirahətini təmin etmək məqsədilə kölgəliklər və kiçik yaşlı uşaqlar üçün oyun meydançası yaradılıb. Ərazidə yaşıllıq zonası salınıb, müxtəlif meyvə ağacları və digər ağaclar əkilib. Binanın yerləşdiyi ətraf ərazi abadlaşdırılaraq asfalt və daş döşənib, işıqlandırma sistemi quraşdırılıb. Binada inzibati-təsərrüfat tələblərini ödəyən zirzəmi inşa olunub, daimi su, istilik və soyutma sistemi, generator, stabilizator, eləcə də yanğınxəbərverici və videomüşahidə sistemləri qurulub. Heydər Əliyev Fondu tərəfindən uşaq evinə müvafiq avadanlıq və avtobus hədiyyə edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəki şəhərinə səfəri oktyabrın 29-da başa çatdı.

### *Ağdam rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 5-də Ağdam rayonuna səfərə gəliblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin Ağdam rayonunun Quzanlı qəsəbəsinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov rayonda görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunda əsaslı şəkildə yenidən qurulan Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər haqqında dövlətimizin başçısına məlumat verdi.

Bu yol Prezident İlham Əliyevin 2017-ci ildə imzaladığı Sərəncama əsasən inşa edilib. Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolu 29 min nəfərin yaşadığı 14 yaşayış məntəqəsini birləşdirir. Ümumi uzunluğu 25,3 kilometr olan yolun hərəkət hissəsinin eni 6 metrdir. Yol iki hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə aiddir. İnşaat işləri çərçivəsində yol nişanları və göstərici lövhələr quraşdırılıb, cizgi xətləri çəkilib, avtobus dayanacaqları tikilib. Bu layihənin icrası yolboyu yerləşən yaşayış məntəqələrində yük və sərnişin daşınmasının yaxşılaşmasına imkan verəcək. Ağdamda 14 cəbhəyanı yaşayış məntəqəsini birləşdirən yolun yenidən qurulması ilə bağlı layihənin icrası həm də onu sübut edir ki, təmas xəttində yerləşən kəndlərimizin sosial-iqtisadi inkişafı daim dövlətimizin diqqət mərkəzindədir.

Prezident İlham Əliyevə yenidən qurulan, uzunluğu 5,4 kilometr olan Əfətli-Hacıturalı-Həsənxanlı avtomobil yolu barədə də məlumat verildi.

Bildirildi ki, uzun müddət istismar olunmasına baxmayaraq, yolun əsaslı şəkildə təmir edilməməsi torpaq yatağının deformasiyaya uğramasına səbəb olmuş, hərəkət hissəsində qabarmalar, çalalar əmələ gəlmişdi. Aparılan yenidənqurma işləri nəticəsində bu problemlər

tamamilə aradan qaldırılıb. Dördüncü texniki dərəcəyə aid və iki hərəkət zolaqlı yolun hərəkət hissəsi 6 metrdir. Tikinti işləri zamanı yolun altından suların ötürülməsi üçün mövcud suötürücü borular bərpa olunub, zəruri yerlərdə yeniləri qurulub. Yolboyu avtobus dayanacaqları qoyulub, nişanlar quraşdırılıb. Yeni yol 5 yaşayış məntəqəsinin 7 minə yaxın sakininə mənzil başına rahat və təhlükəsiz çatmağa imkan verəcək.

Dövlətimizin başçısına Tərtər-Hindarx avtomobil yolunun 18-41-ci kilometrlik hissəsi və Ağdam-Hindarx-Ağcabədi avtomobil yolunun 23-37-ci kilometrlik hissəsində görülən yenidənqurma işləri barədə də məlumat verildi.

Bildirildi ki, uzun illər təmir olunmadan istismar edildiyindən, həmçinin təbii amillərin təsirindən həmin avtomobil yollarının 37 kilometrlik hissələrində asfalt-beton örtüyündə aşınmalar, çatlar və bəzi hissələrdə çökmələr əmələ gəlmişdi. Tərtər-Hindarx və Ağdam-Hindarx-Ağcabədi avtomobil yolları 3-cü texniki dərəcəyə uyğun yüksək səviyyədə yenidən qurulub. Respublika əhəmiyyətli yolların bəzi hissələrində torpaq yatağı təbii relyeflə eyni səviyyədə olduğundan dağılmalar və çökmələr əmələ gəlmişdi. Bu səbəbdən yenidənqurma işləri zamanı torpaq yatağının qaldırılması işləri də görülüb. Respublika əhəmiyyətli Tərtər-Hindarx və Ağdam-Hindarx-Ağcabədi avtomobil yollarının 37 kilometrlik hissəsinin yenidən qurulması ilə yolboyu nəqliyyat əlaqəsi xeyli rahatlaşacaq, vətəndaşların Tərtər, Hindarx, Ağcabədi istiqamətinə gedişgəlişi asanlaşacaq, yetişdirilən kənd təsərrüfatı məhsullarının bazarlara vaxtında çatdırılmasına imkan yaranacaq.

Məlumat verildi ki, bu bölgədə icra olunan yol layihələrindən biri də Ağcabədi rayonunda Hacıbədəlli-Pərioğulları-Təzəkənd yolunun əsaslı şəkildə yenidən qurulmasıdır. Uzunluğu 18 kilometr olan yol respublika əhəmiyyətli Ağdam-Hindarx-Ağcabədi və Mingəçevir-Bəhrəmtəpə yolları ilə birləşir. Yolun əsaslı şəkildə bərpası yolboyu yerləşən üç yaşayış məntəqəsində 8 min nəfər əhalinin sosial rifah halına olduqca müsbət təsir edəcək. Layihəyə uyğun olaraq, bu yol 5-ci texniki dərəcədən 4-cü texniki dərəcəyə uyğun təkmilləşdirilib.

Dövlətimizin başçısı Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım Ağdam Muğam Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdilər.

Qədim və zəngin mədəniyyətimizin vizit kartı muğam, eyni zamanda, xalqımızın malik olduğu milli mədəniyyətin koloriti, hər birimizin mənəvi və ruhi qidasıdır. Bütün azərbaycanlıların həyat hekayətinə çevrilən muğamın təbliğinə son illərdə istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda dövlət səviyyəsində yüksək diqqət göstərilir. Muğamın yaşaması, dünyada layiqincə təbliği və gələcək nəsillərə ötürülməsi baxımından son dövrlərdə yaradılan Muğam mərkəzlərinin müstəsna əhəmiyyəti var. Bu məsələdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Ağdam rayonunda yaradılan Muğam Mərkəzi də böyük rol oynayır. 2008-ci ildə Bakıda və Ağcabədidə, 2010-cu ildə Füzulidə inşa olunan Muğam mərkəzləri ölkəmizdə muğamın inkişafına mühüm töhfələr verib.

Bəşəriyyətin şifahi və mənəvi irsinin incilərindən olan muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən son illərdə görülən sanballı işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da tarixi töhfələr verir. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, 2003-cü ildə UNESCO həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf etdi. Muğam UNESCO-nun “Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri” siyahısına salınıb. Ötən illərdə Heydər Əliyev Fondu ilə Azərbaycan Televiziyasının birgə layihəsi əsasında “Muğam televiziya müsabiqələri”nin keçirilməsi bu əvəzsiz sənət nümunəsinin yaşadılması, xalqımızın qədim yaddaşından gələn muğamlarımızın qorunması istiqamətində mühüm hadisələr kimi tarixə düşüb.

Layihəni icra etmiş “Azəraqrartikinti” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri Ağalar Vəliyev dövlətimizin başçısına və birinci xanıma məlumat verdi ki, Ağdam Muğam Mərkəzinin inşasına 2016-cı ilin oktyabrında başlanılıb. İnşaat işləri bu ilin sentyabrında başa çatdırılıb. Muğam Mərkəzinin ərazisi 7782 kvadratmetr, tikintialtı sahəsi isə 1800 kvadratmetrdir. İkimərtəbəli bina yüksək zövqlə müasir səviyyədə inşa olunub. Burada qrim, gözləmə, texniki, inzibati, yardımçı və digər otaqlar yaradılıb. Mərkəzdə musiqi alətlərinin təmiri emalatxanası da fəaliyyət göstərəcək. Bu mərkəzin konsert zalı da müasirliyi ilə seçilir. Buradakı 328 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam gecələri keçirmək üçün hərtərəfli şərait var. Mərkəzdəki sinif otaqlarında muğamın sirlərinə yiyələnmək üçün bütün imkanlar mövcuddur.

Qeyd edildi ki, Ağdam Muğam Mərkəzi konsert müəssisəsi qismində fəaliyyət göstərəcək.

Ağdam Muğam Mərkəzinin yerləşdiyi ərazi abadlaşdırılıb, 0,6 hektar sahədə istirahət parkı yaradılıb, yaşıllıq zolağı salınıb, gül kolları əkilib, işıqlandırma sistemi quraşdırılıb.

Muğam Mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayon ictimaiyyətinin nümayəndələri və Ağdam rayonundan olan incəsənət xadimləri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Əziz dostlar, bu gün Ağdam rayonunun tarixində çox əlamətdar bir gündür. Biz Ağdam Muğam Mərkəzinin açılışını qeyd edirik. Bu münasibətlə sizi və bütün Ağdam sakinlərini ürəkdən təbrik edirəm.

Bu gözəl, möhtəşəm bina bir daha onu göstərir ki, Azərbaycan xalqı və dövləti öz milli sənəti olan muğama çox böyük sevgi ilə yanaşır. Bina həm xarici görünüşü və memarlıq baxımından çox gözəldir, həm də daxili tərtibat da göz oxşayır. Dərs otaqları, eyni zamanda, gözəl konsert salonu ən yüksək standartlara cavab verir. Bu Muğam Mərkəzində həm məşhur ifaçılarımız öz məharətlərini göstərəcəklər, həm də gənclər muğam sənətinə cəlb ediləcəklər. Bir sözlə, bu mərkəzin çox böyük əhəmiyyəti, çox böyük mənası var. Mən şadam ki, bu mərkəzin açılışında bizim görkəmli muğam ifaçıları, incəsənət xadimləri, Ağdam rayonunun ziyalıları, nümayəndələri iştirak edirlər.

Bu mərkəzin yaradılması Heydər Əliyev Fondunun təşəbbüsü ilə mümkün olmuşdur və mən bu təşəbbüsü yüksək qiymətləndirirəm. Ölkəmizdə bir neçə muğam mərkəzi fəaliyyət göstərir. Biz, ilk növbədə, Bakı Beynəlxalq Muğam Mərkəzinin yaradılmasını təmin etdik. Şəhərimizin ən gözəl yerində – bulvarda yerləşən mərkəz həm memarlıq, həm də bütün başqa keyfiyyətlər baxımından ən yüksək səviyyədədir. Ondan sonra Füzuli, Ağcabədi rayonlarında muğam mərkəzləri yaradılmışdır və bu gün biz Ağdam rayonunda mərkəzin açılışını qeyd edirik.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın muğama göstərdiyi diqqət hesab edirəm ki, bütün cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Biz son illərdə muğamın demək olar ki, dirçəlməsini görürük. Biz əsrlər boyu bu gözəl milli sənətimizi yaşatmışıq, inkişaf etdirmişik, ancaq son illərdə muğamın Azərbaycanda inkişafına çox böyük təkan verildi. Ənənəvi muğam müsabiqələri keçirilir və Azərbaycan televiziyası ilə canlı yayımlanır. Bu müsabiqələrin çox böyük əhəmiyyəti var. Həm gənc nəsil yetişir, həm gənc istedadlar gələcəyə yol tapırlar, həm də muğamın nə qədər gözəl sənət olduğunu bütün Azərbaycan vətəndaşları görür, peyk vasitəsilə dünya da görür. Doğrudan da ənənəvi muğam müsabiqələri çox əhəmiyyətli hadisəyə çevrilmişdir. Həmçinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizdə ənənəvi olaraq beynəlxalq muğam festivalları da keçirilir. Bu təşəbbüsün də çox böyük əhəmiyyəti var. Çünki biz bu festivalların keçirilməsi ilə bir daha göstəririk ki, muğam milli sənətimizdir və muğamın bu gün dünyada yaşaması böyük dərəcədə Azərbaycan xalqının zəhməti, istedadı hesabına mümkündür. Biz haqlı olaraq hesab edirik ki, muğamın vətəni Azərbaycandır və beynəlxalq festivalların keçirilməsi, əlbəttə, bu tezisi daha da möhkəmləndirir.

Mehriban Əliyeva UNESCO-nun xoşməramlı səfiridir və Azərbaycan muğamını səfir kimi UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil etdirmişdir. Bu da tarixi hadisədir, hesab edirəm ki, sözün əsl mənasında, tarixi hadisədir. Çünki bu addım həm dünya miqyasında muğama göstərilən böyük diqqətin, verilən əhəmiyyətin təzahürü idi, eyni zamanda, UNESCO muğamı Azərbaycan sənəti kimi qəbul edib. Heydər Əliyev Fondunun təşəbbüsü ilə bir çox mədəni tədbirlər, təqdimatlar, sərgilər keçirilmişdir, görkəmli ifaçılarımızın diskləri, kitabları, albomları buraxılıb. Yəni, çox böyük bir iş aparılıb. Bu gün açılışına toplaşdığımız Ağdam Muğam Mərkəzinin yaradılması bu böyük işlərin tərkib hissəsidir.

Bir daha demək istəyirəm ki, muğam bizim milli sənətimizdir, milli sərvətimizdir. Bu gün burada toplaşan incəsənət xadimləri bu gözəl sənəti yaşadan insanlardır. Bizim mənəvi dəyərlərimizin, Azərbaycan dəyərlərinin inkişafı, qorunması üçün ədəbiyyatımızın, musiqimizin çox böyük əhəmiyyəti var. Muğam həm ədəbiyyatdır, həm musiqidir, həm də Azərbaycan dilinin saflığını qoruyan sənətdir. Mən bu yaxınlarda Azərbaycan dilinin saflığının qorunması ilə bağlı Fərman imzalamışam. Buna ehtiyac var, mən bu məsələ ilə bağlı bir neçə dəfə öz fikirlərimi bildirmişəm. Bizim çox zəngin dilimiz var və Azərbaycan ədəbiyyatı bunu təsdiqləyir. Ancaq indi dünyada gedən qloballaşma prosesləri, digər proseslər istər-istəməz dilimizə də təsir edir, biz dilimizi xarici təsirdən qorumalıyıq. Bizim dilimizə lüzumsuz xarici kəlmələr lazım deyil. Bizim dilimiz o qədər zəngindir ki, istənilən fikri, istənilən məsələni ifadə etmək mümkündür. Ancaq biz görürük ki, bəzi hallarda həm kütləvi informasiya vasitələrində, həm digər sahələrdə dilimizə yad kəlmələr daxil edilir. Bunlar dilimizi zənginləşdirmir, əksinə, bəzən mövcud sözlər yeni sözlərlə əvəzlənir və mən bunun qəti əleyhinəyəm. Bu gün bu fürsətdən istifadə edərək, bir daha bildirmək istəyirəm ki, hamımız öz dilimizi qorumalıyıq. Əlbəttə, bizim incəsənətimizin ənənəvi növləri, o cümlədən muğam sənəti bu sahədə xüsusi rol oynayır.

Mən qeyd etdim ki, bizim incəsənətimiz, ədəbiyyatımız milli ruhumuzu daha da yüksək səviyyəyə qaldırır. Biz elə etməliyik ki, gənc nəsil də milli ruhda tərbiyə alsın, vətənpərvərlik ruhunda böyüsün və gələcəkdə ölkəmizi ləyaqətlə idarə edə bilsin. İki il bundan əvvəl Azərbaycan xalqı bir daha öz yüksək mənəvi ruhunu nümayiş etdirib. Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük tarixi qələbəmizdir. Mənfur qonşular bizim kəndlərimizi atəşə tutmuşdu. Bu qeyri-insani hücum nəticəsində dinc vətəndaşlar həlak olmuş, yüzlərlə evə ziyan dəymiş, bizim kəndlərimiz, yaşayış məntəqələrimiz atəşə tutulmuşdu. Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatı keçirərək düşmən mövqelərini məhv etdi, düşməni öz yerinə oturtdu və işğal altında olan torpaqların bir hissəsini işğalçılardan azad etdi. Füzuli, Cəbrayıl, Ağdərə rayonlarında işğal altında olan minlərlə hektar torpaq azad edildi. İndi biz on minlərlə

hektar torpağa tam nəzarət edirik. Aprel döyüşləri bizim böyük qələbəmizdir. Bu qələbə onu göstərir ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq.

Ağdam rayonunda da dağıntılara məruz qalmış 600-dən çox ev qısa müddət ərzində bərpa edildi, yenidən tikildi. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti güclü dövlətdir. Döyüşlərdən sonra biz Mehriban xanımla birlikdə Ağdamda olduq, dağılmış evlərin sahibləri ilə görüşdük. O vaxt mən söz verdim ki, bütün evlər qısa müddət ərzində bərpa ediləcək, belə də oldu. 2016-cı ilin sonunda biz növbəti dəfə Ağdama gələrək artıq tikilmiş, bərpa olunmuş evlərin açılışında iştirak etdik. Bir neçə gün bundan əvvəl buraya səfərə hazırlaşarkən mənə məruzə edildi ki, təmas xəttinə yaxın olan 19 kənddə hələ də təmirsiz 121 ev var. Bu evlərin yenidən tikilməsi, bərpası ilə bağlı müvafiq Sərəncam veriləcəkdir.

Aprel döyüşləri bizim barışmaz ruhumuzun təzahürüdür. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq. Aprel döyüşləri onu göstərdi ki, Ermənistan tərəfindən uzun illər ərzində yaradılan mif darmadağın edildi, onu göstərdi ki, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir, buna hazırdır və biz bunu sübut etdik. Ermənistanın acı hərbi məğlubiyyəti onun möhkəm olmayan sütunlarını tam sıradan çıxardı. Bu ilin yazında Ermənistanda baş vermiş hadisələr bunun bariz nümunəsidir. Məhz 2016-cı ilin aprel ayında Ermənistanın işğalçı rejiminə çox böyük zərbə vuruldu və onlar öz işğalçılıq siyasətinin qurbanına çevrildilər. Mən dəfələrlə demişdim ki, Ermənistanı idarə edən kriminal xunta rejimi bütün dünya birliyi tərəfindən qınaq obyektinə çevrilməlidir. Mən demişdim ki, Ermənistanı idarə edən insanlar kriminal xunta rejiminin başçılarıdır. İndi bunu erməni xalqı deyir. Biz demişdik ki, onların generalları oğrudur. Biz demişdik ki, onların qəhrəmanları cinayətkardır, qorxaqdır, indi bunu erməni xalqı deyir. Yəni, biz dediyimizi indi erməni xalqı deyir və görür. Ermənistanda bu il baş vermiş dəyişikliklər onların işğalçılıq siyasətinin tam iflası deməkdir, bu, bir. İkincisi, bu hadisələr onu göstərir ki, bizim apardığımız siyasət öz nəticəsini verir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, – bunu heç gizlətməyə də ehtiyac yoxdur, - biz bundan sonra da Ermənistanı bütün regional layihələrdən təcrid edəcəyik, bütün vasitələrdən istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Ermənistanın yeni rəhbərliyi əvvəlki kriminal rejimin səhvlərini təkrarlamamalıdır, işğal edilmiş torpaqlardan öz işğalçı qüvvələrini tezliklə danışıqlar yolu ilə çıxarmalıdır və imkan verməlidir ki, Azərbaycan vətəndaşları öz doğma, tarixi, əzəli torpağına qayıtsınlar. Bunu nə qədər tez anlasalar, o qədər də onlar üçün yaxşı olar, bölgə üçün yaxşı olar. Bir daha demək istəyirəm ki, biz bu vəziyyətlə barışmaq fikrində deyilik, beynəlxalq hüququn normaları bizim mövqeyimizi tam dəstəkləyir, tarixi ədalət bizim tərəfimizdədir.

Biz hamımız yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, əsrlər boyu belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr, xaos nəticəsində Ermənistan xarici dəstəklə bizim torpaqlarımızın bir hissəsini işğal edib. Ancaq iki il bundan əvvəl biz nümayiş etdirdik ki, torpaqlarımızı hərbi yolla azad edə bilərik və etdik də. Bu il Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan istiqamətində apardığımız uğurlu əməliyyat nəticəsində on min hektardan çox ərazi, o cümlədən strateji əhəmiyyət daşıyan yüksəkliklər bizim nəzarətimizə keçdi. Biz indi strateji kommunikasiyalara, yollara, o cümlədən Ermənistan ərazisindəki yollara, Dağlıq Qarabağa gedən kommunikasiyalara tam nəzarət edirik.

Yəni, bütün bu amillər onu göstərir ki, bizim iradəmiz də, gücümüz də var. Bu gün Azərbaycan hərbi baxımdan nəinki Ermənistanla müqayisədə, dünya miqyasında güclü dövlətlər sırasındadır. Biz hərbi qüdrətimizi bundan sonra da artıracağıq və hesab edirəm ki, bu, danışıqlar üçün ən vacib amillərdən biridir. Çünki, əfsuslar olsun, beynəlxalq hüququn normaları tamamilə kənara qoyulur. Biz istədiyimizə nail olacağıq. Biz ədalət tələb edirik. Biz tələb edirik ki, tarixi torpaqlarımız işğalçılardan azad edilsin və ediləcəkdir. Azərbaycan dövləti bu müqəddəs məqsədə çatmaq üçün bundan sonra da bütün lazımi tədbirləri görəcək. Ümid edirəm ki, Ermənistan rəhbərliyi bölgədə yaranmış vəziyyəti düzgün təhlil edərək, öz işğalçı qüvvələrini tezliklə bizim torpaqlarımızdan geri çağıracaqdır. Əks təqdirdə, istənilən variant mümkündür və biz istənilən varianta hazırıq.

Biz son illər ərzində Ağdam rayonunun inkişafına da böyük diqqət göstərmişik. Rayonun infrastrukturunun yenilənməsi, yaradılması istiqamətində böyük işlər görülüb. Bu gün biz gözəl Muğam Mərkəzinin açılışını qeyd edirik. Eyni zamanda, bu gün Ağdam rayonunda xalça fabrikinin açılışı gözlənilir, iki yol layihəsinin açılışını qeyd etdik. Bu yolların uzunluğu 66 kilometrdir. Ümumiyyətlə, deyə bilərəm ki, Ağdam rayonunun yol infrastrukturu təxminən 95 faiz təzələnib, yeni yollar salınıb. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Ağdam rayonunda qazlaşdırmanın səviyyəsi 98 faizdir. İçməli su və suvarma suyu ilə bağlı problemləri həll etmək üçün mən 2016-cı ildə 30 subartezian quyusunun qazılması haqqında Sərəncam imzalamışam. Növbəti Sərəncam imzalanacaq və əlavə 35 subartezian quyusunun qazılması, eyni zamanda, yeni məktəbin tikintisi təmin ediləcəkdir. Əvvəlki illərdə Ağdam rayonunda xəstəxana, doğum evi, uşaq xəstəxanası, Olimpiya İdman Kompleksi tikilib. Ağdam rayonu ərazisində 18 yeni köçkün qəsəbəsi salınıb. Mənə verilən son məlumata görə, Ağdam rayonunda hazırda 93 min insan yaşayır. Onların bir hissəsi hələ ki, öz doğma kəndlərində yaşamırlar, çünki kəndləri işğal altındadır, amma yenə də Ağdam rayonunun ərazisində

yaşayırlar. Gün gələcək, onlar öz doğma kəndlərinə qayıdacaqlar, gün gələcək belə gözəl, möhtəşəm muğam mərkəzi Ağdam şəhərində yaradılacaqdır.

Mən sizi bir daha salamlayıram və bu mərkəzin açılışı münasibətilə təbrik edirəm.

Ağdamda Muğam Mərkəzinin istifadəyə verilməsinə göstərdikləri dəstəyə görə Prezident İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirən Xalq artisti Arif Babayev dedi:

– Cənab Prezident, icazənizlə, mən də bir neçə kəlmə söyləmək istərdim. Xalqımızın sevimli oğlu Prezidentimiz, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım, Sizin Ağdama gəlişiniz toy-bayramdır. Belə bir möhtəşəm binanın tikilməsi və istifadəyə verilməsi tarixi bir işdir. İndi belə gözəl binalara, saraylara bütün rayonlarımızda rast gəlmək olar. Mənim xeyli yaşım var, biz heç vaxt indiki qədər inkişaf görməmişdik. Biz əvvəllər qastrol səfərlərində olarkən otellərdə yata bilmirdik. Allaha şükür, indi haraya gedirsən gözəl otellər, idman meydançaları, istirahət zonaları var. Sizin bu işləriniz tarixə yazılır.

Hörmətli Mehriban xanım haqqında da bir neçə kəlmə demək istəyirəm. Çünki mənim bu fikirlərim birbaşa bizim muğamımıza bağlıdır. Bizim muğamımızı, milli musiqimizi dünya səviyyəsinə məhz Mehriban xanım yüksəldib. Bu, əvəzolunmaz bir işdir. Muğam müsabiqələrinin keçirilməsi gənclərimizin öz sənətlərini dünya miqyasında göstərməsinə imkan verir. Bizim muğamımız var idi, amma bu dərəcədə, bu yüksəklikdə, bu hörmətdə deyildi. Ona görə biz Mehriban xanıma “Çox sağ olun!” deyirik.

Hörmətli Prezident, Sizin hər gəlişiniz bayramdır, hər gəlişiniz bir tarixdir. Özünüzlə bir tarix gətirirsiniz, çünki bu işlərin göstərişini Siz vermisiniz. İndi hər yerə gözəl asfalt yollarla gedirik. Vaxtilə belə şeylər mümkün deyildi. Allah Sizə cansağlığı versin. Biz sənət adamlarına, muğamımıza olan diqqət və qayğısına görə Mehriban xanıma ürəkdən minnətdarıq.

Cənab Prezident, Siz muğamla bağlı çox böyük işlər görmüsünüz və görürsünüz. Xalqımızın mədəni sərvətlərini dünyaya tanıtmaq çox böyük işdir, böyük bir tarixdir. Bizim 10 milyonluq xalqımız var. Bu balaca Azərbaycanı dünya səviyyəsində ən görkəmli, ən gözəl yerlərdən birinə qaldırmısınız. Cənab Prezident, Mehriban xanım, Allah Sizi qorusun. Səmimi sözlərimdir, hərdən düşünürəm ki, bizim əziz Prezident, hörmətli Mehriban xanım sanki dincəlmirlər, hər gün bir rayonda, bir ölkədə səfərdədirlər. Allah Sizə cansağlığı versin. Biz də etimadınızı doğrultmağa çalışacağıq. Var olun, sağ olun.

Xalq artisti Mənsum İbrahimov dedi:

– Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım. Biz Sizi Qarabağın bu gözəl guşəsində salamlayırıq, xoş gəlmisiniz. Dövlətimizin muğamımıza diqqət və qayğısını hər zaman hiss etmişik. Əlbəttə, bu ənənənin təməlini bizim ümummilli liderimiz Heydər Əliyev qoymuşdur. Bu ənənə bu gün çox layiqincə davam etdirilir. Heydər Əliyev Fondu yaranan gündən bizim muğamımızın yeni inkişaf dövrü başlayıb. Keçirilən muğam televiziya müsabiqələri, beynəlxalq muğam müsabiqələri nəticəsində bizim onlarla gənc muğam ifaçısı sənətimizə gəlib. Artıq onların fəxri adları var. Onlar artıq fəaliyyət göstərirlər. Heç bir dövrdə bizim sənətimizə bu qədər gənc ifaçı gəlməyib. Bu, çox böyük bir rəqəmdir. Biz hər dəfə müsabiqədən əvvəl hörmətli Mehriban xanımın tapşırığı ilə bölgələrə gedib seçim turları keçiririk. Hörmətli Mehriban xanımın Birinci vitse-prezident kimi ilk uğurlu rəsmi səfəri bu yaxınlarda İtaliyaya oldu. O səfər çərçivəsində biz, şəxsən mən Qarabağ muğam üçlüyü olaraq Prezidentin sarayında konsert verdik. Həmin konsert “RAİ” teleradiosu ilə bütün Avropaya yayımlandı. Hətta aparıcı sonda söylədi ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, Qarabağ muğamın məskənidir. Eyni zamanda, cənab Prezident, Sizin apardığınız uğurlu xarici siyasətin nəticəsidir ki, bu gün Azərbaycan dünyanın aparıcı dövlətləri arasında öz layiqli yerini tutmaqdadır.

Bu, Qarabağımızda sayca üçüncü muğam mərkəzidir və ən möhtəşəmidir. Bu, bizim bölgəmizə olan böyük diqqət və qayğının təzahürüdür. Bu, bizim muğamımızın intibah dövrünü yaşamasına bariz nümunədir. Allah Sizi qorusun. Mən bütün muğam ifaçıları adından təşəkkür edirəm. İnşallah, bu mərkəzdə gözəl tədbirlər, gözəl yubileylər, gözəl konsertlər və müsabiqələr keçirəcəyik. Mən Sizə təşəkkürümü bildirmək istəyirəm. Sağ olun.

Xalq artisti Aygün Bayramova dedi:

– Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım, Sizi bu möhtəşəm Muğam Mərkəzinin açılışında görməkdən hamımız çox şadıq. Bu, təbii ki, bizim hamımızı sevindirir. Muğam bizim milli sərvətimizdir, mənəvi dəyərimizdir. Biz muğamı yaşatmalıyıq, qorumalıyıq, inkişaf etdirməliyik.

Təbii ki, cənab Prezidentin, Mehriban xanımın gördüyü işlər göz qabağındadır. Çox böyük işlər görürsünüz, cənab Prezident. Sizə dərin təşəkkürümü bildirirəm. Mən Mehriban xanım haqqında əlbəttə ki, muğam ifaçılarının adından xüsusi ürək sözlərimi demək istəyirəm. Mehriban xanım bizə çox doğma, əziz bir insandır. Çünki muğamımıza, ümumiyyətlə, incəsənətə xidmət edən insanları həmişə dəyərləndirirsiniz, həmişə diqqətiniz bizim üzərimizdə olur. Mehriban xanımın rəhbərliyi ilə həyata keçirilən “Muğam dünyası”, “Qarabağ xanəndələri” layihələri bizim əməyimizə verilən çox böyük qiymətdir. Biz Mehriban xanımın təşəbbüsü ilə dəfələrlə tədbirlər keçirmişik, konsert proqramlarında bir araya gəlmişik. Biz çalışırıq ki, muğamımızı həm də xarici dövlətlərdə gözəl təbliğ edək. Biz hər zaman çalışırıq ki, musiqimizi, muğamımızı xarici vətəndaşlara öz çıxışlarımızla, öz ifalarımızla yüksək səviyyədə çatdıraq. Mənim arzum odur ki,

İnşallah, Sizin rəhbərliyinizlə torpaqlarımız işğaldan azad olunsun və belə bir gözəl, möhtəşəm muğam mərkəzi Şuşada istifadəyə verilsin, biz də Sizin ətrafınızda bərabər olaq. Mən vaxtınızı çox almaq istəmirəm. Allah Sizləri qorusun. Allah xalqımızı qorusun. Bütün işlərinizdə Sizə uğurlar və nailiyyətlər arzu edirəm.

Birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva çıxış edərək dedi:

– Əziz dostlar, ilk növbədə, mənim fəaliyyətim haqqında dediyiniz sözlərə görə sizə dərin minnətdarlığımı bildirirəm. Əlbəttə, muğam sənəti haqqında çox danışmaq olar. Muğam nadir sənətdir və Azərbaycanın ən böyük sərvətlərindən biridir. Bu gün biz muğam sənətinin inkişafı üçün atılan addımlar haqqında danışdıq. Yəqin ki, siz xatırlayırsınız, Heydər Əliyev Fondunda biz ilk dəfə bərabər toplaşdıq və bu proqramları, gələcək planlarımızı birgə müzakirə etdik və sonra həyata keçirməyə başladıq. Mən sizin hər birinizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Çünki bütün bu nailiyyətlər bizim birgə fəaliyyətimiz nəticəsində mümkün olub. Biz doğrudan da vahid bir komanda kimi çalışırdıq və hər bir yeni ideyanı müzakirə edirdik, fikirləşirdik ki, müsabiqələri necə keçirək, növbəti addım hansı olsun. Bu gün qeyd etdiyimiz bütün bu addımlar yalnız və yalnız sizin dəstəyinizlə, iştirakınızla mümkün olub. Mən buna görə sizə dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun.

Xalq artisti tarzən Ramiz Quliyev dedi:

– Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım.

Bu gün bizim sevincimizin həddi-hüdudu yoxdur. Bu dərəcədə gözəl bir şərait, işıqlı bir saray, Ağdam Muğam Mərkəzi – bu, bizim həyatımızda ən əlamətdar bir gündür. Onu bizə Siz bəxş etmisiniz. Zaman-zaman böyük çətinliklərin içərisində olmuşuq. Elə vaxtlar olub ki, işğal altındakı bəzi rayonlarımızın əhalisi vaqonlarda yaşayıblar. Bu gün isə işıqlı, gözəl evlərdə, gözəl şəraitdə yaşayırlar.

Biz bu gün muğam haqqında söz deyəndə, – ruhu şad olsun, – Ulu Öndərin qoyduğu irsin gözəl nəticəsini görürük. Xalqımızın böyük övladları olaraq Sizin və Mehriban xanımın əldə etdiyi nailiyyətlərin tayı-bərabəri yoxdur. Təxminən 50 il bundan əvvəl haradasa muğam deyəndə müxtəlif ölkələrin adları çəkilirdi, amma Azərbaycanın adı çəkilmirdi. Uzun müddət muğam yaddan çıxmışdı. Çox hörmətli, hamımızın əzizi Mehriban xanım elə bir iş gördü, elə bir nəticə əldə etdi ki, bu gün dünyanın hər yerindən Azərbaycana gəlib bizim muğamlarımızı dinləyir və sevirlər. Dahi Heydər Əliyevin adını daşıyan Fond tayı-bərabəri olmayan işlər görür.

Çox hörmətli Mehriban xanım, 40-50 il bundan əvvəl Arif müəllimlə, sənət dostlarımızla 3 ildən, 5 ildən bir hər hansı ölkəyə gedəndə sevinirdik ki, şükür Allaha, biz də xaricə getdik. Amma indi sənət adamlarımızın sorağı hər gün bir ölkədən gəlir. Bütün bunlar Sizin diqqət və qayğınızın nəticəsidir, cənab Prezident. Sizə və hörmətli Mehriban xanıma “Sağ olun!”, “Var olun!” deyirik. Bizə yaratdığınız şəraitə görə Sizə ürəkdən minnətdarıq.

Aprel döyüşlərindəki qələbədən danışdınız. Bu qələbədən sonra Ağdamda yaratdığınız bu möhtəşəm sarayı, İnşallah, Şuşada da, Ağdamın mərkəzində də görəcəyik. Biz muğam ifaçılarına yüksək səviyyədə diqqət göstərirsiniz. Vətəni sevən, onu qoruyan insanlar, sənətkarlar hamısı yüksək səviyyədə diqqətə layiqdirlər. Sizin qayğınız sayəsində sənətkarların hamısının şəraiti gözəldir. Evlərimiz, şəraitimiz, orden və medallarımız, dostlarımız var, çörəyimiz boldur, xarici ölkələrdən çoxlu qonaqlarımız gəlir. Bu da ölkəmizdə turizmin inkişafı ilə bağlıdır. Bizim qonağımız olan xarici həmkarlarımız Azərbaycanın gözəlliyindən ürəkdolusu danışırlar.

Möhtərəm cənab Prezident, ürəyimiz sevinclə doludur. Əminəm ki, Sizin yüksək səviyyəli, cəsarətli, düşünülmüş, uğurlu siyasətiniz nəticəsində torpaqlarımız tezliklə işğaldan azad olunacaq.

Hörmətli Mehriban xanım, bir vaxtlar muğam sənətimiz, tar ifaçılığı, sazımız, kamançamız diqqətdən kənarda qalmışdı, başqa ölkələr bunlara sahib durmaq istəyirdi. Amma Mehriban xanım bunlara yiyəlik etdi, qeyri-maddi mədəni irs siyahısına daxil etdi. Bu gün dünyada elə bir ölkə yoxdur ki, oradan tarımızın səsi gəlməsin, simfonik orkestrlə, böyük xalq orkestrləri ilə, pianolarla, kamera orkestrləri ilə. Muğam ən böyük sərvətimizdir. Muğamı yaradan xalq yaşamalıdır və Siz başda olmaqla xalqımız yaşayacaq.

Cənab Prezident, mənim böyük bir arzum var, Allah bizə Sizinlə bir yerdə qismət eləsin ki, bizim muğamımız işğaldan azad olunmuş torpaqlarımızda səslənsin. Biz o möhtəşəm sevinci görəcəyik. Mehriban xanımın təşkilatçılığı ilə onların hamısını görəcəyik. Mən arzu edirəm ki, əziz, möhtərəm Prezidentimiz, Mehriban xanım, Allah Sizə muğam qədər ömür versin. Allah Sizi qorusun. Var olun.

Prezident İlham Əliyev dedi:

Çox sağ olun, xoş sözlərə görə təşəkkür edirəm. Mən bu gözəl hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Ağdam filialının açılışında iştirak ediblər.

Dövlətimizin başçısı “Azərxalça” ASC-nin Ağdam filialının rəmzi açılışını bildirən lenti kəsdi.

Son illər Azərbaycanda qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən davamlı islahatlarla əlaqədar ən qədim tətbiqi sənət növlərindən biri olan xalçaçılığa diqqət artıb. Xalçaçılıq tarixən həm Azərbaycan xalqının məişətinin ayrılmaz hissəsi, həm də milli mədəniyyətinin bariz nümunəsi olub. Hər bir xalça

toxunduğu yerin təbiəti, onu toxuyan insanların dünyagörüşü və inancları ilə bağlı simvolları əks etdirən sənət əsəridir. Ayrı-ayrı regionların coğrafiyası, tarixi, mədəni və dini mühiti xalçanın özünəməxsus ornament, kompozisiya və digər elementlərinə təsir göstərir. Bu mənada xalçaçılığın inkişafı tarixi, mədəni və maddi irsin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu sahənin inkişafına xüsusi diqqət yetirən Prezident İlham Əliyevin qayğısı sayəsində artıq Horadiz, Şəmkir, Quba, Xaçmaz, İsmayıllı və Lənkəranda xalça müəssisələri istifadəyə verilib. Ağdamla bərabər, Ağstafa, Qazax, Qəbələ və Tovuzdakı müəssisələr isə istifadəyə hazırdır.

Bu müəssisələri materialla təmin etmək üçün Sumqayıt Kimya Sənaye Parkında yunəyirici-boyaq fabrikinin, Naxçıvan şəhərində, Qobustan, Şabran, Bərdə və Sabirabad rayonlarında 5 regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin inşası davam etdirilir. Artıq Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Naxçıvan şəhərində, Qobustan, Şabran, Sabunçu, Abşeron, Kürdəmir, Biləsuvar, Goranboy və Tərtər rayonlarında xalça emalatxanalarının tikintisi və təchizatı işlərinə başlanıb. Bundan başqa, İsmayıllı rayonunda daha bir xalça emalatxanası tikilir. Dövlətimizin başçısı bu emalatxananın tikintisi, avadanlıq və dəzgahlarla təchizatı, infrastrukturunun yaradılması üçün 2018-ci il dövlət büdcəsində nəzərdə tutulan Prezidentin ehtiyat fondundan vəsait ayrılması barədə Sərəncam da imzalayıb. 2019-cu ildə əlavə olaraq, 10 şəhər və rayonda bu cür müəssisələrin tikintisi nəzərdə tutulub. Artıq istifadəyə tam hazır olan “Azərxalça” ASC-nin Ağdam filialı da bu sırada mühüm yer tutur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva XIX əsrdə, eləcə də XX əsrin əvvəllərində Qarabağın müxtəlif bölgələrində toxunan nadir xalçalara baxdılar.

“Azərxalça” Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Vidadi Muradov görülən işlərlə bağlı məlumat verərkən bildirdi ki, filialın binasının ümumi sahəsi 1250 kvadratmetrdir. Ağdam rayonunun Quzanlı qəsəbəsindəki Heydər Əliyev prospektində yerləşən binada tikinti işləri yüksək keyfiyyətlə aparılıb. Burada 150 toxucu və 14 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. İlkin mərhələdə artıq 90 nəfər işə qəbul olunub.

Bildirildi ki, bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça satışı salonu və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Ağdam, Bərdə, Beyləqan, Cəbrayıl, Füzuli, Kəlbəcər, Qubadlı, Xocalı, Laçın, Şuşa və Zəngilan rayonlarının kəndlərində toxunan tarixi və orijinal Qarabağ xalça çeşnilərinin toxunmasına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında “Azərxalça”nın rəssamları tərəfindən hazırlanıb.

Dövlətimizin başçısı və birinci xanım xalçaçılarla görüşdülər.

Xalçaçıları salamlayan Prezident İlham Əliyev dedi:

– Sizi bu gözəl xalça fabrikinin açılışı münasibətilə təbrik edirəm. Bu, sayca yeddinci fabrikdir. Proqramımızda Azərbaycanda 30 xalça fabrikinin tikilməsi nəzərdə tutulub, yeddincisi bu gün açılır. Çox şadam ki, biz Ağdam rayonunda buna nail ola bilmişik. Burada sizin üçün gözəl şərait, 150 iş yeri yaradılıb, işləyənlər də qadınlardır. Siz həm gözəl sənətimizi yaşadırsınız, həm də gözəl əsərlər yaradırsınız. Bu işlərə gənc qızlarımızı cəlb edirsiniz. Sizin fəaliyyətiniz çox yüksək qiymətə layiqdir. Ağdamın qədim xalçaçılıq məktəbi var. Burada qədim xalçalar da nümayiş etdirilir. İndi Sizin də əl işləriniz göz qabağındadır. Ona görə ki, xalça sənəti bu gün milli sənətimizdir, milli sərvətimizdir. Biz yaşadırıq, yaşadacağıq. Sizin kimi insanlar, əlbəttə ki, bu gözəl sənəti əbədi yaşadacaqlar. Sizi ürəkdən təbrik edirəm.

“Azərxalça” ASC-nin Ağdam filialının direktoru, Əməkdar mədəniyyət işçisi Ceyran Əliyeva belə gözəl hədiyyəyə görə dövlətimizin başçısına və birinci xanıma xalçaçıların minnətdarlığını çatdıraraq dedi:

-Siz bu gün qədim Qarabağ, Ağdam torpağına xoş gəlmisiniz. Qarabağ tarixən dünyada ən çox üç sahə ilə tanınıb: Qarabağ xalçası, Qarabağ muğamı, Qarabağ atları. Ulu öndərimiz Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə bu üç sahə Ağdamda həmişə inkişaf etmiş və dünyada şan-şöhrət qazanıb.

Biz 25 il idi ki, Ağdamda Qarabağ xalçaları toxumurduq. Biz Bərdədə şəraitsiz yerdə müəyyən vaxt işlədikdən sonra bu sənətdən ayrılmışdıq. Sizin Sərəncamınızla Ağdamda, Quzanlı qəsəbəsində bu böyük müəssisə yaradılıb və bu gün biz Qarabağ xalçaçılarının ixtiyarına verilib. Buna görə, cənab Prezident, Sizə və Mehriban xanıma çox dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk.

Mehriban xanım, Sizin Azərbaycan xalçaçılıq sənətinin inkişafında və dünyada təbliğində misilsiz xidmətləriniz var. Sizin təşəbbüsünüzlə Azərbaycan xalçaçılıq sənəti UNESCO-nun qeyri-maddi mədəni irs üzrə siyahısına daxil edilib. Buna görə biz Qarabağ xalçaçıları adından Sizə təşəkkür edirik.

Bizim Ağdamda çox böyük xalça fabrikimiz var idi. 1980-ci illərdə Ulu Öndərin Sərəncamı ilə tikilmişdi. Hətta Xocalıda, Şuşada, Ağdərə rayonunun Baş Güneypəyə kəndində, Ağdamın dörd kəndində bizim filiallarımız var idi. Orada 600 nəfərə qədər xalçaçı çalışırdı. Mənfur ermənilər rayonu işğal edəndən sonra biz Ağdamdan ayrıldıq.

Cənab Prezident, bu sənət Sizin Sərəncamınızla bu gün yenidən bərpa olunub. Ermənilər heç vaxt deyə bilməz ki, Qarabağ xalçaları onlarındır. Bir dəfə bir

jurnalist mənə dedi ki, hansısa xarici ölkədə ermənilər Qarabağ xalçasını özlərininki kimi təqdim ediblər. Dedim ki, Qarabağ xalçasını qarabağlılardan başqa heç kəs toxuya bilməz.

Prezident İlham Əliyev. Bəli, düzdür.

Ceyran Əliyeva: Bu gün biz Qarabağ xalçaçıları Sizə çox böyük təşəkkür edirik. Ancaq bu, son olmayacaq. Əminəm ki, Sizin həyata keçirdiyiniz daxili və xarici siyasət nəticəsində torpaqlarımız işğaldan azad olunacaq. Biz yenidən Şuşada, Ağdamda, Xocalıda xalça sexləri açacaq, bu müəssisəni Quzanlı sakinlərinə verərək, gedib Ağdamda işləyəcəyik.

Mehriban xanım, biz Ağdamdan çıxarkən mən bir yadigar yaylıq gətirmişəm. Bu gün həmin yaylığı Sizə təqdim etmək istəyirəm.

Ceyran Əliyeva yaylığı birinci xanım Mehriban Əliyevaya təqdim etdi.

Birinci xanım Mehriban Əliyeva: Çox sağ olun.

Prezident İlham Əliyev: Bu gün Ağdamda, Quzanlıda möhtəşəm Muğam Mərkəzi açıldı. İndi xalça fabriki açılır. Bu gün Ağdam Atçılıq Mərkəzinin də açılışı olacaq. Ona görə biz Ağdamı dünyada məşhur edən bu üç istiqamət üzrə bu gözəl tədbirləri bir gündə keçiririk. Bu gözəl xalça fabrikinin yaradılması münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm.

Xalçaçılar: Çox sağ olun.

Sonra birinci xanım Mehriban Əliyeva müəssisədə toxunan ilk xalçanı kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunda səfərdə olarkən yolüstü Ağcabədi rayonunun Hindarx qəsəbəsində Əsmər Hüseynovanın pambıq sahəsi ilə tanış olublar.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov və pambıqçı Əsmər Hüseynova təsərrüfatda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdilər.

Dövlətimizin başçısı pambıqçılarla söhbət etdi.

Prezident İlham Əliyev: Salam, xoş gördük.

Pambıqçılar: Xoş gəlmisiniz.

Prezident İlham Əliyev: Burada yaxşı pambıq yetişdirmisiniz. Məhsuldarlıq yaxşı olmalıdır. Görün, bir qoza nə boydadır. 2016-cı ildə pambığın kiloqramının qiyməti 41 qəpik idi, qaldırdıq 50 qəpiyə. Bu il isə 65 qəpiyə qaldırmışıq. Bunu ona görə edirik ki, siz daha çox pul qazanasınız.

Pambıqçılar: Çox sağ olun, Allah Sizi qorusun.

Prezident İlham Əliyev: İndi pambıqçılıq sürətlə inkişaf edir. Bu il bu günədək 200 min ton pambıq tədarük olunub. Keçən il bu vaxt təxminən 160 min ton idi, bu il 200 min ton. Əgər yığım kampaniyamız belə davam etsə, deməli, təxminən 260 min ton pambıq tədarük ediləcək. Pambıqçılıqda 190 min insan işləyir, pul qazanır, həm öz ailə büdcəsini yaxşılaşdırır, həm də dövlətə xeyir verir.

Pambıqçılar: Bəli, Allah köməyiniz olsun. Sizin sayənizdə ailələrimizin yanında alnıaçıq, üzüağıq.

Prezident İlham Əliyev: İndi adambaşına orta hesabla nə qədər pambıq yığırsınız?

Pambıqçılar: Bir gündə hərəyə 110-120 kiloqram yığırıq.

Prezident İlham Əliyev: Bir gündə 120 kiloqram?

Pambıqçılar: Bəli, cənab Prezident, bir gündə.

Prezident İlham Əliyev: 120 kiloqram yığırsınızsa, deməli, nə qədər qazancınız olur?

İcra hakimiyyətinin başçısı Şahin Məmmədov: İyirmi manatdan çox edir - 24 manat. Bir evdən tarlaya beş adam çıxırsa, hərəsi 100 kiloqram yığsa, axşam 100 manat pul aparır.

Prezident İlham Əliyev: 100 manat, hər gün bir evə?

Pambıqçılar: Bəli, hər gün.

Prezident İlham Əliyev: Yaxşıdır.

Şahin Məmmədov: Keçən il bugünkü tarixə biz 15 min 783 ton pambıq yığmışdıq. Amma bu gün 20 min tona çatmışıq. Keçən ilin müvafiq dövründəkindən təqribən 5 min ton artıq təhvil vermişik.

Prezident İlham Əliyev: Sizdə əkin sahəsi 10 min hektardır. Əgər 20 min ton vermisinizsə, deməli, 20 sentneri siz artıq təmin etmisiniz.

Şahin Məmmədov: 20,8 sentner vermişik.

Prezident İlham Əliyev: Amma yığım hələ davam edəcək.

Şahin Məmmədov: Bəli, biz bu günədək keçən il bütün mövsüm ərzində yığdığımızdan çox pambıq vermişik. Keçən il mövsüm ərzində 20 min 497 ton pambıq yığmışdıq.

Prezident İlham Əliyev: Bəs, ümumiyyətlə, rayon üzrə hektardan məhsuldarlıq nə qədər gözlənilir?

Şahin Məmmədov: Hektardan 27–28 sentner. Ötən il 21,5 sentner idi.

Prezident İlham Əliyev: 27–28 sentner, çox gözəl, çox yaxşı. Texnika da var, görürəm, biz yüzlərlə texnika almışıq. Demək olar ki, burada ilboyu iş var.

Şahin Məmmədov: Bəli, ilboyu, şumdur, aratdır, maladır, sonra çiyidin səpilməsidir.

Prezident İlham Əliyev: Bəli, həm məşğulluq, həm də yaxşı qazanc.

Pambıqçılar: Bəli, cənab Prezident, qazancımız yaxşıdır.

Sonda xatirə şəkli çəkdirildi.

Dövlətimizin başçısı məhsulun vaxtında və itkisiz toplanması ilə bağlı müvafiq tapşırıqlarını verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki "Qarabağ Atçılıq Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Qarabağ Atçılıq Kompleksinin açılışında iştirak ediblər.

Prezident İlham Əliyev müəssisənin rəmzi açılışını bildirən lenti kəsdi.

Kənd təsərrüfatı naziri İnam Kərimov və Qarabağ Atçılıq Kompleksinin direktoru Maarif Hüseynov ölkəmizdə atçılığın inkişafı istiqamətində görülən işlər, kompleksdə yaradılan şərait barədə məlumat verdilər.

Ölkəmizin dilbər guşələrindən olan Qarabağ dünyada füsunkar təbiəti, heyrətamiz musiqisi, qədim abidələri, nəfis xalçaları ilə yanaşı, həm də nadir cins atları ilə tanınır. Azərbaycanın milli sərvəti olan Qarabağ atları dünyada ən qədim mədəni at cinslərindən olmaqla, əsrlər boyu aparılan xalq seleksiyası sayəsində bu bölgədə formalaşıb. Qarabağ atlarının cins kimi təkmilləşdirilməsində və böyük şöhrət qazanaraq yayılmasında Qarabağın xan zavodlarının əvəzsiz rolu olub. Buna görə də XVIII-XIX əsrlər Qarabağ atçılığının qızıl dövrü hesab edilir. XX əsrdə isə Qarabağ atı cinsinin tarixində ən önəmli hadisə Ağdam atçılıq zavodunun yaradılmasıdır. Bu zavod rəsmi olaraq SSRİ Nazirlər Sovetinin 1948-ci il 8 oktyabr, Azərbaycan SSR Nazirlər Sovetinin isə 1949-cu il 27 may tarixli qərarları əsasında Xaldan quşçuluq sovxozunun ərazisində yaradılıb. Zavod 1949-cu ilin sentyabrında Ağdam rayonu yaxınlığındakı Göytəpə adlanan əraziyə, vaxtilə xan zavodlarına məxsus atların məskunlaşdığı yerlərdən birinə köçürülüb. 1993-cü ildə Ağdam rayonunun erməni təcavüzkarları tərəfindən işğal edilməsindən sonra Azərbaycanın milli sərvəti, yerli genefondun əsaslarından olan Qarabağ atları köçkünlük həyatı yaşayır. Qarabağ atçılıq kompleksi 1994-cü ildən isə Ağcabədi rayonunun Xamtorpaq ərazisində fəaliyyət göstərir. Bütün çətinliklərə baxmayaraq, Qarabağ atlarını bu günədək qoruyub saxlamaq mümkün olub. Son illər isə dövlət tərəfindən Azərbaycan atlarının şan-şöhrətinin özünə qaytarılması, ölkəmizdə atçılığın inkişafının təmin edilməsi üçün ciddi işlər görülür. 2007-ci ildə "Atçılıq haqqında" Qanun qəbul olunub. Bu qanunun tətbiqi ilə əlaqədar Prezident İlham Əliyev tərəfindən müvafiq Fərman imzalanıb, atçılığın inkişafı üzrə Proqram təsdiqlənib. Prezident İlham Əliyevin "Azərbaycanda Qarabağ atı cinsinin inkişafına əlavə dəstək haqqında" 2014-cü il 19 noyabr və "Heyvandarlığın maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında" 2015-ci il 21 avqust tarixli sərəncamları isə Qarabağ atının genefondunun qorunmasında, tarixi şöhrətinin özünə qaytarılmasında mühüm əhəmiyyətə malikdir. Dövlətimizin başçısı 2017-ci il fevralın 22-də isə bu sahə ilə bağlı daha bir Sərəncam imzaladı. Sərəncama əsasən Qarabağ atı cinsinin damazlıq özəyinin qorunması və inkişaf etdirilməsi, bu sahədə seleksiya damazlıq işlərinin elmi əsaslarla aparılmasına şərait yaradılması istiqamətində həyata keçirilən tədbirlərin başa çatdırılması və Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki "Qarabağ Atçılıq Təsərrüfatı" MMC-nin atçılıq kompleksinin tikintisi üçün Prezidentin ehtiyat fondundan Kənd Təsərrüfatı Nazirliyinə 2 milyon manat vəsait ayrılıb. Artıq Qarabağ Atçılıq Kompleksi istifadəyə tam hazırdır.

Məlumat verildi ki, Qarabağ Atçılıq Kompleksi 35,5 hektar ərazidə inşa edilib. Ətrafdakı geniş ərazidə yaşıllıqlar salınıb, ağac və dekorativ kollar əkilib. Kompleks mühafizə binası, dezinfeksiya hovuzu, inzibati bina, doğum şöbəsi, ayğırlar, madyan və gənc atlar üçün tövlələr, qapalı manej, gəzinti sahəsi, çardaq, müayinə otağı, karantin binası, təsərrüfat anbarı, açıq manej, qaçış zolağı, məşq qurğusu, gübrə anbarı və köməkçi qurğulardan ibarətdir. Atçılıq kompleksinin inzibati binasında işçilərin fəaliyyəti üçün ən yüksək şərait yaradılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qapalı manejdə yaradılan şəraitlə tanış oldular.

Burada Qarabağ atlarının tarixi ilə bağlı sərgi də təşkil edilib.

Bildirildi ki, tarixə nəzər saldıqda Qarabağ xanları Pənah xanın, İbrahim xanın, Mehdiqulu xanın, Cəfərqulu xanın, Xurşidbanu Natəvanın və xan zümrəsinə daxil olan digər sülalələrin nümayəndələrinə məxsus zavod və tövlələrdə klassik zavod atçılığı səviyyəsində damazlıq işləri aparılaraq cinsin tipik nümunələrinin yetişdirildiyini görmək mümkündür. Tipik dağ minik atı olan Qarabağ atlarının əsas üstünlükləri dözümlülük və sahibinə sədaqət hesab olunur. Əsasən qızılı-kürən və kəhər rəngli, ortaboylu, ilxı şəraitinə davamlı olan Qarabağ atları bir çox beynəlxalq sərgilərdə təmsil olunub və uğurlu nəticələr qazanıb. Belə ki, 1867-ci ildə Fransada keçirilən sərgidə "Xan" ləqəbli Qarabağ atı yüksək mükafata, 1869-cu ildə Ümumrusiya at sərgisində "Maymun" ləqəbli at gümüş, "Toxmaq" adlı at bürünc medallara, Xan qızı Natəvanın "Əlyetməz" adlı atı isə attestata layiq görülüb. Qarabağ atları Rusiyaya, həmçinin Avropanın bir sıra ölkələrinə aparılıb, at cinslərinin, o cümlədən Kabardin və Don atlarının cins tərkibinin yaxşılaşdırılmasına təsiri olub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qapalı manejdə Azərbaycanın qədim milli "Sür-papaq" atüstü oyununa baxdılar.

Qeyd olundu ki, "Sür-papaq" oyunu hər birində 4-8 idmançının olduğu iki komandanın iştirakı ilə keçirilir. Bu oyun 20 dəqiqə davam edir.

Dövlətimizin başçısı və xanımı kompleksin tövlələrində yaradılan şəraitlə də tanış oldular.

Məlumat verildi ki, burada atların daxili orqanlarının müayinəsi, boğazlığın ilkin təyini, sınıq və zədələnmələrin diaqnostikası, yarışlardan əvvəl və sonra, karantin dövründə müayinələrin aparılması, istifadə edilmiş laboratoriya avadanlığının sterilizasiyası, həmçinin seleksiya damazlıq işini aparmaq üçün avadanlıq və alətlər var. Hazırda kompleksdə Qarabağ cinsindən olan 200 at saxlanılır. Onlardan 5-i ayğır, 50-si madyan, 145-i isə gənc atlar və dayçalardır. Kompleksdə 28 mütəxəssis çalışır.

Qeyd olundu ki, 1946-cı ildə xüsusi komissiya Qarabağ atlarının geniş yayıldığı Ağdam, Şuşa, Xoca-

vənd, Bərdə, Yevlax, Tovuz rayonlarını gəzərək cinsin xarakterik əlamətlərinə sahib 60 baş Qarabağ atını, o cümlədən 59 baş madyanı və 1 baş ayğırı seçib. Bu atlar 1947-ci ilin payızında Azərbaycan SSR Sovxozlar və Kənd Təsərrüfatı nazirliklərinin mütəxəssisləri tərəfindən bir daha baxışdan keçirilib və onlardan 27 baş madyan daha tipik Qarabağ atı kimi müəyyən edilib və 1949-cu ildə Ağdam rayonunun Eyvazxanbəyli kəndində atçılıq zavodu yaradılıb. 1960-1970-ci illərdə respublikada kənd təsərrüfatının ümumi inkişafı, Ağdam atçılıq zavodunun maddi-texniki bazasının möhkəmləndirilməsi, cıdır yarışlarına marağın artması Qarabağ atının inkişafına münbit şərait yaradıb. Zavod yaradıldıqdan sonra cins daxilində ailə və xətlərin formalaşması, bir sıra ümumittifaq sərgilərində və yarışlarda Qarabağ atlarının fəal iştirakı məhz həmin illərə təsadüf edir. 1956-cı ildə sovet hökuməti tərəfindən İngiltərə kraliçası II Yelizavetaya “Zaman” adlı Qarabağ atının hədiyyə edilməsi bu atların məşhurluğunun göstəricisidir. 1980-ci illərdə Moskva auksionu vasitəsilə Qarabağ atlarının bir çox xarici dövlətlərə, o cümlədən Almaniya, Hollandiya, İsveçrə, İtaliya, Fransa və digər ölkələrə satılması cinsin yayılmasında mühüm rol oynayıb. Dünyanın ən qiymətli cinslərindən olan Qarabağ atları gözəl eksteryerə, yaxşı balavermə qabiliyyətinə malikdir. Bədən ölçüləri, rəngi, xasiyyəti, dözümlülüyü, sahibi ilə davranışı, yoldaşlığı Qarabağ atlarının əsas üstünlükləridir.

Dövlətimizin başçısı və birinci xanım kompleksin açıq manejində Dövlət Sərhəd Xidmətinin Atçılıq Mərkəzinin “Süvarilər” qrupunun nümunəvi çıxışlarına da baxdılar.

Sonra xatirə şəkli çəkdirildi.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə idman sahəsində nailiyyətlər ildən-ilə artır. Atçılıq və atçılıq idmanı da xüsusi diqqət mərkəzində saxlanılır. Bir sözlə, ölkəmizdə idmanın bu növü inkişaf dövrünü yaşayır.

2013-cü ilin dekabrında Bakıda keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasında Qarabağ atı üzərində çövkən oyunu UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınıb. Sonra Qarabağ atlarından bəhs edən “Sarılar – Qarabağ atının izi ilə” adlı sənədli filmi çəkilib. Atçılıq və onun tarixi üzrə ixtisaslaşmış fransız yazıçı Jan-Lui Quro “Qarabağ atları” adlı kitab yazaraq nəşr etdirib. London yaxınlığındakı Vindzor qəsrində İngiltərə Kraliçası II Yelizavetanın 90 illik yubileyi şərəfinə keçirilən at şousunda Qarabağ atlarının möhtəşəm çıxışı böyük maraq doğurub. Bir sözlə, kompleksdə yaradılan şərait deməyə əsas verir ki, Azərbaycanın milli sərvəti olan Qarabağ atları hazırda öz keçmiş şöhrətinin qayıdışı dövrünü yaşayır. Həyata keçirilən tədbirlər nəticəsində Qarabağ atlarının tarixi şöhrəti özünə qaytarılır. Bütün bunların nəticəsində isə atlarımız yenidən beynəlxalq yarış və sərgilərdə uğurla təmsil olunaraq xalqımızın qürur mənbəyinə çevriləcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 5-də Ağdam rayonuna səfəri başa çatdı.

## *Sumqayıt şəhərinə səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt şəhərinə səfərə gəlib.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov şəhərdə görülən işlər haqqında dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkının rezidenti inşaat kimyəviləri zavodunun açılışında iştirak edib.

Əvvəlcə iqtisadiyyat naziri Şahin Mustafayev Prezident İlham Əliyevə Sumqayıt Kimya Sənaye Parkında görülən işlər, parkın rezidentləri barədə məlumat verdi. Bildirildi ki, 2013-cü ildə dövlətimizin başçısının iştirakı ilə təməli qoyulmuş Sumqayıt Kimya Sənaye Parkında ötən müddətdə intensiv tikinti-quraşdırma işləri aparılıb, köhnə bina və qurğular sökülüb, müvafiq infrastruktur yaradılıb.

Zavodun baş direktoru Adəm Yayla Prezident İlham Əliyevə müəssisə haqqında məlumat verdi. İnşaat kimyəviləri zavodu 1910-cu ildə yaradılan və dünyanın 100-ə yaxın ölkəsində müəssisələri fəaliyyət göstərən İsveçrənin şirkətlər qrupuna daxildir. Son 18 ildə şirkətə dünya miqyasında beton konstruksiyalarının təmiri ilə bağlı 100-ə qədər layihənin icrası həvalə olunub. Struktur birləşdirmə, birbaşa şüşələmə, akustik və gücləndirici sistemlər, avtomobillərə xidmət, o cümlədən avtomobil şüşələrinin əvəzlənməsi, avtomobil gövdəsinin təmiri, dəniz gəmiləri, sənaye laminasiyası, texnika, bərpa olunan enerji və fasad mühəndisliyi sahələri bu şirkətin fəaliyyət istiqamətinə daxildir. Şirkətin məhsullarının əsas tətbiq sahələri kommersiya məqsədli nəqliyyat vasitələri sənayesi, məişət cihazları və sənaye komponentləri, sənaye məqsədli laminasiya, bərpa olunan enerji sənayesi, mexaniki emal və kompozitlər, həmçinin dəniz sənayesidir.

Prezident İlham Əliyev zavodu işə saldı.

2016-cı ilin martında rezident kimi qeydiyyata alınan zavod İsveçrə və Türkiyə texnologiyaları əsasında

yaradılıb. İlkin mərhələdə müəssisənin illik istehsal həcmi 40 min ton tikinti qatqılarıdır. Zavodun məhsullarının Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Gürcüstan və İrana ixracı nəzərdə tutulur. İnşaat kimyəviləri zavodu beynəlxalq miqyaslı İsveçrə şirkətinin yerli təmsilçisi kimi Sumqayıt Kimya Sənaye Parkının 100 faiz xarici kapitallı rezidentidir. İnvestisiya dəyəri 3,5 milyon dollar olan layihə çərçivəsində 60 nəfər daimi işlə təmin olunacaq. Hazırda tikinti məhsullarının istehsalında xammal kimi istifadə edilən "Sikament 300", "Sikament FF5" və "Sigunit L25" kimi maddələrin Azərbaycana illik idxalı təqribən 800-1000 ton təşkil edir. Bu maddələrin ölkəmizdə istehsal edilməsi idxalı əvəz etməyə imkan yaradacaq, məhsullarda xarici komponentlərdən istifadəni azaldacaq.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılmış Sumqayıt Kimya Sənaye Parkı ölkənin ilk sənaye parkıdır. Parkın idarəedici təşkilatı İqtisadiyyat Nazirliyinin tabeliyində olan "Sumqayıt Kimya Sənaye Parkı" MMC-dir. Sumqayıt Kimya Sənaye Parkının 508 hektarlıq ümumi ərazisinin 450 hektarı sənaye zonasıdır. Artıq burada 74 faiz məskunlaşma qeydə alınıb. İndiyədək 18 sahibkarlıq subyektinə rezident statusu verilib. Sumqayıt Kimya Sənaye Parkının mövcud rezidentlərinin layihələrinin investisiya dəyəri 2,8 milyard dollardır. Bunun da 2,2 milyard dolları artıq layihələrə yatırılıb. Hazırda mövcud layihələr üzrə istehsalatda və tikintidə 7000-dək işçi çalışır.

Sumqayıt Kimya Sənaye Parkında 9 müəssisə fəaliyyət göstərir və bu müəssisələr tərəfindən istehsal olunan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, "Made in Azerbaijan" brendi ilə xarici bazarlara ixrac edilir. Belə ki, sənaye parkının ilk rezidentlərindən olan "Azertexnolayn" zavodu 2013-cü ildən fəaliyyət göstərir və burada polad və polietilen boru, mexaniki və hidrotexniki avadanlıqlar istehsal edilir. Müəssisədə 750-dən çox işçi çalışır. 2017-ci ildə müəssisə üzrə 72 milyon manat dəyərində satış həyata keçirilib ki, bunun təqribən 17 milyon manatı ixracın payına düşür. 2018-ci ilin 9 ayında isə zavod 12,6 milyon manat dəyərində məhsul ixrac edib.

Müxtəlif təyinatlı sənaye məhsullarını istehsal edən "STP" MMC 2014-cü ildən fəaliyyət göstərir və hazırda burada 2000-dən çox işçi çalışır. 2017-ci ildə "STP" tərəfindən 80 milyon manat, bu ilin 9 ayında isə 64,3 milyon manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun 2,9 milyon manatlıq hissəsi ixrac olunub.

Sumqayıt Kimya Sənaye Parkının bir sıra digər rezidentləri də məhsullarını xarici ölkələrə ixrac edirlər. 2017-ci ildə 4 müəssisə - aşağı, orta və yüksək təzyiqə davamlı xortum və fitinq birləşmələrini istehsal edən "MST Engineering Services" MMC, yüksək keyfiyyətli sintetik və yarımsintetik sürtkü yağları istehsal edən "Alco" MMC, pestisidlər və aqro-kimyəvi məhsullar istehsal edən "Aqrokimya Azərbaycan" MMC, məlumatların emalı, qeydə alınması və ötürülməsini həyata keçirən "STDC" MMC fəaliyyətə başlayıb. 2018-ci ilin aprelindən elektron təhsil avadanlıqları istehsal edən "Labdisc Azərbaycan" MMC, iyuldan "SOCAR Polymer" MMC-nin polipropilen qurğusu, noyabr ayından şüşə və saxsı məmulatlar istehsal edən "ARCHİ Glass" MMC fəaliyyətdədir. Bu ilin sonunadək daha iki müəssisənin - "SOCAR Polymer" MMC-nin yüksək sıxlıqlı polietilen istehsalı və karbamid zavodlarının fəaliyyətə başlaması gözlənilir. Bu müəssisələrdə 800-ə yaxın yeni iş yerinin açılması nəzərdə tutulur.

Sumqayıt Kimya Sənaye Parkının rezidentləri 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eyni zamanda, parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən və gömrük rüsumundan azad olunur. Bu günədək sənaye parkının rezidentləri artıq 255 milyon manat məbləğində vergi və gömrük rüsumlarından azad olunublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan "Baku Non Ferrous and Foundry Company" MMC-nin əlvan metallar və ferroərintilər zavodunun açılışında iştirak edib.

"Baku Steel Company" Məhdud Məsuliyyətli Cəmiyyətinin müşahidə şurasının sədri Rasim Məmmədov Prezident İlham Əliyevə əvvəlcə yaxın gələcəkdə inşası planlaşdırılan layihənin üçüncü fazası, yəni fasonlu tökmə zavodunun tikintisi barədə məlumat verdi.

Bildirildi ki, bu zavodda maşınqayırmada, kənd təsərrüfatında, dağ-mədən sənayesində istifadə olunan məhsullar istehsal ediləcək. Bu məhsullar arasında yayma valları, 3D printer vasitəsilə hazırlanan detallar, dəyirman kürələri, müxtəlif növ maşın avadanlıqları üçün detallar var. Zavodun illik istehsal gücünün 12000 ton olması nəzərdə tutulub.

Dövlətimizin başçısına Daşkəsən rayonundakı dəmir-filiz yataqlarından istifadə edilməklə Gəncədə böyük metallurgiya zavodunun tikintisi ilə bağlı da məlumat verildi. Artıq tikinti ilə bağlı texniki işlər yekunlaşıb. Qeyd edildi ki, Daşkəsəndəki yataqlarda yeni geoloji işlər və ehtiyatların qiymətləndirilməsi aparılıb.

Prezident İlham Əliyev əlvan metallar və ferroərintilər zavodunu işə saldı.

Zavodda İtaliya texnologiyası əsasında ildə 50 min ton ferrosilisium və 72 min ton ferrosilikomanqan istehsal ediləcək. Məhsullar daxili bazarın tələbatını tam ödəməklə yanaşı, xaricə də ixrac olunacaq. Bu zavodda Azərbaycan tarixində ilk dəfə olaraq ferrosilisium, ferrosilikomanqan və gələcəkdə ferroxrom da istehsal ediləcək. Bu ferroərintilərin istehsalı yüksək temperaturda manqan filizindən və kvarsitdən karbon tərkibli maddələrin vasitəsilə müvafiq olaraq manqan və silisium elementinin bərpasına və onların dəmirlə birləşmə yaradaraq kristallaşmasına əsaslanır. Ferroərintilərin

istehsalı üçün lazım olan komponentlər elektrik qövslü sobada əridilərək çalovlar vasitəsilə konveyerdə qəliblərə tökülür və müvafiq fraksiyalar şəklində hazır məhsul əldə edilir. İstehsal olunmuş məhsul avtomatik paketləmə maşınında 1 tonluq kisələrə qablaşdırılır.

Zavodda ekoloji tələblərə uyğun, mükəmməl konstruksiyalı qaz-toz təmizləyici qurğu işə salınıb. Qaz-toz tutucu qurğuda isə istehsal prosesi zamanı ayrılan uçucu maddələr və qazlar xüsusi filtrlər vasitəsilə tutularaq təmizlənir və bərk hissəciklər islatma üsulu ilə xüsusi konveyerlərdən keçirilərək dənəvarı hala salınır. Bundan sonra həmin maddələr kisələrə yığılaraq qablaşdırılır. Bu məhsul həm satıla, həm də təkrar istehsal prosesinə qaytarıla bilər. Bütün bu maddələrdən təmizlənmiş hava kütləsi filtrlərdən keçdikdən sonra ekoloji normativ tələblərə uyğunlaşdırılır, daha sonra atmosferə buraxılır.

Burada istehsal olunan məhsulun keyfiyyəti bir çox beynəlxalq standartlara, o cümlədən QOST və İSO-ya uyğunlaşdırılıb. Zavodda sınaqlar quru və yaş, spektrometr vasitəsilə müxtəlif üsullarla yoxlanılır. Məhsulun keyfiyyəti spektral təhlil və kimyəvi üsulla analiz olunur. İnvestisiya dəyəri 51 milyon dollar olan zavodda 230 nəfər işlə təmin olunacaq. Zavod 2016-cı ilin fevralında rezident kimi qeydiyyata alınıb. Layihənin əsas təyinatı metallurgiya sənayesində son məhsulun istehsalı üçün tələb olunan ferroərintilərin lazımi səviyyədə təmin edilməsi və həmin sənaye sahəsinin idxaldan asılılığının nisbətən aradan qaldırılmasıdır.

Dövlətimizin başçısı müəssisənin istehsal prosesi ilə tanış oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkında "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinin tütün məmulatları istehsalı fabrikinin açılışında iştirak edib.

"Tabaterra" QSC-nin direktoru Elman Cavanşir dövlətimizin başçısına burada yaradılan şərait barədə məlumat verdi.

Qeyd olundu ki, zavod ötən il parkda rezident kimi qeydiyyata alınıb. Burada 3 formatda olmaqla beynəlxalq standartlara uyğun siqaret istehsal ediləcək. Fabrik məhsullarını "Made in Azerbaijan" brendi altında istehlakçılara təqdim edəcək. Böyük Britaniya, Almaniya və İtaliya texnologiyaları əsasında qurulan fabrikdə il ərzində 11 milyard ədəd 3 növdə filtrli siqaretlər istehsal ediləcək. Bu isə ölkənin tütün məmulatlarına olan tələbatının 80 faizini ödəyəcək. Ümumilikdə, fabrikdə 13 brendin 80 çeşiddə məhsulunun istehsalı nəzərdə tutulur. Burada "Tabaterra"nın hər biri 6 çeşiddə "Senate", "Kingston", "Argo" adları altında məhsulu istehsal ediləcək. Bundan başqa, "British American Tobacco", "Japan Tobacco International", "Imperial Tobacco" şirkətlərinin məhsulları da lisenziya əsasında müəssisədə istehsal olunacaq. Bu şirkətlərin siqaretləri indiyədək ölkəmizə idxal edilirdi. Beləliklə, bu layihə Azərbaycanda yerli istehsalın inkişafına xüsusi təkan verməklə yanaşı, xaricdən idxalın, eyni zamanda, tütün məhsullarının alınması üçün sərf olunan valyuta axınının azalmasına imkan yaradacaq.

Fabrik beynəlxalq standartlara uyğun istehsal olunacaq məhsullarını müxtəlif formatlarda və qiymət seqmentlərində istehlakçılara təqdim edəcək. Burada istehsal prosesi beynəlxalq keyfiyyət standartlarına tam uyğun olaraq aparılacaq. Ümumi dəyəri 48 milyon dollar olan layihə çərçivəsində 200 yeni iş yeri yaradılıb.

Dövlətimizin başçısı müəssisəni işə saldı.

Sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkındakı müəssisələrin kollektivlərinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Bu gün Sumqayıt Kimya Sənaye Parkında üç yeni müəssisə fəaliyyətə başlayır. Mən bu münasibətlə müəssisələrin kollektivlərini salamlayır və təbrik edirəm. Əminəm ki, bu müəssisələr çox səmərəli işləyəcək və ölkə iqtisadiyyatına böyük töhfə verəcəkdir.

Bu müəssisələr ən yüksək standartlara cavab verir və bizim sənaye potensialımızı böyük dərəcədə möhkəmləndirən müəssisələrdir. Ferroərintilər, inşaat kimyəvi qatqılar zavodları, siqaret fabriki bu gün fəaliyyətə başlayır. Birinci mərhələdə bu müəssisələrdə 400-dən çox iş yeri yaradılıb, gələcəkdə isə iş yerlərinin sayı 700-ə çatacaq. Mənə verilən məlumata görə, bugünkü mərhələdə siqaret fabrikinə 35 milyon dollar, ferroərintilər zavoduna 25 milyon dollar və inşaat materialları zavoduna isə 3,5 milyon dollar sərmayə qoyulub. Ancaq indi təqdimatda deyildi ki, siqaret fabrikinə bundan sonra da əlavə vəsait qoyulacaq və investisiya həcmi təxminən 50 milyon dollara çatacaq, ferroərintilər zavoduna isə 100 milyon dollar investisiya qoyulacaqdır. Yəni, bu, onu göstərir ki, vaxtilə Sumqayıt Kimya Sənaye Parkının yaradılması ilə bağlı qərar düzgün və vaxtında qəbul edilmiş qərar idi.

Mən 2011-ci ilin sonunda müvafiq Fərman imzaladım və biz parkın yaradılmasına start verdik. Bu ərazidə vəziyyət çox acınacaqlı idi. Vaxtilə tikilmiş və dağılmış, avadanlığı paslanmış müəssisələrin qalıqlarını təmizləmək, torpaq qatını yaxşılaşdırmaq, rekultivasiya işləri aparmaq böyük səy və vəsait tələb edirdi. Ondan sonra kommunikasiya və infrastruktur layihələri icra edildi, 500 hektardan çox ərazi tamamilə təmizləndi və özəl sektorun sərəncamına verildi. Bu, dövlətin özəl sektora göstərdiyi dəstəyin növbəti təzahürüdür. Bu, onu göstərir ki, dövlət-özəl sektor tərəfdaşlığı Azərbaycanda ən yüksək səviyyədə təşkil edilir.

Hazırda Sumqayıt Kimya Sənaye Parkında 18 rezident var, 9 müəssisə fəaliyyətdədir. Bu il 5 müəssisə fəaliyyətə başlayacaq. Onlardan 3-ü bu gün fəaliyyətə başlayır. Gələn il əlavə 4 müəssisə fəaliyyətə başlayacaq və beləliklə, bu parkda ən müasir standartlara cavab verən 18 müəssisə fəaliyyət göstərəcək.

Sumqayıt Kimya Sənaye Parkı, əslində, şəhər içində bir sənaye şəhəridir. Gələcəkdə parkın hüdudları genişləndiriləcək və təbii ki, yeni rezidentlər qəbul ediləcəkdir. On səkkiz müəssisə tam gücü ilə işləyəndən sonra 6 min iş yeri təmin ediləcəkdir. Əlbəttə ki, Sumqayıt şəhərində işsizliyin bundan sonra da aşağı səviyyədə saxlanması üçün bu parkın çox böyük əhəmiyyəti var. Ümumiyyətlə, bu günə qədər Sumqayıt Kimya Sənaye Parkının yaradılmasına, müəssisələrin fəaliyyətə başlamasına 2,2 milyard dollar sərmayə qoyulub və növbəti dövrdə bu rəqəm təxminən 3 milyard dollara çatacaqdır. Əgər biz bu parkı yaratmasaydıq və sahibkarlara güzəştli şərtlər təqdim etməsəydik, dövlət tərəfindən böyük dəstək göstərməsəydik, bu vəsait də qoyulmayacaqdı və iş yerləri də yaradılmayacaqdı. Ona görə biz Sumqayıt Kimya Sənaye Parkının timsalında uğurlu sənaye siyasətimizi görürük və bu siyasət bundan sonra da davam etdiriləcək.

Təsadüfi deyil ki, bu ilin 10 ayında ölkəmizin qeyri-neft sənayesi 10 faiz artmışdır. Bu, çox gözəl göstəricidir. Kənd təsərrüfatı 5 faiz artmışdır. Sumqayıt Kimya Sənaye Parkında əlbəttə ki, sənaye müəssisələri fəaliyyət göstərir, ancaq onların bəziləri kənd təsərrüfatına sıx bağlı olan müəssisələrdir, o cümlədən siqaret fabriki. Mən əminəm ki, bu fabrikin fəaliyyəti nəticəsində Azərbaycanda tütünçülüyün inkişafı daha yüksək templərlə gedəcək. Biz tütünçülüyü bərpa edirik, əgər keçən il 3 min ton quru tütün yığılmışdısa, bu gün artıq 4500 ton yığılıb və 5 min tonu keçəcək. Əlbəttə ki, gələcəkdə bu fabrikdə bizim yerli tütündən daha da böyük həcmdə istifadə olunacaq. Yəni, bu, kənd təsərrüfatına böyük təkan verir.

Sumqayıt Kimya Sənaye Parkında hazırda əyirici boyaq fabrikinin tikintisi davam edir. Bu da xalçaçılığın inkişafına böyük təkan verəcək. Xalçaçılıq indi inkişaf edir, 30 xalça fabrikinin yaradılması nəzərdə tutulur. Xalçaçılığın əsas xammalı yun və ipəkdir. İndi yun tədarükü mərkəzləri yaradılır, baramaçılığa böyük təkan verilib. Şəki ipək kombinatı böyük həcmlə işləyir, fermerlər baramadan böyük gəlir əldə edirlər. Yəni, sənayenin və kənd təsərrüfatının inkişafı paralel şəkildə getməlidir, bir-birini tamamlamalıdır, bir-birinə dəstək verməlidir və biz bunu görürük. Eyni zamanda, əlbəttə ki, bizim əsas məqsədimiz qeyri-neft sektorunu inkişaf etdirmək, idxaldan asılılığı aradan götürmək və qeyri-neft ixracını artırmaqdır və biz burada bunu görürük. Siqaret fabriki tam gücü ilə işləyəndən sonra burada ildə 11 milyard ədəd siqaret istehsal olunacaqdır. Bu gün verilən məlumata görə, daxili tələbat 14 milyarddır. Əminəm ki, bu fabrik idxalı tam əvəzləyəcək. Çünki hazırda yerli istehsal var və gələcəkdə ixrac imkanları da geniş olacaq. Mən istərdim ki, daxili tələbat sıfır səviyyəsində olsun, insanlar siqaret çəkməsinlər, bu pis vərdişdən uzaq olsunlar. Əminəm ki, görülən tədbirlər, o cümlədən qanunvericilikdə atılan addımlar nəticəsində biz bu məqsədə çatacağıq. İstərdim ki, bu siqaret fabriki 100 faiz ixrac məhsulları istehsal etsin. Ancaq bu, hələ ki, mümkün deyil. Biz vətəndaşları keyfiyyətli yerli siqaretlə təmin etməliyik. Lakin, eyni zamanda, hamı, ilk növbədə, dövlət çalışmalıdır ki, Azərbaycanda siqaret çəkənlərin sayı minimum səviyyəyə ensin. Çünki ixrac bizə əlavə valyuta gətirir, əlavə imkanlar yaradır. O cümlədən ferroərintilər zavodunda istehsal olunacaq məhsulun 90 faizi ixraca gedəcək, 10 faiz isə Azərbaycan müəssisələrində yenidən emal olunaraq hazır məhsula çevriləcəkdir.

Qeyri-neft sektorunun inkişafı, qeyri-neft ixracının artırılması əsas məqsəddir. Bu ilin 10 ayında bizim qeyri-neft ixracımız 12 faiz, ümumi ixracımız isə 37 faiz artıbdır. İxrac artdıqca bizim iqtisadi vəziyyətimiz daha da yaxşılaşır. Bu, makroiqtisadi sabitliyə, manatın məzənnəsinə müsbət təsir göstərir. Təsadüfi deyil ki, Azərbaycanda makroiqtisadi sabitlik çox yaxşı səviyyədədir, inflyasiya on ayda cəmi 2,4 faizdir. Bu müəssisələrin yaradılması yerli və xarici investorlar üçün növbəti bir siqnaldır ki, gəlsinlər Azərbaycana sərmayə qoysunlar. Bu yaxınlarda Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan deyə bilərəm ki, tarixi nailiyyət əldə edib, dünya miqyasında biznes mühitinə görə 25-ci yerdə qərarlaşıb. Keçən il biz 57-ci yerdə idik. Yəni, belə bir böyük irəliləyiş əlbəttə ki, aparılan islahatların məntiqi nəticəsidir. "Doing Business" hər bir yerli və xarici investor üçün əsas amillərdən biridir ki, o ölkəyə pul qoyulsun, yoxsa yox. "Doing Business" hesabatı, belə gözəl müəssisələrin yaradılması, Azərbaycanda ümumi vəziyyət, sabitlik, inkişaf əlbəttə ki, xarici və yerli investorları daha da stimullaşdırır. Təsadüfi deyil ki, son 15 il ərzində ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulubdur.

Mən sizi fabriklərin, zavodların açılışı münasibətilə bir daha təbrik etmək istəyirəm. Şadam ki, biz bu gözəl parkı Sumqayıt şəhərində yaratdıq. Sumqayıt ölkəmizin, Cənubi Qafqazın ikinci sənaye şəhəridir. Sumqayıtın inkişafı üçün çox böyük işlər görülür, çox böyük layihələr icra edilir. Sosial layihələr, infrastruktur layihələri, qazlaşdırma demək olar ki, yüz faiz səviyyəsindədir, içməli su 93 faiz səviyyəsindədir, yollar salınır, məktəblər tikilir, gözəl abadlıq işləri aparılır. Sumqayıt bulvarı yaradılıb, sakinlər üçün çox gözəl istirahət zonasıdır, "ASAN xidmət" mərkəzi, Olimpiya Kompleksi, xəstəxana istifadəyə verilib. Əlbəttə ki, Sumqayıt sənaye şəhəri kimi uğurla inkişaf edəcək. Mən əminəm ki, biz qarşıda duran bütün vəzifələri bundan sonra da uğurla icra edəcəyik.

Bir daha sizi təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

Sonda xatirə şəkli çəkdirildi.

Beləliklə, bütün bu layihələr bir daha sübut edir ki, Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi kursa uyğun olaraq reallaşdırılan sənayeləşmə siyasəti uğurla davam edir. Qeyri-neft sektorunun mühüm tərkib hissəsi

olan sənayenin inkişafı, bu sahədə yeni istiqamətlərin müəyyənləşdirilməsi şübhəsiz ki, ölkə iqtisadiyyatının ümumi inkişafına da mühüm töhfələr verir. Belə layihələrin icrası bir neçə mühüm məqamı özündə ehtiva edir. İlk növbədə, bu cür müəssisələrin yaradılması yeni iş yerlərinin açılmasına, işsizliyin azaldılmasına, əhalinin məşğulluğunun artırılmasına töhfə verir. Eyni zamanda, bu cür layihələrin reallaşdırılmasının idxaldan asılılığı azaltmaqla, ixracyönümlü məhsulların sayının və çeşidinin artırılmasında da böyük rolu var.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıta səfəri çərçivəsində Dəmir Yolu Vağzalı Kompleksinin açılışında da iştirak edib.

Dövlətimizin başçısı İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Sumqayıt stansiyasının tikintisi, Bakı dairəvi, Ləki-Qəbələ, Astara-Astara dəmir yolu xətlərinin çəkilişi ilə bağlı indiyədək görülmüş və bundan sonra layihələrdə nəzərdə tutulan işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. Prezident İlham Əliyevin 2018-ci il 22 yanvar tarixli Sərəncamına əsasən yenidən inşa olunan üçmərtəbəli Sumqayıt Dəmir Yolu Vağzalı binasının ümumi sahəsi 5,5 min kvadratmetrdir. Binanın birinci mərtəbəsində gözləmə zalı, bilet kassaları, məlumat bürosu, polis məntəqəsi, server otağı, əşyaların saxlanması kamerası yerləşir. Yaxın günlərdə burada ticarət mərkəzinin istifadəyə verilməsi planlaşdırılır. Müasir dizaynla tərtib olunmuş istirahət guşələri sərnişinlərin rahatlığını təmin etmək məqsədi daşıyır. İkinci mərtəbədə ofis və maşinistlər üçün istirahət otaqları, mətbəx yerləşir. Binada müasir təhlükəsizlik kameraları, yanğınsöndürmə və havalandırma sistemi quraşdırılıb. Vağzalın zirzəmi hissəsində avtomobil dayanacağı yaradılıb. Əlavə olaraq stansiyada turniket binası, ikimərtəbəli rele və işarəvermə qurğuları binası, hündür və alçaq platformalar, elektrik yarımstansiyası, su nasosxanası, qazanxana və yol sahəsinin məntəqə binası fəaliyyət göstərəcək.

Bildirildi ki, stansiyada, ümumilikdə, 7 yol yenidən qurulub və çəkilmiş ümumi dəmir yollarının uzunluğu 5 min 20 poqonmetrdir. Kompleksdə 12 yoldəyişən quraşdırılıb, uzunluğu 43 metr olan yeraltı piyada keçidi və platformaya yeraltı çıxış keçidi inşa edilib. Bütün stansiyaboyu rabitə və işarəvermə işləri tamamilə yenilənib, elektrik dirəkləri, rigelləri və kontakt şəbəkəsi yenidən quraşdırılıb. Vağzal kompleksinin ətrafında yaşıllıq və abadlıq işləri görülüb. Ərazi boyunca müasir işıqlandırma sistemi quraşdırılıb.

Vağzalın belə yüksək səviyyədə yenidən qurulması, ümumilikdə, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələrin uğurla davam etməsinin daha bir nümunəsi olmaqla ölkənin polad magistrallarının inkişafına göstərilən dövlət qayğısının davamlı xarakter aldığını nümayiş etdirir.

Sonra Prezident İlham Əliyev Sumqayıt-Bakı marşrutu ilə hərəkət edən sərnişin qatarı ilə Bakıya yola düşdü.

Son illərdə lokomotiv və vaqon parklarının yenilənməsi və digər sahələrin müasir tələblər səviyyəsinə çatdırılması istiqamətində görülən tədbirlər nəticəsində İsveçrənin "Stadler Rail Group" şirkətindən "KISS" markalı ikimərtəbəli elektrik qatarları alınaraq ölkəmizə gətirilib. Həmin qatarlar 2015-ci il sentyabrın 12-də Bakı-Sumqayıt marşrutu ilə hərəkətə buraxılıb və qatarın yolasalma mərasimində Prezident İlham Əliyev iştirak edib.

"Stadler Rail Group" şirkətindən alınan bu elektrik qatarları sərnişinlərin rahat, sürətli və təhlükəsiz daşınması üçündür. Dörd vaqondan ibarət olan ikisistemli elektrik qatarlarının hər birinin ümumi sərnişin tutumu 700 nəfər, oturacaq yerlərin sayı isə 367-dir. Qatar saatda 160 kilometr sürətlə hərəkət edir.

Sumqayıtdan Bakıya və əks istiqamətə qatarların hərəkəti müxtəlif intervallarla həyata keçirilir. Sərnişinlərin sayından asılı olaraq, hərəkət qrafikinə əlavələr edilə bilər. Bildirildi ki, Bakı-Sumqayıt marşrutu ilə sərnişinlərin yüksək sürətlə və rahatlıqla daşınmasını təmin etmək məqsədilə genişmiqyaslı tikinti-quraşdırma və təmir-bərpa işləri aparılıb. Sahə üzrə yeraltı piyada keçidi, hündür platformalar, müasir keçid postları inşa edilib, dəmir yolları əsaslı təmir olunub.

Prezident İlham Əliyev Bakı Dəmir Yolu Vağzalına gəldi.

Dövlətimizin başçısı "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən 2016-cı ildən bəri alınmış yeni sərnişin qatarları, lokomotivlər və müxtəlif dəmir yolu texnikaları ilə də tanış oldu. Bildirildi ki, dəmir yollarında xidmətin keyfiyyətinin yüksəldilməsi, habelə dəmir yolu xətlərinin inşası, təmiri və istismarına nəzarəti təmin etmək məqsədilə göstərilən dövrdə müasir beynəlxalq standartlara uyğun bir çox yeni sərnişin qatarları, lokomotivlər və müxtəlif dəmir yolu texnikaları alınaraq istismara verilib. "EVOLUTİON" seriyalı teplovoz Qazaxıstan istehsalıdır. Lokomotiv 2015-ci ildə istehsal olunub və saatda 120 kilometr sürətlə hərəkət edir.

Sabit cərəyanla işləyən lokomotiv isə Gürcüstanın "Elektrovozquraşdırma" şirkətində istehsal olunub və sürəti saatda 100 kilometrdir.

Dövlətimizin başçısına "Alstom Transport" ikisistemli sərnişin lokomotivi də təqdim olundu. Fransanın "Alstom Transport" şirkəti tərəfindən istehsal edilən bu lokomotiv sabit, həmçinin dəyişən cərəyanla işləyir və saatda 160 kilometr sürətlə hərəkət edir. Bütövlükdə, Avstriya, Rusiya, Çexiya və digər ölkələrdən alınan yeni lokomotiv və avadanlıqlar təmir-tikinti və istismar proseslərinin tamamilə avtomatlaşdırılmasına və mexanikləşdirilməsinə imkan yaratmaqla əl

əməyini tədricən aradan qaldırır. Yeniliklər həm də nəqliyyatın hərəkətini dayandırmadan köhnə relslərin yeniləri ilə əvəz olunması, şpalların dəyişdirilməsi, yol yataqlarının yenidən qurulması, yolların ətrafının təmizlənməsi, elektrik xətlərinin və dirəklərinin əvəzlənməsinə əlverişli şərait yaradır.

Bildirildi ki, alınan yeni sərnişin qatarları, lokomotivlər və müxtəlif texnikalar həm də dəmir yollarında daşımaların təhlükəsizliyini gücləndirəcək, xüsusilə də sərnişinlərə xidmətin keyfiyyətini daha da yüksəldəcək.

Yeni texnikalar dəmir yolu xətlərinin inşasının, təmiri və istismarının müasir standartlara çatdırılmasını təmin edəcək. Bütün bunlar son illərdə ölkəmizdə nəqliyyat infrastrukturunun davamlı inkişafı üzrə dövlət siyasətinin tərkib hissəsidir. Bu gün Azərbaycanda dəmir yolu infrastrukturunun müasirləşdirilməsi, beynəlxalq standartlara uyğun qurulması Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü iqtisadi inkişaf modelinin bəhrəsidir. Bu model bu gün Azərbaycanı Qərblə Şərq, Şimalla Cənub arasında ən mühüm nəqliyyat qovşağına çevirir.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sumqayıt şəhərinə səfəri noyabr;n 16-da başa çatdı.

## *Belarus Respublikasına rəsmi səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Belarus Respublikasına rəsmi səfərə gəlib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Minsk Milli Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi Belarusun Baş nazirinin müavini Mixail Rusıy və digər rəsmi şəxslər qarşıladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasına rəsmi səfəri çərçivəsində noyabrın 19-da Minsk şəhərindəki "Qələbə" meydanında 1941–1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin şərəfinə ucaldılmış abidəni ziyarət edib.

Meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Azərbaycanın və Belarusun dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlətimizin başçısının qarşısından keçdi.

Belarus Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Minskdə Azərbaycan Ticarət Evi ilə tanış olub.

Dövlətimizin başçısına Ticarət Evində yaradılan şərait barədə məlumat verildi.

Minskdə Azərbaycan Ticarət Evi 2017-ci ilin mayında açılıb. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun 2016-cı ilin noyabrında ölkəmizə rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə müzakirə olunan bir sıra məsələlərlə yanaşı, qısa müddət ərzində hər iki ölkə arasında əmtəə dövriyyəsinin artırılması, Azərbaycanın idxalında Belarus məhsullarının payının çoxaldılması, Belarusda Azərbaycan Ticarət Evinin yaradılması, bu ölkədə istehsal edilməyən kənd təsərrüfatı və emal sənayesi məhsullarının Azərbaycandan idxal olunması barədə tapşırıqlar verilib. Həmin tapşırıqların icrası olaraq, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Belarus Respublikasının paytaxtı Minsk şəhərində ümumi sahəsi 529 kvadratmetr olan Azərbaycan Ticarət Evi yaradılıb. Ticarət Evinin idarə edilməsi məqsədilə "Azərbaycan Ticarət Evi" MMC yaradılaraq Belarus Respublikasında dövlət qeydiyyatına alınıb.

Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin Belarus bazarında daha çox tanıdılması, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsi sahəsində fəaliyyət göstərir, Belarusda satışını təşkil edir, bu sahədə əlaqələndirməni həyata keçirir. Ticarət Evində daimi fəaliyyət göstərən sərgidə Azərbaycanın 30 şirkətinin istehsal etdiyi müxtəlif növ məhsullar nümayiş olunur. Burada, həmçinin "ASAN" və "ABAD" stendləri də ziyarətçilərə təqdim edilir. Bundan əlavə, Azərbaycandan başqa, beş ölkədə fəaliyyət göstərən informasiya texnologiyaları şirkəti "Caspel"in nümayəndəliyinin stendi də sərgidə nümayiş olunur.

Bu Ticarət Evinin açılması iqtisadi əlaqələrin, investisiya əməkdaşlığının genişləndirilməsinə, ticarətin şaxələndirilməsinə töhfə verir, iki ölkə arasında ticari-iqtisadi əməkdaşlığın daha da dərinləşdirilməsində mühüm rol oynayır, Azərbaycan məhsullarının heç bir vasitəçi olmadan Belarusa birbaşa ixracı üçün gözəl imkan yaradır.

Yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı Azərbaycan Ticarət Evinin fəaliyyətinə uğurlar arzuladı.

Sonda xatirə şəkilləri çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Minskdə rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycanın və Belarusun dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan Prezidenti İlham Əliyev Belarus əsgərlərini salamladı.

Belarusun dövlət və hökumət nümayəndələri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Belarus Prezidenti Aleksandr Lukaşenkoya təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər birgə foto çəkdirdilər.

Sonra Prezident İlham Əliyev Belarus Respublikası müstəqilliyini bərpa etdikdən sonra Prezident Aleksandr Lukaşenkonun rəhbərliyi dövründə paytaxt Minskdə, həmçinin digər şəhərlərdə əsaslı şəkildə bərpa olunan tarixi memarlıq abidələrinin, o cümlədən kilsə, qəsr və digər abidələrin fotolarına baxdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü olub.

Dövlət başçıları görüşdə çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyevi salamlayan Belarus Prezidenti Aleksandr Lukaşenko dedi:

– Əziz İlham Heydər oğlu, Belarus Sizi gözləyirdi. Rəsmi səfər barədə məlumat çox idi. Bildiyiniz kimi, bunun üçün müxtəlif səbəblər vardı. Bəzən feyk xəbərlər də olurdu. Hərçənd, bu da bir nəticədir. Hətta həqiqətə uyğun olmayan müəyyən mənfi informasiya da bəzən müsbət nəticə verir. Buna görə də Sizin səfərinizə səmimi maraq vardı. Biz bunu çoxdan gözləyirdik. Azərbaycan haqqında çox danışırdılar. Dediyim kimi, bunun səbəbləri çox idi. Səbəblər əsasən xoşniyyətli idi. Belaruslar Azərbaycanı bizə çox dost olan, bizim yaxşı münasibət bəslədiyimiz qardaş respublika kimi qəbul edirlər. Bu, həm Prezidentlər arasında, həm hökumətlərarası komissiyada, həm də ticari-iqtisadi sahədə münasibətlərə aiddir. Bunu demək kifayətdir ki, təkcə son bir ildə Belarus ilə Azərbaycan arasında ticarətin həcmi təqribən 3,5 dəfə artıb.

Bir daha təsdiqləmək və Sizi əmin etmək istəyirəm ki, bizim münasibətlərimizdə heç vaxt qapalı mövzu olmayacaq. Biz bir dövlətdə yaşamışıq. Sizinlə çox yaxın insanlarıq. Kiminsə bunu istəyib-istəməməsindən asılı olmayaraq, bizim köklərimiz sovet dövrünə və bəlkə daha uzağa gedib çıxır – 10–15 nəsil bundan əvvəlki həmvətənlərimiz Sizin həmvətənlərinizlə yaxşı münasibətdə olublar. Siz tarixçi kimi bunu yaxşı bilirsiniz. Buna görə də Sizi Belarus torpağında salamlayırıq. Bizə tez-tez gəlin. Hava bugünkü kimi olmayanda gəlin. Hərçənd, bunun da bir ləzzəti var – xüsusən Bakının quru küləyindən sonra. Düşünürəm ki, qışqabağı Minskdə olmaq və ona tamaşa etmək Sizin üçün faydalı olacaq. Onun öz gözəlliyi var. Ən azı onu görmək lazımdır. Buna görə şadam ki, Siz bizə təşrif gətirmisiniz. Danışmağa mövzu var. Bizim bütün sahələrdə – həm ticari-iqtisadi, həm diplomatik, həm siyasi münasibətlərimiz yaxşıdır, hərbi sahədə yaxşı münasibətlərimiz var. Lakin mövcud münasibətləri daha da genişləndirmək mümkündür, buna çalışmaq lazımdır. Buna görə əminəm ki, Sizin Belarusa bugünkü səfəriniz perspektivdə bizim münasibətlərimizin möhkəmlənməsi yolunda yeni addım olacaq.

Azərbaycan Prezidenti İlham Əliyev dedi:

– Sağ olun, əziz Aleksandr Qriqoryeviç. İlk növbədə, dəvət üçün Sizə təşəkkür edirəm. Yenidən qardaş Belarus torpağında olmağıma çox şadam. Bildiyiniz kimi, bu, Sizin ölkənizə mənim ilk səfərim deyil. Mən Belarusda tez-tez oluram, Siz də Azərbaycana tez-tez rəsmi səfərlər edirsiniz. Bu, bizim yaxşı münasibətlərimizin, məhz ölkələrimiz arasında çox yaxın dostluq əlaqələrinin göstəricisidir. Bu əlaqələrin çox mühüm tarixi aspekti var. Xalqlarımız onilliklər boyu bir-biri ilə fəal ünsiyyətdə olub, əməkdaşlıq ediblər, müstəqillik dövründə isə bu əməkdaşlıq, əlbəttə ki, tamamilə yeni səviyyəyə çatıb.

Bu gün Azərbaycanda Belarus haqqında danışanda, ikitərəfli münasibətlərimizlə bağlı müəyyən hadisələri yada salanda bizim cəmiyyətdə həmişə çox müsbət hisslər yaranır. Vacib olan odur ki, bizim dostluq əlaqələrimiz ölkələrimizin cəmiyyətləri tərəfindən də çox müsbət qəbul edilir. Bilirəm ki, Belarusda da Azərbaycana çox xoş münasibət bəsləyirlər, Azərbaycanda isə Belarusu həqiqətən qardaş ölkə və nəinki keçmiş SSRİ məkanında, həm də dünyada Azərbaycanın ən yaxın tərəfdaşlarından biri hesab edirlər. Bunun səbəbləri çoxdur, o cümlədən Sizinlə şəxsi münasibətlərimiz. İnsanlar bütün bunları - bizim məsələləri necə həll etməyimizi, qarşıya qoyulmuş hədəfə doğru necə getməyimizi görür və qiymətləndirirlər. Son illər bizim münasibətlərimizin fəallaşması, Sizinlə razılaşdırdığımız məsələlərin həlli dövrüdür. Münasibətlərimiz məhz onunla fərqlənir ki, biz razılığa gəldiyimiz bütün məsələləri yerinə yetiririk. Biz bütün beynəlxalq qurumlarda bir-birimizi dəstəkləyirik, əməkdaşlıq edirik, Sizin qeyd etdiyiniz kimi, ticari-iqtisadi əlaqələrimiz möhkəmlənir. Sənaye kooperasiyası çox fəal inkişaf edir. Hərbi-texniki, mədəniyyət, təhsil sahələrində əməkdaşlığın da yaxşı tarixi var. Yəni, biz bütün istiqamətlərdə müsbət, yaxşı əhval-ruhiyyə, konkret nəticələr görürük və əlbəttə, əminəm ki, mənim budəfəki səfərim həm görülmüş işləri müzakirə və təhlil etmək, onlara müəyyən yekun vurmaq, həm də gələcək əməkdaşlıq, yaxınlaşma yollarını müəyyən etmək üçün bir imkandır. Əminəm ki, bu gün biz bu istiqamətdə mühüm qərarlar qəbul edəcəyik.

Fürsətdən istifadə edib Sizi özünüz üçün münasib vaxtda Azərbaycana növbəti rəsmi səfərə dəvət etmək istərdim. Qonaqpərvərliyə və dəvətə görə bir daha sağ olun.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Dövlət başçıları görüşdə çıxış etdilər.

Belarus Prezidenti Aleksandr Lukaşenko dedi:

-Hörmətli İlham Heydər oğlu.

Hörmətli dostlar.

Sizi Belarusun paytaxtında salamlamağa ürəkdən şadam. Bu il ölkələrimiz arasında diplomatik münasibətlər yaradılmasının 25 illiyi qeyd edildi. Biz bu əlamətdar tarixə yaxşı nəticələrlə gəlmişik. Əsrin dörddəbiri ərzində ikitərəfli dialoq strateji xarakter alıb. Dövlətlərarası etimadın yüksək səviyyədə olması təsadüfi deyil. Bunun əsasını Belarus və Azərbaycan xalqlarının qədim dostluq ənənələri təşkil edir. Bu, hətta ən mürəkkəb məsələləri də konstruktiv şəraitdə müzakirə etməyə imkan verir. Vurğulamalıyam ki, Belarus ticari-iqtisadi sahədə sistemli və uzunmüddətli əməkdaşlıq əzmindədir. Azərbaycan ilə əmtəə dövriyyəsinin müsbət dinamikasına baxmayaraq, onun həcmi optimal səviyyədən uzaqdır. Bu gün biz Prezidentlə bu barədə xeyli söhbət etdik. Biz əmtəə dövriyyəsinin artırılması üçün potensialın olduğunu görürük. İqtisadiyyatın inkişafına Prezidentlə bizim baxışlarımızın oxşar olması sayəsində geniş istehsal kooperasiyası üçün təməl yaradılıb. Belarusda maşınqayırmanın flaqmanları olan Minsk traktor zavodu, Minsk avtomobil zavodu, habelə Gəncə avtomobil zavodu bu işin layiqli nümunəsini nümayiş etdiriblər. Gəncədə artıq 10 mindən çox traktor və 3500 vahid avtotexnika yığılıb.

Bu gün biz əməkdaşlığın prinsipcə yeni mərhələsinə – üçüncü ölkələrin bazarlarının birgə mənimsənilməsinə başlamağa hazırıq. Vaxtilə biz bu barədə yalnız arzu edirdik. Minsk və Gəncə zavodlarının iştirakı ilə Türkiyə üçün traktorların buraxılışı layihəsi yüksək hazırlıq səviyyəsindədir. Gələcək məhz bu cür təşəbbüslərindir, onlara istiqamətlənmək lazımdır. Azərbaycana elektrobuslar, liftlər, taxılyığan kombaynlar və digər kənd təsərrüfatı texnikası göndərilməsi və onların orada yığılması kimi istiqamətlər üzrə perspektivlər var. Biz vaxtilə öz kombaynlarımızın istehsalı barədə qərar qəbul etməyə məcbur olduq və yanılmadıq. Biz bu texnikanın sizdə birgə istehsalını yaratmağa və hətta Azərbaycandan daha çox üçüncü ölkələr üçün işləməyə hazırıq. Ona görə ki, sizin qonşularınızın bu texnikaya ehtiyacı Azərbaycanın özünün ehtiyacından xeyli çoxdur. Odur ki, biz MAZ və MTZ prinsipləri üzrə bu texnikanın Azərbaycanda birgə istehsalı ilə məşğul olmağa hazırıq.

Bundan əlavə, aqrar sahədə əlaqələri genişləndirmək, ərzaq məhsullarının qarşılıqlı satışını artırmaq lazımdır. Azərbaycan istehlakçısının bizim süd, ət, balıq məhsullarımıza, qənnadı məmulatlarımıza tələbatı var. Beynəlxalq ticarət ikitərəfli ticarətdir. Buna görə də Belarus bazarında sizin malların artırılmasına maraq var. Bu gün Prezident baş çəkdiyi Ticarət Evi haqqında danışdı. Gələcəkdə bu şəbəkəni inkişaf etdirərək vilayət mərkəzlərinə keçmək nəzərdə tutulur. Tanrının izni ilə, bu mağazalar və bu ticarət evləri sizin məhsullarla dolu olacaq. Həmin məhsulları təkcə belaruslar almır. Ukrayna hadisələri ilə əlaqədar bütün axınlar Belarusdan keçir, Azərbaycan məhsullarına çox böyük tələbat var. Xüsusən ona görə ki, azərbaycanlılar ticarəti bacaran ən yaxşı adamlardır, mən bunu həmişə etiraf etmişəm. Bunu necə etməyi biz sizdən öyrənməliyik. Bununla əlaqədar keçən il Minskdə Ticarət Evi açılmasını alqışlayıram. Biz bu layihəyə maksimum dəstək veririk, əmtəə dövriyyəsinin tarazlaşdırılmış artımı istiqamətləri üzrə təklifləri bundan sonra da dəstəkləmək niyyətindəyik.

Siz lap yaxın vaxtlarda Türkiyədə neft emalı kompleksi inşa etmisiniz. Azərbaycanlı sərmayədarların Belarusa gəlişinə şad olarıq və strateji sahələrdə ciddi qarşılıqlı fəaliyyətə hazırıq. İndi Azərbaycan Dövlət Neft Şirkətinin "Qrodno-Azot" şirkətinin modernləşdirilməsinə sərmayə qoyması imkanları müzakirə edilir. Biz bu cür səyləri alqışlayırıq.

Nəqliyyat-logistika sahəsində xeyli ehtiyatlar var. Məsələn, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin yaradılması və "İpək Yolu İqtisadi Kəməri" təşəbbüsü çərçivəsində dəmir yollarının çəkilişi. Biz həmin layihələrə bu və ya digər şəkildə qoşulmuşuq. Fikrimcə, əczaçılıq üzrə birgə müəssisələrin yaradılması, habelə informasiya-kommunikasiya texnologiyaları, elm və mədəniyyət sahələrində səylərin əlaqələndirilməsi perspektivli olacaq. Biz Azərbaycan üçün, özü də sizə lazım olacaq bütün ixtisaslar üzrə lazımi qədər kadrlar hazırlanmasını davam etdirmək əzmindəyik. O cümlədən sizin xilasedicilərin Belarus Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Universitetində təhsil alması yolu ilə.

Hüquq-mühafizə strukturlarının, sosial-müdafiə qurumlarının, aqrokompleksin, xüsusi rabitə və informasiyalaşdırma sahələrinin əməkdaşları arasında ənənəvi sıx və fəal ikitərəfli əlaqələr dəstəklənir. İmzalanmaq üçün hazırlanmış sazişlər bizim əməkdaşlığımızı daha da səmərəli edəcək. Belarus ikinci Avropa Oyunlarının müdiriyyəti ilə əməkdaşlıq edən azərbaycanlı məsləhətçilərə, Azərbaycan Gənclər və İdman Nazirliyinə təşəkkür edir. Gələn il keçiriləcək Oyunların təşkili məsələsində göstərdiyiniz fəal köməyə və dəstəyə görə sizə təşəkkür edirəm və təbii ki, sizin hamınızı həmin Oyunlarda gözləyirik.

Bir daha vurğulayıram, Azərbaycan bizim üçün etibarlı strateji tərəfdaş olub və olaraq qalır. Biz

sizinlə dostluğumuzu yüksək qiymətləndiririk və Avropanın mərkəzində Azərbaycanın mənafelərinin irəliləməsinə səmimi və açıq şəkildə kömək etməyə hazırıq. Bizdə əməkdaşlıq üçün qapalı mövzular yoxdur. Biz heç vaxt hansısa üçüncü, beşinci ölkələrə qarşı əməkdaşlıq etməmişik. Biz xalqlarımızın rifahı üçün nə lazımdırsa edirik. Hər hansı gizli, qapalı mövzular yoxdur və heç vaxt olmayacaq. Biz bütün dünya üçün səmimi və açığıq, bizim qarşılıqlı münasibətlərimiz də elədir.

Hörmətli İlham Heydər oğlu, Sizi və nümayəndə heyətinizin üzvlərini Belarus torpağında bir daha salamlayıram. Bilin ki, siz bizim üçün həmişə arzu edilən qonaqlarsınız. Təşəkkür edirəm.

Azərbaycan Prezidenti İlham Əliyev dedi:

– Hörmətli Aleksandr Qriqoryeviç, ilk növbədə, dəvətə görə Sizə bir daha təşəkkür etmək istərdim. Belarusa səfər bizə həmişə xüsusi sevinc bəxş edir. İlk növbədə, Sizi və bütün Belarus xalqını ölkənizin sosial-iqtisadi inkişafında qazandığınız nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Mən Belarusa müntəzəm səfər edən bir şəxs kimi ölkənizin necə dinamik və səmərəli inkişaf etdiyini görürəm. Bizim münasibətlərimiz ölkələrimiz arasındakı səmimiyyəti və əməkdaşlığı yaxşı nümayiş etdirir. Biz bütün məsələlərlə bağlı qarşılıqlı fəaliyyət göstəririk və qəbul edilən qərarlar hökmən həyata keçirilir. Bu gün Siz ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərini qeyd etdiniz. Mən də öz növbəmdə qeyd etmək istərdim ki, biz bütün istiqamətlər üzrə fəal irəliləyiş olduğunu və yaxşı nəticələr qazanıldığını görürük. Bizim hər görüşümüz münasibətlərimizə təkan verir və konkret layihələrin həyata keçirilməsinə doğru aparır. Biz görülmüş işlərə yekun vururuq, gələcək qarşılıqlı fəaliyyətin və əməkdaşlığın yollarını müəyyənləşdiririk və qəbul etdiyimiz qərarları səmərəli şəkildə həyata keçiririk.

Beynəlxalq münasibətlər sahəsində əməkdaşlıq da həmişə çox səmərəli və proqnozlaşdırıla biləndir. Biz həmişə bir-birimizi dəstəkləyirik və düşünürəm ki, beynəlxalq məsələlərdə qarşılıqlı dəstək bizim münasibətlərin səmimiliyini yaxşı nümayiş etdirir. Biz şadıq ki, ölkələrimiz arasında əmtəə dövriyyəsi artır. Həm keçən il, həm də bu il əmtəə dövriyyəsini xeyli artırmağımıza baxmayaraq, onun artım dinamikası davam edir. Siz qeyd etdiyiniz kimi, sənaye kooperasiyası sahəsində müstəsna müsbət nəticələr əldə edilib. Lakin biz əməkdaşlığı davam etdirmək, qazanılmış səviyyə ilə kifayətlənməmək fikrindəyik. Ona görə ki, sənaye sahəsində əməkdaşlıq potensialını bundan sonra da artırmaq üçün hələ çox iş görmək olar.

Fikrimcə, bizim gələcək əməkdaşlığımızın əsas istiqamətlərindən biri nəqliyyat sahəsi ilə bağlı olacaq. Siz çıxışınızda Şimal-Cənub nəqliyyat dəhlizini qeyd etdiniz. Azərbaycan öz ərazisində bu dəhlizin fəaliyyəti ilə əlaqədar bütün işləri başa çatdırıb. İndi biz bu gün xeyli yük daşımağa qabil olan nəqliyyat infrastrukturumuzun daha da modernləşdirilməsi məsələləri ilə məşğuluq. Azərbaycan həm də Şərq-Qərb nəqliyyat dəhlizinin fəal iştirakçısıdır. Düşünürəm ki, bu iki mühüm nəqliyyat marşrutu üzrə ölkələrin fəaliyyətinin əlaqələndirilməsi əməkdaşlıq üçün tamamilə yeni şərait yaradacaq, on minlərlə yeni iş yerinin açılmasına gətirib çıxaracaq, ölkələrimiz arasında yük axınını xeyli artıracaq. Təsadüfi deyil ki, hökumətlərarası komissiyanın dünənki iclasında mühüm mövzulardan biri nəqliyyat sahəsi ilə bağlı məsələlər olub.

Əlbəttə, biz Belarusun ikinci Avropa Oyunlarını keçirməyə necə fəal hazırlaşdığını diqqətlə izləyirik. Bu, təbiidir, birincisi ona görə ki, biz dostlarıq. İkincisi, birinci Oyunlar Bakıda keçirilib. Biz inanırıq ki, yaradılmış idman infrastrukturu, qonaqların qalmaları üçün gözəl şərait, habelə Belarusun beynəlxalq tədbirlərin təşkili sahəsində nümayiş etdirdiyi yüksək səviyyə Oyunların da çox yüksək səviyyədə keçirilməsinə imkan verəcək.

Siz qeyd etdiyiniz kimi, biz kənd təsərrüfatı, təhsil və elm sahələrində əməkdaşlığa da böyük diqqət yetiririk. Daha doğrusu, bizim çox yaxşı nəticələr əldə etdiyimiz sahələri sadalamaqdansa, fəal əməkdaşlıq etmədiyimiz sahələri sadalamaq daha asan olar. Bizim münasibətlərimizin başlıca əsası qarşılıqlı dəstək, qarşılıqlı hörmət və qarşılıqlı etimadın yüksək səviyyəsidir. Düşünürəm ki, biz bu əsasda birgə səylərimizlə ölkələrimiz, xalqlarımız üçün yaxşı imkanlar yaradacaq, münasibətlərimizi daha da inkişaf etdirəcəyik. Azərbaycan üçün Belarus mehriban dost və etibarlı tərəfdaşdır. Əminəm ki, mənim bugünkü səfərim münasibətlərimizə yeni təkan verəcək.

Qonaqpərvərliyə görə Sizə bir daha təşəkkür edirəm və əminəm ki, yaxşı nəticələr ölkələrimiz arasında daha sıx qarşılıqlı fəaliyyətə gətirib çıxaracaq. Sağ olun.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyanatını Prezident İlham Əliyev və Prezident Aleksandr Lukaşenko imzaladılar.

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında sosial-əmək sahəsində əməkdaşlıq məsələləri üzrə Anlaşma Memorandumu"nu Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Belarusun əmək və sosial müdafiə naziri İrina Kosteviç imzaladılar.

"Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Belarus Respublikasının Rabitə və İnformasiya Nazirliyi arasında rabitə

və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu"nu Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Belarusun rabitə və informasiya naziri Konstantin Şulqan imzaladılar.

"Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyi arasında 17 oktyabr 2006-cı il tarixində Minsk şəhərində imzalanmış əməkdaşlıq haqqında Sazişin həyata keçirilməsinə dair 2019-2021-ci illər üzrə Kompleks Tədbirlər Planı"nı Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Belarusun fövqəladə hallar naziri Vladimir Vaşenko imzaladılar.

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Belarus Respublikasının Dövlət Hərbi-Sənaye Komitəsi arasında hava hücumundan müdafiə silah və texnikasının təchiz olunması sahəsində ikitərəfli qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın müdafiə naziri Zakir Həsənov və Belarusun Dövlət Hərbi-Sənaye Komitəsinin sədri Roman Qolovçenko imzaladılar.

"Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Belarus Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı və ərzaq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov və Belarusun kənd təsərrüfatı nazirinin müavini Vladimir Qrakun imzaladılar.

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ilə Belarus Respublikası Məhkəmə Ekspertizası Dövlət Komitəsi arasında məhkəmə-ekspertiza fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov və Belarusun Məhkəmə Ekspertizası Dövlət Komitəsinin sədri Andrey Şved imzaladılar.

"Azərbaycan Respublikasının Baş Prokurorluğu və Belarus Respublikasının Baş Prokurorluğu arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın baş prokuroru Zakir Qaralov və Belarusun baş prokuroru Aleksandr Konyuk imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Belarusun daxili işlər naziri İqor Şuneviç imzaladılar.

Sənədlərin imzalanmasından sonra ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə həsr olunmuş birgə poçt markasının buraxılışı mərasimi oldu. Azərbaycanın və Belarusun dövlət başçıları markaları xüsusi ştamplarla möhürlədilər.

Prezident İlham Əliyev və Prezident Aleksandr Lukaşenko üzərində marka olan zərfi imzaladılar.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata birgə bəyanatla çıxış ediblər.

Əvvəlcə Belarusun dövlət başçısı bəyanatla çıxış etdi.

**Prezident Aleksandr Lukaşenkonun bəyanatı**

-Hörmətli dostlar.

Bu gün mənim dostum, həmkarım Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevlə məhsuldar danışıqlar apardıq. Biz ölkələrimiz arasında tərəfdaşlığın strateji xarakterini, ikitərəfli münasibətlərdə problemlərin qətiyyən olmadığını, yalnız xoş məramı və bizim birgə əməkdaşlıq səylərimizi təsdiq etdik. Bu il mühüm tarixlə - Belarusla Azərbaycanın diplomatik münasibətlər qurmasının 25 illiyi ilə əlamətdardır. Əsrin dörddəbiri ərzində ölkələrimiz dövlətlərarası qarşılıqlı fəaliyyətin qurulmasında xeyli irəliləyiblər. Buna müntəzəm dialoq, o cümlədən yüksək səviyyədə dialoq kömək edib.

Mən Prezident həmkarımla görüşlərin etimada əsaslanan, səmimi ab-havasını çox yüksək qiymətləndirirəm. Biz beynəlxalq gündəliyin istisnasız olaraq bütün məsələlərini açıq və məhsuldar müzakirə edirik. Bugünkü danışıqların gedişində əsas diqqət uğurlu ticari-iqtisadi və investisiya əməkdaşlığına yönəldilib. Əldə olunan razılaşmalar bu əməkdaşlığın artırılmasına əlavə impuls verməyə kömək edəcək.

Cari ildə biz qarşılıqlı ticarətin artımını müşahidə edirik. Bir vaxtlar təşəbbüskarları prezidentlər olan layihələr gücünü artırır. Məsələn, Gəncə avtomobil zavodunda 11 il ərzində artıq 10 mindən çox "Belarus" traktoru və onların bazasında xüsusi texnika yığılıb. Müəssisə, həmçinin 3500-dən çox MAZ avtomobili və qoşqular buraxıb. Bu gün məmnuniyyətlə öyrəndim ki, sizin aldığınız Amerika və alman taxılyığan kombaynları ilə yanaşı, Azərbaycana Belarusun ilk "Qomselmaş"ı da gəlib. Bizim üçün bu, qarşılıqlı səmərəli əməkdaşlığın əla nümunəsidir. Yeri gəlmişkən, lokallaşma artıq demək olar ki, yarıya çatıb. Bu, Azərbaycan sənayesinin böyük imkanlarından və onun yüksək kadr potensialından aydın xəbər verir. Amma məhsul nə qədər keyfiyyətli olsa da, onu səmərəli satmaq, həm də yaxşı olar ki, ixrac etmək lazımdır. Buna görə də Minsk traktor zavodu və Gəncə avtomobil zavodu hazırda Türkiyədə traktorların yığılması ilə bağlı bizim ümumi layihə üzərində işləyir. Biz bu mühüm perspektivli istiqaməti inkişaf etdirəcəyik və bu, Azərbaycan Prezidentinin mövqeyi sayəsində mümkün olub.

Belarus Azərbaycan investisiyalarına və yüksək səviyyəli məhsullarına maraq göstərir. Bu gün sizin məhsullar ötən il Minskdə açılan Azərbaycan Ticarət Evində geniş təqdim edilir. Onların Belarus alıcılarında populyarlıq qazanmasına görə Azərbaycan Prezidenti bu şəbəkənin vilayət mərkəzlərinə genişləndirilməsi haqqında qərar qəbul edib.

Nəqliyyat-logistika sahəsində də birlikdə çox iş görmək olar. Biz Azərbaycanın infrastruktur layihə-

lərində – yeni dəmir yollarının, dəniz limanlarının, logistika mərkəzlərinin tikintisində iştirak etməyə hazırıq. Səhiyyədə, təhsildə, informasiya-kommunikasiya texnologiyalarında, idmanda, turizmdə əməkdaşlıq ehtiyatları mövcuddur. Bu gün əldə olunan razılaşmaların gerçəkləşdirilməsi lap tezliklə niyyətlərimizi konkret işlərə çevirməyə imkan verəcək. Məsələn, artıq Azərbaycanda Belarus dərmanlarının buraxılışı üzrə birgə müəssisənin yaradılması sahəsində işlər aparılır. Tam əminəm ki, digər irimiqyaslı maraqlı layihələrin gerçəkləşməsi də çox uzaqda deyil.

Əziz dostlar, sizə məlumdur ki, 2019-cu ildə Belarus Bakıdan sonra ikinci Avropa Oyunlarını qəbul edir. Prezidentlə mən 2015-ci ildə belə miqyaslı tədbiri əla keçirməyin öhdəsindən gələn Azərbaycanın təcrübəsini ətraflı müzakirə etdik. Üstəlik deməliyəm ki, sizdən sonra bütün ölkələr belə oyunları qəbul etməyə qorxurlar. Çünki həmin səviyyə ilə rəqabət aparmaq, mən bunu səmimi deyirəm, qətiyyən mümkün deyil. Biz də bu səviyyəni aşağı salmamaq üçün ciddi fikirləşməliyik. Həm də fikirləşməliyik ki, bunu nəyin hesabına edə bilərik. Amma birmənalı olaraq sizə minnətdarıq ki, mütəxəssisləriniz, nazirləriniz bizə ciddi məsləhətlər verərək, bizi faktiki surətdə ikinci Avropa Oyunlarına hazırlayırlar. Həm də mən, ilk növbədə, bu beynəlxalq idman tədbirinə hazırlıqda köməyinə görə öz həmkarıma təşəkkür edirəm. Növbəti dəfə sizin hamınızı, məhz bu Avropa Oyunlarını izləməyi arzulayan Azərbaycan vətəndaşlarını Belarusa gəlməyə dəvət edirəm.

Bizim ölkələrimiz arasında həll edilməmiş məsələlər və müzakirə üçün qapalı mövzular yoxdur. Belarus və Azərbaycan həmişə etibarlı və strateji tərəfdaş olaraq qalacaqlar. Əminəm ki, ənənəvi səmərəli əməkdaşlıq, qarşılıqlı dəstək bundan sonra da Belarus-Azərbaycan münasibətlərini fərqləndirən cəhət olacaq. Təşəkkür edirəm.

Sonra Azərbaycan dövlətinin başçısı bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**

– Hörmətli Aleksandr Qriqoryeviç.

Əziz dostlar.

Mən yenidən dost Belarus torpağında olmağımdan şadam. Dəvətə görə dostum Aleksandr Qriqoryeviç Lukaşenkoya minnətdaram. Deməliyəm ki, mənim Belarusa indiki səfərim sizin ölkənizə beşinci rəsmi səfərimdir. Aleksandr Qriqoryeviç Azərbaycana dörd rəsmi səfər edib və mən bu gün Belarus Prezidentini yenidən Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Qarşılıqlı səfərlərin sayının özü və onların intensivliyi ölkələrimiz arasında münasibətlərimizin yüksək səviyyəsindən xəbər verir. Aleksandr Qriqoryeviç qeyd etdi ki, bizim ölkələrimiz strateji tərəfdaşlardır və biz bunu əməkdaşlığımızın hər bir sahəsində nümayiş etdiririk.

Siyasi münasibətlərin yüksək səviyyəsi, ölkələrimiz arasında qarşılıqlı hörmət, etimad, prezidentlər arasında şəxsi dostluq – bütün bunlar üzərində Belarus–Azərbaycan dostluğunun möhtəşəm binasının tikildiyi təməldir.

Biz beynəlxalq təşkilatlarda aktiv qarşılıqlı fəaliyyət göstəririk, bütün məsələlərdə bir-birimizi dəstəkləyirik. Mən deyərdim ki, bu dəstək avtomatik xarakter daşıyır – hətta müzakirəsiz, məsləhətsiz, razılaşmasız. Əgər hər hansı beynəlxalq təşkilatda Belarusla, yaxud hər hansı rəhbər orqanlara namizədliyi irəli sürülən bu ölkədən namizədlə əlaqədar məsələ qaldırılırsa, Azərbaycan qeyd-şərtsiz dəstək göstərir. Eyni münasibəti biz Belarus tərəfdən də görürük. Bu, bizim münasibətlərimizin yüksək səviyyəsinin göstəricisidir. Biz, həmçinin ya Azərbaycanın, ya da Belarusun iştirak etmədiyi, amma başqa ölkənin iştirak etdiyi təşkilatlarda da bir-birimizi dəstəkləyirik və bu da təbiidir. Bu, bizim beynəlxalq siyasət, beynəlxalq münasibətlər, regional problemlər və beynəlxalq təhlükəsizliklə əlaqədar məsələləri müzakirə etdiyimiz kimi təbiidir. Bütün bunlar dostlar arasında təbiidir.

Bu gün bizim münasibətlərimizin səviyyəsi məhz elədir ki, istənilən məsələləri açıq müzakirə etməyə imkan verir. Aleksandr Qriqoryeviçin qeyd etdiyi kimi, bizdə heç bir qapalı mövzu və əməkdaşlığımızın heç bir sahəsində qətiyyən məhdudiyyət yoxdur. Biz bu gün gələcəkdə münasibətlərimizin xarakterini müəyyənləşdirəcək xeyli sənəd imzaladıq. Mən onların arasında, ilk növbədə, əlbəttə, prezidentlərin Birgə Bəyanatını qeyd edərdim. Bu, əməkdaşlığımızın əsas istiqamətlərini ehtiva edən, ölkələrimizin siyasi iradəsini ifadə edən mühüm siyasi sənəddir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar məsələlər üzrə Belarusun mövqeyinə görə həm öz adımdan, həm də Azərbaycan xalqı adından xüsusi minnətdarlığımı bildirmək istərdim. Birgə Bəyanatda vurğular dəqiq qoyulub və deyilir ki, bu münaqişə Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri çərçivəsində beynəlxalq hüquq normalarına uyğun həll edilməlidir. Biz Belarusa həm bizim, həm də bütün region üçün son dərəcə mühüm olan məsələdə belə obyektiv mövqeyinə görə minnətdarıq.

Aleksandr Qriqoryeviçin dediyi kimi, ticari-iqtisadi sahədə yaxşı perspektivlər və nəticələr var. Əlbəttə, əmtəə dövriyyəsinin artımı bizi sevindirir. Bu gün biz vəziyyəti təhlil etdik. Dünən hökumət üzvləri çox uğurlu iş apardılar - hökumətlərarası komissiyanın iclası çox yaxşı nəticələr verdi. Bizə bildirdilər ki, on milyonlarla dollarlıq müqavilələr bağlanıb. Bu, gələcək üçün yaxşı göstəricidir. Biz görülən işləri təhlil edirik, məsələlərin həlli yollarını müəyyənləşdiririk və bu məsələləri həll edirik. Mən Aleksandr Qriqoryeviçlə Gəncə avtomobil zavodunun bazasında "Belarus" traktorlarının yığılması üçün istehsal sahəsi yaratmaq barədə razılaşanda da eyni hadisə baş verdi. Budur,

Aleksandr Qriqoryeviçin qeyd etdiyi kimi, artıq 10 mindən çox traktor yığılıb və lokallaşma səviyyəsi ildən-ilə artır. Bu, Azərbaycanda yeni iş yerləri yaradır. Artıq yeni sənaye sahəsi yaradıb. Bu, bizim sənaye potensialımızın artımına səbəb olub. Bu, belaruslu istehsalçılara öz təcrübələrini bizimlə bölüşmək, öz məhsullarını üzə çıxarmaq imkanı yaradıb və indi o məhsullar artıq üçüncü ölkələrin bazarlarına çıxır.

Biz bu gün kombaynların istehsalı üçün oxşar yanaşma barədə razılaşdıq. Artıq qeyd edildiyi kimi, Belarus avtomobilləri Azərbaycanda istehsal olunur. Belə ki, çox yüksək səmərəlilik dərəcəsi ilə tammiqyaslı sənaye kooperasiyası gedir.

Mən bu gün səhər Azərbaycan Ticarət Evinə baş çəkdim. Deməzdim, təəccübləndim, amma sevindim ki, belə gözəl yerdə, şəhərin mərkəzində Azərbaycanın yaraşıqlı guşəsi yaradılıb və orada bizim nailiyyətlərimiz Belarus vətəndaşlarına nümayiş etdiriləcək. Həmçinin mənə dedilər ki, bizim məhsullarımız artıq Belarus bazarına çıxıb və onlara yaxşı tələbat var. Biz bu baxımdan belaruslulardan geri qalmışıq. Artıq Bakıda yüksək keyfiyyətli və bizim vətəndaşlar arasında çox məşhur olan Belarus məhsullarını satan yeddi ticarət müəssisəsi mövcuddur. Biz məhsullarımızı Belarus bazarına çıxarmaq niyyətindəyik. Düşünürəm ki, bu, həm bizim ikitərəfli ticari-iqtisadi əlaqələrimizi möhkəmləndirəcək, həm də bir-birimizin imkanlarını daha çox nümayiş etdirəcək.

Biz şadıq ki, Belarus Bakıdan estafeti qəbul edib və ikinci Avropa Oyunları Minskdə keçiriləcək. Əminəm ki, Oyunlar ən yüksək səviyyədə olacaq. Artıq çox gözəl idman infrastrukturu yaradılıb. Qonaqların qalması üçün də yaxşı şərait var. Düşünürəm ki, təşkilatçılıq da ən yüksək səviyyədə olacaq. Çünki Belarusda keçirilən bütün irimiqyaslı beynəlxalq tədbirlər ən yüksək standartlara cavab verir.

Bizim əməkdaşlığımızın istiqamətlərindən biri də hərbi-texniki sahədir. Biz bu əməkdaşlıqdan çox razıyıq, məhsulların keyfiyyəti və səmərəliliyi çox yüksəkdir. Buna görə də təsadüfi deyil ki, ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın artıq yaxşı tarixi, kifayət qədər böyük həcmləri və genişlənməyə yaxşı meyli var. Təsadüfi deyil ki, bu gün imzalanan sənədlər arasında memorandum da var. Bu sənəd ən qısa müddətdə Belarusdan hərbi texnikanın növbəti partiyasının alınması üçün müqaviləyə çevriləcək.

Bu gün bizim müzakirə etdiyimiz digər istiqamətlər – sosial, kənd təsərrüfatı, miqrasiya, fövqəladə hallar sahələri üzrə də yaxşı dinamika mövcuddur. Münasibətlərimiz tam dəyərli, olduqca mehriban və səmimidir. Əminəm ki, mənim səfərim onlara yeni təkan verəcək. Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

Sonra Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına rəsmi səfəri noyabrın 19-da başa çatıb.

## *Türkmənistana rəsmi səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Türkmənistana rəsmi səfərə gəlib.

Azərbaycanın və Türkmənistanın dövlət bayraqlarının dalğalandığı Aşqabad beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Türkmənistanın Baş nazirinin müavini, xarici işlər naziri Rəşid Meredov və digər yüksək vəzifəli şəxslər qarşıladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda “Xalq xatirəsi” memorial kompleksini ziyarət edib.

Kompleksdə 1948-ci ildə baş vermiş zəlzələ zamanı həyatlarını itirmiş və Göytəpə döyüşlərində şəhid olmuş insanların xatirəsinə abidələr ucaldılıb.

Prezident İlham Əliyev “Əbədi şöhrət” abidəsinin önünə əklil qoydu.

Sonra dövlətimizin başçısı “Vətən müqəddəsliyi” muzeyi ilə tanış olub.

Muzeydə Göytəpə döyüşlərinin maketi quraşdırılıb, eyni zamanda, Göytəpə qalası, həmin döyüşlərin qəhrəmanları, döyüşlər zamanı istifadə olunan silah və libaslar, həmçinin digər eksponatlar nümayiş olunur.

Dövlətimizin başçısı 1881-ci ildə baş vermiş Göytəpə döyüşlərinin instalyasiyasına baxdı. Muzeydə, eyni zamanda, İkinci Dünya müharibəsi, onun qəhrəmanları, həmçinin həmin müharibə zamanı hərbçilərin istifadə etdikləri geyimlər, silah-sursat və digər eksponatlar sərgilənir.

Muzeyin növbəti bölməsi 1948-ci ildə Aşqabadda baş verən zəlzələyə həsr olunub. Burada həmin zəlzələ zamanı dağılan binaların qalıqları təqdim edilir.

Türkmənistanın inkişafına həsr olunan bölmədə müasir Aşqabadın görkəmini əks etdirən fotolar nümayiş etdirilir.

Prezident İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda Olimpiya Kompleksi ilə tanış olub.

2017-ci ildə Aşqabadda keçirilən qapalı məkanlarda və döyüş növləri üzrə V Asiya Oyunlarının ən əsas idman obyektləri bu Kompleksin ərazisində yerləşir.

Ümumi ərazisi 157 hektar olan Olimpiya Kompleksində qapalı məkanlarda və döyüş növləri üzrə V Asiya Oyunlarının açılış və bağlanış mərasimləri, bütün yarışlar, o cümlədən mükafatlandırma tədbirləri təşkil olunub. Kompleksdə ümumilikdə 30-dan çox müxtəlif təyinatlı idman qurğusu, həmçinin 45 min tamaşaçı tutumu olan Olimpiya stadionu, paralimpiya kompleksi və tibbi bərpa mərkəzi yerləşir.

Ərazidə, eyni zamanda, üzgüçülük arenası, voleybol, basketbol, futbol meydançaları, Olimpiya kəndi, qapalı velotrek, döyüş sənəti üzrə idman kompleksi, yüngül atletika arenası və tennis kortu, eləcə də idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün çoxfunksiyalı zal inşa olunub.

Aşqabad Olimpiya Kompleksində, həmçinin biznes-mərkəz, mehmanxanalar və sağlamlıq mərkəzi də fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda Türkmən milli xalça muzeyi ilə tanış olub.

Bu muzey Türkmənistan Prezidentinin Sərəncamı ilə 1993-cü ildə yaradılıb. Məqsəd Türkmənistanın xalçaçılıq sənətini qorumaq və inkişaf etdirməkdir. Muzeyin yaradıldığı gün hər il ölkədə Türkmən Xalçası Günü kimi qeyd olunur.

Burada muzeylə yanaşı, “Türkmənxalı” Dövlət Birliyinin inzibati binası da var. Muzey binasının ümumi sahəsi 5 min kvadratmetrdən çoxdur.

Bu muzeydə 2 mindən çox xalça nümunəsi toplanılıb. Onların sırasında nadir eksponatlar da var. Burada miniatür xalça nümunələri ilə bərabər, əl ilə toxunan ən böyük xalça kimi Ginnesin rekordlar kitabına düşmüş ümumi sahəsi 301 kvadratmetr olan “Altın asır” xalçası da nümayiş etdirilir. Bu böyük xalça Türkmənistanın müstəqilliyini bərpa etməsinin 10 illiyi münasibətilə toxunulub. Muzeydə köhnə xalçaların bərpası da həyata keçirilir.

Burada, həmçinin müxtəlif səpkili mədəni tədbirlər, sərgilər, beynəlxalq forumlar və konfranslar da təşkil olunur. Bu muzey Türkmənistanın mühüm mədəniyyət mərkəzlərindən biri hesab edilir.

Dövlətimizin başçısı muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Aşqabaddakı Müstəqillik Meydanında rəsmi qarşılanma mərasimi olub.

Azərbaycanın və Türkmənistanın dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Türkmənistanın dövlət himnləri səsləndi.

Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan əsgərlərini salamladı.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Türkmənistanın dövlət və hökumət nümayəndələri, xarici ölkələrin Aşqabadda akkreditə olunmuş səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərləri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova təqdim edildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.

Sonra Azərbaycan və Türkmənistan prezidentləri süvari dəstənin müşayiəti ilə Oğuzxan adına saray kompleksinə gəldilər.

Prezidentlər rəsmi foto çəkdirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olub.

Dövlət başçıları görüşdə çıxış etdilər.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov dedi:

– Hörmətli İlham Heydər oğlu.

İcazə verin, bizim dəvətimizi qəbul etdiyinizə və qardaş qonşu ölkəyə – qonaqpərvər Türkmənistana rəsmi səfərə gəldiyinizə görə Sizə dərin minnətdarlığımı bildirim. Sizin nümayəndə heyətinin üzvlərinə təşəkkür edirik.

Bildiyiniz kimi, Türkmənistan və Azərbaycan xalqlarının qədim, zəngin mənəvi ənənələri olub. Yəni, biz həmişə, bütün dövrlərdə çox böyük potensiala və imkanlara malik olmuşuq. Sevindirici haldır ki, həm Türkmənistan, həm də Azərbaycan müasir mərhələdə həmin potensialdan istifadə edir. Biz bunu siyasi arenada, iqtisadi məsələlərimizdə, bir sıra başqa sahələrdə görürük. Bu baxımdan bizim güclü ehtiyatımız var. Biz bu ehtiyatdan həm xalqlarımızın rifahı naminə, həm də regional və beynəlxalq səviyyədə istifadə edə bilərik. Ən başlıcası odur ki, biz bütün bunlardan istifadə edirik. Biz Birləşmiş Millətlər Təşkilatı kimi çox nüfuzlu beynəlxalq qurumların üzvləriyik. Vurğulamaq istərdim ki, bu gün Türkmənistan və Azərbaycan BMT-nin Davamlı İnkişaf Məqsədlərini həyata keçirir. Bizdə təkcə regionda deyil, bütün dünyada sabitlik və təhlükəsizlik kimi məsələlərə ortaq münasibət var. Onu demək istərdim ki, biz öz imkanlarımızı nəzərə alaraq regional və beynəlxalq səviyyədə iqtisadiyyat və iqtisadi inteqrasiya sahələrində əməkdaşlıq potensialından istifadə edə bilərik. Buna görə biz əlbəttə ki, Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Artıq qeyd etdiyim kimi, bizim çox yaxşı imkanlarımız var. Bizim köklərimiz, tariximiz, mentalitetimiz, milli xüsusiyyətlərimiz ortaqdır. Biz çox haqlı olaraq vətənpərvərlik göstərir, bu dəyərlərin böyüməkdə olan nəslə ötürülməsi işinə incəsənət xadimlərini, yaradıcı ziyalıları cəlb edirik.

Gördüyünüz kimi, bu gün təkcə Sizinlə bizim aramızda, iki dövlət arasında deyil, həm də region və dünya miqyasında çox iş görülür. Buna görə fürsətdən istifadə edib Sizə təşəkkürümü bildirmək istərdim, ilk növbədə, ona görə ki, Siz Türkmənistan ilə Azərbaycan arasında dostluq tellərinin möhkəmlənməsinə böyük şəxsi töhfə verirsiniz. Sizə ali dövləti fəaliyyətinizdə böyük uğurlar diləyir, qardaş Azərbaycan xalqına ən xoş arzularımı bildirirəm. Bu gün Sizi burada görməyə bir daha şadıq. Xoş gəlmisiniz.

Azərbaycan Prezidenti İlham Əliyev dedi:

-Sağ olun, hörmətli cənab Prezident.

Mən, ilk növbədə, qardaş Türkmənistana səfərə dəvətə görə Sizə təşəkkür etmək istərdim. Dünən Sizin torpağa qədəm qoyduğum andan özümü öz evimizdəki kimi hiss edirəm. Bu, qardaş türkmən xalqının qonaqpərvərliyi, şəxsən Sizin qonaqpərvərliyiniz sayəsindədir.

Azərbaycanda Sizi ölkəmizin böyük dostu kimi tanıyırlar. Siz ölkələrimiz arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsi üçün çox iş görürsünüz. Fürsətdən istifadə edib Sizi və Türkmənistanın bütün qardaş xalqını inkişafda qazandığınız böyük nailiyyətlərə, Türkmənistanın beynəlxalq aləmdə rolunun möhkəmlənməsinə, milli-mənəvi dəyərlərə çox diqqət yetirməyinizə və xalqınızın ənənələrini qoruyub saxlamağınıza və bunları yeni nəsillərə ötürməyinizə görə təbrik etmək istərdim.

Siz qeyd etdiyiniz kimi, bizim ortaq köklərimiz var və bu, bizi birləşdirir. Biz ənənələrimiz, tariximiz, ortaq mədəniyyətimiz, dünyagörüşümüz əsasında daha da yaxınlaşmaq istəyirik. Buna görə düşünürəm ki, mənim səfərim bizim qardaşlıq münasibətlərimizin möhkəmlənməsi işinə xidmət edəcək.

Mən Sizinlə razıyam ki, ölkələrimiz regional əməkdaşlıq, regionda təhlükəsizliyin möhkəmlənməsi məsələlərində də mühüm rol oynayır. Sabitliyin, inkişafın yüksək səviyyəsi bizim ölkələri fərqləndirir. Siz çox düzgün qeyd etdiniz ki, ölkələrimiz BMT-nin Davamlı İnkişaf Məqsədləri çərçivəsində dəyişiklikləri fəal həyata keçirirlər. Biz əksər göstəricilər üzrə nəzərdə tutulanları nəinki yerinə yetirmişik, hətta artıqlaması ilə yerinə yetirmişik. Türkmənistana gələn, Sizin ölkənizin necə inkişaf etdiyini, vətəndaşlar üçün necə şərait yaradıldığını, iqtisadiyyatın, sənaye potensialının necə artdığını görən hər kəs bunu yəqin edir.

Azərbaycanda biz Sizin uğurlarınıza sevinirik. Biz əminik ki, qardaş Türkmənistan xalqı Sizin müdrik rəhbərliyinizlə bundan sonra da tərəqqi yolu ilə irəliləyəcək. Əlbəttə, belə yaxşı imkanlardan istifadə etməklə əməkdaşlığı möhkəmlətmək lazımdır. Biz məhz bununla məşğuluq və əminəm ki, səfər bu istiqamətdə çox səmərəli olacaq. İqtisadi sahədə qarşılıqlı fəaliyyət, nəqliyyat sahəsində əməkdaşlıq, sənaye kooperasiyası – müzakirə üçün mövzu çoxdur. Əminəm ki, biz qarşıya qoyulmuş hədəflərə nail olacağıq. Səmimi qəbula və qonaqpərvərliyə görə Sizə bir daha təşəkkür edirəm.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Dövlət başçıları görüşdə çıxış etdilər.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov dedi:

– Hörmətli İlham Heydər oğlu.

Hörmətli nümayəndə heyətinin üzvləri.

İcazə verin, bizim dəvətimizi qəbul etdiyinizə və qardaş, qonaqpərvər Türkmənistana rəsmi səfərə gəldiyinizə görə Sizə bir daha təşəkkür edim. Əlbəttə, Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Çünki bu səfər bizim mehriban qonşuluğumuzun, qarşılıqlı hörmətin, beynəlxalq aləmdə, ticari-iqtisadi əməkdaşlıq məsələlərində və mədəni-humanitar sahədə təsəvvürlərimizin şaxələndirilməsinin məntiqi davamıdır.

Xarici siyasət məsələlərinə gəldikdə, bizim prinsiplərimiz şübhəsiz ki, oxşardır və ya üst-üstə düşür. Yəni, biz həm regionda, həm də bütün dünyada sabitliyin və təhlükəsizliyin qorunub saxlanmasına tərəfdarıq. Sizə təşəkkür edirik ki, beynəlxalq aləmdə Türkmənistanın bitərəf statusundan irəli gələn bütün təşəbbüsləri dəstəkləyirsiniz. Əlbəttə, biz bütün məkanlarda, BMT və ATƏT kimi nüfuzlu qurumlarda, beynəlxalq təşkilatlarda bir-birimizi qarşılıqlı surətdə dəstəkləyirik. Mənim fikrimcə, bu da çox düzgündür. Əlbəttə, tərəfdaşlıqda elə məsələlər var ki, biz onlara da münasibət bildirməliyik. Terrorizm, narkotiklərin qanunsuz dövriyyəsi, transsərhəd cinayətkarlıq kimi təhdidlər və çağırışlar bu qəbildəndir. Buna görə də biz, əlbəttə ki, belə təhdidlərə qarşı mübarizəni bundan sonra da davam etdirəcəyik.

Demək istərdim ki, Xəzər dənizi də bizi birləşdirir. Bu yaxınlarda Xəzəryanı dövlətlər Xəzərin hüquqi statusu barədə Konvensiyanı qəbul etdilər. Buna görə bizim üçün burada da, o cümlədən mehriban qonşuluq məsələlərində çox böyük imkanlar yaranır. Başlıca məsələ odur ki, biz hamımız eyni fikirdəyik - Xəzər dənizi sülh və mehriban qonşuluq dənizidir və biz bundan sonra da fəaliyyətimizi bu ruhda davam etdirəcəyik.

Bizim ticari-iqtisadi məsələlərimizə gəldikdə, iqtisadi əməkdaşlığa dair hökumətlərarası komissiya fəaliyyət göstərir və buna görə Sizə təşəkkür edirik. Sevindirici haldır ki, bu ilin 9 ayı ərzində əmtəə dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 17 faiz artıb. Kənd təsərrüfatı, tikinti, sənaye kimi sahələrdə yaxşı meyillər yaranıb. Azərbaycanın yeni texnologiyaları əlbəttə ki, bizi cəlb edir. Hər halda, bütün dünya rəqəmsal texnologiyalara, rəqəmsal iqtisadiyyata keçir. Buna görə də biz gələcəkdə də bu ruhda davam edəcəyik.

Əlbəttə ki, nəqliyyat məsələlərini, yəni, məhz tranzit nəqliyyat dəhlizlərinin inkişafı və onun logistikasının düzgünlüyünün müəyyənləşdirilməsini qeyd etmək istərdim. Bilirsiniz, Sizinlə bizim – Əfqanıstan, Türkmə-

nistan, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropaya çıxışla bağlı nümunəvi təcrübəmiz və imzalanmış razılaşmalarımız çoxdur. Mən xatırlatdım ki, biz bu gün TRASEKA, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı, TİR kimi beynəlxalq qurumlarla yaxşı əlaqələrə malikik və bu, böyük əhəmiyyət kəsb edir. Sizin Bakı-Tbilisi-Qars kimi çox yaxşı infrastrukturunuz var. Görürsünüz, bizdə nümunələr çoxdur. Ona görə də biz düzgün logistikamızı həm avtomobil, dəmir yolu, həm də bərə nəqliyyatı üzrə inkişaf etdirə bilərik. Sizin dəmir yolu üçün güclü bərə nəqliyyatınız var. Bu, bizdə Ro-Ro tipli avtonəqliyyat üçün oxşar variantdır. Düşünürəm ki, biz bu fəaliyyəti düzgün logistikamızla da gücləndirə bilərik. Hərçənd yadımdadır, Siz Xəzəryanı ölkələrin dövlət başçılarının Sammitində də bu variantı təklif etdiniz - Xəzəryanı dövlətlər arasında düzgün logistika yaradılsın və bu müşavirə məhz Bakıda keçirilsin. Fikrimcə, biz bu məsələnin əməkdaşlığa dair ikitərəfli dialoq çərçivəsində müzakirəsinə artıq başlamışıq.

Energetika məsələləri. Bizim çox güclü ehtiyat potensialımız var. Buna görə də biz bu məsələlərdə enerji inteqrasiyasının tərəfdarıyıq. Təkcə bizim ölkələrimiz üçün yox, həm də regional səviyyədə beynəlxalq bazarlara birgə çıxa bilərik. Düşünürəm ki, bu cəhətdən biz yaxşı əməkdaşlıq edə bilərik. Yəni, gördüyünüz kimi, bizdə müxtəlif sahələrin elə mənzərəsi və aspekti var ki, ölkələrimiz arasında əmtəə nomenklaturunu genişləndirə bilərik. Buna görə də mən bir daha qeyd edim ki, burada iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiya bilavasitə rol oynayır. Yəni, biz onun iclasını azı ildə bir dəfə keçirməliyik, çünki bir qədər fasilə yaranıb, amma bəzi məsələlər, necə deyərlər, təcili həllini tələb edir.

Əlbəttə ki, mədəni-humanitar sahə əməkdaşlığın ayrılmaz tərkib hissəsidir. Bizi çox sevindirir ki, ortaq köklərimiz, mənşəyimiz, ənənələrimiz, milli xüsusiyyətlərimiz var. Biz müasir mərhələdə təhsil, elm, turizm sahələrinin, idmanın inkişafı məsələlərinə böyük əhəmiyyət veririk. Bu gün əlbəttə ki, bunlar da lazımdır, çünki onların hamısı böyüməkdə olan gələcək nəsil üçün həm vətənpərvərlik, həm də ideoloji cəhətdən bizim əcdadlarımızın vəsiyyətləridir. Bilirəm ki, Siz xalçaçılıq məsələlərinə böyük diqqət yetirirsiniz. Dediyim kimi, biz də bu sahəyə böyük diqqət yetiririk. Məncə, biz hətta Bakıda olanda təklif etmişdik ki, həm bizdə, həm sizdə xalça sərgiləri təşkil olunsun. Bu halda beynəlxalq səviyyəyə çıxmaq və ya bizim xalçalara aid beynəlxalq konfrans keçirmək olardı. Yəni, gördüyünüz kimi, biz qarşılıqlı hörmət və etimad fonunda bu cür ikitərəfli əməkdaşlığa meyilliyik. Buna görə də mən bir daha Sizə bu səfərinizə görə təşəkkür etmək istərdim. Çünki Sizin səfəriniz şübhəsiz ki, bu gün müzakirə etdiyimiz məsələlərə daha artıq güc, mən deyərdim ki, yaxşı təkan verəcək.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzulayıram. Sizin nümayəndə heyətinizin üzvlərinə əlbəttə ki, qardaş Azərbaycan xalqına ən yaxşı arzularımı bildirirəm. Sizə təşəkkür edirəm.

Azərbaycan Prezidenti İlham Əliyev dedi:

-Sağ olun, əziz Qurbanqulu Məlikquliyeviç.

Mən, ilk növbədə, qonaqpərvərliyə, dəvətə, səmimi qəbula görə təşəkkür etmək istərdim. Mən yenidən qardaş Türkmənistan torpağında olmağıma şadam.

Mən dünən ölkənizin nailiyyətləri ilə tanış olmaq imkanı qazandım və bu, Türkmənistanın inamlı müsbət inkişafının nümayişidir. Şəxsən Sizi və bütün Türkmənistan xalqını quruculuq yollarında böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm.

Biz də səfərə böyük əhəmiyyət veririk və səfər çox yaxşı hazırlanıb. Səfərin yekunları üzrə xeyli sənədin imzalanacağı nəzərdə tutulub. Əminəm ki, onlar vaxtında reallaşacaq və bununla da bizim əməkdaşlığımız üçün daha yaxşı şərait yaranacaq.

Biz Türkmənistanla əməkdaşlığa böyük əhəmiyyət veririk. Siz qeyd etdiyiniz kimi, bizim ümumi köklərimiz, tariximiz, xalqlarımızın yaxınlığı elə bir bünövrədir ki, onun üzərində öz birgə gələcəyimizi qururuq. Həm də təsadüfi deyil ki, biz beynəlxalq qurumlarda birgə fəaliyyət göstəririk, bir-birimizi dəstəkləyirik. İkitərəfli planda əməkdaşlıq potensialını gücləndiririk və bütün bunlar sabitliyə doğru aparır, regional təhlükəsizliyi möhkəmləndirir. Bu gün regional təhlükəsizliklə bağlı məsələlər xüsusi əhəmiyyət kəsb edir. Biz görürük ki, dünyanın müxtəlif guşələrində toqquşmalar, qanlı hadisələr baş verir, dövlətlərin təməlini sarsıdan proseslər gedir. Buna görə də düşünürəm ki, belə mürəkkəb vəziyyətdə həm Azərbaycanın, həm də Türkmənistanın yüksək inkişaf səviyyəsi, sabitlik nümayiş etdirməsi xüsusilə əhəmiyyətlidir və bunlar bir daha ölkələrimizin getdiyi yolun düzgün olmasından xəbər verir.

Ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın istiqamətləri çoxdur. Əminəm ki, indiyədək olduğu kimi, gələcəkdə də beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyəcəyik. Bu gün biz artıq təkbətək görüşdə əməkdaşlığın xeyli mühüm məsələlərini müzakirə etmişik və nümayəndə heyətləri çərçivəsində də müzakirələri davam etdirəcəyik. Biz gələcək əməkdaşlığın əsas istiqamətlərini, prioritetlərini qeyd etdik. Hesab edirəm ki, əmtəə dövriyyəsinin artırılması məsələsində çox iş görmək olar. Əmtəə dövriyyəsi artsa da, fikrimcə, hələlik ölkələrimizin potensialını tam əks etdirmir. Düşünürəm ki, nümayəndə heyətinin üzvləri Türkmənistan mallarının Azərbaycana, Azərbaycan mallarının isə Türkmənistana ixracını necə artıra biləcəyimizi konkret müzakirə etmək imkanına malik olacaqlar. Əlbəttə ki, bu mövzu hökumətlərarası komissiyanın işi çərçivəsində də prioritet məsələlərdən biri olmalıdır. Razıyam ki, iclaslar arasında müəyyən fasilə olur. Hesab edirəm ki, yaxın vaxtlarda artıq əldə olunan razılaşmaların yerinə yetirilməsi proqramını işləyib hazırlamaq məqsədilə mənim səfərimin yekunlarına əsasən operativ iclas keçirmək mümkün olacaq.

Artıq dediyim kimi, bu gün xeyli sənəd imzalanacaq. Onlar inkişaf istiqamətlərini müəyyənləşdirir, amma həmin məsələlərin reallaşdırılması üzrə fəaliyyət planının olması da zəruridir.

Həm Türkmənistan, həm də Azərbaycan böyük təbii ehtiyatlara malik ölkələrdir. Əlbəttə ki, ölkələrimiz arasında energetika sahəsində əməkdaşlıq təbiidir. Azərbaycan Türkmənistanın enerji ehtiyatları üçün tranzit imkanlar təqdim edir. Biz şadıq ki, Türkmənistan nefti Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəql edilərək əməkdaşlığımızı möhkəmləndirir. Əlbəttə, bizim münasibətlərimizin əsas mövzularından biri nəqliyyat sahəsidir. Təsadüfi deyil ki, mənim nümayəndə heyətimin tərkibində Azərbaycanın bütün nəqliyyat qurumlarının rəhbərləri var. Onlar artıq türkmənistanlı həmkarları ilə fəal işləyirlər. Biz bu gün Sizinlə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığın bu məsələlərini də müzakirə etmişik. Yəni, biz bu sahədə bütün ölkələrə və xalqlara fayda gətirəcək çoxtərəfli regional əməkdaşlıq üçün çox yaxşı perspektivlər görürük. Belə ki, mən bizim söhbətimizdən çox məmnunam və düşünürəm ki, səfərin nəticələri də çox müsbət olacaq, ölkələrimizin daha da yaxınlaşmasına xidmət edəcək.

Qonaqpərvərliyə görə bir daha sağ olun, Sizə möhkəm cansağlığı, gələcək uğurlar, qardaş Türkmənistan xalqına sülh və tərəqqi arzulayıram. Sağ olun.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov mətbuata birgə bəyanatla çıxış ediblər.

Əvvəlcə Türkmənistan Prezidenti bəyanatla çıxış etdi.

**Prezident Qurbanqulu Berdiməhəmmədovun bəyanatı**

– Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri.

Mən, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə və onun nümayəndə heyətinin üzvlərinə dərin təşəkkürümü bildirmək istərdim ki, dəvətimizi qəbul edib mehriban qonşunuz, qonaqpərvər Türkmənistana rəsmi səfərə gəlimisiniz. Buna görə biz sizə bir daha minnətdarıq.

Demək istərdim ki, biz bu gün çox yaxşı, konstruktiv danışıqlar apardıq. Prinsipcə, bizim ikitərəfli münasibətlərimizin bütün aspektlərini, yəni, onların cari və perspektiv vəziyyətini, regional və beynəlxalq siyasətə dair məsələləri nəzərdən keçirdik. Mən dərhal demək istəyirəm ki, bizim – həm Türkmənistanın, həm də Azərbaycanın beynəlxalq məsələlər barədə baxışları eynidir, yaxud bənzərdir. Bunlar həm regionda, həm də bütün dünyada sabitliyin və təhlükəsizliyin qorunub saxlanılması məsələləridir. Buna görə də bu gün biz beynəlxalq aləmdə xarici siyasi kursumuzdan, yəni, Türkmənistanın bitərəf statusundan irəli gələn bütün təşəbbüslərini daim dəstəklədiklərinə görə Azərbaycana minnətdar olmalıyıq. Eyni zamanda, biz də qardaş Azərbaycanı daim dəstəkləyirik.

Onu da demək istərdim ki, bu gün biz həm də bizi birləşdirən ümumi məsələlərimiz üzrə fikir mübadiləsi apardıq. Bu, Xəzər dənizi məsələsidir. Bildiyiniz kimi, bu yaxınlarda Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya qəbul olunub. Biz həmişə bildiririk ki, Xəzər dənizi sülh və mehriban qonşuluq dənizidir. Buna görə də biz gələcəkdə də, əlbəttə, öz siyasətimizi aparacağıq.

Bu gün biz ticari-iqtisadi məsələlərdən danışarkən çox böyük aspekti, yəni, yaxşı təmasa malik olduğumuz sahələri - kənd təsərrüfatını, tikintini, sənayeni, yeni texnologiyaları nəzərdən keçirdik. Nəqliyyat məsələlərinə, məhz nəqliyyat-tranzit dəhlizlərinin və düzgün logistikanın tərtib olunmasına toxunduq. Əlbəttə, əsas məsələlər energetika məsələləri idi. Yəni, bu məsələdə biz həmişə həmrəyik. Biz enerji resurslarımızı həm regional, həm də beynəlxalq bazarlara çıxarmaq imkanına malikik. Bu baxımdan mən, əlbəttə, dövlətlərimiz arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın fəaliyyətinə görə minnətdar olmaq istərdim. Həmin komissiya çox iş görür və yəqin ki, gələcəkdə də görəcək.

Mədəni-humanitar sahədən danışarkən, əlbəttə ki, bu, bizim üçün böyük əhəmiyyət kəsb edir. Çünki həm Türkmənistan, həm də Azərbaycan, bizim xalqlarımız vahid köklərə, adətlərə, milli xüsusiyyətlərə, ənənələrə malikdir. Əlbəttə, bizim üçün sevindiricidir ki, biz müasir mərhələdə də gələcək gənc nəslin vətənpərvər ruhda böyüməsi naminə bu işi davam etdiririk. Buna görə də biz bu sahə haqqında bu kontekstdə danışarkən, bu gün bizim üçün mühüm olan tətbiqi sənət, yəni, xalçaçılığa toxunduq. Həm Türkmənistan, həm də Azərbaycan xalçaları bütün dünyada məşhurdur. Biz bu fikrə gəldik ki, həm Türkmənistanda, həm də Azərbaycanda xalça sərgisi təşkil etmək, həmçinin gələcəkdə beynəlxalq konfransın keçirilməsi haqqında düşünmək yaxşı olardı.

Gördüyünüz kimi, biz bugünkü görüşdə çox geniş əhatəli məsələləri nəzərdən keçirdik, xeyli sənəd və saziş imzaladıq.

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri, buna görə də mən sizin diqqətinizi iki məsələyə yönəltmək istərdim. Birincisi, nəqliyyat məsələləridir. Biz dedik ki, tranzit dəhlizləri inkişaf etdirmək, düzgün logistika tərtib etmək istərdik. Bu, avtomobil və bərə nəqliyyatına, hava məkanına, dəmir yollarına aiddir. Ən başlıcası odur ki, indi bizim aramızda məhz nəqliyyat-tranzit dəhlizləri və logistikanın inkişafı məsələləri ilə məşğul olacaq xüsusi komissiya fəaliyyət göstərəcək.

Türkmənistanla Azərbaycan arasında xeyli nümunəvi cəhətlər var. Biz Əfqanıstan, Türkmənistan, Azərbaycan və Türkiyə arasında Avropaya çıxışla bağlı nəqliyyat sazişi imzaladıq. Bu, artıq Şərq-Qərb xəttinə aiddir, ya da biz burada bütün Orta Asiyanı Avropa ilə birləşdiririk. Biz istər beynəlxalq siyasətə, istərsə də

başqa istiqamətlərə aid bütün məsələlərdə ixtisaslaşdırılmış beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqəli addımlar atırıq. İndiki halda biz Bakı-Tbilisi-Qars kimi yaxşı infrastrukturun olduğu TRASEKA, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı xətti ilə gedə bilərik. Belə nümunələr çoxdur. Bunun əsasında noyabrın 28-də böyük beynəlxalq konfrans keçirəcəyik. Düşünürəm ki, bu gün biz həmin iştirakçı ölkələrin üzvlərinə müəyyən güzəştlər edə bilərdik. Deyək ki, güzəştli tariflər və sair. Burada əsas məsələ düzgün logistikanı inkişaf etdirməkdən ibarətdir.

Demək istədiyim ikinci məsələ odur ki, biz bu gün sənədlər paketi ilə yanaşı, 2019-2021-ci illər üçün ticari-iqtisadi sahənin inkişafı haqqında da əməkdaşlıq proqramı qəbul etdik. Yəni, bu, bir daha ondan xəbər verir ki, biz gələcəkdə də əmtəə nomenklaturamızı inkişaf etdirə bilərik. Hərçənd indi bizdə çox yaxşı tendensiya gedir, yəni, biz artıq öz statistikamızı bildirdik. Qeyd etdik ki, hər il müəyyən faiz artım var, deyək ki, əvvəlki illə müqayisədə 17 faiz artım olub. Biz elə bu ruhda iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyamıza üstünlük veririk. Buna görə də mən xüsusi qeyd etmək istəyirəm ki, bugünkü danışıqlar həqiqətən yüksək hörmət və qarşılıqlı etimad fonunda keçib. Ən əsası gələcək əməkdaşlığa doğru yaxşı meyil var. Buna görə də mən fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının hörmətli Prezidentinə onun şəxsi töhfəsinə, bizim xalqlarımız və ölkələrimiz arasında dostluq tellərinin möhkəmlənməsi üçün etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Əlbəttə, ali dövləti fəaliyyətində böyük uğurlar, bütün qardaş Azərbaycan xalqına isə ən yaxşı rifah və tərəqqi arzulayıram. Diqqətə görə təşəkkür edirəm.

Sonra Azərbaycan Respublikasının Prezidenti bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**

– Hörmətli cənab Prezident.

Hörmətli dostlar.

Mən Türkmənistan Prezidentinə, mənim əziz dostuma dəvətə, çox səmimi qəbula, qonaqpərvərliyə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Mən dünəndən qardaş Türkmənistan torpağındayam. Türkmənistanın sosial-iqtisadi inkişafındakı nailiyyətlərlə tanış olmaq imkanına malik oldum. Biz sizin uğurlarınıza da öz nailiyyətlərimiz kimi sevinirik. Fürsətdən istifadə edərək, bütün Azərbaycan xalqı adından qardaş türkmən xalqına salamlarımı çatdırmaq istəyirəm. Bizi tarix, mədəniyyət, ümumi köklər, ənənələr, dünyagörüşü birləşdirir. Bu, həmin güclü bünövrədir ki, bizə öz münasibətlərimizi bərabər hüquqlar, mehriban qonşuluq, dostluq və qardaşlıq əsasında qurmağa imkan verir.

Səfər sona yaxınlaşır. Artıq bu gün demək olar ki, bu səfər bizim ölkələrimiz arasında münasibətlər tarixində xüsusi yer tutacaq. Bu münasibətlərin çox böyük potensialı var. Bu gün aparılan danışıqlarda, prezidentlər arasında təkbətək formatda, eləcə də nümayəndə heyətlərinin iştirakı ilə aparılan fikir mübadiləsi zamanı biz əməkdaşlığımızın mühüm məsələlərini müzakirə etdik. Biz görülən işlərə yekun vurduq və gələcək qarşılıqlı fəaliyyət yollarını müəyyənləşdirdik. Bu gün 20-dən çox sənəd imzalanıb və onların hər birinin olduqca konkret xarakteri var. Bu, bizim münasibətlərimizin, əməkdaşlıq həcminin və nailiyyətlərimizin, bir-birimizə qardaşlıq münasibətinin göstəricisidir. Yalnız yaxın ölkə ilə həyat fəaliyyətinin bu cür müxtəlif istiqamətləri üzrə işləmək mümkündür.

Biz gələcəkdə də bir-birimizə beynəlxalq qurumlarda, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək göstərməyə razılaşdıq. Türkmənistan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda həmişə bir-birini dəstəkləyir. Bu, artıq adi hala çevrilib. Amma bu, bizim münasibətlərimizin səmimiliyini göstərir.

Türkmənistan Prezidenti artıq gündəlikdə olan əsas məsələlər barədə danışdı. Öz tərəfimdən qeyd etmək istərdim ki, biz ölkələrimiz arasında əmtəə dövriyyəsinin artırılması üzərində fəal işləyəcəyik. Biz ölkələrimiz arasında fəaliyyət göstərən hökumətlərarası komissiyaya müvafiq tapşırıqlar vermişik ki, onlar Azərbaycandan Türkmənistana və Türkmənistandan Azərbaycana ixracı artırmaq üzrə işi fəallaşdırsınlar. Malların konkret siyahısı var və qurumların müvafiq rəhbərləri bu məsələləri müzakirə edirlər. Fikrimcə, əgər biz konkret istiqamətlərə diqqəti yönəltsək, qısa müddət ərzində əmtəə dövriyyəmizi daha da artıra bilərik.

Türkmənistan Prezidenti hörmətli Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədovun dediyi kimi, nəqliyyat sahəsində əməkdaşlıq məsələlərinə böyük yer ayrılıb. Səfər ərəfəsində bizim nümayəndə heyətlərimiz fəal işləyiblər, bir neçə raund danışıqlar aparıblar və Şərq-Qərb beynəlxalq dəhlizinin fəaliyyətinin əsas məsələlərini razılaşdırıblar. Türkmənistan və Azərbaycan öz tərəflərindən əvvəlki illərdə müasir nəqliyyat infrastrukturunun yaradılması və logistika imkanları üçün böyük iş aparıblar. Biz əvvəlcədən razılaşmamışdıq, amma belə alındı ki, paralel yollarla getdik. Bu da təbiidir, çünki bu, ölkələrimiz və xalqlarımız üçün zəruri olan məsələdir. Təsadüfi deyil ki, həm Türkmənistanda, həm də Azərbaycanda bu il beynəlxalq ticarət limanlarının açılması eyni vaxtda, eyni ayda - may ayında baş verib. Hərə öz ərazisində bu layihələrə sərmayə qoymağa başlayanda biz uzaqgörənliklə hərəkət etdik. Bu gün biz ticarət limanlarımızın tam inteqrasiyası haqqında danışırıq, müvafiq sənəd bu gün imzalanıb. Bu, bizim ölkələrimiz üçün əmtəə dövriyyəsini və tranzit daşımaları artırmaq imkanları yaradır. Biz qonşularımız üçün də böyük potensial yaradırıq. Bizim mühüm nəqliyyat qovşaqları kimi gələcək uğurlu inkişafımız regional vəziyyətdən də asılıdır. Buna görə də bizim qonşularımızla yaxşı münasibətlərimiz regionda təhlükəsizliyi, sabitliyi möhkəmləndirir, eləcə

də Azərbaycanla Türkmənistanı mühüm nəqliyyat qovşaqlarına çevirir.

Müasir infrastruktur, nəqliyyat sahəsinə böyük sərmayələr işləmək üçün gözəl şərait yaradır. Rəqəmləri göstərmək istəmirəm, amma əminəm ki, yaxın vaxtlarda biz Türkmənistanla Azərbaycan arasında yük axınının xeyli artımını görəcəyik. Bakının Beynəlxalq Ələt Ticarət Limanında Türkmənistandan əlavə yüklərin qəbulu üçün xüsusi yer ayrılır və biz sözsüz ki, Şərq-Qərb, Qərb-Şərq marşrutları üzrə ölkələrimiz arasında tranzit yüklərin həcminin artdığını görəcəyik.

Ötən il o vaxta qədər mövcud olmayan və dünya bazarlarına çıxış əldə etmək üçün son əlaqələndirici bənd olan Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi. Bu, dünya bazarlarına çıxmaq üçün daha bir əlavə marşrutdur. Əminəm ki, bu marşrut ölkələrimizə böyük mənfəət gətirəcək, bütün nəqliyyat razılaşmaları paketi regionda təhlükəsizliyi möhkəmləndirəcək. Çünki nəqliyyat sahəsi yeni iş yerlərinin yaradılmasına, iqtisadi fəallığa, Böyük İpək Yolu üzərində yerləşən ölkələrin həyat səviyyəsinin yüksəlməsinə gətirib çıxaracaq. Bununla da sabitlik və təhlükəsizlik möhkəmlənəcək.

Biz bu gün ikitərəfli münasibətlərin ən mühüm konkret məsələlərini, regional əməkdaşlıq üçün yeni şərait yaradan məsələləri həll etdik. Buna görə də hesab edirəm ki, səfər bizim gələcək qarşılıqlı fəaliyyətimiz, Türkmənistanla Azərbaycan arasında ənənəvi qardaşlıq münasibətlərinin möhkəmlənməsi üçün böyük əhəmiyyət kəsb edəcək, regionumuzun ölkələri arasında yeni daha yaxşı şərait yaradacaq.

Fürsətdən istifadə edərək, qardaş Türkmənistan xalqına sülh, tərəqqi və prezident Qurbanqulu Məlikquliyeviçin rəhbərliyi ilə daha böyük inkişaf diləyir, ona yeni uğurlar, rifah, cansağlığı arzulayıram. Diqqətinizə görə sağ olun.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Birgə Bəyanatını dövlət başçıları İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş"i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistanın maliyyə və iqtisadiyyat naziri Batır Bazarov imzaladılar.

"Azərbaycan Milli Elmlər Akademiyası ilə Türkmənistan Elmlər Akademiyası arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistan Elmlər Akademiyasının prezidenti Sapardurdı Toylıyev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında 2019-2021-ci illər üçün elm, təhsil, mədəniyyət və incəsənət sahəsində Əməkdaşlıq Proqramı"nı Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistanın təhsil naziri Mammetmırat Geldiniyazov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan-Türkmənistan Birgə Komissiyasının yaradılması haqqında Saziş"i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistanın dəmir yolu nəqliyyatı naziri Azat Atamıradov imzaladılar.

"Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Türkmənistanın Sənayeçilər və Sahibkarlar Birliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın Türkmənistandakı səfiri Həsən Zeynalov və Türkmənistanın Sənayeçilər və Sahibkarlar Birliyinin sədri Aleksandr Dadayev imzaladılar.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti və Türkmənistanın Dəmir Yolu Nəqliyyatı Nazirliyi arasında nəqliyyat və tranzit məsələlərinə dair Saziş"i "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov və Türkmənistanın dəmir yolu nəqliyyatı naziri Azat Atamıradov imzaladılar.

"Azərbaycan Respublikası və Türkmənistan arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında Saziş"i Azərbaycanın Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev və Türkmənistanın Dövlət Gömrük Xidmətinin rəisi Atadurdı Osmanov imzaladılar.

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində ADA Universiteti ilə Türkmənistan Xarici İşlər Nazirliyinin Beynəlxalq Münasibətlər İnstitutu arasında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və Türkmənistanın Xarici İşlər Nazirliyinin Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Baba Zaxırov imzaladılar.

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində ADA Universiteti ilə Humanitar Elmlər və İnkişaf üzrə Beynəlxalq Universitet arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və Türkmənistanın Humanitar Elmlər və İnkişaf üzrə Beynəlxalq Universitetinin rektoru Esen Aydoqdıyev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikası və Türkmənistan iki dövlətin (əlavə) ərazilərindən keçməklə həyata keçirilən beynəlxalq daşımaların iştirakçıları üçün viza rejiminin sadələşdirilməsi

haqqında Saziş"i Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və Türkmənistanın Dövlət Miqrasiya Xidmətinin sədri Merqen Qurdov imzaladılar.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ilə Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidməti arasında dəniz ticarət gəmiçiliyinin inkişafına dair Saziş"i "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti ilə Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında avtomatlaşdırılmış informasiya mübadiləsi haqqında Saziş"i "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC ilə Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidməti arasında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında yükaşırma həcmlərinin artırılması haqqında Saziş"i "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında iki ölkənin limanlarından keçən daşımaların inkişafı haqqında Saziş"i Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.

"Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkmənistanın Avtomobil Nəqliyyatı Nazirliyi arasında beynəlxalq avtomobil daşımalarının inkişafı haqqında Saziş"i Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın avtomobil nəqliyyatı naziri Orazdurdı Suxanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2022-ci illər üçün nəqliyyat sahəsində əməkdaşlıq Proqramı"nı Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın avtomobil nəqliyyatı naziri Orazdurdı Suxanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sənaye sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın sənaye naziri Xoşgeldi Mergenov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2021-ci illər üzrə ticarət-iqtisadi əməkdaşlıq Proqramı"nı Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın ticarət və xarici iqtisadi əlaqələr naziri Amandurdı İşanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında uzunmüddətli ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın ticarət və xarici iqtisadi əlaqələr naziri Amandurdı İşanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın maliyyə və iqtisadiyyat naziri Batır Bazarov imzaladılar.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib.

Dövlət başçıları ziyafətdə çıxış etdilər.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov dedi:

-Hörmətli İlham Heydər oğlu.

Əziz dostlar, qonaqlar, hörmətli səfirlər.

Mən möhtərəm İlham Heydər oğluna və onun nümayəndə heyətinin üzvlərinə bir daha səmimi minnətdarlığımı və təşəkkürümü bildirmək istərdim. Onlar bizim dəvətimizi qəbul edərək öz qonşularının, qardaşlarının ölkəsinə rəsmi səfərə gəliblər və biz bu gün onları qonaqpərvər Türkmənistanda görməyə şadıq.

Demək istəyirəm ki, bu gün biz həqiqi qardaşlar kimi qarşılıqlı hörmət şəraitində çox yaxşı danışıqlar apardıq, ikitərəfli əməkdaşlığımızın, regional və beynəlxalq xarakterli məsələlərin çox böyük aspektini müzakirə etdik. Biz bütün aspektlərə aid 21 sənəd imzaladıq. Buraya həm humanitar, həm də istehsalat istiqamətləri daxildir. Ən başlıcası, biz, əlbəttə, nəqliyyat məsələlərinə çox böyük diqqət yetirdik.

Ümumiyyətlə, biz İlham Heydər oğlunun təşəbbüsü ilə Xəzərə aid məsələləri nəzərdən keçirdik. Bildiyiniz kimi, biz Xəzər dənizinin hüquqi statusu barədə Konvensiyanı artıq qəbul etmişik. Odur ki, biz nəqliyyat-tranzit dəhlizinin düzgün logistikasını tərtib etməliyik. Bundan sonra biz həmin mövzunu lobbiləşdirməyə başladıq və yeri gəlmişkən, yəqin Siz də bilirsiniz ki, bu təşəbbüsə dair Birləşmiş Millətlər Təşkilatının müvafiq qətnamələri qəbul edilib. Hətta nəqliyyat-tranzit dəhlizlərinin inkişafı, düzgün logistika barədə 3 qətnamə qəbul edilib. Noyabrın 28-də məhz nəqliyyat-tranzit dəhlizlərinin inkişafı mövzusunda konfrans keçiriləcək və elə indi bütün hörmətli səfirlərimizi həmin konfransa dəvət edirəm.

Məntiqlə yanaşsaq, coğrafi baxımdan həm Türkmənistan, həm də Azərbaycan bu məsələdə əsas ölkələrdir. Yəqin ki, Böyük İpək Yolunu xatırlamağa və onun haqqında danışmağa ehtiyac yoxdur, çünki bu il Türkmənistanda "Böyük İpək Yolu İli" elan edilib. Ümumiyyətlə, bugünkü görüşdə biz bunu qeyd etməkdən başladıq ki, Türkmənistan və Azərbaycan xalqları tarixən həmişə zəngin millətlər olub. Onların

həmişə güclü ehtiyat potensialı olub və bu potensialdan həm öz xalqlarının, həm də qonşularının, regionun rifahı naminə istifadə ediblər. Sevindirici haldır ki, bu gün biz bunu müasir mərhələdə davam etdiririk.

Bir daha qeyd etmək istəyirəm ki, bugünkü danışıqlar həqiqətən qarşılıqlı hörmət, qarşılıqlı etimad, mehriban qonşuluq ruhunda keçdi, bizim dostluq tellərimizi bir daha nümayiş etdirdi. Səhv etmirəmsə, Azərbaycanın böyük şairi Füzuli deyib ki, düz yol ilə gedən insana dostu həmişə kömək edər. Bu kəlam bir daha sübut edir ki, bu gün biz həqiqətən öz milli ənənələrimiz və xüsusiyyətlərimizlə mənəvi cəhətdən dəyərliyik.

Mən öz qardaşlarıma ən səmimi sözlərimi dedim. Qoy, dostluğumuz əbədi olsun. Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dedi:

– Hörmətli cənab prezident.

Əziz dostlar, xanımlar və cənablar.

Mənim qardaş Türkmənistana rəsmi səfərim sona çatır. Qardaş Türkmənistan torpağına gəldiyim ilk dəqiqələrdən türkmən xalqının səmimiyyətini və qonaqpərvərliyini, əlbəttə ki, ilk növbədə, Türkmənistan Prezidentinin qayğısını hiss etdim.

Dünən mən türkmənlər üçün müqəddəs yerlərdə oldum. Bu xalqın nə qədər istedadlı, onun tarixinin və mədəniyyətinin nə qədər zəngin olduğunu bir daha gördüm. Əsrlər boyu türkmən xalqı öz torpağında yaşayıb, qurub-yaradıb, öz gələcəyini qurub. Biz azərbaycanlılar həmişə sizin yanınızda olmuşuq. Bizim dostluğumuzun, qardaşlığımızın çoxəsrlik tarixi var. Bu, qarşılıqlı hörmət, qarşılıqlı etimad, qarşılıqlı dəstək, əməkdaşlıq tarixidir.

Türkmənistan son illərdə çox böyük yol keçib. Dünən müxtəlif obyektlərdə – idman kompleksində, xalça muzeyində olarkən mən Aşqabadı tanımadım. Çünki mənə elə gəlirdi ki, tamamilə başqa şəhərə gəlmişəm. Mənim burada olmadığım qısa müddət ərzində sanki şəhər içində şəhər yaradılıb. Bu, Türkmənistan dövlətinin qüdrətinin, onun iqtisadi potensialının göstəricisidir. Amma bu, ilk növbədə, ölkə rəhbərliyinin öz xalqının qayğısına qalmasını, inkişaf üçün göstərdiyi səyləri nümayiş etdirir. Bu gün Aşqabadda olarkən Türkmənistanın son illərdə necə inkişaf etdiyini görürsən. Bu, bizi sevindirir. Biz dost və qardaş kimi sizin uğurlarınıza sevinirik. Ölkələrimizin daha da yaxınlaşması üçün öz tərəfimizdən səy göstərmişik və göstərəcəyik.

Hörmətli Qurbanqulu Məlikquliyeviç, biz xalqlarımızın ənənəvi qardaşlıq və dostluq tellərinin daha da möhkəmlənməsi üçün çox iş görürük. Bunu bizə tarix, xalqlarımızın tarixi, ümumi etnik kökləri diktə edir. Bugünkü reallıq da bunu diktə edir. Bu gün bizim maraqlarımız üst-üstə düşür. Bu gün biz birgə səylərlə regionumuzda təhlükəsizliyə töhfə veririk. Biz Xəzər dənizi məsələsində fəal qarşılıqlı fəaliyyət göstəririk. Bilirsiniz ki, bu il Xəzər dənizinin hüquqi statusu ilə bağlı Konvensiya imzalanıb. Bizim ölkələrimiz bu Konvensiyanın imzalanmasına böyük töhfə verib. Biz Xəzər dənizinin ekoloji təhlükəsizliyi ilə məşğul oluruq. Biz hazırda mühüm və gələcəkdə də mühüm olacaq qitələrarası əhəmiyyətli məsələlər, o cümlədən Şərq-Qərb nəqliyyat dəhlizinin möhkəmləndirilməsi ilə məşğuluq. Bu dəhliz uzun əsrlər mövcud olub. Bu dəhlizlə bizim əcdadlarımıza ünsiyyət qurmağa imkan vermiş karvanlar keçib. Böyük Tarixi İpək Yolu bizim ölkələrimizin ərazisindən keçib və təbii ki, bu gün biz fəal surətdə bu dəhlizin müasir infrastrukturunun yaradılması üçün əlavə səylər göstəririk. Mən artıq qeyd etmişəm ki, biz sanki razılaşmışdıq, amma əslində razılaşmamışdıq. Faktiki olaraq, eyni zamanda, Türkmənistan və Azərbaycan ərazisində möhkəm nəqliyyat potensialı yaratdıq. Bu gün isə imzalanan sənədlərlə biz bu nəqliyyat potensialını birləşdirdik, əlaqələndirdik. İmzalanan 20-dən çox sənədin əksəriyyəti birbaşa və ya dolayısı ilə nəqliyyat təhlükəsizliyi üzrə əməkdaşlıq məsələsinə aiddir.

Biz regionda qarşılıqlı əməkdaşlıqdan, bu dəhlizin fəaliyyətindən ölkələrimizin, xalqlarımızın, qonşularımızın böyük fayda götürəcəyi tamamilə yeni vəziyyət yaradırıq. Bu, həyat arteriyası kimi ölkələrimizi yeni enerji ilə qidalandıracaq, yeni iş yerləri yaradacaq, yeni istehsalat sahələrinin qurulmasına doğru aparacaq, təhlükəsizliyi, əməkdaşlığı möhkəmləndirəcək.

Bu gün mən səfərimin yekunlarını təhlil edərək görürəm ki, səfər dövlətlərarası çərçivədən çıxıb, onun ən azı mühüm regional əhəmiyyəti var. Nəqliyyat və logistika imkanlarımızın genişləndirilməsi nəzərə alınmaqla bu, qlobal Avrasiya əhəmiyyəti kəsb edəcək. Avropa ilə Asiyanın nəqliyyat dəhlizlərinin birləşdirilməsi artıq reallıqdır. Bu reallığı biz yaradırıq. Əgər həm Türkmənistanda, həm də Azərbaycanda quruculuq, inkişaf yolları üzrə addımlar atılmasaydı, onda bu barədə söhbət aparmaq da ümumiyyətlə mümkün olmazdı. Əgər ölkələrimizin iqtisadi potensialına vaxtında yönəldilən sərmayələr olmasaydı, onda bu gün coğrafi vəziyyətimizin böyük əhəmiyyəti olmazdı. Biz öz coğrafiyamızı ölkələrimiz və qonşularımız üçün böyük potensiala çevirmişik. Buna görə düşünürəm ki, bizim razılaşdığımız məsələlərin əhəmiyyəti onilliklər boyu özünü göstərəcək.

Ən başlıcası, biz bu gün münasibətlərimizin strateji xarakterini bir daha təsdiq etdik. Hörmətli Türkmənistan Prezidentinin Azərbaycana səfəri zamanı strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdı. Bu gün biz öz işimizlə münasibətlərimizin strateji xarakterini təsdiq etdik. Dostlar, qardaşlar arasında belə də olmalıdır. Bu gün biz münasibətlərimizi ən yüksək zirvəyə qaldırırıq. Hörmətli dostuma, Türkmənistan Prezidentinə ölkələrimiz arasında əməkdaşlığın möhkəmlənməsindəki səylərinə görə təşəkkür etmək istəyirəm. Hörmətli Qurbanqulu Məlikquliyeviçə uğurlar, cansağlığı, rifah, qardaş türkmən xalqına xoşbəxtlik və tərəqqi arzulayıram. Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri noyabrın 22-də başa çatıb.

## *Rusiya Federasiyasına işgüzar səfər*

Dekabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Rusiyaya işgüzar səfərə gəlib.

Dövlətimizin başçısını Sankt-Peterburq şəhərindəki Pulkovo-1 hava limanında şəhərin vitse-qubernatoru Nikolay Bondarenko, xarici əlaqələr komitəsinin nazir statuslu sədri Yevgeni Qriqoryev və digər rəsmi şəxslər qarşıladılar.

Prezident İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Prezident Kitabxanasına gəldi.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan və Rusiya prezidentləri birgə foto çəkdirdilər.

Sonra MDB dövlət başçıları birgə foto çəkdirdilər.

Daha sonra MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşü keçirildi.

Görüşdən sonra MDB dövlət başçılarının qeyri-rəsmi naharı oldu.

Dövlət başçıları Sankt-Peterburq Dövlət Akademik Mariinski Teatrında Pyotr Çaykovskinin "Şelkunçik" baletinə baxdılar.

Bununla da Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri başa çatıb.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQLƏRİ, ÇIXIŞLARI VƏ MÜSAHİBƏLƏRİ

## *Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında İlham Əliyevin giriş nitqi*

– Bu gün biz ilin 9 ayının yekunlarını müzakirə edəcəyik, ilin sonuna qədər görüləcək işlər haqqında danışacağıq. Deməliyəm ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır.

Bugünkü dünyada vəziyyəti nəzərə alsaq, deməliyik ki, bu gün sabitlik, təhlükəsizlik hər bir ölkə üçün əsas amillərdən biridir. Azərbaycanda isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik qorunur, möhkəmlənir. Sabitliyin, uğurlu inkişafımızın təməlində bizim düşünülmüş siyasətimiz dayanır, eyni zamanda, xalq tərəfindən bizim siyasətimizə göstərilən dəstək dayanır. Dünyada və xüsusilə yaşadığımız bölgədə vəziyyət gərgin olaraq qalır, yeni qarşıdurma, münaqişə ocaqları yaranır. Əvvəlki illərdə yaranmış gərgin vəziyyət, əfsuslar olsun ki, aradan qaldırılmır. Belə olan vəziyyətdə biz əlbəttə ki, özümüzü mümkün olan xarici risklərdən daha da ciddi qorumalıyıq və qoruyuruq. Bir daha qeyd etmək istəyirəm, Azərbaycanda daxili risklər mənbəyi yoxdur və biz öz siyasətimizlə, görülən işlərlə özümüzü mümkün olan təhlükələrdən qoruyuruq və qoruyacağıq. Azərbaycan xalqının rahat həyatını təmin edirik və edəcəyik.

Bu istiqamətdə bir çox addımlar atılır, o cümlədən xarici siyasətlə bağlı addımlar. Deyə bilərəm ki, 2018-ci ildə Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənib. Mənim həmkarlarımla həm ikitərəfli, həm çoxtərəfli formatlarda bir çox görüşlərim olub. Doqquz ay ərzində mən 12 xarici səfər etmişəm və 15 dövlət və hökumət başçısı Azərbaycana səfərlər etmişdir. Bu, onu göstərir ki, Azərbaycanın çox çevik və çoxşaxəli xarici siyasəti vardır. İkitərəfli formatda əldə edilmiş razılaşmalar icra edilir, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və bizim sözümüzə inanırlar. Çünki sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur.

Hesab edirəm ki, bu il qonşu ölkələrlə əlaqələrimiz yeni pilləyə qalxıbdır. Mənim qonşu ölkələrin dövlət, hökumət başçıları ilə çoxsaylı görüşlərim olub. Əldə edilmiş razılaşmalar həm ikitərəfli əlaqələrimizi möhkəmləndirir, eyni zamanda, regionda sabitliyin, təhlükəsizliyin, əməkdaşlığın inkişafına xidmət göstərir. Müsəlman ölkələri ilə bizim əlaqələrimiz həmişə olduğu kimi diqqət mərkəzindədir. Bu, bizim xarici siyasətimizin prioritet məsələlərindən biridir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal və dəyərli üzvüdür və bütün beynəlxalq təşkilatlarda, beynəlxalq tədbirlərdə biz İslam həmrəyliyini göstəririk və bunu təbliğ edirik. Təsadüfi deyil ki, keçən il bizdə "İslam Həmrəyliyi İli" elan olunmuşdur. Azərbaycanda, İslam aləmində birliyin, həmrəyliyin möhkəmləndirilməsi işində bizim fəaliyyətimiz müsəlman dünyasında çox yüksək qiymətləndirilir. İslam Əməkdaşlıq Təşkilatı bizim fəaliyyətimizi yüksək qiymətləndirir. Biz bu istiqamətdə səylərimizi davam etdiririk və etdirəcəyik. Təsadüfi deyil ki, bu il Azərbaycanın ikinci şəhəri, Bakıdan sonra bu dəfə Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtı adına layiq görüldü. Biz bunu bütün müsəlman aləminin bizə olan hörmətinin təzahürü kimi qəbul edirik, qiymətləndiririk. Eyni zamanda, əlbəttə ki, bu qərar bizim İslam aləmində oynadığımız müsbət rol ilə bağlıdır və biz bu istiqamətdə səylərimizi davam etdirəcəyik. İslam aləmində həmrəyliyin, birliyin möhkəmlənməsi üçün səylərimizi davam etdirəcəyik, eyni zamanda, İslam dəyərlərini dünyaya çatdırmaq üçün bundan sonra da addımlar atılacaqdır. Bildiyiniz kimi, Azərbaycanda multikulturalizmlə bağlı bir çox tədbirlər keçirilmişdir və həm İslam aləmində, həm Avropada bizim bu səylərimiz yüksək qiymətləndirilir, bu səylərin gözəl nəticələri vardır.

Eyni zamanda, bu il bizim iştirakımızla bir neçə önəmli beynəlxalq hadisə baş vermişdir. Onların arasında Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsini mən xüsusilə qeyd etmək istərdim. Hesab edirəm ki, bu, tarixi sənəddir və bu sənəddə Azərbaycanın milli maraqları tam şəkildə öz əksini tapıb. Xəzəryanı beş ölkə uzun danışıqlardan sonra razılığa gəlibdir. Yəni, bu, onu göstərir ki, bütün ölkələrin maraqları bu Konvensiyada təmin edilib. Hesab edirəm ki, bu, bölgənin, regionun inkişafı, iqtisadi imkanlarının genişləndirilməsi üçün çox önəmli bir sənəddir, çox ciddi hüquqi sənəddir.

Bu il Azərbaycanda Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin böyük konfransı keçirilmişdir. Azərbaycan bu təşkilatda uğurla fəaliyyət göstərir və gələn ildən başlayaraq bu təşkilata, dünyanın ən böyük təşkilatlarından biri olan Qoşulmama Hərəkatına sədrlik edəcəkdir. Bakıda Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcəkdir. Biz bu il Avropa İttifaqı ilə əlaqələrimizin inkişafı istiqamətində növbəti ciddi addım atdıq. Bu ilin yayında Avropa İttifaqı ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" sənədi imzalanmışdır və hesab edirəm ki, bu, çox önəmli addımdır, önəmli

sənəddir. Bu sənəddə bir çox önəmli məsələlər öz əksini tapır. O cümlədən bu sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı olan müddəalar həm ədalətlidir, həm də bizim mövqeyimizi və maraqlarımızı tam şəkildə ifadə edir. Bu sənəddə göstərilir ki, Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü Avropa İttifaqı tərəfindən dəstəklənir. Eyni zamanda, NATO-nun Zirvə görüşünün yekununda qəbul edilmiş bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək bir daha ifadə edilmişdir. Bütün bu sənədlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində bizim mövqeyimizi daha da möhkəmləndirir. Onsuz da münaqişənin həlli üçün kifayət qədər geniş hüquqi baza vardır, eyni zamanda, yeni addımlar, xüsusilə ölkəmizin suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü ilə bağlı mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri, sazişlərdə əks olunan müddəalar bizim mövqeyimizi daha da möhkəmləndirir.

Münaqişə ilə bağlı danışıqların indiki mərhələsi ictimaiyyət üçün bəllidir. Ermənistan tərəfinin cəhdləri nəticə vermədi, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı danışıqların formatı dəyişməz olaraq qalır. Bu danışıqlar Ermənistan və Azərbaycan arasında aparılıb, aparılır və aparılmalıdır. İki ölkənin xarici işlər nazirlərinin iki görüşü bunu bir daha sübut edir. Son vaxtlar baş vermiş digər hadisələr onu göstərir ki, danışıqlar formatı dəyişməz olaraq qalır və bu münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti olmayıb, bu gün də deyil və heç vaxt olmayacaq. Ona görə biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi öz siyasətində konstruktivlik nümayiş etdirəcək və torpaqlarımız tezliklə işğalçılardan azad olunacaqdır.

Bununla yanaşı, əlbəttə ki, biz öz hərbi qüdrətimizi artırırıq və artıracağıq. Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir. Eyni zamanda, bu il Bakıda iki dəfə möhtəşəm hərbi parad keçirilmişdir və bu paradlarda bizim hərbi qüdrətimiz həm xalqımıza, həm dünyaya nümayiş etdirilmişdir. Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib, bu proses davam etdirilir. Biz bundan sonra da ən müasir hərbi texnikanı alacağıq, yeni kontraktlar imzalanır. Əvvəlki illərdə imzalanmış kontraktlar əsasında ən müasir silahlar ölkəmizə gətirilir, onların bir hissəsi hərbi paradlarda göstərilib, bir hissəsi göstərilməyib. Demək olar ki, biz bu gün öz hərbi potensialımızı maddi-texniki təchizat baxımından tam təmin etmişik. Biz bundan sonra yalnız ən müasir texnikanı, silahları almaq fikrindəyik və bu texnikanı bizə satmaq istəyən ölkələrin sayı artır. Onsuz da bu məsələ ilə bağlı heç bir çətinlik yoxdur. Əvvəlki illərlə müqayisədə bu gün biz seçim edirik, nəinki hansısa bir təchizatçıya bağlıyıq. Ona görə biz bu gün bir çox ölkələrdən hərbi təyinatlı məhsullar alırıq. Bu il Bakıda üçüncü müdafiə sənayesi sərgisi uğurla keçirilmişdir. Bir çox aparıcı şirkətlər öz məhsullarını nümayiş etdirmişlər. Azərbaycan öz hərbi-texniki potensialını ortaya qoydu. Bu gün biz hərbi texnikanın istehsalı işində uğurla inkişaf edirik. Azərbaycanda mindən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Hərbi texnikanın, sursatların istehsalı ilə bağlı bizim yeni planlarımız var və biz onları da həyata keçirəcəyik. Bir sözlə, bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdirib.

Əlbəttə, bizim bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir və bu istiqamətdə ardıcıl addımlar atılır. Əgər bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı. Bizim iqtisadiyyatımız siyasi maraqlarımızı təmin edir. İqtisadi müstəqillik imkan verir ki, biz beynəlxalq müstəvidə də müstəqil siyasət aparaq. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, belə imkanlar məhdud ola bilərdi. Biz isə iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Hesab edirəm ki, bu, bizim tarixi nailiyyətimizdir.

Eyni zamanda, 2018-ci ildə iqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılmışdır. Hesab edirəm, bu ilin doqquz ayının göstəriciləri deməyə əsas verir ki, biz istədiyimizə nail oluruq. İqtisadi göstəricilərə gəldikdə isə deməliyəm ki, bu ilin doqquz ayında bizim iqtisadiyyatımız, yəni, ümumi daxili məhsul 0,8 faiz artmışdır. Qeyri-neft sektorunda artım isə 1 faizdir. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artmışdır. Bu göstərici Azərbaycanda aparılan sənayeləşmə siyasətinin nəticəsidir.

Bildiyiniz kimi, son illərdə kənd təsərrüfatının inkişafına, xüsusilə bölgələrdə məşğulluğun artırılmasına böyük diqqət, qayğı və dəstək göstərilir. Biz kənd təsərrüfatının ardıcıl artımını görürük. Ümid edirəm ki, növbəti illərdə bu artım daha da böyük olacaq. Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb. Hesab edirəm ki, bu da kifayət qədər yaxşı göstəricidir.

İnflyasiya cəmi 2,6 faizdir, əhalinin gəlirləri isə 9,5 faizdir. Yəni, gəlirlər inflyasiyanı üstələyir. İnflyasiyanın aşağı səviyyədə olması, il ərzində daha da düşməsi göstərir ki, bizim maliyyə vəziyyətimiz çox sabitdir və makroiqtisadi vəziyyət möhkəmdir.

Bu ilin doqquz ayında ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulmuşdur. Sevindirici hal ondan ibarətdir ki, bu vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna qoyulub. Bu, iqtisadiyyatımızın bundan sonra da şaxələndirilməsinə xidmət göstərəcəkdir.

Valyuta ehtiyatlarımız artır. Bu gün bizim valyuta ehtiyatlarımız 45 milyard dollara çatıb. İlin əvvəlindən bəri biz əlavə 3 milyard dollar yığmışıq. Bu, bir daha onu göstərir ki, biz öz vəsaitimizə böyük qənaətlə yanaşırıq. Həm ölkə qarşısında duran vacib məsələləri həll edirik, investisiya layihələrini, infrastruktur layihələrini

icra edirik, sosial məsələlərin həllini təmin edirik, eyni zamanda, ehtiyatlarımızı da artırırıq və əminəm ki, ilin sonuna qədər daha da artacaq. Bu, bizim bundan sonra da uğurlu inkişafımız üçün çox önəmli amildir.

Doqquz ayda xarici ticarət dövriyyəsi 37 faiz artıb. İxrac da təxminən bir o qədər artıb. Bu da çox müsbət haldır. Qeyri-neft ixracı isə təxminən 14 faiz artıb. Hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Bu ilin doqquz ayında ölkəmizdə 85 min daimi iş yeri açılmışdır.

Bax, budur, sosial-iqtisadi inkişafımızın əsas göstəriciləri. İstənilən mötəbər beynəlxalq maliyyə qurumu bu nəticələri görərkən bir qənaətə gələ bilər ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Azərbaycanda çox düşünülmüş iqtisadi siyasət aparılır. Azərbaycan iqtisadiyyatı qarşısında gələcəkdə heç bir ciddi problem yoxdur. Sadəcə olaraq, biz gərək bu sahədə öz islahatlarımızı davam etdirək. Bu barədə bu gün danışılacaq ki, öz iqtisadi potensialımızdan maksimum istifadə edə bilək.

Əlbəttə, qeyd etdiyim kimi, ölkəmizin uğurlu inkişafı üçün yerli istehsalın artması ən önəmli amillərdən biridir. Dövlətin dəstəyi ilə bu istiqamətdə bir çox layihələr icra edilir. O cümlədən dövlətin birbaşa maliyyə dəstəyi ilə böyük, nəhəng müəssisələr yaradılır. Misal üçün, bu il polipropilen zavodunun açılışı, hesab edirəm ki, çox əlamətdar hadisədir. Bu zavodun açılışında İtaliya Prezidenti mənimlə birlikdə iştirak etmişdir. İlin sonuna qədər "SOCAR Polymer"in ikinci layihəsi – yüksəksıxlıqlı polietilen zavodu da istifadəyə veriləcək. Bu zavodlara qoyulan sərmayənin həcmi 800 milyon dollardan çoxdur. Əlbəttə, bizim qeyri-neft sənayemizin inkişafı üçün bu zavodların böyük əhəmiyyəti olacaq. Ölkəmizə böyük həcmdə valyuta gələcək. İlin sonuna qədər azot gübrəsi zavodu istifadəyə verilməlidir. Orada da sərmayələr yüz milyonlarla dollar həcmindədir.

Yaxın gələcəkdə Azərbaycanın Türkiyədəki "Star" neftayırma zavodu istifadəyə veriləcək. Biz bu zavoda çox böyük sərmayə – 6 milyard dollardan çox vəsait qoymuşuq. Biz oradan hər il yüz milyonlarla dollar gəlir götürəcəyik. Yəni, həm ölkə daxilində, həm xaricdə qoyulan sərmayələr gələcəkdə bizə böyük xeyir gətirəcək və ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Bu il bir çox sənaye müəssisələri açılmışdır və bu proses davam etdiriləcək.

2018-ci il bizim enerji siyasətimizin inkişafı üçün önəmli il olmuşdur. Bu ilin may ayında biz Bakıda Cənub Qaz Dəhlizinin rəsmi açılışını qeyd etdik. Bu, tarixi hadisədir. Ondan bir ay sonra Türkiyədə TANAP layihəsinin açılışını etdik və "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Bütün bu dörd layihənin hamısında çox gözəl nəticələr var. Bu il biz qaz hasilatımızı artıracağıq, artıq "Şahdəniz-2"dən qaz gəlir. Gələn il, ondan sonrakı illərdə daha da artacaq. Yəni, biz tam hədəfə çatmaq üçün bütün işləri görürük və mənə verilən son məlumatlara görə, Cənub Qaz Dəhlizinin son hissəsi olan TAP layihəsinin icrası ilə bağlı da heç bir problem yoxdur.

Cənub Qaz Dəhlizinin uğurla başa çatması bizim üçün yeni imkanlar, yeni üfüqlər açacaq. Biz bir çox ölkələrin bazarlarına öz resurslarımızla çıxacağıq. Ondan sonra bunu nəzərə alaraq, biz o ölkələrdə yeni infrastruktur layihələri icra edə bilərik. Bu barədə danışıqlar gedir və əvvəlcədən bir şey demək istəmirəm. Amma hesab edirəm ki, biz, sadəcə olaraq, digər ölkələrə qazı təchiz edən ölkə kimi yox, ondan sonra qaz təsərrüfatının idarə edilməsi ilə bağlı da məşğul olmaq istəyirik. Bu, səmərəliliyi, gəlirimizi daha da artıracaq və çalışacağımız ölkələrdə də yeni infrastruktur yaradılmasına gətirib çıxaracaq.

Əlbəttə ki, ilin doqquz ayının yekunları haqqında danışarkən Ələt Beynəlxalq Dəniz Ticarət Limanını qeyd etməmək mümkün deyil. Bu da tarixi layihədir, Xəzər dənizinin ən böyük limanıdır. Liman may ayında istifadəyə verildi. Beləliklə, Şərq-Qərb nəqliyyat dəhlizinin uğurlu fəaliyyəti üçün çox önəmli infrastruktur layihəsi həyata keçirildi. Bundan sonra biz əlbəttə ki, öz tranzit imkanlarımızı artıracağıq. Bu gün biz nəinki Şərq-Qərb, eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin fəal iştirakçısıyıq. Bu dəhliz vasitəsilə göndərilən yüklərin həcmi artır. Mən bu rəqəmi səsləndirmişdim, bir daha demək istəyirəm ki, ilin əvvəlindən Şimal-Cənub nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisindən daşınan yüklərin həcmi yüz dəfədən çox artmışdır. Bu, hələ başlanğıcdır. Biz indi tərəfdaş ölkələrlə bu layihənin tam həyata keçirilməsi üçün çox ciddi danışıqlar aparırıq. Azərbaycanın həm texniki təcrübəsi, həm də mütəxəssisləri və maliyyə resursları var. Azərbaycan ərazisində bütün işləri biz özümüz gördük və başqa yerlərə də öz maliyyə imkanlarımızı cəlb edə bilərik ki, bu dəhliz tam gücü ilə işləsin və ölkəmizə əlavə valyuta gətirsin. Bizim əsas məqsədimiz budur. Əlbəttə ki, tranzit ölkələrin siyasi çəkisi də, siyasi imkanları da artır. Regionda əməkdaşlığın inkişafı üçün o ölkələrin rolu artır. Biz istəyirik ki, bizim rolumuz artsın. Biz istəyirik ki, Azərbaycan ilə daha çox hesablaşsınlar. Biz istəyirik ki, Azərbaycandan daha çox məsələlər asılı olsun və buna nail oluruq.

Regionda baş verən hadisələr, bizim təşəbbüsümüzlə icra edilən nəhəng enerji, nəqliyyat layihələri, digər sahələrdə apardığımız işlər siyasi çəkimizi böyük dərəcədə artırıb. Bu gün Azərbaycan çox dəyərli, böyük hörmətə, yüksək beynəlxalq nüfuza malik olan bir ölkədir. Təkcə bizim yaratdığımız imkanlara görə yox, eyni zamanda, bəlkə də, ilk növbədə, ona görə ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Biz prinsipial siyasət aparırıq. Bütün prinsipial məsələlərlə bağlı öz mövqeyimizi ortaya qoyuruq, ölkəmizin milli maraqlarını layiqincə yerinə yetiririk və bundan sonra da bu yolla gedəcəyik.

## *Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında iclasında İlham Əliyevin yekun nitqi*

İlin sonuna üç aydan az vaxt qalır. Əminəm ki, biz ilin sonuna qədər nəzərdə tutduğumuz bütün işləri görəcəyik, o cümlədən Dövlət İnvestisiya Proqramı tam icra ediləcəkdir. Mənə bu yaxınlarda məruzə edildi, Dövlət İnvestisiya Proqramının icrası ilə bağlı vəziyyət yaxşıdır. Cədvəl üzrə nəzərdə tutulmuş bütün layihələr icra edilir.

Bir neçə ay bundan əvvəl biz büdcəyə dəyişiklik etdik. Çünki əlavə vəsait daxil edildi. Hesab etdik ki, bu il görülə biləcək işlərin icrası üçün əlavə vəsait ayıraq, o cümlədən sosial məsələlərin həlli üçün. Dürüstləşmə edildi və büdcəmizin həcmi artırıldı. Bu, özlüyündə bir göstəricidir, onu göstərir ki, bizim maliyyə vəziyyətimiz daha da yaxşılaşır. Elə imkanlar yaranıb ki, biz il ərzində büdcəyə dəyişiklik edərək büdcəmizin həcmini artıra bilərik. Dünya miqyasında belə hallara çox da tez-tez rast gəlinmir. Azərbaycan iqtisadiyyatı istənilən dövrdə öz dayanıqlılığını nümayiş etdirir. Hətta bir neçə il bundan əvvəl dünyanı bürümüş maliyyə-iqtisadi böhranının ikinci dalğası dövründə də Azərbaycan iqtisadiyyatı dayanıqlılığını təmin etmişdir.

Gələn ilin büdcəsi ilə bağlı ilkin məruzələr edildi. Gələn ilin büdcəsi həm investisiyayönümlü, həm də sosialyönümlü olacaqdır. Bütün sosial layihələr icra ediləcək. Eyni zamanda, dövlət kapital qoyuluşu üçün kifayət qədər vəsait də nəzərdə tutulur. Əsas məsələ ondan ibarətdir ki, biz bu vəsaitdən səmərəli şəkildə istifadə edək, ölkə qarşısında duran əsas məsələlərin həllini təmin edək, prioritetləri düzgün seçək. Dövlət İnvestisiya Proqramımız iqtisadiyyatın real sektoruna xidmət göstərməlidir, eyni zamanda, bu günə qədər öz həllini tapmayan infrastruktur layihələrinin icrasına da istiqamətləndirilməlidir.

Bu il iqtisadi sahədə köklü islahatlar davam etdirilir. Biz bu islahatların nəticələrini görürük. Xüsusilə vergi və gömrük sistemində aparılan islahatlar böyük dəyişikliyə, müsbətə doğru dəyişikliklərə səbəb olur. İslahatlar davam etdirilməlidir. Bu gün sahibkarları, ictimaiyyəti narahat edən vergi və gömrük sahəsində işlərlə, məsələlərlə bağlı bütün lazımi addımlar atılmalıdır ki, bu xoşagəlməz hallara son qoyulsun.

Gömrük orqanları bu il 800 milyon manatdan çox əlavə vəsait toplamışlar. Mən bunu yüksək qiymətləndirirəm. Əminəm ki, ilin sonuna qədər bu məbləğ daha da artacaq. Bu, onu göstərir ki, ilk növbədə, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir, idxal artır və idxalın artımı da sənayenin inkişafı ilə bağlıdır. Nəzərə alsaq ki, ixrac idxalı böyük dərəcədə üstələyir, biz idxalın artımına müsbət hal kimi yanaşmalıyıq. Bizim xarici ticarətimizin müsbət saldosu 9 ayda 6,5 milyard dollar təşkil edir. Bilirəm, bəziləri hesab edirlər ki, idxalın artımı müəyyən problemlər yarada bilər. Təbii ki, bu, belədir. Amma o təqdirdə ki, ixracımız artmasın. İxracımız idxaldan daha yüksək templərlə artır. Əgər doqquz ay ərzində 6,5 milyard dollar müsbət saldomuz varsa, deməli, ilin sonuna qədər bu, daha da artacaq. İdxalın artımı sənayenin inkişafı ilə bilavasitə bağlı olan məsələdir, insanların rifah halının yaxşılaşması ilə bağlıdır. Gömrük rüsumlarının artırılmasının səbəblərindən biri də məhz idxalın artımıdır. Ancaq, eyni zamanda, deməliyəm ki, digər amillər də müsbət rol oynayır. O cümlədən struktur islahatları, şəffaflıq, korrupsiyaya, rüşvətxorluğa qarşı ciddi mübarizə gömrük orqanlarında 800 milyon manatdan çox əlavə vəsaitin toplanmasına səbəb olubdur.

Vergi orqanlarında da ciddi struktur islahatları aparılır. Bu barədə nazir məlumat verdi. Mən qeyd etməliyəm ki, bizim əsas vəzifəmiz kölgə iqtisadiyyatının aradan qaldırılmasıdır. Düzdür, heç bir ölkədə buna 100 faiz nail olunmayıb, hər bir ölkədə kölgə iqtisadiyyatı var, amma bunun dərəcəsi var. Azərbaycanda kölgə iqtisadiyyatının kəskin şəkildə azalması üçün çox ciddi addımlar atılır. Vergidən yayınma halları əvvəlki illərdə kütləvi xarakter daşıyırdı. Bu, əlbəttə, imkan vermirdi ki, biz öz potensialımızı tam gücü ilə işə salaq. Bu gün bu hallara son qoyulur. Bütün dövlət orqanları vergi orqanlarına kömək göstərməlidirlər. Müvafiq göstərişlər verilir. Vergidən yayınmaya son qoyulmalıdır. Bu, həm iri, həm kiçik sahibkarlara aiddir. Sahibkarlar da bilməlidirlər ki, əgər onlar sahibkarlar kimi öz fəaliyyətini davam etdirmək istəyirlərsə, vergiləri tam ödəməlidirlər. Heç kimə heç bir güzəşt edilmir və edilməyəcək. Bilirəm ki, bəzi sahibkarlar bəzi dövlət məmurlarına arxalanırlar, o dövr artıq keçibdir. Heç kimə arxalanmasınlar. Əgər hansısa bir dövlət məmuru sahibkarlara xüsusi şərait yaratmaq üçün qanunsuz əməllər edəcəksə, çox ciddi şəkildə cəzalandırılacaq. Bütün müvafiq qurumlara göstəriş verildi, ilk növbədə, Vergilər Nazirliyinə. Bu nazirlik heç nəyə baxmadan, dövlət maraqlarını rəhbər tutaraq öz siyasətini aparmalıdır. Bütün dövlət qurumları, o cümlədən sahibkarlar bu sahədə öz dəstəyini verməlidirlər. Dəstək verməyən isə cəzalandırılacaq.

Uçot sisteminin yaradılması prioritet məsələlərdən biridir. Mən əvvəlki illərdə də bu məsələni dəfələrlə qoymuşdum. Ancaq əfsuslar olsun ki, biz müəyyən səbəblərə görə uçot sisteminin yaradılmasına çata bilməmişik. İndi bu sistem yaradılır. Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün də praktiki addımlar atılır. Hesab edirəm ki, biz doqquz ayda vergilərin bu səviyyədə toplanmasına, – nəzərə alsaq ki, əvvəlki illərdə bu sahədə çox böyük pozuntular olub, – vergi orqanlarının çox fəal və məqsədyönlü fəaliyyəti nəticəsində nail ola bilmişik.

Şəffaflıq vergi və gömrük orqanlarında tam təmin edilməlidir, struktur islahatları davam etdirilməlidir. Korrupsiyaya, rüşvətxorluğa qarşı ən ciddi mübarizə aparılır və aparılacaqdır. Bu kompleks tədbirlər biznes mühitinin yaxşılaşdırılmasına öz dəstəyini verəcək. Sağlam rəqabətin təmin edilməsi üçün indi şərait

yaradılır. İnhisarçılığa qarşı mübarizə çox ciddi xarakter alıbdır. Bir daha demək istəyirəm ki, bütün aidiyyəti qurumlar, özəl və dövlət şirkətləri mənim sözlərimdən nəticə çıxarsınlar. Vergi və gömrük sistemləri Azərbaycanda şəffaflığın nümunəsi olmalıdır. Mən göstəriş vermişəm ki, bu sahədə Avropanın aparıcı dövlətlərinin təcrübəsi Azərbaycanda tam tətbiq edilməlidir. Bu istiqamətdə işlər gedir.

İqtisadiyyatın rəqabətliliyinin artırılması üçün biz bundan sonra da fəal işləyəcəyik. Bildiyiniz kimi, Azərbaycanın bu sahədəki reytinqləri ən yüksək səviyyədədir. Mən bunu dəfələrlə demişəm və bir daha qürur hissi ilə deyə bilərəm ki, Davos Forumunun hesablamalarına əsasən biz iqtisadi rəqabətliliyə görə dünyada 35-ci yerdəyik. Ancaq onu da bilməliyik ki, biz daha da qabağa getməliyik. Ona görə Davos Forumunun hesabatı tam təhlil edilməlidir və təhlil edilir. Bəzi müddəalar var ki, biz orada geridə qalmışıq. Biz onlara mütləq baxmalıyıq və iqtisadiyyatın rəqabətliliyini daha da artırmalıyıq.

Qeyri-neft sektorunun inkişafı üçün çox böyük işlər görülür, addımlar atılır. Xüsusilə son dövrdə qəbul edilmiş qərarlar çox böyük canlanmaya gətirib çıxarıb. Təkcə onu demək kifayətdir ki, investisiya təşviqi sisteminin tətbiqindən sonra 300-dən çox investisiya təşviqi sənədi verilmişdir. Bu layihələrin icrası nəticəsində 20 min iş yeri yaradılıb. İnvestisiya təşviqi mexanizminin işə düşməsindən sonra icra edilən və nəzərdə tutulan layihələrin ümumi investisiya həcmi 2,7 milyard manatdır. Əgər biz bu sistemi tətbiq etməsəydik, heç kim gəlib bu vəsaiti Azərbaycana qoymazdı. Baxın, bir ciddi islahatın aparılması ilə təxminən 3 milyard manat investisiya cəlb etmişik, 20 min insan üçün isə iş yeri yaratmışıq.

Mən giriş sözümdə sənaye istehsalı ilə bağlı bəzi məsələləri qeyd etdim. Xüsusilə bu yaxınlarda orbitə çıxarılmış "Azerspace-2" peykini qeyd etmək istərdim. Bu, böyük nailiyyətdir. Bu, kosmik dövlət kimi Azərbaycanın mövqelərini daha da möhkəmləndirir. Bizim indi 3 peykimiz var. "Azerspace-2" peykinin orbitə çıxarılması bizim böyük qələbəmizdir. Eyni zamanda, bu sahədə görüləcək işlər bizə əlavə vəsait gətirəcək. Onu da qeyd etməliyəm ki, peykin imkanlarının demək olar yarısı, bəlkə də yarıdan çoxu artıq satılıb. Bundan sonra qalan təqribən 40 faiz hələ ki, bölüşdürülməyib. Peykin xidmət potensialı, o da bölüşdürüləcək. Bu, kommersiya baxımından çox əlverişli layihədir, özünü tam doğruldacaq və bizə böyük həcmdə valyuta gətirəcək. Bu, bir ixrac növüdür. Eyni zamanda, kadr hazırlığı, texnologiyaların inkişafı baxımından çox önəmli layihədir. Biz haqlı olaraq fəxr edə bilərik ki, bizim indi 3 peykimiz vardır.

Bakıda neftayırma zavodunun yenidən qurulması, modernləşdirilməsi prosesi gedir. Bu da çox önəmli sənaye layihəsidir. Bu, bizə imkan verəcək ki, daha keyfiyyətli neft məhsulları istehsal edək. Yenidənqurma başa çatandan sonra Azərbaycanda istehsal olunacaq benzin "Avro-5" standartına cavab verəcək. Bu da ölkəmizin ekoloji vəziyyətinə müsbət təsir göstərəcəkdir. Eyni zamanda, bu zavodun yenidən qurulması, modernləşdirilməsi bizə böyük iqtisadi səmərə verəcək.

Neftçala Sənaye Parkında "Xəzər" adlı avtomobillər artıq istehsal olunur. Bu da çox gözəl hadisədir. Mənə verilən məlumata görə, 300-ə yaxın avtomobil istehsal olunub. Onların böyük hissəsi, 200-dən çoxu artıq satılıb. Bu zavodun illik istehsal gücü 10 min ədəd avtomaşındır. Əgər daxili tələbat və ixrac tələbatı olarsa, zavod bu səviyyəyə qalxa bilər.

Sənaye parkları ilə bağlı qeyd etməliyəm ki, Sumqayıt Kimya Sənaye Parkında yeni müəssisələr yaradılır. Orada da 2 milyard dollardan çox sərmayə nəzərdə tutulur. Gələn il bir neçə önəmli, vacib müəssisə açılacaqdır.

Mingəçevir Sənaye Parkında 2 böyük iplik fabriki işləyir. Orada 750 insan işlə təmin olunub. Orada işləyənlər əsasən qadınlardır. Bu iplik fabriklərinə 80 milyon dollar sərmayə qoyulub. Bu, bizim ixrac imkanlarımızı genişləndirir və biz mahlıcı orada ipə çevirərək artıq daha da valyutatutumlu məhsul ixrac edirik. Bu prosesin davamı olmalıdır ki, biz artıq hazır məhsula da nail ola bilək.

Bu il mənim iştirakımla Masallı Sənaye Parkının açılışı olmuşdur. Hacıqabul və Sabirabad rayonlarında sənaye məhəllələrinin yaradılması prosesi davam edir.

Sahibkarlara bundan sonra da dövlət öz dəstəyini göstərəcək. Bu günə qədər Sahibkarlığın İnkişafı Fonduna 2,2 milyard manat vəsait ayrılmışdır. Bu proses davam etdirilir. Mənə verilən məlumata görə, bu il də kreditləşmə uğurla gedir, tələbat çoxdur. Bu, çox sevindirici haldır. Əminəm ki, Sahibkarlığın İnkişafı Fondunun fəaliyyəti nəticəsində gələn il də ölkəmizdə minlərlə iş yeri yaradılacaq.

Mən giriş sözümdə qeyd etdim ki, kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzindədir. 4,3 faiz artım müsbət haldır. Amma əminəm ki, kənd təsərrüfatı sahəsində aparılan islahatlar daha da böyük nəticələrə çatmağa imkan verəcəkdir. Doqquz ayda 5700 kənd təsərrüfatı texnikası alınıbdır. Texnika ilə təminat böyük dərəcədə yaxşılaşıb. Kənd Təsərrüfatı Nazirliyi indi çox ciddi islahatlar aparır. Mənə məruzə edildi, mən bu islahatları dəstəklədim. Hesab edirəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək, düşünülmüş, sistemli qaydada, torpaqların münbitliyini nəzərə alaraq, əkin sahələrinin səmərəliliyini təmin edərək və ilk növbədə, məhsuldarlığı artıraraq biz mövcud olan torpaq fondumuzdan istifadə edərək istehsalı böyük dərəcədə artıra bilərik. Eyni zamanda, kənd təsərrüfatının ekstensiv inkişafı da nəzərdə tutulmalıdır. Biz bir çox meliorasiya layihələrimizi icra etmişik və icra edəcəyik. 192 min hektar sahədə 45 aqroparkın yaradılması nəzərdə tutulur. Onların 4-ü mənim iştirakımla açılıb. Verilən məlumata görə, ilin sonuna qədər açılan aqroparkların sayı 13-ə çatacaqdır.

İri fermer təsərrüfatlarında, taxılçılıqda nəticələr çox yaxşıdır. Təqribən hektardan orta hesabla 50 sentner

məhsul götürülür. İri fermer təsərrüfatlarında tətbiq olunan texnoloji prosesi də biz bütün təsərrüfatlara yaymalıyıq. Belə olan halda, biz mövcud əkin sahəsindən daha çox məhsul yığa bilərik. Bu il taxılçılıqda artım olub, 3 milyon ton taxıl tədarük edilibdir. Buğda yığımında məhsuldarlıq 30 sentnerə çatıb. Pis nəticə deyil. Amma hesab edirəm ki, daha da artmalıdır və artacaq.

Pambıqçılıqda gələn ilin proqramı ilə bağlı məruzə edildi. Biz pambıqçılığı daha səmərəli şəkildə inkişaf etdirməliyik. Məhsuldarlıq artmalıdır. Keçən ilin məhsuldarlığı bizi heç cür qane edə bilməzdi. Bunun bir çox səbəbləri vardır və göstəriş verilmişdir, səbəblər araşdırılsın ki, biz pambıqçılığı məhsuldarlıq hesabına inkişaf etdirək.

Eyni zamanda, əgər biz statistikaya baxsaq görərik ki, 2016-cı ildə Azərbaycanda 90 min ton pambıq tədarük edilmişdir, - 2015-ci ili mən demirəm, o illərdə, ümumiyyətlə, məhsuldarlıq çox aşağı idi, - keçən il 207 min ton, yəni, 2 dəfədən çox. Bu il təqribən 250-260 min ton pambığın tədarükü nəzərdə tutulur. Yəni, artım dinamikası çox müsbətdir. Onu da qeyd etməliyəm ki, hazırda ölkəmizdə pambıqçılıqda 190 mindən çox insan işləyir. Bax, biz pambıqçılığı inkişaf etdirməyə başlayandan sonra bu insanlar işlə təmin olundular. Biz pambığın alış qiymətini bir neçə dəfə artırmışıq. Bu yaxınlarda son dəfə artırdıq ki, pambıqçılıqla məşğul olanlar daha çox pul qazansınlar. Bu gün 190 min insanın işi var.

İndi müasir texnologiyalar tətbiq edilir. Burada da elmi yanaşma tətbiq olunur. Əminəm ki, biz məhsuldarlığı böyük dərəcədə artıra bilərik. Məhsuldarlıq hektardan minimum 20 sentner olmalıdır. Ancaq indi biz bilirik ki, müasir texnologiyaların tətbiq olunduğu, düzgün aqrotexniki xidmət göstərildiyi bir vaxtda məhsuldarlıq daha da artır. Mən rəqəm səsləndirmək istəmirəm, ancaq hesab edirəm ki, burada inkişaf üçün çox böyük potensial var.

Üzümçülüklə bağlı işlər yaxşı gedir. Bu il biz yeni üzüm bağlarının salınmasını müşahidə etmişik. Mənim iştirakımla ən yüksək beynəlxalq standartlara cavab verən yeni şərab zavodu fəaliyyətə başladı və bu zavodun çox böyük ixrac potensialı var. Biz üzümçülüyün, şərabçılığın şöhrətini bərpa edirik, qaytarırıq. Bu, fermerlər üçün çox gəlirli bir sahədir. Biz bu sahəni bərpa etməklə həm öz ixrac imkanlarımızı genişləndiririk, həm də kəndlilərə, fermerlərə gözəl şərait yaradırıq. Eyni zamanda, üzümçülük mənzərəni də gözəlləşdirir. Mən bu il Şamaxı rayonunda böyük üzüm bağları ilə tanış olarkən gördüm ki, bu bağlar, həmçinin şərab zavodunun açılışı bölgəyə tam yeni bir mədəniyyət gətirir.

Azərbaycanda üzümçülüyün çox böyük ənənələri vardır. Biz bu ənənələri bərpa edirik və eyni zamanda, bu gün dünyanın ən qabaqcıl texnologiyalarını cəlb edirik. Təsadüfi deyil ki, ixracımız artır. İndi Azərbaycan şərab evlərini açmağa başlayıb. Artıq bir neçə ölkədə şərab evləri fəaliyyətə başlayır. Bizim şərabımıza böyük maraq var. Biz şərabçılıqla bağlı olan bütün məsələləri çox ciddi təhlil etmişik. Bir çox boşluqlar var idi - həm istehsalatda, həm uçotda, həm də aksiz markalarının yapışdırılmasında. Sanki kimsə bu boşluqları qəsdən edirdi ki, orada qeyri-şəffaf vəziyyət yaradılsın. Mən buna başqa bir izahat verə bilmərəm. Çünki o qədər çətin olmayan, yəni, böyük intellektual potensial tələb etməyən məsələlər var və elə bil onlar qəsdən edilib qatmaqarışıq salınsın ki, burada həm vergilərdən yayınsınlar, həm də qanunsuz istehsalla məşğul olsunlar. Şərab əvəzinə araq istehsal olunurdu. Məsələ çox ciddi araşdırılır. Bu sahədə tam şəffaflıq təmin edilməlidir. Şərab zavodlarının fəaliyyəti üçün bütün şərait yaradılıb, təki onlar təmiz işləsinlər. Əgər yenə məhsulları gizlədəcəklərsə, uçota düşməyən məhsulu satacaqlarsa, onlar çox ciddi cəzalandırılacaqlar, onu bilsinlər. Burada tam şəffaflıq olmalıdır. Bu, çox gəlirli sahədir. Sadəcə olaraq, gərək sahibkarlar öz tamahlarını cilovlaya bilsinlər.

Xüsusilə nəzərə alınmalıdır ki, dövlət öz dəstəyini göstərir. İxrac missiyalarını dövlət təşkil edir, şərab evlərinin yaradılmasını dövlət təmin edir, ixracla bağlı danışıqları dövlət aparır. Mən şəxsən bir neçə həmkarımla Azərbaycanın qeyri-neft ixracının artırılması ilə bağlı danışıqlar aparmışam və biz nəticəyə gəlmişik. Bütün bunları biz edirik, sahibkarlar da öz məsuliyyətini dərk etməlidirlər.

Mən regional inkişafla bağlı konfransların birində bəzi kənd təsərrüfatı məhsullarının istehsalını, istehlakını sadalayarkən özüm də o arayışı görəndə təəccüb etdim ki, biz xaricdən zeytun idxal edirik. O zeytun ki, bizdə, Abşeron yarımadasında hər tində bitə bilir. Ona görə, çox ciddi göstəriş verildi ki, yeni zeytun bağları salınsın, onların suvarılması təmin edilsin və Azərbaycanda zeytun yağı istehsalı təşkil olunsun. Bu günə qədər olan istehsal bizi qane edə bilməzdi. Mənim bu istiqamətdə göstərişlərim yerinə yetirilir və son bir neçə il ərzində yeni zeytun bağları salınıb. Yüzlərlə, bəlkə də minlərlə hektar sahələrdə yeni zeytun bağları salınır. Bizim istehsalımız artır, zeytun yağı istehsalı artır, ixrac etməyə başlamışıq. Özü də çox keyfiyyətli zeytun yağıdır. Biz zeytunçuluğun inkişafı, zeytun yağının ixracı ilə bağlı dünya miqyasında öz dəyərli yerimizi tuturuq.

Mənim iradlarımı tütünçülüyə də aid etmək olar. Bu sahə də demək olar ki, batıb gedirdi. Heç bir dövlət dəstəyi göstərilmirdi. Ancaq biz bu məsələ ilə məşğul olmağa, qurutma kameralarının yaradılmasına, tütün istehsalının təşviqi üçün addımlar atmağa başlayanda dərhal gözəl nəticələri görürük. Biz tütün istehsal edə-edə xaricdən siqaret alırıq. Elə ölkələr var ki, orada tütün, ümumiyyətlə, bitmir, onlar bizə siqaret ixrac edirlər. Bu, absurddur, dözülməzdir. Sadəcə, ona görə ki, bu məsələ ilə məşğul olmurdular və bu sahəni başlı-başına buraxmışdılar. Bəlkə hesab edirdilər ki, belə də olmalıdır. Amma biz indi vəziyyəti tam dəyişdiririk. Azərbaycanda yeni siqaret fabrikləri yaradılır. Biz özümüzü siqaretlə böyük dərəcədə təmin edəcəyik,

ixrac potensialı yaradılır. Tütünçülükdə vəziyyət necədir? Əgər 2015-ci ildə 3400 ton quru tütün istehsal olunubsa, bu il 6 min ton quru tütün istehsalı nəzərdə tutulur, təxminən iki dəfə çox. Doqquz min insan tütünçülükdə işləyir, yaxşı pul qazanır. Bax, görülən işlərin nəticəsi budur.

Tərəvəzçilik ənənəvi ixrac sektorumuzdur. Ancaq biz burada da işlərimizi təkmilləşdirməliyik. Deməliyəm ki, Rusiyaya pomidor ixracında Azərbaycan birinci yerdədir. Biz çalışmalıyıq ki, bu birinciliyi saxlayaq. Onu da qeyd etməliyəm ki, Azərbaycanda bir çox istixanalar salınır. Son məlumata görə, təqribən 400 hektar sahədə yeni istixanalar salınır, onların da böyük əksəriyyəti pomidor istehsalına hesablanıb. Ona görə, baxmalıyıq ki, nə qədər əlavə bazar bizim istehsalımızı həzm edə bilər. Eyni zamanda, biz gərək pomidorun emalını təmin edək ki, məhsulumuz xaricə daha da böyük qiymətə satıla bilsin.

Meyvəçilik sahəsində də müsbət irəliləyiş var. Qeyd etməliyəm ki, bizdə xurma ixracı 2 dəfə artıb, narçılıq inkişaf edir. Mən fındıqçılıqla bağlı xüsusi müşavirə də keçirmişdim və nəticələr göz qabağındadır. 2016-cı ildə fındıq bağlarının sahəsi təqribən 30-35 min hektar idi. Bu gün yeni bağların salınması hesabına bu rəqəm 70 min hektara çatıb və qarşıya hədəf qoyulub ki, 2020-ci ildə 83 min hektara çatacaq. Bu, məşğulluqdur, gəlirdir, valyutadır. Bu, ölkəmizə bəlkə də yüz milyonlarla dollar gətirəcək. Ölkəmizə deyəndə, fermerlərə, onlar da onu xərcləyəcəklər, onlar da öz güzəranını yaxşılaşdıracaqlar, daha yaxşı yaşayacaqlar və bizim tədiyə balansımıza da bunun müsbət təsiri olacaq. Hazırda fındıqçılıqda 17 min insan işləyir, yaxşı gəlir götürür.

Baramaçılıqda, ümumiyyətlə, vəziyyət, bəlkə ən acınacaqlı idi. Biz demək olar ki, bu sahəni tamamilə itirmişdik. 2015-ci ildə məlumat verildi ki, cəmi 236 kiloqram barama istehsal olunub və baramaçılar heç bilmirdilər ki, onu hara versinlər. Bütün bir zəncir sistemi yaratdıq – həm stimullaşdırma, həm maarifləndirmə, həm tinglərin gətirilməsi, indi Qaxda barama mərkəzinin yaradılması. Bütün bu işlər gözəl nəticə verir və bu il 500 tondan çox barama tədarük edilib. Əgər keçən il 10 min insan bu işlərə cəlb olunubsa, 2016-cı ildə 3 min, bu il 22 min insan. Beləliklə, bu insanlar 30-40 günə o qədər də böyük əziyyət çəkmədən yaxşı pul qazanır və Şəki ipək kombinatı da daha böyük həcmlə işləyir. Orada da yüzlərlə iş yeri yaradılıb. Əlbəttə ki, biz Şəki ipək kombinatının modernləşdirilməsi ilə məşğuluq. Həm iş yerlərinin artırılması, həm ixrac imkanlarının genişləndirilməsi istiqamətində işlər aparılacaq.

Mən kənd təsərrüfatı ilə bağlı yekun olaraq demək istəyirəm ki, ilk növbədə, biz daxili tələbatı təmin etməliyik, məhsuldarlığı artırmalıyıq, elmi yanaşmanı tətbiq etməliyik və ixrac imkanlarımızı genişləndirməliyik.

Bu sahədə kiçik sahibkarlıq da öz rolunu oynayır və oynayacaq. İndi “ABAD” – “Ailə Biznesinə Asan Dəstək” mərkəzləri yaradılır. Mən bunu alqışlayıram. Bu, daha da geniş vüsət almalıdır. Müşavirələrin birində mən özəl sektora müraciət etmişdim. Demişdim ki, onlar da bu təşəbbüsü dəstəkləsinlər və özəl şirkətlər “ABAD” mərkəzləri ilə müqavilələr bağlayıb sponsorluq edirlər. Bir neçə milyon manat dəyərində sponsorluq ki, fermerə, ailə təsərrüfatlarına dəstək olsunlar.

Əlbəttə ki, kənd təsərrüfatının inkişafı, o cümlədən özünüməşğulluq sisteminin tətbiqi ilə də bağlı olacaq. Bu sistem əlbəttə ki, təkcə kənd təsərrüfatı sahəsini əhatə etməyəcək. Burada da hər il 6 min, 7 min iş yeri yaradılmalıdır. Özünüməşğulluq proqramı işsizliyin, xüsusilə bölgələrdə işsizliyin, yoxsulluğun aradan qaldırılması üçün çox önəmli bir vasitə, alət olacaq. Eyni zamanda, bu gün dövlətdən sosial yardım alan ailələr dövlət tərəfindən, dövlət dəstəyi ilə onlara lazımi vəsait veriləndən sonra öz həyatlarını özləri quracaqlar və öz maliyyə imkanlarını böyük dərəcədə artırmış olacaqlar.

“ASAN xidmət” mərkəzlərinin inşası davam etdirilir. İlin sonuna qədər iki şəhərdə - İmişli və Şəkidə yeni mərkəzlər açılacaq və gələn il 4-5 mərkəzin açılması nəzərdə tutulub. Son məlumata görə, “ASAN xidmət” mərkəzlərinə 24 milyon müraciət olmuşdur. Demək olar ki, müraciət edənlərin təxminən 100 faizi göstərilən xidmətlərdən razıdırlar və məmnundurlar.

Sosial sahədə ciddi islahatlar aparılır. Nazirliyin yeni rəhbərliyinə mənim tərəfindən çox ciddi tapşırıqlar verildi ki, sosial ədaləti pozanlara qarşı çox ciddi tədbirlər görülsün. Bu sahədə rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə çox ciddi aparılmalıdır və hazırda aparılır, şəffaflıq təmin edilir, bu sahədə yol verilmiş pozuntular aradan qaldırılır. İnzibati və institusional yollarla bu sahədə də ən müasir elektron texnologiyalar tətbiq olunmalıdır ki, şəffaflıq və ədalət tam təmin edilsin. Mənə görülən işlərlə bağlı müntəzəm olaraq məlumat verilir. Sosial sahədə biz “ASAN xidmət”in analoqunu yaradırıq – Dayanıqlı və Operativ Sosial Təminat mərkəzləri, bunun adı da yaxşıdır - DOST mərkəzləri, mənası da yaxşıdır. Hesab edirəm ki, bu sahədə vətəndaşlar yaxın gələcəkdə müsbət dəyişiklikləri görəcəklər, artıq görürlər. İndi yerlərdən məlumat gəlir, ancaq biz hələ islahatların birinci mərhələsindəyik.

Eyni zamanda, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün evlərin tikintisi daha da sürətlə gedəcək. Mən bu il bir evin açılışında iştirak edərkən bildirdim ki, bu sahədə işləri sürətləndirmək üçün əlavə vəsait veriləcək. Ondan sonra bu il bu məqsədlər üçün Prezidentin ehtiyat fondundan 20 milyon manat ayrıldı ki, şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə yüzlərlə mənzil və maşın verilsin.

Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Deyə bilərəm ki, artıq 100-dən çox şəhərcik salınıb. Bu il əlamətdar hadisə baş verib, ilk dəfə olaraq özəl sektor məcburi köçkünlər üçün böyük şəhərcik salıb, Qobu qəsəbəsində mindən çox mənzil özəl sektor tərəfindən inşa edilib və köçkünlərə təqdim olunub. Mən bunu çox alqışlayıram. Hesab edirəm ki,

bu proses Azərbaycanda vüsət almalıdır. Bizim iri şirkətlərimiz, böyük maliyyə imkanlarına malik olan şirkətlər var. Onlar gərək sosial məsuliyyətlərini göstərsinlər.

Bu il Sumqayıt şəhərində, Kürdəxanı, Mehdiabad, Ramana, Masazır qəsəbələrində, Abşeron, Tərtər, Qaradağ rayonlarında məcburi köçkünlər üçün binalar, evlər tikilir və onların sərəncamına verilir. Doqquz ayda 2900 məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunub. İlin sonuna qədər əlavə 2800 ailə evlərlə, mənzillərlə təmin ediləcək. Beləliklə, bu il 5700 ailə - təxminən 25 min insan evlərlə, mənzillərlə təmin olunacaq. Bax, bu, görülən işlərin nəticəsidir. Belə olan halda, ilin sonuna qədər evlərlə, mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı 300 minə çatacaq.

Bundan sonra da, gələn il də bu məqsədlər üçün kifayət qədər vəsait nəzərdə tutulacaq. Amma, eyni zamanda, biz bu sahədə də çox ciddi islahatlar aparmalıyıq, uçot aparılmalıdır, şəffaflıq təmin edilməlidir. Çünki əfsuslar olsun ki, bu gün belə deyil. Bəzi hallarda köçkün olmayan vətəndaş gedib yalandan öz adını yazdırır, sonra dövlətdən mənzil alır. Belə hallar var və köçkünlər xoşagəlməz hallarla üzləşirlər. Növbə ilə bağlı məsələlər var. Yəni, ədalətsizliklər aradan qaldırılmalıdır və pozuntulara yol açan boşluqlar da bağlanmalıdır. Növbədə dayanan, ən ağır vəziyyətdə yaşayan vətəndaş, ilk növbədə, mənzil almalıdır, belə göstəriş verilib. Mənzil ancaq köçkünə verilməlidir. Bəzi hallarda məlumat gəlir ki, köçkünlər üçün tikilmiş evlərdə başqa vətəndaşlar yaşayır. Bəzi hallarda biləndə ki, misal üçün, ev söküləcək, yeni evə köçürüləcəklər, yerli icra orqanları, digər qurumlar gedib oraya pul müqabilində köçkün olmayan adamların adlarını yazdırırlar. Bu, ən böyük vicdansızlıqdır. Köçkünlərin vəziyyətindən istifadə edib əsassız imtiyaz, gəlir əldə etmək ən böyük günahdır, vicdansızlıqdır. Bunu edənlərin vicdanı, imanı yoxdur. Ona görə, bunlara qarşı çox ciddi mübarizə aparılır və aparılacaq, onlar eşitsinlər. Burada çox ciddi şəffaflıq və uçot təmin edilməlidir və ediləcək.

İnfrastruktur layihələri ilə bağlı ilin sonuna nəzərdə tutulan bütün məsələlər öz həllini tapır. Qazlaşdırma 94 faizə çatıb, hədəf 95 faiz idi, ilin sonuna qədər biz buna nail olacağıq. Bu ilin sonuna qədər "Şimal-2" elektrik stansiyasının istifadəyə verilməsi nəzərdə tutulur. Bu, bizim sistemimizə əlavə 400 meqavat enerji verəcək. Bu, çox böyük gücdür. Eyni zamanda, enerji sistemimizdə çox ciddi islahatlar, təhlil aparılır. Yay ayında baş verən o qəzanın səbəbləri tam araşdırılıb və müvafiq inzibati ölçülər götürülüb. İnvestisiya qoyuluşu, bizim enerji təsərrüfatının texniki vəziyyəti ilə bağlı çox ciddi addımlar atılıb, bu işlərə beynəlxalq məsləhətçilər cəlb edilib. Biz bu il və gələn il bu sahəyə əlavə vəsait ayıracağıq ki, həm generasiya güclərinin yaradılması, ötürücü xətlərin, yarımstansiyaların tam dayanaqlılığı təmin edilsin. Eyni zamanda, mövcud stansiyaların generasiya güclərinin artırılması üçün əlavə addımlar atılacaq. Çünki vaxtilə tikilmiş stansiyalar tam gücü ilə işləmir. Mənə məlumat veriləndə cədvələ baxıram ki, 80 meqavat nəzərdə tutulub, cəmi 15 meqavat işləyir. Bunları belə səmərəsiz şəkildə istismar ediblər ki, onların bəziləri demək olar ki, öz potensialını itirib. Biz bunları bərpa edəcəyik. Təbiidir, müəyyən qədər vaxt lazım olacaq. Ancaq bu sahədə tam yeni bir yanaşma olmalıdır. Biz bu gün də elektrik enerjisini ixrac edirik, bizdə kifayət qədər potensial var. Gələcəkdə özümüzü perspektivləri nəzərə alaraq təmin etməklə ixracımızı da artıracağıq.

Digər infrastruktur layihələri ilə bağlı işlər qrafik üzrə gedir. Bu il 1200 kilometr yol çəkilib. Hədəf 2000 kilometr idi. Biz bu hədəfə çatacağıq. Bu il 600 kəndin yolları abadlaşdırılır. İçməli su layihələri, meliorativ tədbirlər uğurla icra edilir. Bu il biz 100 min hektar torpağa su gətirmişik, 270-dən çox subartezian quyusu qazılıb, hələ ilin sonuna qədər 30-u da qazılacaq.

Mən burada bəzi layihələri səsləndirmək istərdim, meliorativ tədbirlərlə bağlı konkret hansı addımlar atılıb. Yuxarı Mil kanalının tikintisi nəticəsində 1900 hektar, Hacıqabul rayonunun Muğan, Padar qəsəbələrində, Qarasu kəndində görülən işlər 2720 hektar, Abşeron yarımadasında Abşeron magistral kanalında yenidənqurma işlərinin aparılması nəticəsində 7 min hektar, Şəmkir-Samux-Goranboy suvarma kanalının ikinci növbəsi təxminən 12 min hektar, Neftçala magistral kanalının nasos stansiyasının birlikdə tikintisi 12 min 500, Araz çayının yeni qolunun beton üzlüyə alınması 13 min 100, Şabran rayonu 1700, Qax rayonu 900 hektara yaxın, Xəzər, Pirallahı, Xızı rayonlarında meyvə bağlarının salınması 1600, Xəzər rayonunun Qoşaqışlaq ərazisində 750, Sabirabad, Salyan rayonlarında yerləşən qış otlaqlarında 11 min, Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əlilənbəyli kəndinin əkin sahələrinin təminatının yaxşılaşdırılması üçün "H" kanalının yenidən qurulması 7500, Qazax rayonunun Xanlıqlar, Kəmərli, Aslanbəyli, Qaymaqlı, İkinci Şıxlı kəndlərinin əkin sahələrinin su ilə təminatı üçün 500, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin suvarılması ilə bağlı 280, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması nəticəsində Xızı, Siyəzən, Şabran rayonlarında 20 minə hektara yaxın və digər layihələr, o cümlədən subartezian quyular 8700 hektar. Cəmi bir il ərzində, bax, bu qədər torpaq su ilə təmin edilib. Əlbəttə ki, biz məhsuldarlığı da artıracağıq. Artıq təkliflər hazırlanır, gələn il biz bu istiqamətdə əlavə işlər görəcəyik.

Sosial infrastrukturla bağlı bir neçə kəlmə demək istərdim. Bu il Bakıda iyirmiyə yaxın məktəb əsaslı təmir edilib, tikilib. Bölgələrdə yüzlərlə məktəb təmir edilib, o cümlədən 137 modul tipli məktəbin tikintisi nəzərdə tutulur. 42 tibb müəssisində təmir-tikinti işləri aparılmışdır.

Ölkəmizin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün işlər görülür, təhlil aparılır. İlk növbədə, neftlə çirklənmiş ərazilər təmizlənir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müvafiq göstəriş verilib, vəsait ayrılıb. Abşeron yarımadasında neftlə çirklənmiş yerlər

tam təmizlənəcək, həmin yerlərdə bağlar, yaşıllıqlar, göllər salınacaq. Bu işlər gedir, gələn il də nəzərdə tutulur. Xəzərin sahilində yeni təmizləyici qurğuların yaradılması istiqamətində işlər gedir. Burada da vəziyyət bizi tam qane edə bilməz. Havanı çirkləndirən məişət obyektlərinə ciddi xəbərdarlıq edilib. Axsam saatlarında Bakı şəhərini tüstü bürüyür. Şadlıq evlərində tüstü təmizlənmədən havaya sovrulur. Ona görə, çox ciddi xəbərdarlıq edilib, kim əməl etməyəcəksə, o şadlıq evinin, məişət obyektinin qapısı bağlanacaq. Mən tapşırmışam ki, bunun üçün hüquqi əsaslar hazırlansın. Bildiyimə görə, birinci xəbərdarlıqdan sonra bir çox məişət obyektləri təmizləyici qurğuları quraşdırmağa başlayıblar. Onların hamısına məsləhətim ondan ibarətdir ki, bu işi tezləşdirsinlər. Çünki ikinci xəbərdarlıq olmayacaq, bir də görəcəklər ki, əldən çıxdı. Ona görə, tezliklə bütün böyük-kiçik məişət obyektlərində havanı çirkləndirən, havaya tüstü, kanserogen buraxan obyektlərdə təmizləyici qurğular quraşdırılmalıdır, müvafiq qurumlar monitorinq aparmalıdır. Mən Bakı Şəhər İcra Hakimiyyətinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göstəriş verdim ki, mənə dərhal məlumat verilsin və dərhal ölçü götürüləcək.

Ağacların kəsilməsi halları azalıb, amma tam aradan qaldırılmayıb. Bir daha demək istəyirəm ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi olmadan əgər kimsə bir ağac kəsirsə, onda özündən küssün.

Bakı şəhərində və digər şəhərlərdə qanunsuz tikililərə son qoyulmalıdır və son qoyulur. Müvafiq Sərəncam imzalanıb, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin icazəsi olmadan bir dənə də bina tikilə bilməz. Bu məsələ ilə bağlı mən əvvəllər də fikirlərimi bildirmişəm. Bu gün deyə bilərəm ki, artıq bu məsələ öz həllini tapıb. Çünki əvvəlki dövrlərdə təqsiri bələdiyyələr rayon icra hakimiyyətlərinin, rayon icra hakimiyyətləri Bakı Şəhər İcra Hakimiyyətinin, Bakı Şəhər İcra Hakimiyyəti bələdiyyələrin, yəni, bir-birinin üstünə atırdılar. Amma əslində hamısı əlbir idilər. Çünki qanunsuz tikililərdən böyük qazanc əldə edirdilər. Buna son qoyulub, artıq Sərəncam imzalanıb. Yəni, bu qaydanı pozan cinayət məsuliyyətinə cəlb ediləcək və qanunsuz tikilən binalar dərhal sökülənəcək.

Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və kiminsə tamahı naminə biz şəhərimizi eybəcər hala sala bilmərik. Şəhərsalma qaydaları var, mərtəbələrin yerə görə hündürlüyü var. Hava axınının müvafiq qaydaları var. Bizdə isə bu, pozulurdu. Elə bil ki, böyük bir sədd tikirdilər. Havanın keçməsi üçün heç bir imkan qalmırdı, həyətlərdə ağacları qırıb binalar tikirdilər. Yerli orqanlar buna həm göz yumurdular, həm də yəqin ki, əlbir idilər. İndi buna son qoyulub. Mən bunu bildirmək istəyirəm. Vətəndaşlara da mən müraciət etmək istəyirəm, ilk növbədə, təşəkkürümü bildirmək istəyirəm. Çünki bir çox hallarda vətəndaşların fəallığı nəticəsində o tamahkar adamlar istədiklərinə nail ola bilməmişlər. Çünki vətəndaşlar dururdular, keşik çəkirdilər, qoymurdular, xəbər verirdilər və onların fəallığını mən alqışlayıram. Dəfələrlə demişəm ki, ictimai nəzarət güclü olmalıdır, artıq biz bunu görürük. Ona görə, bir daha vətəndaşlara müraciət edirəm. Əgər haradasa görsələr ki, qanunsuz nəsə tikilir, dərhal məlumat versinlər, ilk növbədə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Bakı Şəhər İcra Hakimiyyətinə və Prezident Administrasiyasına. Bu sahədə də qayda-qanun yaradılır.

Şəhər nəqliyyatı sahəsində də irəliləyiş var. Biz şəhər nəqliyyatının təkmilləşdirilməsi işində islahatlar aparırıq, həm yol-nəqliyyat hərəkətinin tənzimlənməsi, eyni zamanda, yeni yolların açılması, nəqliyyat vasitələrinin alınması istiqamətində. Bu il şəhərimizə əlavə 300 yeni müasir avtobus gətiriləcək. Mən göstəriş vermişəm, gələn il də, minimum 300, əgər maliyyə imkanımız olsa, 500 yeni avtobus gətirilməlidir. Dövlət bu sahədə öz liderliyini göstərməlidir. Çünki son vaxtlar baş vermiş dəhşətli qəzalar bizim hamımızı çox üzür və bu, vətəndaşlar üçün çox böyük faciədir, böyük itkidir. Nəyə görə? Çünki sükan arxasında oturan öz məsuliyyətini dərk etmir. Onun psixoloji, narkoloji durumuna, peşəkarlığına lazımi qaydada nəzarət olunmur, sadəcə olaraq pul naminə. Şirkətə pul lazımdır. Ona görə də bədbəxt hadisələr baş verir. Avtobus qatara çırpılır, günahsız insanlar həlak olur. Mühafizə orqanları belə hallara çox ciddi reaksiya verməlidir və belə hallar nəzarətdə olmalıdır. Çünki bəzi hallarda bu hadisəni törədənlər müəyyən müddətdən sonra məsuliyyətdən yayınırlar. Ona görə, buna son qoymaq üçün müvafiq qurumlar tərəfindən çox ciddi təftiş aparılmalıdır. Avtobusları idarə edən şirkətlər çox ciddi nəzarətə götürülməlidir. Avtobusların texniki parametrləri ilə bağlı çox ciddi təftiş aparılmalıdır. Mən bir daha demək istəyirəm, əfsuslar olsun ki, özəl sektor bu sahədə istədiyimizə nail ola bilmədi. Bu sahə, ümumiyyətlə, özəl sektorun ixtiyarına buraxılmışdı. Belə bir fikir var idi ki, onlar bunu yaxşı idarə edəcəklər, məsuliyyətlə. Amma biz nəyi görürük? Gedirlər sıradan çıxmış, sınıq-salxaq avtobusları gətirib salırlar bizim küçələrimizə. Həm insanlar, həm hava üçün təhlükədir, həm də ümumiyyətlə, heç bir normaya sığmır. Ona görə, bizim dövlət qurumumuz var – "Bakubus" şirkəti. Onların xətti ilə biz bu işi davam etdirməliyik. Əgər özəl şirkətlər bu sahədə işləmək istəyirlərsə, öz işlərində çox ciddi dəyişiklik etməlidirlər və dövlət orqanları onlara çox ciddi nəzarət etməlidir.

Mən məişət tullantıları ilə bağlı müvafiq göstəriş vermişəm. Bu sahə Bakı şəhərində lazımi səviyyədə tənzimlənmir. Ona görə, vahid bir zəncir yaradılmalıdır – qapıdan ta Balaxanı məişət tullantılarının emalı zavoduna qədər. Ona görə, indi müvafiq qurumlar bu məsələ ilə bağlı təkliflər hazırlayır. Mən göstəriş vermişəm ki, bu işlərə beynəlxalq məsləhətçilər cəlb edilsin, bu sahədə də dünyanın aparıcı şəhərlərinin mövcud təcrübəsi Azərbaycanda tam tətbiq olunsun.

Eyni zamanda, Bakı Şəhər İcra Hakimiyyətinə göstəriş vermişəm ki, binaların həyətləri abadlaşdırılsın,

orada həm yaşlı insanlar, həm də uşaqlar üçün şərait yaradılsın, həyətlər bütün qanunsuz tikililərdən təmizlənsin, lift təsərrüfatı təzələnsin, harada ki, ehtiyac var yeni liftlər qoyulsun. Yəni, mənzil-kommunal təsərrüfatının yeniləşməsi istiqamətində çox ciddi addımlar atılacaq. Bakı şəhərində isə yeni parklar, bulvarlar salınır. Bakı indi gözəl parklar, xiyabanlar şəhəridir. Köhnə, yararsız vəziyyətdə olan sənaye müəssisələri şəhərin mərkəzindən çıxarılır, yeni gözəl parklar salınır. Bu il də onlardan biri Babək prospektində, Heydər Əliyev Mərkəzinin aşağısında, Yusif Səfərov küçəsində salınıb və vətəndaşların sərəncamına verilib. Biz bu istiqamətdə işlərimizi davam etdirəcəyik.

Dəmir yolu ilə bağlı bəzi layihələri qeyd etmək istərdim. Mən ilin əvvəlində demişdim ki, bu ilin sonuna qədər Bakı-Gəncə sürət qatarının işə salınması prosesi başa çatmalıdır. İlin sonuna artıq az vaxt qalıb. Yəqin ki, biz bunu görəcəyik. Hər halda, kifayət qədər vəsait ayrılıb. Digər istiqamətlər üzrə - Bakı-Yalama dəmir yolunun yenidən qurulması istiqamətində, Bakı-Qəbələ dəmir yolunun çəkilişi ilə bağlı işlər gedir. Eyni zamanda, Bakı dairəvi avtomobil yolunun tikintisi davam edir. Bu da şəhər nəqliyyatı üçün çox önəmli bir layihə olacaq və bunu biz metro tikintisi ilə uzlaşdırmalıyıq. Onu da qeyd etməliyəm ki, bu ilin Dövlət İnvestisiya Proqramında metro tikintisi üçün də kifayət qədər vəsait ayrılmışdır.

Gələn ilin əvvəlində biz növbəti regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını qəbul edəcəyik. Bu il üçüncü proqramın icrası başa çatır. Proqram demək olar ki, artıqlaması ilə icra edilib. İndi dördüncü proqram hazırlanır, son mərhələdədir. Dördüncü proqramda bu gün hələ də görə bilmədiyimiz işlər öz əksini tapmalıdır ki, qarşımızda duran bütün vəzifələr icra edilsin. Sağ olun.

## *VI Beynəlxalq Humanitar Forumun rəsmi açılış mərasimində İlham Əliyevin nitqi*

Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Bu gün VI Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır. Forumun bütün iştirakçılarını səmimiyyətlə salamlayıram, xaricdən gələn qonaqlara "Xoş gəlmisiniz!" deyirəm.

Builki forumda 90-dan artıq ölkədən 400-dən çox xarici qonaq iştirak edir. Bu, özlüyündə bir göstəricidir, onu göstərir ki, dünyada Foruma çox böyük maraq var. Bakı Beynəlxalq Humanitar Forumu qısa müddət ərzində dünyada çox önəmli beynəlxalq tədbirə çevrilmişdir. Əminəm ki, Forumda müzakirə ediləcək məsələlər gələcək humanitar əməkdaşlıq üçün çox önəmli olacaq, xaricdən gələn qonaqlar Forumun işinə çox böyük töhfə verəcəklər.

Humanitar məsələlərin müzakirəsi çox önəmlidir. Çünki biz müasir dünyada bu sahədə həm nailiyyətləri, həm də problemləri görürük. Azərbaycan bu sahəyə çox böyük önəm verən ölkələrdən biridir. Ölkəmizdə humanitar əməkdaşlığa dair bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu xüsusilə qeyd etmək istərdim. Bu, çox önəmli beynəlxalq tədbirdir. Eyni zamanda, Bakıda dünya dinləri liderlərinin Zirvə görüşü keçirilmişdir. Dörd dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Altıncı dəfə Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi onu göstərir ki, doğrudan da Azərbaycan beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox önəmli ölkəyə çevrilmişdir.

Bu il biz "Bakı Prosesi"nin 10 illiyini qeyd edirik. "Bakı Prosesi" beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir, o cümlədən BMT bu prosesə çox yüksək qiymət verir. Bizim təşəbbüsümüzlə 10 il bundan əvvəl Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini də dəvət etdik. Beləliklə, ilk dəfə olaraq 100-dən çox ölkənin nümayəndələri - müsəlman aləmini və Avropanı təmsil edən vəzifəli şəxslər bir araya gələrək humanitar məsələləri, mədəniyyət əlaqələrini, dinlərarası münasibətləri müzakirə etmişlər. Ondan bir il sonra bu format təkrarlandı, Bakıda İslam Əməkdaşlıq Təşkilatının xətti ilə keçirilmiş tədbirə biz Avropa nümayəndələrini dəvət etdik.

Azərbaycan həm İslam Əməkdaşlıq Təşkilatına, həm Avropa Şurasına üzv dövlətdir. Əlbəttə ki, biz bu imkanlardan istifadə edib çalışırdıq və çalışırıq ki, sivilizasiyalararası dialoqa öz töhfəmizi verək. Qeyd etdiyim kimi, "Bakı Prosesi" artıq beynəlxalq müstəvidə çox önəmli bir təşəbbüs kimi qiymətləndirilir. Bu təşəbbüs nəticəsində müxtəlif görüşlər, tədbirlər keçirilmişdir ki, bütün bunların bir məqsədi var - sivilizasiyalararası, dinlərarası dialoq dərinləşsin, güclənsin, dünyada risklər azalsın, ayrı-seçkilik, ksenofobiya hallarına düzgün qiymət verilsin və bu təhlükəli meyillərin qarşısı alınsın. Eyni zamanda, Azərbaycanda keçirilmiş mötəbər idman yarışları da idman yarışları olsalar da, eyni zamanda, humanitar əməkdaşlığın dərinləşməsinə xidmət göstərir. Mən xüsusilə birinci Avropa Oyunlarını və İslam Həmrəylik Oyunlarını qeyd etmək istərdim. Hesab edirəm, o da çox rəmzi məna daşıyır ki, ilk Avropa Oyunları bizim təşəbbüsümüzlə Azərbaycanda keçirilmişdir. Hesab edirəm, bu, çox əlamətdar hadisə, əlamətdar qərardır ki, ilk Avropanın Oyunları müsəlman ölkəsində keçirilmişdir. Ondan iki il sonra – 2017-ci ildə Bakıda dördüncü İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Yenə də qeyd etmək istəyirəm, bunlar idman yarışlarıdır və bu iki oyunda on minə yaxın idmançı iştirak edib. Amma, eyni zamanda, biz bu oyunlara humanitar əməkdaşlıq prizmasından yanaşırıq, baxırıq və doğrudan da oyunlar zamanı Bakıda və digər bölgələrdə yaşanan gözəl ab-hava, gözəl həmrəylik iqlimi hesab edirəm ki, ümumi işimizə

növbəti töhfə olmuşdur. Biz bu sahədə öz fəaliyyətimizi davam etdirəcəyik. Xüsusilə indiki şəraitdə ki, yenə də qeyd etmək istəyirəm, həm müsəlman aləmində, həm Avropada multikulturalizmlə, İslam həmrəyliyi ilə bağlı gedən proseslər müəyyən mənada narahatlıq doğurur. Ona görə Bakı Beynəlxalq Humanitar Forumunun ənənəvi olaraq keçirilməsi və bu Foruma dünya birliyi tərəfindən yüksək qiymət verilməsi və diqqət yetirilməsi göstərir ki, belə tədbirlərə dünyada çox böyük ehtiyac var.

Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamışlar və bu siyasət bu gün də davam etdirilir. Azərbaycanda bu istiqamətdə dövlət siyasəti çox səmərəlidir və gözəl nəticələrə gətirib çıxarır. Bizim tarixi keçmişimiz, mədəniyyətimiz onu göstərir ki, müxtəlif dinlərin nümayəndələri Azərbaycanda həmişə çox rahat yaşayıblar, bir ailə kimi yaşayıblar. Bizim tarixi, dini abidələrimiz həm qədim tariximizi göstərir, eyni zamanda, göstərir ki, Azərbaycan müxtəlif dinlərin nümayəndələri üçün doğma diyar, doğma məkan olmuşdur. Biz fəxr edirik ki, müsəlman aləminin ən qədim məscidlərindən biri olan, 743-cü ildə tikilmiş və bizim Şamaxı şəhərində yerləşən məscid milli sərvətimizdir. Eyni zamanda, digər qədim şəhərimizin - Şəki şəhərinin yaxınlığında Qafqazın ən qədim kilsələrindən biri - Qafqaz Albaniyası kilsəsi yerləşir. Hər iki məbəd əsaslı şəkildə təmir və bərpa edilib, dövlət tərəfindən qorunur. Bakıda qədim atəşpərəstlik məbədi Atəşgah yerləşir. Bu da onu göstərir ki, Azərbaycanda Zərdüştlük dininin ənənələri vardır.

Ənənəvi dinlərin məbədlərinin - katolik, pravoslav kilsələrinin, sinaqoqların bərpası və tikintisi Azərbaycanda reallıqdır. Bu reallıq ölkəmizdə çox gözəl ictimai iqlim yaradır. Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Biz öz milli, dini ənənələrimizə çox bağlıyıq, sadiqik və milli dəyərlər gələcək inkişafımız üçün xüsusi rol oynayır. Deyə bilərəm ki, müasir Azərbaycan dövləti çox dərin milli dəyərlər, milli-mənəvi dəyərlər üzərində qurulubdur. Eyni zamanda, biz dünyaya açığıq. Qeyd etdiyim kimi, Azərbaycan dünyada multikulturalizmin ünvanlarından birinə çevrilibdir və bu şərəfli status artıq dünya birliyi tərəfindən tanınır. Təsadüfi deyil ki, biz mənim Sərəncamımla 2016-cı ili Azərbaycanda "Multikulturalizm İli" elan etdik. Hesab edirəm ki, dünyada ilk dəfə olaraq belə bir təşəbbüs irəli sürülmüşdür. Bu, bizim niyyətimizi göstərmişdir, 2016-cı ilə multikulturalizm adını verməklə, ilk növbədə, biz dünyada Azərbaycanı olduğu kimi təqdim etmək istədik. Göstərmək istədik ki, multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm həyat tərzidir, eyni zamanda, biz dünya birliyinin diqqətini bu məsələyə cəlb etməyə çalışdıq. Çünki siz də yaxşı bilirsiniz ki, bu gün həm siyasətçilər, ictimai xadimlər, həm də media tərəfindən multikulturalizmlə bağlı çox ziddiyyətli fikirlər səsləndirilir. Ona görə hesab edirəm ki, bu məsələ ilə bağlı vahid yanaşma olmalıdır və burada heç bir ziddiyyətli fikrə yer ola bilməz. Hesab edirəm ki, Azərbaycanın bu sahədəki təcrübəsi həm təqdirəlayiqdir, həm də gözəl nümunə ola bilər. Biz multikulturalizmin bəhrəsini gündəlik həyatda görürük. Bu gün Azərbaycanda yaşanan sabitlik, vətəndaş həmrəyliyi, milli həmrəylik, o cümlədən bu dəyərlərə əsaslanır. Biz çalışdıq ki, 2016-cı ildə diqqəti bu önəmli məsələyə cəlb edək. Xüsusilə nəzərə alsaq ki, bu gün, bir daha qeyd etmək istəyirəm, multikulturalizmlə bağlı müxtəlif fikirlər səsləndirilir. Hesab edirəm ki, Forumda bu məsələ çox geniş müzakirə olunacaqdır.

2017-ci ili isə biz "İslam Həmrəyliyi İli" elan etdik. Yenə də ona görə ki, Azərbaycanda İslam həmrəyliyi tam bərqərar olub. Onu da bildirməliyəm ki, Azərbaycan müsəlmanları vəhdət namazı qılırlar. Hesab edirəm ki, Azərbaycan bu sahədə müsəlman aləmində çox önəmli rol oynayır. Eyni zamanda, biz müsəlman aləminin diqqətini də bu sahəyə cəlb etməyə çalışdıq. Çünki əfsuslar olsun ki, biz müsəlman aləmində həmrəyliklə bağlı istədiyimizə nail ola bilməmişik. Qarşıdurmalar, müharibələr, anlaşılmazlıq, toqquşmalar və digər təhlükəli meyillər ölkələr üçün böyük problemə, faciəyə çevrilir, milyonlarla insan həlak olur, evsiz-eşiksiz qalır, qaçqın, köçkün vəziyyətinə düşür. Əlbəttə, biz çalışmalıyıq ki, bu sahədə də öz təkliflərimizi verək, öz nümunəmizi göstərək ki, əgər İslam həmrəyliyi və multikulturalizm anlayışları vəhdət təşkil edərsə və dövlət siyasəti düzgün aparılarsa, bu, xalq tərəfindən də qəbul edilərsə, onda ölkələrdə problem olmayacaq. Müasir Azərbaycan bunun əyani, bariz sübutudur. Təsadüfi deyil ki, biz humanitar əməkdaşlıqla, multikulturalizmlə bağlı bir çox tədbirlərə ev sahibliyi edirik.

Qeyd etdiyim kimi, biz humanitar əməkdaşlığa çox böyük əhəmiyyət veririk. Bu məsələlər dost ölkələrlə həm ikitərəfli formatda, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində daim gündəlikdədir. Ancaq biz özümüz böyük humanitar fəlakətlə üzləşmişik. Bir həftə bundan əvvəl – oktyabrın 18-də biz Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd etmişik. Cəmi 27 ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır və müstəqilliyimizin ilk günləri, ilk illəri çox ağır və faciəvi idi. Həm siyasi böhran, daxili çəkişmələr, vətəndaş müharibəsi, iqtisadi tənəzzül, kütləvi itaətsizlik, eyni zamanda, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti böyük fəlakətə, bəlalara gətirib çıxardı. Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır, xalqımıza qarşı Ermənistan tərəfindən etnik təmizləmə siyasəti aparılmışdır, 1 milyondan çox azərbaycanlı öz doğma torpağında köçkün vəziyyətinə düşmüşdür. Bütün aparıcı beynəlxalq təşkilatlar bu münaqişə ilə bağlı qərar və qətnamələr qəbul etmişlər, o cümlədən BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələrin qəbul olunmasından 25 il keçir. Ermənistan bu qətnamələri icra etmir

və əfsuslar olsun, hələ də beynəlxalq mexanizm işlənilməyib ki, təcavüzkarı beynəlxalq aparıcı qurum tərəfindən qəbul edilmiş qətnamələrin icrasına məcbur etsin. BMT-nin Baş Assambleyası oxşar qətnamə qəbul edib, digər beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti və digər təşkilatların qəbul etdikləri qərar və qətnamələrdə Azərbaycanın ərazi bütövlüyünə dəstək göstərilir və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi tələb olunur. Münaqişənin həlli üçün yeganə yol məhz budur, ölkəmizin beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan dərhal, qeyd-şərtsiz çıxarılmalıdır, – necə ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrində göstərilir, – və Azərbaycan vətəndaşları öz doğma, tarixi, əzəli torpaqlarına qayıtmalıdırlar.

Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır, Azərbaycanın ayrılmaz hissəsidir. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub. Bizim tarixi abidələrimiz, şəhərlərin, kəndlərin toponimləri bu torpaqların Azərbaycan xalqına məxsus olduğunu sübut edir. Əfsuslar olsun ki, təcavüzkar dövlət işğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimizi də dağıdıb, məhv edib. İşğal edilmiş torpaqlarımıza iki dəfə ezam olunmuş ATƏT-in faktaraşdırıcı və müşahidə missiyası öz məruzələrində bu barədə məlumat verib. Bizim məscidlərimiz, qəbirlərimiz dağıdılıb, muzeylərimiz talan edilib və işğal olunmuş torpaqlarda mədəni soyqırımı törədilib. 1992-ci ildə isə ermənilər Xocalı soyqırımını törədiblər. Bu dəhşətli hərbi cinayət nəticəsində 600-dən çox günahsız dinc insan, onların arasında 60-dan çox uşaq vəhşicəsinə qətlə yetirilib. Xocalı faciəsi dünyanın 10-dan çox ölkəsi tərəfindən rəsmi olaraq soyqırımı kimi tanınıb. Bu soyqırımı zamanı mindən çox insan itkin düşüb və onların taleyi haqqında heç bir məlumat yoxdur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Azərbaycan heç vaxt işğalla barışmayacaq, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bunu tarixi ədalət və beynəlxalq hüquq tələb edir.

Bu humanitar fəlakətə baxmayaraq, hesab edirəm ki, müstəqillik dövründə Azərbaycan çox uğurlu inkişafa nail ola bilibdir. Ölkəmizdə sabitlik, təhlükəsizlik hökm sürür. Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir. Bu gün Azərbaycanda yaşanan vətəndaş həmrəyliyi ölkəmizin uğurlu inkişafı üçün əsas şərtdir. Ölkəmiz beynəlxalq müstəvidə böyük hörmət qazanıb və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. Düz 7 il bundan əvvəl - 2011-ci il oktyabrın sonlarında Azərbaycan ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bu, bizim böyük siyasi və diplomatik uğurumuzdur, qələbəmizdir. Ən önəmlisi odur ki, 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləmişdir. Yəni, bu, onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir, Azərbaycanda görülən işlərə yüksək qiymət verir, Azərbaycanı etibarlı tərəfdaş və dost ölkə kimi tanıyır.

Hesab edirəm ki, xarici siyasətlə bağlı apardığımız işlər gözəl nəticələrə gətirib çıxarır. İlk növbədə, biz qonşu ölkələrlə çox səmimi, mehriban qonşuluq, dostluq münasibətləri qura bilmişik. Hər bir ölkə üçün onun qonşuları ilə münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, qonşu dövlətlərlə, – təbii ki, Ermənistan istisna olmaqla, - bizim münasibətlərimiz çox yüksək səviyyədədir, həm siyasi, iqtisadi, bütün başqa sahələrdə, o cümlədən humanitar əməkdaşlıq sahəsində.

Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilibdir, o cümlədən söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, vicdan azadlığı. Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir və ölkəmizdə azad internet fəaliyyət göstərir. Beləliklə, siyasi islahatların dərinləşməsi ölkəmizdə iqtisadi islahatlara daha da böyük təkan verir. Çünki sabitliyin mövcud olması ölkəmizə böyük həcmdə xarici sərmayənin gətirilməsinə də gözəl şərait yaradıb. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan dünya miqyasında aparıcı yerlərdədir. Qeyd etməliyəm ki, ölkə iqtisadiyyatına 250 milyard dollardan çox sərmayə qoyulubdur ki, bu sərmayənin yarısı xaricdən gələn vəsaitdir.

Azərbaycan son 15 il ərzində iqtisadi sahədə ən sürətli inkişaf templərini nümayiş etdirib. Mən hesab edirəm ki, bu, rekord göstəricidir. Çünki son 15 il ərzində ümumi daxili məhsul 3,2 dəfə artıb və beləliklə, Azərbaycan çox böyük inkişaf yolunu keçib. Biz iqtisadi sahədə tam müstəqillik əldə etmişik. İqtisadi müstəqillik, əlbəttə ki, siyasi müstəqilliyimizi möhkəmləndirir. Azərbaycan iqtisadiyyatı özünü təmin edən iqtisadiyyatdır, xarici kreditlərdən asılı iqtisadiyyat deyil. Biz nəinki kreditlərin alınmasını demək olar ki, dayandırmışıq, özümüz bəzi ölkələrə kreditlərin verilməsinə başlamışıq.

Makroiqtisadi sabitlik Azərbaycanda çox yüksək səviyyədədir. Deməliyəm ki, bizim xarici borcumuz ümumi daxili məhsulun cəmi 20 faizini təşkil edir. Bununla belə, bizim maliyyə ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Yəni, istədiyimiz halda biz xarici borcumuzu bir neçə ay ərzində sıfır səviyyəsinə endirə bilərik. Ona görə iqtisadi sahədə aparılan köklü islahatlar, əlbəttə ki, sosial sahəyə də müsbət təsir göstərib. Əgər biz sosial sahənin önəmli istiqamətlərinə nəzər yetirsək görərik ki, Azərbaycanda yoxsulluq şəraitində yaşayan insanların sayı son 15 il ərzində 49 faizdən 5,4 faizə düşübdür. İşsizlik bir sosial problem kimi demək olar ki, aradan götürülür, işsizlik 5 faiz səviyyəsindədir. Nəzərə almalıyıq ki, bu illər ərzində ölkə əhalisi də artır və əhali hər il ən azı 100 min nəfər artır. Ona görə bizim iqtisadi inkişafımız və o cümlədən sosial infrastrukturun yaradılması daimi proses olmalıdır. Biz bu sahədə də çox böyük işlər görmüşük.

Forumda müzakirə olunacaq məsələlərdən biri də təhsillə bağlıdır. Deyə bilərəm ki, təhsilin inkişafı və təhsildə müasir metodların tətbiq edilməsi prioritet məsələlərdən biridir. Təhsil sisteminin maddi-texniki bazası möhkəmlənir. Son 15 il ərzində 3000-dən çox məktəb tikilib və təmir edilib. Deməliyəm ki, Azərbaycanda cəmi 4500-dən bir qədər çox məktəb var, onların əksər hissəsi ən yüksək standartlar səviyyəsində qurulub. Eyni zamanda, müəllim peşəsinə maraq da çox böyük dərəcədə artır. Aparılan islahatlar, o cümlədən maaşların əhəmiyyətli dərəcədə artırılması, məktəblərin təmiri və digər stimullaşdırıcı addımlar nəticəsində müəllim olmaq istəyənlərin sayı dəfələrlə artıb və bu il biz bunu əyani şəkildə görmüşük. Test imtahanlarında yüksək ballar toplayan abituriyentlər arasında müəllim olmaq istəyənlərin sayı bir neçə dəfə artıbdır. Yəni, bu, onu göstərir ki, humanitar sahənin əsas hissələrindən biri olan təhsil sahəsinə çox böyük diqqət göstərilir və gözəl nəticələr vardır.

Ölkəmizin hər bir yerində müasir tibb mərkəzləri yaradılıbdır. Son 15 il ərzində 650-dən çox tibb müəssisəsi yenidən qurulub, əsaslı təmir edilib və tikilib. Hər il 5 milyondan çox insan dövlət hesabına pulsuz tibbi müayinədən keçir. Yəni, bunlar humanitar sahənin çox önəmli hissələridir və bundan sonra da bu istiqamətlər üzrə ardıcıl siyasət aparılacaq.

Mən idman yarışlarını qeyd etdim. Amma onu da bildirməliyəm ki, idman sahəsində də böyük uğurlar əldə edilib. İdmanın maddi-texniki bazası qurulub. Təkcə Bakıda deyil, Azərbaycanın digər şəhərlərində 45 müasir Olimpiya İdman Mərkəzi yaradılıb. Son Olimpiya Oyunlarında - Rio-de-Janeyroda keçirilmiş Olimpiadada medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerə layiq görülüb.

Biz ardıcıl siyasət aparmaqla həm iqtisadi islahatları dərinləşdiririk, həm də sosial sahədə lazım olan addımları atırıq. Ölkəmizdə yüksək texnologiyalara çox böyük diqqət göstərilir, bu yaxınlarda üçüncü peykimiz orbitə buraxıldı. Azərbaycan artıq neçə ildir ki, dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür və 3 peykimiz var. Əlbəttə ki, bu, həm texnoloji inkişafdır, həm təhsildir, həm də biznes imkanlarını yaradır. Biz bu gün peyk xidmətlərini ixrac etməklə ölkəmizdə ixracı da şaxələndiririk.

"ASAN xidmət" mərkəzlərinin yaradılması sosial və humanitar sahədə çox önəmli təşəbbüsdür. Əgər qonaqlarda imkan olarsa, onlar Bakı şəhərində fəaliyyət göstərən beş mərkəzdən birinə baş çəkə bilərlər. Görə bilərlər ki, doğrudan da Azərbaycan texnologiyaları əsasında, sırf Azərbaycanın intellektual məhsulu olan "ASAN xidmət" necə fəaliyyət göstərir. Bu il bu mərkəzlərin sayı 15-ə çatdırılacaq, 5-i Bakıda, 10-u bölgələrdə. Bu mərkəzlərdə bir binada 300-dən çox xidmət göstərilir və vətəndaşların "ASAN xidmət"i bəyənmə əmsalı 100 faizə yaxındır. Bu, ictimai xidmətlər sahəsində bir inqilab olmuşdur. İctimai xidmətlər sahəsinə xas olan bürokratiya, süründürməçilik, korrupsiya, rüşvətxorluq hallarına tamamilə son qoyulubdur. Bir neçə il ərzində "ASAN xidmət" mərkəzlərinə 24 milyondan çox müraciət olmuşdur və onların mütləq əksəriyyəti təmin edilmişdir.

Mən Azərbaycan haqqında çox danışa bilərəm, - çünki qonaqların bir hissəsi ilk dəfədir ki, ölkəmizə gəlib, - sadəcə olaraq, çıxışımın yekununda bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Bu məsələ həm humanitar əməkdaşlığı dərinləşdirir, həm də qarşılıqlı maraqları təmin edir. Hesab edirəm ki, humanitar əməkdaşlıq deyəndə biz mütləq bunun gözəl nəticələrini görməliyik və bilməliyik ki, bu, nəyə gətirib çıxaracaqdır.

Sonuncu mövzu nəqliyyat siyasətimizlə bağlıdır. Azərbaycanın coğrafi vəziyyəti əlverişlidir, ancaq müasir infrastruktur olmadan bu coğrafi vəziyyətin heç bir əhəmiyyəti yoxdur. Digər tərəfdən, Azərbaycanın açıq dənizlərə, okeanlara çıxışı yoxdur. Ona görə bizim bütün nəqliyyat, enerji, kommunikasiya xətlərimiz başqa ölkələrin ərazisindən keçməlidir. Əlbəttə, qeyd etdiyim kimi, buna nail olmaq üçün mütləq, ilk növbədə, qonşu dövlətlərlə və daha böyük coğrafiyanı əhatə edən ölkələrlə çox sıx dostluq münasibətləri olmalıdır və bunlar da var. Biz bir neçə il bundan əvvəl nəqliyyat sahəsində qarşıya vəzifə qoymuşduq ki, Azərbaycan nəinki bu bölgədə, dünya miqyasında güclü nəqliyyat mərkəzinə çevrilsin. Bu məqsədə doğru ardıcıl olaraq getməyə başlanmışdır və bu gün tam əminliklə deyə bilərəm ki, biz buna nail ola bilmişik. Ölkəmizdə çox müasir nəqliyyat infrastrukturu yaradılıb, 6 beynəlxalq hava limanı, Azərbaycanı bütün qonşu ölkələrlə bağlayan və ölkəmizin əsas hissəsini əhatə edən dəmir yolları, son 15 ildə salınmış 15 min kilometrdən çox avtomobil yolları, Xəzər hövzəsində 200–dən çox gəmisi olan ən böyük ticarət donanması. Yəni, bütün bunlar böyük vəsait tələb edən layihələrdir və onlar həll olunub. Nəhayət, Xəzər dənizinin önəmli, yeni ticarət limanının bu il istifadəyə verilməsi bu işləri tamamlayıb. Bu gün Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Şimal-Cənub nəqliyyat dəhlizinin fəaliyyəti daha da genişlənib. Keçən illə müqayisədə bu il bu dəhliz vasitəsilə 100 dəfədən çox həcmdə yük daşınıbdır. Bu, hələ başlanğıcdır. Bu gün bu önəmli iki istiqamətə digər istiqamətlərdən qoşulma halları müşahidə olunur. Biz bu gün artıq Cənub-Qərb nəqliyyat dəhlizini təmin edirik və Şərq-Qərb nəqliyyat dəhlizi də Azərbaycan ərazisindən keçir. Bütün bu nəqliyyat, infrastruktur layihələrində iştirak edən yeganə ölkə Azərbaycandır. Bu nəqliyyat bağlılığı, eyni zamanda, mehriban qonşuluğa da gözəl şərait yaradır. Heç bir ölkə, əgər qonşularla yaxşı münasibətləri yoxdursa, heç vaxt etibarlı tranzit məntəqəsinə çevrilə bilməz. Ona görə, bizim enerji, nəqliyyat, infrastruktur layihələrimiz ölkələr arasındakı əməkdaşlığı stimullaşdırır. Ölkələr arasındakı əməkdaşlığı dərinləşdirmək üçün xüsusilə qonşu ölkələrlə, ənənəvi dost ölkələrlə münasibətlərdə mütləq humanitar sahəyə böyük önəm verilməlidir. Bu olmasa, bütün başqa sahələrdə də problemlər yaşana bilər.

Ona görə, mən bir daha qeyd etmək istəyirəm ki, biz humanitar əməkdaşlığa çox böyük diqqət göstəririk, bir çox təşəbbüslər irəli sürmüşük. Onlardan biri Bakı Beynəlxalq Humanitar Forumudur ki, bu gün öz işinə başlayır. Əminəm ki, aparılacaq diskussiyalar, müzakirələr bizim ümumi işimizə gözəl töhfə verəcəkdir.

Forumun iştirakçılarını bir daha salamlayır və Foruma uğurlar arzulayıram. Sağ olun.

## *2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdə İlham Əliyevin nitqi*

Əziz dostlar, 2018-ci il sona yaxınlaşır. Hər il idmançılarla görüş zamanı biz ilin idman yekunlarını müzakirə edirik, gələcək planlar haqqında danışırıq. 2018-ci il ölkəmiz üçün çox uğurlu il olmuşdur. Bütün sahələrdə, o cümlədən idman sahəsində ölkəmiz böyük uğurlar əldə etmişdir.

Dünyada isə bildiyiniz kimi, 2018-ci ildə bir çox təhlükəli proseslər getmişdir və demək olar ki, beynəlxalq vəziyyət daha da gərginləşmişdir. Qanlı toqquşmalar, müharibələr, etiraz aksiyaları və digər hadisələr demək olar ki, 2018-ci ilin mənzərəsini əks etdirir.

Azərbaycanda isə sabitlik, təhlükəsizlik təmin edilmişdir. Azərbaycan öz yolu ilə uğurla gedir və qarşıda duran bütün vəzifələri icra edir. Əlbəttə, biz dünyada gedən prosesləri izləyirik. Biz bu proseslərə biganə qala bilmərik. Çünki həm Avropada, həm bizim regionumuzda, Yaxın Şərqdə gedən proseslər narahatlıq doğurur.

Bildiyiniz kimi, bu il Ermənistanda çox ciddi dəyişikliklər baş vermişdir. İyirmi il ərzində hakimiyyəti qanunsuz olaraq zəbt etmiş kriminal xunta rejimi çökdü və bizim dediyimizi indi erməni xalqı deyir. Kriminal, rüşvətxor rejim 20 il ərzində öz xalqını istismar edirdi və bu rejimin acı sonu məntiqə tam uyğundur. Onu da deməliyəm ki, bizim ardıcıl, məqsədyönlü siyasətimiz kriminal xunta rejiminin çökməsində öz rolunu oynamışdır. Çünki bizim siyasətimiz dəyişməz olaraq qalır. Nə vaxta qədər ki, bizim torpaqlarımız işğal altındadır, biz bütün imkanlardan istifadə edib Ermənistanı təcrid vəziyyətində saxlayacağıq və buna nail olduq.

Bizim təşəbbüsümüzlə reallaşan qlobal enerji, nəqliyyat layihələri Ermənistandan yan keçir. Bizim siyasətimiz nəticəsində Ermənistanda demoqrafik böhran yaşanır, insanlar ölkəni kütləvi surətdə tərk edir, iqtisadi inkişaf üçün heç bir əsas yoxdur, xarici sərmayə qoyulmur, onların beynəlxalq bazarlara çıxışı çox çətinləşib. Beynəlxalq müstəvidə sübut edə bilmişik ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində haqlı tərəf bizik. Yəni, bütün bu və başqa amillər, əlbəttə, bizim hərbi qüdrətimiz Ermənistanı bu ağır vəziyyətə salmışdır.

İşğal edilmiş torpaqlarımızın bir hissəsinin iki il bundan əvvəl işğalçılardan azad edilməsi, o torpaqlarda Azərbaycan bayrağının qaldırılması kriminal rejimə çox böyük zərbə olmuşdur. O vaxtdan bu günə qədər o ölkənin güclü olmayan dayaqları daha da laxlayaraq sıradan çıxıb. Yəni, bu, bizim qonşuluğumuzda baş vermiş hadisələrdir. Əlbəttə, hesab edirəm ki, bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün daha əlverişli vəziyyət yaranıb. Bir çox amillər bunu deməyə əsas verir. İlk növbədə, bizim artan gücümüz, potensialımız, iqtisadi, hərbi, siyasi gücümüz, beynəlxalq mövqelərimiz bunu deməyə əsas verir. Biz bu istiqamətdə öz ardıcıl siyasətimizi davam etdirəcəyik.

Eyni zamanda, Azərbaycan bu gün dünya miqyasında çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Bizim beynəlxalq nüfuzumuz artır. Mən bunu dəfələrlə qeyd edirəm və bu, sadəcə olaraq sözlər deyil. Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi əks etdirən bir çox qərar və qətnamələri olmuşdur. İkitərəfli sazişlərimizdə bu məsələ bizim mövqeyimizi əks etdirərək öz həllini tapmışdır. Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədinin imzalanması çox əlamətdar hadisə idi. Bu sənəddə göstərilir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı dəstəklənir. NATO-nun Zirvə görüşündə ərazi bütövlüyümüzlə bağlı çox önəmli məsələ öz əksini tapmışdır. İkitərəfli imzalanmış sənədlərdə daim bizim mövqeyimiz öz əksini tapır. Mən deyəndə ki, bizim beynəlxalq nüfuzumuz artır, bunu nəzərdə tuturam. Eyni zamanda, Azərbaycan xalqı bunu yaxşı bilir ki, hətta Ermənistanın üzv olduğu, bizim üzv olmadığımız təşkilatlarda da bizim mövqeyimiz üstünlük təşkil edir və bu, Ermənistanda isterikaya səbəb olur.

Dünən Bakıda Rusiya və NATO-nun ali hərbi rəhbərlərinin növbəti görüşü olmuşdur. Bu, birinci görüş deyil. Bundan əvvəl Amerika və Rusiya baş qərargah rəislərinin Bakıda görüşü olmuşdur. NATO-Rusiya hərbi rəhbərlərinin görüşü də mütəmadi olaraq Azərbaycanda keçirilir. Bu, çox əlamətdar hadisədir. Dünyada BMT-yə üzv olan 200-ə yaxın ölkə var və bu ölkələr arasında bu görüş məhz Azərbaycanda keçirilir. Avropada 50-yə yaxın ölkə var, ancaq bu görüş Azərbaycanda keçirilir. Nəyə görə? Bunun bir neçə səbəbi var. İlk növbədə, bizə olan inam. Azərbaycan çox etibarlı tərəfdaşdır, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur, verdiyimiz hər bir sözə əməl edirik və sözümüzün arxasında dayanırıq. Digər tərəfdən, bizə olan hörmət. Bu gün apardığımız siyasət bizə dünyada çox böyük hörmət qazandırıb, Azərbaycana çox böyük rəğbət var. Müstəqil siyasət apararaq, sözün əsl mənasında, müstəqil ölkə kimi özümüzü təsdiq edə bilmişik. Hesab edirəm ki, bu, ikinci səbəbdir. Üçüncü səbəb ondan ibarətdir ki, həm Rusiya, həm də NATO ilə bizim sıx əlaqələrimiz var. Rusiya ilə strateji tərəfdaşlıq əlaqələrimiz gündən-günə güclənir. NATO ilə bir çox proqramlar əsasında işləyirik, Əfqanıstana sülhməramlı əməliyyatların keçirilməsi üçün böyük dəstək oluruq, yardımlar edirik və digər amillər burada rol oynayıb. Amma bir daha Azərbaycan ictimaiyyətinin diqqətini bu

məsələyə cəlb etmək istəyirəm ki, məhz Azərbaycanda bu dünya üçün çox böyük əhəmiyyət daşıyan görüş keçirilir.

Azərbaycan iqtisadi sahədə bütün vəzifələri uğurla icra edir. İqtisadiyyatımız artır, sosial məsələlər öz həllini tapır. 2018-ci ildə bir çox önəmli infrastruktur layihəsi uğurla icra olunmuşdur, nəqliyyat və neft-qaz sahələrində tarixi nailiyyətlər əldə edilmişdir. Bütün bunları biz etmişik, Azərbaycan xalqının böyük dəstəyi ilə buna nail olmuşuq.

Beləliklə, ilə yekun vuraraq qeyd etmək olar ki, bu il də çox uğurlu olmuşdur, o cümlədən idman sahəsində. İdmançılarımız bizi hər il sevindirir. Bizim cəmiyyətimiz buna artıq öyrəşib. Bu il idmançılarımız tərəfindən dünya, Avropa çempionatlarında və digər beynəlxalq yarışlarda 800-ə yaxın medal, o cümlədən 263 qızıl medal əldə edilmişdir. Bu, böyük nəticədir, böyük qələbədir. Bu qələbə münasibətilə idmançılarımızı təbrik edirəm.

Bu qələbələr, sadəcə olaraq, idman qələbələri deyil. Çünki hər bir belə möhtəşəm qələbə cəmiyyətimizin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıtdırır, Azərbaycanı təbliğ edir. Bu qələbələr gəncləri idman bölmələrinə aparır, idmanın kütləviliyini təmin edir. Yəni, idman qələbələri, idmançılarımızın uğurları çox böyük məna daşıyır. Buna görə biz idmançılarımıza minnətdarıq. Eyni zamanda, onu da böyük məmnunluq hissi ilə elə qeyd etməliyəm ki, bizim idmançılarımızın mütləq əksəriyyəti həyatda da, məişətdə də gözəl nümunə göstərir, vətənpərvərlik, ləyaqət nümunəsi göstərir. Əlbəttə ki, idmançılara cəmiyyətdə olan hörmət çox yüksək səviyyədədir. Uşaqlar, yeniyetmələr bizim çempionlarımıza oxşamaq istəyirlər. Bu da təbiidir. Mən əminəm ki, bundan sonra da idmançılarımız bizi, xalqımızı sevindirəcəklər.

Gözəl gənc nəsil yetişir. Gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda da biz gözəl nəticələr göstəririk. Gənc nəslin yetişməsi nəticəsində biz bu uğurları əldə edirik. Biz Rio Olimpiya Oyunlarında 18 medal qazanmışıq. Bu medalları qazanan həmin o gənclərdir ki, beş-altı il bundan əvvəl yeniyetmələrin yarışlarında iştirak ediblər. Biz medalların sayına görə Rioda 14-cü yerə qalxa bilmişdik. Bu, tarixi nailiyyətdir. Bunu təkrarlamaq çox çətin olacaq. Onu da qeyd etməliyəm ki, növbəti Yay Olimpiya Oyunlarına hazırlıq gələn il həlledici mərhələyə qədəm qoyacaq. Əlbəttə, biz çox ciddi hazırlaşmalıyıq ki, ölkəmizi Olimpiya Oyunlarında ləyaqətlə təmsil edək.

Bilirsiniz ki, idman infrastrukturunun yaradılması işində böyük uğurlar əldə edilib. Ancaq rayonlarda 44 Olimpiya İdman Mərkəzi tikilib və fəaliyyət göstərir. Bu il bir mərkəz tikilib, gələn il isə üç Olimpiya İdman Mərkəzinin tikintisi nəzərdə tutulur. Beləliklə, onların sayı 47-yə çatacaqdır.

Ölkəmizdə beynəlxalq idman yarışlarının keçirilməsi ənənəyə çevrilib. Əlbəttə ki, biz Avropa, İslam Həmrəyliyi oyunlarını xatırlaya bilərik. Bu il ölkəmizdə dünya, Avropa çempionatları keçirilmişdir. Formula 1 yarışı üç ildir Azərbaycanda, Bakıda keçirilir. Bu il və keçən il ümumi rəyə və bu məsələ ilə məşğul olan ictimai qurumların fikrinə görə, bizim yarışımız – Bakı yarışı ən gözəl yarış olmuşdur. Bu da çox gözəl hadisədir. Çünki bu da göstərir ki, bizim qəbul edilmiş hər bir qərarımız düzgün qərardır, gözəl nəticə verir.

Bilirsiniz ki, ölkəmizə turistlərin axını davam edir. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 11 ayında 6 faizdən çox artmışdır. Düzdür, əvvəlki illərə nisbətdə artım bir qədər aşağıdır, ancaq biz bilməliyik ki, baza artır. Yəni, hər il bundan sonrakı ildə bu yüksək artımı əldə etmək daha çətin olacaq. Ancaq bu istiqamətdə də çox ciddi işlər aparılır. Deyə bilərəm ki, şəhərin mərkəzində keçirilən Formula 1 yarışının turistlərin cəlb edilməsində xüsusilə çox böyük rolu, payı var.

Azərbaycanın idman sahəsində uğurları beynəlxalq idman qurumları tərəfindən yüksək qiymətləndirilir. Həm Beynəlxalq Olimpiya Komitəsi, həm də Avropa Olimpiya Komitəsi bizim fəaliyyətimizə çox yüksək qiymət verir. Gələn il Bakıda Avropa Gənclər Olimpiya Festivalı keçiriləcəkdir. Bu, gənclər arasında Avropa Oyunlarının bir növüdür. Biz bu yarışa da ciddi hazırlaşırıq. Bizdə əldə edilmiş təcrübə deməyə əsas verir ki, bu yarış yüksək səviyyədə keçiriləcək.

Gələn il tarixdə ilk dəfə olaraq, Bakıda futbol üzrə Avropa Liqasının final görüşü keçiriləcəkdir. Bu görüşü Bakıda keçirmək o qədər də asan məsələ deyil. Bir çox şəhərlər bu istiqamətdə mübarizə aparır. Məhz ölkəmizin ümumi inkişafı, mövcud olan infrastruktur, idman obyektləri, gözəl Olimpiya Stadionu, gözəl otellər, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi və digər amillər bu qərarın verilməsində rol oynayıb.

Yəni, biz inamla irəliyə gedirik. İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılara hər zaman yüksək qiymət verilir, diqqət göstərilir. Mən 21 ildir Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi həmişə çalışmışam ki, idmançılara qayğı, diqqət göstərim, onların problemlərini həll edim, onların gözəl çıxışları üçün şərait yaradım. Əlbəttə ki, hər bir nəticə, hər bir uğur gərək qiymətləndirilsin. Ənənəvi olaraq, biz ilin sonunda idmançıları yüksək dövlət mükafatları ilə, pul mükafatları ilə və mənzillərlə mükafatlandırırıq. Bu il də bu mükafatlar verilir, o cümlədən görkəmli idman nümayəndələrimizə 25 mənzil veriləcəkdir.

Mən bir daha Azərbaycan idmançılarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm. Əziz idmançılar, sizə yeni qələbələr, uğurlar arzulayıram. Sağ olun.

## *Dünya azərbaycanlılarına*

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Milli birliyimizin rəmzi kimi hər il geniş qeyd etdiyimiz 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə sizi səmimi qəlbdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyalarını yaşadan müstəqil dövlətimiz milli həmrəyliyin gücləndirilməsinə xüsusi əhəmiyyət verir, dünya azərbaycanlılarının mədəni-mənəvi birliyinin daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir. Biz xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizin doğma Azərbaycanla əlaqələrinin dərinləşdirilməsi və ümummilli məsələlərin həllində yaxından iştirakının təmin edilməsi istiqamətində irəli sürülən səmərəli təşəbbüslərə hər zaman dəstək veririk.

2018-ci il xalqımızın tarixində şərəfli yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə keçirilməsi ilə yaddaşlarda qalacaqdır. Belə əlamətdar yubileyin təntənə ilə qeyd edilməsi həmvətənlərimizin qəlbində azadlıq və istiqlal duyğularını, ölkəmizin zəngin tarixi ilə haqlı iftixar hissini daha da gücləndirir. Bu gün əminliklə demək olar ki, 100 il əvvəl mühacir həyatı yaşamağa məcbur olmuş Cümhuriyyət qurucularının və onların varislərinin Azərbaycanı müstəqil və qüdrətli dövlət kimi görmək arzuları artıq xoş gerçəkliyə çevrilmişdir.

Dünyada gedən mürəkkəb geosiyasi proseslərə, müharibə və silahlı qarşıdurmalara, qaçqın və məcburi köçkün problemlərinə, qlobal iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycan Respublikası qarşıya qoyduğu böyük məqsədlərə doğru inamla irəliləyir. Ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurların nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməsi bunu bir daha əyani surətdə sübut edir. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, 10 ən islahatçı dövlət siyahısına daxil edilmişdir. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə irimiqyaslı transmilli layihələr uğurla icra olunmuşdur. 2018-ci ildə Avrasiyanın enerji xəritəsinin zənginləşməsində mühüm rol oynayan "Cənub Qaz Dəhlizi"nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsi, həmçinin Ələt-Astara magistral avtomobil yolunun açılışı ilə Azərbaycan ərazisində "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi üzrə bütün işlərin başa çatdırılması dövlətimizin iqtisadi potensialının artması, regionun tranzit və logistika mərkəzinə çevrilməsi, geoiqtisadi mövqeyinin güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Cari ildə həm də növbəti telekommunikasiya peyki "Azerspace-2"nin orbitə buraxılması respublikamızın müasir rabitə və informasiya texnologiyaları sahəsində qazandığı nailiyyətlərin bariz təzahürüdür.

Ölkəmiz inkişaf etdikcə, daha qlobal xarakterli vəzifələri həll etmək imkanları da artır. Qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunması kimi taleyüklü vəzifə dayanır. Azərbaycan pozulmuş ərazi bütövlüyünün bərpası yolunda ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Soydaşlarımız da, öz növbəsində, yaşadıqları ölkələrin yüksək dairələrinin və nüfuzlu beynəlxalq təşkilatların diqqətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yönəldilməsində, tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında fəallıq nümayiş etdirməlidirlər. Azərbaycanın inkişafı və dünya birliyində mövqeyini möhkəmləndirməsi üçün hər bir həmvətənimiz ümummilli məqsədlər ətrafında sıx birləşməli, diaspor təşkilatlarının fəaliyyəti daha çevik əlaqələndirilməlidir. Əminəm ki, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız və həmvətənlərimiz bu prinsiplərə əsaslanaraq qarşıdakı illərdə də üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsində qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə səadət, firavanlıq və işlərinizdə uğurlar diləyirəm!

Bayramınız mübarək olsun!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 dekabr 2018-ci il.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Rossiya-24" telekanalına müsahibəsi*

– Cənab Prezident salam.

– Salam.

– 2018-ci il dünya üçün asan keçmədi. Amma bu, tarixi tərəfdaşlarla, qonşularla və dostlarla münasibətlərin əhəmiyyətini dərk etmək və qiymətləndirmək üçün yaxşı məqamdır. Buna görə də bizə çox xoşdur və Sizə xüsusilə minnətdarıq ki, sıx iş qrafikinə baxmayaraq, vaxt taparaq bu gün burada bizi qəbul edirsiniz.

– Sağ olun.

– Cənab Prezident, 2018-ci ilin Azərbaycan üçün siyasi-iqtisadi yekunlarını necə qiymətləndirərdiniz?

– Bütövlükdə il ölkəmiz üçün uğurlu olub. Azərbaycan uğurla inkişaf edib. Biz beynəlxalq miqyasda əsas tərəfdaşlarımızla, ilk növbədə, qonşu ölkələrlə ənənəvi münasibətimizi möhkəmləndirmişik. Xəzər dənizinin hüquqi statusunun nizamlanması haqqın-

da Konvensiya imzalanıb. Hesab edirəm ki, bu, Xəzəryanı ölkələri bir-birinə daha da yaxınlaşdıran tarixi sənəddir.

İl bizim üçün ikitərəfli formatda fəal keçdi. Biz xeyli ikitərəfli görüşlər keçirmişik, beynəlxalq təşkilatlar daxilində fəal iştirak etmişik. Qoşulmama Hərəkatının üzvü olan ölkələrin xarici işlər nazirləri səviyyəsində Bakıda beynəlxalq forum keçirilib. Gələn il Sammit keçiriləcək və Azərbaycan gələn il bu iri beynəlxalq təşkilata rəhbərlik edəcək.

Daxili-siyasi proseslər nöqteyi-nəzərindən ölkə uğurla inkişaf edib. Azərbaycanın daxilində potensial risklər mövcud deyil. Xarici potensial risklərə gəlincə isə biz onlardan özümüzü qoruya bilirik. Əlbəttə ki, həmişəki kimi iqtisadi islahatlara böyük əhəmiyyət vermişik. Fikrimcə, 2018-ci il bu cəhətdən çox mühüm il olub. Demək kifayətdir ki, Dünya Bankının “Doing Business” hesablamalarına görə, bu il ərzində Azərbaycan 32 pillə irəliləyərək dünyada 25-ci yeri tutub. Yəni, bu, o deməkdir ki, biznesin asanlaşdırılması, şəffaflıq, sahibkarlığa dəstək istiqamətində aparılan islahatlar yaxşı nəticələr verir. Bu, əlbəttə ki, investisiya reytinqimizi yüksəldir. Bu il biz 10 milyard dollar investisiya cəlb etmişik. Bu, sərmayədarlarda əminlik yaradır, bizim islahatlar siyasətini davam etdirməkdə qətiyyətimizi də nümayiş etdirir. İnflyasiya 2 faizdən bir qədər çox olub. Əhalinin gəlirləri 9 faizdən çox artıb. Biz valyuta ehtiyatlarımızı artırmışıq, ümumi daxili məhsulun 20 faizi qədər olan xarici borcu məqbul səviyyədə saxlamışıq. Yaxın illər üçün xarici borcun ümumi daxili məhsulun 10 faizə qədəri səviyyəsində saxlanılması üçün strategiya hazırlanıb. Fikrimcə, bu, tamamilə realdır. Bununla əlaqədar onu da deməliyəm ki, bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan demək olar ki, 5 dəfə artıqdır. Yəni, əgər istəsək, bütün borclarımızı azı bir il ərzində ödəyə bilərik. Yəni, makroiqtisadi vəziyyət sabitdir. Biz xeyli sosial məsələləri həll etmişik. Bu il 6 minə qədər məcburi köçkün ailəsi yeni evlər və mənzillərlə təmin olunub. Təxminən 30 minə yaxın insan, yəni, bizim cəmiyyətimizin daha çox ehtiyacı olan hissəsinin nümayəndələri üçün bu il ərzində kiçik şəhər tikilib. Mən bu siyahını davam etdirə də bilərəm, amma düşünürəm ki, dediklərim bizim inkişafın əsas istiqamətlərini səciyyələndirir.

– Güman edirəm ki, MDB məkanında iqtisadiyyatı inkişaf etməkdə olan ölkələr qarşısında olduğu kimi, Azərbaycanın, həmçinin Rusiyanın qarşısında iqtisadi tempi 1–3 faiz artırmaq vəzifəsi durur. Bu, 2018-ci il ərzində ümumi daxili məhsulun artım göstəriciləri üçün gözlənilən haldır. Bu gün sıçrayış üçün hansı potensialı görürsünüz? Yəni, əgər dünya, orta dünya iqtisadi artım templəri 3 və daha artıq təşkil edirsə, onda aydındır ki, bizim ölkələrimiz qlobal iqtisadiyyatda geri qalmamaq üçün bu göstəriciyə yaxınlaşmalıdırlar.

– Bəli, siz tamamilə haqlısınız. Biz bu istiqamətdə göstəricilərimizi qiymətləndirərək gələcək addımlarımızı planlaşdıranda həmişə qeyri-neft sektorunu neft sektorundan ayırırıq. Çünki neft sektoru həm qiymət dəyişikliklərinə, həm də neft hasilatının müəyyən artımına, yaxud azalmasına məruz qalır. Azərbaycan OPEK+ proqramının fəal iştirakçısıdır və biz bu yaxınlarda bütün ölkələrlə həmrəylik nümayiş etdirmək üçün hasilatın azaldılması üzrə üzərimizə əlavə öhdəliklər götürmüşük. Buna görə də həmin amillərə əsaslanaraq biz həmişə qeyri-neft iqtisadiyyatına və qeyri-neft sənayesinə daha çox diqqət yetiririk. Fikrimcə, bizim bu istiqamətdə də nəticələrimiz xeyli yaxşı olacaq. On bir ayın yekunlarına görə biz qeyri-neft sənayesinin artımını 9 faizdən çox həcmdə görürük. Bu, ilk növbədə, bizim qeyri-neft sektoru, kiçik və orta sahibkarlıq, fermerlər üçün sərfəli şərait yaradılması üzrə sənayeləşdirmə proqramımızın nəticələridir. Bizim fermerlər torpaq vergisindən başqa bütün vergilərdən azaddırlar. Dövlət güzəştli şərtlərlə gübrə, yanacaq və istehsalata böyük subsidiyalar ayırır ki, biz kənd təsərrüfatı məhsullarının ixracı baxımından mühüm ölkəyə çevrilək. Buna görə də bizim iqtisadiyyatımızın gələcək inkişafı neft-qaz sektoru ilə dəstəklənəcək, lakin dayanıqlı inkişaf sənaye, kənd təsərrüfatı, yüksək texnologiyalarla bağlı olacaq.

Mən bu ilin əlamətdar hadisələrindən biri kimi orbitə üçüncü peykin buraxılmasını qeyd edərdim. Azərbaycan artıq beynəlxalq kosmik klubun fəal üzvüdür. Bizim artıq üç peykimiz var. Bu da bizim niyyətlərimizdən və uğurlarımızdan xəbər verir.

– Burada birinci plana Rusiya ilə xüsusi münasibətlər çıxır. Qeyri-neft sektorunda əməkdaşlığımız prioritet olduğuna görə bu, uzunmüddətli perspektivdir. Siz bu il Rusiya lideri ilə altı dəfə görüşmüsünüz. Bu, onu göstərir ki, hər iki tərəf bu qarşılıqlı fəaliyyətin, bu əlaqələrin əhəmiyyətini başa düşür. Yaşıl dəhlizlərin yaradılması, o cümlədən, ilk növbədə, kiçik və orta biznes baxımından qarşılıqlı ticarət üçün məhdudiyyətlərin götürülməsi şərtləri müzakirə olunur. Əsas qərarları və zaman oriyentirlərini Siz indi nədə görürsünüz? Bu qərarlar nə vaxt qəbul olunmalıdır?

– Bəli, siz haqlısınız. Bu il Rusiya-Azərbaycan münasibətləri çox sürətlə inkişaf edib. Bizim münasibətlərimiz prinsipcə çox dinamik inkişafla, sabitliklə, davamlı olması ilə səciyyələnir. Biz mehriban qonşu və etibarlı dostuq. Bu, dəfələrlə sübut olunub və budur, bu yüksək etimad səviyyəsi, ilk növbədə, həm də siyasi qarşılıqlı fəaliyyət bir çox layihələrin həyata keçirilməsinə kömək edir. Siz doğru qeyd etdiniz, mən Prezident Vladimir Vladimiroviç Putinlə altı dəfə, o cümlədən mənim Rusiyaya rəsmi səfərim çərçivəsində və onun Azərbaycana səfəri çərçivəsində, eləcə də beynəlxalq tədbirlərdə görüşmüşəm. Bu görüşlərdən hər biri nəticə verib. Biz əmtəə dövriyyəsinin artırılması məsələsinə çox ciddi yanaşmışıq. Qarşılıqlı fəaliyyətin müxtəlif istiqamətlərinin inkişafı üzrə yol xəritələri işlənib hazırlanıb. Mən şadam ki, bu gün həm Azərbaycan, həm də Rusiya sərmayədarları ölkələrimizin iqtisadiyyatına investisiya qoyurlar. Birgə istehsalatlar yaradılması,

əmtəə dövriyyəsinin artırılması üçün çox güzəştli şərait yaradılır. Rusiya bankları böyük həcmdə, yüz milyon dollarla Azərbaycanın mühüm sənaye layihələrini maliyyələşdirir. Bu, bizim münasibətlərin, həm də Azərbaycanın məhz elə ölkə olmasının göstəricisidir ki, burada banklar pul itirməkdən qorxmur. Biz həmişə öz öhdəliklərimizə görə cavab veririk.

Biz 2019-cu il üçün planları müəyyənləşdirmişik. Lap bu yaxınlarda Moskvada Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyasının növbəti iclası keçirilib. Bu il həm də Rusiya və Azərbaycan prezidentlərinin iştirakı ilə Bakıda Rusiya-Azərbaycan Regionlararası Forumu keçirilib. Yəni, bu da bizim əməkdaşlığımızın, Rusiyanın regionları ilə fəal qarşılıqlı fəaliyyətin və onlarla ticari-iqtisadi münasibətlərin qurulmasının mühüm istiqamətidir. Düşünürəm ki, ikitərəfli ticarətə bizim birgə nəqliyyat təşəbbüslərimiz ciddi təkan verəcək. Şimal-Cənub layihəsi artıq reallaşır. Təkcə bu il biz Azərbaycan vasitəsilə Rusiyadan və Rusiyaya tranzitin on dəfə artdığını görürük, o cümlədən bizim yükgöndərənlər bu nəqliyyat arteriyasından fəal istifadə edirlər. Yəni, biz öz münasibətlərimizə kompleks yanaşırıq. Təməl bizim tarixi dostluğumuzdur. Biz bu təməl üzərində siyasi münasibətlərin çox ciddi bazasını qurmuşuq və ticari-iqtisadi, nəqliyyat, energetika sahələrində, əlbəttə ki, humanitar sahədə əməkdaşlıq münasibətlərinin inkişafı üzrə dəqiq anlaşmamız var. Deməliyəm ki, rusiyalılar Azərbaycana gələn turistlərin sayına görə birinci yeri tutur.

– Onları da anlamaq olar.

– Bəli, bu il 800 mindən çox rusiyalı ölkəmizə gəlib və özlərini evdəki kimi çox rahat hiss edirlər. Belə ki, bizim münasibətlərimiz çox zəngindir və düşünürəm ki, qonşuların öz münasibətlərini necə qurması üçün yaxşı nümunədir.

– Cənab Prezident, Siz xatırlatdınız ki, gələn il Azərbaycan Qoşulmama Hərəkatına rəhbərlik edəcək. Amma axı bu imkandan Avrasiya İqtisadi İttifaqı ilə münasibətləri inkişaf etdirmək üçün də istifadə etmək olar. Bu da elə ərazidir ki, onsuz keçinmək olmur və burada münasibətləri, əlaqələri təkcə ikitərəfli əsasda deyil, həm də Avrasiya cəmiyyəti çərçivəsində möhkəmləndirmək imkanları var.

– Bəli, sözsüz, biz bu istiqamətdə işləyirik. Deməliyəm ki, bizim Avrasiya İttifaqının üzvü olan ölkələrin mütləq əksəriyyəti ilə çox sıx dostluq, o cümlədən ticari-iqtisadi sahədə münasibətlərimiz var. Bizim həmin ölkələrlə azad ticarət haqqında müqaviləmiz mövcuddur. Əlbəttə, bizim əsas ticari-iqtisadi tərəfdaşımız Rusiya Federasiyasıdır. Bizdə azad ticarət formatı da mövcuddur. Buna görə də biz əlbəttə ki, əməkdaşlıq potensialını gücləndirəcəyik. İndiki mərhələdə bu əməkdaşlıq daha çox ikitərəfli xarakter daşıyır, bəzən də üçtərəfli, amma daha geniş deyil. Gələn il hadisələrin necə davam edəcəyini və konkret nəticələri zaman göstərəcək. Amma əlbəttə ki, Qoşulmama Hərəkatının sədr ölkəsi kimi biz beynəlxalq arenada öz rolumuzu artıracağıq. Əlbəttə, çalışacağıq ki, Azərbaycanın tərəfdaşları olan ölkələr bizə necə dəstək göstərirlərsə, onlar da bizim tərəfimizdən eyni dəstəyi alsınlar.

– Sizin enerji layihələrinizi və dünya bazarında enerji ambisiyalarınızı xatırlatmaya bilmərəm. Bu gün biz bir çoxları üçün nadir sayılan Rusiya-Türkiyə-Azərbaycan birliyini və Rusiya ilə Azərbaycanın Türkiyə vasitəsilə Avropa İttifaqına qaz axınını necə yönəltmələrini müşahidə edirik. Bizi bu məqamda tez-tez toqquşdurmağa, rəqiblər kimi göstərməyə çalışırlar. Tamamilə aydındır ki, bu gün biz birlikdə öz dövlətlərimizin rifahı naminə Avropa İttifaqının enerji təhlükəsizliyini yaradırıq. Sizin üçün bu layihələr nə deməkdir? Cənub Qaz Dəhlizinin açılması Sizin üçün nə demək idi?

– Hesab edirəm ki, sizin səciyyələndirdiyiniz bugünkü vəziyyət məhz bu cür olmalı idi. Biz uzun müddət buna doğru getmişik. Bəlkə də müxtəlif istiqamətlərdən, müxtəlif sürətlərlə, amma nəticədə məhz sizin dediyinizə gəlib çatmışıq. Bu gün dünyanın enerji xəritəsində bir növ Rusiya–Türkiyə–Azərbaycan əməkdaşlıq formatı yaranıb. Bu əməkdaşlığın həm ikitərəfli, həm də üçtərəfli planda böyük perspektivləri var.

Biz enerji layihələrimizi hələ 2000-ci ilin əvvəllərində neft-qaz kəmərlərinin tikintisi ilə həyata keçirməyə başlamışıq. Çünki dünya bazarlarına çıxmaq üçün biz mütləq infrastruktur qurmalı idik. Bizim açıq okeana çıxmaq imkanımız yoxdur. Rusiya nisbətən yaxın vaxtlarda bu istiqamətdə addımlar atıb. Hərçənd biz xatırlayırıq ki, xeyli illər əvvəl “mavi axın” layihəsi gerçəkləşdirilmişdi. Bu barədə indi bir az unudublar. Amma axı bu da Rusiyadan Türkiyəyə Qara dənizin dibi ilə qaz kəmərinin inşası layihəsi idi. Yəni, prinsipcə, bu il “Türk axını”nın dəniz fazasının açılmasında yeni heç nə yoxdur. Sadəcə, Rusiya ilə Türkiyənin yüksək səviyyədə qarşılıqlı siyasi fəaliyyəti bu layihənin reallaşmasına, yaxud da gerçəkləşməsini sürətləndirməyə imkan verib. Buna görə də biz Rusiya və Türkiyənin dostları kimi bu layihəni alqışladıq və həmin layihənin açılış mərasimində yüksək hökumət səviyyəsində iştirak etdik.

“Cənub Qaz Dəhlizi” layihəsinə gəlincə, bu ilin mayında həmin layihə rəsmən işə düşüb. Bu, özündə dörd mühüm müstəqil layihəni birləşdirən layihədir. Bu, iri “Şahdəniz” qaz-kondensat yatağının işlənilməsi və inteqrasiya olunmuş üç qaz kəmərinin tikintisidir. Bu gün bu layihənin dörd seqmentindən üçü artıq reallaşıb və mayda Cənub Qaz Dəhlizinin rəsmi açılışından sonra iyunda TANAP layihəsinin açılışı oldu. Beləliklə, biz Türkiyə, daha sonra isə Avropa bazarlarına daha böyük həcmdə qaz nəql edəcəyik. Bu da bizim siyasətimizin davamıdır, çünki hələ 2007-ci ildə biz Bakıdan Türkiyənin Ərzurum şəhərinə qədər qaz kəməri açmışıq və Türkiyə bazarına qaz ixracatçısıyıq. Cənub Qaz Dəhlizi bizə Türkiyə bazarına qazın ixracını iki dəfə artırmağa, eləcə də Türkiyənin ətrafındakı ölkələrin bazarlarına, sonra isə Qərbi Avropaya çıxmağa imkan verəcək. Bu,

bizə böyük qaz potensialımızı reallaşdırmaq imkanı verəcək, xəzinəmizə milyardlarla dollar gətirəcək. Bu, artıq on minlərlə iş yeri yaradıb və əlbəttə ki, Avrasiyanın tamamilə yeni enerji xəritəsini yaradır. Azərbaycanın, Rusiyanın və Türkiyənin bu istiqamətdə səylərini birləşdirməsi bizə nəinki planlarımızı tamamilə reallaşdırmağa, maraqlarımızı təmin etməyə imkan verəcək, həm də enerji ehtiyatlarımızın və nəqliyyatın inkişafı baxımından çox gözlənilən siyasət deməkdir.

– Mən dərhal rəqiblər tərəfindən gözlənilən siyasət haqqında bir neçə kəlmə deyə bilərəm. Ölkə nə qədər güclü olarsa, nə qədər böyük uğurlar qazanarsa, ona bir o qədər çox təzyiq göstərilir və burada enerji nüfuzu uğrunda mübarizə göz qabağındadır. Siz Qərb ölkələri, ilk növbədə, Birləşmiş Ştatlar tərəfindən Rusiyaya məhz Avropada öz enerji planlarımıza görə məruz qaldığımız təzyiqə baxa bilərsiniz. Siz qoşulmağa hazırsınız, yoxsa, bunun kənar fəsadları var?

– Məsələ ondadır ki, bizim enerji layihələrimizin inkişafı baxımından heç vaxt belə təzyiq hiss etməmişik. Mən hətta deyərdim, əksinə, Azərbaycan qazı Avropa ölkələrinin enerji təhlükəsizliyini müəyyən dərəcədə təmin edəcəyinə görə biz Avropa İttifaqı tərəfindən dəstək hiss etmişik. Hər il Bakıda “Cənub Qaz Dəhlizi” layihəsinin reallaşdırılması üzrə Məşvərət Şurası keçirilir. Bu layihədə Avropa İttifaqının üzvü olan bir neçə ölkə iştirak etdiyinə görə Avropa İttifaqı bu Məşvərət Şurası çərçivəsində hər zaman yüksək səviyyədə təmsil olunur. Biz öz enerji layihələrimizi reallaşdırırıq, çünki onlar bizə lazımdır. Çünki biz çox zəngin neft-qaz ehtiyatlarına malik ölkəyik. Biz onları satmalı, pul qazanmalıyıq. Buna görə də biz investor şirkətlər cəlb etmişik. Buna görə biz bankları cəlb etmişik. Neft-qaz kəmərləri tikirik. Təkcə Cənub Qaz Dəhlizi təxminən 40 milyard dollara başa gəlir. Bu investisiyaların böyük hissəsi borc kapitallarıdır. Buna görə əlbəttə ki, beynəlxalq maliyyə təsisatları ilə fəal əməkdaşlıq həmin layihənin mühüm amili idi.

Buna görə də həmin kontekstdə enerji layihələrinin icrası baxımından biz heç bir maneə hiss etmirik. Digər tərəfdən, tamamilə haqlısınız ki, Azərbaycanın əhəmiyyəti və rolu təkcə enerji bazarında deyil, həm də bütövlükdə geosiyasi planda artır. Ölkə daha da inkişaf edir və regionda özünü təsdiqləmək üçün daha çox planları var. Bizim inkişafa, apardığımız müstəqil siyasətə mütənasib olaraq bizə təzyiq də artır. Ancaq bu, enerji amilləri ilə əlaqədar deyil. Bu, bəzən bizi xalqımıza və ölkəmizə tamamilə yad olan hansısa avantüralara cəlb etmək cəhdləri ilə bağlıdır. Mən söhbətin əvvəlində dedim ki, bizim ölkədə – Azərbaycanda heç bir potensial risk, fiziki, ideoloji, sosial, siyasi təhdid yoxdur. Bizim vətəndaşların rahatlığını yalnız kənardan poza bilərlər. Ona görə də biz öz suverenliyimizlə bağlı məsələlərə, təhlükəsizliyimiz, vətəndaşlarımızın təhlükəsizliyi məsələlərinə çox həssaslıqla yanaşırıq. Ona görə də Azərbaycanı hansısa beynəlxalq avantüralara cəlb etmək cəhdləri həmişə fiaskoya uğrayıb. Yəqin ki, bu, kiminsə xoşuna gəlmir və arabir biz bunun nəticələrini görürük. Bir qayda olaraq bunlar bizim ümumiyyətlə iştirak etmədiyimiz beynəlxalq təşkilatların qəbul etdiyi hansısa qətnamələrdə ifadə olunur.

– İnsan hüquqlarının pozulmasında ittihamlar...

– Tamamilə doğrudur.

– Sevimli mövzudur.

– Bəli, elədir ki, var. Həm də qəribədir ki, bizim əleyhimizə olan qətnamələri üzvü olmadığımız və üzv olmağa hazırlaşmadığımız strukturlar qəbul edirlər. Bax, bu, necə deyərlər, daha çox təbəssüm doğurur. Həmçinin əlbəttə, mətbuata yalançı təbliğat tullantıları atılır. Bu, qarayaxma, şantaj və təzyiq göstərmək cəhdlərinin sevimli üsuludur. Amma bizdə buna qarşı immunitet yaranıb. Azərbaycan vətəndaşları çox yaxşı başa düşürlər ki, bu informasiya tullantıları cəhdlərinin arxasında nə durur. Azərbaycanın inamlı, davamlı, təhlükəsiz və sabit inkişafı bizə ziyan vurmaq istəyənlərə ən yaxşı cavabdır.

– Mədəniyyət və təhsil məkanı, o cümlədən ölkələrimiz arasında nə qədər geniş və dərin olarsa, vətəndaşlarımız nə qədər savadlı olarsa, onlar nəyin həqiqət və nəyin uydurma olduğunu bir o qədər tez və asanlıqla başa düşəcəklər. Burada mən bizim tarixi əlaqələrimizə, münasibətlərimizə toxunmaya bilmərəm. Azərbaycan o ölkədir ki, Sovet İttifaqının dağılmasından sonra artıq 27 ildir ki, rus dili özünü burada doğma hiss edir. Azərbaycana bu cür turist axını yəqin bununla izah olunmalıdır. Bu gün neçə məktəbdə rus dili tədris olunur? Bu gün Rusiyaya təhsil almağa gedirlər. Bizim üçün bu da çox vacibdir. Belə ki, bu, gələcək üçün, gələcək nəsillər üçün əlaqədir.

– Bu gün Azərbaycanda rus dilində təhsil verən 340-dan çox məktəb var. Üç mindən çox məktəbdə isə rus dili tədris olunur. Müqayisə üçün deyə bilərəm ki, ölkədə cəmi 4,5 minə yaxın məktəb var. Yəni, bizim məktəblərimizin mütləq əksəriyyətində rus dili tədris olunur. 340-dan çox məktəbdə isə tədris rus dilində aparılır və bu məktəblərin sayı artır. Hazırda bizim rus dilini qorumaq üzrə siyasətimiz yaxşı nəticələr verir. Mən tez-tez, xüsusən yeni dərs ili ərəfəsində məktəblərdə oluram. Görürəm ki, rus dilində yeni şöbələr yaradılır və buna ehtiyac var. Əlbəttə, ölkənin hər bir vətəndaşı, ilk növbədə, öz dövlət dilini bilməlidir. Bu cəhətdən bizim Azərbaycanda problem yoxdur. Dövlət dili Azərbaycan dilidir və bütün kargüzarlıq işləri Azərbaycan dilində aparılır. Belə də olmalıdır. Amma rus dilini bilmək həm tələbatdır, həm də bizim tarixi əlaqələrimizə hörmət əlamətidir. Bu gün mən görürəm ki, buna cəmiyyətdə necə tələbat var. Çünki siz tamamilə haqlısınız, buraya gələn milyona yaxın rusiyalı, fikrimcə, ilk növbədə, ona görə buraya gəlir ki, özlərini rahat mühitdə hiss edirlər. Bu da çox vacibdir. Buna görə də bizim rus dilini qorumaq, onun inkişafı üçün daha yaxşı şərait yaratmaq siyasətimiz tamamilə düzgündür və bunun müsbət nəticələrini görürük. Rus dilinə hörmət etməklə biz öz dilimizə qətiyyən xələl

gətirmirik. Bu, sadəcə, mümkün deyil. Hesab edirəm ki, Azərbaycanın bugünkü inkişafı dünyaya, ilk növbədə, öz qonşularına açıq olmaqla milli maraqlarını, identikliyini qorumağın nümunəsidir. Biz son illərdə Rusiyanın iki aparıcı ali məktəbinin – Lomonosov adına MDU-nun və Seçenov adına Tibb Universitetinin filiallarını da yaratmışıq. Həmin filiallarda da tədrisi Rusiyadan olan müəllimlər rus dilində aparırlar. Buna görə də mədəni-humanitar sahə, təhsil sahəsi elə bir sahədir ki, ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dəstəklənməsinə kömək edəcək. Siz qeyd etdiniz ki, Sovet İttifaqının dağılmasından 27 il ötüb və yeni nəsil yetişib. Biz istəyirik ki, Azərbaycan vətəndaşları rus dilini də, ingilis dilini də və əlbəttə, ilk növbədə, öz ana dilini bilsinlər. Mümkün qədər çox dil bilsinlər və tərcüməçisiz rahat söhbət edə bilsinlər.

– Rus dili beynəlxalq ünsiyyət dilidir. Biz burada rus dili haqqında məhz bu kontekstdə danışırıq. Amma bir daha qeyd edim ki, əgər gələcək nəsillər əcdadları tərəfindən yaradılan tərəfdaşlığı bilsələr və qiymətləndirsələr, onda bu gün Sizinlə apardığımız müzakirələrin, gördüyümüz işlərin hədər olmadığı sübut ediləcək. Cənab Prezident, Siz 2019-cu ildən nə gözləyirsiniz? Hansı hadisələrin Azərbaycanın həyatında, bizim ölkələrin həyatında mühüm rol oynayacağını güman edirsiniz? Nəyi həll etmək istərdiniz?

– Mən əminəm ki, 2019-cu ildə ölkəmiz daha da inkişaf edəcək. Həyata keçirdiyimiz islahatların artıq xeyli hissəsi özünü 2019-cu ildə göstərəcək. Biz Azərbaycan iqtisadiyyatının transformasiyası prosesini bitiririk. Buna görə də düşünürəm ki, iqtisadi inkişaf cəhətdən bütün planlar reallaşdırılacaq. Dövlət büdcəsi də artıq qəbul olunub. O, həmişəki kimi sosialyönümlüdür. Buna görə də bütün sosial proqramlar həyata keçiriləcək. Biz gələn il məcburi köçkünlər və qaçqınlar üçün 4 mindən çox mənzil, Ermənistanla Azərbaycan arasında müharibə zamanı həlak olanların ailələri üçün 800-dən çox mənzil istifadəyə verməyi də nəzərdə tutmuşuq. Yəni, bizim iqtisadiyyatımızın sosial yönümü çox əhəmiyyətli olacaq.

Düşünürəm ki, 2019-cu ildə Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirmək üçün də mühüm addımlar atılacaq. Bu gün Şimal–Cənub və Şərq–Qərb layihələri Azərbaycandan keçir. Biz yeganə ölkəyik ki, bu layihələrin hər ikisində iştirak edirik. Bu layihələrə qoşulan ölkələrin sayı isə ildən-ilə artır. Biz Azərbaycanda ən müasir nəqliyyat infrastrukturu – dəmir yolu, dəniz daşımaları, aviadaşımalar, 6 beynəlxalq aeroport, avtomobil yolları yaratmışıq. Deyə bilərəm ki, Davos İqtisadi Forumunun qiymətləndirməsinə görə, avtomobil yollarının keyfiyyəti üzrə Azərbaycan dünyada 34-cü yeri tutur. Bu kifayət qədər yüksək göstərici bizim həmin layihələrə necə diqqət göstərdiyimizdən xəbər verir. Əlbəttə, biz Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq arenada fəal iş aparacağıq və üzv ölkələrə dəstək verəcəyik. Ümid edirik ki, 2019-cu ildə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması işində də müsbət irəliləyişlər olacaq. Düşünürəm ki, bu ilin baharında Ermənistanda baş verən hadisələr Ermənistan tərəfindən status-kvonun saxlanılması siyasətinin perspektivsizliyinin əyani göstəricisidir. Biz bu illər ərzində çox böyük inkişaf yolu keçmişik və Azərbaycanla Ermənistan arasında iqtisadi potensialın və bütün digər komponentlərin balansı artıq çoxdan pozulub. Düşünürəm ki, bizim iqtisadiyyatımızı, enerji, nəqliyyat layihələrinin potensialını gücləndirmək üzrə siyasətimiz müəyyən dərəcədə Ermənistanda baş verənlərə səbəb olub. Erməni cəmiyyətini narahat edən bütün digər məsələlərlə yanaşı, bu ilin baharında baş vermiş hadisələrin amillərindən biri Ermənistanın düşdüyü və ya özünü yuvarlatdığı ağır sosial-iqtisadi vəziyyət olub. Bu isə mən qəti əminəm ki, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmamasının nəticəsində baş verib. Buna görə də düşünürəm ki, həm Ermənistan cəmiyyətində, həm də hakim strukturlarda daha yaxşı başa düşəcəklər ki, münaqişə yalnız ədalətli nizamlandıqdan, işğal olunmuş ərazilər azad olunduqdan sonra Ermənistan iqtisadiyyatı xeyli arta bilər. Əks təqdirdə, düşünürəm ki, Ermənistanda ciddi sosial-iqtisadi dəyişikliklərin nəticələrini gözləmək çətin olacaq.

Yəni, biz öz siyasətimizin nəticələrini görürük. Biz münaqişəni həmişə danışıqlar yolu ilə nizamlamaq istəmişik və istəyirik. Lakin təbii ki, danışıqlar yolu ilə nizamlamaq üçün çox ciddi vasitələr lazımdır. Bizim apardığımız və aparacağımız siyasət sülhün regiona hansı üstünlüklər verəcəyini və sülh olmayacağı təqdirdə Ermənistanda hansı çətinliklər yaranacağını göstərməyə yönəlib. Mən qəti əminəm ki, Ermənistanın yeni rəhbərliyinin ölkəni dəyişmək üzrə bütün planlarını həyata keçirməsi üçün yeganə yol Azərbaycanla münaqişənin nizamlanması yoludur. Bunun üçün isə onlar özlərinə məxsus olmayan ərazilərdən çıxmalı və yüz minlərlə azərbaycanlının öz yurdlarına qayıtmasına imkan verməlidirlər. Buna görə də ümid var ki, bu baxımdan daha çox anlaşma olacaq. Amma dəqiq deyə bilmərəm. Necə deyərlər, vaxt göstərər. Amma biz də haqqında dediyim siyasəti ardıcıl olaraq yürüdəcəyik, xüsusən görəndə ki, o, nəticə verir.

– Strateji hövsələ, dözüm, səbir və öz inkişafına diqqət Azərbaycanın 2019-cu ildəki seçimidir.

– Tamamilə doğrudur. Siz bizim planlaşdırdıqlarımızı və etdiklərimizi çox dəqiq ifadə etdiniz.

– Mən Sizə uğurlar arzulayıram. Bu müsahibə üçün çox sağ olun. Sizə rifah arzulayıram.

– Sağ olun. Sizi görməyimə həmişə şadam. Yeni il ərəfəsində fürsətdən istifadə edərək, yeni ildə rusiyalılara ən xoş arzularımı çatdırıram, sülh, uğur və xoşbəxtlik diləyirəm.

– Sağ olun!

# SİYASƏT
# POLITICS

UOT 32(092)

**АЛИ ГАСАНОВ**
***Помощник Президента Азербайджанской Республики по общественно-политическим вопросам, доктор исторических наук, профессор***

## ИЛЬХАМ АЛИЕВ – ПЯТНАДЦАТЬ ЛЕТ НА ПОСТУ ПРЕЗИДЕНТА ЛЕТОПИСЬ ДОСТИЖЕНИЙ (2003-2018)

*“Верю, что с вашей помощью и при вашей поддержке Ильхам Алиев сможет завершить судьбоносные задачи, планы и дела, которые мне не удалось довести до конца. Я верю ему как самому себе и возлагаю большие надежды на его будущее”.*

*Гейдар Алиев*

*“Он верил и знал, что его последователи завершат все то, что он не успел. Так и случилось… Мы гордимся тем, что воплощаем его идеи в жизнь, укрепляем нашу независимость, идем и будем идти по пути Гейдара Алиева”.*

*Ильхам Алиев*

### Основные итоги успешного стратегического курса и эффективного государственного управления

Если оценить в общем, то следует отметить, что за 15-летний период президентства Ильхам Алиев, в первую очередь опираясь на платформу гражданского единства, основа которой была заложена общенациональным лидером Гейдаром Алиевым, еще более упрочил внутреннюю общественно-политическую стабильность, обеспечил безопасность населения, основные права и свободы людей, мир и спокойствие в стране, добился постепенного повышения благосостояния граждан. Сегодня без колебаний можно сказать, что по установившимся внутри страны национальному единству и гражданскому согласию, коэффициенту прочности общественно-политической стабильности, утвержденной на основе поддержки широкими слоями населения проводимой властями политики, Азербайджан занимает первое место на постсоветском пространстве.

Наряду с этим, за последние 15 лет Азербайджан закрепился в первой тройке среди стран региона и по другим основным параметрам внутреннего развития – макроэкономической стабильности, динамично развивающейся экономике, динамике системы социального и духовного обеспечения, положительной демографической ситуации, сохранению под контролем государства процессов миграции и урбанизации, эффективности государственного управления и пр.

Во-вторых, благодаря проводимой Президентом Ильхамом Алиевым успешной внутренней и внешней политике, сформированному им эффективному государственному управлению за последние 15 лет постепенно вырос региональный и международный авторитет страны, еще

более упрочилось ее геополитическое, геоэкономическое и военно-геостратегическое положение в Каспийско-Черноморском бассейне и на Южном Кавказе.

В настоящее время Азербайджан утвердился в первой тройке полностью самодостаточных государств региона и по рациональному использованию природных богатств, географического положения, материальных, духовных и человеческих ресурсов, успешной региональной политике и правильной позиции в области создания транснациональных транспортно-коммуникационных и энергетических коридоров, коэффициенту независимости внутренней и внешней политики, показателям устойчивости и динамичности социально-экономического развития, потенциалу дальнейшего развития и другим параметрам.

### В Азербайджане осуществлялась последовательная политика, направленная на укрепление демократических институтов, обеспечение политического плюрализма, прав и свобод человека

Если провести анализ по отдельным сферам, то можно убедиться в том, что под руководством Президента Ильхама Алиева за последние 15 лет в Азербайджане осуществлялась последовательная политика, направленная на укрепление демократических институтов, обеспечение политического плюрализма, усиление институтов гражданского общества. Именно в результате этого в настоящее время в стране созданы благоприятные условия для свободного функционирования 55 политических партий, более 3 тысяч неправительственных организаций, а также профсоюзов, объединяющих в своих рядах около 2 миллионов человек.

Согласно дополнениям, внесенным в 2012 году в Закон «О политических партиях», ежегодно из государственного бюджета выделяются средства на финансирование деятельности политических партий. Они активно участвуют в президентских, парламентских и муниципальных выборах, проводимых в стране в свободных, прозрачных и демократических условиях. А это свидетельствует о формировании в Азербайджане политического плюрализма и многопартийной демократической политической системы.

В стране придается серьезное значение повышению независимости и финансовых возможностей институтов гражданского общества, в том числе неправительственных организаций. Распоряжениями Президента в 2007 году была утверждена «Концепция государственной поддержки неправительственных организаций», в качестве специализирующейся в этой области структуры создан Совет государственной поддержки неправительственных организаций при Президенте Азербайджанской Республики. Приступивший к деятельности в 2008 году Совет, поддерживая общественные инициативы, финансировал тысячи проектов НПО.

Обеспечение свободы слова и информации, формирование плюралистической печати в Азербайджане составляют одно из основных направлений государственной политики. За минувший период Президент Ильхам Алиев принял многочисленные решения, направленные на укрепление материально-технической базы СМИ, усиление социальной защиты журналистов, подписал соответствующие указы и распоряжения. В настоящее время общее количество СМИ в стране превысило 5 тысяч. А количество интернет-сайтов, зарегистрированных в домене az., составило более 20 тысяч. 80% почти 10-миллионного населения являются пользователями интернета, а около 3 миллионов – социальных сетей.

В Азербайджане функционируют 11 общереспубликанских, 4 спутниковых, 13 региональных, 17 кабельных, 25 интернет-(IP) телеканалов и 16 радиоканалов. В 2005 году на базе второго государственного канала была учреждена и стала функционировать Общественная телерадиовещательная компания.

В 2008 году Президент страны подписал Распоряжение об утверждении «Концепции государственной поддержки развития средств массовой информации в Азербайджанской

Республике», а в 2009 году – о создании Фонда государственной поддержки развития средств массовой информации при Президенте Азербайджанской Республики.

На сегодняшний день общий объем средств, направленных посредством Фонда на развитие медиа, достиг 60 миллионов манатов. Кроме того, на основании распоряжений Ильхама Алиева для журналистов за счет государства были построены и переданы им два жилых дома из 410 квартир. В настоящее время продолжается строительство третьего 255-квартирного здания.

**Азербайджанская экономика по конкурентоспособности заняла первое место на пространстве СНГ**

В годы правления Президента Ильхама Алиева серьезные успехи были достигнуты не только в политической, но и в экономической сфере. В результате проводимой в последние 15 лет под его руководством последовательной и целенаправленной экономической политики в стране было обеспечено завершение процесса перехода от плановой социалистической экономики к рыночной. В указанный период доля частного сектора в ВВП превысила 80 процентов, укрепилась макроэкономическая стабильность, экономика Азербайджана по конкурентоспособности поднялась на первое место в СНГ. В 2004-2018 годах в целях диверсификации экономики, устойчивого прогресса ненефтяного сектора и регионов были реализованы три государственные программы социально-экономического развития регионов. В данный период для этого в регионы было направлено свыше 67 миллиардов манатов, 75 процентов созданных в стране около 2 миллионов новых рабочих мест приходились на долю регионов.

В минувший период последовательно развивалась ненефтяная промышленность, начали функционировать тысячи новых, основанных на современных технологиях предприятий, имеющих важное значение для экономики. В соответствии с утвержденной в декабре 2014 года «Государственной программой по развитию промышленности в Азербайджанской Республике на 2015-2020 годы» на территории страны были созданы многочисленные промышленные парки и кварталы, технопарки (Сумгайытский, Балаханский, Мингячевирский, Гарадагский, Пираллахинский, Нефтчалинский, Масаллинский, Гаджигабульский, Сабирабадский и пр.), приняты серьезные меры, направленные на расширение производственных участков, повышение экспортных возможностей ненефтяной промышленности и развитие инновационного производства.

В эти годы в Сумгайыте были сданы в эксплуатацию алюминиевый, карбамидный, пластикоперерабатывающий заводы, заводы по производству полипропилена и высокоплотного полиэтилена компании SOCAR Polymer (объем инвестиций, вложенных в них, превышает 800 миллионов долларов), завод вторичной переработки бытовых отходов в Балаханы, Бакинский судостроительный завод, в Гяндже, Нахчыване и Нефтчале - автомобильные заводы, в Сумгайыте, Гядабее и Дашкесане - заводы по переработке золота и меди, гянджинские заводы алюминиевых полуфабрикатов и сельскохозяйственной техники и другие промышленные предприятия, играющие важную роль в усилении экономического потенциала страны.

Реформы, осуществляемые в аграрном секторе, льготы и помощь производителям сельскохозяйственной продукции заложили основу последовательного развития данной отрасли в экономике страны. В 2003-2018 годах объем средств, выделенных на мелиоративные меры, увеличился в 6, а капиталовложения в данную сферу - в 21 раз. В стране были построены и восстановлены 4 крупных водохранилища общим водоизмещением 450 миллионов кубометров (Тахтакерпю, Шамкирчай, Гейтепе и Товузчай), 4 тысячи км оросительных каналов, 2,4 тысячи км коллекторно-дренажных сетей, улучшены обеспечение водой 360 тысяч гектаров земель, мелиоративная ситуация на площади 264 тысячи гектаров, в посевной оборот включены новые орошае-

мые земельные участки площадью 219 тысяч гектаров.

Работа, проводимая Президентом Ильхамом Алиевым в области возрождения традиционных отраслей сельского хозяйства, в том числе хлопководства, зерноводства, шелководства, виноградарства, чаеводства, цитрусового плодоводства, рисоводства и пчеловодства, расширения площади фундуковых, миндальных, хурмовых, оливковых, гранатовых садов, в значительной степени увеличила экспортный потенциал страны.

За 15 лет экономика Азербайджана выросла в 3,2 раза, ненефтяной сектор – в 2,8 раза, промышленное производство – в 2,6 раза, сельское хозяйство – в 1,7 раза, ненефтяной экспорт – 4,1 раза. Валютные резервы увеличились с 1,8 млрд (2004) до 46 млрд долларов (2018). В 2003-2018 годах в экономику страны были вложены инвестиции на сумму 250 млрд долларов. Примерно половина данных средств, составляющих 93 процента инвестиций, вложенных в Азербайджан в период независимости, приходится на долю внутренних источников.

## Реализуемые в Азербайджане гигантские транснациональные проекты превратили страну в важный транзитный и логистический центр

Под руководством Президента Ильхама Алиева в Азербайджане реализованы грандиозные транснациональные энергетические и транспортные проекты, в 2006 году сдан в эксплуатацию основной экспортный нефтепровод Баку-Тбилиси-Джейхан (протяженностью 1767 км), соединяющий Каспийское и Средиземное моря, а в 2007 году – газопровод Баку-Тбилиси-Эрзурум (протяженностью 980 км). 20 сентября 2014 года был заложен фундамент «Южного газового коридора» (протяженностью 3500 км), который сыграет большую роль в энергетической безопасности Европы, а также обеспечении перспективного развития и экономических интересов Азербайджана. Проект стоимостью свыше 40 млрд долларов осуществлялся высокими темпами, и 29 мая 2018 года в Баку состоялась церемония официального открытия «Южного газового коридора», а 12 июня – его составной части – трубопровода TANAP.

Реализация же проекта TAP продолжается по графику. Срок действия подписанного 20 сентября 1994 года в Баку «Соглашения о совместной разработке месторождений «Азери», «Чираг» и глубоководной части месторождения «Гюнешли» в азербайджанском секторе Каспийского моря и долевом разделе добычи» («Контракта века») был продлен до 2050 года следующим контрактом, подписанным 14 сентября 2017 года. По новым условиям предусмотрено увеличить долю SOCAR с 11 % до 25% и передать Азербайджану 75 % прибыльной нефти. Кроме того, в течение 8 лет иностранные инвесторы выплатят стране равными частями в качестве бонуса 3,6 млрд долларов. Продление контракта создало условия для сохранения добычи нефти в Азербайджане на стабильном уровне на протяжении еще многих лет, обеспечения вложения иностранных инвестиций в нефтяной сектор.

По инициативе Президента Ильхама Алиева проделана большая работа, направленная на создание международных транспортных коридоров «Восток-Запад» и «Север-Юг», соединяющих Европу с Азией. 30 октября 2017 года в Баку состоялось официальное открытие железной дороги Баку-Тбилиси-Карс, фундамент которой был заложен в 2007 году. Построены новые магистральные автодороги до границы Азербайджана с Российской Федерацией, Ираном и Грузией.

Со сдачей в эксплуатацию 18 сентября 2018 года магистральной автодороги Алят-Астара-граница с Исламской Республикой Иран протяженностью 204 км на территории Азербайджана завершились все работы по реализации проекта транспортного коридора «Север-Юг». Активно участвуя в данных международных транспортных коридорах, обладающих огромным значением с политической, экономической и

стратегической точек зрения, Азербайджан превратился в один из важных транзитных и логистических центров в Евразии.

В период президентства Ильхама Алиева Азербайджан вошел в ограниченное число космических стран мира. В 2010 году было создано Открытое акционерное общество «Азеркосмос», 2013 год был объявлен в стране «Годом информационных технологий». 8 февраля того же года на орбиту был выведен первый телекоммуникационный спутник Азербайджана «Azerspace-1», в 2014 году - спутник «Azersky», наблюдающий за поверхностью Земли, а в сентябре 2018 года – еще один телекоммуникационный спутник «Azerspace-2».

### Обновленная социально-культурная, хозяйственная и туристическая инфраструктура, бренд Азербайджана – "ASAN xidmət"

За последние 15 лет полностью обновилась социально-культурная и хозяйственная инфраструктура страны. В этот период были построены либо капитально отремонтированы более 3100 школ, 650 медицинских учреждений. В сотнях исторических зданий, музеях, театрах и библиотеках были осуществлены широкомасштабные работы по модернизации, отремонтированы и оснащены новым оборудованием все высшие учебные заведения страны, а также институты и учреждения при НАНА. В стране было проложено 15 тысяч км дорог, построены 443 моста. В Баку сданы в эксплуатацию 4 новые станции метро, на нескольких станциях проведены работы по реконструкции. Начал функционировать крупнейший на Каспии международный порт – Алятский морской торговый порт.

В Азербайджане были полностью реконструированы и сданы в эксплуатацию 7 аэропортов. Шесть из них (Бакинский, Гянджинский, Нахчыванский, Лянкяранский, Габалинский, Загатальский) получили статус международного. Бакинский международный аэропорт Гейдар Алиев вошел в список 9 основных «пятизвездочных» аэропортов мира.

В 2003-2018 годах в стране были сданы в эксплуатацию 31 электростанция общей генерирующей мощностью 3000 МВт, и Азербайджан стал экспортером электроэнергии.

В регионах высокими темпами была проведена газификация, и обеспечение природным газом по стране увеличилось с 51% до 95%. Реализован гигантский водопроводный проект Огуз-Габала-Баку, в Джейранбатане введена в строй крупнейшая в мире водоочистная установка, в регионах пробурены многочисленные субартезианские скважины, сданы в эксплуатацию сотни малых водоочистных установок модульного типа вдоль рек, улучшено бесперебойное обеспечение населения питьевой водой.

За последние 15 лет под руководством Президента Ильхама Алиева в стране были осуществлены коренные реформы и важные меры в целях формирования туристической индустрии, обеспечения высококачественных и конкурентоспособных услуг в этой сфере. В результате созданной благоприятной бизнес- и инвестиционной среды в Баку и регионах стали функционировать туристические предприятия, отвечающие высоким стандартам, в том числе до 570 гостиниц, пятизвездочные отели известных мировых брендов, зимнелетние комплексы («Туфандаг» и «Шахдаг») и другие объекты.

В последние годы наблюдается динамичный рост в числе иностранных граждан, приезжающих в Азербайджан в туристических целях. Согласно отчету «Конкурентоспособность путешествий и туризма» (2017) Всемирного экономического форума Азербайджан значительно улучшил свою позицию среди 136 стран, а в СНГ вышел на второе место.

По инициативе Президента Ильхама Алиева были приняты серьезные меры, направленные на усиление социальной защиты населения. С этой целью были полностью списаны накопившиеся за прошлые годы долги граждан за пользо-

вание услугами, связанными с природным газом, питьевой водой и канализацией (соответственно 327 млн и 294,2 млн манатов), выплачена компенсация в размере 1 миллиарда манатов за вклады, оставшиеся с советского времени. За 15 лет в стране было открыто 1,9 миллиона новых рабочих мест, заработная плата увеличилась более чем в 5 раз, а пенсии – более чем в 8 раз, уровень безработицы сократился до 5 %, а бедность – с 49 % до 5,4 %.

В период президентства Ильхама Алиева в стране были проведены серьезные институциональные реформы в области общественных и социальных услуг. В 2012 году его соответствующими указом и распоряжением было учреждено Агентство по оказанию услуг гражданам и социальным инновациям при Президенте Азербайджанской Республики, созданы центры «ASAN xidmət», объединяющие в единой системе услуги, оказываемые населению государственными органами.

В течение 2013-2018 годов в эти центры поступило более 25 миллионов обращений, коэффициент одобрения услуг среди населения приблизился к 100%. Модель «ASAN xidmət», признанная в мире как бренд Азербайджана, уже применяется и в других странах. В августе 2018 года Президент Ильхам Алиев создал при Министерстве труда и социальной защиты населения Агентство по устойчивому и оперативному социальному обеспечению (DOST) для оказания оперативных и инновационных услуг, связанных с занятостью, трудом и социальной защитой населения.

### Внимание и забота о семьях шехидов, ветеранах и инвалидах войны, вынужденных переселенцах

Президент Ильхам Алиев всегда с особой заботой относится к семьям шехидов, ветеранам и инвалидам войны. За последние 15 лет им за счет государства было предоставлено более 6 тысяч индивидуальных домов и квартир, столько же легковых автомобилей. Согласно Указу Президента Азербайджана, подписанному 19 апреля 2018 года, началась единовременная выплата пособий в размере 11 тысяч манатов наследникам военнослужащих, погибших во время военных операций до 2 августа 1997 года.

В 2003-2018 годах была проделана широкомасштабная работа в области решения проблем вынужденных переселенцев, в стране ликвидированы все палаточные лагеря и поселки финского типа, более чем в 100 новых поселках и городках расселены 300 тысяч человек.

Село Джоджуг Марджанлы (Джебраильский район), освобожденное в результате успешной военной операции азербайджанской армии в апреле 2016 года, за короткий срок было отстроено заново, там возведен поселок из 150 домов, и жители вернулись к родным очагам. Кроме того, в очищенном от оккупантов поселке Шихарх (Тертерский район) был построен новый городок для 1170 семей.

В 2018 году домами и квартирами были обеспечены 5700 семей вынужденных переселенцев. Неслучайно в 2015 году за большие заслуги в области улучшения социального благосостояния населения страны, а также осуществления Целей развития тысячелетия Ильхаму Алиеву была присуждена премия ООН «Юг-Юг».

### Успешные результаты строительства армии и внешней политики, опирающейся на национальные интересы

Под руководством Президента Ильхама Алиева были приняты последовательные меры в области повышения боеспособности азербайджанской армии, укрепления материально-технической базы Вооруженных сил. На предприятиях созданного в 2005 году Министерства оборонной промышленности Азербайджанской Республики производится продукция военного назначения 1200 наименований. Согласно международным рейтингам, в настоящее время Вооруженные силы страны входят в число 50 самых сильных армий в мире.

В начале апреля 2016 года азербайджанская армия, столкнувшись с очередной

военной провокацией Армении на линии фронта, перешла в контрнаступление и нанесла захватчикам сокрушительные удары, освободив за короткое время от врага территорию в две тысячи гектаров в Агдеринском, Джебраильском, Физулинском районах и расширив возможности осуществления контроля за остающимися под оккупацией землями. А в мае 2018 года были освобождены более 11 тысяч гектаров территории в Нахчыванской Автономной Республике, в том числе село Гюннют Шарурского района, отвоеваны стратегические высоты вдоль государственной границы, взята под контроль дорога Ереван-Горис-Лачин.

Президент Ильхам Алиев высказал принципиальную позицию в связи с армяно-азербайджанской нагорно-карабахской проблемой: «Азербайджан никогда не смирится с нарушением своей территориальной целостности, не допустит создания на своих землях второго армянского государства. Территориальная целостность нашей страны должна быть полностью восстановлена, азербайджанцы должны вернуться на исконные земли». В 2003-2018 годах, наряду с переговорами, проводимыми в рамках Минской группы ОБСЕ, было достигнуто принятие влиятельными международными организациями важных решений по нагорно-карабахскому конфликту.

В резолюциях под названием «Положение на оккупированных территориях Азербайджана», принятых на 60-й (2006) и 62-й (2008) сессиях Генеральной Ассамблеи ООН, были осуждены факты расселения армян на оккупированных азербайджанских территориях, совершения там поджогов, была подчеркнута важность выполнения резолюций Совета Безопасности ООН номер 822, 853, 874 и 884. В резолюциях ПАСЕ («Конфликт в Нагорно-Карабахском регионе, которым занимается Минская конференция ОБСЕ» номер 1416, 2005), Европейского парламента («Требование к стратегии Европейского Союза на Южном Кавказе», 2010), Декларации Саммита «Восточного партнерства» Европейского Союза (2017) и соглашении «Приоритеты партнерства» Европейский Союз-Азербайджан (2018), итоговых документах XVI (Тегеран, 2012) и XVII (Маргарита, 2016) саммитов глав государств и правительств Движения неприсоединения, XI (Сенегал, 2008) и XII (Египет, 2013) саммитов ОИС, итоговом заявлении 13-го саммита ОЭС (Исламабад, 2017) выражено уважение к территориальной целостности и суверенитету Азербайджана, неприкосновенности его признанных на международном уровне границ, отмечена важность урегулирования конфликта именно на основе данных принципов. Кроме того, в итоговых коммюнике саммитов НАТО, проводимых с 2006 года, в том числе Ньюпортского (2014), Варшавского (2016) и Брюссельского (2018), нашли отражение принципы урегулирования конфликтов на Южном Кавказе на основе территориальной целостности, суверенитета стран и Хельсинкского заключительного акта, что отвечает интересам Азербайджана.

Благодаря опирающейся на национальные интересы внешней политике Президента Ильхама Алиева Азербайджан был признан как государство, отличающееся независимой позицией, его международный авторитет постепенно повысился. В 2011 году Азербайджан при поддержке 155 государств был избран непостоянным членом Совета Безопасности ООН, принят в члены Движения неприсоединения, в котором представлены 120 государств. 2019-2022 годы – период председательства Азербайджанской Республики в Движении. Страна наладила связи стратегического партнерства и подписала соответствующие документы с 9 государствами -членами ЕС.

## Обеспечены развитие науки, сохранение национально-духовных ценностей, традиций мультикультурализма и толерантности в Азербайджане

Президент Ильхам Алиев обеспечил сохранение и развитие в стране науки, культуры, национально-духовных ценностей, азербайджанского языка, свободы

вероисповедания, конфессионального и этнического разнообразия, традиций мультикультурализма и толерантности.

Расходы, выделенные из государственного бюджета на науку в 2018 году, увеличились по сравнению с 2003 годом в 7,7 раза. В целях стимулирования фундаментальных научных исследований, финансирования в виде грантов научных изысканий по естествознанию, технической, гуманитарной и общественной сферам на основе государственного заказа был создан Фонд развития науки при Президенте Азербайджанской Республики (2009), укреплена материально-техническая база институтов Национальной Академии Наук Азербайджана (НАНА), учреждено ее Гянджинское отделение (2012), сдано в эксплуатацию новое здание Центральной библиотеки (2013). За 15 лет в разы была увеличена заработная плата действительных членов и членов-корреспондентов НАНА, а также работников научных и научно-исследовательских учреждений, ведомств и организаций, финансируемых из государственного бюджета.

В 2003-2018 годах в стране было построено или реставрировано более 220 мечетей, церквей и синагог. В Биби-Эйбатском комплексе мечети-святилища, мечетях Тазапир, Аждарбек, Ичеришехер Джума и Хазрата Мухаммеда, представляющих особое религиозно-духовное и историко-культурное значение, были проделаны ремонтные работы и реконструкция. Капитально отреставрированы Шамахинская Джума-мечеть и религиозно-культурный памятник «Имамзаде» в Гяндже, в Баку были построены и переданы в распоряжение верующих крупнейшая на Кавказе мечеть Гейдара (2014), мечеть Гаджи Джавада (2018) и синагога для горских евреев (2011).

Одновременно за счет государства были отреставрированы христианские церкви (православные и католические), в том числе храмы, относящиеся к периоду Кавказской Албании. В настоящее время на территории страны свободно функционируют 2250 мечетей, 14 церквей, 7 синагог.

Распоряжениями Президента Ильхама Алиева был создан Бакинский международный центр мультикультурализма (2014), а 2016 год объявлен в стране «Годом мультикультурализма».

Азербайджан принимал многочисленные международные мероприятия на темы диалога цивилизаций, толерантности и гуманитарного сотрудничества, выдвинул ряд глобальных инициатив. В 2008 году на заседание министров культуры государств-членов Совета Европы в Баку были приглашены также министры культуры исламских стран. На этом форуме Президент Азербайджана выступил с инициативой «Бакинский процесс» во имя развития диалога и сотрудничества между цивилизациями, народами и культурами. В последующие годы в этих рамках были реализованы многочисленные международные мероприятия и проекты.

### Государственная забота о развитии молодежи, достижения в области спорта

В целях обеспечения решения вопросов социального, образовательного, карьерного и культурного развития молодежи Президент Ильхам Алиев утвердил 3 государственные программы, охватывающие 2005-2021 годы. Одновременно в рамках «Государственной программы по обучению азербайджанской молодежи в зарубежных странах в 2007-2015 годах» тысячи молодых людей были направлены на учебу в передовые вузы зарубежных стран. В целях оказания содействия реализации проектов молодежи страны в области науки, образования, культуры и других сферах, стимулирования ее деятельности в 2011 году был создан Фонд молодежи, а в 2013 году учреждена Президентская премия для молодежи.

Благодаря заботе Президента Ильхама Алиева в стране происходил процесс динамичного развития в области физической культуры и спорта, были достигнуты большие успехи в этой сфере. В Баку и регионах были построены и сданы в эксплуатацию 45 Олимпийских спортивных комплексов,

значительное количество спортивных сооружений, стадионов и других площадок, реконструированы действующие спортивные объекты. Азербайджанские спортсмены с каждым годом улучшают свои результаты, добиваются больших успехов.

Они завоевали на Афинской Олимпиаде 2004 года 5 медалей (1 золотую и 4 бронзовые), на Пекинской Олимпиаде 2008 года 6 медалей (1 золотую, 1 серебряную и 4 бронзовые), на Лондонской Олимпиаде 2012 года 10 медалей (2 золотые, 2 серебряные и 6 бронзовых), а на Олимпийских играх 2016 года в Рио-де-Жанейро – 18 медалей (1 золотую, 7 серебряных и 10 бронзовых). На последних Олимпийских играх Азербайджан по количеству завоеванных медалей занял 14-е место в мире, 7-е – в Европе, 2-е – среди стран СНГ и был первым в мусульманском мире.

В 2015 году Азербайджан принимал проводимые впервые в истории Европейские игры. На Играх с участием 6 тысяч спортсменов из 50 стран национальная команда заняла в общем зачете 2-е место, завоевав 56 медалей, в том числе 21 золотую.

А на проведенных в мае 2017 года в Баку IV Играх исламской солидарности Азербайджан занял в командном зачете 1-е место. С 2016 года в Баку ежегодно организуются соревнования «Формула-1», общая аудитория которых превышает 500 миллионов человек.

### Азербайджан стремительно преодолел этап развития, который ряд передовых государств проходил десятилетиями

Под руководством Президента Ильхама Алиева, созидательно продолжающего намеченную общенациональным лидером Гейдаром Алиевым стратегию развития, программу многосторонних реформ, Азербайджан, стремительно преодолев стадию развития, которую ряд передовых государств проходил десятилетиями, стал первой страной на постсоветском пространстве, завершившей переходный период. Всемирный банк, Европейский банк реконструкции и развития дали высокую оценку осуществляемым в Азербайджане реформам.

По подсчетам Давосского Всемирного экономического форума, экономика Азербайджана занимает 35-е место в мировом масштабе по конкурентоспособности и 26-е место по развитию общей инфраструктуры (2017). В ежегодном отчете форума под названием «Индекс инклюзивного развития» (2017) Азербайджан вышел на 3-е место среди 80 развивающихся стран.

А 31 октября 2018 года в отчете Doing Business 2019, распространенном Всемирным банком, был включен в список 10-и самых реформаторских государств и объявлен страной, которая в 2018 году провела наибольшее количество реформ в мире. В отчете Азербайджан, продвинувшись на 32 ступени по сравнению с 2017 годом, поднялся на 25-е место среди 190 стран, оставив позади многие государства мира, занял лидирующую позицию среди стран Содружества Независимых Государств.

Фактически каждый, кто приезжает в Азербайджан, даже без ознакомления с отчетами и рейтингами влиятельных международных организаций, взглянув на столицу – город Баку, может убедиться в том, что за последние 15 лет произошел большой скачок. Благодаря созидательной работе, благоустройству, осуществленных в 2003-2018 годах на основе определенной Президентом Ильхамом Алиевым концепции развития, Баку превратился в один из самых красивых городов мира, бизнес- и культурный центр региона, привлекательное пространство для туризма и отдыха.

Исторический облик его дополнен построенными с большим вкусом современными строениями. Центр Гейдара Алиева, Площадь флага, «Пламенные башни», Baku Crystal Hall и другие строительные комплексы, являющиеся новыми символами и атрибутами Баку, вошли в число жемчужин мировой архитектуры. Общественно-культурная и транспортно-хозяйственная инфраструктура города приведена в соответствие с современными

требованиями, построены новые улицы, мосты и дорожные развязки, проведено озеленение, разбиты парки, улучшена экологическая обстановка, приморский бульвар продлен с 3,5 до 16 км. На месте промышленных предприятий, выведенных за пределы столицы, реализованы современные градостроительные проекты.

За минувшие 15 лет, в течение которых во всех сферах жизни государства и общества произошли фундаментальные перемены, азербайджанский народ всегда доверял своему лидеру, являлся его самой большой поддержкой. Говоря о динамичном развитии республики, достигнутых успехах, Президент Ильхам Алиев всегда с чувством большой гордости отмечает, что в основе этих успехов лежат именно здоровая общественно-политическая атмосфера в стране, единство народа и власти. В условиях такого взаимного доверия Президент Ильхам Алиев, несомненно, еще долгие годы будет вести народ за собой к более высоким вершинам и большим победам.

**Литература:**


1. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ntqi. - “Azərbaycan” qəzeti, 10 oktyabr 2018-ci il.
2. Azərbaycan Prezidenti İlham Əliyevin Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasda nitqi. - “Azərbaycan” qəzeti, 22 sentyabr 2018-ci il.
3. Azərbaycan Prezidenti İlham Əliyevin Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda nitqi. - “Azərbaycan” qəzeti, 16 sentyabr 2018-ci il.
4. Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyanın Federal Kansleri ilə birgə mətbuat konfransında nitqi. -“Azərbaycan” qəzeti, 26 sentyabr 2018-ci il.
5. Azərbaycan Prezidenti İlham Əliyevin Xəzəryanı dövlətlərin başçıları Aktau Zirvə toplantısında nitqi. - “Azərbaycan” qəzeti, 13 avqust 2018-ci il.
6. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ntqi. - “Azərbaycan” qəzeti, 10 iyul 2018-ci il.
7. Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi paradda nitqi. - “Azərbaycan” qəzeti, 27 iyun 2018-ci il
8. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Əskişəhər şəhərində TANAP layihəsinin açılış mərasimində nitqi. - “Azərbaycan” qəzeti, 13 iyun 2018-ci il
9. Azərbaycan Prezidenti İlham Əliyevin Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində nitqi. - “Azərbaycan” qəzeti, 30 may 2018-ci il
10. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbulda nitqi. - “Azərbaycan”, 29 may 2018-ci il.
11. Azərbaycan Prezidenti İlham Əliyevin 28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda nitqi. - “Azərbaycan”, 27 may 2017-ci il.
12. Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışında çıxışı - “Azərbaycan” qəzeti, 6 may 2017-ci il.
13. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün yekunlarına sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ntqi. - “Azərbaycan” qəzeti, 11 aprel 2017-ci il.
14. Azərbaycan Prezidenti İlham Əliyevin V Qlobal Bakı Forumunun açılışında çıxışı - “Azərbaycan” qəzeti, 17 mart 2017-ci il.
15. Azərbaycan Prezidenti İlham Əliyevin Əl-Cəzirə televiziyasına müsahibəsi - “Azərbaycan” qəzeti, 18 fevral 2017-ci il.
16. Mehdiyev R.Ə. Azərbaycanın inkişaf dialektikası. Bakı.: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2000, 288 s.

17. Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri: keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: XXI-YNE, 2005, 464 s.
18. Mehdiyev R.Ə. "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti. Bakı: Şərq-Qərb, 2008, 216 s.
19. Mehdiyev R.Ə. Azərbaycan - 2003-2008: Zaman haqqında düşünərkən. Bakı: Şərq-Qərb, 2009, 240 s.
20. Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: Zərdabi, 2016, 700 s.
21. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Bakı: "Zərdabi LTD", 2015, 1048 s.
22. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.
23. Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı: 2012, 912 s.
24. Məmmədov H.B. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı: "Bakı Universiteti", 2012, 372 s.
25. Məmmədov H.B. Heydər Əliyevin siyasi irsinin politoloji aspektləri. Bakı: MSA, 2013, 456 s.
26. Məmmədov N.İ. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, 264 s.
27. Mətbuat və demokratiya /Buraxılışa məsul R.Ə.Mehdiyev; tərtib edəni və redaktoru Ə.M.Həsənov.- Bakı, 1999.- 110 s.
28. Nəsirov E. Azərbaycan nefi və beynəlxalq müqavilələr (1991-1999-cu illər) Bakı, "Respublika Xatirə Kitab Evi", 1999, 104 s.
29. Prezident İlham Əliyev. Elmi redaktoru Ə.M.Həsənov. Bakı, 2004.
30. Vəliyev A.İ. Azərbaycan-Avropa Şurası: demokratiya və insan hüquqları sahəsində əməkdaşlıq. Bakı: 2006, 236 s.
31. Алиев И.Г. Каспийская нефть Азербайджана. М.: Известия, 2003, 712 с.
32. Гасанов А.М. Современные международные отношения и внешняя политика Азербайджана: учебник /А.Гасанов (пре-дисл.); [пер.: Н.Хидиров, Дж.Сафаров, С.Гасанов, Я.Гулу-заде]; науч. ред. М.Алиева; [ред.: Э.Алиева, В.Морозков].- Второе издание, дополненное.- Баку: Zardabi LTD, 2013.- 1008 с.
33. Гасанов А.М. Политика национального развития и безопасности Азербайджанской Республики: [монография] /Али Гасанов; науч. ред. К.Аллахвердиев; Академия Государственного Управления при Президенте Азербайджанской Рес-публики.- Баку: Zərdabi LTD, 2014.- 670, [2] с.
34. Гасанов А.М. Организация Экономического Сотрудничества (ОЭС): Создание и деятельность. ОЭС и Азербайджан //Geostrategiya: aylıq ictimai-siyasi, elmi populyar jurnal.- 2012.- № 5 (11), sentyabr-oktyabr.- S.3-7.
35. Гасанов А.М. Ситуация региональной безопасности в Каспийско-Черноморском бассейне и на Южном Кавказе: реалии и прогнозы об объединении в блоки, классификация геостратегических сил /Али Гасанов //Право и политология: Международный научный журнал.- Кишинэу, Молдова, 2012.- №20, август.- С.30-35.
36. Гасанов А.М. Энергетические ресурсы Каспийского бассейна и Южного Кавказа и участие в энергетической безопасности Европы /Али Гасанов //Кавказ и Мир: Международный научный журнал.- Грузия, Тбилиси, 2012.- № 14.- С.18-28.
37. Гасанов А.М. Концептуальный подход к политике нацио-нального развития и безопасности Азербайджана /Али Гасанов //Geostrategiya: aylıq ictimai-siyasi, elmi populyar jurnal.- 2013.- № 4 (16), iyul-avqust.- S.5-11.
38. Гасанов А.М. Отношения России с США, НАТО и Европейским Союзом, её влияние на геополитическую позицию, региональную безопасность Южного Кавказа и Азербайджана /Али Гасанов //Geostrategiya: aylıq ictimai-siyasi, elmi populyar jurnal.- 2013.- № 1 (13), yanvar-fevral.- S.5-12.
39. Гасанов А.М. Подход Ирана к Каспийско-Черноморскому бассейну и безопасности Южного Кавказа, геостратегические интересы Азербайджана в области безопасности /Али Гасанов //Geostrategiya: aylıq ictimai-siyasi, elmi

populyar jurnal.- 2013.- № 3 (15), may-iyun.- S.6-14.
40. Гасанов А.М. Путь Азербайджана от восстановления независимости до членства в Совете Европы в отражении на-циональной печати /Али Гасанов, А.Зейналова // Право и политология: Международный научный журнал.- Кишинэу, Молдова, 2013.- № 24, сентябрь.- С.31-37.
41. Мехтиев Р.Э. Азербайджан: вызовы глобализации. - Баку, 2004, с. 584
42. Мехтиев Р.Э. Реалии геноцида азербайджанцев. - Баку, 2000, с. 203.
43. Наджафов Э. Н. Западноевропейские подходы к обеспечению мира и стабильности на Южном Кавказе. Эволюция мирового порядка и внешнеполитическая стратегия России. - Москва, 2003.
44. Наджафов Э. Южный Кавказ: тернистый путь к без-опасности. - Москва, 2005, с. 266.
45. Херциг Э. Внешняя политика Азербайджана, ее воздействие на региональное сотрудничество – WWW.KAVKAZ.COM
46. Чернявский С. И. Азербайджан: выбор курса. - Москва. 2004.
47. Чернявский С. И. Новый путь Азербайджана. - Москва, 2002.
48. Чернявский С.И. Внешняя политика Азербайджанской Рес-публики (1998-2003). - Баку, 2003.
49. http://www.heydar-aliyev.org
50. http://www.president.az
51. http://www.mehriban-aliyeva.org
52. http://www.heydar-aliyev-foundation.org
53. http://www.aliyev-heritage.org
54. http://www.azerbaijan.az
55. http://www.cabmin.gov.az
56. http://www.meclis.gov.az
57. http://www.mfa.gov.az
58. http://www.azstat.org
59. http://www.eco.gov.az
60. http://www.preslib.az
61. http://www.azertag.az
62. http://www.bilgesam.org/incele/8851/-bagimsizliginin-son-15-yili--azerbaycan-2003-2018/#.W8b86GgzaM-
63. http://www.irna.ir/fa/News/83066757
64. https://rezonans.kz/mir/8361-15-let-prezidentstva-ilkhama-alieva-v-azerbajdzhane-analiziruyut-projdennyj-put
65. https://rezonans.kz/mir/8371-15-let-prezidentstva-ilkhama-alieva-v-azerbajdzhane-analiziruyut-projdennyj-put
66. https://www.gazetekars.com/son-15-yilda-azerbaycanda-demokratik-kuruluslarin-guclenmesi-yonunde-kararli-politika-24528h.htm
67. http://www.bafra55.net/son-15-yilda-azerbaycan-37379h.htm
68. http://www.sanalbasin.com/son-15-yilda-039039azerbaycan039039-27396966
69. http://versii.com/news/385717/
70. http://tribuna.md/ru/2018/10/15/ru-%D0%B7%D0%B0-15-%D0%BB%D0%B5%D1%82-%D0%B1%D1%8B%D0%BB%D0%B8-%D0%BF%D1%80%D0%B8%D0%BD%D1%8F%D1%82%D1%8B-%D0%BF%D0%BE%D1%81%D0%BB%D0%B5%D0%B4%D0%BE%D0%B2%D0%B0%D1%82%D0%B5%D0%BB%D1%8C%D0%BD%D1%8B/
71. http://newsday.ge/new/index.php/en/component/k2/item/36237-president
72. http://newsday.ge/new/index.php/ka/component/k2/item/36238-
73. https://gaxa.ge/n/1336
74. https://kun.uz/ru/15931148
75. http://vestikavkaza.ru/analytics/Grandioznaya-pobednaya-letopis-15-letnego-perioda-prezidentstva.html
76. http://ekoavrasya.net/duyuru.aspx?did=271&Pid=10&Lang=TR
77. https://orobanews.com/2018/10/13/علي-حسنوف-تاريخ-الانتصار-العظيم-لفترة/
78. http://www.asiaelyoum.com/79783/2018/10/13/تاريخ-الانتصار-العظيم-لفترة-الرئاسة/

***Ключевые слова:*** *государственная независимость, государственное управление, социально-экономическое развитие, макроэкономическая стабильность, политический плюрализм, гражданское общество, внешняя политика, энергетическая безопасность*

**Əli Həsənov**
*Azərbaycan Respublikası Prezidentinin*
*ictimai-siyasi məsələlər üzrə köməkçisi,*
*tarix elmləri doktoru, professor*

# İLHAM ƏLİYEV – ON BEŞ İLLİK PREZİDENTLİK DÖVRÜNÜN UĞUR SALNAMƏSİ (2003-2018)

## XÜLASƏ

Məqalənin əvvəlində ümummilli lider Heydər Əliyevin Azərbaycanın müstəqil dövlətçiliyi üzərində qurulmuş milli inkişaf siyasətinin ideoloji əsasları geniş təhlil edilir. Eyni zamanda, Heydər Əliyevin dövlət təlimində öz əksini tapan güclü dövlət anlayışı və onun iqtisadi, siyasi, sosial və mənəvi əsasları öyrənilir.

Məqalədə göstərilir ki, bu siyasəti çox uğurla və dinamik şəkildə davam etdirən İlham Əliyev prezidentliyinin 15 ili ərzində əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş vətəndaş həmrəyliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmləndirmiş, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin etmiş, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olmuşdur.

Bununla yanaşı, məqalədə vurğulanır ki, müasir dövrdə daxili milli-vətəndaş birliyi, hakimiyyətin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəklənməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır.

Məqalədə göstərilir ki, daxili inkişaf parametrləri - makroiqtisadi sabitlik, dinamik inkişaf edən iqtisadiyyat, sosial və mənəvi təminat sisteminin dinamikası, müsbət demoqrafik vəziyyət, miqrasiya və urbanizasiya proseslərinin dövlətin nəzarəti altında saxlanması, dövlət idarəçiliyinin effektivliyi və s. üzrə də Azərbaycan son 15 ildə region ölkələri içərisində birinci üçlükdə öz yerini möhkəmləndirmişdir.

Eyni zamanda, məqalədə Prezident İlham Əliyevin milli maraqlara söykənən xarici siyasəti nəticəsində Azərbaycanın müstəqil mövqeyi ilə seçilən dövlət kimi tanınması, onun beynəlxalq nüfuzunun getdikcə yüksəlməsi elmi cəhətdən əsaslandırılır.

Bununla yanaşı, məqalədə Azərbaycanın iqtisadi sahədə əldə edilən uğurları faktlara əsasən geniş təhlil edilir, həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələrinin həyata keçirildiyi diqqətə çatdırılır.

Bundan əlavə məqalədə, son 15 ildə Azərbaycanda demokratik təsisatların möhkəmlənməsi, siyasi plüralizmin təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi istiqamətində ardıcıl siyasətin həyata keçirildiyi əsaslandırılır. Məqalədə bildirilir ki, ölkədə azad, şəffaf və demokratik şəraitdə keçirilən seçkilərdə fəal iştirak edən siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsi üçün hər il büdcədən vəsaitlər ayrılır ki, bu da Azərbaycanda siyasi plüralizmin və çoxpartiyalı demokratik siyasi sistemin formalaşdığını göstərir.

***Açar sözlər:*** *dövlət müstəqilliyi, dövlət idarəçiliyi, sosial-iqtisadi inkişaf, makroiqtisadi sabitlik, siyasi plüralizm, vətəndaş cəmiyyəti, xarici siyasət, enerji təhlükəsizliyi*

**Ali Hasanov**
**Assistant to the President of the Republic of Azerbaijan for Public and Political Affairs, Head of Department of Public and Political Affairs, Presidential Administration of the Republic of Azerbaijan, PhD in History, Professor**

# ILHAM ALIYEV - MAGNIFICENT TRIUMPH PENNANT OF 15 YEARS' PRESIDENTIAL TERM (2003-2018)

## SUMMARY

At the beginning of the article National Leader Heydar Aliyev's ideological foundations of national development policy which was built on the basis of the independent statehood of Azerbaijan were broadly analyzed. At the same time, Heydar Aliyev's strong concept of state understanding and its economic, political, social and moral foundations reflecting in his state training are studied in the article.

It is emphasized in the article that Ilham Aliyev who successfully pursued this policy in a very successful and dynamic manner during his 15 years' presidential period has further strengthened the internal social and political stability, ensured security of the people as well as the fundamental rights and freedoms of the people, also ensured the prosperity of the country and could gradually improve the welfare of citizens based on a civil solidarity platform which was established by National Leader Heydar Aliyev.

At the same time, in the article it has been noted that Azerbaijan ranks in the first place in the post-Soviet area for the internal national-civil unity and the strong public and political stability factor which is based on the broader public support for the government's policy.

It is also marked in the article that over the past 15 years Azerbaijan has reinforced its position in the top three among the regional countries for key parameters of internal development including macroeconomic stability, dynamic economic development, dynamics of social and moral security system, positive demographic situation, effective government control of migration and urbanization processes and effective public administration.

The article also provides a scientific proof of the recognition of Azerbaijan as an independent state and possessing gradually increasing international reputation as a result of President Ilham Aliyev's successful foreign policy which is based on national interest.

Furthermore, the article features a factual analysis of Azerbaijan's economic achievements and underlines that huge transnational energy and transport projects were implemented in Azerbaijan under President Ilham Aliyev's leadership.

Moreover, in the article it has been emphasized that consistent policy has been pursued in Azerbaijan over the past 15 years in order to strengthen democratic institutions, ensure political pluralism and enhance civil society institutions.

The article says that the funding is annually allocated from the state budget in order to finance the activities of political parties that are involved in the elections held in a free, transparent and democratic fashion and it describes the formation of political pluralism and multi-party democratic political system in Azerbaijan.

***Key words:*** *State Independence, Public Administration, Socio-economic Development, Macroeconomic Stability, Political Pluralism, Civil Society, Foreign Policy, Energy Security*

# R E G İ O N L A R
# R E G I O N S

UOT 330.34; 330.35

**İSLAM RZAYEV**
**Balakən Rayon İcra Hakimiyyətinin başçısı**

## BALAKƏN RAYONU İNKİŞAF EDİR, MÜASİRLƏŞİR

*"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir"*

*Heydər Əliyev*

Azərbaycanın bugünkü tarixi nailiyyətləri, onun müstəqil dövlət kimi dünya birliyində öz layiqli yerini tutması, xalqın yüksək rifaha qovuşması Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətinin, dövlətçilik strategiyasının ən mühüm nəticələridir. Məhz onun liderliyi ilə XX-XXI əsrlərin qovuşuğunda xalqımızın tarixi taleyi müəyyən olunmuş, müstəqil dövlətçiliyimiz qorunub saxlanılmış, ölkəmizdə azadlıq, demokratiya prinsipləri və sosial-iqtisadi inkişaf bərqərar edilmişdir.

Heydər Əliyev keçən əsrin 70-80-ci illərində Sovet Azərbaycanına rəhbərlik edərkən həyatından artıq sevdiyi ölkəsi üçün mühüm işlər görmüş, Azərbaycanın gələcək müstəqilliyi üçün çox vacib addımlar atmışdır. Sovet Azərbaycanının tarixinə parlaq quruculuq dövrü kimi daxil olan 1970-1985-ci illərdə sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş vermiş, respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirilmiş, yeni və mütərəqqi sənaye sahələri yaradılmışdır. Respublikada aparılan geniş miqyaslı quruculuq işləri nəticəsində Azərbaycanda bir neçə il ərzində yeni yaşayış massivləri, binalar, məktəblər, sənaye müəssisələri tikilmiş, yollar, körpülər salınmışdır. Ulu öndər Heydər Əliyevin gərgin səyi nəticəsində Azərbaycan gənclərinin mükəmməl təhsil alıb ölkənin sabahı naminə peşəkar kadr olmaları üçün keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində oxumalarına şərait yaradılmışdır. XX əsrin 70-ci illərindən etibarən milli təfəkkürün qorunub saxlanılması üçün ümummilli lider Heydər Əliyev xalqda tarixi keçmişi, milli kimliyi, dili, mədəniyyəti, adət-ənənələri, düşüncə sistemi barədə dolğun təsəvvür formalaşdırmışdır.

Ötən əsrin 70-80-ci illərində məhz Ulu Öndərin səyləri nəticəsində respublikamızın bütün bölgələrində olduğu kimi Balakən rayonunda da yüzlərlə insanın çalışdığı Tütün fermentləmə və Konserv zavodları, Tikiş fabriki, Barama toxumu müəssisəsi yaradılmış, yollar salınmış, rayon ərazisində telefonlaşma aparılmış və ilk dəfə qaz xətləri çəkilmişdir. Balakən kənd təsərrüfatı rayonundan aqrar-sənaye rayonuna çevrilmişdir.

Ulu Öndər Heydər Əliyev respublikamızın müasir tarixinin ən ağır günlərində – 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıtmış və ölkəni bir dövlət olaraq parçalanmaqdan xilas etmişdir. bununla da Azərbaycanın siyasi inkişaf mərhələsində Heydər Əliyev erası başlamışdır. Bu dövrdən etibarən demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu yönümündə ardıcıl, məqsədyönlü tədbirlərin həyata keçirilməsi ölkəmizdə demokratiyanın, insan hüquq və azadlıqlarının təməl prinsiplərinin bərqərar olmasına zəmin yaratmışdır. Ulu Öndərin rəhbərliyi ilə hazırlanan və 1995-ci il noyabrın 12-də qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyası dövlətin tarixində hakimiyyət bölgüsü prinsipinin və hüquqi dövlət quruculuğunun əsasını qoymuşdur. Ölkəmizdə islahatlar, özəlləşdirmə prosesi həyata keçirilmiş, inflyasiyanın qarşısı alınmış və ölkəyə xarici investisiya axını başlanmışdır. Respublikamızın beynəlxalq arenaya çıxışı genişlənmişdir. Azərbaycan qısa zaman kəsiyində ölkə həyatının bütün sahələrini bürümüş

böhrandan, onu gözləyən fəlakətlərdən qurtulmuşdur.

Bu gün ölkəmiz müstəqil dövlətçiliyimizin və Azərbaycanın ən yeni tarixinin yaradıcısı olan ümummilli lider Heydər Əliyevin sönməz ideyalarının davamçısı olan möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi altında gələcəyə uğurla addımlayır.

Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızın dinamik şəkildə və yüksələn xətlə sosial-iqtisadi inkişafı, əhalinin həyat səviyyəsinin qabaqcıl ölkələr səviyyəsinə qaldırılması, demokratik dəyərlərin tam reallaşması və dünya dövlətləri birliyinə hərtərəfli inteqrasiya, doğma torpaqlarımızın erməni işğalından azad edilməsi istiqamətində müəyyənləşdirilmiş uzaqgörən strateji xəttə uyğun olaraq, məqsədyönlü tədbirlər həyata keçirilir. Prezident İlham Əliyev tərəfindən son 15 ildə aparılan düşünülmüş, qətiyyətli, uzaqgörən, çevik və praqmatik siyasət nəticəsində ölkəmizin milli maraqları və təhlükəsizliyi tam təmin edilmiş, ictimai-siyasi sabitlik bərqərar olunmuş, iqtisadiyyatın dinamik inkişafına nail olunmuşdur.

Son illər ərzində Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı milli iqtisadi inkişaf modeli daha da təkmilləşdirilərək ölkəmizin sosial-iqtisadi həyatının bütün sahələrinin dayanıqlı və davamlı inkişafında özünün məntiqi nəticəsini tapmışdır. Dünya ölkələrinin sosial-iqtisadi inkişaf modellərinin mütərəqqi cəhətləri ilə yanaşı, ölkəmizin tarixən formalaşmış maddi və milli-mənəvi dəyərlərini, təbii-coğrafi amillərini və müqayisəli üstünlüklərini, çoxvektorlu geosiyasi və geoiqtisadi maraqlarını özündə ehtiva edən bu eklektik model milli iqtisadiyyatımızda yeni rəqabət faktorları və rəqabət üstünlükləri yaradaraq özünəməxsus iqtisadi inkişaf kursunu formalaşdırmışdır. İqtisadi inkişafımızda alternativi olmayan bu model konstitusiyamızda təsbit edildiyi kimi, həm azad sahibkarlığa, həm də sosialyönümlü iqtisadiyyatın formalaşmasına tam təminat yaratmışdır.

Azərbaycanın iqtisadi və sosial inkişafında ölkə Prezidenti İlham Əliyev tərəfindən proqram-məqsədli yanaşmaya üstünlük verilməsi nəticəsində son 15 il ərzində qarşıya qoyulmuş vəzifələrin uğurla icra edilməsi üçün real zəmin yaranmış və yüksək templə artan makroiqtisadi göstəricilərə nail olunmuşdur. Belə ki, bu dövrdə ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə ÜDM 2,8 dəfə artmış və qeyri-neft sektorunun iqtisadiyyatda payı 62,8 faizə qədər yüksəlmişdir. Ölkəmizdə orta illik iqtisadi artım tempi dünyada ən yüksək nəticələrdən biri kimi qeydə alınmış və Azərbaycan dünyada iqtisadi və sosial cəhətdən ən sürətli inkişaf edən ölkələrdən biri olmuşdur. Bütün bunların nəticəsində Dünya Bankının məlumatlarına əsasən, Azərbaycan ÜDM-in həcminə görə dünya ölkələri arasında 20 pillədən çox irəliləmiş və hazırda Cənubi Qafqaz iqtisadiyyatının 60 faizindən çoxunu təşkil edərək, regionda liderlik mövqeyini daha da gücləndirmişdir. Son 15 ildə adambaşına düşən ÜDM-in həcmində isə 2,7 dəfə real artıma nail olunmuşdur ki, bu da Azərbaycanın dünya ölkələri arasında 29 pillə yüksəlməsinə səbəb olmuşdur. Nəticədə hazırlanan adambaşına düşən milli gəlirin həcminə görə dünya ölkələrinin təsnifatı sistemində Azərbaycanın mövqeyi aşağı gəlirli ölkələr qrupundan yuxarı-orta gəlirli ölkələr qrupuna yüksəlmişdir.

Dünya Bankı tərəfindən tərtib olunmuş «Doing Business-2019» reytinqində Azərbaycan iqtisadiyyatı əvvəlki dövrlə müqayisədə 32 pillə irəliləyərək 25-ci sırada yer almış, lider islahatçı ölkə kimi ən çox islahat aparan ilk onluğa daxil olmuşdur. Hesabatda dünyanın 190 ölkəsi arasında müəyyən edilmiş reytinqdə belə sürətli irəliləyişin əsas səbəbi kimi biznesin həyata keçirilməsi prosesinin sadələşdirilməsi istiqamətində ölkəmizdə rekord sayda islahatların aparılması göstərilmişdir. Qlobal rəqabət qabiliyyəti göstəricisinə görə ölkəmiz dünyanın 137 ölkəsi arasında 35-ci sırada qərarlaşmış, MDB məkanında doqquz ildir ki, lider mövqeyini qorumuşdur. Bu dövr ərzində Azərbaycanın iqtisadi və sosial inkişafında çox mühüm kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş, əhalinin həyat səviyyəsi xeyli yüksəlmişdir.

Ölkəmizdə islahatların uğurla reallaşdırılması nəticəsində iri həcmdə strateji valyuta

ehtiyatları formalaşmışdır. 2004-cü illə müqayisədə hazırda strateji valyuta ehtiyatları 25 dəfədən çox artaraq təqribən 46 milyard ABŞ dolları təşkil edir ki, bu da dünya iqtisadiyyatında davam edən mənfi trendlərin doğura biləcəyi riskləri azaltmağa və tam aradan qaldırmağa imkan yaratmaqla, gələcək inkişaf hədəflərinə uyğun olaraq iqtisadi inkişafın maliyyələşdirilməsi üçün mühüm amildir.

Son 15 ildə Azərbaycan 3 qitəni və 3 dənizi birləşdirən nəhəng transkontinental neft-qaz və nəqliyyat-kommunikasiya layihələrinə imza atmışdır ki, bununla da ölkəmiz mühüm əhəmiyyət kəsb edən beynəlxalq enerji-kommunikasiya mərkəzinə, strateji nəqliyyat qovşağına çevrilmişdir: Nəhəng transmilli enerji layihələri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, təzəcə açılışını etdiyimiz «Cənub qaz dəhlizi» və onun tərkib hissəsi olan «Şahdəniz 2» layihəsi, Cənubi Qafqaz boru kəməri, TANAP qaz ixrac kəməri, yekunlaşmaqda olan TAP qaz ixrac kəməri, dünyanın enerji xəritəsini dəyişməklə, Avropanın enerji təhlükəsizliyində rol oynayan mühüm layihələrdən biri olmaqla, uzun müddət ölkəmizə milyardlarla valyuta gəlirlərinin gəlməsini təmin etməklə yanaşı, Azərbaycanı yaxın coğrafiya üçün, eləcə də Avropa üçün çox əhəmiyyətli ölkəyə çevirir.

Eyni zamanda istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, yeni Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolu, tikintisi yekunlaşmaqda olan Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti «Şərq-Qərb», «Şimal-Cənub» və «Cənub-Qərb» nəqliyyat dəhlizlərinin Azərbaycanda kəsişməsini və inteqrasiyasını təmin edərək ölkəmizi beynəlxalq nəqliyyat qovşaqlarından, logistika mərkəzlərindən birinə çevirir. Belə qlobal əhəmiyyətli nəhəng layihələrin reallaşdırılması ilə Azərbaycanın Avrasiya geoiqtisadi məkanının bütün istiqamətləri arasında rəqabətqabiliyyətli və effektiv əlaqəni təmin edən «qitələrarası körpü» statusunu qazanması ölkəmizin iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amilə çevrilməklə yanaşı, onun geosiyasi mövqeyini gücləndirəcək, regional təhlükəsizliyə və inkişafa mühüm töhfələr verəcəkdir.

2003-cü illə müqayisədə 2018-ci ildə dövlət büdcəsinin gəlir və xərclərinin təqribən 18 dəfədən çox artması nəticəsində, bu dövr ərzində iri sosial, investisiya və infrastruktur layihələri həyata keçirildi. Bütün bunların nəticəsi olaraq, hazırda Azərbaycan Respublikasının dövlət büdcəsi Cənubi Qafqaz ölkələrinin büdcəsinin 70 faizə qədərini təşkil edir.

İqtisadiyyatın diversifikasiyası və neftdən asılılığın azaldılması istiqamətində ardıcıl və sistemli şəkildə struktur və institusional islahatları özündə ehtiva edən bir sıra sosial-iqtisadi inkişaf proqramları, strateji sənədlərin qəbul edilməsi və reallaşdırılması ölkəmizin sosial-iqtisadi həyatında ciddi dönüş yaratdı. Bu sənədlər sırasında «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə 3 Dövlət Proqramı, «Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli Strategiya», «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı», «2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı», «2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı», «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası, «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı», kənd təsərrüfatında kooperasiyanın, eləcə də ənənəvi kənd təsərrüfatı sahələrinin – üzümçülüyün, pambıqçılığın, çayçılığın, çəltikçiliyin, sitrus meyvəçiliyinin, baramaçılıq və ipəkçiliyin və s. inkişafına dair dövlət proqramları iqtisadiyyatımızın hərtərəfli və sistemli inkişafında, milli iqtisadiyyat sahələrinin xarici faktorların dağıdıcı təsirlərindən qorunmasında müstəsna rol oynamaqla yanaşı, gələcək iqtisadi artım üçün geniş imkanlar və potensial formalaşdırdı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə ölkəmizdə qeyri-neft sektorunun

inkişaf etdirilməsi və onun ixrac potensialının artırılması məqsədilə, istər qeyri-neft sənayesi, istər kənd təsərrüfatı, istərsə də xidmət sektorunda istehsalın və infrastruktur təminatının genişləndirilməsi və modernləşdirilməsi istiqamətində görülən işlər strateji əhəmiyyət kəsb edir.

Bununla yanaşı, ölkə başçısının təşəbbüsü və xüsusi diqqəti sayəsində ənənəvi kənd təsərrüfatı sahələrinin genişləndirilməsi istiqamətində görülən tədbirlər aqrar sektorun ixrac potensialının nəzərə çarpacaq dərəcədə artırılmasına yönəldilmişdir. Ayrı-ayrı ərazilər üzrə istehsal olunan kənd təsərrüfatı məhsullarının əkin coğrafiyasının və istehsal olunan məhsulların strukturunun ölkənin təbii-iqlim və ənənəvi istehsal şəraitinə uyğun inkişaf etdirilməsi, iri fermer təsərrüfatlarının və aqroparkların yaradılması, istehsal kooperativlərinin və assosiasiyalarının təşkil edilməsi bu dövrdə kənd təsərrüfatının inkişafına yeni yanaşma kimi qiymətləndirilə bilər.

Ulu Öndər Heydər Əliyevin və Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilmiş bütün bu islahatlar, regionların sürətli inkişafı Azərbaycanın şimal-qərb qapısı sayılan Balakən rayonundan da yan keçməmişdir. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezidentimiz cənab İlham Əliyevin doğma və qayğı dolu münasibəti nəticəsində rayonumuz sürətlə inkişaf etmişdir. Sevindirici haldır ki, bilavasitə cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün Balakən rayonunda çox önəmli quruculuq tədbirləri həyata keçirilir. Rayonda aparılan işlərin ardıcıllığını və daha da keyfiyyətli icrasını təmin etmək üçün dövlət başçısı tərəfindən Balakənə maliyyə vəsaitlərinin ayrılması barədə imzalanmış sərəncamlar ölkə rəhbərliyinin Balakənə xüsusi diqqətinin əyani təzahürüdür. Prezident cənab İlham Əliyev həm sərəncamlarda nəzərdə tutulan tədbirlərin icrası, həm də rayonda aparılan abadlıq-quruculuq işləri ilə yaxından maraqlanmaqla mühüm obyektlərin təməlqoyma və açılış mərasimlərində şəxsən iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidentinin Balakənə səfərlər etməsi sakinlərdə böyük ruh yüksəkliyinə səbəb olmuş, rayon əhalisini iqtisadiyyatda, sosial-mədəni həyatda daha mühüm uğurlar qazanmağa ruhlandırmışdır. 2006-cı ildən ötən 13 ildə Azərbaycan Prezidenti İlham Əliyev 5 dəfə Balakən rayonunda olmuşdur ki, bu səfərlərin 4-ü bilavasitə verdiyi sərəncamlar əsasında görülən işlərlə şəxsən maraqlanması, rayonun inkişafı ilə əlaqədar tapşırıq və göstərişlər verməsi ilə bağlı olmuşdur. 2006-cı ildə ilk dəfə Balakənə səfər edən cənab Prezident rayonda inşa olunan 187 çarpayılıq xəstəxana kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir. Cənab İlham Əliyev 19 sentyabr 2008-ci il tarixli səfəri zamanı Ulu Öndərin adını daşıyan mədəniyyət və istirahət parkının ərazisində inşa olunan Heydər Əliyev Mərkəzinin, Mərkəzi Rayon Kitabxanasının, yeni avtovağzal binasının, illik istehsal gücü 80 min ton olan yem istehsalı zavodunun istifadəyə verilməsi mərasimlərində iştirak etmiş, Balakən Konserv zavodunun (Balacans MMC) fəaliyyəti ilə tanış olmuşdur. Görülən işlərdən razı qaldığını bildirən dövlət başçısı rayonun sosial-iqtisadi inkişafı ilə bağlı əlavə tədbirlərin görüləcəyini bildirmişdir.

8 iyul 2010-cu ildə 3-cü dəfə rayona səfər edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev idmanın kütləviliyinin artırılması məqsədilə inşa edilmiş Olimpiya İdman Kompleksinin, «Qubek» mehmanxanasının, 187 çarpayılıq mərkəzi rayon xəstəxanasının, Mazımçay sərhəd keçid məntəqəsinin açılışında, «Balakən-1» kiçik su elektrik stansiyasının təməlqoyma mərasimində iştirak etmiş, ictimaiyyət nümayəndələri ilə görüşmüşdür.

Azərbaycan Prezidentinin rayona ardıcıl səfərlərindən biri də 2013-cü il 17 avqust tarixinə təsadüf edir. Bu səfər çərçivəsində ölkə başçısı Mədəniyyət Mərkəzinin, rayonun Katex kəndində inşa edilmiş tutumu 5 min ton olan soyuducu anbar kompleksinin və Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatının yeni inzibati binasının açılış mərasimlərində iştirak etmişdir.

2017-ci ilin avqust ayı balakənlilərin həyatında əlamətdar olmuş və rayon öz tarixi

günlərindən birini yaşamışdır. «Balakən-1» kiçik su elektrik stansiyasının, Bayraq Muzeyinin, və ABAD Mərkəzinin, habelə ölkə başçısının müvafiq sərəncamına əsasən yenidən tikilən, 44 min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Balakən-Sarıbulaq-Qabaqçöl-Xalatala avtomobil yolunun açılışlarında cənab İlham Əliyev şəxsən iştirak etmiş və bütün bu tədbirlərdə rayonun inkişafına, əhalinin yaşayış şəraitinin yaxşılaşdırılmasına bundan sonra da diqqət ayrılacağını bildirmişdir. Ölkəmizdə kiçik ailə biznesinin və təsərrüfatlarının inkişafını təşviq etmək və regional inkişafa töhfə vermək məqsədilə icra olunan Ailə Biznesinə Asan Dəstək (ABAD) Mərkəzinin istifadəyə verilməsi mərasimində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən cənab İlham Əliyev demişdir: «Balakən rayonunda hər dəfə olarkən burada gedən quruculuq, abadlıq işləri məni çox sevindirir. Məni daha çox sevindirən odur ki, Balakən rayonunda yaşayan insanlar Vətənə bağlı insanlardır, vətənpərvər insanlardır».

«ABAD» (Ailə Biznesinə Asan Dəstək) Mərkəzlərinin fəaliyyət göstərməsi və özünüməşğulluq proqramının icra olunması aztəminatlı ailələrin sosial yardımlardan asılılığının aradan qalxmasına və onların sosial fəallığının yüksəlməsinə şərait yaratmışdır. Ailə Biznesinə Asan Dəstək Mərkəzlərinin yaradılmasında əsas məqsəd Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını təmin etmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğunun artırılması sahəsində əlavə imkanlar yaratmaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli «Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində «ABAD» publik hüquqi şəxsin yaradılması haqqında» Fərmanına uyğun olaraq Balakən rayonunda ABAD Mərkəzi yaradılmışdır. Rayonda ABAD Mərkəzinin yaradılması nəticəsində sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına, rəqabətqabiliyyətli ailə təsərrüfatlarının və ixrac yönümlü milli ailə biznesi brendlərinin formalaşdırılmasına əlverişli şərait yaranmışdır. Kiçik ailə biznesinin və təsərrüfatlarının inkişafını təşviq etmək və regional inkişafa töhfə vermək məqsədilə icra olunan «ABAD» layihəsi sosial innovasiya konsepsiyasıdır və Azərbaycanda sosial xidmətlər sahəsində aparılan islahatların nəticəsidir.

Hazırda Balakən 2 saylı regional ABAD Mərkəzi ilə əməkdaşlıq edən ailələrin sayı artırılaraq 22-ə çatdırılmışdır. Bunlardan 12-i qida istehsalı, 10-u isə dekorativ-tətbiqi xalq sənətkarlığı sahəsində fəaliyyət göstərir. Ailə təsərrüfatlarının bazara çıxartdığı məhsullar «ABAD»ın təqdim etdiyi zəruri avadanlıqlarla təchiz edilən mobil konteynerlərdə istehsal edilir. Həyata keçirilən tədbirlər «ABAD»çıların daha çox məhsul istehsal edərək realizə etmə imkanlarını artırır və buna uyğun olaraq onların maddi gəlirlərinin artmasını təmin edir.

Ötən illər ərzində regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarında nəzərdə tutulan tədbirlər, dövlət investisiya layihələri çərçivəsində iş adamları, sahibkarların vəsaitləri, rayonun daxili imkanları hesabına Balakəndə irimiqyaslı tikinti-quruculuq işləri görülmüş, sosial layihələr icra olunmuşdur. Balakən rayonunun hərtərəfli inkişafı, infrastruktur layihələrinin yerinə yetirilməsi və ümumilikdə əhalini narahat edən problemlərin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Rayonun bütün yaşayış məntəqələri 100 faiz qazlaşdırılmışdır. Rayon əhalisinin keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin olunması məqsədilə ardıcıl tədbirlər davam etdirilir. Balakən şəhəri və 53 yaşayış məntəqəsində elektrik verilişi xətləri ümumi uzunluğu 168,0 km olan «SİP» kabellə çəkilmiş və 35 komplekt yeni transformator məntəqəsi quraşdırılaraq istifadəyə verilmişdir.

Bu illər ərzində rayonun bir sıra təşkilatları, dövlət qurumları üçün müasir tələblərə cavab verən 17 inzibati bina, şəhid ailələri və Qarabağ əlilləri üçün 8 və 36 mənzilli olmaqla 2 yaşayış binası və 18 fərdi ev, məcburi köçkünlər üçün 45 mənzilli 1 yaşayış binası

inşa olunmuş, rayon və kənddaxili avtomobil yolları yenidən qurulmuşdur. Ümummilli Lider Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkı yenidən qurularaq Ulu Öndərin möhtəşəm abidəsi ucaldılmışdır.

Dövlət Proqramlarının icra olunduğu dövrdə Balakən rayonu ərazisində sosial infrastruktur obyektlərinin tikilməsi və maddi-texniki bazasının gücləndirilməsinə xüsusi diqqət yetirilmişdir. Ölkə başçısının sərəncamları və Heydər Əliyev Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» proqramına uyğun olaraq ümumtəhsil və məktəbəqədər müəssisələrin inkişafı daim diqqət mərkəzində saxlanılmışdır. Hazırda Balakən rayonunda 49 ümumtəhsil məktəbi və 25 körpələr evi-uşaq bağçası fəaliyyət göstərir. 2005-2018-ci illərdə rayonda ümumilikdə 8600 şagird yerlik 32 məktəb binası yenidən tikilmişdir ki, onlardan 720 yerlik 4 məktəb binası Heydər Əliyev Fondunun vəsaiti hesabına inşa edilmişdir. 2360 şagird yerlik 3 məktəb binası əsaslı təmir olunmuşdur. Birinci Dövlət Proqramının icrasından keçən dövr ərzində yeni tikilmiş 265 yerlik 5 körpələr evi-uşaq bağçasından 100 yerlik 1 körpələr evi-uşaq bağçası Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuşdur. 315 yerlik 5 körpələr evi-uşaq bağçası isə təmir olunmuşdur.

Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə tikilən Yevlax-Zaqatala-Gürcüstan dövlət sərhəddi avtomobil yolunun ümumi uzunluğu 29 km olan Balakən-Mazımçay hissəsinin, 18 min nəfər əhalinin yaşadığı 10 yaşayış məntəqəsini birləşdirən Balakən-Qazbinə-İtitala və 9 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Balakən–Hənifə–Gülüzanbinə avtomobil yolunun, 320 şagird yerlik uşaq incəsənət məktəbinin tikintisində son tamamlama işləri aparılır.

Ölkəmizin bütün regionları kimi, Balakən rayonunda da regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurla icra olunması nəticəsində rayonun sosial-iqtisadi göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşmış, son 5 ildə ümumi məhsul buraxılışı 4,5 faiz, kənd təsərrüfatı məhsulu istehsalı 8,8 faiz artmışdır. 2018-ci ildə rayon iqtisadiyyatına bütün mənbələr hesabına 27,9 milyon manat investisiya yönəldilmiş, 5862 yeni iş yeri açılmışdır ki, onlardan da 3689-u daimi iş yerləridir.

Son illərdə rayonda kənd təsərrüfatının ənənəvi sahələri olan fındıqçılığın, tütünçülüyün, baramaçılığın inkişaf etdirilməsi sahəsində ölkə Prezidentinin verdiyi tapşırıq və tövsiyələr, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin göstərilməsi istiqamətində aparılan məqsədəyönlü işlər və müvafiq tədbirlərin həyata keçirilməsi insanların kənd təsərrüfatına marağını artırmış və eyni zamanda bu sahənin daha da inkişaf etdirilməsinə geniş şərait yaratmışdır.

2018-ci ildə aqrar sektorda işlər davam etdirilmiş, əkin və örüş sahələrindən səmərəli istifadənin təşkil olunması, təyinatına uyğun istifadə edilməyən kənd təsərrüfatı təyinatlı torpaqların əkin dövriyyəsinə qaytarılması və torpağa düzgün aqrotexniki xidmətlərin təşkili rayon iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının bütün sahələrinin inkişafına təkan vermişdir. 2018-ci təsərrüfat ilində 15458,2 ha sahədə payızlıq və yazlıq bitkilər əkilmişdir ki, onun 7040 hektarı yazlıq əkinlərin payına düşmüşdür. 2017-ci ilə nisbətən payızlıq əkinlər 8,7 faiz, yazlıq əkinlər isə 16,3 faiz artmış, təsərrüfatlarda 4779 ton taxıl, 26066 ton qarğıdalı, 823 ton lobya, 21701 ton tərəvəz, 5468 ton kartof, 3566 ton bostan istehsal edilmiş, taxılın orta məhsuldarlıq göstəricisi 27,9 sentnerə çatmışdır. Rayonda heyvandarlığın inkişafı nəticəsində 2018-ci ildə ötən ilə nisbətən ət istehsalı 8,4 faiz, süd istehsalı 1,3 faiz, yun istehsalı 0.4 faiz artmışdır.

Qarğıdalı istehsalı Balakən rayonunun kənd təsərrüfatında aparıcı yerlərdən birini tutur. Təsadüfi deyil ki, son illər Balakən qarğıdalı bitkisinin əkin sahəsinə və istehsal olunan məhsulun həcminə görə respublikada birinci sırada yer alır. 2018-ci ildə rayonun şəxsi və fermer təsərrüfatlarında 7040 hektar sahədə qarğıdalı əkilib və 42994 ton qarğıdalı istehsal edilib. Təsərrüfatçılar tərəfindən rayonda qarğıdalı əkininə maraq ilbəil artır.

Əvvəlki illərdə bu sahədə qazanılmış təcrübə, dövlət tərəfindən kənd təsərrüfatının inkişafı üçün yeni imkanların yaradılması və ən əsası məhsulun daxili bazarda alıcısının olması qazanılmış nailiyyətlərin əsasını təşkil edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş «Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda, çəltik, pambıq əkininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları»na uyğun olaraq cari ildə rayon üzrə 2652 istehsalçıya ümumilikdə 249284,5 manat yardım hesablanmış və kart hesablarına köçürülməklə ödənilmişdir. Azərbaycan Respublikası Prezidentinin «Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında» Sərəncamına uyğun olaraq süni mayalanma yolu ilə alınmış hər buzova görə 100 manat olmaqla ümumilikdə 65700 manat subsidiya hesablanmış və heyvan sahiblərinin hesablarına köçürülmüşdür. Beləliklə, ötən dövr ərzində rayon üzrə bitkiçilik və heyvandarlıq məhsullarının istehsalçılarına pul ifadəsində göstərilən dövlət dəstəyi 328,7 min manat olmuşdur.

Rayon iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının inkişafı sahəsində qarşıya qoyulan vəzifələr uğurla icra olunur və yüksək nailiyyətlər əldə edilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatının inkişafına göstərdiyi diqqət və qayğı, bu istiqamətdə imzaladığı fərman və sərəncamlar, atılmış konkret addımlar Balakəndə ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəlməsinə səbəb olmuş, gələcək inkişafına bünövrə yaratmışdır. Prezident cənab İlham Əliyevin kənd təsərrüfatının ənənəvi sahələrinin inkişaf etdirilməsi, kiçik və orta sahibkarlığın inkişafı, torpaqlardan səmərəli istifadə olunması, əhalinin məşğulluğunun təmin edilməsi ilə bağlı verdiyi tapşırıqlar əhalinin sevincinə səbəb olmuşdur.

Balakən tarixən qərzəkli meyvəçiliyin, o cümlədən fındıqçılığın inkişaf etdirildiyi bir rayondur. Fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi, fındıq pöhrələrinin tədarük edilərək məhsul istehsalçılarına əvəzsiz verilməsi ilə bağlı dövlət başçısının imzaladığı sərəncam və verdiyi tapşırıqlar əhalinin bu sahəyə marağını artırmışdır. Son üç ildə rayondakı mövcud bağlardan 1,7 milyondan çox pöhrə tədarük edilməklə 4278 hektar sahədə fındıq bağları salınmış və bağların ümumi sahəsi 9944 hektara çatdırılmışdır. 2017-ci ildə bağlardan 5,3 min ton fındıq tədarük edilmiş, məhsul satışından 14,5 milyon manatdan çox gəlir götürülmüş, fındıq tədarükünə 2700 nəfərdən artıq işçi cəlb olunmuşdur. 2018-ci ildə bağlardan 6,2 ton fındıq tədarük edilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 900 ton və ya 17,0 faiz çoxdur. Növbəti illərdə daha 700 hektar sahədə fındıq pöhrələri əkilməklə yeni salınan bağların sahəsinin 5 min hektara çatdırılması nəzərdə tutulur.

Tütünçülüyün inkişafına göstərilən diqqət və qayğı sayəsində son illərdə rayonda bu sahədə də xeyli işlər görülmüşdür. 2017-ci ildə 528 hektarda tütün əkilmiş, 317,4 ton quru tütün istehsal olunmuşdur. Nəticədə 1426 nəfər mövsümi işlə təmin olunmuş, tütün istehsalından 650 min manatdan çox gəlir əldə edilmişdir. Keçən təsərrüfat ilində 535 hektar tütün əkilmişdir ki, bunun 475 hektarı «Virciniya», 56 hektarı yerli ənənəvi növ, 4 hektarı isə «Berley» növ tütündür. Təsərrüfatlarda tütün yığımı başa çatmaq üzrədir və fermerlər tərəfindən 643 ton quru tütün istehsal edilərək emal müəssisələrinə təhvil verilmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq olunan «Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017–2021-ci illər üçün Dövlət Proqramı»na əsasən rayonda 2018-ci ildə istifadəyə verilmiş 560 ton istehsal gücü olan, 90 nəfərin işlə təmin olunduğu 60 tütünqurutma kamerasından ibarət tütün emalı məntəqəsi balakənli fermerlərin işini xeyli asanlaşdırmışdır. Onlar becərdikləri yaşıl tütün kütləsini qurutmaq üçün uzun məsafə qət edərək qonşu rayonlarda fəaliyyət göstərən emal məntəqələrinə aparmaq məcburiyyətində qalmamışlar. Bu isə, öz növbəsində, vaxt itkisinin və əlavə xərclərin, məhsulun keyfiyyətinin aşağı düşməsinin qarşısını almışdır. Tütünçülüyün inkişafı nəticə-

sində rayonda 1715 nəfər əhalinin məşğulluğu təmin edilmişdir.

Baramaçılıq da rayonun ənənəvi kənd təsərrüfatı sahələrindən biridir. Baramaçılığın və ipəkçiliyin inkişafına dövlət dəstəyinin artırılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2017-ci il tarixli Sərəncamı ilə qəbul olunmuş «Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı» baramaçılığın yenidən dirçəldilməsini şərtləndirib, kümçülərdə böyük ruh yüksəkliyi yaratmışdır. Nəticədə 2017-ci ildə rayonda 115 istehsalçı tərəfindən ipəkqurdu bəslənilmiş və əvvəlki ilə nisbətən 3,4 dəfə çox, yəni, 11 ton barama istehsal olunaraq təhvil verilmiş, 348 nəfər rayon sakini müvəqqəti işlə təmin olunmuş və barama tədarükündən 43,6 min manat gəlir əldə edilmişdir. Bundan əlavə, 2017-ci ildə istehsal olunan məhsula görə kümçülərə 54,4 min manat məbləğində subsidiya ödənilib. 2018-ci ildə barama istehsalının artırılması sahəsində aparılan məqsədyönlü işlərin nəticəsində 30 tona yaxın barama istehsal edilib və proqnoza 130,3 % əməl olunub. Baramaçılığın yem bazasının yaradılması istiqamətində də işlər davam etdirilib, son iki ildə təsərrüfatlarda 339,5 min ədəd tut tingi əkilib. Onlardan 150 mini Çin Xalq Respublikasından respublikamıza gətirilən tinglərdir.

2017-ci ilin avqustun 4-də Qax rayonunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində regionda, o cümlədən Balakən rayonunda ənənəvi kənd təsərrüfatı sahələrinin-baramaçılığın, tütünçülüyün və fındıqçılığın daha da inkişaf etdirilməsi ilə bağlı tapşırıqlar verilmiş və yeni hədəflər müəyyən olunmuşdur. Tütün əkini sahələrinin genişləndirilməsi, 2021-ci ilə qədər əkin sahələrinin 2 dəfə artırılaraq 6 min hektara çatdırılması, baramaçılığın daha da inkişaf etdirilməsi, barama istehsalının artırılması, bu məqsədlə tut tinglərinin əkilməsi və fındıqçılığın inkişafı məqsədilə yeni fındıq bağlarının salınması, ölkəmizin dünyada fındıq istehsalı sahəsində daha öncül yeri tutması ilə bağlı müvafiq tapşırıqlar vermişdir. Ölkə başçısının barama, tütün və fındıq məhsullarının istehsalı sahəsində verdiyi tapşırıqlar Balakən rayonunda yüksək səviyyədə icra olunur və davamlı olaraq uğurla həyata keçiriləcəkdir.

Balakən rayonu hər zaman respublikamızda meyvəçiliyin inkişaf etdiyi rayonlardan biri kimi tanınıb. Bu gün də dövlət başçımız cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində respublikamızda kənd təsərrüfatının bütün istiqamətlərində, o cümlədən ixrac potensialı yüksək sahələrdən olan meyvəçilikdə dinamik inkişaf vardır. Sahibkarlar və təsərrüfatçılar üçün yaradılan şərait Balakəndə meyvə bağlarının sahəsinin ildən-ilə genişlənməsinə səbəb olub.

Xurma Balakəndə ən çox istehsal olunan və ən bol məhsul verən meyvələrdən biridir. Balakən xurması dadına, növlərinin sayına, keyfiyyətinə, insanların sağlamlığında xüsusi əhəmiyyətinə görə fərqlənir. Bu gün Balakən rayonunda 17705 hektar meyvə bağı vardır ki, onun da 812 hektarı xurma bağlarıdır. 2017-ci ildə rayonda 14,5 min ton, 2018-ci ildə isə 15,1 min ton xurma istehsal olunub. Balakən rayonunda özəl sərmayələr hesabına meyvələrin, o cümlədən xurmanın quru və yarımquru emalı ilə məşğul olan iri müəssisələr yaradılmışdır. 2017-ci ildə meyvələrin emalı sahəsində öndə gedən, avtomatlaşdırılmış texniki avadanlıqla təchiz olunmuş müasir standartlara cavab verən «Balxurma» və «Balacans» Konserv zavodunun nəzdində «Balakan Foods» müəssisələri fəaliyyətə başlamışdır. Bu müəssisələrdə emal üçün meyvələr Balakən rayonunun sakinlərinin meyvə bağlarından yığılır, tam gigiyenik və ekoloji cəhətdən təmiz məhsul istehsal edilir və xurma yeni qablaşdırılmış formada daxili bazarla yanaşı «Product of Azerbaijan» brendi altında Hollandiya, Rusiya, Litva, Ukrayna, Polşa kimi xarici ölkələrə də ixrac olunur. Bu müəssisələrin yaradılmasına ümumilikdə 12,5 milyon manat investisiya qoyulmuş və 200 nəfərə yaxın rayon sakini işlə təmin edilmişdir. Bu isə öz növbəsində əhalinin məşğulluq səviyyəsinin və maddi rifah halının yüksəldilməsinə müsbət təsirini göstərmişdir.

Balakənlilər tütünçülük, baramaçılıq, meyvəçilik sahəsində mövcud olmuş keçmiş ənənələrin bərpa edilməsindən çox məmnundurlar. Kənd təsərrüfatının inkişafında xidmətləri olan insanların, o cümlədən, hər bir rayon sakininin əməyinin ölkə başçısı tərəfindən yüksək qiymətləndirilməsi təsərrüfat sahiblərini, məhsul istehsalçılarını daha da səmərəli işləməyə sövq edir.

Balakəndə meyvəçiliyin inkişafını stimullaşdırmaq, rəqabət qabiliyyətli və ixrac yönümlü yerli məhsulların xarici bazarlarda satışını təşviq etmək, xurma və ondan hazırlanan məhsulları nümayiş etdirmək üçün 2017-ci ildə ilk dəfə Beynəlxalq «Xurma» festivalı keçirilmişdir. 2018-ci ildə ikincisi təşkil edilən festival milli adət-ənənələrimizin, xalqımızın qonaqpərvərliyinin, ölkəmizin turizm imkanlarının tanıdılmasında, həmçinin rayonda istehsal olunan digər kənd təsərrüfatı məhsullarının təbliğində önəmli rol oynamışdır. Azərbaycanda fəaliyyət göstərən bir sıra beynəlxalq təşkilatların, xarici ölkə səfirliklərinin, dövlət qurumlarının nümayəndələrinin və digər qonaqların iştirak etdiyi festival rayonun sosial-iqtisadi inkişafının, Balakən torpağının zənginliyinin, milli mədəniyyətimizin əyani nümayişinə çevrilmiş və rayonun, ümumilikdə bölgənin mədəni həyatına canlanma gətirmişdir.

Qədim odlar diyarının etnoqrafik baxımdan zəngin, ecazkar təbiətə malik rayonlarından biri olan Balakən öz qədim tarixi abidələri, yaşayış məskənləri ilə yanaşı, ərazisində yaşayan milli azlıq və etnik qrupların zənginliyi ilə də seçilir. Milli və dini ayrı-seçkiliyin heç zaman müşahidə edilmədiyi, hər kəsə eyni münasibətin sərgiləndiyi bu məkanda multikultural dəyərlər diqqət çəkəndir. Rayonda azərbaycanlılarla yanaşı 20-yə qədər milli azlığın və azsaylı xalqın nümayəndəsi mehriban qonşuluq şəraitində yaşayır, işləyir, mədəniyyətlərini, adət-ənənələrini qoruyub saxlayırlar. Rayonda bu xalqların bir çox adət-ənənələri əsrlərin süzgəcindən keçərək bir-birinə daha da yaxınlaşmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci ilin avqustun 3-də rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə bu xüsusi diqqət çəkərək qeyd etmişdir: «Azərbaycanda əsrlər boyu yaşayan bir çox xalqların nümayəndələri Balakən rayonunda bir ailə kimi, dostluq, qardaşlıq, mehribanlıq şəraitində yaşayır və bu, bizim böyük sərvətimizdir. Azərbaycanda milli və dini zəmində mövcud olan çox gözəl vəziyyət bir çox ölkələr üçün də maraq doğurur və indi bizim təcrübəmiz öyrənilir. Bizim siyasətimiz isə çox aydındır, açıqdır, Azərbaycan ölkəmizdə yaşayan bütün xalqların doğma vətənidir. Bizim həmrəyliyimiz, milli müxtəlifliyimiz böyük sərvətimizdir».

Balakən rayonunun sosial-iqtisadi inkişafı, əldə etdiyi nailiyyətlər davamlıdır və onun Azərbaycan Respublikasının ümumi inkişafına verdiyi töhfələr ildən-ilə artır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rayona səfərləri zamanı zəhmət adamlarının əməyinə verdiyi qiymət və dəyər hər bir rayon sakininin ürəyində sabaha inamı, yaşamaq həvəsini, qurub-yaratmaq eşqini daha da alovlandırır.

Balakənlilər yüksək qayğıdan ruhlanaraq doğma Azərbaycanımızın inkişafı və çiçəklənməsi, xalqımızın firavanlığı naminə bütün imkanlarını səfərbər edərək bundan sonra da əzmlə çalışacaq, qarşıya qoyulmuş vəzifələri uğurla icra edəcək və yeni nailiyyətlər əldə edəcəklər.

***Açar sözlər:*** *regionlar, sosial-iqtisadi inkişaf, dövlət proqramları, kənd təsərrüfatı, abadlıq-quruculuq*

**Islam Rzayev**
*Head of Balaken District Executive Power*

## BALAKAN DISTRICT DEVELOPS AND MODERNIZES

## SUMMARY

The article deals with the achievements of Balakan region in recent years, as a result of the current historical achievements of Azerbaijan, its glorious place in the world community as an independent state, the well-being of people and the implementation of state programs of socio-economic development of the regions.

Moreover, the article provides information about the President's visits to the region, the decrees signed by him concerning the development of Balakan district as well as the fulfilment of his recommendations and tasks.

The article also includes information about the development of agriculture, the establishment of communal service and other infrastructure facilities as well as new production and processing facilities, the improvement of social infrastructure, including the construction of modern educational, scientific, health, cultural and sport facilities. Statistical indicators are also reflected in the article.

Furthermore, the recent article examines the impact of the rapid development of agrarian sector in Balakan district, the importance of revival of traditional fields of agriculture and its impact on the overall economic factors of the region, the improvement of well-being of people and income growth.

***Key words:*** *Regions, Socio-economic Development, State Programs, Agriculture, Landscaping-Rebuilding*

**Ислам Рзаев**
*Глава Исполнительной власти Сальянского района*

## РАЗВИТИЕ И МОДЕРНИЗАЦИЯ БАЛАКЕНСКОГО РАЙОНА

## РЕЗЮМЕ

В статье рассматриваются достижения Балакенского региона за последние годы, обусловленные нынешним состоянием достижений Азербайджана, как независимого государства, его достойного места в мировом сообществе, благосостояния людей и реализации государственных программ социально-экономического развития регионов.

Наряду с этим, освещаются визиты Президента Азербайджанской Республики в наш район, распоряжения подписанные в связи с развитием Балакенского района, даётся информация о выполнении рекомендаций и поставленных задач. Развитие в регионе сельского хозяйства, коммунальных и других объектов инфраструктуры, создание новых производственных и перерабатывающих предприятий, улучшение социальной инфраструктуры, в том числе строительство объектов образования, науки, здравоохранения, культуры и спорта в соответствии с современными стандартами и статистическими показателями.

Также в статье исследуется влияние быстрого развития аграрного сектора в Балакене, важность возрождения традиционных сельскохозяйственных отраслей и его влияние на общие экономические показатели района, уровень жизни населения и рост доходов.

***Ключевые слова:*** *регионы, социально-экономическое развитие, государственные программы, сельское хозяйство, ремонт и строительство*

# DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ
# SUSTAINABLE DEVELOPMENT MANAGEMENT

UOT 32:93/94

**ELMAN NƏSİROV**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor**
*e-mail: elmannasirov@yahoo.co.uk*

## ON BEŞ İL: SABİT VƏ TƏHLÜKƏSİZ AZƏRBAYCAN

Tarix şəxsiyyətlər yetişdirir. Bu, aksiomdur. İsbata ehtiyacı olmayan digər həqiqət də ondan ibarətdir ki, şəxsiyyətlər də tarix yaradır. Burada qarşılıqlı asılılıq mövcuddur. Bu asılılığın unikallığı ondadır ki, tarix özünün mürəkkəb çağlarını yaşayarkən daha səxavətli olur. Dühalar doğulur. Onlar da tarixə borclu qalmırlar. Missiyaları Xilaskarlıq olur. Tarixin, dövlətin və millətin xilaskarı missiyası. Həmin missiyanı müasir Azərbaycan dövlətçiliyi tarixində ümummilli lider Heydər Əliyev yerinə yetirdi. Zəmanəmizin dühası ilk növbədə Azərbaycanın itirilmiş dövlətçiliyini bərpa etdi, ölkəni permanent xaos vəziyyətindən çıxartdı, vətəndaş müharibəsinin qarşısını aldı, ölkədə milli intibaha nail oldu, bütün sahələrdə dinamik inkişaf tendensiyalarının əsasını qoydu. Azərbaycanda siyasi sabitlik və inkişaf dövrü başlandı. Azərbaycan xalqı dövlətçilik qarşısında müstəsna və misilsiz xidmətlərinə görə Heydər Əliyevə əbədi olaraq minnətdardır. Xüsusilə də ona görə minnətdardır ki, ulu öndərin şah əsəri olan müstəqil Azərbaycan artıq 15 ildir ki, etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Zəmanəmizin dühasından “Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”, – qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son 15 il ərzində özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

Sabitlik, təhlükəsizlik və inkişaf bu mərhələni xarakterizə edən əsas ifadələrdir. Sözün həqiqi mənasında son 15 il ərzində ölkəmizdə sabitlik və əmin-amanlıq hökm sürməkdədir. Azərbaycan bu gün müsəlman dünyasında bir sabitlik adası kimi məşhurdur. Təkcə sabitliyin olmaması kifayətdir ki, dövlət xaos və anarxiyaya yuvarlansın. Qonşu regionlarda və dünyada baş verən qanlı münaqişələr, toqquşmalar, müharibələr, risklər və təhdidlər fonunda ölkəmizdə həyat tərzinə çevrilmiş sabitlik mühiti bizim tarixi nailiyyətimiz və sərvətimizdir. Sabitliyimiz təhlükəsizliyimizi şərtləndirir. Sabitlik və təhlükəsizliyimizin təminatçısı Azərbaycan xalqı və onun hakimiyyətlə olan monolit birliyidir. Səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyidir. Bu birliyin kökündə dayanan əsas amil xalqın Prezident İlham Əliyevə olan inamı, etimadı və etibarı ilə bağlıdır. Prezidentin xalqının sevgisini qazanmasını şərtləndirən əsas amil isə, onun hər hansı beynəlxalq siyasi dairənin və ya böyük dövlətin diqtəsi altında deyil, məhz öz xalqının mənafeyindən irəli gələn bir siyasəti həyata keçirməsidir. Həmin siyasətin adına müstəqil siyasət deyirlər. Bəli, Azərbaycan Prezidenti cənab İlham Əliyev bütün dünyada müstəqil siyasət həyata keçirən lider kimi tanınmış və böyük nüfuz sahibi olmuşdur. Müstəqil siyasət həyata keçirmək olduqca çətin, mürəkkəb, lakin şərəfli fəaliyyətdir. Dövlət başçısının özünün qeyd etdiyi kim, ən asan olan hər hansı bir böyük dövlətin qanadları altına sığınıb öz siyasətini həyata keçirməkdir. Lakin bu siyasət heç bir halda hakimiyyətin mənbəyi olan xalqın milli mənafeyini nəzərə ala bilməz. Prezident İlham

Əliyev üçün hər şeydə ümdə olan məhz milli maraqlardır. Elə bu səbəbdən dövlətimizin rəhbəri İlham Əliyev çətin, lakin şərəfli yolu seçmişdir. Bu yol bizə ulu öndər Heydər Əliyevdən miras qalmışdır. Məhz bu yolla getdikdə xalq öz taleyinin sahibi olur. Məhz bu yol yeganə düzgün yoldur. Məhz bu yolla Prezident İlham Əliyev Azərbaycanı uca zirvələrə aparır.

Bu yolda iqtisadi müstəqillik həlledici amildir. İqtisadi müstəqilliyimiz siyasi müstəqilliyimizi şərtləndirir. Fikrimizi nəzəri mülahizələr, konkret faktlar və arqumentlərlə əsaslandırmağa çalışaq.

Bu, bir həqiqətdir ki, Prezident İlham Əliyev tərəfindən iqtisadiyyatın şaxələndirilməsi, siyasi islahatlar, modernləşmə, enerji sektorunda asılılığın minimuma endirilməsi, təhsil və güclü sosial siyasət ölkəmizin strateji xətti olaraq müəyyən edilmişdir. Optimal məqsəd və vəzifələrin müəyyən edilməsi və onların yerinə yetirilməsi yollarının düzgün seçilməsi nəticəsində Azərbaycan hətta dünya maliyyə-iqtisadi böhranı illərində belə analoqu olmayan iqtisadi inkişaf tempinə malik olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi – şöbə müdiri, professor Əli Həsənovun Prezident İlham Əliyevin 15 illik prezidentlik dövrünün dərin elmi-analitik təhlilini apardığı "On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi" sərlövhəli məqaləsində qeyd olunduğu kimi, son 15 il ərzində ölkəmiz öz müstəqilliyini daha da möhkəmləndirmiş, sosial-iqtisadi, siyasi-diplomatik və hərbi quruculuq sahələrində çox böyük uğurlara imza atmışdır. Görkəmli dövlət xadimi Əli Həsənov təkzibedilməz faktlara və arqumentlərə əsaslanaraq qeyd edir ki, 15 il ərzində ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı 2,8 dəfə, sənaye 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artmışdır. 2004-cü ildə ölkənin valyuta ehtiyatları 1,8 milyard dollar təşkil edirdisə, hal-hazırda bu göstərici 45 milyard dollara çatmışdır. 15 il ərzində ölkə iqtisadiyyatına 250 milyard dollardan artıq sərmayə qoyulmuşdur ki, bunun da təxminən yarısının xarici investisiyalar təşkil edir. Onu da qeyd edək ki, həmin dövrdə Azərbaycana qoyulan sərmayələr bütün müstəqillik illərində yatırılan investisiyaların 93 %-nə bərabərdir [1, s.68].

Cənab İlham Əliyev hələ 15 il əvvəl bəyan etmişdi ki, prezident seçiləcəyi təqdirdə regionların inkişafına prioritet məsələ kimi baxacaqdır. Prezident İlham Əliyevin bu istiqamətdə atdığı mühüm addımlar onun sözü ilə əməlinin eyni gücə malik olduğunu növbəti dəfə təsdiqlədi. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı artıq 3 Dövlət Proqramı qəbul olunmuş və onların uğurlu icrası təmin edilmişdir. İlk növbədə infrastruktur layihələrdən başlanılmışdır. Bu, bir həqiqətdir k, energetika hər bir dövlətin iqtisadiyyatının bel sütunudur. Təsadüfi deyildir ki, cənab İlham Əliyev ölkəmizdə elektrik stansiyalarının mövcud olmasına "dövlətimizin uğurlu və sürətli inkişafının əsas amili kimi" yüksək qiymət vermişdir. 15 il ərzində 30 elektrik stansiyası tikilmişdir. Bu stansiyaların generasiya gücü 2500 meqavata bərabərdir. Məlumat üçün onu da qeyd edək ki, 2004-cü ilədək Azərbaycanda 9 elektrik stansiyası var idi və ölkəmiz elektrikə olan tələbatı əsasən idxal hesabına ödəyirdi. Hazırda isə özümüzü elektrik enerjisi ilə tam təmin edir və onun ixracını həyata keçiririk. Bu məqsədlə həm ölkə ərazisində, həm də 3 qonşu ölkə ilə-Rusiya, İran və Gürcüstanla elektrik xətlərini birləşdirmişik. Gürcüstan vasitəsilə Türkiyəyə də elektrik enerjisinin ixracı imkanları yaranmışdır. Bu il elektrik stansiyalarının generasiya gücünün 2900 meqavata çatdırılması nəzərdə tutulur [2].

2004-cü ildə ölkədə qazlaşdırmanın səviyyəsi cəmisi 51% təşkil edirdisə, hal-hazırda bu göstərici 95%-ə yaxınlaşmışdır. Bütün şəhərlər 100% qazla təmin edilmişdir [2].

15 il əvvəl ölkəmizdə əhalinin fasiləsiz olaraq içməli su ilə təminatı 26% səviyyəsində idi. Hazırda bu göstərici 67%-i ötübdür. Bakıda 81%, bölgələrdə isə analoji göstərici 43%-ə bərabərdir. Bu sahəyə də perspektivdə böyük sərmayə qoyuluşu nəzərdə tutulur [2].

Oğuz-Qəbələ-Bakı kimi nəhəng su kəməri çəkilmiş, Ceyranbatanda dünyanın ən nəhəng sutəmizləyici qurğusu tikilib istifadəyə verilmişdir. Bu gün bu qurğudan çıxmaqla əhaliyə verilən sular keyfiyyətinə görə Dünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verir.

Ölkəmizdə son 15 il ərzində geniş meliorativ tədbirlər həyata keçirilmiş, Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay kimi 4 iri su anbarı tikilmişdir. Son illər ərzində hər il təxminən 100 min hektardan çox suvarılmayan torpaqlara su xətləri, kanallar çəkilmişdir [2].

Yol çəkilişi həm iqtisadi, həm də sosial layihədir. Son 15 il ərzində bu istiqamətdə çox böyük uğurlara imza atılmışdır. Təqribən 15 min km yol çəkilmişdir. 2017-ci ildə şərti olaraq “40 yol” adlandırılan layihə çərçivəsində 500-dən çox kəndin keyfiyyətli yola olan tələbatı ödənilmişdir. 2018-ci ilin sonunadək 2300 km olmaqla minimum 600 kəndin yolunun çəkilərək istifadəyə verilməsi nəzərdə tutulur [1, s.92].

Möhtərəm Prezident İlham Əliyev sosial yönümlü dövlətin formalaşması və inkişafı kursunu həyata keçirir. Bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır. Həmin siyasətin sayəsində ölkəmizdə 1,9 milyondan artıq yeni iş yeri yaradılmışdır ki, onun da 1,4 milyonu daimi iş yerləridir. İşsizlik 5%, yoxsulluq isə 5,4%-ə enmişdir. Maaşlar 5 dəfə, təqaüdlər 8 dəfədən çox artmışdır. Təsadüfi deyildir ki, 2018-ci ilin dövlət büdcəsində də sosial xərclər bütün xərclərin 1/3-ni təşkil etməklə 7,7 milyard manata bərabərdir. Müqayisə üçün qeyd edək ki, bu göstərici 2017-ci illə müqayisədə 8,6% və ya 650 milyon manat artıqdır. Təkcə əmək haqlarının ödənişi üçün büdcədə 4.2 milyard manat nəzərdə tutulmuşdur. Strateji sahələr olan təhsil və səhiyyəyə müvafiq olaraq 2 milyard manat və 741 milyon manat vəsait ayrılmışdır [2].

Son zamanlar cənab Prezidentin təşəbbüsü ilə həyata vəsiqə alan daha bir tədbir də əhali arasında geniş rezonansa səbəb olmuş, böyük məmnunluq hissi doğurmuşdur. Bu, dünya praktikasında rast gəlinməyən əhalinin pulsuz tibbi müayinədən keçirilməsi ilə bağlı aksiyadır. 2017-ci ildə 5 milyondan çox vətəndaş pulsuz tibbi müayinədən keçmişdir. Bu il də bu proses uğurla davam etdirilir.

Ölkəmiz nümunəvi ictimai və sosial xidmət sahələrində innovativ yanaşmaları ilə dünyanın bir çox dövlətlərini qabaqlayır. Həmin nümunəvi xidmətin ən bariz nümunəsi olaraq ölkə başçısı cənab İlham Əliyevin təşəbbüsü isə 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinin təsis edilməsini və onun himayəsi altında fəaliyyət göstərən “ASAN xidmət” mərkəzlərini qeyd edə bilərik. “ASAN xidmət” Azərbaycan məhsulu, Azərbaycan ixtirası və Azərbaycan brendi olaraq beynəlxalq tərəfdaşlar və ekspertlər tərəfindən yüksək maraq və rəğbətlə xarakterizə olunur. ”ASAN” xidmət mərkəzlərinin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulur. “Asan xidmət” mərkəzləri ölkə başçısı cənab İlham Əliyevin təşəbbüsü ilə məhz xalqın rifahı, vətəndaşın rahatlığı üçün yaradılmışdır. Təsadüfi deyildir ki, bu günədək 24 milyondan çox vətəndaşın müraciətinin daxil olduğu “ASAN xidmət”-in fəaliyyətindən vətəndaşların məmnunluq faizi 100%-ə yaxındır [1, s.105]. Bu baxımdan “ASAN xidmət”in Birləşmiş Millətlər Təşkilatının 2015-ci il Dövlət Xidmətləri Mükafatına layiq görülməsi də təsadüfi sayılmamalıdır.

Ölkə əhalisinin ən həssas təbəqəsi olan, doğma yurdlarından didərgin salınmış soydaşlarımıza diqqət və qayğı, onların qarşılaşdıqları problemlərin aradan qaldırılması dövlət siyasətinin prioritetini təşkil edir. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət siyasəti qaçqın və məcburi köçkünlərin həyat səviyyəsini xeyli yüksəltmişdir. Bu qəbildən olan insanlar üçün hər cür infrastruktura malik mənzillər tikilmiş, qəsəbələr salınmış, yeni iş yerləri yaradılmış və onların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində müvafiq dövlət proqramları qəbul olunmuşdur.

Ulu öndər Heydər Əliyevin prezident seçkiləri ərəfəsində ilk görüşünü Biləsuvarda məskunlaşmış məcburi köçkünlərlə keçirməsi, növbəti seçkilərdə ən layiqli namizəd İlham Əliyevin də eyni addımı atması təsadüfi deyildi. Bu görüşlər respublika əhalisinin həssas təbəqəsi olan qaçqın və məcburi köçkünlərə olan diqqət və qayğının təzahürü idi. Həmin vaxt prezidentliyə namizəd İlham Əliyev vəd etmişdi ki, əgər o, prezident seçilərsə, ölkədə bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Prezident seçkilərindən sonra xalqımız verilən vədin layiqincə yerinə yetirilməsinin şahidi oldu. Həmin qayğı təkcə bununla kifayətlənmədi.

Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirən Prezident İlham Əliyev tərəfindən 2003-2017-ci illərdə 55 fərman və sərəncam imzalanmışdır. Bu günə qədər 265 min köçkün yeni evlərlə və mənzillərlə təmin edilmişdir. İşğaldan azad edilmiş Cocuq Mərcanlıda 150 ev tikilmiş, Tərtər rayonunun Şixarx qəsəbəsində isə 1170 köşkün ailəsinə mənzillər təqdim olunmuşdur. 2017-ci ildə 12 min köçkün ailəsi mənzillərlə təmin edilmişdir. Bu il daha 20 min köçkün ailəsinin mənzil sahibi olması nəzərdə tutulur [6].

Bu xeyirxah missiya Prezident İlham Əliyevin ən yaxın məsləkdaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən də uğurla davam etdirilir. Onun Birinci vitse-prezident təyin edildikdən sonra ilk görüşünü məcburi köçkünlərlə keçirməsi də bu qəbildən olan insanlara diqqət və qayğıdan xəbər verir. Məlum olduğu kimi, keçən il martın 9-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirə keçirilmişdi. İlk müşavirənin, məcburi köçkünlərin sosial problemlərinə həsr edilməsi doğma yurdlarından didərgin salınmış soydaşlarımızda ata-baba ocaqlarına qayıdacaqlarına böyük inam yaratmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın qazandığı iqtisadi uğurlar beynəlxalq hesabatlarda da yüksək qiymətləndirilir. Dünya Bankı tərəfindən dərc edilən "Doing Business 2018" hesabatında 8 pillə irəliləyən Azərbaycan 190 ölkə arasında 57-ci mövqeyə yüksəlmişdir. Avropa və Mərkəzi Asiyada daha çox islahat aparan 3 ölkədən biri hesab olunmuşdur. Dünya İqtisadi Forumunun son hesabatında Azərbaycan iqtisadiyyatın rəqabət qabiliyyətinə görə 137 ölkə arasında 35-ci mövqeyə layiq görülmüşdür. Müqayisə üçün qeyd edək ki, analoji parametr üzrə Azərbaycan 2005-ci ildə 69-cu yeri tuturdu. Deməli, son 13 il ərzində mövqeyimiz 34 pillə irəliləmişdir. MDB məkanında isə 2009-cu ildən bəri liderlik mövqeyini qoruyub saxlaya bilmişik [6].

Müqayisə üçün onu da xüsusi olaraq vurğulayaq ki, həmin indikator üzrə "G-20"yə daxil olan İndoneziya 36-cı, Rusiya 38-cı, Hindistan 40-cı, İtaliya 43-cü, Meksika 51-ci, Türkiyə 53-cü, Braziliya 80-ci, Argentina isə 92-ci yerdə bərqərar olmuşdur. Qonşu Gürcüstan 67-ci, işğalçı Ermənistan isə 73-cü mövqeyə enmişdir [6].

İnklyüziv inkişaf indeksinə görə isə Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında (belə ölkələrin sayı 80-dir) 3-cü yeri tutmuşdur. Bizdən öndə olanlar yalnız inkişaf etmiş ölkələrdir. Onların sayı 30-dur. Deməli, bu indeksə görə, dünya miqyasında 33-cü yerdəyik. Müqayisə üçün qeyd edək ki. Ermənistan müvafiq indeksə görə inkişaf etməkdə olan ölkələr arasında 45-ci yerə yuvarlanmışdır.

Dövlətin xarici siyasətinin onun daxili siyasətinin davamı olması da mütləq əksəriyyətin inandığı həqiqətlərdəndir. Məsələyə bu prizmadan yanaşdıqda Prezident İlham Əliyevin 15 il ərzində həyata keçirdiyi uğurlu daxili siyasət nəticə etibarilə Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi mənafeyinə xidmət göstərmişdir. Təkcə daxili siyasətdə deyil, xarici siyasətdə də varislik prinsipi qorunub saxlanılmışdır. Başqa sözlə, Prezidenti İlham Əliyev ümum-

milli lider Heydər Əliyevin müəllifi olduğu çoxvektorlu və balanslı xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq çevik, innovativ və hücum taktikasına əsaslanmaqla davam etdirir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi reallığı ilə bağlıdır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin təbirincə desək, "Prezident İlham Əliyev dünya siyasətinə təsir gücünə malik beynəlxalq aktor statusunda dövlət başçısıdır" [6]. Bu statusuna tam adekvat olaraq İlham Əliyev həm daxili, həm də xarici siyasət kursunun həyata keçirilməsi prosesində dərin zəka, iti fəhm, analitik və innovativ düşüncə tərzi, sistemli analiz qabiliyyəti, prinsipiallıq və qətiyyət nümayiş etdirir. Hər dövlət başçısına nəsib olmayan bu unikal şəxsi keyfiyyətlərin daşıyıcı olan Prezident İlham Əliyev harada çıxış etməsindən və mövqe bildirməsindən asılı olmayaraq, şahmat dili ilə desək, həmişə ağ fiqurlarla oynayır və artıq start vəziyyətində qarşı tərəf və ya tərəflər üzərində ilkin üstünlüyünü təmin etmiş olur. Həmin "siyasi şahmat lövhəsi"ndə siyasət qrossmeysterinin-Prezident İlham Əliyevin rəqibinə "mat" elan etməsi labüddür. Bu zaman problemə sistemli və ardıcıl yanaşma tərzi, səlis və məntiqli ifadə üslubu, auditoriya ilə işləmək və onu ələ almaq qabiliyyəti, səs diapazonundan düzgün istifadə məharəti və nəhayət ecazkar cəzbetmə potensialı və bənzərsiz xarizması ilə dövlət başçısı ən qatı siyasi opponentlərini də "tərksilah" etməyə və onları "siyasi hipnoz" vəziyyətinə salmağa müyəssər ola bilir. Dəfələrlə bu həqiqətin şahidi olmuşuq. Həmin həqiqətlərdən bir neçəsi üzərində dayanaraq yuxarıda səsləndirdiyimiz fikir və mülahizələrimizi əsaslandıraq. Məlum həqiqətdir ki, 2009-cu ildə ABŞ başda olmaqla Qərb dövlətlərinin təzyiqi nəticəsində Türkiyə-Ermənistan sərhədlərinin açılması prosesi kritik mərhələyə daxil olmuşdu. Hətta iş o yerə gəlib çatmışdı ki, Qərb siyasi dairələri həmin il aprelin 6-7-də İstanbul şəhərində "Sivilizasiyalar alyansı" adlanan bir tədbir təşkil edib, orada ABŞ-ın yeni prezidenti Barak Obama və Dövlət katibi Hillari Klintonun Prezident İlham Əliyev ilə görüşünü keçirməyi hədəfləmişdilər. Məqsəd bu görüş çərçivəsində Azərbaycanın dövlət başçısının məlum məsələdə tutduğu güzəştsiz mövqeyinə təsir edib, onu istədikləri istiqamətdə dəyişməkdən ibarət idi. Azərbaycan Prezidenti İlham Əliyev dünyanın fövqəldövlətinin rəhbəri ilə görüşdən unikal diplomatik manevr hesabına faktiki olaraq imtina etdi. Bununla da hələ 23 yaşında ikən SSRİ Xarici İşlər Nazirliyinin məşhur Beynəlxalq Münasibətlər İnstitutunda diplomatiya ixtisasının incəliklərini tədris etməsinin təsadüfi olmadığını bir daha sübut etdi. Bununla da əslində bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan öz miqyası etibarilə böyük dövlət olmasa da belə, lakin sözünün mənası və çəkisi böyükdür. Qətiyyəti, iradəsi böyükdür. Prezidenti və xalqı arasındakı birlik böyükdür. Son nəticədə, böyük dövlətlər arxasında xalqı dayanan Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsini nəzərə almaq məcburiyyətində qaldılar. Türkiyə-Ermənistan sərhədləri bu günə kimi bağlıdır. Onların açılması bağlanmasına səbəb olan amillər aradan qaldırıldıqdan sonra mümkündür. Bu hər iki qardaş dövlətin rəhbərləri olan cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın zamanın sınağından şərəflə çıxmış ortaq mövqeyidir.

Prezident İlham Əliyevin bütün diplomatik addımları milli maraqlardan çıxış etməklə zərgər dəqiqliyi ilə hesablanmışdır və bir çox hallarda siyasi opponentlərin intellekti imkan vermir ki, onlara vaxtında düzgün adekvat reaksiya versinlər. Belə unikal və uzağagedən siyasi məqsəd daşıyan addımlardan birini Prezident İlham Əliyev 2011-ci ilin iyun ayında atdı. Azərbaycan Qoşulmamaq Hərəkatına üzv oldu. Bu xəbəri eşidən kimi radikal siyasi ünsürlər hay-həşir qaldırdılar ki, mövcud

iqtidar Azərbaycanı Avroatlantik məkana inteqrasiya xəttindən uzaqlaşdırır. Bu az qala dövlətçiliyimizin itirilməsinə bərabərdir və s. Sonralar həmin ünsürlər öz aralarında etiraf etmək məcburiyyətində qalacaqlar ki, İlham Əliyevin bu siyasi gedişinin arxasında dayanan əsl mətləbi vaxtında dərk edə bilməyiblər. Mətləb isə ondan ibarət idi ki, mahir diplomat və dövlət xadimi olan İlham Əliyev Azərbaycanın dünyanın nəhəng universal beynəlxalq təşkilatı olan BMT TŞ-ya üzv olmasını əsas siyasi hədəf kimi müəyyən etmişdi. Bu hədəf xarici siyasət fəaliyyətinin çeviklik əmsalının kəskin artımı hesabına reallaşa bilərdi. Bu halda tərkibində 193 dövlətin olduğu BMT-dən sonra sayca ikinci mövqedə dayanan Qoşulmamaq Hərəkatına (QH) (120 dövlət) üzvlük həmin məqsədin reallaşması üçün əlavə və geniş imkanlar pəncərəsi aça bilərdi. Elə belə də oldu. 2011-ci il oktyabrın 24-də BMT TŞ-ya keçirilən seçkilərdə QH üzvləri Azərbaycanın lehinə səs verdilər. Azərbaycan 155 səs ilə iki il müddətinə BMT TŞ-nın qeyri-daimi üzvü seçildi. Azərbaycan Respublikası müstəqilliyinin 20-ci ildönümündə tarixinin növbəti şanlı səhifəsini yazdı. Onun müəllifi böyük intellekt, iradə və qətiyyət sahibi olan Prezident İlham Əliyev idi.

Prezident İlham Əliyevin müəyyən etdiyi müstəqil xarici siyasət kursu dünyada bir-birinə qarşı duran qütblər tərəfindən də müsbət qiymətləndirilir. Azərbaycanın müxtəlif güc mərkəzlərindən bərabər məsafədə mövqe seçməsi, ikitərəfli münasibətlərdə bərabər hüquq, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiq qalması, eyni zamanda ikitərəfli əməkdaşlığın heç bir halda üçüncü tərəfi hədəfə almaması reallığı beynəlxalq aləmdə dövlətimizə və onun rəhbərinə olan loyal münasibətin formalaşmasını şərtləndirən əsas amillərdir. Bu baxımdan 2017-ci ilin fevral ayında Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Valeri Gerasimov ilə ABŞ Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin rəhbəri, general Cozef Danfordun, həmin ilin sentyabr ayında general Valeri Gerasimov ilə NATO Hərbi Komitəsinin rəhbəri, general Peti Pavelin və nəhayət 2018-ci ilin aprel ayında general Gerasimov ilə NATO-nun Avropadakı Birləşmiş Hərbi Qüvvələrinin Baş komandanı Kertis Skaparatti arasında görüşlərin Bakıda keçirilməsi təsadüfi sayılmamalıdır [6].

Məhz iti fəhmi və diplomatik məharəti hesabına Prezident İlham Əliyevin son 15 il ərzində ölkəmizin və eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatı istiqamətində atdığı çoxkombinasiyalı siyasi gedişləri heyranlıq doğurur. Nəzərə alsaq ki, enerji təhlükəsizliyi dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik strategiyasının həlledici elementi statusunda çıxış edir. Bu baxımdan bir sıra nüfuzlu ekspertlərin "müasir dünyanın siyasi mənzərəsi daha hərbi bloklara mənsubiyyətlə yox, enerji ehtiyatlarına malik olub-olmamaq bölgüsü ilə müəyyən ediləcək", – fikri təsadüfi sayılmamalıdır. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft diplomatiyasını uğurla davam etdirən cənab İlham Əliyev müxtəlif obyektiv və subyektiv çətinliklərin öhdəsindən gələrək 2006-cı ilə "Bakı-Tbilisi-Ceyhan, 2007-ci ildə "Bakı-Tbilisi-Ərzurum" kimi nəhəng neft və qaz marşrutlarının reallaşmasına nail oldu. Dövlət başçısının qeyd etdiyi kimi, "neft kəmərlərinin, xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi də tarixi hadisə idi. Təkcə ona görə yox ki, ilk dəfə olaraq Xəzər dənizinin nefti Aralıq dənizinin bazarlarına çıxarılırdı. Eyni zamanda, ona görə ki, bu kəmər yeni bir yol, yeni bir dəhliz açdı". Söhbət ilk növbədə "Cənub" qaz dəhlizindən gedir. Onun yaradılması istiqamətində ilk addım olaraq 2011-ci ildə Avropa Komissiyası ilə Azərbaycan arasında Strateji əməkdaşlıq və enerji sahəsində Anlaşma Memorandumu, növbəti ildə isə TANAP-ın çəkilişinə dair Azərbaycan və Türkiyə arasında tarixi saziş imzalandı. Bu prosesdə ən əsas həlqələrdan biri sərmayə qoyuluşu ilə bağlı idi. 2013-cü ildə bu məsələ də öz müsbət həllini tapdı. "Şahdəniz-2" layihəsinə investisiya qoyuluşuna dair qərar qəbul edildi. 2014-cü ildə isə "Cənub" qaz dəhlizinin Bakıda təməlqoyma mərasimi keçirildi. 2015-ci ildə Qarsda

TANAP-ın təməlqoyma mərasimi oldu. 2016-cı ildə analoji addım TAP layihəsi ilə bağlı atıldı. Nəhayət, 2018-ci il mayın 29-da “Cənub” qaz dəhlizinin, iyunun 12-də isə TANAP-ın rəsmi açılış mərasimləri oldu. TAP üzrə işlər yekun mərhələyə daxil olmuşdur [1, s.76].

Bir sözlə, XXI əsrin meqalayihəsi olan və dəyəri 40 milyard dollar səviyyəsində müəyyən edilən “Cənub” qaz dəhlizinin reallaşdırılması istiqamətində həlledici addımlar atılmışdır. “Şahdəniz” yatağından hasil edilən qaz 3500 kilometr uzunluğunda 3 qaz kəməri vasitəsilə Bakını İtaliyanın limanları ilə birləşdirəcəkdir.

Prezident İlham Əliyev “Cənub” qaz dəhlizi layihəsinin uğurunu təmin edən səbəblərdən bəhs edərkən xüsusi olaraq aşağıdakı amilləri ön plana çəkmişdir: “Birincisi, bu layihə enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və azad rəqabəti özündə ehtiva edir. İkincisi, bu layihədə istehsalçı, istehlakçı və tranzit dövlətlər arasında balans yaratmağa nail olmuşuq. Yəni burada uduzan tərəf yoxdur. Üçüncüsü, siyasət və enerji bir-birindən ayrı olmalıdır. Enerji siyasi alət kimi istifadə edilməməlidir. Hesab edirəm ki, “Cənub” qaz dəhlizi sazişində göstərdiyimiz nümunə nümayiş etdirir ki, enerji ilə siyasət ayrılanda uğur əldə edilə bilər.”

2017-ci il sentyabrın 14-də beynəlxalq ictimaiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində yeni və tarixi bir səhifə yazdığına şahidlik etdi. Həmin gün Azərbaycanın unikal enerji strategiyasının memarı olan Heydər Əliyevin adını daşıyan mərkəzdə “Azəri”, “Çıraq” və “Günəşli” yataqları üzrə yeni sazişin imzalanması mərasimi oldu. İmzalanmış kontraktın ölkəmiz üçün çox böyük əhəmiyyət daşıdığını vurğulayan Prezident İlham Əliyev onun bir sıra əsas parametrlərinə diqqəti cəlb etmişdir: “Azəri-Çıraq-Günəşli” neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadılır. Yeni imzalanacaq kontrakt Azərbaycan üçün daha da əlverişlidir, baxmayaraq ki, 1994-cü ildə imzalanmış kontrakt da bizim maraqlarımızı tam təmin edirdi. Bu dəfə isə daha da yaxşı şərtlərlə kontrakt imzalanır. Kontrakt imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəniləcək; SOCAR-ın “AzAÇG” şirkəti podratçı kimi kontraktın icrasında iştirak edəcək; SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılır və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək. Bunlar əsas şərtlərdir. Əlbəttə ki, kontraktın bir çox müddəaları var. Əsas şərtlər artıq göstərir ki, Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarımızın genişləndirilməsi üçün bu kontraktın çox böyük əhəmiyyəti var” [5].

Ölkəmizin uğurlarını gözü götürməyən, qarayaxma və iftiralarla dövlətimizin müsbət beynəlxalq imicinə kölgə salmaq istəyən ermənipərəst qüvvələr və onlarla əlbir olan bəzi siyasi dairələr iddialar irəli sürürdülər ki, Azərbaycanın nefti tükənmişdir və xarici neft şirkətləri tezliklə öz ölkələrinə qayıdacaqlar. Cənab Prezidentin çıxışında səslənən təkzibedilməz arqumentlər və yeni kontraktın imzalanması faktı əleyhdarlarımızın yuxusuna haram qatmış oldu.

Öz mənşəyi və mahiyyəti etibarilə qaragüruhçu olan bu qüvvələr Prezident İlham Əliyevin xarici siyasətdə prioritet kimi müəyyən etdiyi və uğurla həyata keçirilən ikitərəfli münasibətlər formatının doğurduğu nəticələrdən vahimələnirlər. Məhz bu siyasətin sayəsində Azərbaycanın təşəbbüsü ilə üçtərəfli əməkdaşlıq formatları formalaşmış (Azərbaycan-Gürcüstan-Türkiyə; Azərbaycan-Gürcüstan-İran; Azərbaycan-İran-Türkiyə; Azərbaycan-İran-Rusiya) bu isə öz növbəsində tərəflərə böyük iqtisadi və siyasi dividentlər gətirməkdədir. 2018-ci ildə tarixdə ilk dəfə olaraq Bakıda Azərbaycan, Gürcüstan, Türkiyə və İran xarici işlər nazirlərinin 1-ci görüşü keçirilmişdir. Prezident İlham Əliyev bu görüşə tarixi hadisə kimi yüksək dəyər vermişdir [4].

Bütün bu çoxtərəfli formatların təşəbbüskarı Prezident İlham Əliyev olmuşdur. Məhz bu tarixi təşəbbüslərin sayəsində bölgədə sabitlik möhkəmlənir, əməkdaşlıq mühiti güclənir və iştirakçı dövlətlərin iqtisadi maraqları təmin edilir.

Son 15 il ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə regionda çox böyük nəqliyyat layihələri icra olunmaqdadır. Şərq-Qərb nəqliyyat marşrutu artıq reallaşıbdır. 2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasından sonra artıq bu marşrut fəaliyyətdədir. Hazırda Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində intensiv işlər görülməkdədir. Azərbaycan ərazisində bu dəhlizlə bağlı bütün işlər yerinə yetirilmişdir. Bu iki önəmli nəqliyyat dəhlizi yeni təşəbbüslərlə çıxış etmək üçün də imkanlar yaratmışdır. Belə ki, Bakıda Azərbaycan, Gürcüstan, Türkiyə və İranın xarici işlər nazirlərinin dördtərəfli formatda görüşü zamanı Cənub-Qərb nəqliyyat marşrutu ətrafında da məhsuldar müzakirələr aparılmışdır. Bu təşəbbüsün də müəllifi Prezident İlham Əliyev olmuşdur [1, s.86].

Prezident İlham Əliyevin uzaqgörən müdrik siyasəti sayəsində Azərbaycan son 15 il ərzində təkcə dünyanın enerji və nəqliyyat xəritəsini yenidən tərtib etmir, eyni zamanda dünyada ümumbəşəri dəyərlərin qorunması və təbliği istiqamətində fantastik nailiyyətlərə imza atır. Dünyada sivilizasiyalararası dialoq sahəsində ciddi problemlərin yaşanması, bu fonda konfliktlərin artması tendensiyasının müşayiət olunması, xüsusilə də islamofobiya kimi təhlükəli meyllərin bir sıra dövlətlərin və digər subyektlərin siyasətində özünə geniş yer alması reallığında Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi faktı da qlobal əhəmiyyət kəsb edən məsələdir. Bu məsələlərin həlli istiqamətində Azərbaycanın təcrübəsi digər ölkələr üçün örnək ola bilər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi "Azərbaycanda dini azadlıq vardır.. Bu da ölkəmizin ən böyük varlığıdır. Biz çoxmillətli və çoxsaylı dinlərin olduğu cəmiyyətik. Əsrlər boyu müxtəlif millətlərin və dinlərin nümayəndələri Azərbaycanda sülh şəraitində layiqli həyat sürüblər... Bir sözlə, multikulturalizm üstünlüklərdən, böyük varlıqlardan biridir. Əfsuslar ki, dünyanın müxtəlif yerlərində, qonşu bölgələrdə, Orta Şərqdə və Avropada müəyyən narahatlıq yaradan meyllərin şahidi oluruq. Təcridolunma, ayırma və bəzən ədavət meyllərini görürük. Biz bu məsələləri həll etməliyik. Çünki dünyaya töhfə vermək, daha yaxşı dünyanı, hamı üçün müvafiq olan dünyanı qurmaq üçün yaşayırıq. İstəyirik ki, bütün xalqların, dinlərin nümayəndələri yaşayış tərzindən asılı olmayaraq, layiqli şəraitdə dinc həyat sürsünlər. Dini hisslərə əsaslanan gərginlik halları bütün ölkələr, o cümlədən çoxmillətli cəmiyyəti olan ölkələr üçün çox təhlükəlidir."

"Multikulturalizm bizim adət-ənənəmizdir. Multikulturalizm – dövlət siyasəti və ictimai sifarişdir. Multikulturalizm bizim həyat tərzimizdir", - deyən Prezident İlham Əliyevin təşəbbüsü ilə bu il 10 illiyini qeyd etdiyimiz "Bakı prosesi"nin əsası qoyulmuşdur. Bu təşəbbüs BMT çərçivəsində yüksək dəyərləndirilmişdir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan paytaxtı iki illik fasilə ilə iki müxtəlif mədəniyyətin daşıyıcılarının böyük idman bayramlarına ev sahibliyi etmişdir. 2015-ci ildə tarixdə ilk dəfə olaraq I Avropa Oyunlarını keçirən Azərbaycan Respublikası, 2017-cildə IV İslam Həmrəylik oyunlarına ev sahibliyi etməklə mədəniyyətlər arasında unikal körpü rolunu oynamış və idman vasitəsilə sivilizasiyalararası barışıq və dialoqa böyük töhfə vermişdir. Eyni məntiqdən qaynaqlanaraq Prezident İlham Əliyev 2017-ci ili "İslam Həmrəylik İli" elan etmişdir. Cənab İlham Əliyevin islam həmrəyliyinə xidmət edən bu və digər təşəbbüsləri müsəlman dünyasında geniş rəğbət hissi ilə qarşılanmış və böyük siyasi rezonans doğurmuşdur.

Heç şübhəsiz, əgər Ermənistanın Azərbaycana təcavüzü və etnik təmizləmə siyasəti olmasaydı Prezident İlham Əliyevin rəhbərliyi altında son 15 ildə həm daxili, həm də xarici siyasətdə qazandığımız uğurların miqyası daha da böyük olardı. Münaqişənin hələ də həllini tapa bilməməsi reallığına baxmayaraq, Azərbaycanın son 15 il ərzində konfliktin həlli prosesində siyasi, diplomatik və hərbi üstünlüyünü təmin edilmişdir. Əvvəla, Ermənistanın bütün çoxsaylı cəhdlərinə baxmayaraq, heç bir

beynəlxalq subyekt, o cümlədən rəsmi İrəvanın özü də separatçı rejimin müstəqilliyin tanımamışdır. Bu, Azərbaycanın mühüm siyasi üstünlüyüdür. İkincisi, Ermənistanın separatçı rejimdə keçirdiyi son qondarma referendumun nəticələrini heç bir dünya dövləti və ya beynəlxalq təşkilat qəbul etməmişdir. Bu, əslində beynəlxalq birliyin Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul etməsinin bariz nümunəsidir. Bu, eyni zamanda Azərbaycanın diplomatik üstünlüyü deməkdir. Nəhayət, 2016-cı ildə Ermənistan silahlı qüvvələrinin aprel avantürası onların məğlubedilməzliyi haqqında mifin bir neçə gün ərzində Azərbaycanın şanlı ordusunun əks həmləsi ilə darmadağın edilməsinə gətirib çıxartdı. Bu qələbə Azərbaycan ordusunun hərbi texniki təchizatı və döyüş ruhunun ən yüksək səviyyədə olduğunu bütün dünyaya nümayiş etdirdi. Deməli, münaqişənin tənzimlənməsi prosesində Azərbaycanın hərbi üstünlüyü də təmin edilmişdir. Bu, bir həqiqətdir ki, Azərbaycan ordusu dünyada ön güclü 50 ordu sırasındadır. Azərbaycan paytaxtında keçirilmiş son iki hərbi parad bu həqiqəti növbəti dəfə təsdiqlədi. Azərbaycanın milli hərbi sənaye kompleksi formalaşmışdır. Son illər ərzində ölkəmizdə 20 hərbi zavod tikilib istifadəyə verilmişdir. Bu zavodlarda 1200 adda hərbi təyinatlı məhsullar istehsla edilir. Bu məhsullar dünyanın müxtəlif ölkələrinə, o cümlədən Azərbaycanda keçirilən müdafiə sənayesi sərgilərində təqdim olunur və müsbət reaksiyalar doğurmaqdadır.

Ali Baş Komandan İlham Əliyevin təcavüzkar Ermənistan dövlətinə qarşı son 15 ildə tətbiq etdiyi dərinləşməkdə olan iqtisadi vı nəqliyyat blokadası siyasəti, başqa sözlə, təcavüzkar ölkəyə münasibətdə istifadə olunan “taqətdənsalma taktikası” öz real nəticələrini verməkdədir. Ən mühüm nəticələrdən biri və bəlkə də, birincisi Ermənistanda inqilabın baş verməsi və 20 ildir ki, bu ölkədə bərqərar olmuş xunta rejiminə son qoyulmasıdır. Azərbaycan Prezidenti İlham Əliyev 15 il ərzində ən yüksək beynəlxalq kürsülərdən bəyan edirdi ki, Ermənistanda orta əsr təfəkkürlü, qaniçən, korrupsioner, diktatura rejimi mövcuddur və ona rəhbərlik edən şəxsin – Serj Sarkisyanın əlləri Azərbaycan xalqının qanına batmışdır. O və ətrafındakı əshabələri bəşəriyyətə qarşı hərbi cinayət-Xocalı soyqırımı törətmişlər. Bu səbəbdən də onlar hərbi canidirlər. Cənab Prezident onu da hər zaman xüsusi olaraq vurğulamışdır ki, bu rejimdən ən çox ziyan çəkən elə erməni xalqıdır. Erməni xalqı bu cinayətkar rejimin girovuna çevrilmişdir. Nə qədər ki, bu xunta rejimi Azərbaycan torpaqlarından çəkilməyib onun heç bir perspektivi yoxdur. Tarix Prezident İlham Əliyevin bu müdrik fikirlərinin 100 faiz dəqiqliyinə şahidlik etdi. Cənab İlham Əliyevin Ermənistanda Serj Sarkisyanın formalaşdırdığı xunta rejimi haqqında söylədiklərini erməni xalqı inqilabi hərəkatlarda təkrarlamaqla təsdiqləmiş oldu. Xunta rejimi tarixin qaranlıq arxivinə atıldı. İnqilabi proseslərin dalğasında hakimiyyətə gəlmiş Nikol Paşinyan hökuməti münaqişənin tənzimlənməsi istiqamətində sələflərinin buraxdığı kobud səhvlərdən nəticə çıxarmalı və konstruktiv davranış tərzi nümayiş etdirməlidir. Bilməlidir ki, Ermənistanda bütüm siyasi və iqtisadi fəlakətlərin əsasında dayanan əsas amil işğalçıllıq siyasətidir. Onun davamı yeni Ermənistan hökumətini də Sarkisyanın sığınacaq tapdığı tarixin çirkli zibilxanasına yuvarlaya bilər. Əksi isə tunelin sonu və işığın bərq vurması deməkdir. Seçim üçün tarix Ermənistana heç də intəhasız vaxt ayrılmayıbdır.

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi altında son 15 il ərzində Azərbaycan Milli intibahın yeni mərhələsini yaşamaqdadır. Azərbaycan uca zirvələr səltənətinə yüksəlmişdir. Bu reallıq mənəvi məmnunluq və gələcəyə daha inamla baxmaq hissi doğursa da, heç bir halda arxayınlaşmağa əsas vermir. Azərbaycanın son 15 il ərzində dinamik inkişafı və yüksəlişini təqdir edən qüvvələr olduğu kimi, bu tərəqqidən narahat olan, ölkəmizdəki siyasi sabitliyi heç bir vəchlə həzm edə bilməyən, xalqla hakimiyyətin həmrəyliyindən təlaş keçirən elə bu səbəbdən də “yuxusuna haram qatılan” qatı əleyhdarlarımız da mövcuddur. Onlar hər zaman səfərbər olmağa və bu

inkişafın qarşısına sədd çəkməyə hazırdırlar. Bu vəziyyətin təhlili 2 vacib nəticə çıxarmağa əsas verir: a) bütün sahələrdə qazandığımız uğurlara baxmayaraq, heç bir halda arxayınlaşmaq olmaz; b) əleyhdarlarımız və düşmənlərimiz ayıqdır və ölkəmizə münasibətdə "axilles dabanı" axtarışındadır.

Dövlət iki halda beynəlxalq güclərin təzyiq obyektinə çevrilir. Birinci hal dövlət zəif olanda baş verir. Həmin dövlətin ilk növbədə ərazi bütövlüyü və suverenliyi böyük təhlükə altına düşür Keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan analoji vəziyyəti yaşamışdır. İkinci hal isə, nə qədər paradoksal səslənsə də, dövlət güclü olanda labüdləşir. Azərbaycan bütün parametrlərə görə regional gücə-liderə çevrilmişdir. Deməli, bu reallığı qəbul edə bilməyən beynəlxalq qüvvələrin və onların miskin əlaltısına çevrilmiş daxili qaragüruhçu seqmentin naqis planlarını alt-üst etmək üçün indi daha güclü milli həmrəyliyə sahib olmalıyıq. Son 15 il ərzində ölkəmizdə siyasi sabitlik və innovativ inkişafın, davamlı iqtisadi yüksəlişin, nizami və güclü ordu quruculuğu prosesinin, demokratik islahatların, müasirləşmənin, uğurlu xarici siyasətin və pozulmuş ərazi bütövlüyümüzün bərpası naminə fədakar mübarizənin təşəbbüskarı və təminatçısı olan Prezident İlham Əliyev ətrafında daha sıx və monolit birlik nümayiş etdirməliyik. Bu zamanın çağırışıdır!

**Ədəbiyyat:**


1. Həsənov Ə.M. İlham Əliyev-On beş illik prezidentlik dövrünün uğur salnaməsi. (2003-2018).Bakı, "Zərdabi LTD", 2018, 184 s.
2. Regionların 2014-2018-ci illər sosial-iqtisadi inkişafına dair III Dövlət Proqramının icrasının 4-cü ilinin yekunlarına həsr olunmuş konfrans keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev konfransda iştirak edib./ https://azertag.az/xeber/Regionlarin_2014_2018_ci_illerde_sosial_iqtisadi_inkisafi_Dovlet_Proqraminin_icrasinin_dorduncu_ilinin_yekunlarina_hesr_olunan_konfrans_kechirilib__Azerbaycan_Prezidenti_Ilham_Aliyev_konfransda_istirak_edib_YENILANIB_4_VIDEO-1132142
3. Azərbaycanın "ASAN xidmət" təcrübəsi Avropaya model nümunə kimi təqdim olunub /http://www.asan.gov.az/az/media/news/azerbaycanin-asan-xidmet-tecruebesi-avropaya-model-nuemune-kimi-teqdim-olunub
4. İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib. 19 mart 2018-ci il / https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Novruz_bayrami_munasibetile_umumxalq_senliyinde_istirak_edib_YENILANIB_3_VIDEO-1146144
5. Azərbaycanın maraqlarını tam təmin edən və daha da yaxşı şərtlərlə imzalanan "Yeni Əsrin Müqaviləsi" / https://azertag.az/xeber/Azerbaycanin_maraqlarini_tam_temin_eden_ve_daha_da_yaxsi_sertlerle_imzalanan_Yeni_Asrin_Muqavilesi-1095207
6. Nəsirov E.X. On beş il sabit və təhlükəsiz Azərbaycan / https://azertag.az/xeber/On_bes_il_sabit_ve_tehlukesiz_Azerbaycan-1204370


***Acar sözlər:*** *Azərbaycan, İlham Əliyev, prezident, sabitlik, təhlükəsizlik, dinamik inkişaf*

**Elman Nasirov**
*Deputy of the Milli Majlis of the Republic of Azerbaijan*
*Head of Institute of Political Researches,*
*the Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*PhD in Political Science, Professor*

## 15 YEARS: STABLE AND SAFE AZERBAIJAN

**SUMMARY**

The guarantor of stability and security in our country is the people of Azerbaijan and its monolithic unity with power. It is mobilized society and civil solidarity.

The key factor in the foundation of this union is the trust, confidence and faith of the people in President Ilham Aliyev. That is why Azerbaijan is known for its dynamic development in the world. In the context of the above-mentioned realities, the article analyzed development path of Azerbaijan under the leadership of President Ilham Aliyev over the last 15 years.

Achievements in the political and diplomatic, trade-economic and military-security fields have been extended to a wide range of scientific analysis. At the same time many factors have been revealed which condition these achievements.

***Key words:*** *Azerbaijan, Ilham Aliyev, President, Stability, Security, Dynamic Development*

**Эльман Насиров**
*Депутат Милли Меджлиса Азербайджанской Республики,*
*Директор Института Политических Исследований*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор политических наук, профессор*

## ПЯТНАДЦАТЬ ЛЕТ: СТАБИЛЬНЫЙ И БЕЗОПАСНЫЙ АЗЕРБАЙДЖАН

Гарантом стабильности и безопасности в нашей стране является азербайджанский народ и его монолитная власть. Мобилизованное общество и гражданская солидарность. Ключевым фактором в создании этого союза является вера и доверие народа к Президенту Ильхаму Алиеву. Именно по этой причине Азербайджан известен своим динамичным развитием в мире.

В контексте вышеупомянутых реалий в статье анализировался путь развития Азербайджана под руководством президента Ильхама Алиева за последние 15 лет. Успехи как в политической, так и в дипломатической, торгово-экономической и военной областях были исследованы с широким применением научных методов анализа. В то же время было выявлено много факторов, которые привели к этим успехам.

***Ключевые слова:*** *Азербайджан, Ильхам Алиев, президент, стабильность, безопасность, динамичное развитие*

# İQTİSADİ NƏZƏRİYYƏ
# ECONOMIC THEORY

UOT 334.021:35

**РУФАТ КУЛИЕВ**
**Депутат Милли Меджлиса Азербайджанской Республики,**
**заведующий кафедрой Азербайджанского Технического Университета,**
**доктор экономических наук, профессор**

## УПРАВЛЕНИЕ ГОСУДАРСТВЕННЫМ ДОЛГОМ КАК ИНСТРУМЕНТ РЕГУЛИРОВАНИЯ ЭКОНОМИКИ

*Долги похожи на всякую другую западню:*
*попасть в них весьма легко, но выбраться довольно трудно.*

*Джордж Бернард Шоу,*
*британский писатель,*
*лауреат Нобелевской премии в области литературы*

В течение последних десятилетий в международных экономических отношениях, в оценках рейтинговых агентств, выступлениях политиков и экспертов часто звучит термин – «государственный долг». Государственный долг страны представляет собой — совокупность прямых обязательств правительства перед остальной экономикой и внешним миром. Обеспечением государственного долга выступает всё имущество, составляющее государственную казну.

Сегодня весь мир живет в долг. Даже будущие поколения, еще не родившись, уже являются потенциальными должниками. Это объясняется тем, что для развития национальных экономик большинство государств уже не способно опираться на собственные финансовые ресурсы. Государствам не хватает собственных ресурсов для покрытия дефицита государственного бюджета, проведения социально-экономических преобразований, осуществления инвестиционных вложений, в случае сокращения налогов в целях стимулирования экономики, циклических спадов экономики, увеличения государственных расходов в военное время или в периоды других социальных конфликтов и др.

Наличие государственного долга обуславливает формирование правительствами стран долговой политики: кто-то является больше кредитором, чем заемщиком, кто-то наоборот.

Согласно докладу Института международных финансов (IIF) в 2016 году общий мировой долг стран достиг уровня 215 триллионов долларов США, что составляет 325% мирового ВВП. Мировой долг, за последние 10 лет, увеличился на 70 трлн. долларов и достиг беспрецедентного уровня. Из мирового долга на долю развитых стран приходится 160 трлн. долларов, то есть большая часть долга, которая почти в 4 раза превышает (390%) их совокупный ВВП (1).

Страны, столкнувшиеся с экономическими трудностями стремятся получить финансовые ресурсы в долг. Когда возникает вопрос долга, то он должен быть чем-то обеспечен. Когда инвестор покупает облигации какой-то корпорации, он покупает в ожидании будущих прибылей корпорации, из которых она сможет обслуживать долг. Если мы даем в долг соседу, мы задумываемся, как он будет зарабатывать, чтобы с нами расплатиться. Так же и кредиторы того или иного государства

должны отдавать себе отчет в том, что правительство страны сможет погашать долг, сводя бюджет с излишками, и таким образом дисконтированная сумма будущих профицитов бюджета должна являться достаточным обеспечением государственного долга.

Страна, имеющая государственный долг, который не представляется возможным погасить, может решить данную проблему двумя способами: либо посредством дефолта или реструктуризации, которая означает также технический дефолт, либо посредством гиперинфляции, которая съедает реальную стоимость долга и тем самым устраняет проблему.

Если классическая школа политической экономии рассматривала государственный долг как временное явление, который должен быть непременно погашен, то со времен Дж. Кейнса государственный долг стал рассматриваться как необходимый элемент эффективной экономической политики, направленной на поддержание достаточного уровня совокупного спроса, обуславливающего уровни производства и занятости. Государственный долг перестал восприниматься как зло, его стали рассматривать как элемент здравой экономической политики. То есть, государство может и должно брать в долг на приемлемых и разумных условиях. Оптимальный для страны долг является реальным свидетельством доверия к государству со стороны кредиторов.

Государственный долг может быть как внутренним (задолженность по выпущенным и непогашенным государственным ссудам) так и внешним (финансовые обязательства страны иностранным кредиторам).

К внутреннему государственному долгу относятся внутренние займы или иные кредитные обязательства перед кредиторами, которые являются резидентами государства. Внутренний долг позволяет получить процент за кредит резидентам страны, и уберегает государство от международных рисков.

В настоящее время, кредиторами мирового уровня являются Международный Валютный Фонд, Всемирный Банк, другие международные финансовые организации, экономически стабильные страны и т.п. Вместе с тем, международные финансовые организации при выдаче кредита ставят перед страной определенные условия, связанные с реформированием экономики. В противном случае кредит не выдается. В случае, когда кредитором является то или иное государство, то взамен на кредит требуется от страны лояльность в том или ином вопросе, политические уступки и т.д.

Практически в эффективно развивающейся, стабильной экономике внешний государственный долг не является ключевой проблемой развития и жизнедеятельности общества. Как правило, внешний государственный долг возрастает на этапах активного экономического роста, имея в виду, что развивающаяся экономика, модернизируемое производство требуют определенных вложений, в том числе государственных.

По данным на 2017 год, список стран с наибольшим размером внешнего государственного долга возглавляют США (16,9 трлн. долл.), Великобритания (9,8 трлн. долл.) и Германия (5,6 трлн. долл.). По уровню государственного долга по отношению к ВВП лидирует Япония (250%), Ливан (148%) и Италия (131%). У США этот показатель составляет 107%.

Что же думают об имеющем место государственном долге сами американцы. Интерес представляют предостережения отцов-основателей Соединенных Штатов о долгах правительства. Так, третий президент США Томас Джефферсон однажды сказал, что если бы он мог внести ещё одну поправку в конституцию Соединённых Штатов, он бы наложил полный запрет на любые заимствования федерального правительства…

Сенатор-республиканец Ренд Пол, трижды баллотировавшийся на пост президента

США, считает, что Вашингтон может столкнуться с экономическим кризисом, если правительство не извлечёт уроков из истории с греческим долговым кризисом. «Америка никогда не приведёт в порядок свои финансовые дела, пока мы не откажемся от своей внешней политики и не перестанем тратить триллионы на ненужные и неконституционные войны». Ренд Пол отмечает и другие непомерные траты. По его мнению, Соединённые Штаты страдают от чрезмерного социального обеспечения и корпоративных льгот.

Одним из предвыборных обещаний нынешнего президента США Дональда Трампа была ликвидация государственного долга США. Президент настаивал, что его экономические меры позволят решить эту проблему, однако за год президентства Трампа госдолг вырос более чем на триллион долларов.

Не имеют внешний государственный долг такие «микро» государства, как, Бруней, Макао, Палау. Минимальный долг у Экваториальной Гвинеи, Алжира, Ирана.

Азербайджан, как и другие страны мира, осуществляет внешние государственные заимствования (Диаграмма 1). На начало 2018 года величина внешнего государственного долга страны составляет 9,4 млрд. долларов США, или 22,8% ВВП Азербайджана. Внешний долг на душу населения составляет 949,5 долларов США.

Внешний государственный долг страны за период с 2010 по 2017 годы имел тенденцию к росту с 3,9 до 9,4 млрд. долл. США и представлен в долларах США, евро, СДР (специальные права заимствований МВФ) и др. Кредиторами Азербайджана являются Всемирный банк, Азиатский банк развития, Исламский банк развития, Европейский банк реконструкции и развития, Международное агентство сотрудничества Японии и другие международные финансовые структуры. В основном внешнее кредитование используется на инфраструктурные проекты (строительство дорог, обеспечение водой и канализацией), электроэнергетику, мелиорацию и ирригацию и др.

Внутренний государственный долг страны имеет небольшую величину и включает облигации Министерства финансов, ЦБА и SOCAR.




***Диаграмма 1.*** *Динамика внешнего государственного долга Азербайджана (в млрд. долл. США)*

Следует отметить, что золотовалютные резервы Азербайджана, которые формируются из резервов ЦБА, активов Государственного нефтяного фонда и казначейских средств министерства финансов, на начало 2018 года составили 41,1 млрд. долларов США и более чем в четыре раза превышают внешний государственный долг страны.

В заключительной речи Президента Азербайджана Ильхама Алиева на заседании Кабинета Министров, посвященном итогам социально-экономического развития за девять месяцев 2018 года и предстоящим задачам были отмечены положительные итоги развития страны. Так, валовой внутренний продукт увеличился на 0,8 процента, рост в ненефтяном секторе составил 1 процент, промышленное производство выросло на 2 процента, а ненефтяная промышленность – на 10,8 процента, рост в сельском хозяйстве составил 4,3 процента. Инфляция за девять месяцев текущего года составила всего 2,6 процента, а рост доходов населения – 9,5 процента. Президент Ильхам Алиев особо отметил, что за девять месяцев текущего года в экономику страны были вложены инвестиции на сумму 9 миллиардов долларов, валютные резервы достигли 45 миллиардов долларов - с начала года дополнительно накоплено 3 миллиарда долларов.

Насколько величина внешнего государственного долга может отрицательно повлиять на экономическую безопасность государства? Какие относительные показатели имеются для его измерения, по которым возможно сопоставлять состояние внешней задолженности разных стран. Для межстранового анализа внешнего государственного долга, наиболее часто используются три показателя: отношение общей суммы внешнего долга к валовому внутреннему продукту; отношение общей суммы внешнего долга к экспорту товаров и услуг, отношение платежей на обслуживание долга к экспорту товаров и услуг. В качестве пороговых показателей внешнего долга по Маастрихтскому стандарту рекомендуется чтобы: коэффициент долговой нагрузки не превышал планки в 60% от ВВП; в отношении экспорта страны данный показатель составляет 200%. Что касается показателя доли обслуживания внешнего долга (погашений по процентам и основному долгу) в экспорте страны, то здесь нет чёткого критерия, однако считается, что этот показатель не должен превышать планки в 15–20%.

Некоторыми странами также используется такой показатель, как внешний долг на душу населения. Следует отметить, что данный показатель дает представление скорее о внешнеэкономической зависимости страны, чем об абсолютном значении внешнего долга.

Анализ динамики доли внешнего государственного долга в ВВП и экспорте Азербайджана (Диаграмма 2) свидетельствует о достаточной стабильности этих показателей в период 2010-2014 годы. Доля внешнего государственного долга в ВВП и экспорте скачкообразно увеличилась и достигла своего наибольшего значения в период 2015-2017 годов в связи с резким падением цен на нефть в 2014 году, девальвацией национальной валюты, кредитованием обязательств Азербайджана по международным нефтегазовым проектам, погашением большей части внешних обязательств крупнейшего в стране Международного банка Азербайджана.

Вместе с тем, в 2017 году внешний долг Азербайджана к ВВП составил – 22,8%, то есть почти в 3 раза меньше порогового значения Маастрихтского стандарта; отношение внешнего долга к экспорту составляет – 68,1%, то есть также почти в 3 раза меньше порогового значения; отношение платежей на обслуживание долга (855,9 млн. долл.) к экспорту товаров и услуг составляет 6,2%, то есть в 3 раза меньше порогового значения.




***Диаграмма 2.*** *Динамика доли внешнего государственного долга в ВВП и экспорте Азербайджана (в %)*

Таким образом, мы видим, что показатели по внешнему долгу страны удовлетворительны в сравнении с предельными значениями Маастрихтского стандарта. Данный факт является свидетельством осторожной политики внешних заимствований государства.

Следует отметить и то, что Распоряжением Президента Азербайджана от 24 августа 2018 года была утверждена «Средне- и долгосрочная стратегия по управлению государственным долгом», основной задачей которой является обеспечение устойчивости государственного долга и снижении его доли по отношению к ВВП. В соответствии со Стратегией Правительство страны планирует довести на конец 2025 года общий объем государственного долга до уровня ниже 15 процентов от ВВП (9).

В условиях наличия у стран государственного внешнего долга возникает задача эффективного управления долгом. Искусство управления внешним долгом заключается в том, чтобы правительство не испытывало недостаток в финансовых ресурсах для реализации инвестиционных проектов и при этом привлеченные займы не создавали ситуации долгового навеса и не увеличи-вали долговую нагрузку на экономику до того уровня, когда обслуживание долга не станет обременительным для государства.

Во многих странах для реализации данной задачи создаются управленческие структуры – долговые агентства. В долговом агентстве систематизируются все потоки информации, которые ретранслируются из разных органов государственного управления, то есть создается единая информационная база данных по долговым обязательствам и макроэкономическим параметрам. В дополнение к информации о параметрах состояния национальной экономики, в долговом агентстве аккумулируются данные о состоянии мировых финансовых рынков, кредитных рейтингах, новых программах международных финансовых организаций и др. Это позволяет оперативно отслеживать последние мировые тенденции в макроэкономической сфере, особенно изменения тех индикаторов, которые оказывают непосредственное влияние на платежеспособность государства в краткосрочной и среднесрочной перспективе. Основная цель создания долговых агентств – это эффективное управление государст-

венным долгом с минимальными издерж-ками на его обслуживание.

Мировая практика позволяет привести несколько примеров таких агентств. Так, основной задачей функционирования Австрийского долгового агентства Austrian Federal Financing Agency (5) является обеспечение финансирования правитель-ства при минимально возможных затратах в средне- и долгосрочной перспективе и недопущение чрезмерного риска. Основное направление деятельности German Federal Republic Finance Agency GmbH (6) – оперативное реагирование на быстро изменяющиеся потребности и требования финансовых рынков, снижение затрат на выплату процентов в среднесрочной перспективе и оптимизация рисков в струк-туре долгового портфеля. При этом на финансовых рынках агентство действует исключи-тельно от имени и за счет феде-рального правительства Германии. Наи-более важной задачей является обеспечение платежеспособности немецкого федераль-ного Правительства. Почти аналогичную задачу ставит перед собой Swedish National Debt Office (7): сведение к минимуму расходов центрального правительства без принятия на себя чрезмерных рисков. Работа агентства должна гарантировать, что деньги налогоплательщиков исполь-зуются как можно более эффективно и финансовая система остается стабильной. Английское долговое агентство UK Debt Management Office (8) было преобразовано в отдельную структуру путем реструктури-зации из Банка Англии и в его компетенцию сегодня входит проведение политики управления долгом и минимизация финан-совых расходов в долгосрочной перспек-тиве с учетом всех рисков.

В заключение статьи хотелось бы при-вести несколько практических предло-жений решения проблемы задолженности: четкое обоснование необходимости новой государственной задолженности, разработ-ка прозрачных и убедительных критериев предоставления государственных гарантий, установления оптимальных размеров внеш-него государственного долга, совершенст-вование системы управления и обслужива-ния государственного долга. Привлеченные внешние финансовые источники нужно рассматривать с точки зрения их объема и с позиций эффективности использования. При неэффективном использовании ресур-сов потребность в их количестве становится неограниченным. Размеры государствен-ного внешнего долга в своих абсолютных значениях могут достигать довольно боль-ших размеров, однако долг всегда должен находиться в определенной зависимости относительно величины ВВП. Превышение показателя государственного внешнего долга в соответствии размеров ВВП, а затем и других макроэкономических пока-зателей, начинает представлять угрозу эко-номической безопасности страны.

**Литература:**


1. Общий мировой долг достиг суммы 215 триллионов долларов. https://aftershock.news/?q=node/505624 &full
2. http://www.stat.gov.az/
3. International Financial Statistics (IFS), file:///C:/Users/USER/Downloads/ International%20Financial%20Statistics %20(IFS),%20Yearbook.pdf
4. http://www.maliyye.gov.az/
5. The Austrian Federal Financing Agency. http://obrproject.ru/179-the-austrian-federal-financing-agency
6. German Federal Republic Finance Agency. http://www.deutsche-finanzagentur. de/en/finance-agency
7. The Swedish National Debt Office. https://www.riksgalden.se/en/ aboutsndo/ About-the-Debt-Office
8. Annual Report and Accounts of the United Kingdom Debt Management Office and the Debt Management Account / UK Debt Management Office.
9. https://azertag.az/store/files/2018/ AVQUST/24/STRATEQIYA.pdf
10. Финансы. Учебник. Под редакцией И.О. Лютого. Киев: Видавництво Лира-К, 2017.-728 с.


***Ключевые слова:*** *государственный долг, экономическое развитие, внешняя задолженность, долговая политика, платежеспособность*

**Rüfət Quliyev**
*Azərbaycan Respublikası Milli Məclisinin deputatı,*
*Azərbaycan Texniki Universitetinin kafedrasının şöbə müdiri,*
*iqtisad elmləri doktoru, professor*

## DÖVLƏT BORCUNUN İDARƏETMƏSİ İQTİSADİ TƏNZİMLƏNMƏSİNİN ALƏTİ KİMİ

### XÜLASƏ

İqtisadi inkişafın hazırkı mərhələsində xarici borcun effektiv idarə olunması problemi ölkənin tarazlı inkişafı üçün əsas rol oynayır. Mühüm sosial-iqtisadi vəzifələrdən biri daxili və xarici iqtisadi amillərin təhlilinə və proqnozlarına əsaslanan maliyyə risklərinin minimal xərcləri, identifikasiyası, hedcinqi və qarşısının alınması ilə dövlət borcunun vaxtında xidmət göstərilməsidir. Xarici borcun əhəmiyyətli dərəcədə artması və ölkələrin borc öhdəliklərini yenidən maliyyələşdirmə qabiliyyətinin azaldılması şəraitində, borc metodlarının və alətlərinin optimal seçimi vasitəsilə xidmətin xərclərini minimuma endirmək məqsədilə dövlət borclarının idarə olunması siyasəti böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, borc siyasəti likvidlik və ya dövlətin ödəmə qabiliyyətinin böhranının qarşısını almaq üçün borc ödənişlərinin son həddə qalxmasının qarşısının alınmasına yönəldilməlidir.

***Açar sözlər:*** *dövlət borcu, iqtisadi inkişaf, xarici borc, borc siyasəti, ödəmə qabiliyyəti*

**Rufat Guliyev**
*Deputy of the Milli Majlis of the Republic of Azerbaijan*
*Head of Department Azerbaijan Technical University,*
*PhD in Economics, Professor*

## PUBLIC DEBT MANAGEMENT AS AN INSTRUMENT OF ECONOMIC REGULATION

### SUMMARY

At the present stage of economic development, the issue of efficient management of external debt plays a key role for the balanced development of country. One of the important socio-economic tasks is timely servicing of public debt with minimal costs, identification, hedging and prevention of financial risks based on analysis and forecast of internal and external economic factors.

In conditions of a substantial increase in external debt and reduction of the ability of countries to refinance debt obligations, public debt management policies are of paramount importance aimed at minimizing the cost of its maintenance through the optimal choice of debt methods and tools.

In this situation, the debt policy should be aimed at warning the peaks of debt payments in order to prevent liquidity crises or the solvency of the state.

***Key words:*** *Public Debt, Economic Development, External Debt, Debt Policy, Solvency*

# SİYASİ NƏZƏRİYYƏ
# POLITICAL THEORY

UOT 327:005.591.45

**CAVANŞİR FEYZİYEV**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı, fəlsəfə üzrə fəlsəfə doktoru**

## QLOBAL İNTEQRASİYA PROSESLƏRİ VƏ MÜASİR TÜRK SİVİLİZASİYASI

Müasir Qloballaşma epoxasından bəşər tarixinin ümumi inkişafı prosesinə nəzər saldıqda aydın şəkildə görürük ki, bu tarixin hər mərhələsi dünya xalqları və dövlətlərini addım-addım bir-birinə yaxınlaşdıran proseslərin arasıkəsilməz (davamlı) dalğası olmuşdur. Bu proseslər spontan olaraq güclənmiş, dünya xalqları və dövlətləri arasındakı əlaqələr – "tarixi sivilizasiya yaddaşına" həkk olunan münasibətlər forması almışdır. Getdikcə dərinləşən qarşılıqlı münasibətlər planetin həyat və enerji qaynayan sivilizasiya məkanlarını hərəkətə gətirərək, ümumdünya inteqrasiya proseslərinə yol açmışdır.

Əcdadlarımız türklər də həm bəşəriyyətin tarixi sivilizasiya yaddaşının, həm də sivilizasiyalararası münasibətlərin yaradıcılarından olmuş, tarixən və bu gün ümumdünya inteqrasiyasına yol açan proseslərin önündə dayanmışlar. Uzun əsrlər boyu türk xalqları və dövlətləri əngin Avrasiya məkanında hətta kiçik etnosları belə özlərinin müttəfiqlərinə çevirərək, çoxetnoslu və çoxmillətli sosial-siyasi sistemləri, tanrıçıqlıqdan islama qədər müxtəlif dünyagörüşü və etiqadların tolerant mühitini, çoxdilli və çoxdinli cəmiyyətlərin siyasi idarəetmə təsisatlarını formalaşdıra bilmişlər. Bu mənada dünyanın heç bir sivilizasiyası universallıq keyfiyyətlərinə görə türk sivilizasiyası ilə müqayisə edilə bilməz. Hətta "ən universal" sivilizasiyaların belə "keçilməz sərhədləri", "baryerləri", başqalarının qəbul edə bilməyəcəyi "tərəfləri" var.

Türk sivilizasiyasının bu "fövqəluniversallığını" şərtləndirən başlıca amil – uzun tarixi dövrlər ərzində onun heç zaman "qapalı" qalmaması, təbii bir zərurətlə bütün sivilizasiyalarınn üstün dəyərlərini mənimsəməsi, Avrasiyanın "İçtorpağında" ("Heartland" – Makkinder) – sivilizasiyalararası münasibətlərin qaynar məkanında konsentrasiya-yaradıcı funksiya daşıması, dövlət sistemlərini imperiya sistemlərinə çevirərək, müxtəlif cəmiyyətlərin vahid və universal sosial, siyasi və mədəni "sintez-sferasını" ərsəyə gətirməsi olmuşdur.

Türk sivilizasiyasının tarixi inkişaf qanunauyğunluğunun seçkinliyi həm də bundadır ki, onun universallıq keyfiyyətləri əldə etməsi identikliyinin itirilməsi hesabına başa gəlməmişdir. Tarixi-kulturoloji diferensiasiya prosesində ayrı-ayrı türk xalqları, dövlətləri və onların milli mədəniyyətlərinin formalaşması da həmin inkişaf qanunauyğunluğunun nəticəsində – türk sivilizasiyasının daxili transformasiyasında baş vermişdir: türklər ayrılıb budaqlandıqca, öz ulu sivilizasiyalarının kökünə nə qədər möhkəm bağlı olduqlarını bütün varlıqları ilə hiss etmiş, bu birliyi ruhən yaşamışlar.

Məhz belə bir identiklik və universallıq keyfiyyətlərinin harmoniyasına malik olan türk dünyasının böyüyüb genişlənməsi – onun ümumdünya inteqrasiya proseslərinin tərkib hissəsinə və hərəkətverici qüvvəsinə çevrilməsinin determinantıdır. Bu gün bütövlükdə Avrasiyanı qlobal inteqrasiya müstəvisinə çıxaran prosesləri bu məkanın ən böyük geopolitik və geosivilizasion ərazisini tutan türk xalqları və dövlətlərinin məsuliyyətli iştirakı olmadan təsəvvür belə etmək mümkün deyildir. Türk potensialı – Avrasiyanın təkcə

planetin ən böyük geopolitik məkanı deyil, həm də qloballaşma hərəkatının "Nüvəsi" olmasına əsaslar yaradır.

Qloballaşmanın "Türk potensialı" hələ aysberq şəklindədir. Bu potensialın tam gücündə üzə çıxması isə o deməkdir ki, türk dünyası özünün məqsədyönlü siyasi iradəsinin məntiqindən çıxış edərək, "daxili inteqrasiyasını" qlobal inteqrasiyanın labüd prosesinə qoşa bilir. Artıq bu proses başlayıb və real nəticələrini qlobal iqtisadi, siyasi və mədəni layihələrin həyata keçirilməsində göstərməkdədir. "Tarixin yaradıcıları" türklər bu gün də "müasirliyin (Modernity) qurucu dövlətləri" olaraq qloballaşan dünyanın inteqrativ funksionallığını öz üzərinə götürən siyasi güclər sırasına qoşulurlar [5, s.235-237]. Bolqar tədqiqatçısı İvan Palçevin göstərdiyi kimi, həmin türk dövlətlərindən biri – "Qafqaz Pələngi" Azərbaycan bütövlükdə regionu qloballaşma hərəkatına qoşan proseslərin önündə gedir. "Rusiya, İran, Türkiyə və Avropa İttifaqının maraqlarını" regionda uzaqgörən siyasi rasionallıqla uzlaşdıran gənc respublika, özünün geostrateji siyasətini beynəlxalq sistemin inkişaf məqsədlərində sintezləşdirərək onun tamsəlahiyyətli subyekti kimi çıxış edir [2, 128-141]. Birlikdə Türkiyənin, Azərbaycanın və digər türk respublikalarının Avrasiyada qlobal siyasətin "uzlaşdırıcı mərkəzini" yaratması [6, s.165-174] qloballaşan dünyanın məcburi deyil, harmonik inteqrasiyasını zəruri edən prosesləri qüvvətləndirir.

Beynəlxalq siyasət və beynəlxalq hüquqda birlikyaratmanın əhəmiyyəti ümumdünya inteqrasiyasının başlıca prioritetlərini özündə əks etdirən proseslərdə ifadə olunur: beynəlxalq siyasi sistemin subyektləri – suveren dövlətlər beynəlxalq hüquq normalarına uyğun olaraq uzlaşan maraqlar əsasında, münasib formatda birliklər yaradır, onları təşkilatlandırırlar; bu birliklər dövlətlərarası münasibətləri möhkəmləndirir, davamlı məcraya salır; regional və qlobal təhlükəsizliyin müəyyən öhdəliklərini öz üzərinə götürən həmin birliklər mövcud beynəlxalq təşkilatlara da üzv olmaqla, daha geniş miqyasda dünya inkişafı prosesini sürətləndirən fəaliyyətlərin "açar" rolunu oynayırlar.

"Dövlətlərin assosiasiyası" adlandırılan bu siyasi fenomen [10, s.79] həm də qloballaşma proseslərini sistemləşdirən və funksionallaşdıran əsas hadisələrin mərkəzində dayanır: tarixdə ilk dəfə olaraq dünya dövlətləri beynəlxalq hüquq normaları ilə tənzimlənən beynəlxalq siyasi sistemin formalaşdırılması məsuliyyətini bərabər şəkildə bölüşmək imkanı qazanırlar. Artıq bu gün dünyada BMT, NATO, Avropa İttifaqı (Aİ) kimi 246 dövlətlərarası təşkilat (DT) mövcuddur. İyirminci əsrin ortalarından başlayan bu təsisatlanma prosesi beynəlxalq siyasətdə yeni çoxölçülü parametrləri, dövlətlərarası münasibətlərin ən yüksək səviyyədə optimallaşdırılma imkanlarını meydana gətirmişdir.

Ümumdünya inteqrasiya prosesləri dövlətlər arasında "qlobal qarşılıqlı asılılığın" [1, s.112] elə mütəhərrik kombinasiyalarını yaradır ki, beynəlxalq sistemin heç bir subyektinin və böyük dövlətlərin Transmilli Korporasiyalarının (TMK-lar) tərəfdaşlarsız mövcud olması, sadəcə, mümkün olmur. Sənayedənsonrakı (post-industrial) cəmiyyətlərin informasiya cəmiyyətlərinə transformasiyası qlobal kommunikasiya sahəsində inqilab yaradır. Biliktutumlu texnologiyalar insan şüurunu sözün əsil mənasında planetləşdirir. Yer kürəsi özünü hər tərəfdən "görən" səma cismindən Vahid Bəşər Sivilizasiyasını yaşadan və gələcəyə aparan canlı kosmik subyektə çevrilir. Tarixdə ilk dəfə olaraq yer planetində "Dünya Birliyi" ideyası öz semantikasının siyasi reallığına doğru yüksələrək, planetar məzmun kəsb edir.

Bax, qloballaşmanın paradoksu da məhz bu məqamda meydana çıxır: məlum olur ki, qlobal inteqrasiya prosesləri dünya cəmiyyətlərini yaxınlaşdırdıqca, onların özgürlük xarakteri daha qabarıq şəkildə özünü göstərməyə başlayır. "Etnik Renessans" "Qlobal Renessansın" içərisində var olduğunu aydın şəkildə büruzə verir. Halbuki qloballaşma problemlərinə həsr olunmuş çoxsaylı diskussiyalarda həmişə xüsusi bir narahatlıqla

vurğulanırdı ki, qloballaşan dünyada milli dövlət (“nation-state”) və mədəniyyətlərin tədriclə yoxa çıxması qaçılmaz olacaq. Ancaq belə olmadı. Qloballaşma proseslərinin real tendensiyaları bu tipli proqnozları alt-üst etdi və sübut etdi ki, dünya xalqları və dövlətləri arasında baş verən zəruri inteqrasiya hadisəsi bütün mənalarda onların rəqabət gücünü artırır və beynəlxalq sistemdə onlara daha üstün mövqe qazanmaq üçün şans verir. Ona görə də bu gün qloballaşmanın “qalibləri” və “məğlubları” deyilən ziddanlamlı bir anlayış meydana çıxıb: çünki həqiqətən də qloballaşmadan məharətlə faydalananlar və bu stixiyada durğunlaşan və çaşıb qalanlar var. Anti-qlobalist hərəkatlar da məhz bu ikinci kateqoriyadan olanların etirazlarında təzahür edir.

Qlobalizm və anti-qlobalizm qarşıdurması müasir beynəlxalq həyatın reallığıdır. Əslində, elə onların mübarizəsi də beynəlxalq sistemi daha çevik saxlayan fəaliyyətlərin bir hissəsidir. Məsələ burasındadır ki, daha təcrübəli və mübariz cəmiyyətlər qlobal inteqrasiya proseslərinin labüdlüyünü anlayaraq, özünü ona qarşı müqavimət və dirəniş ruhunda kökləmir, əksinə, enerjisini onunla ayaqlaşmaq, onun öncinahında irəliləmək səylərinə yönəldir. Fəaliyyətlərin bu şəkildə konsentrasiyası hər hansı bir milli və regional subyektin qlobal məkanda öz mövqeyini müəyyənləşdirməsinin zəruri şərti olur.

Ona görə də biz bu gün qlobal proseslərə güclü təsir edən regional proseslərin həlledici mərhələyə daxil olduğunu görürük. Bu tendensiyanın mahiyyəti, başlıca olaraq, regional inteqrasiyanın praktiki təsisatlanma faktında özünü göstərir: müəyyən region dövlətləri siyasi, iqtisadi və mədəni zəmin üzərində inteqrasiyaya girərək, özlərinin birliklərini yaradırlar. Əlbəttə, bu kifayət qədər təbii prosesdir. Çünki planetin hər hansı bir regionunun dövlətləri tarixən bir-biri ilə bağlılığın ənənə və təcrübəsinə malikdirlər. Bütün amillər kompleksini (sivilizasiya, dil, din, ərazi, geopolitik maraqlar və s.) nəzərə alsaq, qloballaşmanı regional səviyyədən beynəlxalq səviyyəyə çıxaran bu proseslərin nə qədər əhəmiyyətli olduğunu görərik. Qlobal siyasətdə “inteqrasiyaya funksionalist və neo-funksionalist yanaşma” nəzəriyyələri də məhz bu siyasi praktika əsasında yaradılmışdır [9, s.279-280]: regiondaxili ümumi maraqlar və problemlərin həllinə yönələn təşəbbüslər müəyyən geopolitik əraziyə mənsub dövlətlərin münasibətlərinin funksional təşkilatlanma səviyyəsində qurulmasını mümkün edir. Bu elə zəruri prosesdir ki, hətta bir-biri ilə uzun zamanlar müharibə və çəkişmələr şəraitində yaşamış dövlətlər və xalqlar ümumregional maraqlar əsasında birləşməyə ehtiyac duyur, hətta məcbur olur. Əgər biz dövlətlərarası regional təşkilatların “geopolitik xəritəsinə” baxsaq, görərik ki, bu gün yer kürəsinin, demək olar ki, bütün dövlətləri – Avropa İttifaqı, Ərəb Dövlətləri Liqası, Afrika Dövlətləri Birliyi, Şanxay Əməkdaşlıq Təşkilatı, Amerika Dövlətləri Təşkilatı, Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) və s. beynəlxalq qurumlarda birləşmişlər [8, s.145-146; 10, s.89-104]. Bunlar həm də dünyanın ən böyük beynəlxalq təşkilatının – BMT-nin üzvüdürlər.

Region dövlətlərinin Avropa, Asiya, Amerika və Afrika qitələri üzrə kontinental inteqrasiyası da siyasi, iqtisadi, hərbi müttəfiqliyin və əməkdaşlığın müxtəlif konfiqurasiyası və səviyyəsində baş verir. Belə bir müttəfiqliyin və əməkdaşlığın dərin rasional əsaslara malik olan mükəmməl formaları Avropada yaradılmışdır. “İç-içə yuvalandırılmış” Avropa institutları [8, s.153-154] bir-biri ilə bağlılıqda funksionallaşdırılmışdır: yarandığı vaxtdan daim təkamül edib genişlənən Avropa İttifaqı (Aİ), Şimali Atlantika Müqavilə Təşkilatı (NATO – ona Amerika qitəsinin daha iki dövləti – ABŞ və Kanada da daxildir), Avropa Şurası, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) Avropadaxili və habelə Avropaətrafı regionda dövlətlərarası münasibətləri nizama salaraq, qitənin sabitliyinə və təhlükəsizliyinə zəmanət yaradır. “Pan-Asiya regionalizminin” yaratdığı birliklər – 10 Asiya

dövlətinin üzv olduğu Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN), Sakit Okean İqtisadi Əməkdaşlığı (APEC), ASEAN Regional Forumu, ASEAN Azad Ticarət Zonası (AFTA), Şanxay Əməkdaşlıq Təşkilatı qitənin daha çox iqtisadi maraqlarını ("azad iqtisadi zonalar" üzrə) uzlaşdırır, eyni zamanda, "müxtəlifliyə, ideoloji qütbləşməyə, həmçinin, milli və subregional subyektlərin rəqabətinə də" [3, s.24] öz platformasında yer verir. Türk dövlətlərindən Azərbaycan və Türkiyənin də üzv olduğu Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) və GUAM Demokratiya və İqtisadi İnkişaf Təşkilatı (GUAM – Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) Şərqi Avropa, Kiçik Asiya və Qafqaz regionu dövlətlərinin qarşılıqlı əməkdaşlıq münasibətlərini formalaşdırır. Türk respublikalarının hamısı – Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan ümumən 57 islamdinli dövlətin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatının üzvüdürlər.

Beynəlxalq siyasi-iqtisadi sistemin inkişafında mühüm rol oynayan regional və qlobal birliklər bu gün dünya iqtisadiyyatının təkanverici qüvvəsi kimi çıxış edir, ticarət, investisiya və mübadilə əməliyyatlarının əhəmiyyətli hissəsini öz üzərlərinə götürürlər: Avropada Avropa İttifaqı region ticarətinin 55,2%-ni, Amerikada NAFTA (North American Free Trade Agreement – Şimali Amerika Azad Ticarət Razılaşması) 51,7%-ni, Asiya və Sakit Okean regionunda ASEAN Azad Ticarət Zonası (AFTA) 20,4%-ni və Sakit Okean İqtisadi Əməkdaşlığı (APEC) 69,7%-ni həyata keçirir [11, s.443].

Ümumdünya inteqrasiyasının başlıca prioritetlərini dəyərləndirərkən, onun regionalizmlə qlobalizm tendensiyalarını ziddiyyətə gətirməyəcək, əksinə, onların dialektikasını motivləşdirəcək pozitiv istiqamətlərinə xüsusi diqqət yetirmək lazımdır. Çünki bu problemə yanaşmada dünya kapitalizminin ənənəvi-mühafizəkar mövqeyi ilə beynəlxalq siyasətin və liberal dünya iqtisadiyyatının yeniləşdirici mövqeyi köklü şəkildə fərqlənir. Əgər birinci mövqe dünyanın inkişaf etmiş (more developed countries – MDC), inkişaf etməkdə olan (developing countries – DC) və zəif inkişaf etmiş (less-developing countries – LDC) ölkələrini bir-birindən kəskin şəkildə fərqləndirirsə, onlarla münasibətlərini bu iyerarxiya zəminində qurursa və ondan faydalanırsa, ikinci mövqe dünya inkişafının ümumi maraqlarını əsas götürüb, həmin fərqliliyi aradan qaldırmağa, zəif səviyyələri yüksəltməyə, regional və qlobal yanaşmaların tarazlığını tapmağa çalışır. Çünki düşünür ki, dünya iqtisadiyyatının yüksəksəviyyəliliyi ilə zəifsəviyyəliliyi arasındakı uçurum, əvvəl-axır, – son illərdə şahid olduğumuz kimi, – böhranlara gətirib çıxarır. Bu, tamamilə düzgün yanaşmadır. Ona görə ki, qlobal məkanda güclülərin dünya sərvətlərini öz əlində toplaması və zəiflərin yaşayış imkanlarından məhrum edilməsi beynəlxalq miqyasda cəmiyyətlərarası, dövlətlərarası münasibətləri sonda hər ikisinin mənafelərini təhlükə altına qoyacaq dərəcədə kəskinləşdirə bilir.

Deməli, beynəlxalq münasibətlərin xüsusilə təşkilatlanma səviyyəsində demokratikləşdirilməsi, humanistləşdirilməsi və liberallaşdırlması dünya ziddiyyətliliyini minimuma endirəcək fəaliyyətlərin həm ideologiyası, həm də texnologiyasında öz ifadəsini tapmalıdır. Əgər liberalyönümlü, humanist dəyərlərə sadiq, demokratik əsaslara malik dövlət cəmiyyətin varlı, orta və yoxsul təbəqələri arasındakı fərqi maksimum səylərlə aradan qaldırmağa və sosial-siyasi orqanizmin inkişafının həlledici amili kimi orta təbəqəni gücləndirməyə çalışırsa, belə bir platformanı beynəlxalq sistemə də tətbiq etmək olar: ümumdünya inteqrasiyasının bütün mərhələlərində, bu inteqrasiyanı həyata keçirməli olan beynəlxalq təşkilatlanmanın bütün səviyyələrində inkişaf etmiş, inkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrin qarşılıqlı münasibətlərinin qurulmasının elə metod və texnologiyaları hərəkətə gətirilməlidir ki, burada səviyyələrarası fərqi tədriclə aradanqaldırma prinsipi ilə dünyanın orta inkişaf etmiş dövlətlərinin gücləndirilməsi siyasəti özünü doğrultsun. Fikrimizcə, türk respublikalarının da

daxil olduğu yeni nəsil dünya dövlətlərinin inkişaf məqsədləri beynəlxalq birliyin məhz bu tendensiyasında kumulyasiya olunmalıdır. Yarandığı vaxtdan genişlənməkdə olan və hazırda dünyanın, demək olar ki, bütün siyasi subyektlərini və müvafiq beynəlxalq təşkilatları özündə birləşdirən Birləşmiş Millətlər Təşkilatı (tarixdə ilk dəfədir ki, Azərbaycan Respublikası da onun Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olmuşdur) müxtəlif inkişaf səviyyəli dövlətlərin birliyini reallaşdırmaqla, bu praktikanı və tendensiyanı təşviq edir.

Müasir beynəlxalq sistemin mövcud piramidal strukturunda "güclər balansı" – "dominant güc", "böyük güclər", "orta güclər" və "kiçik güclər" şəklində iyerarxiyalaşdırılır [9, s.279-280]. Lakin belə bir "bölgü" inkişaf etmiş, inkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələr iyerarxiyası kimi hazırkı reallığı nə qədər əks etdirsə də, bu mövqe çağdaş beynəlxalq siyasətin və beynəlxalq hüququn prinsipləri üzrə fəaliyyətləri irəlilədə bilməz. Yeni dünya nizamı – zəiflərin güclülərə tabe etdirilməsi və ya zəiflərin güclülər tərəfindən idarə edilməsi kimi arxaik qaydalar deyil, beynəlxalq subyektlərin hüquq bərabərliyi prinsipləri əsasında qurula və dünya inkişafının yeni fazasına keçidi şərtləndirə bilər.

Buna görə də ümumdünya inteqrasiyası öz prioritetlərində beynəlxalq birliklər vasitəsilə qlobal siyasət və qlobal idarəetmənin yeni modellərini tətbiq etməyi zərurətə çevirir. Qərb analitikləri özləri etiraf edirlər ki, "qlobal siyasi sistemin yenidən xəritələşdirilməsinə" ehtiyac vardır. Çünki "Avropanın dominantlıq siyasətinə" bəhanə verən heç bir beynəlxalq hüquqi baza qalmayıb: yalnız "ərazi dövlətləri" prinsipinə əsaslanan Ausburq (1555) və Vestfaliya (1648) müqavilələri artıq Avropanın özü üçün belə çoxdan köhnəlib və əhəmiyyətini itirib [4, s.197]. "Avropa müstəmləkəçiliyinin" cızdığı xəritə üzrə dünyanı idarə etmək – onu gələcəyə aparmaq yox, öz keçmişində itirib batırmaq deməkdir [7, s.69]. Belə yanaşmalar dünyanın fraqmentallaşması ilə inteqrallaşması arasında ziddiyyətlər yaradır və qlobal siyasətin özünü dalana dirəyir.

Müasirləşən dünya isə bütün siyasi subyektlərin yüksək təsisatlanmış formada beynəlxalq sistemin inkişafı prosesinə cəlb olunmasını tələb edir: qlobal idarəçilikdə qaydayaratma prinsipləri özü plyuralist xarakter daşımağa başlayır; idarəetmənin yeni meydana çıxan örnəkləri iyerarxiklikdən çoxsəviyyəliliyə, iddialı yanaşmalardan münasibətlər polifoniyasına doğru transformasiya edir. Burada "münasibətlər polifoniyasının" nəzərə alınması dünya dövlətlərinin hər birinin milli maraqlarının qlobal siyasət və idarəetmə platformasında təmsil olunması deməkdir. Qlobal idarəetmənin əsas funksiyalarını öz üzərinə götürmüş dövlətlərarası beynəlxalq təşkilatlar "alternativ siyasi, iqtisadi modellər" vasitəsilə onun "millətlərüstü obyektivliyini" təmin edə bilərlər [12, s.242-245]. Qlobal vətəndaş cəmiyyətinin qurulması prosesi də, təbii ki, "kosmopolitan maraqlardan" yüksəkdə – milli vətəndaş cəmiyyətlərinin inkişaf etdirilməsi şəraitində mümkündür. Beynəlxalq siyasətin etikası "demokratiyanın ekspansiyasını" yox, qlobal siyasi məkanın hər bir nöqtəsində onun "yetişdirilməsini" tələb edir.

Türk cəmiyyətlərində də həmişə dünyaya açıqlıq xarakteri ilə müşayiət olunan kosmopolitanlıq və ümumbəşərilik xüsusi keyfiyyətlərə malikdir, deməli, onların dünya birliyinə inteqrasiyası da təkcə siyasi və iqtisadi zərurətin deyil, həm də milli-sosial psixologiyanın daxili tələbatı nəticəsində baş verir. Ümumdünya inteqrasiyasının Avrasiyanı əhatə edən prosesləri türk sivilizasiyasına mənsub milli dövlətlərin geopolitik məkanının daxili inteqrasiyası ilə bütövləşir və gerçək qlobal tamlığını əldə edir.

**Ədəbiyyat:**


1. Нейсбит Дж. Мегатренды. М.: АСТ, 2003
2. Палчев И. Азербайджан – Кавказский тигр. Баку: Мутарджим, 2009
3. Acharya A. Regional Institutions and Security in the Asia-Pacific: Evolution, Adaptation, and Prospects for Transformations / Reassessing Security Cooperation in the Asia-Pacific: Competition, Congruence, and Transformation. Ed. by Acharya A., Goh E. Cambridge: MIT Press, 2007, pp.19-40
4. Ferguson Y.H., Mansbach R.W. History's Revenge and Future Shock: The Remapping of Global Politics / Approaches to Global Governance Theory. Ed. by Hewson M., Sinclair T.J. New York: State University of New York Press, 1999
5. Findley C.V. The Turks in World History. Oxford University Press, 2005
6. Fuller G.E. The New Turkish Republic: Turkey as a Pivotal State in Muslim World. Washington, D.C.: United States Institute of Peace Press, 2010
7. Kaplan R.D. The Coming Anarchy // The Atlantic Monthly, 1994, February, pp.64-81
8. Karns M.P., Mingst K.A. International Organizations: The Politics and Processes of Global Governance. Boulder, London: Lynne Rienner Publishers, 2010
9. Kegley Ch.W., Raymond G.A. The Global Future. A Brief Introduction to World Politics. Wadsworth: Cengage Learning, 2010
10. Langhorne R. The Essentials of Global Politics. Hodder Arnold: 2006
11. Ray J.L., Kaabro J. Global Politics. Boston, New York: Houghton Mifflin Company, 2008
12. The Politics of Global Regulation. Ed. by Mattli W., Woods N. Princeton, Oxford: Princeton University Press, 2009


***Açar sözlər:*** *türk sivilizasiyası, qlobal inteqrasiya, dünya ictimaiyyəti, geosiyasi məkan, qlobal inteqrasiya prosesi*

**Javanshir Feyziyev**
*Deputy of the Milli Majlis of the Republic of Azerbaijan*
*PhD in Philosophy*

## GLOBAL INTEGRATION PROCESSES AND CONTEMPORARY TURKISH CIVILIZATION

### SUMMARY

The development of a Turkish civilization, harmoniously combining such qualities as identity and universality is a determinant of its transformation into an integral part and a driving force of global integration processes.

The processes that brought Eurasia as a whole to the plane of global integration cannot be imagined without the responsible participation of the Turkish nations and states occupying the largest territory of this geopolitical and geo-civilizational area.

As Turkish societies possess special qualities such as cosmopolitanism and universal humanity with characteristic of eternal openness to the world, their integration into the world community occurs not only because of political and economic necessities, but also the inner need of their national social psychology.

Due to the internal integration of the geopolitical area of the nation-states belonging to the Turkish civilization, the processes of global integration covering Eurasia achieve integrity and acquire real global unity.

***Key words:*** *Turkic Civilization, Global Integration, World Community, Geopolitical Space, Global Integration Processes*

**Джаваншир Фейзиев**
*Депутат Милли Меджлиса Азербайджанской Республики,*
*доктор философии по философии*

# ПРОЦЕССЫ ГЛОБАЛЬНОЙ ИНТЕГРАЦИИ И СОВРЕМЕННАЯ ТЮРКСКАЯ ЦИВИЛИЗАЦИЯ

## РЕЗЮМЕ

Развитие тюркской цивилизации, гармонично сочетающей в себе такие качества, как идентичность и универсальность, является детерминантом ее трансформации в составную часть и движущую силу процессов глобальной интеграции. Процессы, которые вывели Евразию в целом на плоскость глобальной интеграции, сегодня невозможно представить без ответственного участия тюркских народов и государств, занимающих крупнейшую территорию этого геополитического и геоцивилизационного пространства. Интеграция тюркских обществ в мировое сообщество происходит не только в силу политической и экономической необходимости, но и внутренней потребности их национально-социальной психологии, так как им присущи такие особые качества, как космополитанизм и общечеловечность с характерной вечной открытостью миру. Благодаря внутренней интеграции геополитического пространства национальных государств, принадлежащих к тюркской цивилизации, процессы глобальной интеграции, охватившие Евразию, достигают целостности и обретают реальное глобальное единство.

***Ключевые слова:*** *тюркская цивилизация, глобальная интеграция, мировое сообщество, геополитическое пространство, процессы глобальной интеграции*

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR
# INTERNATIONAL RELATIONS

UOT 327(4/9): 930.22(4/9)

**RUSTAM SOLI**
**Ambassador Extraordinary and Plenipotentiary of the Republic of Tajikistan to the Republic of Azerbaijan, PhD in Political Science**
*e-mail: rustam.soliev@gmail.com*

## TAJIKISTAN AND THE EUROPEAN UNION: SUSTAINABLE COOPERATION

One of the achievements of the Republic of Tajikistan (the RT) in the years since independence is to have adopted a sovereign approach to foreign relations based on an open-door policy. In his address to the Supreme Assembly of the Republic of Tajikistan, the President of the Republic of Tajikistan, EmomaliRahmon, emphasised that "The essence and objectives of the open-door policy, which has helped to increase the number of countries with which we maintain friendly relations, will remain the same to strengthen cooperation between Tajikistan and all the countries of the world." [1]. The farsighted, balanced, constructive and pragmatic foreign policy of the RT makes it possible to diversify foreign political and economic relations and thus attain the strategic objectives of ensuring food security, energy independence and the development of transport and communication connections.

Cooperation between the RT and the European Union (EU) is of particular importance in the republic's external relations [2]. Despite the short history of interaction between the RT and the EU, relations between the two can be characterised in terms of the stable dynamics of positive development, and, in recent years, have seen extensive practical content. It is gratifying to see that the members of the academic community of both the RT and the EU have taken note of this trend.

### 1. Expert views on cooperation between the RT and the EU

Recently, various aspects of cooperation between the RT and the EU have been the subject of research by both Tajik and European academics. Although they lack a comprehensive and integrated approach, the authors of academic publications are making efforts worthy of support to analyse different aspects of EU-RT cooperation. First, two works by the Tajik researchers BT.Nazirov and J.T Hamidov are worthy of note [3]. The former researched the international legal framework of cooperation between the RT and the EU and carried out an in-depth analysis of the existing international legal instruments regulating cooperation and partnership between the RT and the EU. Hamidov set himself the task of researching the principal objectives and theoretical and methodological problems of the relationship between the RT and the EU. The author explored and summarised the issues related to the establishment of bilateral ties and the peculiar nature of their development, while identifying specific areas of cooperation and partnership perspectives.

It should also be noted that, while cooperation between the RT and the EU only really began to "flourish" in the period after 2010, two scholarly works (and several other

publications) [4] were published in academic circles in 2011. In our view, the attempt by D.A. Umerov [5] and S.A. Solikhodjaev [6] to identify the general and special aspects of current RT-EU relations is of interest in this context. In particular, the authors of these articles analyse bilateral cooperation in the framework of the EU's New Strategy for Central Asia for the 2007-2013 period, as well as their cooperation on security issues, countering international terrorism, religious extremism, and illicit drug trafficking.

Unlike their Tajik counterparts, European experts have devoted limited attention to the analysis of the partnership between the RT and the EU. Edited by Alexander Varkovich, the book "European Union and Central Asia" is a notable work in the field [7]. It deals with the EU policy towards five Central Asian states: Kazakhstan, Kyrgyzstan, Tajikistan, Turkmenistan, and Uzbekistan in the light of the EU Strategy in Central Asia. The author focuses on the overall strategic directions of the Strategy and, in particular, on an analysis of the concrete political obligations and issues, exploring the extent to which they are adequately developed and implemented in a manner capable of contributing to the strengthening of regional security and stability.

It is worth mentioning that this is not the first attempt by European analysts to elucidate current and future EU policy in Central Asia. In 2008, a compilation of academic articles edited by Neil Melvin under the title "Engaging Central Asia. The European Union's New Strategy in the Heart of Eurasia" was published [8]. Our attention was drawn to the article in this compilation by Matteo Fumagalli – "Tajikistan and the EU: From Post-Conflict Reconstruction to Critical Engagement". The article deals with the EU Strategy for Central Asia for the 2007-2013 period, which identifies security and stability as key strategic interests in the region. It stresses the important role of the EU's Border Management Programme in Central Asia (BOMCA) and the Central Asia Drug Action Programme (CADAP). Furthermore, it focuses on the Partnership and Cooperation Agreement (PCA) between Tajikistan and the EU and outlines the country's perspectives for economic development and social and political modernisation.

In our view, while acknowledging BOMCA and CADAP as key elements of the EU partnership with Central Asian countries in the interests of regional security, the author should also have emphasised the special geographical position of Tajikistan and the country's role in countering terrorism, extremism and illicit drug trafficking in the region. In this context, the work would have been enhanced by a comparative analysis of the funds allocated by the European Union for the abovementioned Programmes in Central Asia.

An analysis of the publications by the expert community leads to the following conclusion: a more in-depth study is required of the cooperation between the Republic of Tajikistan and the European Union – which is gaining momentum – one which, on the basis of an elucidation of the partnership experience, makes it possible to determine new vectors of interaction.

## 2. The formative process of establishing relations between the RT and the EU

After gaining independence, establishing and enhancing cooperation with other States, as well as with international organisations (including the European Union), became of particular relevance for the Republic of Tajikistan. The formation and development of the international legal personality of the Republic of Tajikistan was followed by its recognition by international community, as well as by international organisations, in particular the EU.

The European Community's (EC) decision to recognise the Republic of Tajikistan on 16 January 1992 launched the establishment of official relations between the EC and the RT. This resulted in the Agreement between the RT

and the EC on trade in textile products on 16 July 1993, the Partnership and Cooperation Agreement between the RT, the EC and the European Atomic Energy Community (EAEC) on 11 October 2004, the Interim Agreement between the EC, the EAEC, and the RT on trade and trade issues in 2004, the EU Strategy for a New Partnership with Central Asia for 2007-2013, and Technical Aid to the Commonwealth of Independent States (TACIS) on 2 August 1991 among others. These and other bilateral instruments established a solid legal and contractual basis for relations between the RT and the EU over the years.

The process of building an international legal framework for cooperation between the Republic of Tajikistan and the European Union came in several stages:

- The initial stage – the Agreement on Trade, Commercial and Economic Cooperation between the USSR and the European Community from 1989 included Tajikistan as a Soviet Republic engaged in the process of implementing cooperation with the EU. Later, on the basis of acts adopted in the framework of the CIS and in agreement with the EC, Tajikistan joined the abovementioned treaty, thus entering into contractual legal relations with the EU as an independent subject of international law;
- Establishment of a contractual legal mechanism of cooperation between Tajikistan and the EU – the PCA between Tajikistan and the EU of 2004, which currently serves as the legal basis defining the entire spectrum of bilateral cooperation between the two parties. The principles and objectives of cooperation between Tajikistan and the EU, which are in accordance with the norms of international law, were laid down in the Agreement. In addition, special principles creating certain trade and policy regimes between them, in particular the regime of non-discrimination and that of most-favoured nation, were agreed upon;

The international legal instruments which act as the foundation for cooperation between the RT and the EU can be divided into the following groups on the basis of such criteria as the subject-matter of the regulation and the degree to which they are binding.

The first group comprises legally binding instruments, which regulate both cooperation in general as well as in specific spheres (PCA). The relevant bodies of interaction between the parties, which will be considered below, were established on the basis of these instruments.

The second group of official instruments of cooperation between the RT and the EU consists of acts of a political and declaratory nature (EU Strategy for Central Asian countries). Although these acts do not have a direct regulatory impact, they often contribute to the implementation of contractual norms.

It is important to note that the existing bilateral legal instruments between the Republic of Tajikistan and the European Union are characterised by subject-matter diversity and are aimed at regulating bilateral relations in various spheres – economic, political, cultural, social, environmental, humanitarian, etc.

The "Partnership and Cooperation Agreement between Tajikistan and the European Union" of 18 October 18, 2004 is one such example. The Agreement constitutes the legal basis of EU-Tajikistan relations – it identifies the bodies and mechanisms for and spheres of bilateral cooperation. The uniqueness of this instrument lies in the fact that Tajikistan has no comparable agreements with any other States or international organisations. The Agreement establishes the legal regimes for commercial exchanges and company registration in each other's territory. It also entrenches the principles of non-discrimination against each other's citizens, wage earners, and economic entities. The Agreement makes it an obligation for Tajikistan to bring its legislation more closely into line with the EU law.

It is noteworthy that the EU Strategy for Central Asian countries for 2007-2013 is not binding for third countries from a legal point

of view, but it acts as a framework for the implementation of bilateral or multilateral agreements (for example, the PCAs between the EU and certain Central Asian countries). Although the Strategy is in essence only a declaration of intent, it has a great political significance, since it reflects the elevated political and legal status of the European Union.

An analysis of the fundamental instruments of the EU (EU Strategy for Partnership with the Central Asian countries; Technical Aid to the Commonwealth of Independent States (TACIS); the Programme of the European Commission's Humanitarian Aid department (ECHO); Disaster Preparedness Programme (DIPECHO) for Central Asia; Border Management Programme in Central Asia (BOMCA); Central Asia Drug Action Programme (CADAP); "Transport Corridor Europe-Caucasus-Asia" Programme (TRACECA)) prompts the conclusion that they are international legal acts generally covering cooperation between the EU and Tajikistan and constituting the foundation for cooperation between the EU and the States of the region.

An important step in putting into effect cooperation between the RT and the EU was the adoption of the PCA (11 October 2004), which entered into force on 1 January 2010 after its ratification by all Member States of the EU. Since then, the following principal institutions for bilateral cooperation have been officially established: the Cooperation Council, the Cooperation Committee and the Inter-Parliamentary Cooperation Committee. With it a qualitatively new, active and more productive period of development of political, trade and economic, investment and humanitarian ties between the Republic of Tajikistan and the European Union began.

## 3. Key Mechanisms for Stable RT-EU Relations

### High-level dialogue

The period following the formal entry into force of the PCA between the Republic of Tajikistan and the European Union on 1 January 2010 saw an intensive development of bilateral dialogue at the highest political level covering the whole spectrum of political, economic, trade, investment and humanitarian matters, as well as issues in the areas of security and financial and technical support.

President E. Rahmon's official visit to the headquarters of the European Parliament (EP) in Strasbourg on 5-6 June 2011 launched Tajik-European contacts at the highest level. During the visit, President E. Rahmon met with the President of the EP, Jerzy Buzek, and the heads of the EP's committees. During his conversation with Tajik President, Jerzy Buzek noted that "Tajikistan, situated in the heart of the Asian continent and bordering with Afghanistan, China, Kyrgyzstan and Uzbekistan, has a strategic significance in the region and the European Union is interested in the development of relations with Tajikistan." [9].

On 9-12 April 2013, President E. Rahmon visited the EU institutions once again. During the visit, the Tajik President met top EU officials:

- High Representative of the Union for Foreign Affairs and Security Policy, Catherine Ashton
- President of the European Council, Herman Van Rompuy
- President of the European Commission, José Manuel Barroso
- Commissioner responsible for development, AndrisPiebalgs
- President of the EP, Martin Schulz

Those meetings covered a wide range of matters concerning cooperation between Tajikistan and the European Union. Great satisfaction was expressed with regard to cooperation at the highest level between Tajikistan and the EU institutions (including the EP), the effective performance of the Inter-Parliamentary Cooperation Committee, and implementation of the EU Strategy for cooperation with the Central Asian countries for 2007-2013. After meeting with President

Rahmon, the President of the Commission, José Manuel Barroso, said that “We have discussed the economic situation in the country as well. In this respect, I have congratulated the President for the recent accession to the World Trade Organisation, an important milestone greatly supported by the European Union. I strongly believe that it will serve as a major engine for the country and the region's economic development and reform.” [10].

After a bilateral meeting, the High Representative of the Union for Foreign Affairs and Security Policy Ashton expressed the EU’s strong support for “Tajikistan in dealing with regional security challenges including those linked to Afghanistan.” [11]. The President of the EP, Martin Schulz, expressed interest in enhancing cooperation in the economic and energy spheres. It was stressed that “energy production and utilisation of hydro resources” were among the key themes of the meeting [12].

The President of the European Council, Herman Van Rompuy in turn noted that “the EU cooperates productively with Tajikistan towards the fulfilment of many social projects. The EU will continue to promote the implementation of its new strategy for Central Asian countries and of its agreement on cooperation with these countries.” He supported Tajikistan’s position in “ensuring the democratisation of society” [13]. After meeting E.Rahmon, the Commissioner responsible for development, AndrisPiebalgs, taking account of Tajikistan’s strategic location and its key role in Central Asia, expressed the readiness and interest of the Commission in supporting the country. Piebalgs emphasised that he would spare no effort to ensure practical implementation of the agreements reached in the course of a number of meetings at the highest level between Tajikistan and the EU over those few days [14].

Under the chairmanship of the MEP Struan Stevenson, the “New Investment Opportunities in Tajikistan’s Energy Sector” forum was held within the framework of the visit of 11 April 2013. President Rahmon outlined the investment opportunities in the economy of Tajikistan and the favourable political and legal conditions for entrepreneurs and investors. Detailed information was also provided concerning major investment opportunities in various sectors of the Tajik economy, including hydropower, oil and gas, manufacturing, mining and the processing of mineral resources, the production and processing of agricultural products, etc.

The General Secretary of the Energy Charter, Urban Rusnák, the President of the company Tethys Petroleum, David Robson, and the First Vice-President of the company Total, Michael Borrell, expressed their support for further development of cooperation and investment opportunities in the energy sector of Tajikistan and emphasised the value of the region’s development [15].

It is also worth noting the intensification of visits by high-ranking Brussels-based officials to Tajikistan. Over the period in question, Tajikistan was visited by the High Representative of the Union for Foreign Affairs and Security Policy, Catherine Ashton, the EU Special Representative for Central Asia, top officials of the European Commission, the European Parliament and the European Investment Bank (EIB). This is a clear indication of the EU’s genuine interest in expanding and deepening bilateral relations in the political, economic, trade, investment, financial, banking and humanitarian fields. EU leaders constantly emphasise the fact that Tajikistan is a reliable partner in strengthening regional security and countering terrorism, extremism, illicit drug trafficking and contemporary threats and challenges in Central Asia.

**The EU-Tajikistan Cooperation Council**

In 2010, in order to give effect to the PCA between Tajikistan and the EU and to address

the issues of bilateral cooperation in a timely fashion, the EU-Tajik Cooperation Council was established at foreign ministry level.

To date, four rounds of meetings of the EU-Tajik Cooperation Council have been held. The first three took place in Brussels (13 October 2010, 27 February 2012 and 1 October 2013). The latest meeting of the Council was held in Luxembourg on 20 October 2014. At that meeting, both sides exchanged views on a wide range of bilateral and international matters of mutual interest, and in particular a range of topics related to the current state and development of EU-Tajik relations in the fields of the economy, energy, culture, education, as well as effective implementation of the EU Strategy for Central Asia and the programmes implemented within the framework of that Strategy. A joint statement greeting the European Commission's decision on the adoption of a multi-annual indicative programme within the framework of the new strategy of the EU for Central Asia totalling €251 million was signed at the end of this fourth meeting of the EU-Tajikistan Cooperation Council [16]. Under this programme, €1 billion has been allocated for the Central Asian countries: 60% has been allocated to bilateral projects and 40% to regional projects, to be implemented in Tajikistan. Therefore, out of the abovementioned total grant aid for Central Asia, approximately 1/3 will be target towards social and economic development in Tajikistan. It is worth underlining that, within the framework of the previous Strategy for 2007-2013, €66 million was allocated to Tajikistan. These figures highlight the EU's growing commitment to Tajikistan [17].

**The EU-Tajikistan Cooperation Committee**

The EU-Tajikistan Cooperation Committee was set up in 2011 to strengthen and develop mutually beneficial cooperation in economic and trade spheres, as well as to attract EU investment and new technology into Tajik economy. During the period under review, four meetings of the Cooperation Committee were held (16 March 2011 in Dushanbe, 6 November 2012 in Brussels, 18 June 2014 in Dushanbe and 10 June 2015 in Brussels). At the Cooperation Committee's meetings, the issues discussed related to social and economic development, water and energy matters, trade and economic reforms and implementation of a multi-annual indicative programme in the education, healthcare and rural development sectors.

In 2010, the EU launched the Investment Facility for Central Asia (IFCA). The objective of this facility is to assist Central Asian countries in addressing issues related to the funding of key infrastructure, mainly in the fields of energy, climate change and its impact on environment, the social sector and the development and promotion of the activities of the private sector, especially small and medium-sized enterprises. IFCA is a financial mechanism based on a combination of grants provided in accordance with the EU's Development Cooperation Instrument (DCI) and loans provided by European financial institutions to encourage government-beneficiaries and state agencies to make major investments [18].

**Bilateral projects (EU projects implemented only within the territory of Tajikistan)**

Overall, as of 1 October 1 2015, the EU is involved in implementing 66 projects totalling €95,097,400 in the territory of the RT. These projects cover all sectors of the Tajik economy. Special attention has been given to financial support for the State budget, economic and social development, the private sector, the health sector, hydro energy and the rule of law.19

**Regional projects (EU projects implemented in the Central Asian region)**

It is worth emphasising that the majority of EU regional projects are being implemented in

the territory of the Republic of Tajikistan. Overall, as of 1 October 2015, 55 EU projects totalling €103,151,742 are under way. Most projects concern the fields of education, hydroenergy, the rule of law, economic and social development, strengthening the inviolability of borders (BOMCA), countering illicit drug trafficking (CADAP) and environmental protection [19].

In 2003, the European Commission, within the framework of the agreement signed with the UNDP, began to put into effect the BOMCA programme for implementation of modern methods of border management at the regional level in Central Asia. Within the framework of the BOMCA programme, training centres for border agencies and border crossing points were built or re-equipped, the professional capacity of managers and the staff of training centres was enhanced, and regional and national courses in “Training the trainers” were held. In 2011, the 8th phase of the BOMCA programme was launched. In 2012, a dog training centre for the Presidential Drug Control Agency was built [20].

At the same time, given Tajikistan’s key regional role in countering terrorism, extremism and illicit drug trafficking, and the fact that it has the longest border with Afghanistan in Central Asia, the EU needs to increase substantially the financial and technical support to the RT in these fields, as well as to provide material and technical support in enhancing Tajik-Afghan border security within the framework of the BOMCA and CADAP programmes.

**Cooperation between the Republic of Tajikistan and the European Union in the field of education**

Tajikistan-EU cooperation in the field of education takes place within the framework of the Erasmus Mundus and TEMPUS programmes. In the previous year, the European Commission began to implement a new project known as “Erasmus +” within the framework of the EU programme for Education, Training, Youth and Support for 2014-2020. The budget for this project for Central Asian countries is €8.68 million.

It is also worth noting that the roll-out of the TEMPUS project in Tajikistan has continued within the framework of common projects of European universities and partner countries in the Balkans, Eastern Europe, Central Asia, North Africa and the Middle East. From 2004 to 2012, 35 projects totalling €8.27 million were financed through this programme. Currently, 21 projects are being implemented based on 22 Tajik universities with the participation of non-academic institutions and the Ministry of Education and Science of the RT. It is important to note that the number of Tajik higher education institutions participating in European educational projects has increased more than five times (in 2009, only two higher education institutions were participating) over the last five years (2010-2015). The number of Tajik undergraduate, postgraduate and doctoral students in the universities of the EU has also increased more than 20 times (from only 18 students in 2009 to more than 400 in the period from 2010 to 2015). Obviously, Tajik higher education institutions must cooperate more actively on a bilateral basis with their European counterparts to receive fixed quotas for Tajik citizens to study at European universities. Meanwhile, the EU should address the issue of the allocation of respective quotas for Tajik citizens to study in European higher education institutions.

It is noteworthy that currently, within the framework of European education projects, the republic’s higher education institutions have established beneficial scientific and educational relations with 159 education institutions, including 65 universities in 18 EU Member States and 94 universities in partner states (in Central Asia, Georgia, Azerbaijan, the Russian Federation and Belarus) [19].

**The Tajik-EU Human Rights Dialogue**

The human rights dialogue between the RT and the EU is meant as a means of exchanging

views and discussing current issues of human rights compliance. During the period in question, seven meetings (23 September 2009 in Dushanbe, 15 November 2010 in Dushanbe, 25 October 2011 in Dushanbe, 6 August 2013 in Dushanbe, 17 June 2014 in Dushanbe and 11 June 2015 in Brussels) were held. During the course of the dialogue, the parties addressed human rights issues, respect for the freedom of speech and freedom of religious belief in Tajikistan and the improvement of citizens' access to legal aid, especially in penal facilities. Issues related to women's and children's rights were also addressed during the meetings. At the same time, the parties review and resolve issues related to the provision of practical aid to the Republic of Tajikistan in the areas discussed.

**The EU-Tajikistan Inter-Parliamentary Cooperation Committee**

The EU-Tajikistan Inter-Parliamentary Cooperation Committee was established to enhance multilateral cooperation between Tajikistan and the EU via parliamentary mechanisms, as well as for the purpose of the development of parliamentary democracy.

The meetings of the Inter-Parliamentary Cooperation Committee are held alternately in the capitals of Tajikistan and the EU. The first meeting of the Committee took place in Brussels on 15-16 March 2011, the second in Dushanbe on 3-5 May 2012 and the third one in Brussels on 11 July 2013.

During the meetings, the parties discussed international and regional matters, in particular the issues of countering illicit drug trafficking, terrorism and corruption, as well as the situation in Afghanistan and border security. Special significance is attached to the question of developing mechanisms for the EU to assist Tajikistan in attaining its priority strategic objectives: namely, achieving energy independence, food security and overcoming its communications isolation.

It should be noted that the Tajikistan-European Parliament Friendship Group, consisting of more than 30 MEPs, was established in the EP to promote the national interests of the RT.

On 28 January 2014, in the EP building, a conference on "Water and Energy as Instruments of Peacekeeping" was held under the chairmanship of the MEPs Struan Stevenson, the head of the inter-parliamentary group for climate change, biodiversity and sustainable development, and Christine Gutierrez, the head of the European Parliamentary Group for water issues. Before the conference's two panels the First Deputy Minister of Energy and Water Resources of the RT, Sulton Rahimov, made a presentation on Tajikistan's hydroenergy potential and State policy in this area.

Special attention is given to the intercultural dialogue between the RT and the EU. On 17 March 2015, at the initiative of the Permanent Representation of the Republic of Tajikistan to the European Union, in cooperation with the Delegation of the EU Parliament for relations with Central Asian countries, the Tajikistan-EP Friendship Group, and with the direct support of the EP's President, Martin Schulz, a gala reception was held to mark the International Day of Nowruz in the EP building, which helped to raise Tajikistan's international profile with the EU and to develop intercultural dialogue. At the initiative of the Permanent Representation of the Republic of Tajikistan to the European Union, the International Day of Nowruz will be celebrated annually in the EP building with the participation of MEPs.

**Meetings of the Foreign Ministers of the EU and Central Asia**

Four meetings of foreign ministers of the EU and Central Asian countries were held from 2010 until 2013. At the plenary meetings, key initiatives and future perspectives for EU-Central Asia cooperation were discussed, as well as issues related to security and regional cooperation. It should be emphasised that Tajikistan uses this format to put forward ideas for enhancing regional cooperation in trade, the economy, investment, water and energy,

transport and humanitarian matters, as well as for close cooperation to achieve solid regional security and joint efforts in countering contemporary challenges and threats. During the ministerial meetings, questions relating to the state of and prospects for development of multilateral ties between the RT and the EU are debated in depth on a bilateral basis.

**High-level Dialogue on Security between the EU and Central Asian Countries**

In 2013, in view of situation in Afghanistan, the EU launched a new project for dialogue on security issues in Central Asia on the level of Deputy Foreign Ministers. The first meeting under the high-level dialogue of the EU and Central Asian countries on security was held in Brussels on 13 June 2013. The second meeting took place in Dushanbe on 10-11 March 2015. At these meetings, the following issues were discussed:

- Countering illicit drug trafficking, terrorism and extremism;
- Prevention of chemical, biological, radioactive and nuclear threats in the Central Asian region;
- Countering radicalisation and the phenomenon of foreign fighters;
- Migration policies and future challenges, including the reintegration of economic migrants;
- Attainment of the EU Strategy for Central Asia in the field of security;
- Addressing the situation in Afghanistan and providing assistance to the Afghan government in ensuring peace and stability and the development of regional cooperation;
- Supporting stability in Afghanistan via external cooperation for peace;

It should be noted that the European Union places particular importance on the vision and stance of Tajikistan on the matters discussed, taking into account the republic's geographical position and its key role in countering new challenges and threats, as well as the potential of Tajikistan in helping achieve peace and stability in Afghanistan.

**Cooperation between the Republic of Tajikistan and the European Investment Bank**

For the last five years, the development of cooperation with such key European financial and investment institutions as the EIB and the European Bank for Reconstruction and Development (EBRD) has been given a strong impetus. The EIB, which is the European Union's bank, founded in 1958 based on the Rome Treaty on establishment of the European Community, contributes to integration, balanced development and the economic and social cohesion of the EU Member States by means of concrete investments. In Central Asia, the EIB supports the EU policy to diversify energy resources, focusing its lending on energy supply and energy transmission projects and the protection of environment. In February 2009, the EIB began investing in the Republic of Tajikistan.

On 11 February 2009, the President of the RT, E. Rahmon, and the President of the EIB, Philippe Maystadt, signed a framework agreement, which laid the foundations for the future regulation of EIB funding in Tajikistan. The Republic of Tajikistan was one of the first Central Asian countries with which the EIB signed a framework agreement. The President of the EIB, Philippe Maystadt, commented at the time: "the Framework Agreement between the Republic of Tajikistan and the EIB opens the way for EIB financing of projects in Tajikistan. The focus will be on the financing of major energy projects of common interest both to Tajikistan and the European Union. We look forward to developing EIB's activities in the country in a close cooperation with the European Commission, the EBRD and other IFIs operating in Tajikistan." [21]

During President Rahmon's official visit to the headquarters of the EIB in Luxembourg on 10 June 2011, the first loan agreement was signed between the EIB President and the Minister of Finance of the RT, Safarali Nadjmuddinov. The EIB President welcomed the fact that "EIB funds will be supporting this flagship project that will contribute to the

renovation of the electricity network, the reduction of distribution losses and the promotion of the economically sustainable development of the energy sector in the Republic of Tajikistan." [22] This was the first EIB loan to Tajikistan, providing for the financing of the installation of electricity meters with auxiliary equipment for satisfying demand and the energy grid, the reduction of distribution losses and improved energy efficiency in the Sughd Region of the country. The project is a good example of cooperation between partner International Financial Institutions, since it was financed by the EIB and the EBRD (€7 million each), along with grant support from the Investment Facility of the European Commission for Central Asia totalling €7 million.

On 11 April 2013, within the framework of President Rahmon's official visit to the EU institutions in Brussels, the Vice-President of the EIB, Wilhelm Molterer, and the Chairman of the State Committee for Investments and Management of State Property of the RT, Davlatali Saidov, signed a Memorandum of Understanding, which must be seen as an important step in the deepening of cooperation between Tajikistan and the EIB. Molterer said that "This Memorandum of Understanding will help to promote the cooperation between the EIB and the Republic of Tajikistan focused on project financing, so benefiting both the EU and Tajikistan. Priority sectors for EIB financing are renewable energy sources including hydropower generation, energy efficiency and agricultural infrastructure in the context of the broader objective of climate change mitigation and the adaptation and development of social and economic infrastructure." [23] The Memorandum envisages close cooperation between the EIB and EBRD in conducting an expert assessment on the economic feasibility of the Kayrakkum HPP rehabilitation project.

In December 2013, the Minister of Finance of the RT, Qurbonov Abdusalom, formally asked the EIB's President, Werner Hoyer, for the bank's financial assistance in the implementation of the energy trade development project CASA-1000 (Central Asia-South Asia). On 16 June 2014, the EIB's Board of Directors approved €70 million for the CASA-1000 project. The EIB's Vice-President said "The EIB loan will help improve the reliability and capacity of vital energy infrastructure needed for improving the quality of life of Tajik citizens and for further economic development in the region. The new energy infrastructure will foster electricity trade with neighbouring countries and make it possible to attract foreign investors due to safer energy supplies." [24].

The EIB is also considering two new financial operations for the coming years: 1) rehabilitation of the Kayrakkum HPP – Phase II and 2) framework credit for the development of agriculture and value chains for the development of rural areas based on the funds available for Central Asia during the course of the financial mandate for 2014-2020.

## 4. What is the confidence in the partnership between the Republic of Tajikistan and the European Union based on?

The Republic of Tajikistan and the European Union see each other as reliable partners. What is this based on? What do Tajikistan and the European Union want from each other?

**For Tajikistan, the following is important:**

- Strengthening the foundations of statehood through the EU's comprehensive assistance;
- Receiving practical aid in training and retraining national cadres in all areas of State-building. In the last few years (2010-2015), the number of national cadres (staff of the Ministry of Foreign Affairs, Ministry of Defence, Ministry of Internal Affairs, Ministry of Finance, Ministry of Economic Affairs, Migration Service, Ministry of Health, Customs Administration, and Presidential Drug Control Agency) trained and retrained by

the EU in European higher education institutions has increased more than 10 times;

- Assistance by Brussels in the implementation of social and economic objectives and creative programmes for Tajikistan though the help of the financial and investment wherewithal of the EIB, the EBRD and the Investment Facility of the EU for Central Asia;
- Impartial assessment of and support for Tajikistan's water and energy policy addressing strategic objectives. At the same time, support for the republic's aspiration for closer cooperation with the other countries in the region in order to resolve the immediate social and economic issues via rational utilisation of water resources.

**For the European Union, it is important that:**

- Tajikistan develops and strengthens the foundations of democratic statehood with effective management;
- Tajikistan is a secular, democratic, stable, and steadily developing State;
- Tajikistan reinforces security along the border with Afghanistan and continues to be a reliable partner, acting as a shield in the region for countering terrorism, extremism and illicit drug trafficking, which could seriously threaten EU security;
- Tajikistan is one of the major players in establishing and fostering close multidimensional cooperation in the region.

The areas laid out in the article are, although not limited to, the key ones for mutually supportive and long-term cooperation between the RT and the EU.

**Priority Areas for Future Cooperation between the Republic of Tajikistan and the European Union**

Based on the analysis and research carried out, the following priority areas for potential future cooperation between the Republic of Tajikistan and the European Union have been identified:

- Comprehensive assistance in improving the population's well-being in the context of the Millennium Development Goals;
- Facilitation of effective public administration;
- Further enhancement of trade, economic, and investment ties, and facilitation of the implementation of economic reforms and creative programmes with the support of the EU's financial and investment institutions;
- Democratisation of society and improvement of mechanisms for human rights protection;
- Support for Tajikistan as a Central Asian country on the frontline of efforts to counter terrorism, extremism and illicit drug trafficking, and in reinforcing Tajik-Afghan border security;
- Further enhancement and deepening of cooperation in the fields of education, training and retraining of staff of Tajikistan's different ministries and agencies.
- Facilitation of regional cooperation and enhancement of regional security

Identifying the prospects for cooperation between the Republic of Tajikistan and the European Union, as reflected in the Foreign Policy Concept of the Republic of Tajikistan of 27 January 2015, is fundamental in this context. "A positive breakthrough has occurred in the relationship between Tajikistan and the European Union since the beginning of the XXI century and this trend has gathered speed with every passing year. With a view to promoting the development of the major areas of the national economy, Tajikistan acknowledges the European Union as one of its most important economic partners and will continue to seek the expansion and deepening of the long-term sustainable cooperation with this influential interstate association on the basis of the principle of mutual benefit. This interaction in general will embrace all the European institutions, including the European Parliament, the Council of the Europe Union, the European Investment Bank and other organisations and agencies." [25].

**References:**


1. Address by H.E. EmomaliRahmon, the President of the Republic of Tajikistan to the Majlisi Oli of the Republic of Tajikistan 23.01.2015, Dushanbe
2. The European Union (EU) is an economic and political union of 28 European states. Formed out of the European Community set up under the 1957 Treaty of Rome, the European Union was established by Maastricht Treaty in 1992. The EU has a population of more than 500 million and accounts for around 20% of world gross domestic product. The euro is the single currency of 19 EU Member States. The EU institutions include the European Council, the European Commission, the Council of the European Union, the Court of Justice of the European Union, the European Court of Auditors, the European Central Bank and the European Parliament. The European Parliament is elected by the EU citizens every five years. In 2012, the EU was awarded the Nobel Peace Prize.
3. B.T.Nazirov, International legal foundations of cooperation between the Republic of Tajikistan and the European Union. Dissertation for a Doctor of Laws, Dushanbe, 2011; J.T. Hamidov, The Principal Areas of Relations of the Republic of Tajikistan with the European Union. Dissertation for a PhD in Political Science, Dushanbe, 2011.
4. A. Holiki, N.T. Rahimov. Tajikistan and the European Union: Perspectives of Cooperation. http://www.tsulbp-journal.narod.ru/jurnal/matn_2/holiki_a.html; R. Alieva. Improvement and Development of External Relations of the Republic of Tajikistan with the European Union. Scientific notes of the Khujand State University named after the academician BobojonGhafurov. Human Sciences. Issue № 2(22)/2010. pp. 95-106; B.M. Rizoev, R.A. Mirmatov. The State and Perspectives of Cooperation between the European Union and the Republic of Tajikistan. Vestnik TGUPBP № 2(46), 2011. pp. 80-86.
5. D.A.Umerov. Cooperation between the European Union and the Republic of Tajikistan in Ensuring Central Asian Security. MolodoyUcheniy (Young Scientist). 2014. № 6. pp. 625-627.
6. S.A.Solikhojaeva. On Cooperation between Tajikistan and the European Union. Scientific notes of the Khujand State University named after the academician BobojonGhafurov. Human Sciences. Issue № 2 (39)/2014. pp. 162-171.
7. A.Warkotsch. “The European Union and Central Asia”. Routledge – 2011 – p. 206
8. Neil J. Melvin “Engaging Central Asia. The European Union’s New Strategy in the Heart of Eurasia”.http://aei.pitt.edu/32610/1/49._Engaging_Central_Asia.pdf
9. Website of the President of Tajikistan: http://www.president.tj/ru/node/1275
10. “Statement by President Barroso following His Meeting with Mr EmomaliRahmon, President of Tajikistan.” Press Release Database. European Commission, 10 Apr. 2013. Web.<http://europa.eu/rapid/press-release_SPEECH-13-299_en.htm>.
11 “Statement by EU High Representative Catherine Ashton following her meeting with Tajik President, EmomaliRahmon” Press Release Database. Council of the European Union, the European Council, 9 Apr. 2013. Web.
12. Press statement of EmomaliRahmon and Martin Schulz. NezavisimoeMnenie. N.p., 12 Apr. 2013. Web.http://nm.tj/politics/7988-zayavlenie-emomali-rahmona-i-martina-shulca-dlya-pressy.html
13."Herman Van Rompuy “We Always Support Tajikistan's Position"" National Information Agency of Tajikistan. NIAT

"Khovar", 13 Apr. 2013. Web.<http://www.khovar.tj/>.

14. "AndrisPiebalgs: the European Commission Will Continue Supporting Tajikistan." Asia-Plus. Asia Plus Media Group, 11 Apr. 2013. Web.<http://www.news.tj/ru/node/141266>.
15. Website of the President of Tajikistan, http://president.tj/ru/node/4254
16. Records of the meetings of the Tajikistan-EU Cooperation Committee
17. Press release of the Ministry of Foreign Affairs of RT, http://mfa.tj/ru/novosti-i-sobytiya/zasedanie-soveta-po-sotrudnichestvu-mezhdu-tadzhikistanom-i-evropeyskim-soyuzom.html
18. European Commission Directorate-General for International Cooperation and Development. IFCA, Central Asia Investment Facility. Rep. N.p.: n.p., 2012. Web: http://bookshop.europa.eu/en/ifca-central-asia-investment-facility-pbMNAI12002/
19. Archive material of the Permanent Representation of the Republic of Tajikistan to the European Union
20. Website of the Presidential Drug Control Agency, Brochure "Tajikistan – Strong Bulwark against the "Northern Route" ", 11.07.2012, http://rus.akn.tj/index.php?option=com_content&view=article&id=631%3A-l-l-r&Itemid=27
21. Press release by the European Investment Bank, 11 February, 2009, Reference: 2009-017 EN, http://www.eib.org/infocentre/press/releases/all/2009/2009-017-eib-is-ready-to-support-projects-in-tajikistan.htm
22. Press release by the European Investment Bank, 10 June 2011, Reference: 2011-078-EN, http://www.eib.org/infocentre/press/releases/all/2011/2011-078-the-official-visit-of-the-president-of-the-republic-of-tajikistan-h-e-emomali-rahmon-to-the-eib.htm
23. Press release by the European Investment Bank, 11 April, 2013, Reference: 2013-045-EN, http://www.eib.org/infocentre/press/releases/all/2013/2013-045-eib-and-republic-of-tajikistan-sign-mou-to-foster-mutual-cooperation.htm
24. Press release by the European Investment Bank, 11 June, 2015, Reference: 2015-130-EN, http://www.eib.org/infocentre/press/releases/all/2015/2015-130-eib-supports-power-interconnection-between-tajikistan-and-kyrgyzstan.htm
25. Foreign Policy Concept of the Republic of Tajikistan of 27 January 2015 http://mfa.tj/ru/pravovaya-osnova-vp/kontceptciya-vneshney-politiki-respubliki-tadzhikistan.html

***Key words:*** *Republic of Tajikistan, European Union, Partnership and Cooperation Agreement*

**Rüstəm Soli**
*Tacikistan Respublikasının Azərbaycan Respublikasındakı*
*Fövqəladə və Səlahiyyətli Səfiri, siyasi elmlər namizədi*

## TACİKİSTAN VƏ AVROPA BİRLİYİ: SABİT ƏMƏKDAŞLIQ

### XÜLASƏ

Tacikistan Respublikası ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi, investisiya, təhsil və humanitar sahələrdə əməkdaşlığın kökləri, dinamikası və prioritetləri, həmçinin terrorizmə və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə və 1 yanvar 2010-cu il tarixində Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin qüvvəyə minməsi və bu günə qədər sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə bu məqalədə ətraflı təhlil edilir. Bu dövr ərzində Tacikistan ilə Avropa Birliyi arasında əməkdaşlığın dinamik inkişafı ilə xarakterizə edilib. Bu məqalə Tacikistan Respublikası ilə Avropa İttifaqı arasında etibarlı əməkdaşlıq konsepsiyasını əsaslandırır.

***Açar sözlər:*** *Tacikistan Respublikası, Avropa Birliyi, tərəfdaşlıq və əməkdaşlıq müqaviləsi*

**Рустам Соли**
*Чрезвычайный и Полномочный Посол Республики Таджикистан*
*в Азербайджанской Республике, кандидат политических наук*

## ТАДЖИКИСТАН И ЕВРОПЕЙСКИЙ СОЮЗ: СТАБИЛЬНОЕ СОТРУДНИЧЕСТВО

### РЕЗЮМЕ

Эта статья подробно анализирует происхождение, динамику и приоритеты сотрудничества между республикой Таджикистан и Европейским союзом в политическом, экономическом, инвестиционном, образовательном и гуманитарном областях, а также в целях противостоянии терроризму и незаконному обороту наркотиков, и в усилении безопасности границы от 1 января 2010, дате формального вступления в силу Партнерства и Соглашения о сотрудничестве, до настоящего времени. Этот период был характеризован динамическим развитием сотрудничества между Таджикистаном и Европейским союзом. Настоящая статья дает обоснование понятия надежного сотрудничества между республикой Таджикистан и Европейским союзом.

***Ключевые слова:*** *Республика Таджикистан, Европейский союз, партнерство и соглашение о сотрудничестве*

B E Y N Ə L X A L Q   M Ü N A S İ B Ə T L Ə R
I N T E R N A T I O N A L   R E L A T I O N S

UOT 327-027.21

**MƏHSƏTİ ƏLİYEVA**
**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin baş məsləhətçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent əvəzi**
*e-mail: mehseti-777@mail.ru*

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN MEYDANA GƏLMƏSİ VƏ İNKİŞAFI

## Giriş

Beynəlxalq münasibətlər tarixən istənilən dövlətin, cəmiyyətin, müxtəlif təşkilatların həyatında kifayət qədər əhəmiyyətli yerə və rola malik olmuşdur. Dövlətlərin meydana gəlməsi, dövlətlərarası sərhədlərin formalaşması, siyasi rejimlərin yaranması və dəyişməsi, müxtəlif sosial institutların meydana gəlməsi, mədəniyyətlərin, elmin inkişafı, texniki tərəqqi və s. ticarət, maliyyə, mədəni və digər mübadilələrlə sıx şəkildə əlaqəlidir. Təbii ki, bu əlaqələr elə dövlətlərarası, dövlət ittifaqları arasında əlaqələrin və ya diplomatik əlaqələrin müxtəlif təzahür formalarıdır. Bütün bunları ümumi şəkildə beynəlxalq münasibətlər kimi ifadə etmək mümkündür. Müasir dövrdə müxtəlif xarakterli qarşılıqlı əlaqələr və ya münasibətlər böyük dinamikliklə inkişaf etməkdədir. Bu inkişaf bəşər cəmiyyətinin inkişafı ilə birbaşa bağlıdır. Yəni, beynəlxalq münasibətlər ayrı-ayrı cəmiyyətlərin müxtəlif xarakterli inkişaf istiqamətləri ilə bağlıdır və bu inkişafı şərtləndirən başlıca amildir.

## Dövlətlərarası münasibətlərə dair yanaşma

Dövlətlərarası münasibətlər lap qədim zamanlardan dövrünün müdrik insanlarını yaxından maraqlandırmışdır. Bu haqda müxtəlif fikirlər meydana gəlmişdir. Dövlətlərarası münasibətlərin dərin təhlili ilk dəfə olaraq iki min il əvvəl Fukidid tərəfindən verilmişdir. “Peloponnes müharibəsinin tarixi yeddi kitabda” adlı əsərində o, bu məsələlərlə bağlı mülahizələrini irəli sürmüşdür. Bu əsərdə yer almış bir sıra mülahizələr müasir günümüzdə də aktuallığını saxlamaqdadır. Uzunmüddətli, yorucu müharibənin səbəblərini araşdıran müəllif onun subyektlərinin (afinalılar və lakedemonyanlar) qüdrətli və tərəqqi edən xalqlardırlar və onlardan hər biri öz rəqibinin üzərində üstünlüyünü təmin etməyə çalışır. Bununla da dövlətlər arasında sonradan müharibəyə çevrilən ziddiyyətlər və ya münaqişələr meydana gəlmişdir. Onun fikrincə, afinalıların davranışları qarşı tərəfdən özü üçün təhlükəli qəbul olunmuşdur və onu müharibəyə başlamağa sövq etmişdir. Lakedemonyanlar etiraf edirdilər ki, sülh pozulmuşdur və müharibəyə başlamaq zərurəti yaranmışdır [1, s.23]. Bu müharibənin başlanmasını şərtləndirən əsas məqam afinalıların güclənməsi ilə bağlı idi. Fukidid əsaslandırır ki, iki subyekt arasında ən təsirli arqument rolunda ancaq güc çıxış edə bilər. Dövlətlərarası münasibətləri səciyyələndirən tarixçi qeyd edir ki, zəiflər həmişə güclülər tərəfindən dəf olunurlar. Bununla yanaşı, Fukidid hesab edir ki, dövlətin gücü və qüdrəti əsas məqsəd deyildir. Onlar yalnız dövlətin maraqlarının, nüfuzunun və təhlükəsizliyinin qorunması alətləri rolunda çıxış edirlər [7, s.10]. Qeyd etmək lazımdır ki, Fukidid gücün və zorakılığın tərəfdarı deyildi. O, təəssüflə gücə istinadın qaçılmaz olduğunu qeyd edirdi. Fukidid dövlətlərarası qarşılıqlı münasibətlərdə hüquq normalarının rolunu yüksək qiymətləndirirdi. Lakin qeyd edirdi ki, dövlətlərin gücləri bərabər olduğu halda hüquq

normaları təsirli olur. Belə olmadığı halda isə, hüquq gücsüzdür və güclü dövlət istədiyi kimi davranır, zəif isə güzəştə getmək məcburiyyətində qalır. Beləliklə, göründüyü kimi, Fukidid müasir siyasi elmdə ən təsirli cərəyanlardan birinin əsasını qoymuşdur. Sonrakı dövrdə bu cərəyan klassik adını almışdır və Nikolo Makiavellinin, Tomas Hobbsun, Emerik de Vattelin və digərlərinin baxışlarında ifadəsini tapmışdır. Belə yanaşma tərzi avstriyalı hərbi nəzəriyyəçi Karl fon Klauzevitsin əsərində özünün tam bitkin formasını almışdır.

T.Hobbs hesab edirdi ki, insan, təbiəti etibarilə eqoistdir. Onda hakimiyyət hərisliyi vardır. Təbiətən insanlar qabiliyyətlərinə görə qeyri-bərabər olduqlarına görə onlar arasındakı rəqabət, qarşılıqlı etimadsızlıq, maddi resurslara can atmaları “hamının hamıya qarşı müharibəsinə” gətirib çıxarır. Müharibə insan qarşılıqlı münasibətlərinin təbii vəziyyətidir. Qarşılıqlı məhvolmadan qurtulmaq üçün insanlar ictimai müqavilə bağlamaq məcburiyyəti qarşısında qalırlar. Bunun da nəticəsi dövlətdir-Leviafandır. Bu, insanların könüllü şəkildə öz hüquq və azadlıqlarını dövlətə verməsi yolu ilə baş tutur. Dövlət də bunun əvəzində ictimai asayişi, sülhü və təhlükəsizliyi təmin edir. Bununla da insanlar arasındakı münasibət süni xarakter alır. Buna baxmayaraq, dövlətlər arasındakı münasibətlər özünün təbii vəziyyətində qalmaqda davam edir. Bu təbii vəziyyət də, artıq qeyd olunduğu kimi, müharibə vəziyyətidir. Müstəqil olduqlarına görə dövlətlər heç bir məhdudiyyətlərlə bağlı olmurlar. Dövlətlərin hər birinə nə əldə etməyə qadirdilərsə, o da məxsusdur. Dövlətlərarası münasibətlərin yeganə tənzimləyicisi gücdür. Bu münasibətlərin iştirakçıları isə qladiatorlar vəziyyətində olurlar. Belə ki, onlar silahlarını hazır tutaraq, biri-birilərinin davranışlarını ehtiyatla izləyirlər [6, s.71].

T.Hobbsun bu ənənəsinin bir istiqamətini də hollandiyalı mütəfəkkir B.Spinoza, ingilis filosofu D.Yum və Emerik de Vattel dəstəkləmişlər. T.Hobbsdan fərqli olaraq Emerik de Vattel dövlətlərarası münasibətlərə o qədər də bədbin baxmır. O, hesab edir ki, dünya dəyişmişdir, ən azından Avropa hamının münasibətlərlə və millətlərin müxtəlif maraqları ilə birləşdiyi siyasi sistemi ifadə edir. Artıq vəziyyət dəyişmişdir və insanların onlara aid olmayanlara maraq göstərmədiyi zaman keçmişdir. Dövlətlərin bütün Avropada baş verənlərə maraq göstərmələri, səfirlərin səfərləri, danışıqlar və s. ümumi maraqların da meydana gəlməsini şərtləndirmişdir. De Vattel hesab edir ki, məhz belə vəziyyət siyasi bərabərliyi, hakimiyyət bərabərliyi ideyasını əhəmiyyətli dərəcədə gücləndirmişdir. Bununla yanaşı, de Vattel klassik ənənəyə uyğun olaraq hesab edirdi ki, millətin maraqları ilə müqayisədə ayrı-ayrı şəxslərin maraqları ikinci dərəcəlidir. Dövlətin xilas olunmasından söhbət gedən zaman əlavə ehtiyatlı olmağa ehtiyac yoxdur. Əgər təhlükənin mövcudluğuna asanlıqla inanılırsa, bunda özünün müəyyən məqsədlərini nümayiş etdirən qonşu günahkardır. Bu, o deməkdir ki, təhlükəli qonşuya qarşı preventiv müharibə qanuni və ədalətlidir. Bəs qonşunun gücü digər dövlətlərin gücünü ciddi şəkildə üstələdiyi halda nə etmək lazımdır? Bu suala cavab verərək de Vattel qeyd edir ki, bu zaman ən düzgün yol koalisiya yaratmaqdan ibarətdir. Belə olan halda ən güclü dövlətə qarşı gəlmək olar və onun öz iradəsini diktə etməsinin qarşısını almaq mümkündür. Hazırda Avropa dövlətləri belə davranırlar. Onlar biri-birilərini qarşılıqlı şəkildə dəf etməyə çalışan iki dövlətdən daha zəifi ilə birləşirlər. Bununla da qüvvələr balansını təmin etməyə çalışırlar.

Klassik ənənə XIX əsrdə daha tam şəkildə Karl fon Klauzevitsin baxışlarında öz ifadəsini tapmışdır. Karl fon Klauzevits özünün “Müharibə haqqında” əsərində beynəlxalq münasibətlərin mahiyyətinin dövlətlər arasındakı münasibətlərdən ibarət olduğunu təsdiqləyir. Siyasəti də öz növbəsində dövlətin xarici mühitə münasibətdə strateji xətti kimi nəzərdən keçirir. Bu zaman o, əsaslandırır ki, müharibə sadəcə siyasətin alətidir. Müharibə siyasi məqsədlərə çatmaq üçün bir vasitədir. Yəni, Karl fon Klauzevits hesab edir ki, müharibə siyasətin başqa yolla davam etdirilməsidir [6, s.93].

Klassik ənənə ilə yanaşı, Avropada xristianlığın inkişafı və bir sıra mütəfəkkirlərin baxışları ilə əlaqələndirilən digər ənənə də formalaşmışdır. Bu mütəfəkkirlərdən Frantsisko de Vitorianı, Huqo Qrotsiyni, İmmanuil Kantı xüsusi qeyd etmək lazımdır. Bu ənənənin əsasında insanlığın mənəvi və siyasi vahidliyi, həmçinin, insanın ayrılmaz, təbii hüquqları haqqında ideya dayanır. Müxtəlif dövrlərdə bu ideya fərqli formalarda ifadə olunmuşdur. Məsələn, F. Vitorianın yanaşmasına görə insanla dövlət arasındakı münasibətlərdə prioritet insana aiddir. Dövlət isə, insanların yaşamını yüngülləşdirən sadə zərurətdən başqa bir şey deyildir. Son nəticədə insan nəslinin vahidliyi onun ayrı-ayrı dövlətlərə bölünməsini süni edir. İnsanın normal, təbii hüququ onun sərbəst yerdəyişməsindən ibarətdir. Başqa tərzdə ifadə etmiş olsaq, Vitoria insan hüquqlarının qorunmasını dövlətin əsas vəzifəsi kimi təqdim edir. Göründüyü kimi, bu müasir liberal-demokratik yanaşmanı hətta üstələyir.

Nəzərdən keçirilən ənənənin tərəfdarları hesab edirlər ki, insanlar arasında əbədi sülhə çatmaq mümkündür. Bunun yolu ya beynəlxalq münasibətlərin hüquqi və mənəvi tənzimlənməsindən, tarixi zərurətin özünüifadəsi ilə əlaqəli olan digər yollardan ibarətdir. Məsələn, Kant  hesab edir ki, insanlar arasındakı ziddiyyətə və tamaha əsaslanan münasibətlər gec-tez hüquqi cəmiyyətin qurulmasına gətirib çıxaracaqdır. Həmçinin, dövlətlər arasında münasibətlər də daimi, harmonik tənzimlənən sülhü təmin edəcəkdir. Bu ənənənin tərəfdarları mənəviyyata və hüquqi arqumentlərə istinad edirlər və insan hüquqlarının ayrılmazlığında israr edirlər. Bu səbəbdən bu ənənə liberal-idealist yanaşma kimi nəzərdən keçirilir [9, s.183].

XIX əsrin ortalarında marksizm ideyalarının meydana gəlməsi beynəlxalq münasibətlərdə daha bir ənənənin yaranmasını şərtləndirmişdir. Bu ənənə nə klassik, nə də liberal-idealist ənənəyə yaxın idi. K.Marksa görə ümumdünya tarixi kapitalizmdən başlayır. İstehsalın kapitalist üsulunun əsasını vahid dünya bazarını formalaşdıran iri sənaye, nəqliyyat və əlaqə vasitələri təşkil edirlər. Dünya bazarını istismar etmək yolu ilə burjuaziya bütün ölkələrinin istehsalını və tələbatını kosmopolitləşdirir və hakim sinfə çevrilir. Bu proses də təkcə ayrı-ayrı dövlətlərdə deyil, bütün dünya miqyasında cərəyan edir. Lakin burjuaziyanın inkişaf etdiyi səviyyədə elə proletariat da inkişaf edir. İqtisadi müstəvidə beynəlxalq münasibətlər istismar münasibətlərinə çevrilir. Siyasi müstəvidə isə hakim və tabe olanlar münasibətlərinə çevrilir. Bu da sinfi mübarizə və inqilab nəticəsində yaranmış münasibətlərdir. Bununla da milli suverenlik, dövlət maraqları ikincidərəcəlidir. Obyektiv qanunlar ümumdünya cəmiyyətinin formalaşmasını şərtləndirir. Bu cəmiyyətdə isə, hərəkətverici qüvvəsinin sinfi mübarizədən və proletariatın ümumdünya-tarixi missiyasından ibarət olduğu kapitalist iqtisadiyyatı hökmranlıq edir. K.Marksın fikrincə, burjuaziyanın inkişafı ilə, ticarətin azadlığı ilə, ümumdünya bazarın mövcudluğu ilə xalqların milli xüsusiyyətləri və fərqləri getdikcə daha sürətlə itməyə başlamışdır. V.İ.Lenin də öz növbəsində hesab edirdi ki, kapitalizm özünün inkişafının dövlət-inhisarçı mərhələsinə keçməklə, imperializmə tranformasiya edir. O, özünün "İmperializm kapitalizmin yüksək mərhələsi kimi" adlı əsərində yazır ki, dünyanın imperialist dövlətləri tərəfindən siyasi bölgüsündən sonra, onun inhisarlar arasında iqtisadi bölgüsü mərhələsi başlayır. İnhisarçılar hər zaman bazar qıtlığı problemi ilə üzləşirlər və daha çox gəlir əldə etmək üçün kapitalı zəif inkişaf etmiş ölkələrə yönəldirlər. Bu zaman onlar sərt rəqabətlə üzləşirlər. Bu rəqabət də dünya siyasi böhranlarına, müharibələrə və inqilablara rəvac verir.

Beynəlxalq münasibətlər haqqında yuxarıda nəzərdən keçirdiyimiz nəzəri ənənələr öz aktuallığını müasir dövrümüzdə də saxlamaqdadırlar.

### Beynəlxalq münasibətlərdə əsas paradiqmalar

Paradiqma dedikdə, nəzəri və empirik tədqiqatları istiqamətləndirən müəyyən baxışlar

məcmusu nəzərdə tutulur. Bu və ya digər paradiqmadan yaranan nəzəriyyələr əksər hallarda biri-birilərindən fərqlənirlər və öz aralarında rəqabət aparırlar. Lakin nəzəriyyələrin rəqabətindən fərqli olaraq, paradiqmaların rəqabəti elmin obyektinə və onun əsas problemlərinin öyrənilməsinə yanaşma məsələlərinə aid olur. Müxtəlif paradiqmaların təmsilçiləri müxtəlif yanaşmalardan çıxış edirlər və müxtəlif problemləri əsas kimi fərqləndirirlər. Belə paradiqmaların sayı bir qayda olaraq, çox olmur. Beynəlxalq münasibətlərdə bir neçə paradiqma fərqləndirilir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, beynəlxalq münasibətlər sahəsinin mütəxəssisləri əsas paradiqmalarla bağlı oxşar mövqelərə malikdirlər. Bunlara aşağıdakılar aiddirlər:

-liberal-idealist paradiqma;

-siyasi realizm paradiqması;

-marksist və ya sosialist paradiqması [2, s.31].

Bu paradiqmalar əsasında müxtəlif, eyni zamanda ən müasir beynəlxalq münasibətlər nəzəriyyələri yaradılır. Bu baxımdan bu paradiqmaların mahiyyətinə daha yaxından diqqət yetirmək vacibdir.

Liberal-idealist paradiqma, artıq əvvəlki hissədə nəzərdən keçirdiyimiz kimi, Fukididin, Makiavellinin, de Vattel və Klauzevitsin nəzəri irsidir. Liberal-idealist paradiqmanın əsas müddəaları aşağıdakılardan ibarətdir:

-beynəlxalq münasibətlərin iştirakçılarının dairəsi kifayət qədər genişdir. Buraya dövlətlərlə yanaşı, beynəlxalq hökumət və qeyri-hökumət təşkilatları, ictimai birliklər, özəl müəssisələr, hətta, ayrı-ayrı şəxslər daxildirlər. İdealistlər hesab edirlər ki, dövlət rasional və unitar aktor kimi nəzərdən keçirilə bilməz. Dövlətlərin beynəlxalq siyasəti daimi mübarizəni xatırladır;

-beynəlxalq təşkilatların səlahiyyətlərinin artırılması, beynəlxalq hüquq normalarının təkmilləşdirilməsi, beynəlxalq münasibətlərin demokratikləşdirilməsi, bütün aktorların beynəlxalq siyasətdə bərabərhüquqlu iştirakını təmin edir;

-beynəlxalq proseslər rəngarəngdir və beynəlxalq münasibətlər ancaq sülh və müharibə vəziyyəti ilə uzlaşdırıla bilməz. Hətta, yalnızca əməkdaşlığa və münaqişəyə də aid edilə bilməz. Bunların hər birinin özünəməxsus yeri və rolu vardır;

-beynəlxalq aktorların plüralizmi həmçinin, onların məqsədlərinin plüralizmini nəzərdə tutur. Bütün bu müxtəliflik fonunda ümumbəşəri dəyərlər və universal demokratik prinsiplər prioritet təşkil edirlər;

-demokratik dövlətlərdən ibarət olan dünya birliyi ictimai rəyin təsiri altında meydana çıxan münaqişələri sülh yolu ilə aradan qaldıra bilərlər. Bu zaman beynəlxalq təşkilatların rolu həlledici ola bilər;

-beynəlxalq münasibətlərdə cərəyan edən dəyişikliklər onda anarxik təbiətin tamam itməsini təmin edəcəkdir. Bununla da müharibələrə və münaqişələrə son qoyulacaqdır. BMT rəhbərliyi altında dünya hökumətinin yaradılacağı da istisna deyildir;

Yuxarıda nəzərdən keçirilən müddəalardan göründüyü kimi, liberal-idealist paradiqma çərçivəsində beynəlxalq münasibətlərin təhlilinin əsas prinsipi rolunda universal dəyərlər və demokratiyanın idealları çıxış edirlər. Beynəlxalq münasibətlər tarixində əsrlər boyu mövcud olmuş idealist paradiqma hazırkı dövrdə də müəyyən təsirini saxlamaqdadır. Bu təsir beynəlxalq münasibətlərin demokratikləşdirilməsi və humanistləşdirilməsi istiqamətində atılan praktik addımlarda özünü büruzə verməkdədir.

Siyasi realizm idealizmi sərt tənqid edir. Siyasi realizmin nümayəndələri hesab edirlər ki, idealist düşüncə tərzi ikinci dünya müharibəsinin baş verməsini şərtləndirmişdir. Bu istiqamətin ən tanınmış nümayəndələrindən H.Morgentaunu və R.Aronu qeyd etmək olar. Belə ki, H.Morgentaunun “Millətlərarasında siyasi münasibətlər. Hakimiyyət və dünya uğrunda mübarizə” adlı əsəri siyasi elmi öyrənənlərin stolüstü kitabına çevrilmişdir [3, s.76].

Siyasi realizm paradiqmasının əsas müddəalarını aşağıdakı kimi nəzərdən keçirmək mümkündür:

-beynəlxalq münasibətlərin əsas iştirakçıları suveren dövlətlərdirlər. Bununla yanaşı,

dövlət rasional fəaliyyət göstərən birtipli orqanizmdir. Yalnız dövlət müqavilələrin bağlanması, müharibələrin elan olunması və digər fəaliyyətlər üçün legitim əsaslara və zəruri resurslara malikdir. Burada söhbət daha böyük dövlətlərdən gedir. Belə dövlətlər arasındakı münaqişəli və kooperativ münasibətlər beynəlxalq siyasətin mahiyyətini ifadə edir;

-beynəlxalq münasibətlərin xüsusiyyəti ondan ibarətdir ki, o, anarxik xarakter daşıyır. Hər iştirakçı öz fəaliyyətində hər şeydən öncə xüsusi maraqlarından çıxış edir. "Milli maraq" siyasi realizm nəzəriyyəsinin əsas kateqoriyasıdır. Beynəlxalq münasibətlərdə ali hakimiyyət mövcud deyildir. Bu baxımdan, beynəlxalq münasibətlərdə iştirak edən dövlətlər üçün başlıca prinsip "Özün özünə kömək et" prinsipidir;

-anarxik mühitdə fəaliyyət göstərən dövlətlərin maraqları qaçılmaz olaraq digər dövlətlərin maraqları ilə toqquşur. Bu, o deməkdir ki, münaqişə və onun kəskin forması olan müharibə əsas beynəlxalq proses kimi müəyyənləşdirilir. Bununla yanaşı realistlər əməkdaşlığı da beynəlxalq münasibətlərin bir növü kimi qəbul edirlər. Bu əməkdaşlıq əsasən münaqişələrin tənzimlənməsi sahəsində olur;

-beynəlxalq münasibətlərin anarxik xarakteri dövlət maraqları üçün olduqca təhlükəlidir. Bu baxımdan, beynəlxalq siyasətdə dövlətin əsas məqsədi təhlükəsizliyini təmin etməkdən ibarət olur. Böyük dövlətlər bunun üçün böyük resurslara malik olurlar. Lakin buna baxmayaraq, heç onlar da özlərini tam təhlükəsizlik vəziyyətində hiss etmirlər;

-dövlətin hakimiyyəti onun gücündən ayrılmazdır. H.Morgentau yazırdı: "fiziki zorakılıq siyasətin orqanik elementidir. Beynəlxalq siyasətdə hərbi güc dövlətin siyasi qüdrətini təmin edən əsas amildir [10, s.63];

-güclü dövlətlərin süni manipulyasiyaları əsasında beynəlxalq münasibətlərin təbiətini dəyişmək mümkündür. Dövlətlər siyasətə təsir edirlər və edəcəklər. Realistlər hesab edirlər ki, siyasi qüvvələrin konfiqurasiyasını dəyişmək, beynəlxalq anarxiyanın nəticələrini yumşaltmaq mümkündür. Daha stabil və təhlükəsiz dövlətlərarası münasibətlər qurmaq mümkündür. Lakin beynəlxalq münasibətlərin təbiətini əsaslı şəkildə dəyişmək qeyri-mümkündür.

Realist paradiqmanın konseptual əsasları ictimai inkişafın obyektiv qanunlarına söykənir. Bu da siyasi realizmin nüfuzunu təmin etmişdir. Lakin buna baxmayaraq, beynəlxalq münasibətlər elmində mütləq hakim mövqeyə malik deyildir. Bunu onun bir sıra ciddi çatışmazlıqları şərtləndirmişdir. Beynəlxalq münasibətlərin güc qarşıdurmasının "təbii vəziyyəti" nəzərdən keçirilməsi sübut edir ki, bu münasibətlər birbaşa dövlətlərarası vəziyyəti ifadə edir. Siyasi realistlərin baxışlarında dövlətin daxili və xarici siyasəti biri-biri ilə sıx əlaqəli kimi görünmür. Dövlətlər isə beynəlxalq münasibətlər sistemində qarşılıqlı şəkildə əvəzlənən subyektlər kimi nəzərdən keçirilir. Yəni, bəzi dövlətlər daha güclü olurlar, bəziləri isə zəif olurlar. Onlar qarşılıqlı şəkildə biri-birilərinin yerini tuturlar. Güclülər zəifləyə, zəiflər isə, əksinə, güclənə bilərlər. Siyasi realizm paradiqmasının görkəmli nümayəndələrindən olmuş A. Uolfers beynəlxalq münasibətlər sistemindəki dövlətləri biri-biriləri toqquşan bilyard şarları ilə müqayisə etmişdir. Qeyd etmək lazımdır ki, beynəlxalq münasibətlərin əbədi və dəyişməz obyektiv qanunlarına istinad etməklə, siyasi realizm bir növ özü öz yanaşmasının girovuna çevrilmişdir [4, s.361]. Siyasi realizmin tərəfdarları dünya inkişafının kifayət qədər vacib tendensiyalarını və onda baş verən dəyişiklikləri nəzərə almamışlar. Bundan başqa, daha bir məqam nəzərdən qaçmışdır. Belə ki, nəzərə alınmamışdır ki, beynəlxalq münasibətlərin elmi təhlilinin klassik metodlarla yanaşı, yeni metodlarının tətbiqi lazımdır. Bütün bunlar digər yanaşmaların təfədarlarının siyasi realizmi tənqid etmələrini şərtləndirmişdir [8, s.15].

Beynəlxalq münasibətlər nəzəriyyəsində marksizm və neomarksizm özünün ciddi mövqelərini qoruyub saxlamaqda davam edirlər. Neomarksizm paradiqması çərçivəsində yeni, kifayət qədər maraqlı ideyalar, nəticələr və ümumiləşdirmələr meydana gəlməkdə davam etməkdədirlər. Neomarksizm beynəlxalq

münasibətlər nəzəriyyəsindəki digər cərəyanlara da ciddi təsir görtərməkdədir. Məsələn, beynəlxalq iqtisadi siyasəti xüsusi qeyd etmək mümkündür. Neomarksizmin mahiyyətini daha dərindən dərk etmək üçün onun ideya mənbəyinə- marksizmə yaxından diqqət yetirmək vacibdir.

Beynəlxalq münasibətlərin marksizm paradiqmasının əsas subyektləri rolunda dünya burjuaziyası və beynəlxalq fəhlə sinfi çıxış edir. Beynəlxalq münasibətlərin iştirakçıları kimi dövlətlər ikincidərəcəlidirlər. Burjuaziyanın daha artıq gəlir əldə etməyə can atması onun fəhlə sinfini daha güclü istismar etməsinə səbəb olur. Bu da bir tərəfdə imperiyalararası ziddiyyətlərin dərinləşməsini, digər tərəfdə isə, fəhlə həmrəyliyinin güclənməsini şərtləndirir. "Fəhlələrin vətəni olmur", onları proletar beynəlmiləlçiliyinin obyektiv əsasları birləşdirir. Burjuaziya da öz mahiyyəti etibarilə kosmopolitdir. O, milli dövlətləri özünün sinfi ağalığının aləti kimi yaratmışdır. Burjuaziya dövlətin xarici siyasi alətlərini istifadə etməklə, beynəlxalq münasibətlərin daimi qeyri-stabilliyini, silahlı münaqişələri və müharibələri şərtləndirir.

Beynəlxalq münasibətlər özünün mahiyyəti etibarilə miqyasından başqa, daxili ictimai münasibətlərdən heç nə ilə fərqlənmir. Ümumilikdə, o, ikinci və üçüncüdərəcəli xarakter daşıyır. Əsasən milli dövlət çərçivəsində burjuaziya ilə fəhlə sinfi arasında qarşılıqlı fəaliyyətin xüsusiyyətlərini ifadə edir. Beynəlxalq münasibətlər mahiyyəti etibarilə kapitalist xarakter daşıyır, hakim imperialist burjuaziya ilə istismara məruz qalan proletariat arasında sərt qarşıdurmanı ifadə edir. Bu səbəbdən əsas beynəlxalq proseslər sinfi münaqişələrdə, böhranlarda, müharibələrdə və sosial inqilablarda ifadəsini tapır.

Beynəlxalq münasibətlərin əsas aktorlarının məqsədləri kəskin şəkildə biri-birilərindən fərqlənirlər. Əgər dünya burjuaziyası gəlirlərinin maksimum artırılmasına çalışırsa, beynəlxalq fəhlə sinfi hakim sinfin devrilməsinə və bununla da proletariyatın tarixi missiyasını yerinə yetirməyə çalışır. Bu məqsədlərə çatma vasitələri də fərqlidirlər. Bir tərəfdən istismarın güclənməsi, digər tərəfdən dünya sosial inqilabı.

Marksizm beynəlxalq münasibətlərin gələcəyi ilə bağlı da kifayət qədər aydın mövqeyə malikdir. Beynəlxalq münasibətlərin gələcəyi ictimai inkişafın obyektiv qanunları ilə müəyyənləşir. Beynəlxalq münasibətlərin marksist təhlilinə gəlincə isə, o, ümumi metodoloji mövqelərdən çıxış edir. Burada müəyyənləşdirici rol ictimai münasibətlərin inkişafında istehsal və iqtisadi bazis üsullarına, həmçinin, tarixi prosesin hərəkətverici qüvvəsi kimi sinfi mübarizə çıxış edir.

**Beynəlxalq münasibətlərə dair postmodernizm nəzəriyyəsi**

Postmodernizm ötən əsrin 80-ci illərində meydana gəlmişdir. Postmodernizmin meydana gəlməsi bir növ klassik nəzəriyyələrə reaksiya kimi qiymətləndirilir. Bununla yanaşı, bu nəzəriyyə, neomarksizmə reaksiya hesab olunur. Postmodernizmin inkişafına son onilliklərdə cərəyan edən proseslər də ciddi təsir etmişdir. Bu prosesləri klassik neorealizm və neoliberalizm müstəvisində izah etmək mümkün olmamışdır. Postmodernistlər realistləri kəskin tənqid edirlər və hesab edirlər ki, obyektiv şəkildə dövlət maraqlarını üzə çıxarmaq qeyri-mümkündür. Bundan başqa, universal maraqlar mövcud olmurlar. Onlar hesab edirlər ki, dövlət insanlar qrupunu ifadə etmək üçün istifadə olunan anlayışdır. Postmodernizm nümayəndələri beynəlxalq münasibətlərdə əsas anlayışların dekonstruksiyasını təklif edirlər. XX əsrin son on ili dünyanın siyasi xəritəsini əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Ötən əsrin 80-90-cı illərində dünyanın siyasi reallıqlarının dərk edilməsi proseslərin özünün inkişafı ilə ayaqlaşa bilmirdi. 1990-cı illərdə XX əsrin sonlarında dünyanın siyasi inkişafı ilə bağlı qızğın mübahisə getməkdə idi [5, s.121]. Əsas mübahisə dünyanın dövlətsentrist sisteminin dəyişməsi ideyasını dəstəkləyənlərlə bu dəyişikliklərin əhəmiyyətsiz olduğunu hesab edənlər arasında gedirdi. Bu, beynəlxalq münasibətlər nəzəriyyəsində "üçüncü böyük diskussiya" hesab oluna bilər.

Birinci, hələ ötən əsrin 50-ci illərinin sonlarında idealistlərlə realistlər arasında getmişdir. İkinci diskussiya ötən əsrin 60-cı illərində beynəlxalq münasibətlərin ənənəvi metodlarını istifadə edənlərlə, tədqiqatların təbii elmlər prinsipi üzrə qurulmasını düzgün hesab edənlər arasında olmuşdur. Üçüncü diskussiya nəticəsində nəzəri yanaşmaların uzlaşmadığı əsas parametrlər qalmaqda davam etmişdir. Bununla yanaşı, müxtəlif məktəblərin və istiqamətlərin yaxınlaşması müşahidə olunmuşdur. Kəskin diskussiyalar nəticəsində müəyyən oturuşmuş rəy formalaşmışdır. 1. Beynəlxalq münasibətlərdə anarxiyanın qalmasına baxmayaraq, onların tənzimlənməsi imkanları da mövcuddur. 2. Beynəlxalq qarşılıqlı fəaliyyətin iştirakçılarının sayı daimi artmaqdadır və öz sıralarına dövlətlərlə yanaşı, beynəlxalq hökumət, qeyri-hökumət, transmilli şirkətləri, müxtəlif firmaları, assosiasiyaları və s. daxil etmişdir. 3. Dünyanın qarşılaşdığı problemlər ümumi xarakter daşıyır və bütün dünya dövlətləri tərəfindən həllini tələb edir.

**Nəticə**

Beləliklə, tədqiqatçıların böyük əksəriyyətini birləşdirən başlıca məqam ondan ibarətdir ki, dövlətlər beynəlxalq arenanın əsas aktorları kimi qəbul edilməkdədirlər. Bundan başqa, hamı qəbul edir ki, beynəlxalq münasibətlər sistemi və dövlətlər zaman keçdikcə ciddi dəyişikliklərə məruz qalmışdır. Sadəcə olaraq əsas diskussiya bir institut olaraq dövlətin nə dərəcədə dəyişikliyə məruz qalması və digər iştirakçıların fəallıqlarının artması ətrafında getməkdədir. Göründüyü kimi, müxtəlif paradiqmaların nümayəndələrinin mövqelərinin üst-üstə düşməməsi kəskin nəzəri mübahisələrə səbəb olmuşdur. Bu da, lap başlanğıcdan özünü beynəlxalq siyasi elmdə büruzə vermişdir.

**Ədəbiyyat:**


1. Галенской Л.А., Малинина С.А. Энциклопедия международных организаций: в 3 т. СПб. : Изд- во СПбГУ, 2003, Т. 1, 523 с.
2. Дугин А.Г. Международные отношения. Парадигмы, теории, социология. М., Академический проект, 2014, 431 с.
3. История международных отношений: основные этапы с древности до наших дней./ К.С. Гаджиев и др. М.: Логос, 2007, 712 с.
4. Лактионов А. История дипломатии. М., АСТ; АСТ МОСКВА, 2006, 943 с.
5. Медяков А.С. История международных отношений в Новое время. М., Просвещение, 2007, 463 с.
6. Цыганков П. А. Международные отношения: теории, конфликты, движения, организации: учеб. Пособие. Изд. 2-е, перераб. и доп. М., ИНФРА-М, 2007, 319 с.
7. Цыганков П.А. Природа и закономерности международных отношений // Современные международные отношения. М., 2000, с, 9–37
8. Цыганков А.П., П.А.Цыганков. Социология международных отношений. Анализ российских и западных теорий : учеб. пособие. М.: Аспект-Пресс, 2006. С. 14–17
9. Hurrell A. Kant and the Kantian Paradigm in International Relations // Review of International Studies. 1990. Vol. 16, №3, P. 183-205
10. Nobel J.W. Morgenthau's Sruggle with Power: The Theory of Power Politics and the Cold War // Review of International Studies. 21(1). January, 1995, P. 61-86


***Açar sözlər:*** *beynəlxalq münasibətlər, dövlətlər, sərhədlər, əlaqələr, nəzəriyyə, yanaşma*

**Mehseti Aliyeva**
*Chief Advisor of the Department of Public and Political Affairs of the Presidential Administration of the Republic of Azerbaijan, PhD in Political Science, Assistant Professor*

## THE EMERGENCE AND DEVELOPMENT OF INTERNATIONAL RELATIONS

### SUMMARY

The article analyzes historical process of formation and development of the international relations. First of all, it is justified that the problem of the relations among states has always interested thinkers of its time. That is, the problem of international relations has always had importance of significance for any state and society.

International relations are closely connected with the emergence of nations, the formation of borders among states, the formation of political regimes, the development of science, culture, technology, and etc.

It is emphasized that international relations are composed of various components. The approaches to an entity of the international relations are also considered in the current article. It is also justified that the international relations have quite complex structure.

***Key words:*** *International Relations, States, Borders, Communications, Theory, Approach*

**Мехсети Алиева**
*Ведущий консультант отдела по общественно-политическим вопросам Администрации Президента Азербайджанской Республики, доктор философии по политическим наукам, и.о. доцента*

## ПОЯВЛЕНИЕ И РАЗВИТИЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ

### РЕЗЮМЕ

В статье анализируется исторический процесс формирования и развития международных отношений. Прежде всего, обосновывается, что проблема отношений между государствами всегда интересовала мыслителей своего времени. То есть, проблема международных отношений всегда имела важную значимость для любого государства и общества. Международные отношения тесно связаны с появлением наций, формированием границ между государствами, формированием политических режимов, развитием науки, культуры, техники и т.д. Отмечается, что международные отношения состоят из различных компонентов. В статье также рассматриваются подходы к сущности международных отношений. Обосновывается, что международные отношения имеют довольно сложную структуру.

***Ключевые слова:*** *международные отношения, государства, границы, связи, теория, подход*

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR
# INTERNATIONAL RELATIONS

UOT 327; 339.9

**NAFİLƏ RƏHİMOVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: rnafile@gmail.com*

## TÜRKİYƏ-RUSİYA ARASINDA HƏRBİ-TEXNİKİ ƏMƏKDAŞLIQ

Son zamanlar Türkiyənin Rusiya ilə müxtəlif sahələrdə münasibətlərinin inkişafı müşahidə olunur. İki dövlətin iştirakı ilə Suriya məsələsinin həlli istiqamətində əldə edilən irəliləyiş, "Türk axını" qaz kəməri layihəsinin reallaşdırılması, "Akkuyu" atom elektrik stansiyasının tikilişi, S-400 raket əleyhinə müdafiə sistemlərinin alınması ilə bağlı razılaşmanın əldə olunması Türkiyə və Rusiya arasında siyasət, energetika və hərbi sahədə həyata keçirilən əməkdaşlığın konkret ifadəsidir. Əməkdaşlığın enerji sahəsindən hərbi sahəyə qədər genişlənməsi ikitərəfli münasibətlərin keyfiyyətcə yeni bir mərhələyə qədəm qoymasının göstəricisidir. Münasibətlərin inkişafına təsir edən amillər sırasında hər iki dövlətin Qərblə münasibətlərinin gərginləşməsi hesab olunur. NATO üzvü olan Türkiyənin Rusiya ilə hərbi-texniki sahədə əməkdaşlığa qədər irəliləməsinin səbəblərinə nəzər salaq.

1952-ci ildə Türkiyənin NATO-ya daxil olması ilə təşkilat çoxsaylı və güclü bir ordusu olan, SSRİ-in Cənub sərhədlərinə bilavasitə yaxın olan, Bosfor və Dardanel boğazlarına sahib olan, Qara və Aralıq dənizlərinə çıxışı olan ciddi bir müttəfiq əldə etdi. Türkiyənin təşkilata daxil olmasını şərtləndirən əsas amillərdən biri İkinci Dünya müharibəsindən sonra Sovet İttifaqının rəhbərliyi tərəfindən Türkiyəyə dair ərazi iddialarının irəli sürülməsi idi. 1945-ci ilin iyun ayında keçirilən Potsdam konfransında Sovet tərəfi SSRİ–Türkiyə sərhədinə yenidən baxılmasını tələb etdi. Qars, Artvin, Ərdəhan əyalətlərinin SSRİ-yə verilməsi məsələsi irəli sürüldü. Bu kimi tələblərin və iddiaların qarşısının alınması məqsədilə Türkiyə NATO-ya daxil olmaqla bağlı müraciət etdi. Türkiyənin NATO-ya üzv olmaqla bağlı ilk müraciəti 1950-ci ilin may ayında Cümhuriyyət Xalq Partiyası tərəfindən edilmişdir, lakin bu müraciət rədd olunandan sonra hakimiyyətə gələn Demokrat Partiyası sözügedən məsələ ilə bağlı yenidən təşkilata müraciət etdi. Türkiyənin NATO-ya daxil olmasını dəstəkləyən ABŞ prezidenti Harri Trumen oldu. Eyni zamanda ölkənin NATO-ya daxil edilməsində Türkiyənin Koreya müharibəsində iştirak etməsi böyük rol oynadı. Belə ki, Türkiyə tərəfi Koreya yarımadasına 4.5 min hərbiçi göndərdi. ABŞ-dan sonra Türkiyə Cənubi Koreyaya dəstək olub ordusunu göndərən ikinci dövlət oldu. Nəticədə 1952-ci ilin fevral ayında Türkiyə NATO-ya üzv oldu.

Alyansın Cənub-Şərq tərəfində yerləşən və Yaxın Şərqdə münaqişə zonaları ilə həmsərhəd olan Türkiyənin geosiyasi nöqteyi-nəzərdən əhəmiyyəti olduqca böyükdür. Bütün bu illər ərzində Türkiyənin NATO-nun fəaliyyətinə çox böyük töhfəsi olmuşdur. Türkiyənin NATO-da iştirakını dəyərləndirərək amerikan tədqiqatçısı Maykl Rubin qeyd edir ki, "ABŞ Alyansın onurğası olduğu halda, Türkiyə onun əzələsidir" (7). Hal hazırda NATO-nun Quru Hərbi Qüvvələrinin mənzil qərargahı Türkiyənin İzmir şəhərində yerləşir. Burada təşkilatın əməliyyatları tənzimlənir. Quru Hərbi Qüvvələrinin (LANDCOM) komandanlığı NATO-nun Avropada birləşmiş hərbi qüvvələrinin ali baş komandanına tabedir. Bununla yanaşı,

İzmirdə ABŞ-ın mühüm əhəmiyyət daşıyan hərbi hava limanı yerləşir. Türk ordusu təşkilat çərçivəsində sayına görə ABŞ ordusundan sonra ikinci yerdədir. Bu vaxta qədər türklər NATO-nun Əfqanıstan, Balkanlar, Suriya, Liviyada həyata keçirilən əməliyyatlarında iştirak ediblər. Bununla yanaşı 2012-ci ilin əvvəlindən Türkiyə ərazisində NATO-nun Avropada raket əleyhinə müdafiə sisteminin tərkib hissəsi olan radarları yerləşdirilib. Bütün bunlar Türkiyənin Alyans üçün nə dərəcədə önəm daşımasının göstəricisidir.

NATO-nun baş katibi Yens Stoltenberq Türkiyənin təşkilat üçün əhəmiyyətini vurğulayaraq qeyd etmişdir ki, "Türkiyənin rolunu dərk etmək üçün xəritəyə baxmaq kifayətdir" (6). Türkiyə ilə qonşu dövlətlər olan İraq və Suriya NATO üçün təhlükə mənbəyi olduğundan, ölkənin strateji əhəmiyyəti daha da artır. Baş katib həmçinin NATO-nun Balkanlarda, Kosovoda, Əfqanıstanda həyata keçirdiyi əməliyyatlarda Türkiyənin xüsusi rolunu qeyd edib, yüksək qiymətləndirdiyini bildirdi. Sözsüz ki, Ankara NATO üçün güclü və olduqca əhəmiyyətli bir müttəfiqdir.

Lakin bütün qeyd olunanlarla yanaşı, Türkiyə NATO-ya daxil olduğu gündən bu yana vaxtaşırı olaraq təşkilat çərçivəsində müəyyən problemlər yaşandı. Şübhəsiz ki, ilk növbədə Kipr problemini qeyd etmək lazımdır. ABŞ Prezidenti Lindon Consonun yazdığı və tarixə "Conson Məktubu" kimi düşən məktubda qeyd olunurdu ki, SSRİ-nin Türkiyəyə ehtimal olunan müdaxiləsi baş tutarsa, NATO belə bir vəziyyətdə Türkiyənin müdafiəsi məsələsində maraqsız olacaqdır. 1974-cü ildə Türk Silahlı Qüvvələrinin adaya sülhü gətirmək üçün hərəkətə keçməsi qaçılmaz oldu. 1975-ci ildə ABŞ Konqresi tərəfindən qəbul olunan qərarla Türkiyəyə silah embarqosu tətbiq edildi. Aradan illər keçməsinə baxmayaraq, ABŞ-ın bu məsələyə dair mövqeyi dəyişmədi (1).

Türkiyənin təşkilatla münasibətlərində digər problemli məsələ uzun illər ərzində ölkənin terrorla üz-üzə qalmasıdır. Bu istiqamətdə Türkiyənin NATO-dan və təşkilata üzv olan dövlətlərdən gözləntiləri reallaşmadı, və terrorla mübarizədə Türkiyəyə kifayət qədər dəstək göstərilmədi. Belə ki, Almaniya Türkiyənin terrorla ən gərgin mübarizə apardığı 1990-cı illərin ikinci yarısında "dinc əhaliyə qarşı istifadə edilir" iddiası ilə Türkiyəyə qarşı silah embarqosu tətbiq etdi. Eyni zamanda, 2003-cü ildə ABŞ-ın İraqda həyata keçirdiyi hərbi kampaniya çərçivəsində, gözlənildiyi kimi, PKK-nın həmin ölkədə yerləşən hərbi düşərgələri dağıdılmadı. Qlobal terrorizmlə mübarizə kontekstində bunun həyata keçirilməsi məqsədəuyğun olmalı idi. 2016-cı ildə ABŞ tərəfindən Suriya kürdlərinə silahların göndərilməsi iki ölkə arasında münasibətləri yenidən gərginləşdirdi. Kürd məsələsi Türkiyə üçün olduqca həssas bir məsələdir. Avropa İttifaqı və ABŞ- da kürdlərə qarşı münasibət son zamanlar dəyişib. Bundan əvvəl kürdlər SSRİ-in Türkiyədə "beşinci kolonu" kimi qəbul olunurdu. Hal-hazırda isə kürd hərəkatı Qərb tərəfindən Bəşər Əsədlə mübarizədə potensial müttəfiq hesab edilir və kürdlərə dəstək göstərilir.

NATO və Türkiyə arasında yaşanan digər ciddi problem isə Norveçdə baş verdi. Norveçdə 2017-ci il, 8-17 noyabrda Müştərək Hərbi Mərkəzdə "Trident Javelin (Üçlü Nizə)" adlı NATO təlimi keçirilib. Təlimin son mərhələsində "Əks Qüvvə" sıralarına aid olan ölkələrin liderlərinin fotoları arasında Mustafa Kamal Atatürkün portreti var idi. Sözügedən təlimdə, eyni zamanda, Türkiyənin NATO-ya təhdid təşkil edən bir ölkədən raket sistemləri alması ilə bağlı ssenari hazırlanmışdı. Vəziyyətin Türk Silahlı Qüvvələrinin şəxsi heyəti tərəfindən müəyyən edilməsindən sonra NATO-nun hərbi orqanlarına yazılı və şifahi olaraq etiraz edilmişdi. Məsələ ilə bağlı olaraq NATO-nun Baş Katibi Yens Stoltenberq Türkiyədən üzr istədi.

Uzun illərdir Türkiyənin təhlükəsizliyinə ciddi təhdidlər mövcuddur. Türkiyənin hava müdafiə sistemləri ilə bağlı ehtiyacı 1990-cı illərdən aktuallaşır. Problem artıq Birinci Körfəz Müharibəsi zamanı ortaya çıxmışdır. 2003-cü ildə İraqa qarşı hərbi kampaniya və

2015-ci ildə Suriya müharibəsi zamanı Türkiyənin təhlükəsizliyinin təmin olunması ilə bağlı ciddi problemlər yaranmışdır. Bununla yanaşı, İran və qonşu ölkələrdə mövcud olan ballistik raket təhdidi çox vacib amildir. Qeyd olunan məqamlarla bağlı, təhlükəsizliyi təmin etmək məqsədilə Türkiyə 2009-ci ildə "Patriot" raket əleyhinə müdafiə sisteminin alınması ilə bağlı ABŞ-a müraciət etmişdir. ABŞ Konqresi razılıq vermədiyi üçün, sonralar Türkiyə bu sahədə Çinlə anlaşma əldə etmişdir. Türkiyənin "özünə məxsus raket proqramının qurulmasının planlaşdırıldığı" səbəbilə, ABŞ və NATO-nun etirazı nəticəsində həmin anlaşma ləğv edilmişdir (2).

Nəticədə, bir müddət sonra Türkiyə dünyanın ən inkişaf etmiş hava müdafiə sistemi olan S-400-ləri almaq məqsədilə Rusiya ilə razılaşdı. İki ölkə arasında 2017-ci il 29 dekabr tarixində imzalanan müqaviləyə uyğun olaraq 2.5 milyard ABŞ dolları qarşılığında 2 ədəd sistem və 4 ədəd batareyanın ilk təhvilinin 2020-ci ilin mart ayında həyata keçirilməsi nəzərdə tutulmuşdur. Lakin sonra məsələni sürətləndirmək haqqında qərar qəbul olundu və Rusiya Federasiyasının Baş nazirinin müavini Yuriy Borisovun bəyanatına görə, Rusiya tərəfindən Türkiyəyə S-400 raket əleyhinə müdafiə sistemlərinin təqdim olunması üzrə kontraktın artıq 2019-cu ildə icra ediləcəyi bildirildi (5).

Bu anlaşmaya Vaşinqton dərhal "cavab" verdi. Ankara və Vaşinqton arasında hərbi sahədə bir sıra müqavilə və sazişlər imzalanıb. Onlardan ən vacibi F-35 hərbi təyyarələrə dair olan müqavilə idi. Türk Hərbi Hava Qüvvələri tərəfindən 116 ədəd F-35-in əldə edilməsi gözlənilirdi. Eyni zamanda, Türkiyə həmçinin F-35 hərbi təyyarələrin istehsalı layihəsində iştirak edirdi. Belə ki, F-35-in bir neçə əsas komponentləri Türkiyədə istehsal olunurdu. Lakin ABŞ Konqresi, Ankaranın S-400 raket əleyhinə müdafiə sistemlərini almaqla bağlı razılaşmasına cavab olaraq, F-35 hərbi təyyarələrin Türkiyəyə satılmasını dayandırdı. 2018-ci il, 18 iyunda ABŞ Senatı ölkənin 2019-cu ilə aid büdcəsini qəbul edərkən, Türkiyənin F-35-lərin istehsalı prosesində iştirakını dayandırdı. Bu üsulla ABŞ Türkiyənin qəbul etdiyi qərarlara təsir etməyə çalışır.

ABŞ və NATO-nu narahat edən məsələ S-400-lərin NATO sisteminə uyğun olmaması və Türkiyənin Rusiya ilə hərbi sahədə informasiya mübadiləsi aparmaq zərurətidir. Belə ki, NATO-nun Hərbi Komitəsinin rəhbəri, Çexiyanın hərbi qüvvələrinin generalı Peter Pavel Rusiyanın S-400 raket əleyhinə müdafiə sistemlərinin Türkiyəyə ixracını NATO-da mövcud olan sistemlər üçün "böyük bir təhdid" kimi qiymətləndirib. Onun sözlərinə görə, Türkiyə tərəfindən S-400-lərin istifadəsi problemlər yaradacaqdır. NATO-nun hərbi texnikası ilə inteqrasiya olmayan mürəkkəb sistemin istifadəsi üçün mütəxəssislər Rusiyada təlim keçməlidirlər, bunu isə təsəvvür etmək belə çətindir. Türkiyə S-400 əldə etsə belə, onları NATO sistemindən ayrı olaraq istifadə etməlidir. Təbii ki, Türkiyə hərbi avadanlıq seçimində azaddır, lakin hər qərarın öz nəticələri olur (4). General bildirmişdir ki, dünyada ən çox yayılan rus silahı olan Kalaşnikov avtomatından fərqli olaraq, mürəkkəb və yüksək texnoloji sistem olan S-400 çox dəqiq istismar mexanizminə malikdir. Kalaşnikov avtomatının istifadəsi xüsusi hazırlıq tələb etmədiyi halda, S-400-in işlədilməsi prosesini Rusiyadan gələn ekspertlərin iştirakı olmadan təsəvvür etmək mümkün deyildir. Həmçinin, NATO ekspertləri Rusiya Federasiyasında aylarla qalıb məlumatları təhlil etməlidirlər.

Qeyd olunan məsələyə dair Moskvanın mövqeyinə gəldikdə, Rusiyanın dövlət korporasiyası olan "Rostex"-in baş direktoru Sergey Çemezov bəyan etmişdir ki, Rusiyanın "Triumf" adlı raket əleyhinə müdafiə sistemi olan S-400-lər ABŞ-a belə satıla bilər. O həmçinin əlavə etdi: "S-400-lər hücum xarakterli deyil, müdafiə xarakterli sistemdir. Biz onu istədikləri halda amerikanların özlərinə də sata bilərik. Beləliklə, strateji nöqteyi-nəzərdən bu prosesdə heç bir problem yoxdur və mən Rusiya üçün təhlükəsizlik baxımından heç bir problem görmürəm" (4).

2018-ci il, 24 avqustda ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Hizer Nauert bəyanatında qeyd etdi ki, Vaşinqtonun müttəfiqləri tərəfindən Rusiyanın raket əleyhinə müdafiə sistemlərinin alınmasına qarşı çıxış edir. Eyni zamanda, ABŞ-ın Müdafiə Naziri Ceyms Mattis Türkiyənin Rusiyadan S-400 raket əleyhinə müdafiə sistemlərinin alması faktının Türkiyə-NATO arasındakı hərbi əməkdaşlığa mənfi təsir edəcəyi ilə bağlı bəyanat verib. Qeyd etmək lazımdır ki, NATO-nun Rumıniya, Bolqarıstan, Yunanıstan kimi üzv dövlətləri S-200 və S-300 kimi raket əleyhinə müdafiə sistemlərinə sahib olduqları halda, bu cür problemlər yaranmamışdır. ABŞ-ın Türkiyənin Rusiyadan S-400 sistemlərinin almasından bu dərəcədə narahat olması tam aydın deyil. Beləliklə, ABŞ Türkiyəyə təsir göstərərək, onun Rusiyadan S-400 raket əleyhinə müdafiə sistemlərini almaqla bağlı müqaviləsini ləğv etməyə təkid edir. Türkiyə Prezidenti Rəcəb Təyyub Ərdoğan dəfələrlə qeyd edib ki, Ankara raket əleyhinə sistemlərin alınması ilə bağlı heç kimdən icazə almayacaq. Türkiyə bütün sahələrdə müstəqil olduğu kimi, müdafiə sahəsində də müstəqildir.

Rusiya Prezidenti Vladimir Putin, öz növbəsində, Peterburq Beynəlxalq İqtisadi Forum çərçivəsində dünyanın aparıcı məlumat agentliklərinin rəhbərləri ilə keçirilən görüşdə Türkiyənin S-400 raket əleyhinə müdafiə sistemlərini almasına dair münasibətini bildirib. Rusiya dövlət başçısı ABŞ rəhbərliyindən gələn reaksiyaları dəyərləndirərək dedi: "Prezident Rəcəb Təyyub Ərdoğanı tanıdığıma görə, birinin ona qarşı təzyiq vasitələri istifadə edərək nəticə əldə etməsi çox çətindir. Əksinə, bu cənab R.T.Ərdoğanı daha da cəsarətləndirəcək və o milli maraqlarının müdafiəsi ilə bağlı güzəştə getməyəcəkdir" (3).

Raket əleyhinə müdafiə sistemi olan S-400-lərin xüsusiyyətlərinə gəldikdə, qeyd etmək lazımdır ki, onlar "Almaz" Elmi İstehsalat Birliyi (hal hazırda "Almaz-Antey" Hava-Kosmik Müdafiə Konserni) tərəfindən işlənilib hazırlanıb və artıq 2007-ci ildən bu yana Rusiyanın silah inventarında yer alır. Bundan əvvəl Sovet İttifaqı dövründə S-300 hava müdafiə sistemləri mövcud idi. Sistem döyüş təyyarələri, radar təsbit və nəzarət təyyarələri, kəşf təyyarələri, strateji və taktiki təyyarələr, operativ-taktiki ballistik raketlər, orta mənzilli ballistik raketlər, hipersonik hədəflər və digər inkişaf etmiş hava hücumu vasitələrini məhv etmək üçün hazırlanıb. S-400 raket əleyhinə müdafiə sistemi raket kompleksindən başqa hərbi idarəetmə məntəqəsi və radiolokasiya stansiyasından ibarətdir. Texniki göstəricilərə gəldikdə, qeyd etmək lazımdır ki, S-400, çox uzun mənzilli 40n6 model raketlə 400 kilometr, uzun mənzilli 48n6 model raketlə 250 kilometr, orta mənzilli 9m96e2 model raketlə 120 kilometr və qısa mənzilli 9m96e model raketlə də 40-ci kilometrdəki hədəfləri vura bilir. Türkiyə ilə saziş imzalamazdan əvvəl, Rusiya S-400 raket əleyhinə müdafiə sisteminin satışıyla bağlı həmçinin Çin ilə razılaşmışdır. Eyni zamanda, Hindistan, İran və Səudiyyə Ərəbistanı S-400-lərin alınması ilə bağlı Rusiyaya müraciət ediblər.

Yeni şəraitdə hərbi əməkdaşlıq siyasi vasitə rolunu oynayır. Rusiya və Türkiyə ümumilikdə hərbi-texniki əməkdaşlığı genişləndirməyə planlaşdırırlar. S-400-lərin alınmasından başqa hərbi müdafiə sahəsində digər layihələrin həyata keçirilməsi gözlənilir. Bu məsələlər Rusiyanın KİV-də geniş müzakirə olunur.

Qeyd etmək lazımdır ki, Türkiyə və Rusiya arasında hərbi–texniki sahədə əməkdaşlıq artıq 1992-ci ildən başlayaraq formalaşırdı. Türkiyə NATO üzvü olaraq Rusiya ilə sözügedən sahədə əlaqələr quran ilk dövlət idi. Əməkdaşlığın əsasları Rusiya Prezidenti B.Yeltsin və Türkiyə hökumətinin başçısı S.Dəmirəlin görüşləri (1992-ci il, may, iyun ) prosesində formalaşdı. 1994-cü ilin aprel ayında Türkiyə və Rusiya arasında "Hərbi-texniki məsələlər üzrə və müdafiə sənayesi sahəsində əməkdaşlıq" haqqında Müqavilə imzalandı. 2001-ci ilin may ayında isə Hərbi-texniki əməkdaşlıq üzrə qarışıq Rusiya-Türkiyə Komissiyası təsis olundu. 2004-cü ilin dekabr ayında isə Rusiya Federasiyasının prezidenti V.Putinin Türkiyəyə səfəri zamanı iki mühüm saziş imzalandı – "Hərbi-texniki əməkdaşlıq sahəsində intellek-

tual mülkiyyətin qarşılıqlı qorunması haqqında" hökumətlərarası Müqavilə və "Hərbi-texniki əməkdaşlıq sahəsində məxfi informasiyanın qarşılıqlı qorunması haqqında" hökumətlərarası Müqavilə. Bu müqavilələr sözügedən sahədə əməkdaşlığın hüquqi bazasını təşkil edərək onun inkişafı üçün zəmin yaradır.

Təbii ki, S-400 raket əleyhinə müdafiə sisteminin alınması ilə bağlı qərarların qəbul edilməsi prosesinə siyasət təsir edir. Ümumilikdə uzun mənzilli raketlərin, hava müdafiə sistemlərinin alınması hərbi-texniki, maliyyə məsələlərindən daha çox siyasi motivlərə tabedir. Prinsipial siyasi qərar qəbul edildikdən sonra, digər maraqların balanslaşdırılması adətən çətinlik törətmir. Beləliklə, S-400-lərlə bağlı müqavilənin imzalanması və reallaşdırılması dünya silah bazarında tektonik dəyişikliklərə gətirib çıxara bilər.

S-400-lərin alınması ilə bağlı layihə ilə yanaşı Rusiya tərəfi hərbi-texniki sahədə əməkdaşlığı genişləndirmək məqsədilə digər konkret layihələrin həyata keçirməsi mümkünlüyünü müzakirə edir:

1. Türkiyənin hərbi sənaye kompleksinin müəssisələrində rusiya tanklarının (T-80/T-90 NATO standartlarına adaptasiya olunmuş top ilə), BTP-80/ BTP-90 zirehli avtomobillərin lisenziyalı istehsalı;
2. Türkiyənin milli müdafiə sahəsi üçün tank əleyhinə qısa və orta mənzilli raket komplekslərinin Rusiyada istehsalının təşkili;
3. Xilasedici gəmilərin istehsalı ilə bağlı birgə layihələrin reallaşdırılması;
4. Hərbi sənayeyə yönəldilmiş birgə kosmik layihələrin reallaşdırılması.

Qeyd olunduğu kimi, Türkiyə və Rusiya arasında hərbi-texniki sahədə münasibətlərin inkişafı bilavasitə iki dövlət arasında siyasi əlaqələrin dinamikasından asılıdır. Son zamanlar Türkiyə-Rusiya münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Rusiya Türkiyə tərəfindən Qərb dövlətləri ilə münasibətləri balanslaşdırmaq məqsədi ilə "alternativ tərəfdaş" kimi qəbul olunur. Türkiyənin Avropadan uzaqlaşması, NATO-ilə münasibətlərinin gərginləşməsi Rusiya üçün olduqca arzuolunan haldır. Moskva hadisələrin bu istiqamətdə inkişafında çox maraqlıdır. Mövcud şəraitdə müəyyən məsələlərə dair Türkiyə və Rusiya liderlərinin praqmatik maraqları üst üstə düşür və əməkdaşlıq formasında reallaşdırılır. İki dövlətin oxşar maraqlarının olması onları yaxınlaşdırır. Münasibətlərin inkişafı baş tutarsa, regional və qlobal təhlükəsizlik sistemində köklü dəyişikliklər baş verə bilər.

İki dövlət arasında iqtisadi, enerji sahəsində münasibətlərin inkişafı ilə yanaşı siyasi və təhlükəsizlik sferalarında da əməkdaşlıq dərinləşərsə, bu artıq Qərb üçün kifayət qədər ciddi bir təhdid olar. Hadisələrin bu istiqamətdə inkişafının qarşısını almaq məqsədilə Qərb Türkiyəyə dair siyasətinə yenidən nəzər yetirməlidir. Bu istiqamətdə artıq müəyyən ciddi addımlar atılmağa başlandı. Belə ki, 2018-ci il, 19 dekabrda ABŞ-ın Dövlət Departamenti və Müdafiə Nazirliyində Türkiyəyə 3.5 milyard dollar dəyərində "Patriot" raket əleyhinə müdafiə sistemlərinin satışı ilə bağlı qərar qəbul edildi. Bununla bağlı həm Türkiyə həm Rusiya rəsmiləri öz bəyanatlarında "Patriot" sisteminin Türkiyəyə satılması ilə bağlı qərarın Ankara və Moskvanın S-400-lərlə bağlı anlaşmasına təsir göstərməyəcəyini qeyd etdilər. Prosedur qaydalarına uyğun olaraq, Türkiyə və ABŞ arasında "Patriot" raket əleyhinə müdafiə sisteminin alınması ilə bağlı danışıqlara başlamazdan əvvəl Pentaqonun sözügedən qərarı ABŞ Senatı tərəfindən təsdiqlənməlidir. Ankara on ildən çox müddət ərzində ABŞ –la bu məsələyə dair anlaşma əldə etməyə çalışırdı, lakin bununla bağlı cəhdlər müsbət nəticə verməmişdir. Təbii ki, bu növ təkliflər Türkiyənin Qərblə münasibətlərinin müəyyən dərəcədə istiləşməsinə gətirib çıxara bilər. Türk ekspertləri tərəfindən Türkiyənin hər iki müdafiə sistemlərinə eyni zamanda sahib olması mümkünlüyü müzakirə olunur. Çox güman ki, Türkiyə silah idxalının diversifikasiyasına nail olmağa çalışacaq. Bütün halda, ABŞ-ın Türkiyəyə təzyiq göstərməsi cəhdlərinin nəticə verməyəcəyi aydındır. Türkiyənin artıq olduqca güclü bir regional oyunçuya çevrilməsi danılmaz bir faktdır.

**Ədəbiyyat:**


1. Dünden bugüne Türkiye ve NATO ilişkisi. TRT Haber. https://www.trthaber.com/haber/gundem/dunden-bugune-turkiye-ve-nato-iliskisi-358717.html) (04.04.2018)
2. Kısacık Sina. S-400 Hava Savunma sistemi: Türk-Rus ilişkilerinde yeni bir işbirliyi sahası mı? Rusiya Siyaseti ve Rus Dış Politikası. Ankara, Seçkin. 2018, s. 382.
3. Putin'den son dakika S-400 ve F-35 açıklaması. Hurriyet. http://www.hurriyet.com.tr/gundem/putinden-son-dakika-s-400-ve-f-35-aciklamasi-40848511 ) (25.05.2018)
4. Жуковский Иван. «С-400 — огромный вызов для систем НАТО». Газета ру. https://www.gazeta.ru/army/2018/03/08/11675977.shtml. (08.03.2018)
5. Стали известны сроки получения Турцией систем С-400. Парламентская газета. https://news.rambler.ru/army/40795943/?utm_content=rnews&utm_medium=read_more&utm_source=copylink. (18.09.2018)
6. Турция имеет для НАТО ключевое значение. Об этом заявил генеральный секретарь Альянса Йенс Столтенберг. TRT русский. http://www.trt.net.tr/russian/turtsiia/2018/04/30/turtsiia-imieiet-dlia-nato-kliuchievoie-znachieniie-961090 (30.04.2018)
7. Rubin Michael. İts time for Turkey and NATO to go their separate ways. The Washington Post. https://www.washingtonpost.com/news/democracy-post/wp/2018/08/16/its-time-for-turkey-and-nato-to-go-their-separate-ways/?utm_term=.6a999ff07c63 (16.08.2018)


***Açar sözlər:*** *Türkiyə, Rusiya, hərbi əməkdaşlıq, S-400 raket əleyhinə müdafiə sistemi, xarici siyasət*

**Nafile Rahimova**
*Associate Professor, Department of International Relations and Foreign Policy, Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in Political Science*

## MILITARY-TECHNICAL COOPERATION BETWEEN TURKEY AND RUSSIA

### SUMMARY

The article is dedicated to the study of military-technical cooperation between Turkey and Russia. First of all, the factors that led to Turkey's cooperation as a NATO member with Russia in this area are analyzed. In this context, Turkey's relations with NATO are analyzed from the moment of its entry into the organization as well as Turkey's strategic importance is assessed.

Moreover, the article analyzes the problems existing in Turkey's relations with NATO.

The main attention is paid on obtaining S-400 anti-missile defense systems from Russia in order to ensure Turkey's security. In this regard, the reaction of the United States and Western countries to the agreement is also reflected in the article.

At the same time, since 1992 the establishment and development of relations between Turkey and Russia in the field of military-technical relations have been monitored and perspectives of future cooperation are assessed.

***Key words:*** *Turkey, Russia, Military Cooperation, S-400 Missile Defense System, Foreign Policy*

**Нафиля Рагимова**
*Доцент кафедры Международные отношения и внешняя политика Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам*

# ВОЕННО-ТЕХНИЧЕСКОЕ СОТРУДНИЧЕСТВО МЕЖДУ ТУРЦИЕЙ И РОССИЕЙ

## РЕЗЮМЕ

Статья посвящена исследованию сотрудничества между Турцией и Россией в военно-технической сфере. Прежде всего, анализируются факторы, обусловившие сотрудничество Турции как члена НАТО с Россией в данной области. В данном контексте рассматриваются отношения Турции с НАТО с момента вступления в организацию до настоящего времени, оценивается вклад Турции в деятельность организации и ее стратегическое значение. Наряду с этим, также в статье находит отражение исследование проблем во взаимоотношениях Турции с НАТО. Основное внимание уделяется стремлению Турции обеспечить безопасность страны посредством приобретения у России противоракетных систем С-400. В данной связи исследуется реакция США и западных стран на заключение данного соглашения между Турцией и Россией. Помимо этого прослеживается история взаимоотношений между Турцией и Россией в военно-технической области, начиная с 1992 года, а также оцениваются возможности дальнейшего сотрудничества в данной сфере.

***Ключевые слова:*** *Турция, Россия, военное сотрудничество, система противоракетной обороны С-400, внешняя политика*

# İCTİMAİ FİKİR
# PUBLIC OPINION

UOT 32:002.6
UOT 316.77:001.12/.18

**VÜQAR RƏHİMZADƏ**
**Bakı Slavyan Universitetinin professoru,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: vuqarrehimzade@mail.ru*

## SOSİAL ŞƏBƏKƏLƏR YENİ MEDİA FORMASI KİMİ: MÜASİR JURNALİSTLƏRİN SENZURASIZ VƏ SƏRHƏDSİZ FƏALİYYƏT PLATFORMASI

Müasir dövrdə sosial şəbəkələr cəmiyyətin kommunikativ qarşılıqlı təsirinin ən əhəmiyyətli vasitələrindən biridir. Əgər sosial şəbəkələr əvvəllər “istehlakçılar”ın əksəriyyəti üçün yalnız ünsiyyət vasitəsi idisə, çağdaş dövrdə, insanlar üçün bu təkcə yaxşı qazanmaq üsulu deyil, həmçinin konkret iqtisadi, sosial və siyasi məsələlərin həllinə nail olmaq üçün münasib platformadır.

Bu gün internetə çıxışı olan kompyuterlə insanlar digər insanlara psixoloji təsir edə bilir, lakin o, özü də kənar təsirlərə məruz qalmaq baxımından çox həssas olur. Hazırda sosial şəbəkədə akkauntu olan və beləliklə, inanılmaz dərəcədə böyük sayda auditoriyaya çıxış imkanı qazanan, demək olar ki, hər bir insan jurnalistə çevrilir. Bu da təbii ki, medianın yeni növünün formalaşmasına səbəb olur.

Amerikalı psixoloqlar S.Milqrem və D.Treversi sosial şəbəkələrin əcdadı saymaq olar. Sosial şəbəkələri yaradanlar əvvəlcədən onların ixtirasının dünya düzənini idarə etmək üçün nə qədər əhəmiyyətli amil olduğunu güman etməmişdilər. Onların hələ 1969-cu ildə irəli sürdükləri nəzəriyyəyə görə, Yer kürəsində təsadüfi götürülmüş hər hansı iki fərd öz aralarında ümumi tanışlarının cəmi altı insandan ibarət olan kiçik halqası ilə bağlıdır. Psixiatr D.Moreno da öz növbəsində dünyanı, necə deyərlər, “sosioqramma” ilə, başqa sözlə, insanlar arasındakı qarşılıqlı münasibətləri diaqramın nöqtələri və xətləri şəklində işarələməklə tanış etdi. Buna qədər isə “sosial struktur” və ya “sosial şəbəkə” anlayışları başa düşülməyən məfhumlar idi.

Moreno sosial liderləri və qeyrilərini aşkarlamaq, dostluq əlaqələrinin seçimində assimmetriyanı müəyyənləşdirmək və dolayı əlaqələr zəncirini nümayiş etdirmək üçün “sosioqramma”dan istifadə etdi. İllər keçdikcə bir-birini tanımayan insanları vahid informasiya məkanında birləşdirən “sosial şəbəkə” anlayışı da adi həyat tərzinə daxil oldu.

2002-ci ildə “Friendster”, 2003-cü ildə “Linkedin” və “MySpace”, 2004-cü ildə “Facebook”, 2006-cı ildə isə “Twitter” yarandı. Dünya ölkələrinin əksəriyyətində onların milli versiyaları da ortaya çıxdı. Bu gün informasiyanın yayılmasında ənənəvi vasitələrin öz yerini bir çox hallarda dəyişməsi baş verməkdədir. İnternet resursları hazırda istifadəçilərin sayına görə bəzən dünyanın ən aparıcı qəzetlərinin tirajlarını belə dəfələrlə ötüb keçir və eyni zamanda, informasiya münaqişələrinin yaranması üçün arenaya çevrilir.

Sosial şəbəkələrin ictimai-siyasi proseslərdə cəmiyyətin əhval-ruhiyyəsinə təsir etmək vasitəsi kimi rolunun daha da artacağını güman etməyə əsaslar yaranır. Sosial şəbəkə istifadəçilərinin əhatə dairəsinin artım dinamikası belə bir nəticəni tamamilə qanunauyğun edir. Belə ki, artıq 2013-cü ilin sonlarında sosial şəbəkələrdən istifadə edənlərin sayı bütün dünyada 19,2 faiz artmışdı və hazırda bu

rəqəm 1,5 milyard insanı ötüb keçir. Qeyd etmək lazımdır ki, dünyanın ən böyük sosial şəbəkəsi «Facebook» olaraq qalır. Onun 1 milyarddan çox istifadəçisi vardır [1].

Hazırda sosial şəbəkələr nüfuzlu şirkətlərin fəaliyyətində də geniş istifadə edilir. Bunu aşağıdakı göstəricilər də sübut edir. Belə ki, bu gün dünyada korporasiyaların 80 faizi sosial şəbəkələrin xidmət¬lərindən istifadə edir, sorğu keçirənlərin 78 faizi isə bu şəbəkələrdə yayılan informasiyaların dürüstlüyünə inanır. “Windows Live Messenger”in hər ay 330 mln.; “Yahoo! Messenge”nin 22 mln; “Skype”ın ümumilikdə 560 mln. (April 2010); “ICQ”nin 4 milyon istifadəçisi var. Sırf əyləncə portalları çərçivəsini çoxdan ötüb keçən sosial şəbəkələr müəssisələrin əməkdaşları arasında ən rahat və əlverişli kommunikativ kommunikasiya vasitələrindən biridir və həmin şəbəkələrdən hətta müxtəlif şirkətlər arasında danışıqlar aparılması üsulu kimi də istifadə olunmaqdadır [2].

Ümumiyyətlə, ənənəvi KİV son illər ciddi şəkildə, siyasi problemlər və hərbi böhranlar kontekstində rolu daha çox hiss edilən elektron media və sosial şəbəkələrlə sıxlaşıb. Sosial şəbəkənin informasiyası əhalinin düşüncəsinə yaxın olduğundan sosial şəbəkələr ciddi mediaya köklü şəkildə təsir göstərir və günümüzün bu aktual məsələsi dünyanın aparıcı KİV təmsilçilərini narahat etməkdədir. Çünki bir neçə ildən sonra sosial şəbəkələr ənənəvi kütləvi informasiya vasitələrinin rolunun və yerinin qiymətləndirilməsini köklü şəkildə dəyişəcək. Bu proqnoz məntiqlidir.

Sosial şəbəkələrin dövlətçiliyə qarşı cinayətlərdəki roluna gəlincə, yada salmaq lazımdır ki, 2011-ci il, demək olar ki, bütünlüklə Şimali Afrikanın bir sıra ölkələrində və Yaxın Şərqdə “ərəb baharı” adını alan çaxnaşmalar fonunda keçmişdir. Yenə də yuxarıda xatırlatdığımız bir sıra nümunələrə qayıdaraq yada salaq ki, bu hadisələrin təsiri altında iqtidarda olan bəzi qüvvələr devrilmiş, Liviyada isə hətta dövlətin rəhbəri qəddarlıqla öldürülmüşdü. Bütün bu hadisələri yalnız bir mühüm xüsusiyyət birləşdirirdi – onların hazırlanmasında internet, daha dəqiq desək, sosial şəbəkələr fəal iştirak etmişdilər. Belə ki, müxalifət hərəkatının bir qrup fəalı (bir qayda olaraq gənclərin nümayəndələri) hakimiyyətdə olan qüvvələrin siyasətindən narazı olan virtual birliklər yaradırdılar. Onlar kənardan dəstək göstərilməsi ilə siyasi quruluşun dəyişilməsi istiqamətində çağırışlar yayır və müxalifətin aksiyalarını təşkil edirdilər.

Məsələn, 2011-ci ildə ərəb dünyasında inqilabların təşkil edilməsində «Twitter» və «Facebook» kimi sosial şəbəkələrin imkanlarından geniş istifadə olunmuşdu. Ümumiyyətlə, Şimali Afrikada və Yaxın Şərqdə son “internet inqilabları”nın təhlili heyrətamiz nəticələr əldə etməyimizə səbəb olur. Belə deyə bilərik ki, sosial şəbəkələr, sadəcə, kiberxidmətlərin təqdimediciləri deyildilər, onlar ilk dəfə olaraq inqilabi ideyaların əsas mənbəyinə çevrilmişdilər.

Misiri iğtişaşlar dalğası bürüdüyü zaman yerli hakimiyyət xüsusi polis bölmələrinin və ordunun tətbiq edilməsi ilə yanaşı, Qahirəyə internet verilməsini və mobil rabitəni də kəsmişdi. Lakin hökumət əleyhinə aksiyaların iştirakçıları elə həmin sosial şəbəkələrin və onların sahiblərinin köməyi ilə bu məhdudiyyətləri dəf edə bildilər və «Twitter» ilə «Facebook» da daxil olmaqla, bütün sosial şəbəkələrə giriş əldə etdilər. Bu zaman həmin sosial şəbəkələrin səhifələrində etiraz aksiyalarının iştirakçıları üçün təlimatlar yerləşdirilirdi. Təlimatlarda hökumətin tətbiq etdiyi məhdudiyyətləri aradan qaldırmaqda internetdən hansı şəkildə istifadə edilməsi ilə bağlı tövsiyələr var idi. Tədqiqatçı Y.Boçarov qeyd edir ki, «Twitter»in mikrobloqlar servisi yerlərdə fəaliyyətlərin koordinasiyası məqsədilə istifadə edilirdi. “Tvittlər”də insanları təyin olunmuş vaxtda müəyyən yerlərə toplaşmağa çağırır, həmçinin şəhərin hansı küçələrindən keçməyi, yaxud hansı küçələrdən keçməməyi məsləhət görürdülər” [3].

2011-ci ilin yazından etibarən sosial şəbəkələrdə hazırlanan aksiyalar dalğası keçmiş

Sovet məkanı boyunca da yayılmağa başladı. Belarusda, Rusiyada və digər ölkələrdə keçirilən icazəsiz piket və mitinqlərdə - demək olar ki, bütün hallarda bu aksiyalara hazırlıq işlərində sosial şəbəkələrdən istifadə olunmuşdu.

Təsadüfi deyil ki, demokratiyanın inkişafı ilə bağlı müəyyən problemləri olan və "ərəb baharı" hadisələrinin özlərində də təkrarlanmasından ehtiyatlanan ölkələr Aralıq dənizi regionunda baş verən hadisələrlə əlaqədar tez qorxuya düşdülər və ümumi təhlükənin aradan qaldırılması yollarını fəal şəkildə müzakirə etməyə başladılar. 2011-ci ilin payızında Tacikistan, Özbəkistan, Çin və Rusiya BMT-nin Baş katibi Pan Gi Munun adına ünvanladıqları birgə bəyanatda BMT Baş Məclisinin 66-cı sessiyasının gündəliyinə informasiya təhlükəsizliyi haqqında məsələnin salınmasını xahiş etdilər. BMT-nin Baş katibinə göndərilən məktubda İnformasiya Təhlükəsizliyinə Beynəlxalq Nəzarət Qaydalarını rəsmi olaraq müzakirə etmək təklif olunurdu [4]. Sənəd internet saytlarına münasibətdə dövlətlərin hüquq və məsuliyyətlərini konkretləşdirər, bu qaydaların BMT Baş Məclisinin sessiyasının gündəliyinə çıxarılması isə informasiya təhlükəsizliyinin təmin olunması sahəsində dövlətlər arasındakı qarşılıqlı münasibətlərin inkişafına imkan verərdi.

Həqiqətən də son vaxtlar daha çox sayda ölkələrin hüquq mühafizə orqanları bu və ya digər ölkənin qanunlarını və dövlət quruluşunu təhdid edən ssenarilərin inkişaf etməsinin qarşısını almaq məqsədilə sosial şəbəkələr üzərində sərt nəzarətin və ya onların bağlanmasının zəruriliyi haqqında daha tez-tez danışırlar. Lakin "nəzarət" sözünün özü bu halda kifayət qədər qeyri-müəyyəndir və bu da onun birmənalı olmayan izahına əsas verir. Məqsədindən asılı olmayaraq, nəzarətin hər hansı formasının tətbiq edilməsi xeyli sual doğurur. Məsələn, insan hüquqlarının təmin olunması və pozulması arasındakı sərhədi, söz azadlığı ilə özbaşınalığa aparan hər şeyə icazə verilməsi arasındakı hüdudları hansı yolla müəyyənləşdirmək olar? İnsanın hər şeyi bilmək hüququ ilə dövlətin təhlükəsizliyi arasında "demokratik" olaraq necə seçim etməli? Bizə elə gəlir ki, bütün bu məsələlərin ciddi şəkildə işlənilməsinə ehtiyac var. Məhz Türkiyədə 2014-cü ildə «Twitter»in və "Youtube"un bağlanması yuxarıda göstərdiyimiz amilləri açıq şəkildə diqqət mərkəzinə gətirmiş oldu [5].

Xüsusən də "demokratiyanın dayağı" olan Amerika Birləşmiş Ştatları da daxil olmaqla, dünyanın aparıcı ölkələrində internet və hər şeydən öncə də sosial şəbəkələr üzərində nəzarət getdikcə sərtləşdirilir. Böyük Britaniyanın "The Daily Mail" qəzeti ABŞ-ın milli təhlükəsizlik orqanları tərəfindən internet saytlarının və sosial şəbəkələrin monitorinqi məqsədilə istifadə edilən sözlərin siyahısını dərc etmişdir. Bu, "Elektron mühitdə şəxsi həyatın müdafiəsi üzrə informasiya mərkəzi" adlı ictimai təşkilatın sorğusu əsasında mümkün olmuşdur [6].

"The Washington Post" yazır ki, İraq müharibəsi zamanı Amerika hərbçiləri "psixoloji informasiya əməliyyatları" apardılar. ABŞ-ın Müdafiə Nazirliyi yerli əhalini Birləşmiş Ştatları dəstəkləməyə cəlb etmək üçün özəl podratçılara siyasi materialların, xəbərlərin, əyləncə proqramlarının və sosial proqramların istehsalına 300 mln. dollar ödəyir.

Başqa bir misal. Jurnalist və internet fəalı Julian Assange tərəfindən idarə olunan "WikiLeaks" qaynaqlarının gizliliyini qoruyaraq hakimiyyətlərin və digər təşkilatların həssas və çox məxfi bəlgələrini, sənədlərini yayımlayan mərkəzi İsveçdə yerləşən beynəlxalq bir təşkilatdır. "WikiLeaks" təşkilatı keçmiş ABŞ Milli Təhlükəsizlik Agentliyinin (MTA) əməkdaşı olan Edvard Snoudenə dəstək verən sayt açıb. Saytın əsas məqsədi Snoudenin yaydığı izlənmə haqqında sənədlərin və informasiyanın saytda yerləşdirilməsi və ictimaiyyətə çatdırılması, həmçinin Snoudenin məhkəmədə qorunması üçün vəsaitin yığılmasıdır. Edvard Snouden 2013-cü ilin yayında gizli sənədləri ictimaiyyətə çatdırıb.

Sənədlərdə ABŞ-ın bütün dünya üzrə siyasi liderlərin və hətta adi insanların danışıqlarını izləməsi, internet yazışmalarının oxunulması barədə məlumatlar var. Snouden dövlət sirrini yaymaqda ittiham olunur.

"İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi"sinin 11-ci maddəsində göstərilir ki, "Fikir və düşüncə azadlıqlarının azad ifadəsi insanın mühüm hüquqlarındandır. Hər kəs azad danışa, yaza və nəşr etdirə bilər. Lakin bu məsələdən sui-istifadə edən şəxs qanunun müəyyən etdiyi hallarda məsuliyyət daşıyır". Bu isə insan hüquq və azadlıqlarının heç bir ölkədə hüdudsuz olmadığını və zərurət yarandıqda qanunla məhdudlaşdırılmasının mümkünlüyünü göstərir.

**Ədəbiyyat:**


1. Демина М. В 2013 г. в «Facebook» будет 1 млрд пользователей, [Электронный ресурс]// begingroup.com. URL: http://begingroup.com/ru/top/news/news/ »Facebook»
2. Махмудов Н. Социальные сети и их роль в конфликтах, ИА 1news, 21 ноября 2012 г.
3. Бочаров Ю., Киберпреступность и кибертерроризм. Новая глобальная угроза государственному строю, 24.10.2011, URL: http://www.elections-ices.org/russian/publications/textid:12835/
4. Социальные сети - угроза мировой безопасности? Электронный ресурс]// Avesta.Tj | 15 августа 2011 г. URL: http://www.avesta.tj/goverment/9586-socialnye-seti-ugroza-mirovoy-bezopasnosti.html
5. http://az.trend.az/azerbaijan/politics/2256634.html
6. Ильяшенко А., США вводят тотальный контроль в Интернете. Голос России. 30 мая 2012 г.


***Açar sözlər:*** *yeni media, sosial şəbəkə, akkaunt, auditoriya, psixoloji təsir, internet*

**Vugar Rahimzadeh**
*Professor of Baku Slavic University,*
*PhD in Political Science*

# SOCIAL NETWORK AS A NEW TYPE OF MEDIA: CENSORSHIP AND UNLIMITED ACTION PLATFORM OF MODERN JOURNALISTS

## SUMMARY

In recent years traditional media has been seriously concerned over with electronic media and social networks, which have a greater role in the context of political problems and military crises.

Today, people who have access to the Internet through a computer can have a psychological impact on other people, however they are also vulnerable to external influences. Almost everyone turns into a journalist who has an account on a social network and therefore has an incredible amount of access to an audience. It certainly creates a new kind of media.

"Friendster" was founded in 2002, "LinkedIn" and "MySpace" in 2003, "Facebook" in 2004 and "Twitter" in 2006. Their national versions came out in many countries. Today, traditional tools of the dissemination of information are often replaced in most cases.

Currently, the Internet resources sometimes exceed the circulation of the leading newspapers of the world in terms of the number of users and at the same time become the arena for the emergence of information conflicts.

***Key words:*** *New Media, Social Network, Account, Audience, Psychological Impact, Internet*

**Вугар Рагимзаде**
*Профессор Бакинского Славянского Университета,*
*доктор философии по политическим наукам*

# СОЦИАЛЬНЫЕ СЕТИ, КАК НОВЫЕ МЕДИА-ФОРМЫ: ЦЕНЗУРА И НЕОГРАНИЧЕННАЯ ПЛАТФОРМА ДЕЙСТВИЙ СОВРЕМЕННЫХ ЖУРНАЛИСТОВ

## РЕЗЮМЕ

В последние годы традиционные СМИ серьезно озабочено электронными средствами массовой информации и социальными сетями, которые играют более важную роль в контексте политических и военных кризисов. Сегодня люди, имеющие доступ к Интернету через компьютер, могут оказывать психологическое воздействие на других людей, но они также уязвимы для внешних воздействий. Почти каждый превращается в журналиста, который имеет учетную запись в социальной сети и следовательно, имеет невероятное количество доступа к аудитории. Это, конечно, также создает новый вид СМИ.

В 2002 году создался «Friendster», в 2003 году «Linkedin» и «MySpace», в 2004 году «Facebook» и в 2006 году «Twitter». В большинстве стран также появились их национальные версии. Сегодня распространяя информацию традиционные способы во многих случаях меняет свое местоположение. В данный момент Интернет-ресурсы по количеством пользователей иногда превосходит тиражи ведущих мировых газет и в то время становятся ареной для возникновения информационных конфликтов.

***Ключевые слова:*** *новые медиа, социальная сеть, аккаунт, аудитория, психологическое воздействие, интернет*

D Ö V L Ə T İ D A R Ə Ç İ L İ Y İ
P U B L I C A D M I N I S T R A T I O N

UOT 328; 342.5; 351/354
UOT 177

**RƏCƏB RƏHİMLİ**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent**
*e-mail: rehimli@yahoo.com*

# DÖVLƏT QULLUĞUNDA ETİKA VƏ ONUN ƏSAS KOMPONENTLƏRİ

Dünyanın bir çox ölkələrində son otuz ildə etika və dövlət xidməti dəyərlərinə artan marağın dövlət qulluğunda islahatlarla paralellik təşkil etməsi təsadüfi deyil. Bu həm cəmiyyətin müxtəlif sahələrində baş verən dəyişikliklər (məsələn, dövlət qulluqçularının gözləntiləri, daha iddialı, yaxşı bilikli vətəndaşlar, qloballaşma), həm də bir çox ölkədə həyata keçirilən inzibati islahatlar və bu islahatlardan irəli gələn yeni dövlət idarəçiliyi [13, s.3-5], performans əsaslı idarəetmə [26, s.28] və ya ölçülü idarəetmə [19, s.53-54] kimi elmi konsepsiyaların ortaya çıxması ilə əlaqələndirilir. 1997-ci ildə Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya Qarşı Mübarizə haqqında Qərarının üzv ölkələr tərəfindən qəbul edilməsi son dövrdə, dövlət qulluqçularının etik davranış qaydaları və onların komponentləri məsələsində mühüm addım olmuşdur [32]. Xüsusilə, Avropa Şurası Nazirlər Komitəsi tərəfindən qəbul edilərək nəşr olunan Dövlət Qulluqçuları üçün Tövsiyə Edilən Davranış Qaydaları, bu sahədə beynəlxalq praktika üçün mühüm mənbə olmuşdur [28]. Yenə, mövcud sahədə 2004-cü ildə Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya Qarşı Mübarizə Konvensiyasının üzv ölkələr tərəfindən qəbul edilməsi bu istiqamətdə həyata keçirilən mühüm hadisələrdir [34]. Bu sahədə korrupsiyaya qarşı mübarizədə pro-aktiv rol oynayan beynəlxalq qeyri-hökumət təşkilatı xarakterli Beynəlxalq Şəffaflıq Təşkilatının mühüm tədqiqatları var. Təşkilat tərəfindən illik olaraq bildirilən korrupsiya indeksi vaxt keçdikcə ölkələrin korrupsiyaya qarşı mübarizə tədbirlərinin artırılması prosesini sürətləndirir [31, s.18].

Dövlət qulluqçularının qanuni çərçivə daxilində hərəkət etmələrinə dair minimum davranış standartlarının müəyyənləşdirilməsi və etika infrastrukturunun inşa olunması böyük əhəmiyyət kəsb edir. Etik infrastruktur isə əsasən, bir dəyər və ya prinsiplərin bəyan edilməsi, davranış standartları, dəyər şüurunu artırmağa və təkmilləşdirməyə yönələn vasitələr, səhvlərə nəzarət, dəyərlərin və etik proqramların idarə olunması və qiymətləndirilməsi məsələlərini əhatə edir [16, s.9-11].

Bu çərçivədə, hazırkı məqalənin məqsədi, dövlət qulluqçuları üçün etik qaydaları/davranış standartlarını beynəlxalq proqramlar çərçivəsində müzakirə etmək, onların komponentlərini təhlil etmək və bu sahədəki meylləri ortaya qoymaqdır. Bu baxımdan, həmçinin, Azərbaycanda etik davranış qaydalarının müəyyənləşdirilməsi istiqamətində qarşıya çıxan mühüm məsələlərin müzakirə olunması məqsədi güdülür.

Məqalədə dövlət qulluqçuları üçün etika qaydalarını/davranış standartlarını beynəlxalq təcrübə və bu sahədəki normativlər çərçivəsində etik davranış qaydalarının əsas komponentlərinin təhlil edilməsi və bu baxımdan, Azərbaycanda etik davranış qaydalarının təyini məsələsində qarşıya çıxan məsələlərin nələrdən ibarət olduğunun müəyyənləşdirilməsi nəzərdə tutulub. Araşdırmada, ilk növbədə, etika, əxlaq, davranış qaydaları, dövlət qulluğu və dövlət məmuru kimi tədqiqatın

mahiyyətini təşkil edən əsas anlayışlar müzakirə olunmuşdur. Daha sonra məqalənin predmeti olan etik davranış qaydalarının əsasını təşkil edən təməl dəyərlər inkişaf etmiş ölkələrin təcrübələri və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) məsələlərində əldə edilən nəticələr çərçivəsində qiymətləndirilmişdir. Sonrakı hissədə isə, dövlət qulluqçularında etik davranış qaydaları və bunların əsas komponentləri beynəlxalq konvensiyalar və inkişaf etmiş ölkələrin təcrübələri əsasında təhlil edilmişdir. Bu baxımdan, Azərbaycanda etik davranış qaydalarının müəyyənləşdirilməsi sahəsində qarşıya çıxan məsələlər beynəlxalq təşkilatların hesabatları kontekstində tədqiq olunmuşdur.

**Konseptual çərçivə**

Etik baxımdan qəbul edilən hər bir qərar etik qaydaların dəyişən kateqoriyalarında əxlaqi dəyərlərə bağlı olması baxımından faydalıdır. Etik qaydaların hər bir kateqoriyası qərarların qəbul edilməsinin fərqli standartını və ya baxışını müəyyənləşdirir və hər biri, digərinə üstünlük təşkil edən və ya dəyərləndirilən bəzi maraqlara istinad edir. Lakin, bütün şəxslər eyni maraq və üstünlüklərə sahib olmadığından, biz başqalarının seçimini "qeyri-etik" və ya "yanlış" kimi qiymətləndirməyə çalışırıq.

Elm adamları tərəfindən etika və əxlaq bir-birindən ayrı anlayışlar kimi nəzərə alınmaqla yanaşı, həmin anlayışların bir çox nöqtədə üst-üstə düşdüyü də qəbul edilir [5, s.27-45]. Etika və əxlaq anlayışları terminologiya baxımından yaxın anlayışlar olduqlarından gündəlik həyatda çox vaxt eyni mənada istifadə edilir. Digər tərəfdən, etika anlayışı latın dilində xasiyyət, xarakter və ya natura mənalarını daşıyan "ethos" terminindən yaradıldığı halda, əxlaq anlayışı isə latın dilində xarakter, həyat təcrübəsi və düzgün davranış mənasında olan "mores" və ya "moralitas" terminindən yaradılmışdır [29, s.555-561]. Etika insan davranışlarının əxlaqlı olmasını, yaxşı və ya pis, doğru və ya yanlış olub-olmadığını fəlsəfi cəhətdən araşdıran elm sahəsidir [1].

Eyni zamanda, etik nəzəriyyə çərçivəsində müəyyən bir hadisə və ya vəziyyətdə tətbiq olunacaq etik standartlar və davranışlar haqqında fəlsəfi sistemlər arasında da tam bir dəqiqlik yoxdur. Bununla yanaşı, təkcə bir fərdin göstərdiyi münasibət və davranışlar deyil, fərdlərin təşkil etdiyi rəsmi/qeyri-rəsmi qrup və ya qruplar, ölkələr və beynəlxalq cəmiyyət də etikanın maraq sahəsinə daxildir. Bu baxımdan, etika həyatın xüsusi sahəsi ilə məhdud olmayıb cəmiyyət adından hərəkət edənlərin verdiyi qərarları və tətbiq etmələrini də əhatə edir [6].

Fərdlərin cəmiyyət daxilindəki davranışları bir sıra fərqli funksiyanı yerinə yetirən rəsmi və qeyri-rəsmi qayda və nizamlamalara tabedir. Rəsmi qaydalar müntəzəmliyi, davamlılığı, nəzarəti və hesabatlılığı təmin edə bilər. Qeyri-rəsmi qaydalar isə təşkilat mədəniyyətini inkişaf etdirərək, ənənələr yaradaraq və müvafiq münasibətləri inkişaf etdirərək təşkilatların işinə yardımçı ola bilər. Cəmiyyət daxilindəki davranışların tənzimlənməsinin bir yolu da davranış qaydalarıdır. Davranış qaydaları fərqli formalarda ola bilər. Bir çox fərqli peşə, müəssisə və dövlət strukturunun məxsusi davranış qaydaları mövcuddur. Bu baxımdan dövlət qulluqçuları üçün də bu qaydalar istisna olmayıb, onlar üçün davranış qaydaları getdikcə genişlənir [18, s.6]. Xüsusilə, dövlət idarəçiliyi mexanizmi içində qanunverici strukturlardan müstəqil işləyən dövlət məmurlarının davranışlarının nizamlanması siyasi təsirdən izolyasiya edilə bilmələri baxımından böyük əhəmiyyət kəsb edir [16, s.17].

Dövlət qulluğu dövlətə inamı tələb edir. Vətəndaşların məmurlardan gözləntiləri cəmiyyətin xeyri üçün ədalətli şəkildə fəaliyyət göstərmələri və dövlət əmlakını gündəlik olaraq düzgün şəkildə idarə etmələridir. Ədalətli və etibarlı dövlət qulluğu dövlətə sadiq olmaq üçün insana ilham verir və təşkilatlar üçün əlverişli şərait yaradır. Beləliklə iqtisadiyyatın dayanıqlılığı təmin edilmiş olur [20,s 1-6]. Bu çərçivədə, dövlət rəsmilərinin vətəndaşların hüquqlarına hörmət etməsi, cəmiyyətin maraqlarına xidmət etməsi, demokratik idarəetmə

prinsiplərini və dəyərlərini izləməsi (açıqlıq, şəffaflıq, hesab verə bilmə və s.) və eyni zamanda aktiv və fəal şəkildə dövlət xidmətini təqdim etməsi vacibdir. Bu baxımdan siyasətçilər və dövlət qulluqçuları tərəfindən peşə fəaliyyətlərinin etik ölçülərini dərk etməsi və sosial baxımdan qəbul edilən davranış normalarını izləmələri böyük əhəmiyyət kəsb edir [17].

Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya Qarşı Mübarizə Konvensiyasına görə dövlət qulluqçusu: [34]

1) staja əhəmiyyət verilmədən, seçilmiş və ya təyin olunmuş, müvəqqəti və ya daimi, ödənişli və ya ödənişsiz işləyən və ölkələrin qanunverici, icra, məhkəmə və ya inzibati vəzifəsini icra edən şəxsləri;

2) ölkələrin daxili hüququnda müəyyən etdiyi və həyata keçirdiyi kimi, bir dövlət orqanı və ya dövlət təşəbbüsü də daxil olmaqla dövlətə məxsus bir vəzifəni icra edən və ya dövlət xidməti olan şəxsləri;

3) ölkələrin daxili hüququnda "dövlət məmuru" kimi tanınmış digər şəxsləri nəzərdə tutur.

**Dövlət qulluğunun əsas dəyərləri**

Dövlət qulluğunda olan məmurların gözlənilən davranışı üçün cəmiyyət içində ortaq anlayış yaratmağın ilk addımı bu çərçivədə əsas dəyərlərin müəyyən olunmasıdır. Son dövrdə, Yeni Zelandiya, Avstraliya, ABŞ kimi bir çox İƏİT ölkəsi dövlət qulluqçuları üçün etik davranış qaydalarını müəyyən etmişdir. Dövlət qulluqçularının tabe olduğu davranış qaydaları ölkələrin ictimai dəyərlərinə, xüsusiyyətlərinə və prioritetlərinə görə dəyişir. Bununla yanaşı, davranış qaydalarının göstərilən dövlət xidmətinin keyfiyyətinə və bu qaydaların qanunvericilər, məhkəmə və gömrük strukturlarında işləyən məmurlar və ya nəzarətçi məmurlara aid olub-olmamasına riayət edəcək şəkildə uyğunlaşdırılması lazımdır.

Dövlət qulluqçuları üçün davranış qaydaları hazırlanarkən, qaydaların və normativlərin tam quruluşu dəqiqləşdirilməzdən əvvəl əsas dəyərlərin müzakirə edilməsi və bir ölkənin ictimai rəyində fikir birliyinin əldə olunduğu məqamlar barəsində davranış qaydalarının təşkili tövsiyə edilir [12, s.11-17]. Bu baxımdan, dövlət rəsmilərinin tabe olduğu davranış qaydalarının ortaya qoyulması üçün dövlət xidmətlərinə münasibətin əsas dəyərlərinin nələr olduğunun izah olunması lazımdır.

İƏİT ölkələrində "ənənəvi" dəyərlərlə yanaşı inkişaf edən dövlət xidmət mədəniyyətini əks etdirmək üçün "yeni" dəyərlərin

***Qrafik 1:*** *İƏİT ölkələrində ən çox mənimsənilən dövlət qulluğu üzrə Etik Davranış Prinsipləri (ölkə sayı)*




Mənbə: İƏİT, 2000, s.2.

əlavə olunması ilə əsas dövlət xidməti dəyərləri də yenilənmişdir. Bu baxımdan, məsələn, dövlət xidmətlərindən bərabər istifadə edilməklə yanaşı, qanun qarşısında hər kəsin eyni olması və ictimai xidmətin təmin edilməsində ayrı-seçkiliyin olmaması ən çox ifadə olunan dəyərlərdir. İƏİT tərəfindən üzv ölkələri əhatə edən bir tədqiqatın nəticələrinə görə, dövlət xidmətlərinə dair bəzi əsas dəyərlərin vurğulanması ilə yanaşı haqqında bəhs edilən dəyərlərin əhatə dairəsi və baza prinsipləri hər ölkəyə görə dəyişir [20, s.1-6]. Haqqında danışılan araşdırma çərçivəsində dövlət qulluğuna dair qarşıya çıxan əsas dəyərləri göstərən diaqram (qrafik 1) aşağıda verilmişdir.

Yuxarıdakı qrafikdən də göründüyü kimi, İƏİT ölkələrində obyektivlik, qanunilik, dürüstlük, şəffaflıq, səmərəlilik, bərabərlik, məsuliyyət və ədalət dövlət qulluğu sahəsində əsas dəyərlər kimi qəbul edilir. Bununla yanaşı, obyektivlik, qanunilik, dürüstlük ölkələrin təxminən üçdə ikisi tərəfindən əsas dəyərlər kimi ifadə edilmişdir.

### Dövlət qulluqçularında etik davranış qaydaları

Avropa Şurası Nazirlər Komitəsi və Birləşmiş Millətlər Təşkilatının qərarları çərçivəsində İƏİT ölkələrində olan bütün dövlət məmurlarından gözlənilən standartların ətraflı izahı hazırlanmışdır. Bütün dövlət məmurları üçün tətbiq olunan ümumi standartlara əlavə olaraq, İƏİT ölkələri həssas sahələrdə fəaliyyət göstərən xüsusi qruplar və ya peşələr üçün və ya hüquq-mühafizə və ya vergi, gömrük orqanları kimi maraqlar toqquşması riskinin yüksək olduğu strukturlarda əlavə qaydalar tətbiq edirlər. Bəzi ölkələrdə isə dövlət işlərinin idarə olunması məqsədi ilə nazirlər üçün etik qaydalar da hazırlanmışdır [20, s.2]. Bunlar, eyni zamanda, xüsusi iş qrupları üçün qüvvədə olan daha konkret standartlar və davranış qaydalarına riayət edilməməsi zamanı tətbiq olunacaq prosedurları və sanksiyaları əhatə edə bilər [11, s.67].

Dövlət qulluqçularının davranış standartlarına dair hüquqi tənzimləmələrin aparılması, qeyd olunan əsas dəyərlərə diqqət yetirmənin əsas istiqamətini təşkil edir. Qanuni tənzimləmələrlə, bir tərəfdən davranış qaydalarının çərçivəsinin müəyyənləşdirilməsi, digər tərəfdən də müəyyən edilən davranış qaydaları üçün tətbiq olunması nəzərdə tutulan sanksiyalar üçün "cinayət və cəzanın qanuniliyi" prinsipinə əsasən sanksiyanın predmetini təşkil edəcək məsələlərin də qanunla ortaya qoyulması nəzərdə tutulur.

Davranış qaydaları, əsasən ədalət, obyektivlik, müstəqillik, dürüstlük, quruma bağlılıq, diqqət göstərmə, fərdi davranışların yerində olması, şəffaflıq, hesabatlılıq və qurumun mənbələrinin səmərəli istifadəsi kimi əsas etik prinsiplərə uyğun ümumi davranış standartlarını meydana gətirir. Bu çərçivədə inkişaf etmiş ölkələrdə, xüsusən də rəsmi məlumatların və dövlət resurslarının istifadəsi; hədiyyə və ya yardım almaq; dövlət qulluğundan kənarda işləmək kimi potensial maraq toqquşmalarına dair bütün rəsmi məmurlardan gözlənilən standartlara aid ətraflı ifadələr hazırlanmışdır.

Dövlət xidmətlərinin effektiv bir şəkildə icra edildiyi və etik davranış kodekslərinə aid institutisionallaşmanın yuxarı səviyyədə olduğu qiymətləndirilən bəzi ölkələrdə etik davranış qaydalarının aid olduğu sahələri göstərən cədvəl (Cədvəl 1) aşağıda verilmişdir [24].

Cədvəldən də göründüyü kimi, hədiyyə almaq, məxfiliyə riayət etmək, maraqlar toqquşması, dövlət qulluğundan sonrakı məşğulluq, dövlət əmlakından istifadə və siyasi fəaliyyətlər kimi sahələr davranış qaydaları daxilində tərtib olunan məsələlər kimi ön plana çıxır.

### Etik davranış qaydalarının əsas komponentləri

Dövlət qulluqçularında etik davranış qaydaları araşdırıldığında, əsasən korrupsiyanın qarşısının alınmasına dair beynəlxalq müqavilələrdə qeyd edilən məsələlərin bu çərçivədə qaydaların əsas komponentləri olduğu və minimum standartlar üçün müvafiq ölçü təşkil etdiyi müşahidə olunur. Birləşmiş Millətlərin Korrupsiyaya Qarşı Mübarizə Müqaviləsində (BMKQM) milli və beynəlxalq miqyaslı döv-

*Cədvəl 1: Ölkələrə görə etik davranış qaydalarının aid olduğu sahələr*

| Ölkələr | Davranış qaydalarının aid olduğu sahələr |
|---|---|
| Avstraliya | Dürüstlük və dürüst davranmaq, diqqət və qayğı göstərmək, hörmət və nəzakətlə hərəkət etmək, qanunlara tabe olmaq, sədaqət, məxfiliyə riayət etmək, mənfəət qarşıdurmaları, dövlət əmlakına hörmət, dövlət xidmətinin etibarı |
| Kanada | Məxfiliyə riayət etmək, kredit kartı və pul kimi əmlakları, hədiyyələri qəbul etmək, şəxsi maraq, sanksiyalar, rəsmi səfərlər, qeyri-biznes əlaqələri, dövlət və özəl sektor arasındakı əlaqələr, ictimai mallardan istifadə və siyasi fəaliyyətlər, dövlət əmlakının istifadəsi və siyasi fəaliyyətlər |
| ABŞ | Hədiyyələr qəbul etmək, rəsmi məlumatlardan istifadə, kredit kartı da daxil olmaqla dövlət əmlakının və ya müəssisələrinin istifadəsi, rəsmi səfərlər, dövlət qulluğundan sonrakı məşğulluq, özəl sektora yönəlmək üçün istefa etmək və siyasi fəaliyyətlər |
| İngiltərə | Hədiyyə və digər bəxşişlərin qəbul edilməsi, dövlət əmlakından istifadə, məxfiliyə riayət etmək, siyasi fəaliyyətlər, dövlət qulluğundan kənar əmək fəaliyyəti və dövlət qulluğundan sonrakı məşğulluq |

lət məmurlarına rüşvətin verilməsi, vəzifəsindən sui-istifadə edərək başqasının əmlakını mənimsəməsi, haqsız şəkildə əmlak əldə edilməsi, nüfuzundan ticarət məqsədi ilə istifadə etmək, vəzifəsindən sui-istifadə edilmə məsələlərini tənzimləmək üçün əsas komponentlər olduğu aşkarlanır [24, s.9-11].

Bu baxımdan Beynəlxalq Şəffaflıq Təşkilatı tərəfindən rüşvət, maraqlar toqquşması, hədiyyə götürmək və dövlət əmlakının istifadəsinin etik davranış qaydaları çərçivəsində tənzimləməsi və qadağan ediləcək əsas məsələlər kimi qiymətləndirildiyi müşahidə olunur [14, s.6].

Beynəlxalq Şəffaflıq Təşkilatı tərəfindən müəyyən olunmuş davranış qaydaları çərçivəsində qadağan olunacağı qiymətləndirilən ən mühüm amillərdən biri olan rüşvət; "qeyri-qanuni, qeyri-etik və ya etimaddan sui-istifadə şəklində bir fəaliyyətin təşviq edilməsi üçün təklifin verilməsi, vəd verilməsi, qəbul edilməsi və ya bunların tələb edilməsi" kimi ifadə olunur [31, 1-60]. BMKQM-yə görə isə rüşvət:

1) Dövlət məmuruna rəsmi vəzifələrinin yerinə yetirilməsi çərçivəsində hər hansı başqa bir fəaliyyəti icra etməsi və ya onu etməkdən çəkinməsi üçün, özü və ya da digər bir şəxs və ya hər hansı bir varlığın xeyrinə, birbaşa və ya dolayı olaraq, haqsız bir mənfəətin vəd verilməsi, təklif edilməsi və ya bunun təmin edilməsi;

2) Dövlət məmurunun, rəsmi vəzifələrinin yerinə yetirilməsi çərçivəsində bir fəaliyyəti icra etməsi və ya onu etməkdən çəkinməsi üçün, özü və ya üçüncü bir şəxs və ya varlığın xeyrinə, birbaşa və ya dolayı olaraq, haqsız bir mənfəət tələb etməsi və ya onu qəbul etməsi" kimi ifadə olunur.

Maraqlar toqquşması (conflict of interest) cəmiyyətdə qeyri-etik davranışların bazasında yer almaqla əhatəli bir şəkildə etik davranış qaydaları çərçivəsində müzakirə edilməsi tövsiyə edilir [14, s. 5-6]. Dövlət idarəçiliyi çərçivəsində "maraqlar toqquşması" dövlət qulluğu ilə şəxsi mənfəət arasında bir qarşıdurmanın ortaya çıxdığı haldır. Bu termin, bir dövlət məmurunun, rəsmi vəzifəsini icra edərkən özəl bir mənfəətin təsirində qala biləcəyi və ya ağlabatan şəkildə təsir altında qala biləcəyi halları ifadə edir [7, s. 14-17]. Maraqlar toqquşması, dövlət qulluqçusunun rəsmi hüquq və vəzifələrinə aid məhsuldarlığına uyğun olmayacaq şəkildə təsir edəcək şəxsi mənfəətləri ilə öhdəsinə götürdüyü dövlət qulluğu arasındakı qarşıdurmanı ifadə edir [21]. Həm BMKQM (Maddə 8), həm də İƏİT tərəfindən hədiyyə götürmənin və şəxsi mənfəətin təmin olunmasının, maraqlar toqquşma-




sının aparıcı səbəblər olduğu kimi qiymətləndirilir [31]. Bu səbəbdən məmurların vətəndaşlardan hədiyyə qəbul etməsinə daha güclü nəzarət tələb olunur. Bu nöqtədə, davranış qaydaları ilə, həm konkret hədiyyələrin, həm də vəd verilən mənfəətlərin və ya qonaqpərvərlik çərçivəsində təqdim edilən "hədiyyələrin" sərhədlərinin müəyyənləşdirilməsi və detallı bir şəkildə təyin olunması böyük əhəmiyyət kəsb edir. Bu çərçivədə, prinsip olaraq, dövlət məmurları tərəfindən, dövlət məmurunu üçüncü bir tərəfin öhdəliyi altında saxlamamaq üçün bir imtiyaz (üstünlük) və ya mükafat kimi şərh olunacaq hədiyyələrin qəbul edilməməsi lazımdır [14, s. 5]. Burada dürüst davranma məsələsi əsas rol oynayır. Patrik Dobel "Dövlət qulluqçularının dürüstlüyü" kitabında ictimai dürüstlük mövzusunu müzakirə edir. O qeyd edir ki, ictimai dürüstlük konsepsiyası "dövlət məmurlarının qərar üçbucağı daxilində hərəkət etdiyi təkrarlanan bir prosesdir" [8].

Etik davranış qaydaları çərçivəsində əsas komponentlərdən biri kimi qəbul edilən digər bir məsələ də dövlət mülkiyyətindəki əmlaklardan istifadə məsələsidir. Dövlət məmurları üçün davranış qaydalarının, dövlət əmlakının istifadəsinə dair məhdudiyyətlərə sahib olması tövsiyə edilir [14, s. 6]. Bu çərçivədə, dövlət əmlakının istifadəsinə dair ABŞ "Etik Davranış Standartları" sənədində "Əməkdaşlar, dövlət əmlakını mühafizə etmək məcburiyyətində olub, bu malları səlahiyyət verilən məqsədlərdən kənar istifadə edə bilməzlər" şəklində bir qaydaya yer verilmişdir [36].

### Azərbaycanda dövlət qulluqçularının etik davranış qaydalarının tətbiqi

Azərbaycan bazar iqtisadiyyatına keçid dövründə inkişaf etmiş Qərb demokratiyasında əldə edilən təcrübələrə əsaslanaraq dövlət idarəçiliyində ortaya çıxan yeni ehtiyaclar çərçivəsində öz dövlət qulluğu sistemini yenidən formalaşdırdı. Hər nə qədər etik və ya davranış qaydaları regionda yeni fenomen olsa da, ölkəmizdə dövlət məmurları üçün daha yüksək etik standartların tətbiq olunması zəruridir.

Azərbaycanda, korrupsiya ilə mübarizə məsələsində ilk mühüm addım 2000-ci ildə Ümummilli lider Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında Korrupsiyaya Qarşı Mübarizənin Gücləndirilməsi haqqında" fərmanın (№-347) imzalanması olmuşdur. Eyni zamanda dövlət qulluğu sisteminin formalaşdırılmasına və dövlət qulluqçularının əsas hüquq və vəzifələrini tənzimləyən Dövlət qulluğu haqqında qanun 2000-ci ildə qəbul edilmiş və 2001-ci ildə qüvvəyə minmişdir [2].

Korrupsiyaya qarşı mübarizə məsələsində əsas tənzimləmə olan Korrupsiyaya Qarşı Mübarizə Haqqında Qanununun 2005-ci ildə qüvvəyə minməsi və Korrupsiyaya Qarşı Mübarizə Komissiyasının və Azərbaycan Respublikası Baş Prokuroruna bağlı Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi bu çərçivədə mühüm addım olmuşdur. Korrupsiyaya Qarşı Mübarizə Komissiyası korrupsiya ilə mübarizə məsələsində Milli Fəaliyyət Planlarının hazırlanmasında məsuliyyət daşıyır. Bu çərçivədəki beşinci plan olan Açıq Hökumətin Təşviqinə Dair Milli Fəaliyyət Planı (2016-2018) 2016-cı ildə hazırlanmış və tətbiq edilməyə başlanmışdır [Bu çərçivədə daha əvvəl tətbiq olunan fəaliyyət planları bunlardır. Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər), Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya (2007–2011), Korrupsiyaya qarşı mübarizə Milli Fəaliyyət Planı (2012-2015), Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı (2012-2015)]. Bir çox dövlət xidmətlərinin elektron formada göstərilməsini təmin edən ASAN xidmətləri Azərbaycanda korrupsiyanın qarşısının alınmasında böyük rola malikdir.

Məqaləmizin əsas mövzusunu təşkil edən dövlət qulluqçularının etik davranış qaydalarının tənzimlənməsinə dair Dövlət Qulluqçularının Etik Davranış Qaydaları Haqqında Qanun 2007-ci ildə qəbul edilərək qüvvəyə minmişdir [3]. Haqqında bəhs edilən Qanunda dürüst davranış, professionallıq və məxsusi məsuliyyətin artırılması, loyallıq, sədaqət, xalqın etibarının qorunması, hüquqlara, azadlıqlara və qanuni mənfəətlərə hörmət etmək, şərəf, ləyaqətlərini və fərdlərin kommersiya etibarını, hüquqi şəxslərin adına və nüfuzuna hörmət etmək, mədəni davranmaq, əmr və təlimatların və ya verilən vəzifələrin yerinə yetirilməsi, obyektivlik, maddi və qeyri-maddi hədiyyə və üstünlüklərin əldə olunmasının qəbul edilməsinin imkansız olması, korrupsiyanın qarşısının alınması, hədiyyənin qəbul edilməsi ilə əlaqəli məhdudiyyətlər, maraqlar toqquşmasının qarşısının alınması, əmlakdan, informasiyadan istifadə və siyasi fəaliyyətlər başlıqları altında dövlət məmurlarının etik davranış qaydaları tənzimlənmişdir [3].

Son dövrlərin ən mühüm sənədi kimi Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 2018-ci il tarixli "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya" qəbul olunmuşdur. Strategiyanın əsas məqsədlərindən biri kimi yüksək mənəvi və etik dəyərləri əsas tutan dövlət qulluqçularının formalaşdırılması və eləcə də dövlət qulluqçularının etik davranış qaydalarının tətbiqinin təkmilləşdirilməsi bu sahədə əsas inkişaf istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir.

Azərbaycanda etik davranış qaydalarının müəyyənləşdirilməsi məsələsində yuxarıda qeyd olunduğu kimi, nizamlamaların əhatə dairəsi, maraqlar toqquşması hallarının ətraflı müəyyən olunması və daha yuxarı vəzifələrə təyin olunmalara dair qaydaların tətbiq olunmağa başlanılmasını, təkmilləşdirilməsini tələb edən əsas məsələlər kimi önə çıxır. Ölkə Prezidentinin bu sahədə həyata keçirdiyi islahatlar isə səmərəli dövlət idarəçiliyinin təzahürü kimi özünü büruze verir. Belə ki, səmərəli dövlət idarəçiliyi, hətta böhran şəraitində olsa belə, insanların yaşayış şəraitinin yaxşılaşdırılması prinsipinə köklü şəkildə təsir göstərməli və vətəndaşların birgə rifahının təmin edilməsinə istiqamətlənməlidir. Bu səbəbdən, səmərəli dövlət idarəçiliyi işinin xalqın real problemlərinə yönəldilməsi və cəlb olunan sektorları dinləməklə həll yollarını axtarmağa çalışması tamamilə əsaslıdır.

Nəticə etibarilə, inkişaf etmiş ölkələrdə dövlət qulluğunda profesionallaşma və dövlət-vətəndaş münasibətlərinin yenidən inşa olunmasına bağlı olaraq dövlət-vətəndaş münasibətlərində qarşılıqlı cavabdehliklərin effektiv bir şəkildə sistemləşdirilməsi müşahidə edilir. Bu baxımdan, dövlət xidmətlərinin göstərilməsində məsul olan dövlət qulluqçuları üçün etik infrastruktur hazırlanır. Etik infrastruktur isə əsasən bir dəyər və ya prinsiplərin bəyan edilməsi, davranış standartları, etik şüuru yüksəltməyə istiqamətlənmiş vasitələr, xətaların yoxlanması, dəyərlərin və etik proqramların

idarə olunması və qiymətləndirilməsi faktorlarını əhatə edir [9, s.41-46]. Bu prinsipləri və düşüncə tərzini mənimsəmiş ölkələrdə, əsas etik dəyərlərdən istifadə edərək etik davranış qaydalarına dair tənzimləmələr edilir, dövlət qulluqçuları haqqında bəhs edilən etik qaydalara riayət edilib-edilmədiyinin sistematik şəkildə izlənməsini, laqeyd halların aşkar edilməsini və bu laqeydliklərə qanuni çərçivədə çəkindirici tədbirlərin tətbiq olunmasını əhatə edən sistematik ədliyyə və inzibati mexanizmlərin təşkil olunduğu müşahidə edilir.

Azərbaycanda bütün dövlət qulluqçularından tələb olunan etik davranış qaydalarına aid standartlar təkmilləşdirilmişdir. Ümumilikdə, dövlət qulluqçuları üçün qüvvədə olan standartlara əlavə olaraq, dövlətin fəaliyyətinin həyata keçirilməsində məsuliyyət daşıyan hökumət üzvləri, nazirlər, hüquq-mühafizə orqanları, vergi və gömrük idarələri və s. kimi maraqlar toqquşması riskinin yüksək olduğu həssas sahələrdə işləyən müəyyən qruplar və ya peşələr üçün əlavə təlimatlar hazırlanmış, etik davranış qaydalarının nəşr olunması və bu qaydaların səmərəli bir şəkildə tətbiq olunması istiqamətində hüquqi çərçivə və güclü nəzarət mexanizmi formalaşdırılmışdır.

**Ədəbiyyat:**


1. Albanese, J. S. Professional ethics in criminal justice: Being ethical when no one is looking (2nd ed.). Boston, 2008. MA: Pearson Allyn & Bacon. Braswell, M. C.. Ethics, crime and justice: An introductory note to students. In Braswell, M., 2005 McCarthy, B. ve McCharty, B. (Eds.). Justice crime and ethics. Cincinnati, OH: Anderson Publishing. Jones, T. M. Ethical decision making by individuals in organizations: An issue contingent model. Academy of Management Review, 16(2), 1991. pp.366-395.
2. Azərbaycan Respublikasının Dövlət Qulluğu Haqqında Qanunu, Qanun nəşriyyatı, Bakı, 2018
3. Azərbaycan Respublikasının Dövlət Qulluqçularının Etik Davranış Qaydaları Haqqında Qanunu. Qanun nəşriyyatı, Bakı, 2007
4. Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya. 23 noyabr 2018, https://president.az/articles/30842
5. Braswell, C. M. ve Miller, S. L.. Police Perceptions of ethical decision making: The ideal vs. the real. American Journal of Police, 11(4), 1992, pp. 27-45. Souryal, S. S. Ethics in criminal justice: in search of the truth (4th ed.). Cincinnati, OH: Anderson Publication. 2007.
6. Boston, J., Bradstock, A., ve Eng, D.. Public policy: Why ethics matters. Canberra, Australia: The Australian National University Press. 2010.
7. Davids, C., & Boyce, G.. Conflict of interest in the public sector. Victorian government printer. 2008.
8. Dobel, J.P. Public integrity. Baltimore MD: The Johns Hopkins University Press. 1999.
9. EUROSAI.. Auditing Ethics in the Public Sector: A General View of SAI’s practices. 2014.
10. Global Integrity. Global integrity report: 2011 Executive Summary. Washington, DC: Global Integrity. https://doi.org/10.1080/03056240802021484, 2012.
11. GPAC-UNODCCP, Anti Corruption Tool Kit, United Nations Global Programme Against Corruption, Fourth Edi (Vienna: Centre for International Crime Prevention,

Office of Drug Control and Crime Prevention, United Nations Office at Vienna, 2002), I. p. 6, 67.
12. Greg Power, Handbook On Parliamentary Ethics And Conduct A Guide For Parliamentarians, ed. by Global Task Force on Parliamentary Ethics (The Global Organization of Parliamentarians Against Corruption (GOPAC) The Westminster Foundation for Democracy (WFD) GOPAC Global Task Force on Parliamentary Ethics, 2009.<https://www.gpgovernance.net/wp-content/uploads/2013/09/HandbookonParliamentaryEthicsandConductFinal2010_EN.pdf> [accessed 14 January 2019]. pp.11, 17.
13. Hood, C.C. . A public management for all seasons? Public Administration, 69 (1) 1991, pp.3-20.
14. Jenkins, M.. Codes of conduct. 2015https://doi.org/10.1016/0016-3287(95)90061-6
15. Jones, T. M. Ethical decision making by individuals in organizations: An issue contingent model. Academy of Management Review, 1991. 16(2), 366-395.
16. John A. Rohr, Ethics for Bureaucrats: An Essay on Low and Values (New York: Marcel Dekker, Inc., 1978.
17. Jolanta Palidauskaite, Codes of Conduct for Public Servants in Eastern and Central European Countries: Comparative Perspective Jolanta, 2002 <www.oecd.org/mena/governance/35521438.pdf> [accessed 13 January 2019].
18. Matthew Jenkins, Codes of Conduct, 2015 <https://doi.org/10.1016/0016-3287(95)90061-6
19. Noordegraaf M., & Abma, T.. Management by measurement? Public management practices amidst ambiguity. Public Administration, 2003, 81(4), 53-71.
20. OECD. Building Public Trust: Ethics Measures in OECD Countries. PUMA Policy Brief, (7), 2000.
21. OECD. Managing Conflict of Interest in the Public Sector: A Toolkit. Paris: İƏİT Publishing. 2005. https://doi.org/10.1155/2014/978184
22. OECD-ACN. Anti-Corruption Reforms in Azerbaijan: Fourth Round of Monitoring of the Istanbul Anti-Corruption Action Plan. OECD Publishing. 2016.
23. OECD-ACN. Anti-Corruption Reforms in Azerbaijan: Fourth Round of Monitoring of the Istanbul Anti-Corruption Action Plan-Progress Update. OECD - Anti-Corruption Network for Eastern Europe and Central Asia. 2017.
24. Office of Public Values and Ethics for Canadian Government, The Ethics Infrastructure In The Public Administration: The Experience Of Several Countries, 2002., <http://www.tbs-sct.gc.ca/veo-bve/theethicsinfrastructureinthepublicadministration_e.asp> [accessed 19 November 2018]; Eurosai, Auditing Ethics in the Public Sector: A General View of SAI's Practices, 2014, pp. 9-11.
25. Pollock, J.. Ethical dilemmas and decision making in criminal justice. Belmont: Wadsworth. 2007
26. Pollitt, C., & Bouckaert, G..Public management reform: A comparative analvsis, (2nd edn.). Oxford: Oxford University Press. 2004, 368p.
27. Rohr, J. A. Ethics for Bureaucrats: An Essay on Low and Values. New York: Marcel Dekker, Inc. 1978.
28. Souryal, S. S. Ethics in criminal justice: in search of the truth (4th ed.). Cincinnati, OH: Anderson Publication. 2007.
29. The Committee of Ministers of the Council of Europe, Codes of Conduct for Public Officials and Explanatory Memorandum, 2000 <http://workspace.unpan.org/sites/internet/Documents/UNPAN038306.pdf>.
30. Thompson, D. F.. The possibility of administrative ethics. Public Administration Review, 45, 1985, pp.555-561.
31. Transparency International. The Anti-Corruption Plain Language Guide.

Transparency International, (July), 1–60. 2009. Retrieved from www.transparency.org
32. Transparency International.. Corruption Perceptions Index. Transparency International, 2017, pp.107–114. https://doi.org/978-3-943497-18-2
33. United Nations General Assembly, United Nations Convention Against Corruption.
34. United Nations General Assembly. Action Against Corruption, (A/RES/51/59), 1997
35. United Nations General Assembly. United Nations Convention Against Corruption, Pub. L. No. General Assembly Resolution 58/4 of 31 October 2003 (2004).
36. United States Office of Government Ethics. Standards of Ethical Conduct for Employees of the Executive Branch, Pub. L. No. Codified in 5 C.F.R. Part 2635 (1/1/02 Edition), as amended at 67 FR 61761-61762 (Oct. 2, 2002) (2002). Retrieved fromhttps://www.oge.gov/Web/oge.nsf/0/076ABBBFC3B026A785257F14006929A2/$FILE/SOC as of 81 FR 81641 FINAL.pdf

***Açar sözlər:*** *etika, dövlət qulluğu, dövlət idarəçiliyi, şəffaflıq, korrupsiya, qeyri-etik davranışlar*

**Rajab Rahimli**
*Head of the Scientific Research and International Relations Department of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Associate Professor, PhD in Political Science*

## ETHICS AND ITS MAIN COMPONENTS IN THE CIVIL SERVICE

### SUMMARY

Contemporary global processes have led to changes in the scope of public administration along with that, these processes required implementation of faster, more efficient and citizen-centered public services and public administration reforms.

At the same time, under the conditions of dynamically developing modern processes, the expectations of those who are managed have also changed, and their expectations for ethical values were set as a priority task. Because ethical issues and non-ethical behavior that emerge in public institutions have led to a violation of state-citizen relations. The reliability and image of public organizations through the eyes of the citizen are measured by the struggle against unethical behaviors. Citizens expect civil servants to serve the public interest fairly and effectively utilizing common resources in their everyday work. Fair and trust in public services increase public confidence. From this point of view, ethical values and ethical approach to governance emerge as important factors in public administration reform. Forming a theoretical framework of ethics, the article analyzes current ethical issues in public administration system of the Republic of Azerbaijan, as well as provides information about manners of unethical behavior and ways to deal with them. The existence of problems in this field is one of the key factors that make the article relevant.

***Key words:*** *Ethics, Civil Service, Public Administration, Transparency, Corruption, Unethical Behavior*

**Раджаб Рагимли**
*Начальник Отдела научной организации и международных связей*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по политическим наукам, доцент*

# ЭТИКА ГОСУДАРСТВЕННОЙ СЛУЖБЫ И ЕЁ ОСНОВНЫЕ КОМПОНЕНТЫ

## РЕЗЮМЕ

Современные процессы глобализации, повлиявшие на все сферы деятельности государственного управления наряду с требующими от них изменений, также делают актуальными претворение в жизнь более эффективных государственных услуг, ориентированных на граждан и реформ в области государственного управления. Этические проблемы и неэтичное поведение, встречающиеся в государственных органах способствуют нарушению доверия граждан к государству. Главное ожидание граждан от государственных служащих – служение общественным интересам и эффективное использование в повседневной деятельности общих ресурсов. С этой точки зрения, этические ценности и этичный подход к управлению выступают перед нами как важный фактор. В статье, наряду с формированием так называемой теоретической рамки в области этики, проанализировано современное состояние служебной этики в системе государственного управления Азербайджанской Республики, даны сведения о примерах неэтичного поведения и пути их преодоления.

***Ключевые слова:*** *этика, государственная служба, государственное управление, прозрачность, коррупция, неэтичное поведение*

SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR
POLITICAL INSTITUTES AND SYSTEMS

UOT 321:001.11

**NURƏDDİN İBRAHİMOV**
**AMEA İnsan Haqları və Hüquq İnstitutunun doktorantı, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: nibrahimov@mail.ru*

# PREZİDENTLİ VƏ PARLAMENTLİ RESPUBLİKALARDA PREZİDENTLİYİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

## Giriş

Müasir dünyada bir çox ölkənin dövlət idarəçilik sistemində ilk dəfə ABŞ-da təsis olunmuş prezidentlik institutu aparıcı rol oynayır. Lakin onun dünyada yayılması miqyasına baxmayaraq, müxtəlif ölkələrdə tətbiq olunan modelləri fərqli olmaqla, prezidentlərin statusu da eyni deyil. Bundan başqa, dövlət başçısının real hakimiyyəti konkret dövlətin idarəetmə formasından və siyasi rejimin xarakterindən asılıdır. Təhlillər göstərir ki, prezidentli və parlamentli respublikalarda prezidentlik institutu fərqli spesifik xüsusiyyətlərə malikdir. Bu fərqli tərəflər prezidentin seçkiləri, onun konstitusion-hüquqi statusu, səlahiyyətləri və s. bağlı olur. Məsələn, prezidentli respublikalarda prezident ümumi seçkilərdə seçilirsə, parlamentli respublikalarda onu parlament seçir.

Prezidentli respublika idarəçilik forması tətbiq olunan ölkələrə müstəqil dövlət quruculuğu yolu ilə uğurla inkişaf edən və sürətli sosial-iqtisadi inkişaf templərinə malik olan Azərbaycan Respublikası da aiddir. Prezidentlik institutunun təsis edilməsi demokratik dövlət quruculuğu yolunda Azərbaycan dövlətçiliyinin inkişafında yeni mərhələ açmışdır. Ulu öndərimiz Heydər Əliyevin başladığı və onun bütün sahələrdə siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi altında ölkəmizdə uğurla aparılmış konstitusiya islahatları nəticəsində prezidentlik modeli təkmilləşdirilərək inkişaf etdirilir. Bu mənada 2016-cı ildə keçirilmiş sonuncu referendum nəticəsində ilk dəfə olaraq Vitse-prezidentlik institutunun tətbiq edilməsi də əhəmiyyətli olmuşdur.

Göründüyü kimi, dünya ölkələrində prezidentli və parlamentli idarəçilik formaları şəraitində tətbiq olunan prezidentlik institutunu modellərinin, Azərbaycan Respublikasında təşəkkül tapmış bu institututun xüsusiyyətlərinin araşdırılması aktuallıq kəsb etməklə, nəzər və praktiki əhəmiyyət daşıyır.

## Prezidentlik institutunun ümumi səciyyəsi

“Prezident” termini latın sözü olan “Praesidens” sözündən yaranmış, hərfi mənada “öndə oturan” deməkdir. Prezident anlayışı siyasi elmdə ümumi mənada seçilən dövlət başçısı kimi şərh edilir. Buna görə “dövlət başçısı” anlayışı prezident anlayışına münasibətdə ümumi mahiyyət daşıyaraq həm respublika, həm də monarxiya idarəetmə formalarına dair işlədilir. Antik dövrlərdə müxtəlif yığıncaqların sədrlərini prezident adlandırırdılar. Bu sözün həmin ilkin mənasından sonra, məsələn, senatın prezidenti kimi vəzifələr yaranmışdır. Dövlət başçısı kimi müasir anlamında “prezident” anlayışı nə Yunan və Roma respublikaları zamanı, nə də İngiltərə və Hollandiyada erkən burjua respublikaları dövründə istifadə edilməmişdir [14, s. 5].

Prezidentlik institutunun fərqli modelləri müxtəlif ölkələrin konstitusiyasında “dövlət başçısı”, “icra hakimiyyətinin başçısı”, “arbitr”, “yüksək vəzifəli şəxs” kimi terminlərin istifadə edilməsini şərtləndirmişdir. Bəzi hallarda isə prezidentin konstitusion statusu

müəyyənləşdirilmir. Müasir prezidentlərin hüquqi mövqeyində ortaq cəhət prezidentlərə onların əhəmiyyəti vurğulayan çoxsaylı status simvolları və epitetlərin aid edilməsidir. Prezident: Konstitusiyanın təminatçısı (Rusiya Federasiyası Konstitusiyasının 80-ci maddəsi); insan və vətəndaş hüquq və azadlıqlarının təminatçısı (Belarus Respublikası Konstitusiyasının 79-cu maddəsi); milli müstəqillik, ərazi bütövlüyü, birliyin razılaşmaları və beynəlxalq müqavilələrə riayət olunması, ictimai hakimiyyətlərin düzgün işləməsi və dövlətin varisliyinin təminatçısıdır (Fransa Respublikası Konstitusiyasının 5-ci maddəsi); milli birliyi təmsil edir (İtaliya Respublikası Konstitusiyasının 87-ci maddəsi) və s. [7; 8].

Dövlət başçısının əhəmiyyətini vurğulayan bu çoxsaylı konstitusion simvol və epitetlər dövlət inkişafının sabitliyi və davamlılığının saxlanılmasında mühüm rol oynayır. Dövlət başçısı institutu özünün müxtəlif növlərində dünyada artıq uzun müddətdir ki, siyasi qüvvələrin mübarizəsindən yuxarıda dayanan, konstitusiyaya riayət edilməsinin, xalqın ehtiyac və istəklərinin təminatçısı və milli birliyin simvolu kimi nəzərdən keçirilir.

XX əsrin 80-ci illərin sonlarından etibarən dünyada baş verən sosialist düşərgəsinin dağılması ilə bağlı olan fundamental dəyişikliklər prezidentlik institutunun daha da yayılmasına təkan vermişdir. Avropanın post-sosialist ölkələri, həmçinin keçmiş Sovet İttifaqı ölkələrini prezidentlər idarə etməyə başladı. Bu ölkələrdə ictimai-iqtisadi quruluşun dəyişməsi obyektiv şəkildə Qərb ölkələrinin dövlət və siyasi institutlarının qəbul edilməsinə gətirib çıxardı.

Yuxarıda da qeyd edildiyi kimi, prezidentlik institutunun dövlət idarəçilik sistemində yeri konkret dövlət idarəçilik formasından asılı olaraq dəyişir. Dövlətin idarəetmə forması ali dövlət hakimiyyəti orqanlarının strukturu, hüquqi statusu və nisbəti kimi başa düşülür. Prezidentlik institutu respublikaçılığın ayrılmaz tərkib hissəsi olduğundan, onun idarəçilik sistemindəki yerinin təhlili müasir dövrdə respublika idarəetmə formasının əsas növlərinin xüsusiyyətlərinin nəzərə alınması ilə aparılmalıdır.

**Prezidentli respublikalarda prezidentliyin əsas xüsusiyyətləri**

Prezidentli respublika respublika idarəetmə formasının ən geniş yayılmış növüdür. Bu respublikanın xarakterik xüsusiyyətlərinə dövlət başçısının və hökumətin səlahiyyətlərinin prezidentin əlində cəmlənməsi; prezidentin seçilməsi və hökumətin formalaşdırılmasının parlamentdən kənar metodu; hökumətin yalnız prezident qarşısında məsuliyyət daşıması; prezidentin əlində böyük siyasi, hərbi və sosial-iqtisadi hakimiyyətin cəmlənməsi; parlamentin hökumətə etimadsızlıq göstərmək hüququnun olmaması aid edilir [13, s.191].

Müasir respublikaçılığın mühüm xüsusiyyətlərindən biri idarəetmə formalarına müxtəlif düzəlişlərin edilməsidir ki, nəticədə daha az "təmiz" prezidentli və parlamentli respublikalar qalmış və "hibrid" və ya qarışıq idarəetmə formalarının - superprezidentli, monokratik və yarıprezidentli respublikalar və s. meydana gəlmişdir. Respublikanın klassik formalarını nəzərdən keçirərkən, belə qənaətə gəlmək olar ki, onların arasında əsas fərq hökumətin siyasi məsuliyyəti üsulundan ibarətdir, bütün digər əlamətlər, o cümlədən hökumətin təyinatı qaydasını həlledici hesab etmək olmaz. Belə ki, məsələn, parlament respublikasında da hökumət üzvləri formal olaraq prezident tərəfindən təyin edilir, əslində isə onun bu addımı yalnız parlamentin əksəriyyətinin iradəsini əks etdirir.

Superprezidentli respublikanın yaranması üçün əsas ABŞ-da formalaşmış və dünyaya sabit idarəetmə sistemi nümunəsi vermiş, nəticədə, dövlətlərin əksəriyyətinin, həm yeni müstəqillik qazanmış, həm də metropoliyaların əsaslandığı idarəetməsi forması olmuşdur. İlk dəfə ABŞ-da yaradılmış siyasi sistemin vacib institutlarından olan prezidentlik institutu "prezidentliyin amerika modeli"nin yaranması üçün fundament olmuşdur. Bu model indiki dövrdə də spesifik olaraq qalır, çünki tam mənasında yalnız ABŞ-da tətbiq edilmişdir.

ABŞ-da prezidentin hüquqi statusunun unikallığı ondan ibarətdir ki, o, eyni zamanda

həm dövlətin, həm də icraedici hakimiyyətin başçısıdır. Bu müddəa ABŞ Konstitusiyasının II maddəsinin I hissəsində təsbit edilmişdir. Bundan başqa, Konstitusiyada hər hansı bir digər icra hakimiyyəti orqanından söhbət açılmır. Prezident dövlət hakimiyyəti orqanları sistemində müstəqildir, ABŞ Konqresinə hesabat vermir, onun nəzarətində deyil və yalnız xalq qarşısında məsuliyyət daşıyır. Bununla yanaşı, ABŞ prezidentinin hakimiyyəti mütləqləşdirilmir, onun tamhüquqlu tərəfdaşları qismində Prezidentdən müstəqil olan Konqres və daha az müstəqil olmayan Ali Məhkəmə çıxış edir. ABŞ-da bu hakimiyyətlərin bir-birinə münasibətdə qarşılıqlı çəkindirmə və tarazlaşdırma sistemi ilə tamamlanmış hakimiyyətlərin bölünməsi prinsipi möhkəmlənmiş və fəaliyyətdədir.

O zamankı icra hakimiyyətinin monarxik, irsi xarakter daşıdığı digər dövlətlərdən fərqli olaraq, ABŞ-da dövlət başçısını ümumxalq seçkiləri yolu ilə seçməyə başladılar. Belə ki, ABŞ prezidenti dolayı seçkilər yolu ilə hər bir ştatdan olan senator və nümayəndələr palatası üzvlərinin ümumi sayına bərabər sayda seçkiçilər vasitəsilə seçilir. Belə üsul prezidentin xalqın iradəsini birbaşa ifadə etməsi və ya ümumxalq leqislatura yolu ilə seçilməsi təkliflərinə münasibətində kompromis həll idi. ABŞ Konstitusiyasının 2-ci maddəsinin II və III bölmələrinə əsasən prezident aşağıdakı səlahiyyətlərə malikdir:

- Prezident Birləşmiş Ştatlar ordusu və donanmasının, Birləşmiş Ştatların həqiqi xidmətinə çağırılmış ayrı-ayrı ştatların xalq qoşunlarının ali baş komandanıdır;
- O, hər bir icra departamentinin başçısından onun səlahiyyətinə aid istənilən məsələ haqqında yazılı fikir bildirməyi tələb edə bilər;
- Onun Senatın məsləhəti və razılığı ilə beynəlxalq müqavilələr bağlamaq (onları iştirak edən Senatorların üçdə ikisi təsdiq etməlidir), Senatın məsləhəti və razılığı ilə səfirləri, başqa səlahiyyətli Nümayəndələri və konsulları, Ali Məhkəmənin hakimlərini, eləcə də Birləşmiş Ştatların, təyinatları haqqında bu Konstitusiyada başqa göstəriş olmayan və vəzifələri qanunla müəyyənləşdirən bütün vəzifəli şəxslərini təyin etmək hüququ vardır;
- Prezident vaxtaşırı Konqresə ittifaqın vəziyyəti haqqında hesabat verir və baxılmaq üçün ona özünün zəruri və faydalı saydığı tədbirləri təqdim edir;
- Təcili lazım olduqda o, hər iki Palatanın, yaxud onlardan birini çağırır, sessiyaların təxirə salınması vaxtı haqqında Palatalar arasında fikir ayrılığı yarandıqda onları özünün münasib bildiyi vaxta keçirir və s. [8].

Lakin digər dövlətlərdə prezidentlik institutunun yaranması üçün nümunə kimi istifadə edilən Amerika modelinin tətbiqinin nəticələri heç də eyni olmamışdır. Bu cəhdlər bir sıra ölkələrdə respublikanın monarxiya və diktaturaya yönəlməsi və respublika idarəetmə formasının müxtəlif variantlarının meydana çıxmasına gətirib çıxarmışdır. Bu baxımdan Latın Amerikası ölkələrinin təcrübəsi xüsusilə maraqlıdır.

Beləliklə, superprezidentli respublika –əsas xüsusiyyəti hipertrofik, praktiki olaraq nəzarət edilməyən prezident hakimiyyəti olan dövlət idarəçilik sistemidir. Bunu əsaslandırmaq üçün prezidentin birbaşa seçicilər tərəfindən birbaşa seçilməsi prinsipi istifadə olunur, həmin prinsipin sayəsində o, ölkəni idarə etmək mandatını birbaşa olaraq "xalqın əlindən" əldə edir və bu da ona özünü bütün digər dövlət orqanları və ictimai təşkilatlara qarşı qoymaq hüququ verir.

Prezidentin mütləq hakimiyyətinin tarazlaşdırıcısı qismində isə rotasiya prinsipi, yəni prezidentin növbəti müddətə yenidən seçilməsinin mümkünsüzlüyü tətbiq edilirdi. Nəzəri cəhətdən bu prinsip prezidentin diktaturasının qurulması imkanlarının qarşısını almağa xidmət edir, lakin təcrübədə heç də həmişə dövlət çevrilişlərinin edilməsinə və diktator rejimlərinin qurulmasına mane ola bilməmişdir. Onu da qeyd etmək lazımdır ki, XX əsrin sonu, XXI əsrin əvvəllərində Latın Amerikası ölkələrində həyata keçirilən konstitusion islahatlar nəticəsində superprezidentli respublikalar əksəriyyət ölkələrdə mülayim prezidentli, bəzi ölkələrdə isə yarıprezidentli və prezidentli-

parlamentli respublika idarəetmə formaları ilə əvəz olunmuşdur.

Prezidentlik institutunun dövlət idarəçilik sistemində yerinin tədqiqi baxımından təhlil edilməli olan növbəti model yarıprezidentli respublika idarəetmə formasıdır. Bu model həm də Fransa modeli adlanır. Yarıprezidentli respublikada prezident ümumxalq səsverməsi yolu ilə seçilir; o, parlament və hökumətdən müstəqil şəkildə hərəkət etmək üçün imtiyazlara malikdir; prezident ilə yanaşı baş nazirin başçılıq etdiyi və parlament qarşısında məsuliyyət daşıyan hökumət də fəaliyyət göstərir; Prezidentin təyinatı dövlət hakimiyyətinin bütün qollarını birləşdirmək, onların ahəngdar və səmərəli fəaliyyət göstərməsinə yardım etməkdir. Fransanın 1958-ci il Konstitusiyasında nəzərdə tutulmuş hökumət hakimiyyətinin təşkili ilə bağlı dualist tənzimləmə məhz prezidentin real hökumət başçısına çevrilməsinə səbəb oldu, burada baş nazir artıq ikinci dərəcəli bir rol oynayır. Bu hal bütün Fransa prezidentləri dövründə belə idi. Bu vəziyyətə dair, M.Düverjenin fikrinə əsasən, "V Respublikada Baş nazir prezidentin siyasətini ört-basdır edən irəli sürülmüş bir şəxs rolunu oynayır" [9, s.176].

Yarıprezidentli respublikada dövlət başçısının icra hakimiyyəti sahəsində səlahiyyətləri prezidentin baş naziri təyin etməsi və onun istefasını qəbul etməsi, sonuncunun təklifi ilə hökumət üzvlərini vəzifəyə təyin və vəzifədən azad etməsində ifadə olunur. Respublika prezidenti hökumətin iclaslarına sədrlik edir, orada müzakirə olunan qərar və sərəncamları imzalayır, beynəlxalq müqavilələri ratifikasiya edir, silahlı qüvvələrin ali baş komandanıdır. Prezident ətrafında onun yaxın əməkdaşlarından ibarət olan və rəsmi hökuməti demək olar ki, "təkrarlayan" rəsmi aparat fəaliyyət göstərir. Parlament yalnız prezidenti seçmək hüququnu itirməmiş, həm də onu vəzifədən də uzaqlaşdıra bilməz. Prezident parlamentlə göndərdiyi müraciətlər vasitəsilə əlaqə saxlayır, bu müraciətlər palatalarda oxunur və müzakirəyə məruz qoyula bilməz. Prezident Parlamenti fövqəladə iclaslara çağıra bilər. Parlament tərəfindən qəbul edilən bütün qanunlar prezident tərəfindən təsdiq edilir. O, Palatalardan qanunların yenidən müzakirəsini (Veto hüququ) tələb edə bilər və ya onların Konstitusiyaya uyğunluğunu yoxlamaq üçün Konstitusiya Şurasına müraciət edə bilər. Prezident dövlət hakimiyyətinin təşkili və ya beynəlxalq müqavilənin, razılaşmanın təsdiqlənməsinə dair qanun layihəsini referenduma çıxarmaq hüququna malikdir. Prezident aşağı palatanı buraxmaq hüququna malikdir və fövqəladə hallarda, faktiki olaraq, digər orqanları kənarlaşdıraraq bütün dövlət hakimiyyətini öz üzərinə götürə bilər (Fransa Konstitusiyasının 16-cı maddəsi) [8].

Beləliklə, yarıprezidentli respublikada prezidentin əlində böyük hakimiyyət cəmləşir və onun səlahiyyətləri ABŞ prezidentinin səlahiyyətlərindən daha genişdir.

### Parlamentli respublikalarda prezidentin dövlət başçısı kimi yeri və rolu

Parlamentli respublikada dövlətin başında seçilmiş vəzifəli şəxs dayanır, hökumət isə yalnız parlamentin aşağı palatasının (və ya bəzən, hər iki palatanın, məsələn, İtaliya Respublikasında olduğu kimi) dəstəyini qazandığı halda formalaşır və fəaliyyət göstərir. İlk dəfə belə bir idarəetmə forması XIX əsrin 70-ci illərində Fransada meydana gəlmişdir. Dövlətşünaslar adətən parlamentli respublikanı idarəetmə forması kimi qeyd etmirlər, daha çox həm parlamentli respublikanı, həm də parlamentli monarxiyanı da əhatə edən "parlament idarəetmə forması", "təmsilçisi idarəetmə forması", "parlamentli demokratiya", "parlament rejimi", "parlament sistemi" və s. kimi anlayışlardan istifadə etməyə üstünlük verirlər [10, s.112].

Parlamentli respublikanın fərqləndirici əlamətləri sırasında çox zaman hökumətin parlament qarşısında məsuliyyət daşıması qeyd edilir. Bir sıra müəlliflər isə parlamentli respublikanın fərqli xüsusiyyəti kimi bu respublikada hakimiyyətlərin bölünməsi prinsipi prezident respublikasında mövcud olandan

fərqli şəkildə həyata keçirilir. Burada əsas vurğu qanunverici və icraedici hakimiyyətlərinin bölünməsinə deyil, prezidentli respublikaya nisbətən daha diqqətlə həyata keçirilən hakimiyyətlərin bir-birinə qarşılıqlı nəzarət etməsinə edilir. Parlamentli respublikada prezidentin rəsmi səlahiyyətləri və dövlət hakimiyyətinin həyata keçirilməsi mexanizmindəki real rolu üst-üstə düşmür. Həqiqətən, parlament respublikalarının Konstitusiyalarında həmişə prezidentə vacib səlahiyyətlər verilir. Lakin təcrübədə bütün bunlar hüquqi olaraq kontrasiqnasiya institutu ilə məhdudlaşdırılır, bu instituta əsasən prezidentin fərman və sərəncamlarının tətbiqi üçün kansler və ya səlahiyyətli nazirin imzasına ehtiyac var. Nəticədə, Alman tədqiqatçısı N.Mihelsin də fikrinə görə, parlamentli respublikada prezidentin əsas vəzifə və funksiyaları müstəqil siyasi quruluşa malik deyil. Bu, əsasən, nümayəndəlik xarakteri daşıyan bir vəzifədir [12, s.72].

Müasir parlamentli respublikaların konstitusiyalarının mətnlərində prezidentin mövqeyi də, həmçinin eyni şəkildə müəyyən edilmir. Bir sıra ölkələrin konstitusiyalarında (məsələn, Yunanıstanın) Prezident icra hakimiyyətinin daşıyıcısı elan edilir. Digərlərin konstitusiyalarında (məsələn, İtaliya) isə prezidenti icra hakimiyyəti sferasından tamamilə istisna etməklə yanaşı, həm də onun hökumətin tərkibinə daxil olmamasına vurğu edilə bilir.

Parlamentli respublikaların konstitusiyalarının mətninin təhlili göstərir ki, əksər hallarda dövlət başçısı olan prezident hökumət başçısı hesab edilmir və onun tərkibinə daxil deyil. Prezidentin neytral güc rolunu oynaması ideyası ilk dəfə məhz parlamentli respublikalarda yayılmışdı. Bu ideyaya uyğun olaraq, bir çox parlamentli respublikalarda prezident seçilmiş şəxsin öz partiyasında əvvəllər tutduğu bütün vəzifələrdən istefa verməsini və partiya orqanlarının işində iştirak etməməyini nəzərdə tutan adət formalaşmışdır [11, s.153].

Bəzi tədqiqatçıların qənaətinə görə, prezidentin siyasi neytrallığını doğuran amil onu öz istədiyi hərəkət etmək imkanından məhrum edir ki, bu amil yuxarıda qeyd olunan kontrasiqnasiya institutudur. Həqiqətən, parlamentli respublikanın prezidentinin aktları faktiki olaraq hökumət tərəfindən hazırlanır, çünki onlar məhz hökumətin və ya onun ayrı-ayrı nazirlərinin təklifi üzrə yaxud bu təkliflərə uyğun olaraq dərc oluna bilər. Kontrasiqnasiya institutu prezidenti həlledici səs hüququndan məhrum etsə də məşvərətçi səs hüququndan məhrum edə bilməz. Belə ki, istənilən parlamentli respublikada prezident aktları imzalamazdan əvvəl onun məqsədə müvafiqliyi və hüquqa uyğunluğu ilə bağlı öz düşüncələrini ifadə edə bilər, lakin əgər hökumət prezidentin bu düşüncələrini əsassız hesab edərsə, o halda aktı ona təqdim edilən formada imzalamalıdır. Parlamentli respublikalarının konstitusiya qanunvericiliyi dövlət başçısına veto hüququ vermir.

Parlamentli respublikalarda prezidentin dövlət başçısı kimi yeri və rolunun aydınlaşdırılması üçün nümunə kimi Almaniya Federativ Respublikasında və İtaliya Respublikasında prezidentin hüquqi statusu və səlahiyyətlərini nəzərdən keçirmək olar. AFR-in Federal prezidentinin hüquqi statusuna 1949-cu ildə qəbul edilmiş Əsas Qanunun V bölməsi həsr edilmişdir. Əsas Qanunun 54-cü maddəsinin II hissəsinə əsasən 40 yaşına çatmış və Bundestaqa seçilmək hüququna malik olan alman prezident ola bilər. O, 5 il müddətinə Bundestaq üzvləri və həmin sayda proporsional əsaslarla torpaqların xalq nümayəndəlikləri tərəfindən seçilən üzvlərdən ibarət olan Federal yığıncaq tərəfindən seçilir. Bir şəxs yalnız 2 dəfə prezident seçilə bilər [18].

Federal prezident ilk növbədə konstitusiya quruluşunun qoruyucusu və xarici işlərdə respublikanın təmsilçisi qismində çıxış edir. O, ali dövlət idarəçiliyində həlledici iştirakdan kənarda qalan müstəqil və siyasi cəhətdən neytral fiqur olaraq federal hakimləri və bəzi kateqoriya dövlət qulluqçularını vəzifəyə təyin və vəzifədən azad edir, qəbul edilmiş qanunları təsdiq edir. Eləcə də prezident müxtəlif aktlar qəbul edə bilər, lakin onların qüvvəyə minməsi üçün Federal kansler və ya səlahiyyətli federal nazir tərəfindən imzalanması (Federal kans-

lerin vəzifədən azad edilməsi və Bundestaqın buraxılması haqqında aktlar istisna olmaqla) lazımdır. Parlament seçkilərinin nəticələrinə əsasən prezident federal kansler vəzifəsinə namizədi Bundestaqa təqdim edir və Bundestaq kanslerə etimad haqqında bəyannaməni dəstəkləməzsə, onu buraxa bilər [17].

Prezidentin səlahiyyətlərindən biri də əhv etmək hüququdur. AFR-in Əsas Qanununa əsasən Federal prezident nə hökumətin, nə də Federasiyanın və ya hansısa torpağın qanunverici orqanının tərkibinə daxil ola bilməz. O, həmçinin hər hansı digər haqqı ödənilən vəzifəni tuta bilməz, kommersiya və ya professional fəaliyyəti həyata keçirə bilməz və ya məqsədi gəlir əldə etmək olan müəssisənin rəhbərliyinə və ya müşayiətçi şurasının tərkibinə daxil ola bilməz. Əsas Qanun Federal prezidenti silahlı qüvvələrin idarə edilməsi hüququndan məhrum edir, sülh zamanında bu vəzifəni müdafiə nazirinin, müharibə zamanı isə kanslerin üzərinə qoyur [15].

Onu da qeyd etmək lazımdır ki, AFR-də Federal prezident partiyalardan yuxarıda, gündəlik siyasi mübarizənin üzərində dayanan birləşdirici amil kimi çıxış edir. Lakin məhz o, AFR vətəndaşları üçün siyasi və ictimai oriyentirləri formalaşdırır. Belə ki, Prezidentin real hakimiyyətə sahib olmaması və əsasən, təmsilçilik funksiyalarını yerinə yetirməsinə baxmayaraq Almaniyada hər bir siyasi partiya Federal prezidentin onun sıralarından seçilməsini özünün böyük uğuru hesab edir.

Parlamentli respublikada prezidentin rolunun tədqiqi baxımından maraq doğuran ölkələrdən biri də İtaliya Respublikasıdır. İtaliyanın 1948-ci ildə qüvvəyə minmiş Əsas Qanunu Respublikanın bütün dövlət orqanlarının səlahiyyətlərinin dəqiq sərhədlərini müəyyən etmiş və İtaliya dövlət idarəçilik sistemində prezidentinə olduqca maraqlı bir rol ayırmışdır. Belə ki, dövlət başçısı olaraq Prezident İtaliya Respublikası Konstitusiyasının, İtaliya xalqının birliyinin və dövlətin suverenliyinin təminatçısıdır. 50 yaşına çatmış və Faşist rejimi ilə heç bir əlaqəsi olmayan hər bir İtaliya vətəndaşı ölkə prezidenti seçilə bilər [19].

Dövlət başçısının seçkiləri İtaliya parlamentinin hər iki palatasının deputatları və senatorlarından ibarət olan seçki kollegiyası tərəfindən həyata keçirilir. Kollegiyanın iclaslarında öz seçkiçilərinə məsləhət vermək hüququ verilmiş bütün vilayətlərin nümayəndələri də iştirak etməlidirlər. Hər bir vilayət seçkilərə üç nümayəndə göndərir. Yalnız kiçik vilayət olan Valle d'Aosta kollegiyada bir nümayəndə ilə təmsil olunur. Prezident seçkilərində səsvermə bir neçə mərhələdə baş verir. Namizədin prezident seçilməsi üçün, səslərin üçdə ikisini alması kifayətdir, əks halda son qərarın qəbul edilməsi üçün mütləq səs çoxluğunu toplamaq lazımdır. Seçilmiş dövlət başçısının səlahiyyət müddəti 7 ildir. Prezidentin öz funksiya və səlahiyyətlərini yerinə yetirə bilmədiyi hallarda dövlət başçısının səlahiyyətləri Senatın – İtaliya parlamentinin yuxarı palatasının sədrinə ötürülür [20].

Qeyd etmək lazımdır ki, İtaliya Konstitusiyası İtaliyanın prezidenti vəzifəsini istənilən digər vəzifə ilə eyni zamanda tutmağa imkan vermir. Dövlət başçısı millət vəkilləri və seçki kollegiyası nümayəndələrinin etimadını qazanmış siyasi partiyanın üzvü ola bilər. 1946-cı ildən 2018-ci ilə qədər İtaliya Respublikasının bütün on iki prezidentindən yalnız biri Karlo Adzelio Çampi (1999-2006) müstəqil namizəd olmuşdur. Digərləri isə həmin dövrdə hakim olan siyasi qüvvələri təmsil etmişdir. Bu müddət ərzində xristian demokratlar, sosial-demokratlar, sosialistlər və sol demokratların nümayəndələri İtaliya prezidentləri seçilmişlər. Prezidentlik müddətinin başa çatmasından sonra prezidentlər avtomatik olaraq İtaliya Respublikasının Fəxri prezidenti və ömürlük senator statusunu qazanırlar [16].

1946-cı ildən sonra İtaliyada formalaşan parlamentli idarəetmə forması hakimiyyət səlahiyyətlərinin dəqiq bölünməsi ilə xarakterizə olunur. Ölkədəki bütün icra hakimiyyəti Baş Nazirin rəhbərlik etdiyi Nazirlər Kabinetinə məxsusdur. Təmsilçilik funksiyalarına gəldikdə isə burada ölkə prezidentinin səlahiyyətlərindən söhbət gedir. Belə ki, İtaliya

Respublikasının Konstitusiyasına müvafiq olaraq dövlət başçısı aşağıdakı səlahiyyətlərə malikdir:

- Növbəti və növbədənkənar parlament seçkilərini təyin etmək;
- Hökumətin qanun layihələrini Parlamentin hər iki palatasının müzakirəsinə təqdim etmək;
- Qəbul edilmiş qanunları imzalamaq, qanunvericilik fəaliyyətində iştirak etmək hüququ;
- Baş nazirlərin və müvafiq nazirlərin təsdiqi ilə prezidentin fərman və aktları ölkə daxilində qanuni qüvvəyə malikdir;
- Əsas Qanunda nəzərdə tutulmuş hallarda ümummilli referendum elan etmək;
- öz səlahiyyətləri daxilində dövlət vəzifələrinə təyin etmək;
- xarici səfir və nümayəndələri qəbul etmək;
- ölkəni beynəlxalq arenada dövlətin maraqlarına zidd olmayan müqavilələr və sazişlər bağlamaq hüququ ilə təmsil etmək;
- səfərbərliyin başlanması və müharibə vəziyyətinin elan edilməsi barədə qərar qəbul etmək; fəxri adlar və dövlət mükafatları ilə təltif etmək; əfv etmək və amnistiya elan etmək [20].

Göründüyü kimi, İtaliya Konstitusiyasında dövlət başçısının məsuliyyətinin dəqiq çərçivələri müəyyənləşdirilmişdir. Konstitusiya quruluşuna təcavüz və ya dövlətə xəyanət halları aşkar edildikdə isə Prezidenti yalnız Respublika Parlamenti mühakimə edə bilər.

Beləliklə, müasir parlamentli respublikada prezidentlik institutunun təşkili və fəaliyyətinin xarakterik xüsusiyyətlərinin nəzərdən keçirilməsi belə qənaətə gəlməyə imkan verir ki, burada dövlət başçısı – prezident dövlət hakimiyyətinin mərkəzi orqanlar sistemində əsas fiqur deyil. Faktiki olaraq, ölkənin ümumi siyasətini hökumət müəyyən edir və onun həyata keçirilməsinə rəhbərlik edir. Ona görə də parlamentli respublika üçün normal hallarda və şərtlərdə dövlət idarəçilik sistemində əsas fiqur baş nazirdir və icraedici hakimiyyət öz mahiyyətinə görə qanunverici hakimiyyətin davamıdır. Bununla da dövlət hakimiyyətinin qolları arasında baş verə ola biləcək münaqişələr minimuma çatdırılmış olur.

**Azərbaycan Respublikasında prezidentlik institutu**

Azərbaycan dövlətçiliyinin inkişaf tarixində prezidentlik institutu 1990-cı ilin may ayında təsis edilmişdir. Hakimiyyətlərin bölünməsi prinsipi və prezidentlik institutunun dövlət idarəçilik sistemində yerinin müəyyənləşdirilməsinə dair müddəalar ilk dəfə 1991-ci ilin 18 oktyabrında qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktında təsbit edilmişdir [2]. Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin 15 iyununda xalqımızın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışı ilə bütün sahələrdə dövlət quruculuğu prosesləri başlanılmışdır. Prezidentlik institutunun ölkəmizdə təşəkkülü və möhkəmlənməsi də Prezident Heydər Əliyevin şəxsiyyəti ilə bağlıdır. Seçkili milli liderin şəxsində güclü və sabit dövlət hakimiyyətinin bərqərar olması zərurəti iqtisadi, siyasi və sosial sahədə dəyişikliklərin ilk illərindən özünü göstərmişdir. Azərbaycan xalqının və Azərbaycan dövlətinin vəhdətini təcəssüm etdirməli olan prezidentlik institutunun modernləşmə xarakteri Azərbaycanda aparılan islahatların gedişində daha aşkar görünür [6].

Prezidenlik institutunun dövlət hakimiyyəti sistemində yeri Azərbaycan Respublikası Konstitusiyasının müvafiq müddəaları ilə müəyyən olunur. Belə ki, Ulu öndərimizin özünün birbaşa rəhbərliyi altında işləyən Dövlət Komissiyası tərəfindən mətni hazırlanaraq xalqın müzakirəsinə təqdim olunmuş və 1995-ci ilin 12 noyabrında ümumxalq referendumunda qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin üçüncü bəndində dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edildiyi göstərilmişdir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;

- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;

- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir [1].

Konstitusiyanın 8-ci maddəsinə görə Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin başçısıdır, 9-cu maddəsində isə Prezidentin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanı olduğu təsbit edilmişdir. Azərbaycan Respublikası Prezidentinin dövlət başçısı və icra hakimiyyətinin başçısı kimi səlahiyyətləri 109-cu maddədə təsbit edilir və onun parlamentlə bir sıra istiqamətlər üzrə əlaqələrini, hökumətlə münasibətlərini, milli təhlükəsizliyin təmin edilməsi, xarici siyasət fəaliyyəti və digər sahələri əhatə edir. Göründüyü kimi, bu səlahiyyətlər həmçinin Prezidentin digər hakimiyyət qolları ilə qarşılıqlı münasibətlərini də müəyyən edir [1].

Məlum olduğu kimi, qəbul olunduğu vaxtdan Azərbaycan Respublikası Konstitusiyasının mətnində üç dəfə keçirilmiş ümumxalq referendumları (2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da) nəticəsi olaraq bir sıra dəyişiklik və əlavələr edilmişdir. Bu konstitusiya islahatları çərçivəsində prezidentlik institutunun təkmilləşdirilməsinə və ölkəmizdə uğurla reallaşan sürətli və innovativ inkişaf proseslərinə uyğunlaşmasına gətirib çıxarmışdır. Azərbaycanda dövlət idarəçiliyi sisteminin daha da inkişafı məqsədilə Konstitusiyaya edilmiş əlavə və dəyişikliklər onun Preambulasında əksini tapan niyyətlərin və prinsiplərin həyata keçirilməsinə yönəlmişdir [4].

Prezidentlik institutuna aid olan dəyişikliklərdən biri də Azərbaycanda ilk dəfə olaraq Vitse-prezidentlik institutunun yaradılması ilə bağlı olmuşdur. Vitse-prezidentlik institutunun yaradılması dövlət idarəetməsi sahəsində yeni və olduqca vacib hadisədir. Bu institut ölkəmizdə yeni siyasi-hüquqi inkişaf mərhələsində əsaslı iqtisadi islahatların aparıldığı müasir dövrdə idarəetmə sistemində səmərəliliyin artırılması, qarşıda duran vəzifələrin reallaşdırılması baxımından əhəmiyyətlidir. Vitse-prezidentlik institutunun tətbiqi ölkəmizdə dövlət idarəçiliyi mexanizmlərinin daha da təkmilləşdirilməsinə imkan verəcək. Konstitusiyaya əlavə edilmiş 103-1-ci maddəyə əsasən Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər. Azərbaycan Respublikasının Vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir [1].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 fevral 2017-ci il tarixində imzaladığı müvafiq Sərəncama əsasən Birinci Vitse-prezident vəzifəsinə Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Millət vəkili Mehriban Arif qızı Əliyeva təyin olunub. Təhlükəsizlik Şurasının iclasında Birinci Vitse-prezidenti təqdim edən Prezident İlham Əliyev Mehriban Əliyevanın uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynadığını, Yeni Azərbaycan Partiyasının sədr müavini, Milli Məclisin deputatı kimi çox böyük işlər gördüyünü, çox geniş beynəlxalq fəaliyyəti olduğunu, onun rəhbərliyi ilə Heydər Əliyev Fondunun nəinki Azərbaycanın, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrildiyini, ölkəmizdə keçirilmiş bir sıra qlobal tədbirlərin təşkilində xüsusi rol oynadığını, Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edildiyini vurğulamış, bu çoxşaxəli və uğurlu fəaliyyətinin Mehriban xanım Əliyevanın təyinatı ilə bağlı qərarın qəbul edilməsində əsas rol oynadığını göstərmişdir [3]. İşə başladığı vaxtdan ötən müddətdə əldə olunan nailiyyətlər onu təsdiqləyir ki, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Birinci Vitse-prezidentlik institutu özünün funksional təyinatına uyğun olaraq ölkəmizdə idarəetmənin çevikliyi və səmərəliliyinin artırılması istiqamətində uğurla fəaliyyət göstərir.

**Nəticə**

Müasir dünyada prezidentlik institutu müxtəlif modellərə malik olmasından asılı olmayaraq dünyada artıq siyasi qüvvələrin mübarizəsindən yuxarıda dayanan, konstitusiyaya riayət edilməsinin, xalqın ehtiyac və istəklərinin təminatçısı və milli birliyin simvolu kimi qəbul edilir. Çoxlu sayda dövlətlərin idarəçilik sistemində prezidentlik institutu mövcud olmaqla, həmin dövlətlərin idarəetmə formalarından, tarixi dövlətçilik ənənələrindən, siyasi mədəniyyətindən və s. bir çox amillərdən asılı olaraq, hər bir dövlətdə hakimiyyət sistemində müxtəlif yerə, rola və xüsusiyyətlərə malikdir. Bu məsələlərin prezidentli və parlamentli respublikalar timsalında araşdırılması göstərir ki, həmin idarəçilik sistemlərində mövcud olan prezidentlik modellərinin əsas fərqləri prezidentin statusunda, seçilməsi qaydasında, hökumətin formalaşması üsulunda, parlamentlə qarşılıqlı əlaqələrində və s. öz ifadəsini tapır.

Prezidentlik institutu qısa müddət ərzində mövcud olmasına baxmayaraq müstəqil Azərbaycanın dövlət hakimiyyəti sisteminin əsas elemenltlərindən birinə çevrilə bilmişdir. Bu institut özünün təşəkkülü və inkişafında zamanın tələblərinə uyğun müasirləşərək, həyata keçirilən konstitusiya islahatları nəticəsində daha da təkmilləşdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir. Azərbaycan xalqı 2018-ci ilin 11 aprel tarixində keçirilmiş sonuncu prezident seçkilərində bir daha nümayiş etdirdi ki, Ümummilli lider Heydər Əliyevin layiqli siyasi varisi və onun dövlətçilik kursunu zamanın tələblərinə uyğun olaraq yeni keyfiyyət səviyyəsində uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında birləşərək, onun daxili və xarici siyasətini hamılıqla geniş dəstəkləyir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası // http://www.e-qanun.az/framework/897
2. "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı // http://www.azerbaijan.az/portal/History/HistDocs/Documents/09.pdf
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib// https://president.az/articles/22854
4. Abdullayev F. Müstəqil dövlətçiliyin və demokratiyanın əsas qarantı // http://www.xalqqazeti.com/az/news/politics/92897
5. Həsənov Ə.M., Vəliyev A.İ. Dünya ölkələrinin müasir siyasi sistemləri. Bakı, "Zərdabi LTD", 2013. 776 s.
6. Naxçıvanlı A. Heydər Əliyev və onun xalqa xidmətdən ibarət böyük missiyası // http://www.xalqqazeti.com/az/news/politics/32755
7. Конституции стран СНГ и Балтии / Состав. Г.Н. Андреева. – М.: Юристъ, 1999. 187 с.
8. Конституции зарубежных государств: Учебное пособие / Сост. проф. В.В. Маклаков - 2-е изд., исправ. и доп.- М.: Издательство БЕК, 1999. - 584 с.
9. Кудряшов К.В. Основные правовые доктрины и модели института президентства в зарубежных странах: поиск оптимальной модели для Российской Федерации // Наука. Инновации. Технологии. 2006. № 44. С.171-178.
10. Кудряшов К. В. Институт президентства в парламентарных республиках // Государственное и муниципальное управление. Ученые записки СКАГС. 2008. №3. С.111-121.
11. Лапаева В.В. Закон о политических партиях: вопросы взаимодействия партий с государством // Журнал российского права. 2002. N 4 // https://www.lawmix.ru/comm/5206
12. Михельс Н. Основной закон Федеративной Республики Германии (краткая характеристика)// Государство и право. 2003. № 7. С. 67-72
13. Проблемы теории государства и права: Учебное пособие / Под ред. М.Н. Марченко. -М.: Юристь, 2001. - 656 с.
14. Сахаров Н. А. Институт президентства в современном мире. М.: Юридическая Литература, 1994. -176 с.
15. Basic Law for the Federal Republic of Germany // https://www.btg-bestellservice.de/pdf/80201000.pdf
16. Grimaldi S. The Role of Italian Presidents: The Subtle Boundary between Accountability and Political Action // Bulletin of Italian Politics. Vol. 3, No. 1, 2011, 103-125.
17. Cabinet//https://www.bundesregierung.de/Webs/Breg/EN/FederalGovernment/Cabinet/_node.html
18. Political System of Germany: Research Office Legislative Council Secretariat // https://www.legco.gov.hk/research-publications/english/1415fsc05-political-system-of-germany-20150218-e.pdf
19. Republic of Italy. Public Administration Country Profile // http://unpan1.un.org/intradoc/groups/public/documents/un/unpan023313.pdf
20. https://www.quirinale.it/allegati_statici/en/costituzione_inglese.pdf


***Açar sözlər:*** *prezidentlik institutu, prezidentli və parlamentli respublikalar, konstitusiyalar, modellər, Azərbaycan Respublikası, xüsusiyyətlər*

**Nuraddin Ibrahimov**
*Institute of Human Rights and Law of ANAS,*
*PhD in Political Science*

## PECULİARİTİES OF PRESİDENCY İN PRESİDENTİAL AND PARLİAMENTARY SYSTEMS

### SUMMARY

The article discusses the essential characteristics of the institution of presidency on the basis of theoretical approaches of a number of authors and constitutional provisions of individual countries. Moreover, the features of the presidency in presidential and parliamentary systems are also analyzed in the current article. On the comparative aspect, the position and role of the president is studied as the head of state and the chief of the executive power in a presidential and parliamentary systems.

The establishment of the institution of presidency in the Republic of Azerbaijan is being studied and its constitutional foundations and characteristic features in the modern conditions of successful democratic development of the country are revealed. In this context, the significance of Institute of the First Vice-President is emphasized. It has been marked that this Institute was established within the framework of the constitutional reforms which plays an important role in the enhancement of the efficiency of public administration.

***Key words:*** *Institution of Presidency, Presidential and Parliamentary Systems, Constitutions, Models, the Republic of Azerbaijan, Peculiarities*

**Нураддин Ибрагимов**
*Докторант Института прав человека и права*
*Национальной Академии Наук Азербайджана,*
*доктор философии по политическим наукам*

## ОСОБЕННОСТИ ПРЕЗИДЕНТСТВА В ПРЕЗИДЕНТСКИХ И ПАРЛАМЕНТСКИХ РЕСПУБЛИКАХ

### РЕЗЮМЕ

В статье рассматриваются сущностные характеристики института президенства, на основе теоретических подходов ряда авторов и конституционных положений отдельных стран анализируются особенности президентства в президентских и парламентских республиках. В сравнительном аспекте изучается место и роль президента, как главы государства и главы исполнительной власти в условиях президентской и парламентской систем правления. Изучается становление института президентства в Азербайджанской Республике, раскрываются его конституционные основы и характерные особенности в современных условиях успешного демократического развития страны, в этом контексте показывается значение вновь созданного в рамках проведенных конституционных реформ института Первого Витце-президента в повышении эффективности государственного управления.

***Ключевые слова:*** *институт президентства, президентские и парламентские республики, конституции, модели, Азербайджанская Республика, особенности*

# VƏTƏN TARİXİ
# NATIONAL HISTORY

UOT 94 (479.24)

**FİRDOVSİYYƏ ƏHMƏDOVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent**
*e-mail: fahmedova@rambler.ru*

## HAKİMİYYƏTİNİN 10-CU İLİNDƏ MƏRKƏZİN AZƏRBAYCANA DAİR SOSİAL-İQTİSADİ SİYASƏT KURSU

Hakimiyyətinin onuncu ili üçün ali partiya elitası daxilində yaşanan dramın üçüncü mərhələsi başa çatmış oldu. Bolşeviklərin hakimiyyəti 1917-ci il oktyabrın sonunda ələ keçirdiklərini nəzərə alsaq, sovet quruculuğunun ilk ili kimi 1918-i götürmək olar. Elə bu yanaşma ilə 1928-ci il fevralın 16-da ÜİK(b)P MK qərar qəbul etmişdi ki, fabrik və zavodların ekspropriasiyasının onilliyi qeyd edilsin. Bu münasibətlə təntənələrə partiya təşkilatları heç bir məsrəf etməməliydilər. ÜİK(b)P MK-nin katibi S.Kosiorun AK(b)P MK-nə göndərdiyi şifrəli teleqramda vəsaitə qənaət məqsədilə yalnız işdən kənar vaxtda yığıncaqlar keçirməklə qeyd etmək tapşırılırdı. Belə ki, ölkə 1927-ci ildə 1 milyon 300 min işsiz problemi ilə üzləşmişdi (1).

Rəhbərlik iqtisadi geriliyi aradan qaldırmağın, ölkənin müdafiə qabiliyyətini gücləndirməyin çıxış yolunu sənayeləşdirmədə görürdü. Bu isə öz növbəsində NEP-YİS mexanizminin inzibati-amirlik sistemi tərəfindən dağıdılması demək idi. Həmlə və təzyiq yolu ilə keçirilən sənayeləşdirmə nəhəng maddi və insan resurslarının hədsiz gərilməsi, kənd təsərrüfatlarının qarət olunması hesabına bəhrəsini verirdi. Bütün bu şərtlər Azərbaycan kimi maddi və insan potensialı ilə zəngin respublikanın sosial-iqtisadi həyatına birbaşa təsir göstərmişdir. Mərkəzi hakimiyyət bir nömrəli vəzifəsinin həyata keçirilməsi üçün məhz potensialı güclü olan ucqarlara münasibətdə xüsusi siyasət yürüdürdü. Azərbaycanda əsasən neft sənayesinin və energetikanın inkişafına diqqət yetirilirdi. “Mayıs ayı sonlarında Moskovadan Bakuya gəlmiş olan neft (petrol) sendikası rəisi müavini Friedman, Bakuda çıxan Komunist qəzetəsi muhabiri ilə ettigi musahabəsində demişdir ki: “Müharibəyə kadar Rusiya başlıca olarak cevher ihraç ediyordu. Benzin ve yanacak mahsulatı ise en az miktarda götürülüyordu. Hal hazırda ise ihraç edilen yüz milyon puttan yukarı neft mahsulatının yüzde otuz beşi benzin, yüzde yirmi beşi mazot, yüzde otuzu cevher, kalan miktarı da muhtelif mahsulattan ibarettir” [3, s.282]. Bu isə digər sahələrin inkişafına daha az diqqət verilməsi ilə müşayiət olunurdu. Sənayeləşmənin Azərbaycanda birtərəfli xarakter daşıması respublika üçün sosial-iqtisadi çətinliklər törətmişdi [5, s.289-290].

Sənayeləşmənin inkişafı üçün vəsait axtaran dövlət çox zaman həmin vəsaiti kobudcasına, saymazyana tərzdə əhalidən toplayırdı [5, s.290]. Yeni sənaye sahələrinin yaradılması işçi qüvvəsinin təminatı problemini yaradırdı. Bu problem də Azərbaycana Rusiyadan əhali axını hesabına çözülürdü. Rusiya şəhərlərində və kəndlərində ağır ərzaq çətinliyi on minlərlə sakini öz doğma yerlərini tərk etməyə vadar etmişdi. Yalnız 1930-1932-ci illər dövründə RSFSR-dən Bakıya 86299 fəhlə köçüb gəlmişdi [5, s.290-291] “Yeni Kafkasya” qəzeti yazırdı: “Bakını rus əmələsi ilə doldurduqdan sonra, bolşeviklər indi də Gəncəni ruslaşdırırlar” [3, s.174].

Kəskin mənzil qıtlığı və işsizliyin artması vəziyyəti gərginləşdirdiyindən 1927-ci ilin yanvarında Azərbaycan MİK mərkəzdən tərxis edilən əsgərlərin Bakıya axınını nəhayət ki,

dayandırmağı xahiş edirdi. Amma bu demarş Moskvada xalq əmək komissarlığının etirazı nəticəsində uğur qazanmadı [4, s.366]. "Rusiyadan Azərbaycana mühacir nəqli davam ediyor. Çar zamanında olduğu kimi, indi də mühacirət siyasəti eyni planla tətbiq olunuyor. Salyan qəzası ilə Gədəbəy ətrafında yeni rus işçi mərkəzləri təsis olunuyor. Buralara rus köylüləri hicrət ettiriliyor." [3, s.165]. "Kommunist" qəzetinə istinadən "Yeni Kafkasya" qəzeti yazırdı: "Bu yakın yıllarda Mil, Şirvan ve Salyan sahralarına yeni muhacirler köçürülecektir." Bu hususta Moskovadan Bakuya lazımi emirler verilmiş olduğu gibi ayrıca tahsisat dahi ayrılmıştır." [3, s. 283].

Sənayeləşmə kursu kənddə köklü dəyişikliklərə səbəb oldu. Məhsuldarlığın aşağı düşməsi, təsərrüfatların zəifləməsi taxıl qıtlığına gətirib çıxardı. Dövlətin kəndə münasibətdə sərt fövqəladə tədbirlər tətbiq etməsi, məcburiyyət üsulu ölkədə kütləvi kollektivləşmənin təzahürləri oldu. Aqrar-sənaye respublikasına çevrilsə də aqrar sektoru əhəmiyyətli olan Azərbaycan yeni çətin sınaqlarla qarşılaşdı. 1928-ci ildə kənddə aparılan vergi siyasəti kəndlilərin soyulmasına gətirib çıxarmışdı (4, s.130).

Zaqfederasiya dövründə Azərbaycan üçün bəzən Mərkəzin sərəncamları federasiya qərarlarından daha az zərərli olurdu. Əhalinin könüllü vergisi haqqında SSRİ MİK və XKS-nin qərarı ilə könüllü verginin son həddi ərazi vahidinə düşən kənd təsərrüfatı vergisi kontingentinin 35%-i qədər müəyyənləşmişdi. Könüllü verginin belə son həddi (kənd təsərrüfatı vergisinin 35%-i) ASSR MİK-in və XKS-nin qərarı ilə də müəyyənləşmişdi. ZSFSR MİK-in və XKS-nin qərar layihəsində isə könüllü vergini maksimum həddə, yəni ərazi vahidinə düşən kənd təsərrüfatı vergisi kontingenti qədər müəyyənləşdirmək nəzərdə tuturdu. Azərbaycan hökuməti buna etiraz edərək 1928-ci il martın 19-da ZSFSR hökumətinə məktub göndərmişdi (1, f.1, s.74, s.v.251-255, v.213). Kənd təsərrüfatı vergisinin 100%-dək həddində könüllü vergi hüququnun verilməsinin ASSR kəndli təsərrüfatlarının gücünə uyğun gəlmədiyini görərək ASSR-ə münasibətdə Azərbaycan MİK və XKS-nin qərarı ilə qəbul edilmiş könüllü vergi həddinin 35% qədərində qalmağı xahiş edilirdi. Kənd təsərrüfatları üzərinə qanun üzrə olandan qat-qat artıq vergi qoyulmuşdu (4, s.130).

Ucqarlara münasibətdə «az verib, çox almaq» prinsipi həm mərkəzi hakimiyyət, həmçinin regional mərkəz üçün işlək üsul idi: "Azərbaycan nefti ilə petrolunu bədəlsiz olaraq Moskvaya göndərən bir hökumət rəisi, utanmadan, bu məhsuldan gələn qiyməti Azərbaycan cədvəlində göstərmişdir" deyə hökuməti tənqid edən "Yeni Kafkasya" yazırdı: "Sənaye məmulat və məhsulatı yüz milyonlara baliğ olan Azərbaycan, elektrik müəssisatı vücuda gətirmək üçün zəruri olan qırx milyon rublu bulamıyormuş və Azərbaycan kommunistləri bu parayı bulmaq üçün Azərbaycanı yağma edən Moskovaya qarşı iltimasta bulunmak məcburiyyətində imişlər" (3, s.182).

Daha bir səciyyəvi üsul isə dövlət üçün ən vacib, zəruri məsələlərdə, hətta cari xarakterli olsa belə, rəhbərlikdən aşağılaradək ölkənin bütün işçi qüvvəsini həmin məsələlərin həllinə səfərbər etmək olmuşdur. Məşğuliyyət sahəsindən, təhsili və peşəsindən asılı olmayaraq dövlətin 1 nömrəli tapşırıqlarını yerinə yetirmək üçün hamı o sahəyə yönəldilirdi. Belə idarəçilik mexanizmi sovet dövlətinin yaranışından sonunadək müşayiət olunmuşdur. Kommunist partiyasının hər çağırışına cəmiyyətin bütün təbəqələrinin yekdilliklə qoşulması kampaniyası müvəffəqiyyət qazanmanın sınaqdan çıxmış yolu kimi ənənəyə çevrilmişdi. 1928-ci ilin yazında da mərkəzi partiya rəhbərliyi qarşısında dayanan önəmli bir vəzifənin yerinə yetirilməsi zərurəti iyerarxiya qaydalarını gözləmədən yerli təşkilatlara birbaşa müraciəti qaçılmaz etmişdi. Mərkəzin haqq qazandırdığı taxıl müsadirəsi kampaniyasına Azərbaycanda da ciddi əməl edildi (4, s.132). UİK(b)P MK-nin katibi V.Molotovun ZDK vasitəsilə deyil, birbaşa AK(b)P MK-nə, surətini Bakı partiya Komitəsinə ünvanlamaqla göndərdiyi teleqramı yaz əkin kampaniyası ilə bağlı idi. Cari ilin yaz əkin kampaniyasının çox böyük siyasi və təsərrüfat

əhəmiyyəti daşıdığını qeyd edən Molotov, bu kampaniyaya partiya qarşısında zərbəçi xarakter verilməli olduğunu yazırdı (1, f.1, s.74, s.v.251-255, v.216). Kampaniyada əsas vəzifələr kimi, əkin sahəsinin genişləndirilməsi, mövcud kolxoz və sovxozların gücləndirilməsi, yenilərinin yaradılması nəzərdə tutulmuşdu. Bu vəzifələri həyata keçirmək üçün mərkəzi partiya komitəsinin katibi nizamlı bir mexanizm təklifi, təşəbbüsü ilə çıxış etmir. Yalnız bir halda bu vəzifələrin yerinə yetirilməsini mümkün sayır: partiya təşkilatlarının, sovetlərin kəndin bütün ictimai qüvvələrini (partiya təşkilatlarını, sovetləri, kooperativləri) əkin kampaniyası ətrafında ayağa qaldıracaqları halda. Belə idarəçilik üsulunu nəinki məqbul bilən, həm də təqdir edən rəhbər kadr örnək olaraq göstərirdi: «Qüvvələrin belə səfərbər edilməsi nəticəsində biz taxıl tədarükü işində həlledici dönüşə nail olmuşuq». Eyni üsulla da bu istiqamətdə əldə olunmuş uğurları Molotov əkin kampaniyası ərzində daha da möhkəmləndirmək istəyirdi. Geniş həcmli teleqramda Azərbaycan rəhbərliyindən əkin kampaniyası ilə bağlı konkret icra növləri tələb olunurdu: yaz kampaniyası ilə bağlı sovet hakimiyyətinin həyata keçirdiyi tədbirlərə qarşı çıxan qolçomaqların cəhdlərini qətiyyətlə dəf etmək; bəzi hallarda belə «ünsürlərin» əkin sahələrini azaltmaq; yoxsulların və ortababların əkin yerlərini daha çox genişləndirmək; yubanmadan bütün təşkilatların kampaniyanın keçirilməsinə hazırlıq dərəcəsini yoxlamaq; kampaniyanın gedişatına rəhbərlik və ictimai diqqəti ona səfərbər etmək üçün dərhal məsul işçiləri kəndə ezam etmək və s. Kampaniyanın gedişatının mətbuat vasitəsilə işıqlandırılmasına xüsusi diqqət vermək tapşırığı da mərkəzin tələbləri sırasında yer almışdır. Teleqramın sonunda yerli partiya təşkilatlarına təhdid xarakterli xəbərdarlıq edilirdi: əkin kampaniyasının keçirilməsi üzrə yerli partiya təşkilatlarının bütün işi əkin sahələrinin genişləndirilməsi və kəndli təsərrüfatlarının kollektivləşdirilməsi işindəki uğurlardan asılı olaraq qiymətləndiriləcəkdir. ÜİK(b)P MK katiblərə və diyar, vilayət, şəhər, dairə komitələrinə bir vəzifə olaraq tapşırırdı ki, əkin kampaniyasına qədər işlərin gedişatı haqqında ayda iki dəfə olaraq şəxsi məktubla MK-ni məlumatlandırsınlar (1, f.1, s.74, s.v.251-255, v.221). Molotovun göndərdiyi bu teleqram yalnız Azərbaycan üçün deyil, digər respublikalara da münasibətdə iş üsuluna görə səciyyəvidir. Ərzaq kampaniyası ilə bağlı Urala ezam olunmuş V.M.Motolov tərəfindən 1928-ci ilin yanvar-fevral aylarında 1157 partiya və sovet aparatı işçisi dəyişdirilmişdi (4, s.131). Belə idarəetmə tərzi sovet hakimiyyətinin ilk illəri üçün şərtləndirilə bilərdisə, 1928-ci il üçün hələ də eyni amiranəlik nəinki davam edir, hətta gücləndirilirdi: məcburiyyət, mülkiyyətə təcavüz, ictimai fikrin manipulyasiyası, zor işlətmə, mətbuatın inhisarı, təhdidetmə və ən başlıcası isə belə idarəçiliyi düzgün saymaq, gücləndirmək və məmnunluq duymaq.

Azərbaycan kənd-təsərrüfat kooperasiyası ittifaqı «Köybirliyi»nin hissələrinin Zaqafqaziya kənd-təsərrüfat bankından (Zakselbank) Azərbaycan kənd-təsərrüfat bankına (Azselbank) keçirilməsi haqqında AK(b)P MK-nin qərarının icrası mümkünsüz sayılmışdır. Dekabrın 23-də məsələyə ÜİK(b)P Zaqafqaziya Diyar komitəsi katibliyində baxılmış və qərara alınmışdı ki, bu işin mümkünsüzlüyünü ZXKŞ Azərbaycan XKŞ-na izah etsin. (1, f.1, s.74, s.v-247-250, v.254) Bu barədə AK(b)P MK-nə bir gün sonra, dekabrın 24-də «Köybirliyi»ndən məlumat daxil olmuşdur. Belə ki, Zakselbank AK(b)P MK-nin adına 10 dekabr tarixli məktubunun surətini «Köybirliyi»nə göndərmişdi. «Köybirliyi» tərəfindən surəti bir neçə yerə – ÜİK(b)P ZDK-nə, Azərbaycan kənd-təsərrüfat bankının idarə heyətinin sədri E.Xanbudaqova, Zaqafqaziya kənd-təsərrüfat bankına ünvanlanmış məktub-məlumatda Zakselbankın bir müəssisə kimi yalnız öz maraqlarını qorumağa səy göstərdiyi bildirilirdi. «Köybirliyi» öz aksiyalarının məhz «Azselbanka» keçirmək istəyini sırf kredit almaq imkanı ilə əlaqələndirmişdir. Ümumi mərkəziyyət nərdivanında regional mərkəzləşmənin Azərbaycan iqtisadiyyatına yaratdığı çətinliklər təşkilatlararası rəsmi yazışmalarda

açıq-aşkar əksini tapmışdır. «Köybirliyi»nin bütün xüsusi kapitalını məcburi qaydada özündə saxlamaqda israrlı olan Zakselbank ona kredit verməkdən imtina edirdi. Bu səbəbdən «Köybirliyi» öz hissələrini Zakselbankdan ona kredit verməkdən imtina etməyən, işgüzar əlaqədə olduğu, normal təsərrüfatçılıq fəaliyyətinə imkan yaradan Azselbanka keçirmək istəyirdi. Azərbaycan hökumətinin formal müstəqilliyi dövründə birbaşa Mərkəzin direktivləri ilə yasaqlanan yaxud məhdudlaşdırılan fəaliyyəti Zaqfederasiya yaradıldıqdan sonra daha tabeli vəziyyətə düşmüşdü. Regional sərəncamçı səlahiyyətləri ilə Zaqfederasiya hakimiyyət qurumları tabeliyində olan respublikalara münasibətdə sərbəst qərar qəbul etmək iqtidarında idi. Bu reallığı nəzərə alan «Köybirliyi»nin etirazında belə, bir xahiş, güzəştli razılaşma vardı: əsas kapitalının 2/3-ni Azselbanka keçirməklə, 1/3-nin Zakselbankda qalmasına yaxud hamısının Zakselbankda qaldığı təqdirdə ona kredit ayrılmasının təmin edilməsinə nail olmaq. Əslində Zakselbankın mövqeyində qeyri-adi, gözlənilməyən hərəkət yoxdur. Zaqfederasiyanın yaradılmasını şərtləndirən siyasət gerçəkləşdirilirdi. Məcburi mərkəzləşdirmənin gözlənilən nəticələri idi. Zakselbankdan Çxenkelinin imzası ilə göndərilən məktub da nəzərdə tutulmuş kursu xatırladırdı: Bankda payı, aksiyaları olmaq hələ o təşkilatın üstün və bilavasitə kredit almaq hüququna malikliyi demək deyildi. Kredit ayrılmasının şərtləri kimi planlı yanaşma, maliyyələşdirmə zərurəti, ali qurumların qərarları və s. göstərilirdi. Yəni, respublikaların regional büdcədəki payı önəmli rol oynamırdı. Bu prinsiplə də ən zərərli çıxan Azərbaycan respublikası idi. Bakı şəhərinin büdcəsinin müəyyənləşdirilməsi də regional və mərkəzi maraqlara xidmət edirdi: “Azerbaycan payitahtı Bakünun mahalli bütçesi Baküda ismen de olsa mevcut olan Azerbaycan Merkezi İcra Komitesinde veya Azerbaycan Komiserleri Şurasında degil, ilk evvel Tifliste ve Moskovada tasdik olunuyor... Bütçenin tertibinden “Azerbaycan komiserleri” katiyen haberdar degildirler... Zaten onlarla hesaplaşan dahi yoktur. Bakünun reisi Konuşkin, maliye müdürü Andreyef, maarif müdür Gepşteyn olurken ve bütçesi de Tifliste ve Moskovada tertip ve tasdik edilirken, Musabekof ve Ağamalıoğlulara kim bakacaktır?” (3, s.328).

Ümumittifaq əhəmiyyətli məsələlərin həlli zamanı subordinasiya qaydaları arxa plana da keçə bilirdi. 1928-ci ilin yanvarın 14-də yerlərə göndərilən direktivlərdə fövqəladə tədbirlər tətbiq etmək tələb olunurdu. (4, s.131) ÜİK(b)P MK-nin «taxıl tədarükü» və kənd təsərrüfatı vergisi haqqında teleqramı 1928-ci il yanvarın 14-də AK(b)P MK-də dinlənildikdə qərara alınmışdı ki, taxıl yetişdirilməyən qəza-ların, qəza fəhlə mərkəzlərinin tələbatlarını təmin etmək və ümumiyyətlə qəzalarda taxıl bazarını tənzimləmək üçün Ali İqtisadi Şura və Xalq Ticarət komissarlığı Azərittifaqın, Köybirliyinin və Taxılməhsullarının nümayəndələrini toplayıb ASSR-nin bir sıra qəzalarında taxıl tədarükü imkanları barədə məsələni təcili şəkildə aydınlaşdırsın. Mərkəzin sərəncamını dərhal qeyd-şərtsiz yerinə yetirməyi vərdiş etmiş AK(b)P MK-sı qəbul etdiyi 9 bəndlik qərarın 8-də «təcili surətdə» yazmaqla yaxud konkret yaxın tarix göstərməklə tələb olunan bütün sahələr üzrə icranı təmin etməyi müvafiq qurumlara tapşırırdı. Sonuncu bənddə isə ÜİK(b)P ZDK-dən xahiş edilirdi ki, M.D.Hüseynovun və Bağırovun ASSR qəzalarına ezam edilməsinə icazə versin (1, f.1, s.74, s.v.247-250, v.304). Bu qərarın çıxarışı üzərinə «xüsusi şəxsi işdə ciddi-məxfi saxlamaq» dərkənarı qoyulmuşdu.

Azərbaycan SSR Mərkəzə və ZSFSR-ə tabeliyi ilə yanaşı öz ərazisində yerləşən, amma birbaşa Mərkəzin sərəncamında olan, hətta bəzən Mərkəzin də direktivlərini ciddiyə almayan müəssisələrlə münasibətlərdə də güzəştli mövqe tuturdu. ASSR Dövlət Plan Komitəsi sədrinin Zaqafqaziya Dövlət Plan Komitəsinə 1928-ci il martın 15-də göndərdiyi məktubda Azərbaycanın iki və çoxtərəfli münasibətlərdəki durumu bir daha əksini tapır: «Bir tərəfdən Azneft, digərindən ZSFSR və ASSR arasındakı qarşılıqlı münasibətlər ittifaq əhəmiyyətli trestlər və ərazisində bu trestlərin yerləşdikləri respublikalar arasında qarşılıqlı

münasibətlər haqqında ümumi qanunvericilik normaları ilə müəyyənləşdirilir. ASSR-in istəkləri yalnız bu normaların faktiki olaraq həyata keçirilməsinə nail olmaqdır» (1, f.1, s.74, s.v.256-260, v.65). Belə ki, Azneftdən lazımi materialları ala bilməyən Dövlət Plan Komitəsi 1928-31-ci illər üçün müəyyən edilməli icarə dərəcələrinin miqdarını dəqiq təyin edə bilmirdi. “Bakinski Raboçi”nin 27 iyul 1927-ci il tarixli nömrəsində yazıldığına görə Bakı Şurasının 1927-1928-ci il üçün büdcəsi 3.170.000 rubl açıkla tərtib edilmişdir: “Bütçe hususunda maruzada bulunan Andreyef, bütçe açığının sebebini petrol sanayiinin Bakü bütçesine girmedigiyle izah eylemiştir. Malum olduğu üzere bu mesele üzerinde Bakü Petrol Madenleri İdaresi-Azer Neft ile Bakü Şurası mücadelesi senelerden beri devam etmektedir. Tam bir müstakil “Kızıl kırallık” olan “Azer Neft saltanatı” görünüyor ki mahalli ahalinin ihtiyaçları ile katiyen hesaplaşmayarak istismar faaliyetinde devam etmekte ve Bakü Şurasına vergi vermemektedir” (3, s.332).

«Azneft» xammal tədarükü mənbəyi kimi mərkəzə xidmət edirdi, şəhər infrastrukturunun və sosial şəbəkənin inkişafında iştirak etmirdi. “Neft Sendikası Şark Şubesi mudir muavini muhendis Pirimofun verdigi malumata göre bu yıl Rusya”ya götürülecek neft 210 milyon put miktarında olacaktır” (3).

Neft tresti vergi ödəmir və olduqca lazımlı ixtisaslı fəhlələrin hazırlanması ilə məşğul olmurdu. “Bakü Sovyeti reisi Konuşkin ve maliye müdürü Andreyef bütçede 3.170.000 ruble açık olduğunu ve bunun da sebebi Bakü neft sanayiinden vergi alınmadığıdır, bu vergi verilmezse masarifi daha da azaltmak lazım gelecegini kaydetmişlerdir.” (3, s. 328). Bunun əvəzində Moskvada siyasi rəhbərlik mərkəzdən əyalətə fəhlələr göndərərək təhsilə çəkiləcək vəsaitə qənaət etməyə, infrastrukturun inkişafı və təhsil sahəsinə məsuliyyəti yerli hökumətin üzərinə qoymağa üstünlük verirdi. Bu mənada mərkəz və onun yerlərdəki təsərrüfatçıları hətta çar hökuməti üçün təsəvvür edilməz olan müstəmləkə strategiyası yeridirdilər. «Azneft»ə aid məsələlərdə yerli partiya təşkilatının səs hüququ yox idi. (4, s.363) “Azərbaycan köylülərindən yüzdə 40-ı əkin tərəfindən təmin olunmamışdır. Halbuki buna baxmayaraq Moskovadakı qızıl kommunistlər Azərbaycandakı uşaqlarına istinat ilə güzəlim məmləkəti mühacir Rus mujikləriylə dolduruyor, Azərbaycandakı münbit əkin yerlərini onlara təksim ediyorlar.” (3, s.182).

Planlı yanaşma zamanı belə Mərkəz tərəfindən ayrılan məbləğ bəzən lazım olunan vəsaitdən az olurdu. Muğanda suvarma sisteminin tikinti işləri üçün 1927-28-ci cari ilinə SSRİ büdcəsindən 800.000 rubl ayrılmışdı. İttifaq büdcəsi üzrə ayrılan kredit hesabına görülməli işlərin qəti siyahısı SSRİ Dövlət Plan Komitəsi tərəfindən təsdiqlənmişdi. Amma bu siyahıya istismar xarakterli işlər və ştatın saxlanması daxil deyildi. Bu bəndlər üzrə xərcləri SSRİ Dövlət Plan Komitəsi su istifadəçilərindən pul yığımı hesabına ödəməyi nəzərdə tutmuşdu. (1, f.1, s.74, s.v.256-260, v.36) Beləliklə, SSRİ büdcəsi üzrə ayrılmış kredit hesabına maliyyələşdirilən tikinti xərclərinin bir qismini ödəmək üçün Azərbaycan Su Təsərrüfatı İdarəsi Muğan suvarma sistemlərində su istifadəçilərindən pul yığımını müəyyənləşdirməyi zəruri hesab edirdi. Müəyyən edilmiş yığımın məbləği isə istismar xərclərinə tələb olunandan artıq idi. Hökumətin rəsmi xərclər üçün pul yığımı ilk təcrübə deyildi. Analoji yığım ASSR AİŞ tərəfindən 1925/1926-cı ildə pambıq yetişdirilən hər desyatin üçün müəyyən edilmişdi.

Sovet hökuməti bir nömrəli hesab etdiyi məsələlərin həllində beynəlxalq normalara belə xüsusi yanaşma nümayiş etdirə bilirdi. 1928-ci ildə yaz əkin kampaniyasının Mərkəz tərəfindən həyati məsələ kimi qoyuluşu yerlərdə bütün vasitələri məqbul bilən rəhbər qurumların müvafiq qərar qəbul etməsi ilə nəticələnmişdi. Hətta milli pasportu olmayan İran təbəələri belə işə alınırdı. Zaqfederasiya hökuməti əkin kampaniyası üzrə müvəkkil Bağırovun məruzəsi əsasında qərar qəbul etmişdi ki, İran təbəələri olan fəhlələrin sərhəddən Muğana güzəştli keçidinə dair tədbirlər işləyib hazırlamağı Zaqafqaziya DSİ-nə təklif

etsin. Hər kampaniyası ajiotaj, «ellik coşqu» ilə müşayiət olunan sovet tədbirlərindən biri də Muğanda yeni kanalların qurulması, köhnələrin təmiri ilə bağlı idi. Bununla əlaqədar torpaq işlərini «Azərsu» 1928-ci il aprelin 15-nə qədər başa çatdırmalıydı ki, həmin vaxtda yazlıq əkin altında olan zəmilərin suvarılması üçün kanallar vasitəsilə su buraxılsın. Dövrün tipik və işlək ifadəsi ilə «zərbəçi xarakter» daşıdığı vurğulanan bu işləri görmək üçün işçi qüvvəsi kifayət sayılmırdı. Tələb olunan işçi qüvvəsini yerli əhalidən və yanaşı olan Lənkəran qəzasından təmin etmək mümkün görünmürdü. İşi sürətləndirmək üçün isə çox sayda yerqazanı cəlb etmək lazım gəlirdi.

«Azərsu»nun rəisi Qaragözovun AK(b)P MK-ya məktubunda göstərilirdi ki, Muğanda çoxlu sayda İran təbəəsi olan yerqazan fəhlələr vardır, əksəriyyətinin milli pasportu olmadığından NKVD-nin (XDİK) 2 fevral 1928-ci il tarixli göstərişinə görə işə qəbul oluna bilməzdilər. Fəhlələri qeydiyyata düşmək və pasport almaq üçün kütləvi şəkildə Bakıya göndərmək isə texniki baxımdan mümkün sayılmadığından «Azərsu» çıxış yolu kimi milli pasportu olmayan İran təbəələrinin dəqiq siyahılarının tərtib olunacağı və sərhəd dəstələrinin komendatlığı tərəfindən qeydiyyata götürüləcəyi şərtilə işə qəbul edilməsinə icazə verilməsini xahiş edirdi. (1, f.1, s.74, s.v.256-260, v.158) Ay yarım müddətinə cəmi 1500-ə yaxın fəhlə tələb olunurdu. Həmin fəhlələrin suvarma kanalları üçün qazma işlərini bitirdikdən sonra mayın axırlarından Muğanda qalıb kənd təsərrüfatı işlərinə keçəcəkləri də nəzərdə tutulurdu.

Mərkəz və əyalət bolşevikləri Azərbaycanı hələ də Yaxın Şərq üçün inqilab modeli hesab edirdilər.(4, s.516) Azərbaycanın coğrafi mövqeyi, təbii ehtiyatları baxımından bir sıra məsələlər birbaşa Mərkəz tərəfindən müəyyənləşdirilərək həll edilirdi. “İran tacirlərindən bir qismi Bakıda siyasi Sovet zabıtası Çeka tərəfindən həbs olunaraq malları müsadirə və bilümum evrak və vəsiqələri zəbt edilmişdir.” Bununla əlaqədar İranın Rəşt şəhərində “Maişet-i-Milli” qəzetində yazılmışdı: “Biz hala da Sovyet hökumətinin (ticaret şerrindən) qurtulamadıq... Zatən biz Sovet Rusiyasından bundan başqa bir şey bəkləyəməzdik” (3, s.104).

SSRİ-İran ticarət əlaqələrində Bakının rolu əhəmiyyətini saxlamaqda idi. Eyni zamanda Sovet-İran ticarətinin Bakıda yoxsa Moskvada cəmləşdirilməsi məsələsi müzakirə olunurdu. Moskva Birjası və Rusiya Şərq Palatası xətti ilə bu ticarət həyata keçirilirdi.

Zaqafqaziya xalq ticarət komissarlığının ASSR-də müvəkkili Y.Rodionov AK(b)P MK-ya Sovet-İran ticarətinin vəziyyəti və inkişaf perspektivləri haqqında göndərdiyi məlumat məktubunda Bakının İranla ticarətin mərkəzi kimi qaldığını vurğulayır, tarixi-coğrafi və iqtisadi şərtlər baxımından müharibədən əvvəl olduğu kimi, yenə də İranla ticarətdə əsas baza olduğunu qeyd edirdi. (1, f.1, s.74, s.v.247-250, s.209-212) İranla ticarətdə Bakının sərfəli üstünlüklərini sadalayaraq məhz bu faktların məsələnin həllində əsas götürülməsini lazım bilirdi. Mübahisəsiz olaraq Bakını Sovet-İran ticarətində mərkəz bilən Zaqafqaziya komissarlığı bu statusun Moskvaya keçməsini məqbul bilmirdi. Belə ki, Moskva Əmtəə Birjası İranla ticarətin mərkəzini Moskvaya keçirmək istəyirdi. Bu cəhdlərin heç bir iqtisadi və ya başqa məqsədəmüvafiq əsaslandırması olmadığını Bakı ilə müqayisədə göstərərək, İranla ticarətdə əsas baza rolunun birdəfəlik Bakıya məxsusluğunun qəbul edilməsi qənaətini bildirmişdir. Əsasən tabeliyindəki qurumların ixtiyarını məhdudlaşdıran federasiya orqanları, öz maraqları tələb edəndə, yerli hakimiyyətlərin mövqeyini diqqətə aldıqlarını qabarıq göstərirdilər. Ticarət mərkəzinin Moskvaya keçəcəyi təqdirdə yerli respublika sərəncamverici və icraedici qurumların İranla ticarət işinə təsir göstərmək imkanından məhrum olacaqlarını qeyd etməyi lazım bilirdilər.

İranla ticarətə dair Azərbaycan Dövlət Siyasi İdarəsinin geniş təhlilli məxfi məktubu əlaqəli qurumlara göndərilmiş, əməli yönlü təkliflər verilmişdi. ASSR Ali İqtisadi Şurası 1928-ci il fevralın 13-də Sovet-İran ticarətini

tənzimləmək məsələsinə dair qərar qəbul etmişdi. 8 bəndlik qərarda SSRİ xalq ticarət komissarlığının direktivlərinin İran mallarına qiymət müəyyənləşdirilməsində əsas götürüldüyü təsbit olunurdu. (1, f.1, s.74, s.v.247-250, s.296-296 arxa) Təbii ki, son qərarı Mərkəz verməli idi. SSRİ Xarici və Daxili ticarət üzrə xalq komissarının müavini Xinçuk AK(b)P MK-nin 16 yanvar tarixli məktubuna cavabında Azərbaycan partiya rəhbərliyinin Sovet-İran ticarəti məsələsində götürdüyü xətti 3 məsələ istisna olmaqla tamamilə düzgün və komissarlığın həyata keçirdiyi xəttə bütünlüklə müvafiq saymışdı. (1, f.1, s.74, s.v.247-250, s.311, 311 arxa)

Hakimiyyətin onuncu ilindən sonra belə, eyni-zorakı iş üslubu həm də təəccüblü gəlməyə bilər, çünki 10 il əvvəl hakimiyyəti eyni zorakılıqla əldə etmiş şəxslər yenə də hakimiyyət başında idilər və onlar "onilliyin sonunda müharibə kommunizminin ən neqativ elementlərini geri qaytardılar." (7). Bu, "bolşeviklərin 1918-19-cu illərdəki əməllərinin sistematik formada təkrarı idi." (7). Beləki, "vətəndaş müharibəsi bolşeviklərin təkcə idarəçilik yox, həm də öz əleyhdarları ilə necə rəftar etmək haqda baxışlarını da formalaşdırmışdı." (7) Ağır zərbəsini Azərbaycanın da aldığı bu siyasətin kütləvi miqyasda zorakılıqlarla tətbiqi növbəti onilliklərdə də davam etmişdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi
2. İbişov F.Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930) – B., 1996, 168s.
3. Yeni Kafkasya.1926-1927.İstanbul, 2018, 415 səh.
4. Баберовский Й. Враг есть везде. Сталинизм на Кавказе, Москва, 2010, 855с.
5. Исмаилов Э.Р. Очерки по истории Азербайджана, Москва, 2010, 424 с.
6. История Отечества, Москва, 1991
7. https://blogs.voanews.com/azerbaijani/washington pulse/2017/04/04/stalinin-ideologiyasi/


***Açar sözlər:*** *Mərkəzi hakimiyyət, Azərbaycan, ZSFSR, SSRİ, sovet, siyasət, Zakselbank, «Köybirliyi»*

**Firdovsiyya Ahmedova**
*Head of History Department of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Associate Professor, PhD in History*

## SOCIAL-ECONOMIC POLITICAL COURSE OF CENTRAL GOVERNMENT ON AZERBAIJAN ON THE 10th YEAR OF ITS AUTHORITY

### SUMMARY

In the tenth year of Soviet statehood, the essence of the socio-economic policy of the Central Government on Azerbaijan is characterized by specific examples. The policies of the TSFSR and the USSR government regarding Azerbaijan on issues such as trade with Iran, voluntary taxation of the population, planting campaigns, allocation of loans, relations with Azneft, construction of new channels in Mughan are also clarified in the presented article.

***Key words:*** *Central Government, Azerbaijan, TSFSR, USSR, Soviet, Politics, Zakselbank, «Koybirliyi»*

**Фирдовсия Ахмедова**
*Заведующая кафедрой Истории Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по истории, доцент*

## КУРС СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ ЦЕНТРАЛЬНОГО ПРАВИТЕЛЬСТВА НА ДЕСЯТОМ ГОДУ ЕГО СУЩЕСТВОВАНИЯ В ОТНОШЕНИИ АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ

Сущность социально-экономической политики центрального правительства СССР в отношении Азербайджана в десятую годовщину советского государственного строительства характеризуется конкретными примерами. Также разъясняется политика ЗСФСР и правительства СССР в отношении Азербайджана по таким вопросам, как торговля с Ираном, добровольное налогообложение населения, организация посевных работ, выделение кредитов, отношения с Азнефтью, строительство новых каналов в Мугане.

***Ключевые слова:*** *центральное правительство, Азербайджан, ЗСФСР, СССР, совет, политика, Закселбанк, «Койбирлийи»*

## TƏHSİLİN TƏŞKİLİ VƏ PLANLAŞDIRILMASI
## EDUCATIONAL ORGANIZATION AND PLANNING

UOT 371:351.851

**MƏMMƏD MƏMMƏDOV**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının Dövlət idarəetməsi və**
**menecment kafedrasının dosenti, iqtisadiyyat üzrə fəlsəfə doktoru**
*e-mail: karat_fm@mail.ru*

# AZƏRBAYCANDA FASİLƏSİZ VƏ ÇOXSƏVİYYƏLİ PEŞƏ TƏHSİLİNİN İNKİŞAFI İSTİQAMƏTLƏRİ

*Təhsil millətin gələcəyidir.*
*Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev*

Fasiləsiz təhsil anlayışı ilk dəfə 1965-ci ildə YUNESKO-da keçirilən forumda məşhur nəzəriyyəçi P.Lenqrad tərəfindən işlədilmiş və böyük əks-səda doğurmuşdur. P.Lenqardın şərhində fasiləsiz təhsil humanist ideya ilə zənginləşmişdi. Həmin ideya bütün təhsil növlərinin mərkəzində insanı önə çəkərək həyatı boyu qabiliyyətlərinin tam şəkildə inkişaf etdirmək üçün əlverişli şərait yaradılmasını nəzərdə tuturdu. O, insanın Həyat mərhələlərinə yeni baxışı irəli sürürdü. Yəni insan həyatının ənənəvi bölgüsündən – təhsil, əmək və peşə dezaktualizasiyasından imtina etməyi irəli sürürdü. Beləliklə, başa düşdüyümüz fasiləsiz təhsil insanın bütün həyatı boyu davam edən bir proses deməkdir. Bu proses insanın özünün və onun fəaliyyətinin həm fərdi və həm də sosial aspektlərinin inteqrasiyasında mühüm rol oynayır.

Fasiləsiz təhsil – bu anlayış əhatəliyinə görə hər şeyi əhatə edən; vaxta, tempinə və istiqamətinə görə fərdi olan, həmçinin hər kəsə buna nail olmaq üçün öz proqramını reallaşdırmaq imkanı verən bir prosesdir. Eyni zamanda bu ümumi təhsil almağı və onun genişləndirməyin rəngarəng vasitələrini, üsullarını, formalarını, peşə səriştəliliyini, mədəniyyətini birləşdirən bir prosesdir ki, bunun nəticəsində də yetkin və yüksək mənəvi keyfiyyətlərə malik olan vətəndaş yetişdirilir.

Fasiləsiz təhsilin məqsədi – insanın həyat fəaliyyətinin istənilən dövründə və ictimai faydalı fəaliyyətdə fərdin refleksinin inkişafıdır, başqa sözlə seçilmiş peşə və ixtisasa münasibətdə daima özünü təkmilləşdirmə və dərk edilmiş ictimai tələbatda özünün iştirakıdır.

Fasiləsiz təhsilin məqsədi heç də bütün həyatı boyu insanı öyrətmək deyil. Onun məqsədi bütün həyatı boyu insana müstəqil oxumağı öyrətməkdir.

Fasiləsiz təhsil a) ictimai münasibətlərin demokratikləşdirilməsi (təhsilin hamı üçün əl çatan olması, rəngarəng olması, çevikliyi, çoxpilləliyi); b) müasir cəmiyyətin açıqlığı (insanlara öz tələbatlarını, qabiliyyətlərini reallaşdırmaq imkanı vermək, bu və ya digər dərəcədə qarşıya qoyulmuş məqsədə yaxınlaşmaq); c) müasir təhsilin humanistləşdirilməsi (başqa sözlə təhsilin insana, onun mənəvi tələbatlarına, marağına, cəhdlərinə, arzularına yönəldilməsi) hesabına fəaliyyət göstərir.

Fasiləsiz təhsil konsepsiyasının nəzəri, daha sonra praktiki inkişafının əsasını R.Davenin tədqiqatları təşkil edir. Bu sahədə apardığı tədqiqatlar nəticəsində R.Dave fasiləsiz təhsili xarakterizə edən 25 əlaməti müəyyən etmişdir. Onun fikrincə bu əlamətlərə həmin sahədəki elmi tədqiqatların ilk fundamental fazasının yekunu kimi baxmaq olar. Bu siyahı özündə aşağıdakı əlamətləri birləşdirir:

- təhsilin insanın bütün həyatını əhatə etməsi;
- təhsilin bütöv sistem kimi başa düşülməsi (özündə məktəbəqədər tərbiyəni, əsas, ardıcıl,

təkrar, paralel təhsili birləşdirməsi; onun bütün səviyyə və formalarının inteqrasiyası və birləşdirilməsi);

- təhsil sisteminə təhsil müəssisələrindən başqa formal və qeyri-formal təhsil hazırlığı mərkəzlərinin cəlb edilməsi;

- üfüqi inteqrasiya: a) ev – qonşu – yerli sosial sfera – cəmiyyət – əmək sferası – kütləvi informasiya vasitələri – əyləncə, mədəni, dini təşkilatlar və s.;

b) öyrənilən fənlər arasında əlaqə olması;

c) insan həyatının müxtəlif mərhələlərində (insanın fiziki, mənəvi, intellektual və s.) insan inkişafının müxtəlif aspektləri arasında inteqrasiya olması;

- şaquli inteqrasiya;

a) təhsilin müxtəlif mərhələləri arasında əlaqə olması;

b) hər bir mərhələdə tədris olunan fənlər və müxtəlif səviyyələr arasında əlaqə olması;

c) insanın həyat fəaliyyətinin ayrı-ayrı mərhələlərində reallaşan müxtəlif sosial rolları arasında əlaqə olması;

ç) insan inkişafının müxtəlif keyfiyyətləri arasında əlaqə olması (fiziki, mənəvi, intellektual inkişafı və s. bu kimi keçici xarakter daşıyan keyfiyyətlər arasında);

- təhsilin universal və demokratik olması;

- təhsil almaq üçün alternativ strukturlar yaradılması imkanlarının olması;

- ümumi və peşə təhsili arasında əlaqə olması;

- özünüidarəetmə, öz-özünə təhsil alma, özünütərbiyə, özünü qiymətləndirməyə xüsusi diqqət yetirmək;

- təlimin individuallaşdırılması (fərdiləşdirilməsi);

- müxtəlif nəsillər (ailə, cəmiyyət) şəraitində təlim;

- dünyagörüşünün genişləndirilməsi;

- bilik və onun keyfiyyətinin interdisiplinarlığı;

- təhsilin məzmunun, vasitələrinin və metodikasının, məkanın və vaxtının çevikliyi və rəngarəngliyi;

- biliklərə dinamik yanaşma – elmin yeni nailiyyətlərinə assimilyasiya olmaq qabiliyyəti;

- oxumaq (öyrənmək) bacarığının təkmilləşdirilməsi;

- təhsil almağa motivasiyanın stimullaşdırılması;

- təhsil üçün müvafiq şəraitin və atmosferin yaradılması;

- təhsilə yaradıcı və innovasiyalı yanaşmanın reallaşdırılması;

- insan həyatının müxtəlif dövrlərində sosial rolun dəyişməsinin yüngülləşdirilməsi;

- özünün xüsusi dəyərlər sisteminin dərk edilməsi və inkişaf etdirilməsi;

- şəxsi, sosial və peşəkar inkişaf yolu ilə şəxsi və kollektiv həyat keyfiyyətini gözləmək və yaxşılaşdırmaq;

- tərbiyə edilən və öyrədilən cəmiyyətin inkişafı;

- kimsə «olmaq» və kiməsə «çevrilmək» üçün təhsil;

- bütün təhsil prosesi üçün sistemlilik prinsipi.

Fasiləsiz təhsilin əsas prinsiplərinə aşağıdakılar aiddir: ümumilik, demokratiklik və hamı üçün əlçatan olması; fasiləsizlik; inteqrativlik və varislik; açıqlıq; öz-özünə təhsil alma.

Fasiləsiz təhsilin funksiyaları aşağıdakılardır: diaqnostika, kompensator, adaptasiya, dərk edilmə, kulturoloji.

Fasiləsiz təhsil özündə aşağıdakı strukturları birləşdirir:

1. Məktəbəqədər
2. Orta
3. Orta peşə
4. Ali
5. Ali məktəbdən sonrakı peşəkar
6. Müvafiq əlavə

Öz növbəsində bunlardan hər biri öz strukturuna və pillələrinə malikdir:

1. Məktəbəqədər (körpələr evi, uşaq bağçaları);
2. Orta – ümumi ibtidai, əsas ümumi, orta (tam) ümumi təhsil (məktəb, litsey, gimnaziya);
3. Orta peşə – baza və yüksəldilmiş, əsas ümumi və tam ümumi bazasında (kollec, texnikum);
4. Ali – natamam ali (bakalavriat), tam ali təhsil (spesialistet, magistratura);

5. Ali təhsildən sonrakı peşə (aspirantura, ordinatura və adyunktura, doktorantura):

6. Müvafiq əlaə – ümumi təhsil müəssisələrində, təhsil müəssisələrində peşə təhsili, təhsil müəssisələrində əlavə təhsil, fərdi pedaqoji fəaliyyət vasitəsilə təhsil.

Qeyd etmək zəruridir ki, bu təsnifat tam hesab edilə bilməz, çünki təhsil açıq tipli sistemdir.

Təhsil müəssisələrini fasiləsiz təhsilin başqa bir zəruri struktur elementi hesab etmək olar.

Fasiləsiz təhsil dövlət və ictimai müəssisələrin vahid sistemi olub, aktual və perspektiv ictimai tələbatı nəzərə almaqla hər bir insanın tərbiyəsi, ümumi təhsil alması, politexnik və peşə hazırlığı vəzifələrini birgə həll edən təşkilatı, məzmun vahidliyi və varisliyin bütün həlqələrindəki qarşılıqlı əlaqəni təmin etməlidir. Eyni zamanda fasiləsiz təhsil insanın bütün həyatı boyu öz təhsilini artırmağa olan cəhdlərini təmin edərək harmonik inkişafını da təmin etməlidir.

Bununla əlaqədar olaraq hər bir insana özünün xüsusi təhsil proqramını reallaşdırmağa imkan verən təhsili fasiləsiz hesab etmək olar. Fasiləsiz, çoxsəviyyəli peşə təhsilinin reallaşdırılması müxtəlif təhsil (ibtidai, orta və ali) sistemlərinin təhsil proqramlarının inteqrasiyası əsasında müxtəlif peşə hazırlığını təşkil edən təhsil müəssisələrinin yaranmasına gətirib çıxarmışdır. Aparılan tədqiqatların göstərdiyi kimi hal-hazırda ölkəmizdə müxtəlif səviyyəli, çoxpilləli, varislik və variativ təhsil proqramlarına keçmək üçün şərait yaradan təhsil müəssisələri şəbəkəsi genişləndirilir.

«Fasiləsiz peşə təhsili» anlayışını şəxsə, təhsil proqramlarına və təhsil prosesinə, həmçinin təşkilatı strukturlara aid etmək olar. Bunların hər birinə münasibətdə fasiləsiz peşə təhsili anlayışının öz mənası vardır. İstənilən təhsil müəssisəsinin (ibtidai, orta, ali peşə) vəzifəsi orada oxuyan şəxslərin özünü reallaşdırmasına və gələcək inkişafına kömək etməkdir (7, 125).

Azərbaycanın təhsil siyasətində əsas istiqamətlərdən biri ayrı-ayrı şəxslərin həyatda qazandığı uğurların, millətin rifahının və rəqabət qabiliyyətli olmasının əsası elan edilən fasiləsiz təhsildir.

Fasiləsiz təhsil sistemi üç başlıca şərti təmin etməlidir:

- ümumi və peşə təhsilinin müxtəlif səviyyə proqramlarının və təhsil standartlarının ardıcıllığını;
- təhsilin müvəqqəti olaraq dayandırılması və yenidən bərpa edilməsini, onun formasının dəyişdirilməsini, fərdi təhsil trayektoriyasının seçilməsini, ixtisasının yüksəldilməsi imkanını. Həmçinin əmək bazarının tələblərinə uyğun olaraq həm ümumi təhsilin yüksək səviyyəsini, həm də peşəkar rəqabət qabiliyyətliliyi qoruyub saxlamaq məqsədi ilə yenidən hazırlanma imkanını;
- təhsili davam etdirməyə imkan verməyən «dalanlı» təhsil proqramlarının, təhsil müəssisələrinin, təhsil istiqaməti və növlərinin olmamasını.

Fasiləsiz təhsilin məzmunu özündə dörd aspekti (istiqaməti) birləşdirir.

I – təhsil sisteminin ənənəvi həlqələrini: məktəbəqədər, ümumi orta, peşə, ixtisasartırma və kadrların yenidən hazırlanmasının təkmilləşdirilməsi;

II – tədris-informasiya mərkəzlərində, müxtəlif kurslarda, seminarlarda, yaşayış yerlərindəki klublarda, işdə, təhsil aldığı müəssisədə və digər yerlərdə təhsilin və özünütəhsilin ictimai formalarının inkişaf etdirilməsini. Bu istiqamətdə kütləvi informasiya vasitələrinə, kitabxanalara, muzeylərə, elmi-texniki və idman cəmiyyətlərinə, habelə ictimai təhsil və özünü təhsilin digər formalarına xüsusi yer ayrılır.

III – peşə oriyentasiyası və peşə seçiminin vahid dövlət və ictimai sisteminin yaradılması və təkmilləşdirilməsi.

IV – qabaqlayıcı kadr təminatına istiqamətlənmiş fasiləsiz pedaqoji təhsilin və özünü təhsilin inkişafı.

Fasiləsiz çoxsəviyyəli təhsil şəraitində məzmunun inteqrasiyası struktur iyerarxiyası əsasında həyata keçirilə bilər. Təhsilin tədris-proqram sənədləri ilə məzmunca tamam-

lanmasının variativliyi aşağıdakı istiqamətlərlə təmin edilir:

- peşəkar özünü təyinetmədə tələbənin imkanlarının genişləndirilməsi;
- ünvanlı mütəxəssis hazırlanması;
- əsas tədris informasiyasının sistemləşdirilməsi, inteqrasiyası və bunların əsasında peşə fəaliyyətinin tam mənzərəsinə (təsvirinə) nail olunması;
- sosial proseslərin dinamikası şəraitində peşə fəaliyyətinə adaptiv hazırlıq və digər mühüm peşə keyfiyyətlərinin inkişaf etdirilməsi.

Məzmun aspektində peşə təhsilinin fasiləsizliyi yalnız orta və ali peşə təhsili səviyyəsində təhsilin məzmunundakı şaquli varislik üzrə deyil, həm də ümumpeşə və xüsusi fənlərin məzmununun üfüqi qarşılıqlı əlaqəsi vasitəsilə, habelə təhsilin fərdi-inkişaf edən və peşəkar-pedaqoji funksiyası vasitəsilə həyata keçirilir. Fənnin özünün məzmunu yarımfunksionaldır. Çünki, fənn sahəsi kontekstində öyrənmə istiqamətindən asılı olaraq o müxtəlif funksiyaları yerinə yetirə bilər.

Sosial məqsədlərin pedaqoji məqsədlərə transformasiyası vasitəsi olan təhsilin məzmunu xüsusi əhəmiyyət kəsb edir. Peşəkar təhsilin məzmunu özündə şəxsiyyətin sosiallaşması və peşəkarlaşması prosesini şərtləndirən nəzəri və emprik normaları və dəyərləri, həmçinin təbiət və cəmiyyətin, təşkilatın, istehsal texnikası və texnologiyasının mahiyyəti və inkişaf qanunauyğunluqları haqqındakı elmi biliklərin əsaslarını, başqa sözlə yüksək səviyyəli təhsilə, tərbiyəyə, ixtisasa və peşəkar hazırlığa malik olan mütəxəssislər hazırlanmasının təmin edilməsini ehtiva edir.

Fasiləsiz təhsilin həyata keçirilməsi prosesində hər bir insana təhsil almaq üçün öz şəxsi proqramını (təhsil almanın fərdi trayektoriyasını) reallaşdırmaq üçün bərabər imkanlar yaradılır.

Təhsil almanın fərdi trayektoriyası dedikdə müvafiq fəaliyyət növlərini həyata keçirmək vasitəsilə tələbənin şəxsi simasını formalaşdıran potensialının reallaşdırmasının nəticələri başa düşülür. Fərdi trayektoriya üzrə təhsilin təşkili xüsusi metodika və texnologiya tələb edir. Bundan çox vaxtı distant təhsil sistemində istifadə edilir. Müasir didaktika bu vəzifənin həllində adətən iki əsas üsulu təklif edir. Onların hər ikisini fərdi yanaşma adlandırırlar.

Birinci üsul – tədrisin differensiasiyası. Bu üsulda hər bir təhsil alana təklif edilir ki, öyrəndikləri materialları mürəkkəblik dərəcəsinə, istiqamətinə və ya digər parametrlərinə görə differensiallaşdıraraq fərdi yanaşsınlar. İkinci üsul xüsusi təhsil yolunun hər bir tələbənin bilik aldığı sahənin xüsusiyyətlərinə uyğunlaşdırmağı nəzərdə tutur. Başqa sözlə hər bir tələbəyə öyrənilən tədris fənlərinin mənimsənilməsinin öz xüsusi təhsil trayektoriyasını yaratmaq imkanı verilir.

### Adaptiv təhsil sisteminin yaradılmasına əsas yanaşmalar

Müasir reallıqlar «bütün həyatı boyu təhsil» formulasını «bütün həyatı vasitəsilə təhsil» formulası ilə əvəz edilməsi və bununla əlaqədar olaraq təhsilin bütün səviyyələrində adaptiv tədris mühitinin yaradılması zəruriliyini diktə edir.

Açıq sistem kimi tədrisin təşkilinin əsas prinsiplərindən biri sistemin adaptivliyidir (lat.adaptation – sazlanmış, uyğunlaşdırılmış, alışmış). Başqa sözlə təhsil verilənin səviyyə və xarakterik xüsusiyyətlərinin inkişafıdır. Adaptiv təhsil sisteminin iki aspektini fərqləndirmək lazımdır: 1. Adaptiv təhsil, 2. Biliklərə adaptiv nəzarət (və ya pedaqoji nəzarət).

Pedaqoji nəzarət təhsil sisteminin mühüm komponenti və tədris prosesinin tərkib hissəsidir. Hələ də pedaqoji nəzarəti təhsil alanların mənimsəmə səviyyəsinin qiymətləndirilməsinin nəticəsi hesab edirlər. Verilən qiymət təhsil alanın fəaliyyətinin konkret pedaqoji sistemin və bütövlükdə təhsil sisteminin tələblərinə uyğunluğunu müəyyən edir. Lakin nəzərə almaq lazımdır ki, tədris prosesinin özü də fərdi xarakter daşımalıdır.

Dahi alman pedaqoqu A.Disterveqə məxsus olan aşağıdakı sözləri xatırlamaq yerinə düşərdi: «Təbiətə uyğun olaraq tədris et… Nöqsansız öyrət… şagird harada qalmışdırsa,

dərsə ordan başla… Tədrisə başlamazdan əvvəl çıxış nöqtəsini təhlil etmək lazımdır… Şagirdin nədə dayandığını bilmədən onu yaxşı öyrətmək (oxutmaq) mümkün deyildir». (8) Müasir adaptiv təhsil sisteminin meydana gəlməsi fərdiləşmə prinsipinə əsaslanır.

Adaptasiya ixtisaslaşdırma prosesində müəyyən edilmiş norma və dəyərlərin mənimsənilməsi deməkdir.

Təhsil alanların və təhsil sistemlərinin böyük əksəriyyətinin mühüm nöqsanı tədrisin determinantlığı (qanunauyğunluğu), tədrisdə çevikliyin olmaması, həmçinin konkret təhsil alana münasibətdə tədrisin adaptasiyası metodikasının aşağı səviyyədə olmasıdır.

Tədrisdə adaptasiyanı müxtəlif üsullarla təşkil etmək olar. Məsələn distant təhsildə adaptivliyə aşağıdakı nöqteyi-nəzərlərdən baxmaq olar:

- ekran (qavrama) məkanın dərk edilməsi;
- tədris materiallarının fərdi təşkilinin metodiki xüsusiyyəti;
- təhsil alanların psixofizioloji xüsusiyyəti (həm ümumi, həm də lokal) və s.

Tədris müəssisəsində adaptivliyin qeyd edilən bütün tərəflərini uçota almaq vacibdir. Lakin istənilən təhsil sisteminin əsasında hər şeydən əvvəl metodiki və psixofizioloji xüsusiyyətlər durur. Ona görə də tədris sistemində fərdi təlimin təşkili imkanlarının tədqiqinə məhz bu nöqteyi-nəzərdən yanaşmaq lazımdır. Buna görə də hər bir konkret növ təhsil alana çatdırılan tədris materiallarının fərdi kompleksə uyğunluğunun müəyyən edilməsi müasir dövrdə təhsil prosesinin əsasını adaptivlik elan edən açıq təhsil sisteminin mühüm tərkib hissəsi olmalıdır.

Təhsil sisteminin adaptivliyi konkret pedaqoji sistemin konkret təhsil alanın imkan və təhsil tələbatına uyğunluğunu müəyyən etməyi tələb edir.

Hər bir konkret təhsil alanın psixofizioloji xüsusiyyətlərini və onların bu və ya digər şəkildə informasiyaları qəbul edib, dərk etmək imkanlarını müəyyən etmək üçün çoxlu sayda müxtəlif metodika və texnologiyalar mövcuddur.

Təhsil verilən konkret tələbə modelinin parametrləri onun testləşdirmə yolu ilə müəyyən edilən fərdi psixoloji və fizioloji xüsusiyyətlərini nəzərə almalıdır. Testləşdirmə prosesində təhsil alanın (tələbənin) psixofizioloji tipi müəyyən edilir. Tədris kursunun materialları da məhz buna uyğun olaraq tədris materiallarının müxtəlif kompleks formaları şəklində onlara çatdırılır.

Təhsil sistemlərinin böyük əksəriyyətində təhsil alanların hamısına standartlaşdırılmış yanaşmadan istifadə edilir.

Adaptiv təhsil sisteminin yaradılmasına olan əsas yanaşmalar bunlardır: sistemli-fəaliyyətli, kulturoloji, sinergetik, şəxsiyyətə istiqamətlənmiş, refleksli və s.

Sistemli-fəaliyyətli yanaşma adaptiv təhsil sisteminin tamlıq səviyyəsini, məqsədini və məzmununu təşkil edən elementlərin qarşılıqlı əlaqəsi və qarşılıqlı təsir dərəcəsini, müxtəlif səviyyələrdə köməkçi sistemlərin fəaliyyətindəki məqsəd oriyentirlərinin tabeçiliyini müəyyən etməyə imkan verir.

Kulturoloji yanaşma təhsil müəssisəsində bütöv (tam) fasiləsiz təhsil mühitinin konkret tədris fənnləri üzrə xüsusi, ümummədəni və psixo-pedaqoji bilik bloklarının birləşdirilməsini nəzərdə tutur.

Pedaqoji yanaşma dedikdə pedaqoqun fəaliyyətdə əsas istiqaməti, məqsədi və prinsipləri müəyyən etməyə, başqa sözlə onun pedaqoji dünyagörüşünü və mövqeyini müəyyən etməyə imkan verməsi sistemi başa düşülür.

Sinergetik yanaşma subyektin təbiətə müvafiq özünü təşkilinin uçota alınmasını və sistemin özünü təşkili prosesinin əsasında duran ümumi qanunauyğunluqlarının aşkara çıxarılmasını, habelə inkişaf tarixini nəzərdə tutur. Bu yanaşmanın diqqət mərkəzində sistemin dinamik və ya statik davranışında baş verən keyfiyyət dəyişiklikləri durur. Sinergetik yanaşma bu özündə mürəkkəb sistemlərdə özünü təşkilin vahid nəzəriyyəsinin yeni konsepsiyasını və yeni metodologiyasını əks etdirən yanaşmadır.

Şəxsiyyətə istiqamətlənmiş yanaşma hər bir təhsil sistemində hər bir konkret şəxsin

anadangəlmə xüsusiyyətlərini nəzərə almağı nəzərdə tutur. Bu yaxın gələcəkdə konkret şəxsin inkişafı əsasında onun qabiyyət və imkanlarının daha tam üzə çıxması üçündür.

Refleksli yanaşma şəxsiyyətin daxili güclərinin (səylərinin), onların özünüinkişafının stimullaşdırılmasını nəzərdə tutur. Bu təhsil sistemlərinin uğur qazandığı və uğursuzluğa düçar olduğu hallarda özünü təhlil edərkən və özünü qiymətləndirərkən kollektivin fəaliyyətinin layihələndirilməsindəki idarəçilik qarşılıqlı təsirində özünü göstərir.

Cəmiyyətin yeniləşməsi və yeni iqtisadi münasibətlərə keçid şəraitində həm üfüqi və həm də şaquli aspektdə geniş həcmdə peşə biliklərinə malik olan mütəxəssislərə tələbatı günün aktual məsələsinə çevrilir. Belə bir şəraitdə mütəxəssislər hazırlanmasının əsas və vacib elementi səlahiyyətlilik və səriştəlikdir. Çünki maddi və mənəvi nemətlərin bölüşdürülməsi və istehlakı hər şeydən əvvəl onların təkrar istehsalını tələb edir. Mədəni və iqtisadi dirçəliş, maddi və mənəvi dəyərlər yaradılması keyfiyyətcə yeni biliklərə və bacarıqlara malik olan işçilərə tələbat yaradır. Belə işçilər cəmiyyətin sosial-peşə strukturunda öz yerlərinin aktiv axtarışına hazır olan mütəxəssislər olmalıdır.

Ənənəvi olaraq fasiləsiz təhsil dedikdə insan qabiliyyətinin maksimal inkişafını təmin edən bütün tip mümkün təhsil müəssisələrini özündə birləşdirən təhsil sistemi başa düşülür. Bu kateqoriya insanların təhsilə olan davamlı və güclənən tələbatlarını ifadə edir.

Fasiləsiz təhsil sistemi özündə dövlət və qeyri-dövlət təhsil müəssisələri kompleksini əks etdirir. Bunların vəzifəsi cəmiyyətin aktual və perspektiv tələbatını ödəməklə hər bir insanın ümumtəhsil və peşə hazırlığı, həmçinin tərbiyə edilməsi məsələlərinin birgə və koordinasiya edilmiş şəkildə həll etməklə təhsil müəssisələrinin bütün həlqələrinin təşkilat və məzmunca vahidliyini və qarşılıqlı əlaqəsini təmin etməkdir. Belə sistem şəxsiyyətin inkişafı prosesinin hər birini daha yüksək səviyyəyə assosiasiya edən aşağıdakı ardıcıl mərhələlər şəklində təsəvvür etməyə imkan verir: savadlılıq – təhsillilik – peşə səriştəliliyi – mədənilik – mentallıq (B.S.Qerşunskiy).

Fasiləsiz çoxsəviyyəli peşə təhsilinin reallaşdırılması müxtəlif peşə təhsili sistemlərinin, təhsil proqramlarının inteqrasiyasına əsaslanan təhsil müəssisələrinin yaradılmasına gətirib çıxardı: ibtidai, orta, ali və əlavə. Aparılan tədqiqatların göstərdiyi kimi hazırda müxtəlif səviyyəli, çoxpilləli, varislik prinsipli və variativ təhsil proqramlarına keçid üçün şərait yaradan təhsil müəssisələrinin şəbəkəsi genişlənməkdədir. (11, 127)

Fasiləsiz peşə təhsilinin müasir, mobil və çevik sisteminin yaradılması ictimaiyyətin və dövlətin qarşısında duran birinci dərəcəli vəzifəsidir. Eyni zamanda qeyd edilməlidir ki, mövcud peşə təhsil sistemi artıq öz dövrünü bitirmişdir. Onun gələcək inkişafı isə ibtidai və orta peşə təhsilinin inteqrasiyasını və yaradılmaqda olan yeni sistemin keyfiyyətcə yüksək səviyyəyə qaldırılmasını tələb edir.

İnkişafın fasiləsiz proses kimi başa düşülməsini inkişaf edən təhsil prinsipi ilə təhsil fəaliyyətinin yalnız dünyanın dərk edilməsinə deyil, həm də onun dəyişdirilməsinə oriyentasiya edilməsi ilə birləşdirilməsini nəzərdə tutur. Açıq təhsil sisteminə keçid də məhz bununla şərtlənir.

Azərbaycanda ali peşə təhsilinin çoxsəviyyəli strukturunun vəzifəsi konkret şəxsin və cəmiyyətin rəngarəng mədəni və təhsil tələbatlarını ödəməkdə ali məktəblərin imkanlarını genişləndirmək məqsədini güdməklə bərabər, həm də iqtisadiyyatın və əmək bazarının dəyişən tələbatını nəzərə almaqla mütəxəssislər hazırlanmasının ümum mədəni, elmi və peşə hazırlığının çevikliyini yüksəltməkdən ibarətdir. Bu gün həm də çoxsəviyyəli təhsil sistemini vahid təhsil məkanını qoruyub saxlamaq və inkişaf etdirmək üçün inkişaf etmiş ölkələrin ali məktəblərinin strukturuna uyğunlaşdırması da aktualdır (4).

Təhsilin çoxsəviyyəliliyi dedikdə çox mərhələli təhsil prosesinin təşkili başa düşülür. Onun vəzifəsi təhsilin hər bir mərhələsinin insanların imkan və maraqlarına uyğunluğunu təmin etməkdir.

Çoxsəviyyəli struktur təhsil-peşə proqramlarındakı varislik gözlənilməklə təhsilin məzmun və müddətinə görə müxtəlif cür reallaşdırılır. Burada təhsil-peşə proqramlarının müvafiq ixtisas almaq üçün üç səviyyəsi nəzərdə tutulur: «bakalavr», «diplomlu mütəxəssis», «magistr».

Açıq təhsil Azərbaycanda peşəkar təhsilin müasir sisteminin fəaliyyət göstərməsinin yeni şərtidir. Bu şərt peşəkar təhsilin sifarişçinin (iş verənlərin) prioritetlərini qəbul edərək kadr hazırlığını bazar münasibətlərinin tələblərini nəzərə alaraq sosiumla geniş qarşılıqlı təsirdə həyata keçirilməsini nəzərdə tutur. Ölkənin rəqabət qabiliyyətliyi bilavasitə onun kadr potensialının rəqabət qabiliyyətindən, eləcə də onların səriştəlilik səviyyəsi ilə əlaqədardır.

Açıq təhsil – təhsilin hamı üçün əlçatan olmasının yolu və onun genişləndirilməsi haqqındakı müasir doktrinadır. Onun əsas ideyalarından biri insanların faktiki və formal ixtisas hüquqlarını bərabərləşdirməkdir. Böyük həyat təcrübəsi olan insanlar hər şeydən əvvəl peşəkarlardır və onların malik olduqları bilik və bacarıq səviyyəsinin rəsmən qəbul edilməsinə ehtiyacları var. Bu məqsədlə qəbul olunmaq üçün təhsil haqqında sənəd tələb edilməyən müəssisələr sistemi yaradılır. Adətən bu müxtəlif səviyyəli daimi tədris müəssisələrinin struktur bölmələrində xüsusi proqramla işləyənlərdir. Təhsil alanlar bu məktəbləri bitirdikləri haqqında diplom almaq arzusundadırlar. Bunu aşağıdakı kimi etmək olar: tam kurs üzrə imtahan vermək; dərslərə getməmək; dinləyicinin hazırlanması səviyyəsinə hesablanmış qısa müddətli təhsil kurslarını keçmək; təhsil müəssisəsinn gələcək tələbələri sırasına formal olaraq qəbul edilmədən həmin tədris müəssisəsinin tam kursunu keçmək.

Açıq təhsil sisteminə keçilməsi subyektiv çətinliklərlə, mühafizəkarlıq ənənələri ilə, «yenilik» qorxusu ilə əlaqədardır. Bu da öz növbəsində yenidən təhlükəsiz qapalı sistemə qayıtmağa cəhdləri artırır. Bununla da onlar kim tərəfindənsə hazırlanmış sərt təlimatlara əsaslanaraq, şəxsi məsuliyyət hissindən azad olmağa çalışırlar.

Cəmiyyət yalnız pedaqoji innovasiyalar yolunda duran bir sıra bürokratik maneələrin sayının azalmasına deyil, həm də obyektiv olaraq açıqlıq xüsusiyyətlərinə malik olan təhsil sisteminin potensial imkanlarını tam dərəcədə reallaşdırılması imkanlarının hər bir pedaqoq üçün əlçatan olması imkanlarının çoxaldılmasına çalışmalıdır.

Açıq təhsil sistemi cəmiyyət və insanların daima yüksələn tələbatlarının qarşılıqlı təsiri nəticəsində formalaşan qabaqcıl təcrübədən istifadə etməklə, onların mütərəqqi inkişaf qabiliyyətini yüksəldir. Onun inkişafı bir liderin və ya «ali xadimin» siyasi iradəsi ilə deyil, ətraf mühitlə daimi qarşılıqlı təsir prosesindən, hər şeydən əvvəl isə əmək bazarının və təhsil xidmətlərinin bir-birinə bağlılığından asılı olan qanunauyğunluğundan asılıdır.

Məhz öz açıqlığına görə peşəkar (professional) təhsil sistemi iqtisadiyyatdakı dəyişiklikləri nəzərə almağa və proqnozlaşdırmağa; texnologiya və istehsalın idarə edilməsindəki dəyişiklikləri əks etdirməyə; bütün yaşda olan insanlara professional təhsil almaq imkanı təqdim etməyə; tələb olunan təhsil standartlarına çatmağa təminat verməyə qadirdir.

Açıq sistemdə şəxsin özünü göstərməsi, öz həyat yolunu seçməsi, karyerasını qurmaq üçün imkanlar olur. Belə seçim azadlığının təmin edilməsi insanlara xarici məhdudiyyətlər və məcburiyyətlər olmadan təhsil almaq imkanı verir.

Açıq təhsil sistemi təhsil almaqda çətinlik çəkən və ya əvvəllər məcburi (mütləq) baza təhsili olmayan vətəndaşlar (əlillər, əqli və fiziki cəzətdən qüsurlu yeniyetmələr, xüsusi məktəblərin məzunları, işsizlər və sosial qayğıya ehtiyacı olan digər kateqoriyadan olan insanlar və s.) üçün əlverişli imkanlar yaradır.

Təhsil sisteminin açıqlığı, həmçinin onun çeviklik kimi mühüm ümumiləşdirilmiş xarakteristikasının vacib şərtidir. Başqa sözlə onun struktur elementlərinin imkanları yenidən təşkil olunaraq son dərəcədə müxtəlif funksiyaların yerinə yetirilməsinə hazır olur və eyni zamanda sosial-iqtisadi islahatlardakı dəyişikliklərin xüsusiyyətlərdən asılı olaraq zəruri dərəcədə açıqlığı saxlayır.

Azərbaycanda fasiləsiz və çoxsəviyyəli peşə təhsilinin əsas istiqamətlərinin tərkibində fasiləsiz və distant təhsil modelinin özünəməxsus yeri vardır.

Fasiləsiz təhsilin V.N.Turçenko tərəfindən işlənib hazırlanmış «ümumi modelinə baxdıqda, bu modelin aşağıdakı xarakterik xüsusiyyətlərini görə bilərik:

1. Müvəqqəti xarakteristika: bütün həyat prosesi.
2. Məkan xarakteristikası: məkan məhdudlaşdırılmır. İxtisaslaşdırılmış təhsil müəssisəsi təhsil sisteminin nümunəvi məntəqəsi kimi fəaliyyət göstərərək öz funksiyalarını intensiv olaraq genişləndirir. Bu funksiyaları o, yalnız öz hüdudlarında deyil, həm də bütün digər fəaliyyət sferalarının daxilində də reallaşdırır.
3. Xarici xarakteristika: məktəbin bütün digər ictimai fəaliyyət sferaları ilə maksimum yaxınlaşdırılması «açıq məktəbin» əsas prinsipidir.
4. Daxili xarakteristika: onun bütün elementlərinin birləşdirilməsi, varisliyi, aşağı mərhələdən sərbəst (rəvan) olaraq yuxarı mərhələyə keçid. Tədrisin müxtəlif formaları və tipləri bir-birini qarşılıqlı şəkildə tamamlayır.
5. Kəmiyyət xarakteristikası: yalnız böyüməkdə olan nəsli deyil, hamını əhatə prinsipi olaraq bütün yaşlı nəsli də əhatə edir.
6. Funksional xarakteristika: təhsil alan (şagird) özünü təhsilin subyekt olaraq öz müəlliminin ciddi opponenti ola bilər, hətta onu ötüb keçə bilər.
7. İnkişaf xarakteristikası: fasiləsiz təhsil – bu prosesdir. Bu prosesdə aparıcı tendensiya (meyl) tədrisin məzmunun formasının metodlarının fasiləsiz olaraq yeniləşməsi və təlim-tərbiyə prosesinin intensivləşdirilməsidir.

Fasiləsiz təhsil modelindən digər nümunə olaraq distant təhsil modelini göstərmək olar.

Distant təhsil (DT) – tədris-dərketmə fəaliyyətinə məqsədyönlü və metodiki cəhətdən mütəşəkkil rəhbərlik fəaliyyətini və təhsil müəssisəsindən uzaqda olan (buna görə də tədrs müəssisəsinin pedaqoji heyəti ilə daimi təmasda ola bilməyən) insanların inkişafını nəzərdə tutur.

Distant təhsil təhsilin məsafədən forması olub tədris materiallarının çatdırılmasını və pedaqoqla təhsil alanların təhsil prosesindəki qarşılıqlı təsirlərinin müasir texniki vasitələrin (televizor, internet) köməyilə təmin edir.

Distant təhsil praktiki olaraq iki müxtəlif uyğunlaşdırmada kombinələşdirilən formada həyata keçirilir:

- yazışmalar vasitəsilə. Bu formada pedaqoq tədris proqramının mənimsənilməsinə nəzarəti və düzəlişləri yazışmalar vasitəsilə həyata keçirir;
- kütləvi kommunikasiya alətləri vasitəsilə (mühazirə, təlimat, telefonla fərdi məsləhət və s.);

Distant texnologiyadan həm formal və həm də qeyri-formal təhsildə istifadə edilir.

Azərbaycanda təhsilin modernləşdirilməsi konsepsiyasında göstərilir ki, müasir dövrdə ailənin var-dövlətindən, yaşayış yerindən, milli mənsubiyyətindən və sağlamlıq durumundan asılı olmayaraq gənc insanların maraq və meyllərinə uyğun olaraq tam keyfiyyətli təhsil almalarına hər yerdə bərabər şərait yaradılmalıdır.

«Distant təhsil» amerikan mənşəli söz olub və ilk dəfə ABŞ-nın Viskonsin ştatında yerləşən Universitetdə işlədilmişdir (Q.Rumble). Praktiki olaraq XX əsrə qədər bu termin «qiyabi təhsilin», «korrespondent təhsilin», «evdə təhsilin», «müstəqil təhsilin» sinonimi kimi işlədilmişdir. Hazırda təhsilə kommunikasiya texnologiyalarının tətbiqi ilə əlaqədar olaraq bu termin bir qədər başqa məna kəsb etməyə başlamışdır.

Beynəlxalq standart təsnifata görə təhsilə distant təhsil adı onun təqdim edildiyi formaya görə verilir. Bu anlayışı müəyyən edərkən onun mahiyyətinə iki əsas yanaşmanı rəhbər tutmaq lazımdır:

- distant təhsilə korrespondent (qiyabi) yanaşma;
- telekommunikasiya texnologiyaları əsasında distant təhsil.

Müasir təhsil yalnız təhsil alanda müəyyən biliklər sisteminin formalaşmasını təmin etməməli, həm də onların daima və kifayət

qədər sürətlə yeniləşməsi nəticəsində hər bir təhsil alanda bu biliklərə müntəzəm və müstəqil yiyələnmək tələbatının inkişaf etdirilməsini də təmin etməlidir, başqa sözlə özünü təhsil fəaliyyətinə kömək etməlidir. Təhsil sisteminin modernləşdirilməsinin perspektiv istiqaməti informasiya və telekommunikasiya texnologiyalarından istifadə əsasında distant təhsilin tətbiqidir. Adı çəkilən təhsil növü aşağıdakıları nəzərdə tutur:

- əhalinin təhsilə olan tələbatının ödənilməsini;
- əhalinin sosial və professional mobilliyinin yüksəldilməsini;
- cəmiyyətin və dövlətin müxtəlif təhsil səviyyəli yüksək keyfiyyətli mütəxəssislər hazırlanmasına olan tələbatının ödənilməsini;
- ölkə əhalisinin savadlılıq səviyyəsinin yüksəldilməsini;
- vahid təhsil məkanın təmin edilməsini;
- təhsil alanların fərdi xüsusiyyətlərinin və onların təhsilə olan tələbatlarının uçota alınmasının real mümkünlüyünü (D.B.Çeçnilevskiy).

Distant təhsil konsepsiyasının əsasında individuallaşdırma prinsiplərinin və təhsilin humanist yönümlülüyünü reallaşdıran hər bir təhsil alanın bütün təhsil məkanına istiqamətlənməsi durur.

Bu halda distant təhsilə dünya pedaqoji təcrübəsindəki əsasən hazır biliklərin mənimsənilməsi və onların təkrarlanmasına əsaslanan ənənəvi təhsilin alternativi kimi baxılır. Ənənəvi təhsildən fərqli olaraq distant təhsil hər bir şagird və tələbənin müstəqil olaraq fəal (fəal) idrak (dərk etmə) fəaliyyətini nəzərdə tutur (Q.Qrimes, Q.Rumble, E.S.Polat).

Distant təhsil şəraitində tədris prosesi aşağıdakı özəllikləri ilə xarakterizə olunur: müstəqil işə üstünlük verilməsi; müəllim və tələbələr arasında müntəzəm təmasların olmaması; müxtəlif tədris vasitələrinin (test, audio və bidiomaterial, kompüter proqramları) mövcud olması; təqdim edilən tədris materiallarının seqmentləşdirilmiş təqdimi (gəncləşdirilməsi); öyrənilən seqmentin daha əhəmiyyətli və mürəkkəb sualları əsasında müəllimlə tələbələr arasında qarşılıqlı təsirlərin (hərəkətlərin) həyata keçirilməsi.

Aşağıdakı cədvəldə təhsil prosesi subyektlərinin fəaliyyət növləri öz əksini tapmışdır (cədvəl 1).

Distant təhsil şəraitində hər şeydən əvvəl tələbənin professional hazırlığının fərdi marşrutunun qurulması əsasında onun şəxsi xarakterli vacib əhəmiyyət kəsb edən tələbatının ödənilməsi həyata keçirilir.

***Cədvəl 1.*** *Distant təhsil şəraitində təhsil prosesi subyektlərinin fəaliyyət növləri*

| Tyütor | Tələbə |
|---|---|
| Tələbənin müvəffəqiyyətli özünü təhsili üçün psixolo-pedaqoji şərait yaradılması<br>Hər bir tələbə üçün professional hazırlığın fərdi trayektoriyasının işlənib hazırlanması<br>Fərdi və frontal məsləhətlərin keçirilməsi<br>Tələbənin bilik və bacarığına nəzarətin fərdi formasının həyata keçirilməsi<br>Tələbənin bilik və bacarığının korreksiyasının keçirilməsi<br>tələbənin professional ixtisasının və professional ustalığının yüksəldilməsi<br>Təbiət elmlərini, texniki və psixofizioloji fənləri tədris edən müəllimlərin kompleksliyinin təmin edilməsi | Peşəyə yiyələnməkdə özünü motivasiya və özünü təşkilə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi<br>Tyütorla fərdi qarşılıqlı təsir texnologiyasının reallaşdırılması<br>Təhsil almanın fərdi traektoriyasının həyata keçirilməsi<br>Təhsil vermə subyektləri sferasının genişləndirilməsi<br>İnformasiya-öyrədici mühitdən istifadə<br>Özünün xüsusi tədris-dərk etmə fəaliyyətinin özüdiaqnostikası<br>Elmi-tədqiqat, pedaqoji-layihələndirici, istehsal-texnoloji, təşkilati-metodiki və idarəçilik fəaliyyətinin kompleks şəkildə mənimsənilməsi |

Distant təhsil modelləri:
- eksterant tipi üzrə təhsil (tədris);
- bir universitet tipi üzrə tədris;
- bir neçə tədris müəssisəsinin əməkdaşlığı;
- avtonom təhsil müəssisəsi və təhsil alan (öyrənən) sistemlər.

Multimedianın köməyilə distant təhsil üçün sistem yaradılır. Bu da təhsilin effektivliyini 2 dəfədən 5 dəfəyə qədər yüksəltməyə, yadda saxlama qabiliyyətini isə 35%-dən /85%-ə qədər artırmağa imkan verir.

Distant təhsilin effektivliyinin yüksəldilməsi yollarından biri də üç ölçülü qrafiklər paketinin, həcm həqiqətə uyğun həcm təsvirini formalaşdıran tətbiqi proqramların xüsusi indikatorlarının köməyi ilə alınan üç ölçülü vizuallaşma səhnəsinin yaradılmasıdır.

Virtual reallıq yaratmaq üçün trenajor nümunəsində məkan yaradan həcm indikatoru ilə proqram-aparatlı təhsil verən komplekslərdən istifadə edilir. Belə virtual reallıq öyrənilən predmetin və ya anlayışın nəqliyyat vasitəsilə yerini dəyişməsi imitasiyasını yaradır. Bu zaman bir neçə proqram-aparat kompleksi yalnız ətraf məkanın (sahənin) vizual modelini deyil, həm də bütün obyektlərin məkandakı yerdəyişməsini əks etdirən cihazların göstəricilərini formalaşdırır. Trenajordakı bu virtual reallıq yalançı (saxta) həcm indikatorları ilə birlikdə insan şüurunun bir hissəsi olur. Virtual mühitdə həyata keçirilən bir neçə belə məşqdən sonra, məsələn təhsil alanda nəqliyyat vasitəsini təhlükəsiz idarə etmək üçün müxtəlif mexanizm və cihazlardan istifadə etmək sahəsində müvafiq vərdiş və bacarıqlar formalaşır. Eyni zamanda konkret şəxsin professional keyfiyyətləri də dəyişir.

Beləliklə, distant təhsil müxtəlif təhsil müəssisələrindəki ənənəvi tədris-tərbiyə prosesini tamamlayır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2009.
2. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Təhsil siyasəti. Sənədlər toplusu. Bakı, 2018.
3. Təhsil haqqında Azərbaycan Respublikası Qanunu. Bakı, 2009.
4. Mehdizadə M.M., Allahverdiyev T.Ə., Əliyev Q.H. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. Bakı: Maarif, 1980.
5. Архангельский С.Н. – Лекции по научной организации учебного процесса в высшей школе. М.: Высшая школа, 1976, 200 с.
6. Вифлеемский А. От народного образования к платному обучению. М. 2008
7. Гершунский Б.С. – Философия образования для XXI века: Учебное пособие для самообразования. М., 2012, 512 с.
8. Дистервег А. – Руководство к образованию немецких учителей (избранные педагогические сочинения).М.: Учпедгиз, 1956.
9. Джуринский А.Н. Развитие образования в современном мире. Учебное пособие. М.: Владос, 1999
10. Коваленко А.И. Образовательное антрепренерство. М. 2004
11. Петров Ю. Модель непрерывного профессионального образования. Н.Новгород. 1994
12. Энциклопедия профессионального образования: в 3 ч. (под ред. С.Я.Батышева). М.1999


***Açar sözlər:*** *təhsil, fasiləsiz təhsil, çoxsəviyyəli təhsil, təhsilin adaptivliyi, açıq təhsil, distant təhsil.*

**Mammad Mammadov**
*Associate Professor of the Public Administration and Management Department of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in Economics*

# DEVELOPMENT TRENDS OF CONTINUOUS AND MULTILEVEL VOCATIONAL EDUCATION IN N AZERBAIJAN

## SUMMARY

Education has always played a multifaceted role in the development of society. Education is the basis of the comprehensive development of the economic, social, scientific and cultural sphere.

Therefore, in order to train qualified personnel in accordance with the demands of the country and trends in the international labor market, the establishment of a continuous and multilevel professional education system is currently required in Azerbaijan. Experts believe that the concept of continuity of education involves three objects: the identity, the educational process, and the formation of an educational institution.

From our point of view, this kind of approach allows uninterrupted and multilevel education to be viewed as an integral component of successful socialization of people. Therefore, the outcome of the education process is considered as priority and the outcome of education is considered beyond the scope of its acquisition.

So, the distinctive peculiarities of the concept of "education system" can be seen in the generally accepted interpretation. This includes not only all educational institutions and educational programs, but also inter-personal communication especially in the professional activities.

***Key words:*** *Education, Continuous Education, Multilevel Education, Educational Adaptability, Open Education, Distance Learning*

**Мамед Мамедов**
*Доцент кафедры Государственное управление и менеджмент*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по экономике*

## НАПРАВЛЕНИЯ РАЗВИТИЯ НЕПРЕРЫВНОГО И МНОГОУРОВНЕГО ПРОФЕССИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

Во все времена образование играло многоплановую роль в развитии общества. Образование является основой всестороннего развития экономики, науки и культуры в социальной сфере.

Поэтому в Азербайджане в настоящее время требуется создание системы непрерывного и многоуровневого профессионального образования для подготовки квалифицированных кадров в соответствии с потребностями страны и тенденциями на международном рынке труда.

Эксперты считают, что концепция непрерывности образования включает в себя три объекта: личность, образовательный процесс и формирование учебного заведения. На наш взгляд, такой подход позволяет рассматривать непрерывное и многоуровневое образование как неотъемлемый компонент успешной социализации людей. Таким образом, результат образовательного процесса рассматривается как приоритетный, а результат образования рассматривается за пределами его приобретения. Отсюда можно увидеть отличительные черты обобщенной интерпретации понятия «система образования». Это включает в себя не только все учебные заведения и образовательные программы, но и межличностное общение, особенно в профессиональной деятельности.

***Ключевые слова:*** *образование, непрерывное образование, многоуровневое образование, адаптивности образования, открытого образования, дистанционное обучение*

## KONFLİKTOLOGİYA
## CONFLICTOLOGY

UOT 327.56

**ELŞAD MİRBƏŞİR OĞLU**
**AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun Beynəlxalq münasibətlər və insan hüquqları şöbəsinin müdiri, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*email: e.m@bk.ru*

# SİYASİ MÜNAQİŞƏLƏRİN SONA ÇATMA FORMALARI

Tarixən münaqişələrin aradan qaldırılmasının olduqca rəngarəng formaları müşahidə edilmişdir. Lakin münaqişələrin sona çatdırılması formalarının təhlilinə keçməzdən öncə problemlə bağlı bir sıra anlayışların izahını vermək vacibdir. Belə ki, münaqişənin "sona çatması", "həlli", "tənzimlənməsi", və s. kimi anlayışlar fərqli mahiyyət kəsb edirlər. Ümumilikdə "münaqişənin sona çatması" dedikdə münaqişə vəziyyətinin istənilən səbəblər üzündən aradan qalxması nəzərdə tutulur. "Münaqişənin həlli" anlayışı, münaqişə subyektlərinin birgə səyləri nəticəsində ziddiyyətlərə son qoyulmasını və həmin ziddiyyətlərin əsasında duran problemlərin aradan qaldırılmasını ifadə edir. Münaqişənin həlli üçün hər iki münaqişə subyektinin fəallığı tələb olunur. Onlar qarşılıqlı fəaliyyət göstərərək danışıqlar prosesi nəticəsində münaqişəni yaradan ziddiyyətləri aradan qaldırmaqla onun həllinə nail olurlar. Bundan başqa münaqişənin həlli subyektlərin mövqeyində ciddi dəyişikliklərin baş verməsini tələb edir. Amerikalı konfliktoloq M. Doyçun fikrincə, münaqişənin həllinin başlıca kriteriyası tərəflərin hər ikisinin maraqlarının təmin olunmasından və ya onların hər ikisinin münaqişənin başa çatması şərtlərindən razı qalmalarından ibarətdir. "Münaqişənin tənzimlənməsi" dedikdə isə ziddiyyətlərin üçüncü tərəfin iştirakı ilə aradan qaldırılması cəhdləri başa düşülür. Münaqişənin tənzimlənməsi zamanı tərəflərdən birinin və ya vasitəçinin maraqlarına cavab verən qərarın qəbul edilməsi ehtimalı böyük olur. Bu da postkonflikt münasibətlərinin dayanıqlıqsızlığına səbəb olur. Münaqişənin tənzimlənməsi onun ancaq müəyyən əlamətlərinin aradan qaldırılmasına xidmət edə bilər (12, s.23-25). Tənzimlənmə həm də müəyyən kompromis qərarların qəbul edilməsini şərtləndirir. Münaqişənin tənzimlənməsi tərəflərə, tam deyil müəyyən səviyyədə maraqlarını təmin etməyə və ilkin məqsədlərinə çatmağa imkan verir. Qeyd etdiklərimizdən başqa bəzi hallarda "münaqişənin səngiməsi", "dəf olunması", "başqa münaqişəyə keçməsi" ifadələrinə də rast gəlmək olur. Münaqişənin səngiməsindən o vaxt danışmaq olar ki, münaqişənin əsas əlamətləri qaldığı halda tərəflər arasındakı qarşıdurma müvəqqəti səngimiş olsun. Münaqişənin dəf edilməsi müxtəlif təzyiq vasitələrinin köməyi ilə münaqişənin əsas struktur elementlərinin aradan qaldırılması deməkdir. Münaqişənin dəf edilməsi adətən qeyri-konstruktiv xarakter daşıyır. Yəni, münaqişəni yaradan ziddiyyətlərin əsaslı aradan qaldırılması deyil, sadəcə, əksər hallarda zorakı vasitələr onun əlamətlərinin dəf edilməsi baş verir. Nəzərə alsaq ki, baş verəcək qarşıdurmalar maddi, mənəvi, ən başlıcası isə insan itkiləri ilə müşayiət olunacaq, onda münaqişənin tez bir zamanda dəf edilməsinin həm də konstruktiv tərəfini qeyd etmək olar. Mövcud davam edən münaqişə başqa bir münaqişəyə çevrildiyi halda da sona çatmış hesab olunur. Bu, o zaman baş verir ki, tərəflər arasında əvvəlkindən daha kəskin, tam fərqli ziddiyyətlər baş qaldırır. Yəni, münaqişə obyektinin dəyişməsi baş verir. Belə halda əvvəlki ziddiyyətlər əhəmiyyətini itirmiş olur

və diqqət yeni ziddiyyətlərin aradan qaldırılması istiqamətinə yönəldilir. Yuxarıda nəzərdən keçirdiyimiz anlayışlar arasında sərhədlərin müəyyən edilməsi bəzən nisbi xarakter daşısa da, mövcud münaqişə vəziyyətinin düzgün qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Siyasi münaqişələrin hansı yolla başa çatması konkret münaqişənin xarakterindən asılı olur. Münaqişələr müxtəlif sosial-siyasi qrupların ziddiyyətli maraqlarından, rəqabətindən və mübarizəsindən irəli gəldiyi üçün hər bir münaqişənin həllinə yanaşma metodları da fərqli xarakterə malik olurlar. Bundan başqa, münaqişənin başa çatma forması onun, inkişafının hansı mərhələsində olması ilə birbaşa bağlı olur. Məsələn, görkəmli tədqiqatçı K.Mitçelin fikrincə, münaqişənin həll edilməklə başa çatma forması adətən onun inkişafının latent mərhələsində mümkün olur. Bu onunla izah edilir ki, latent mərhələdə münaqişənin əsasında duran ziddiyyətlər nisbətən yumşaq xarakterli olurlar. Bu zaman subyektlərin münaqişəli davranışlarının bütün elementlərinə təsir etmək imkanları böyük olur. Münaqişənin başa çatmasının tənzimlənmə forması isə tərəflərin, artıq açıq qarşıdurma vəziyyətində əhəmiyyətli olur. Belə olan halda K.Mitçelin yanaşmasına əsaslanaraq, demək olar ki, münaqişənin dəf olunması da onun inkişafının latent mərhələsində mümkün ola bilər. K.Mitçelin fikrincə, siyasi münaqişə aşağıdakı hallarda həll edilmiş hesab oluna bilər (12, s.62):

- münaqişələri törədən səbəblər siyasi həyatın gündəliyindən tamamilə çıxdıqda;
- münaqişənin başa çatması ilə bağlı qəbul edilən qərarlar münaqişənin bütün iştirakçıları tərəfindən qəbul edildikdə;
- əldə olunmuş razılaşmanın nəticələrinə üçüncü bir tərəfin nəzarət etməsinə ehtiyac qalmadıqda;
- əldə olunmuş razılaşma münaqişənin bütün iştirakçıları tərəfindən düzgün və ədalətli hesab edildikdə;
- əldə olunmuş razılaşma yalnız kompromisdən ibarət olmadıqda. Çünki belə halda tərəflərin maraqlarının yalnız bir qismi təmin olunur;
- əldə olunmuş razılaşma münaqişə iştirakçıları arasında pozitiv münasibətlərin yaranmasını və əməkdaşlığın bərpa olunmasını şərtləndirdikdə;
- münaqişə iştirakçıları əldə olunmuş razılaşmanı xarici təzyiq olmadan, könüllü qəbul etdikdə.

Bir çox tədqiqatçıların fikrincə, ümumiyyətlə, "münaqişənin həlli" terminini işlətmək düzgün deyildir. Belə tədqiqatçılardan məşhur alman sosioloqu R. Darendorfu xüsusi qeyd etmək olar. Darendorf hesab edir ki, "münaqişənin həlli" termini və onun vacibliyi haqqında fikirlər çaşqınlıq və yanlış təsəvvürlər yaradır. Onun fikrincə, münaqişənin tam həll olunması və ya "münaqişəsiz cəmiyyət" qeyri-realdır. Bunlar sadəcə olaraq, münaqişənin dəf olunmasını ifadə edirlər (2, s.145).

Konfiktologiya sahəsinin məşhur tədqiqatçılarından olan professor A.Şipilov sxem əsasında ümumilikdə münaqişələrin sona çatma formalarının universal təhlilini vermişdir (1, s.224).

Siyasi münaqişənin qeyd etdiyimiz başa çatması formaları ən ümumi şəkildə onun subyektlərinin iki növ fəaliyyətləri nəticəsində müşahidə olunur. Belə ki, münaqişə, subyektlərin birtərəfli və birgə fəaliyyətləri ilə başa çata bilər. Bu fəaliyyət növləri isə öz növbəsində münaqişənin aradan qaldırılması istiqamətində müşahidə olunan bir sıra davranışları birləşdirirlər.

İlkin olaraq, siyasi münaqişənin başa çatması onun subyektlərin birtərəfli fəaliyyətləri ilə mümkün ola bilər. Münaqişənin başa çatmasını şərtləndirən birtərəfli fəaliyyət üçün səciyyəvi xüsusiyyət ondan ibarətdir ki, subyektlər belə fəaliyyət zamanı bir-birilərindən asılı olmayaraq tam sərbəstlik nümayiş etdirirlər. Siyasi münaqişənin başa çatmasını şərtləndirə biləcək birtərəfli fəaliyyətin birinci istiqaməti təbii olaraq, demək olar ki, bütün münaqişə vəziyyətləri üçün səciyyəvi ola bilər. Belə ki, münaqişə tərəflərdən birinin tam qələbə çalması ilə başa çata bilər. Münaqişə

vəziyyəti açıq toqquşma həddinə eskalasiya etdikdən sonra tərəflərin başlıca məqsədləri rəqibi məğlubiyyətə uğradaraq, öz maraqlarının tam təmin edilməsinə nail olmaqdan ibarət olur.

Münaqişə sahəsinin tədqiqatçılarından olan, hərbi-nəzəriyyəçi Karl fon Klauzevits bunu obrazlı olaraq belə ifadə etmişdir: "düşmən bizim iradəmizə tabe olmadıqda, biz onu olduğundan da pis vəziyyətə salmalıyıq" (6, s.140). Münaqişə zamanı tərəflərdən birinin və ya hər ikisinin bu cür fəaliyyət strategiyası seçməsi ziddiyyətləri daha da dərinləşdirir. Əksər hallarda münaqişə silahlı toqquşma vəziyyətinə eskalasiya edir. Münaqişə subyektlərinin öz qələbələrinin tam təmin olunması istiqamətində birtərəfli fəaliyyətləri tərəflərin birinin qalib gəlməsini şərtləndirməklə yanaşı, həm də hər iki tərəfin potensialını tam və ya qismən tükəndirə bilər. Münaqişənin bu prinsiplər üzrə başa çatması bir qayda olaraq fəal zorakılıqlarla və subyektlərin iqtisadi tənəzzülü ilə müşayiət olunur. Bundan başqa, münaqişənin tərəflərdən birinin tam qələbəsi ilə başa çatması olduqca təhlükəli xarakter daşıyır. Belə ki, bu zaman münaqişənin əsasında duran ziddiyyətlər aradan qaldırılmır və öz aktuallığını saxlamaqda davam edir. Aradan qaldırılmayan ziddiyyətlər isə postmünaqişə vəziyyətindən sonra daha kəskin şəkildə aktuallıq kəsb etməyə başlayır. Yəni, münaqişə subyektlərindən birinin tam qələbəsi qarşı tərəfin maraqlarının və məqsədlərinin tam nəzərə alınmaması hesabına mümkün olur. Bu cür şərtlər daxilində təmin edilmiş sülh və uyğun olaraq münaqişəsiz vəziyyət uzunömürlü ola bilməz. Münaqişənin bu yolla aradan qaldırılmasının təhlükəli xarakteri haqqında ABŞ-ın keçmiş dövlət katibi, siyasi elm sahəsinin tədqiqatçılarından olan H.Kissincer münasibət bildirərək qeyd edirdi ki, əgər tərəflərdən biri problemin aradan qaldırılması şərtlərindən tam razıdırsa, deməli, qarşı tərəf tam narazı olacaq (5, s.36).

Siyasi münaqişə subyektlərinin, onun başa çatmasını şərtləndirən birtərəfli fəaliyyət növlərindən biri də tərəflərdən birinin heç bir müqavimət göstərmədən rəqib qarşısında məğlubiyyətini etiraf etməsidir, yəni, kapitulyasiyasıdır. Bu, adətən o halda baş verir ki, tərəflər arasındakı qüvvələr nisbəti qeyri-bərabər olur və zəif tərəf daha da acınacaqlı nəticədən can qurtarmaq üçün öz məğlubiyyətini elan edir. Tarixdən münaqişə subyektlərindən birinin düşmənin güclü hərbi qüvvələri qarşında döyüşsüz təslim olduğu çoxsaylı münaqişələr məlumdur. Münaqişənin bu cür başa çatması məntiqi olaraq, kapitulyasiya etmiş tərəfin maraq və məqsədlərinin reallaşmaması bahasına mümkündür. Bu, o deməkdir ki, münaqişəni törədən əsas ziddiyyətlər və uyğun olaraq münaqişənin daha kəskin formada baş verə bilmək ehtimalı qalmaqda davam edir.

Konfliktologiya sahəsinə aid elmi ədəbiyyatlarda subyektlərin münaqişə vəziyyətinə loyal münasibət nümayiş etdirmələri də birtərəfli fəaliyyətin bir istiqaməti kimi nəzərdən keçirilir (9, s.36). Yəni, bu cür fəaliyyətin mahiyyəti ondan ibarətdir ki, cəmiyyətdə meydana çıxan ziddiyyətlərin aradan qaldırılması istiqamətində heç bir tədbir həyata keçirilmir. Bu vəziyyət konfliktogiya elmində münaqişədən qaçma kimi də təqdim edilir. Münaqişə vəziyyətinə loyal münasibətdən əksər hallarda onların cəmiyyətdə mövcudluğunun inkar edilməsindən irəli gəlir. Yəni, cəmiyyətdə baş vermiş hər hansı bir ziddiyyət qəbul edilmir və ona kifayət qədər diqqət yetirilmir. Münaqişələrə bu cür yanaşma da təhlükəlidir. ABŞ-ın keçmiş dövlət katibi H.Kissincer bu məsələni də şərh edərək demişdir: "problemin həllindən qaçmaq böhran yaradır, idarəolunmaz böhran isə cəmiyyətdə kataklizmlərə gətirib çıxarır" (5, s.43). Həqiqətən də, H. Kissincerin dediklərini yaxın keçmişdə baş verən hadisələr tam isbat etmişdir. Belə ki, keçmiş SSRİ-də meydana çıxan milli, iqtisadi, sosial ziddiyyətlər hakimiyyət tərəfindən ciddi qəbul olunmadığı və etiraf edilmədiyi üçün sonralar bütün ölkə ərazisini kəskin münaqişələr bürümüşdür. Deməli, ziddiyyətlər və problemlər öz həllini vaxtında tapmadıqda, onlar illərlə yığılıb qalaraq, sonradan "barıt çəlləyi" effekti yaradır.

Başqa sözlə desək, münaqişənin bu formada başa çatması, onun əsasındakı ziddiyyətlərin qalması bahasına mümkün olur. Buna baxmayaraq bir çox tədqiqatçılar, münaqişənin bu yolla başa çatmasının müsbət tərəflərini də qeyd edirlər. Məsələn, münaqişədən qaçma daha qısa bir zaman kəsiyində mümkün olur. Münaqişədən qaçma həm də əlavə resursların cəlb edilməsinə olan ehtiyacı aradan qaldırır. Münaqişədən qaçma onun inkişaf sürətinin əhəmiyyətli dərəcədə zəifləməsini də şərtləndirə bilər.

Münaqişə subyektlərinin ən geniş yayılmış birtərəfli addımlarından biri də onların hüquqi instansiyalara müraciət etmələridir. Burada qeyd etmək vacibdir ki, yalnız Beynəlxalq Məhkəmə birtərəfli müraciətlərə baxmır. BMT əsas orqanlarından biri olan Beynəlxalq Məhkəmə ancaq hər iki münaqişə tərəfin müraciəti əsasında məsələ ilə bağlı qərar qəbul edir. Lakin müşahidələr və bir sıra mühüm məqamlar belə bir fikir irəli sürməyə əsas verir ki, hüquqi instansiya heç də həmişə münaqişənin tənzimlənməsi üçün səmərəli olmur. Bu hal həm daxili, həm də xarici münaqişələrin tənzimlənməsi zamanı özünü büruzə verir. Bunu bir sıra səbəblərlə izah etmək olar:

- əksər münaqişələr, onların əsasında duran ziddiyyətlərin mövcud hüquqi norma və qaydalardan irəli gəlməsi nəticəsində yaranır. Yəni, bəzən qüvvədə olan hüquqi normalar və qaydaların özləri münaqişənin yaranmasını şərtləndirir;
- münaqişənin əsasında duran ziddiyyətli məsələlərin məhkəmə yolu ilə həll edildiyi zaman tərəflərdən birinin maraqları tam təmin olunduğu halda, digərininki nəzərə alınmaya bilər;
- mübahisəli məsələyə aydınlıq gətirmək üçün məhkəmənin qəbul etdiyi qərar bütün münaqişə subyektləri üçün məcburi qüvvəyə malik olur. Münaqişə subyektləri çıxarılmış qərarla razı olmasalar belə, ona əməl etməyə borcludurlar. Belə şərtlər daxilində də ziddiyyətlərin tam aradan qalxmasından danışmaq olmaz;
- məhkəmə ən yaxşı halda mübahisəli məsələnin həll edilməsi istiqamətində qərar qəbul edə bilər. O, münaqişə subyektləri arasındakı münasibətlərin xarakterini dəyişmək iqtidarında deyildir. Yəni, məhkəmə məsələnin həlli ilə bağlı qərar çıxarsa belə, tərəflər arasında münaqişəli münasibətlər qalmaqda davam edir. Bu isə o deməkdir ki, münaqişənin yenidən baş vermə ehtimalı qalmaqda davam edir.

Beynəlxalq müstəvidə mövcud olan münaqişənin məhkəmə yolu ilə tənzimlənməsinin kifayət qədər səmərəli olmamasını və ya tamamilə səmərəsiz olmasını şərtləndirən əlavə səbəbləri də qeyd etmək olar:

- beynəlxalq münasibətlər konkret bir dövlətin daxili münasibətlərinə nisbətən zəif mərkəzləşdirilmiş olur. Ölkə daxilində məhkəmə qərarının icrası məcburi xarakter daşıyır və çıxarılmış qərara əməl olunmadıqda tərəflərə münasibətdə konkret cəza tədbirləri həyata keçirilə bilər. Bundan fərqli olaraq, Beynəlxalq Məhkəmənin çıxardığı qərarın yerinə yetirilməməsinə görə cəzanın tətbiq edilməsi olduqca çətindir;
- Beynəlxalq Məhkəmə münaqişələrə birbaşa müdaxilə edərək, onu həll etmək hüququna malik deyildir. Yalnız münaqişə edən tərəflərin hər ikisi müraciət etdikdə Beynəlxalq Məhkəmə münaqişələrin tənzimlənməsi prosesində iştirak edə bilər.

Həqiqətən də tarixə nəzər salsaq görərik ki, 1945-ci ildə yaradılmış Beynəlxalq Məhkəmə, beynəlxalq münasibətlər sistemində meydana çıxan bütün ziddiyyətləri aradan qaldırmaq gücündə deyildir. Yarandığı gündən yalnız məhdud sayda münaqişələrin tənzimlənməsində Beynəlxalq Məhkəmənin əhəmiyyətli rolu olmuşdur. Bu məsələyə aydınlıq gətirən Kalevi Xolsti qeyd edir ki, 1945-1990-cı illərdə yalnız bir neçə irimiqyaslı münaqişə Beynəlxalq Məhkəmə vasitəsi ilə həll edilmişdir (11, s.109-110). Amerikalı tədqiqatçı M.Amstuts beynəlxalq münasibətlər sistemindəki münaqişələrin həllində hüquqi instansiyanın imkanlarının məhdudluğunu sübut etmək üçün Böyük Britansiya ilə İslandiya arasında ziddiyyətlərin məhkəmə yolu ilə "tənzimlənməsi" faktını nümunə gətirir. Həqiqətən də, 1974-cü ilin iyul ayında baş

tutmuş məhkəmə maraqlı qərar qəbul etmişdir. Çünki məhkəmə qərarı daha çox təklifi xatırladırdı. Belə ki, məhkəmə, tərəflərin, aralarında baş vermiş ziddiyyətləri danışıqlar yolu ilə aradan qaldırmalı olduqları haqqında qərar çıxarmışdır.

Yuxarıdakıları qeyd etməklə, münaqişənin tənzimlənməsinin hüquqi yollarının əhəmiyyətini sıfıra bərabərləşdirmək məqsədi güdmürük. Burada sadəcə münaqişələrin tənzimlənməsində hüquqi instansiyaların imkanlarının nisbətən məhdud olması nəzərə çatdırılır. Münaqişənin tənzimlənməsinin siyasi və hüquqi vasitələrinin müqayisəsi, yaxud onların qarşı-qarşıya qoyulması nisbi xarakter daşıyır. Siyasi elm, xüsusilə də konfliktologiya sahəsinin görkəmli tədqiqatçılarından olan rus alimi M. Lebedeva bu məsələyə toxunaraq qeyd edir ki, münaqişənin siyasi tənzimlənməsi mütləq mövcud hüquqi normalara əsaslanmalıdır. Bundan başqa münaqişənin tənzimlənməsinin əsas vasitələrindən hesab edilən danışıqlar prosesi nəticəsində əldə edilən razılaşma hüquqi qüvvəyə malik olur. Əks təqdirdə razılaşmanın şərtlərinə əməl olunmaya da bilər (8, s.38).

Qeyd etdiyimiz kimi, siyasi münaqişə həm də onun subyektlərinin birgə fəaliyyəti nəticəsində başa çata bilər. Münaqişənin, subyektlərin birgə səyləri ilə tənzimlənməsi daha konstruktiv xarakter daşıyır və bir çox üstünlüklərə malikdir. Münaqişə subyektləri, aralarında yaranmış ziddiyyətlərin müzakirə edərək aradan qaldırmaq arzusunda olduqda və ya onun vacibliyini dərk etdikdə birgə fəaliyyət formasına üstünlük verirlər. Məhz birgə fəaliyyət nəticəsində münaqişənin siyasi vasitələrlə tənzimlənməsi mümkün olur. Münaqişənin siyasi tənzimlənməsi dedikdə isə birbaşa və ya mediatorun iştirakı ilə danışıqlar prosesinin həyata keçirilməsi nəzərdə tutulur. Danışıqlar prosesi tərəflərə ümumi məxrəcə gəlməyə imkan verərək, onlar arasında razılaşmanın əldə edilməsini şərtləndirə bilər (3, s.129).

Bəzən münaqişə subyektləri aralarındakı mübahisəli məsələnin həll edilməsi istiqamətində birgə fəaliyyətlə yanaşı, birtərəfli fəaliyyət növünə də əl atırlar. Yəni, bu fəaliyyət növlərini paralel olaraq reallaşdırmağa çalışırlar. Lakin münaqişənin tənzimlənməsi prosesində subyektlərin hər iki fəaliyyət növlərini eyni səviyyədə həyata keçirmək imkanları məhdud olur. Münaqişənin xarakterindən, gərginlik səviyyəsindən və mövcud şəraitdən asılı olaraq fəaliyyət növlərindən yalnız biri dominantlıq edir. Hansı fəaliyyət növünün dominantlıq etməsi qeyd etdiklərimiz amillərlə yanaşı, həm də mövcud adət-ənənədən, münaqişə iştirakçılarının ixtiyarında olan tənzimləmə mexanizmlərindən, bu sahədə qazanılmış təcrübədən və s. asılı olur. Münaqişələrin tənzimlənməsi prosesində əsas fəaliyyət növünün digəri ilə əvəz olunması da mümkündür. Bu cür dəyişikliklərin də özünəməxsus səbəbləri olur. Məsələn, beynəlxalq arenada belə bir hal münaqişə iştirakçıları olan dövlətlərdən birinin daxili-siyasi vəziyyətinin dəyişməsi nəticəsində müşahidə oluna bilər.

Biz, ümumi şəkildə münaqişənin başa çatmasını şərtləndirən fəaliyyət növlərini nəzərdən keçirdik. Təhlil etdiyimiz fəaliyyət növlərində münaqişə subyektləri konkret vasitələrdən istifadə edirlər. Siyasi münaqişənin həlli və ya tənzimlənməsi prosesində tətbiq edilən vasitələri iki qrupda birləşdirmək məqsədəuyğundur. Bu, dinc və zorakı vasitələrdir. Konfliktologiyaya dair elmi ədəbiyyatlara nəzər saldıqda görünür ki, münaqişənin aradan qaldırılmasının dinc və zorakı vasitələri adətən qarşı-qarşıya qoyulur. Bu tendensiya beynəlxalq münasibətlər sistemində özünü daha qabarıq büruzə verir. Lakin fikrimizcə dinc və zorakı vasitələrin kəskin şəkildə qarşı-qarşıya qoyulması reallıqla tam şəkildə uzlaşmır. Yəni, onların arasında sərt sərhədin olmasını söyləmək olmaz. Dinc və zorakı vasitələr adətən bir-birilərini tamamlayırlar. Danışıqlar prosesinin görkəmli tədqiqatçısı, kanadalı alim Q.Uinxemin fikirləri də bunu sübut edir. Belə ki, Q.Uinxemin fikrincə, danışıqlar əsasən qaliblərin “alətidir”. Onlar güc vasitəsi ilə əldə etdiklərini danışıqların köməyi ilə saxlamağa və ya möhkəmləndirməyə çalışırlar. Danışıqlar prosesinin ən böyük töhfəsi ondan ibarətdir ki, o, cəmiyyət-

də stabilliyi təmin edə bilir. Stabilliyi ən böyük təhlükə altında qoyanlar isə beynəlxalq vəziyyəti hərbi yolla dəyişməyə çalışanlardır (13, s.87). Bundan başqa Q.Uinhem digər bir əsərində də buna oxşar fikirləri qeyd etmişdir. O, yazırdı ki, danışıqlar prosesi münaqişə vəziyyətində olan və ya artıq münaqişədən əziyyət çəkmiş dövlətlər arasındakı münasibətlərin bərpa olunmasını şərtləndirir. Bu mənada danışıqlar, ziddiyyətlərin aradan qaldırılması prosesində zorakı vasitələrə münasibətdə köməkçi element funksiyasını yerinə yetirirlər (14, s.111).

Ümumiyyətlə, dinc və zorakı vasitələrin dialektik vəhdət təşkil etməsi haqqında fikirlər əksər tədqiqatçılar tərəfindən dəstəklənir. Belə tədqiqatçılardan biri də rusiyalı V.B.Lukovdur. O, bu məsələdə daha da irəli gedərək qeyd edir ki, danışıqlar tarix boyu silahlı münaqişələrin nəticələrini legitimləşdirmək və yaxud yeni müharibələrə hazırlaşmaq üçün bir alət kimi istifadə olunmuşdur. (10, s.117) Müəllif hesab edir ki, danışıqlar prosesi hərbi strategiyanın bir istiqamətidir və o tərəflərdən birinin hərbi üstünlüyünün rəqib tərəfindən qəbul edilməsi üçün istifadə edilir. Göründüyü kimi, V.B.Lukovun fikirləri müəyyən mənada Q.Uinxemin fikirləri ilə üst-üstə düşür.

Yuxarıda nəzərdən keçirdiyimiz fikirlərdən aydın olur ki, nə qədər konstruktiv olsalar da, münaqişələrin tənzimlənməsinin dinc vasitələri zorakı vasitələrə “tabe” olmaqla və ya onlara münasibətdə köməkçi element rolunu oynaqla ikincidərəcəli əhəmiyyət kəsb edirlər. Bu vəziyyət demək olar ki, tarixlər boyu müşahidə edilmişdir. Danışıqlara dair ilk əsərin (“Hökümdarlarla necə danışımaq olar”. 1716) müəllifi olan fransız diplomatı Fransua de Kalyer təsadüfi yazmırdı ki, danışıqların iştirakçısı hər şeydən öncə rəqibin silahlı qüvvələri haqqında dolğun informasiyaya malik olmalıdır. Çünki danışıqların nəticəsini məhz zorakı vasitələr müəyyən edirlər (4, s.403).

Göründüyü kimi, siyasi münaqişələrin aradan qaldırılması prosesində dinc və zorakı vasitələrin tətbiqi bir-birilərini tamamlayır. Bu mənada qeyd edilən vasitələrdən birinin “xalis” halda tətbiqi qeyri-realdır və onlar arasında sərhədin müəyyənləşdirilməsi nisbi xarakter daşıyır.

Lakin bütün bunlara baxmayaraq, əksər münaqişələrin təhlili göstərir ki, münaqişə subyektləri adətən dinc vasitələrin tətbiqinə üstünlük verirlər. Artıq qeyd etdiyimiz kimi, tarixən, ziddiyyətlərin aradan qaldırılmasının dinc vasitələri “güclülərə” xidmət etmişdir. Kifayət qədər güc potensialına malik olan münaqişə subyektləri də “problemin” əlavə resurs sərf etmədən, dinc vasitələrlə aradan qaldırılmasına çalışırlar. Burada “problem” dedikdə yalnız “güclünün” maraq və məqsədlərinin təmin edilməsi nəzərdə tutulur. Güclü tərəf, problemin dinc vasitələrin köməyi ilə “səmərəli” həllinə nail olmaq üçün rəqibə öz hərbi, siyasi, iqtisadi qüdrətini nümayiş etdirməyə çalışır. Qədim Çin traktı “Sun Tsızı”da qeyd edilir ki, “hərb sənətinin zirvəsində döyüşsüz qələbə durur” (7, s.80). Burada zorakı vasitələrdən imtina etməklə qələbə çalmaq nəzərdə tutulmur. Sadəcə, zorakı vasitə özünün ənənəvi formasında tətbiq edilmir. Düşmənə, öz gücünü nümayiş etdirməklə, arzuolunan qərarların qəbul etdirilməsinin özü də sözün əsl mənasında zorakı xarakter daşıyır. Bunu bir sıra məntiqi səbəblər şərtləndirir. Birinci səbəb kimi onu göstərmək olar ki, münaqişədə sırf zorakı vasitələrin tətbiqi subyektlərin tam və ya qismən məhvinə gətirib çıxara bilər. Zorakı vasitələr bütün hallarda münaqişə subyektlərinin məhvini şərtləndirməsə belə, onları irimiqyaslı insani, maddi və mənəvi itkilərə məruz qoymaq gücündədir. Belə bir real təhlükənin istənilən münaqişə zamanı mövcudluğu tərəfləri, tam və ya qismən zorakı vasitələrdən imtina etməyə vadar edir.

**Ədəbiyyat:**


1. Анцупов А.Я., Шипилов А. И. Конфликтология. М., Эксмо, 2011, 512 с.
2. Дарендорф Р. Элементы теории социального конфликта // Социологические исследования. 1994. №5, с.142-147
3. Искусство дипломатических переговоров // Международная жизнь, 1989, N 8, с. 129-139.
4. Кальер Ф. Каким образом договариваться с государями. М. «МИА». 2001, 403с.
5. Киссинджер Г. Дипломатия. - М.: Ладомир, 1997, 860с.
6. Клаузавиц К. О войне. М., 1934, 560с.
7. Конрад Н.И. Сунь-цзы. Трактат о военном искусстве. Перевод и исследование. М.-Л., 1950, 96с.
8. Лебедева М.М. Развитие неофициального посредничества в современном мире: тенденции, проблемы, перспективы // Вестник Московского университета. Серия 18. Социология и политология. 1998, № 3, с.28-35.
9. Лебедева М.М. Политическое урегулирование конфликтов: подходы, технологии, решении, - М.: Аспект-Пресс, 1999, 271с.
10. Луков В.Б. Современные дипломатические переговоры: проблемы развития // Дипломатический вестник. Год 1987 / Под ред. О.Г.Пересыпкина. - М.: Международные отношения, 1988, с. 117-127
11. Holsti K.J. The State, War, and the State of War, Cambridge 1996, 111 P.
12. Mitchell Ch.R.. The Structure of International Conflict. - N.Y.: St. Martin's Press, 1981, 216 P.
13. William I. Zartman. Negotiation and Conflict Management: Essays on Theory and Practice Routledge, 2008, 299 P.
14. Winham G. Practitioners' Views of International Negotiations//World Politics. 1979, V. 32, No 1, P. 111-135


***Açar sözlər:*** *siyasi münaqişə, tənzimləmə, ziddiyyət, üçüncü tərəf, maraqlar, həll*

**Elshad Mirbashir oglu**
*Head of Department of International Relations and Human Rights of the Institute of Law and Human Rights of ANAS,*
*Associate Professor of ASU under the President of the Republic of Azerbaijan,*
*PhD in Political Science*

## FORMS OF COMPLETION OF POLITICAL CONFLICTS

### SUMMARY

The scientific article analyzes possible options for the completion of political conflicts. It is noted that the forms of completion of political conflicts are diverse. First of all, the essence of such concepts as “completion”, “solution” and “settlement” of conflicts is explained. It is argued that, in general, the completion of conflicts means that the conflict completely disappears due to a number of reasons.

Conflict resolution involves the disappearance of almost all elements of conflict. This is not a very acceptable option. Because the disappearance of all elements also means the physical elimination of one of the subjects of the conflict. The article proves that the best option is conflict resolution. With this form of completion of the conflict, the parties stop fighting against each other.

The article also comprehensively discusses various approaches to the forms of completion of political conflicts. It is noted that many researchers encourage the option of conflict resolution. The option of "management of political conflicts" is also considered. Managing political conflicts provides an opportunity to control the stages of political conflicts. All these and other aspects are comprehensively considered in the presented scientific article.

***Key words:*** *Political Conflict, Settlement, Contradiction, Third Party, Interests, Solution*

**Эльшад Мирбашир оглу**
*Заведующий отделом Международные отношения и права человека Института Права и Прав Человека Национальной Академии Наук Азербайджана, доцент Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам*

## ФОРМЫ ЗАВЕРШЕНИЯ ПОЛИТИЧЕСКИХ КОНФЛИКТОВ

### РЕЗЮМЕ

В данной научной статье анализируются возможные варианты завершения политических конфликтов. Отмечается, что формы завершения политических конфликтов разнообразны. Прежде всего, объясняется суть таких понятий как «завершение», «решение» и «урегулирование» конфликтов. Обосновывается, что в целом завершение конфликтов означает, что конфликт полностью исчезает из-за ряда причин. В статье обосновывается, что самым оптимальным вариантом является урегулирование конфликтов. При такой форме завершения конфликта стороны конфликта перестают бороться друг против друга. В статье также всесторонне рассматриваются различные подходы к формам завершения политических конфликтов. Отмечается, что многие исследователи поощряют именно вариант урегулирования конфликтов. Также рассматривается вариант «управление политическими конфликтами». Управление политическими конфликтами дает возможность контролировать этапы их развития. Все эти и другие моменты всесторонне рассмотрены в представленной научной статье.

***Ключевые слова:*** *политический конфликт, урегулирование, противоречие, третья сторона, интересы, решение*

# TARİXİ COĞRAFİYA
# HISTORICAL GEOGRAPHY

UOT 913.1

**МАЛАХАТ ФАРАДЖЕВА**
**Директор Государственного Историко-Этнографического заповедника Гала, доктор философии по истории**
*e-mail: malahat@mail.ru*

## ГАЯ АРАСЫ - САМАЯ ДРЕВНЯЯ ИЗ ИЗВЕСТНЫХ СТОЯНОК ГОБУСТАНА

### Введение

Археологический район Гобустан исчисляется тысячами наскальных изображений, десятками стоянок, поселений, погребальных памятников разных исторических периодов. Среди них особое место занимают пещеры Аназага, Кяниза, Овчулар, Окюзлер, Гая арасы, Фируз, Дашалты, Джейранлар и др., использование которых связано с каменным, бронзовым веками и другими периодами. Во время археологических раскопок в пещерах найдены тысячи скребков, резцов, шильев, ножей, микроострия, наконечники стрел, долота, грузила, костяные украшения и кости вымерших животных. Весь собранный археологический материал находится в фондах Гобустанского заповедника.

### Материалы и методы

На вершине горы Кичикдаш находится одна из самых древних стоянок Гая арасы. Здесь имеются культурные слои не только эпохи раннего мезолита, но и последующих периодов: неолита, энеолита и бронзы. Обнаруженные орудия из камня, кости и обсидиана, а также остатки вымершей флоры и фауны – бесценный материал для реконструкции географической среды в древнюю эпоху.

Археологические раскопки были начаты с 1981 года археологами Дж.Рустамовым и Ф.Мурадовой. Во время раскопок на уровне 200-220 см до уровня 300-370 см здесь были обнаружены артефакты каменного века. Ими были зафиксированы 4 места очага, около 7 000 каменных орудий: отщепы, зубчатые и ножевидные пластины, геометризованные микролиты, трапеции и орудия типа шатель-перрон. Из обнаруженного каменного инвентаря только 92 единицы имеют верхнепалеолитическую форму [1, I с., с.108,164-166], (Рис.1, а, б, в, г, д, е).

Предметом особого интереса являются обнаруженные с культурных уровней 5 отдельных камней с петроглифами. По предположениям археологов на стоянке Гая арасы петроглифы на камнях были выполнены верхнепалеолитическим художником [1, с.165; 2, с. 14-20,38]. Привлекает особое внимание отдельный камень № 9В, который был обнаружен на уровне 230 см (Рис. 2, 3- а, б, в). С помощью 3Д моделирования удалось обнаружить новые изображения. На боковой части к югу зафиксированы 3 женские фигуры в положении беременности. Рядом зафиксированы 2 антропоморфные фигуры, по всей вероятности, изображения охотников. Клавиформные фигуры пересекает линия, напоминающая лодку. По мнению археологов Гая, арасы одна из самых древних стоянок в Гобустане. Нет сомнения, что изображенные лодки и клавиформные фигуры предшествуют культурному слою или же одновременны ему. Наличие изображений лодок на стоянке Гая арасы археологами признано уже давно [3, с.7-8; 32] и предположения археологов о том, что они одни из самых древних лодок в мире




***Рис. 1.*** *Артефакты, обнаруженные с различных культурных уровней на стоянках: а, б, в, г, д -Гая арасы 1; е – Гая арасы 2.*



***Рис. 2.*** *Стоянка Гая арасы.*
*Отдельные камни 9А и 9В.*



***Рис. 3,*** *а- фотография камня 9В*
*(М. Фараджева, 2009);*

подтверждается данными изображениями на отдельных камнях с культурных слоев. Таким образом, получив радиоуглеродные датировки этого слоя идентичные петроглифы на скалах Гобустана можно датировать одним периодом. На верхней стороне данного камня также зафиксированы 3 антропоморфных изображения. Фигуры изображены на лодках. Изображения на южной боковой части камня выполнены техникой точечного выбивания, что ясно прослеживается на камне 9В. Такая техника выполнения и стиль встречается на стенах стоянок и пещер горы Беюкдаш. Другой не менее интересный отдельный камень 9А расположен поперек камня 9В (Рис.4- а, б). На восточной стороне этого камня зафиксирована реалистично выполненная голова быка. Рядом обнаружено незафиксированное новое изображение: антропоморфная фигура. От него тянется линия и пересекает изображение быка. Таким образом, определив дату изображений на камнях 9А, 9В и других отдельных камней, обнаруженных с культурных слоев можно решить некоторые проблемы датировки идентичных петроглифов Гобустана.

**Результаты исследования**

С целью определения датировки петроглифов на обнаруженных отдельных камнях были взяты пробы с культурных слоев стоянки Гая арасы для AMS-датирования. Образцы из культурного слоя на глубине 350 см были датированы AMS-методом и в результате получены радиоуглеродные даты – CalBC 11770–11450 (2 Sigma Cal BP 13660–13400) (Beta 305145, BETA Analytic INC., Miami, Florida, USA, 9.23.2011) [4, с.62-68]. В настоящее время



б)



в)

***Рис. 3,*** *б, в – новые фигуры, обнаруженные с помощью 3D фиксации камня № 9В на стоянке Гая арасы горы Кичикдаш (М.Фараджева, 2016).*



а)



б)

***Рис. 4.*** *а - фотофиксация камня 9А (М.Фараджева, 2009);*
*б – новая антропоморфная фигура, обнаруженная с помощью 3D фиксации камня № 9А на стоянке Гая арасы горы Кичикдаш (М.Фараджева, 2016).*

это одна из самых древних радиоуглеродных датировок в Гобустане [5, с. 62-68; 6, с. 78-98].

К сожалению, не все культурные уровни были датированы. Следует подчеркнуть, что датирование культурных уровней стоянок не входило в круг исследований автора. Основной целью работы является изучение и понимание наскального искусства Гобустана в контексте археологического комплекса. Безусловно, для изучения и исследования петроглифов необходим был комплексный подход и точные лабораторные результаты анализов.

***Таблица 1.*** *Датирование образцов убежища Гая арасы.*

| Углеродное датирование образцов, взятых из убежища Гая арасы | | | | | |
|---|---|---|---|---|---|
| Название лаборатории | Уровень | Материал | Количество | 13C/12C Ratio | Датировка AMS dating &C14 Conventional Radocarbon Age |
| Laboratory of Radiation monitoring of the Marzeev IHME AMS of Ukraine. Kiev, Ukraine, 26.01.2010 | h=300см | Остатки очага | 309 г | | 9580±120 BP |
| | h=300см | Кость | 11 г | | 5200±400 BP |
| The University of Waikato, Hamilton, New Zealand, 13.04.2010; 23.02.2011 | h= 155cm | Остатки очага | 18 г | | 1925 ± 30 BP |
| | h=300см | Уголь, остатки очага | 69 г | | 8 189 + 37 BP |
| | h=300см | Кость | | | негодный |
| | h=300см | Кости из почвы | | | негодный |
| | h=276 см | Кости из почвы | | | 8224 +/- 37 BP |
| | h=218 см | уголь | | | 7698 +/- 33 BP |
| | h=206 см | Кость | | | 7274 + 34 BP |
| | h=205 см | Кость | | | abandoned |
| | h=198 см | уголь | | | 6967 + 32 BP |
| | h=152 см | Кость | | | abandoned |
| BETA Analytic INC., Miami, Florida, USA, 09.01.2011 | h=260-285 см | Кость Equus Hemionus Pallas | 8 г | -17.2 o/oo | 8060±40 BP |
| | h=360 см | Кость Pusa Caspica Gmell | 6 г | -16.6 o/oo | 8680±40 BP |
| | h=310-325 см | Кость – газель Gazella Subgutturoza Guld. | | -17.1 o/oo | 8650±40 BP |
| | h=350см | Почва и морская ракушка | | +1.3 o/oo | 12200 +/- 50 BP |
| August 21, 2014 | h=350см | кость | 1068 г | -18.7 o/oo | 8350 +/- 30 BP |
| | h=350см | почва | | -19.1 o/oo | 7880 +/- 30 BP |
| | h=350см | Морские ракушки | | +2.0 o/oo | 42070 +/- 530 BP |

***Таблица 2.*** *Изотопный анализ (25.02.2011 WAIKATO)*

| Sample ID | δ15N vs Air ‰ | Total N %N | δ13C vs PDB ‰ | Total C %C | C:N |
|---|---|---|---|---|---|
| Farajova 30003 | 11.3 | 15.35 | -17.0 | 43.72 | 3.3 |
| Farajova 30005 | 11.1 | 15.17 | -17.4 | 43.70 | 3.4 |

*Precision = ± 0.2 ‰

В настоящее время датирование и изучение петроглифов осуществляется с привлечением новых технологий, которые значительно облегчают процесс изучения. Если раньше датирование петроглифов осуществлялось на основе сравнительного анализа с привлечением исследованных археологических данных и результатов радиоуглеродного анализа, то в настоящее время с созданием новых программ в 3Д, цифровых систем и метода радиоуглеродного AMS-датирования, работы по исследованию и изучению местности значительно облегчаются и появляется много возможностей по-новому взглянуть на предмет изучения наскального искусства.

Интересные результаты были получены по изотопным данным. По анализу костных останков удалось определить, что пищевой рацион исследуемого вида составлял растительную продукцию. Это в свою очередь, позволяет нам предположить, что данный вид относится к травоядному животному. По данным остеологического анализа, на стоянке Гая арасы 98% костей животных принадлежало газели (Рис.5).




***Рис. 5.*** *Видовой состав индивидов на различных культурных уровнях стоянки Гая арасы по результатам остеологического анализа.*

В результате исследования остеологических материалов из фондов Гобустанского заповедника, ранее извлеченных из культурных слоев, был определен следующий видовой состав, который представлял, как вымершую, так и современную фауну:

***Таблица 3.*** *Видовой состав палеофауны на стоянке Гая арасы*

| № | Видовой состав | | Глубина культурного слоя | Обнаруженный материал | Обнаружено и зарегистрировано |
|---|---|---|---|---|---|
| 1. | Кулан | Equus hemionus Pallas | 260-285 см<br>260-285 см | Кость<br>- // - | Дж. Рустамов, Ф.Мурадова, 1985<br>- // -, 1988 |
| 2. | Джейран | Gazella Subgutturoza Guld | 310-325 см<br>360 см | - // -<br>- // -<br>- // - | - // -, 1985<br>- // -, 1985<br>- // -, 1988 |
| 3. | Каспийский тюлень | Pusa caspica Gmel. | 240-260 см<br>260-285 см<br>285-300 см<br>300-325см<br>310-325 см<br>360 см<br>355-370см | Остатки костей<br>- // -<br>- // -<br>- // -<br>- // -<br>- // -<br>- // -<br>- // - | - // -, 1985<br>- // -, 1985<br>- // -, 1985<br>- // -, 1986<br>- // -, 1985<br>- // -, 1986<br>- // -, 1986<br>- // -, 1988 |
| 4. | Кеклик | Alectoris kakelik Falk | 225-240см | - // - | - // - |
| 5. | Рыбы | - | 310-325 см | позвонок | - // -, 1985 |

*(Фонды ГНИХЗ)*

**Выводы**

На основе радиоуглеродных анализов удалось выделить следующие хронологические этапы на стоянке Гая арасы:

- 1925 ± 30 BP
- 7274 + 34 BP - 7698 +/- 33 BP - 8060±40 BP - 8224 +/- 37 BP
- 8650±40 BP - 8680±40BP - 9580±120 BP - 12200 +/- 50 BP

Результаты радиоуглеродных анализов и остеологический состав костей с культурных уровней стоянки Гая арасы показали, что в окрестностях Гобустана:

✔ Приблизительно 8500-7000 лет назад водились куланы Equus hemionus Pallas, каспийские тюлени Pusa caspica Gmel., кеклик Alectoris kakelik Falk.

✔ Приблизительно 13 000 – 8 000 лет назад водились джейраны Gazella Subgutturoza Guld, каспийские тюлени Pusa caspica Gmel.и рыбы [7, с.292-294; 8, с.204-213].

Приблизительно 13 - 8 тысяч лет назад продолжалась Хвалынская трансгрессия и соответственно омывала горы Беюкдаш, Кичикдаш и Джингирдаг. В это время стоянка была заселена, о чем свидетельствуют обнаруженные следы очага, каменный инвентарь и отдельные камни с наскальными изображениями.

8500–7000 лет назад попадает на время самого крупного и продолжительного повышения уровня исторического Каспийского моря в раннем голоцене. В этот период археологами обнаружены артефакты, показывающие, что пещера-укрытие была заселена. Таким образом, уровень Хвалынского моря не превышал место стоянки Гая арасы.

Приблизительно 2000 лет назад продолжается регрессия – отступание моря. В это время на стоянке Гая арасы также обнаружены признаки жизнедеятельности.

**Литература:**


1. Azərbaycan Arxeologiyası VI cilddə: 1 cild (Daş dövrü). Bakı: Şərq-Qərb, 2008, 445 s.
2. Rüstəmov C., Muradova F. Qobustan: Kiçikdaş dağı abidələri. Bakı: "E.L." NPŞ MMC, 2008, 316 s.
3. Рустамов Дж.Н. Гая арасы - стоянка охотников на джейранов // Археологические и этнографические изыскания в Азербайджане-1985г. Баку, Элм, 1986, с.7-8.
4. Фараджева М. Неолит Гобустана / Сборник материалов международной научной конференции "Раннеземледельческие культуры Кавказа". Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu. "Qafqazın Erkən Əkinçilik Mədəniyyətləri" (məqalələr toplusu) Beynəlxalq elmi konfrans. Bakı, 2012, с. 62-68.
5. Фараджева М. Неолит Гобустана / Сборник материалов международной научной конференции "Раннеземледельческие культуры Кавказа". Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu. "Qafqazın Erkən Əkinçilik Mədəniyyətləri" (məqalələr toplusu) Beynəlxalq elmi konfrans. Bakı, 2012, с. 62-68.
6. Farajova M. About specifics of rock art of Gobustan and some innovative approaches to its interpretation ("Firuz 2" shelter). "Quaternary International" magazine, c.78-98. https://www.sciencedirect.com/science/article/pii/S1040618216308746?via%3Dihub
7. Фараджева М. Географическая среда в Гобустане в древнейшие эпохи человеческой истории / Aspirantların və gənc elmi tədqiqatçıların elmi qurultayı, II. Bakı, 2003, с. 292-294.
8. Fərəcova M. Azərbaycan qayaüstü incəsənəti. Bakı: Aspoliqraf, 2009, 319 s.


***Ключевые слова:*** *Гобустан, Гая арасы, гора Кичикдаш, наскальные изображения, датировка петроглифов*

**Məlahət Fərəcova**
*Qala Dövlət Tarix-Etnoqrafiya qoruğunun direktoru, tarix üzrə fəlsəfə doktoru*

# QAYA ARASI – QOBUSTANIN ƏN QƏDİM DÜŞƏRGƏSİ

## XÜLASƏ

Qobustannın ən qədim düşərgələrindən biri olan Qaya arasında tədqiqatlar 1981-ci ildə arxeoloqlar C.Rüstəmov və F.Muradova tərəfindən başladılmışdır. Onlar tərəfindən üstpaleolitik formaya aid təxminən 7000 daş alətlər aşkar edilmişdir. Xüsusi diqqəti mədəni təbəqələrdən tapılmış üzərində qayaüstü rəsmlər olan 5 daş çəkir. Arxeoloqların fikirlərinə görə Qaya arası düşərgəsində daşlar üzərindəki qayaüstü rəsmləri məhz üst paleolit rəssamları çəkmişdirlər. Ayrı – ayrı daşlar üzərindəki petrqoliflərin aid olduğu dövrləri müəyyən etmək məqsədilə Qaya arası düşərgəsindəki mədəni təbəqələrdən AMS dövr müəyyən etmə üçün nümunələr götürülmüşdür. Radiokarbon analizi nəticəsində, Qobustanda ən qədim dövrlərdən biri e.ə 11770-11450 müəyyən edilmişdir. Maraqlı nəticələr həmçinin izotop məlumatları əsasında da əldə olunmuşdur. Qobustan qoruğunun fondunda olan osteoloji materialların öyrənilməsi nəticəsində əvvəllər mədəni təbəqələrdən çıxarılan, məhv olmuş və müasir faunaya aid növ tərkibi müəyyən olunmuşdur. Radiokarbon analizlərinə əsaslanaraq Qobustanın müxtəlif tarixi dövrlərdə coğrafi mühitinin yenidən qurulması mümkün olmuşdur.

***Açar sözlər:*** *Qobustan, Qaya arası, Kiçikdaş dağı, qayaüstü rəsmlər, petroqliflərin tarixi*

**Malahat Farajova**
*Director, Gala-State Historical Ethnographic Reserve,*
*PhD in History*

## GAYA-ARASI-THE OLDEST CAMP OF GOBUSTAN


### SUMMARY

The researches in Gaya-arasi, one of the oldest camps in Gobustan, were initiated by archaeologists J.Rustamov and F.Muradova in 1981. About 7,000 stone tools that belong to the upper paleolithic form were discovered by them. 5 separate stones found in the cultural layers with rock cravings on it capture a special attention.

According to the archaeologists, rock cravings on stones in Gaya-arasi were drawn by Upper Paleolithic artists. Samples for AMS data determination were taken from the cultural layers of Gaya-arasi in order to determine the history of petroglyphs on different stones.

One of the oldest period in Gobustan was identified as 11770-11450 B.C. as the result of C14 analysis. Interesting results were also obtained on the basis of isotope analysis.

Extinct and modern fauna species which had been extracted from the cultural layers were identified as a result of the study of osteological materials in Gobustan preserve. Based on radiocarbon analysis, it was possible to reconstruct the geographical environment of Gobustan in different historical periods.


***Key words:*** *Gobustan, Gaya arasi, Kichikdash Mountain, Rock Carvings, History of Petroglyphs*

**G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R**
**Y O U N G  R E S E A R C H E R S**

**S İ Y A S İ  İ N S T İ T U T L A R  V Ə  S İ S T E M L Ə R**
**P O L I T I C A L  I N S T I T U T I O N S  A N D  S Y S T E M S**

UOT 321; 323

**CEYRAN RƏHMƏTULLAYEVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının dissertantı,**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin**
**Sosial-mədəni fəaliyyət kafedrasının müəllimi**
*email: ceyran_8@yahoo.com*

# AZƏRBAYCANDA SOSİAL İŞİN VƏ XİDMƏTLƏRİN YARANMA TARİXİ

XXI əsrdə aktuallığı ilə seçilən və müzakirə edilən, təkmilləşdirilməsinə daim ehtiyac duyulan sahələrdən biri də sosial iş və onun tərkib hissəsi olan sosial müdafiə və xidmətlərdir.

Azərbaycan müstəqil sosial bir dövlətdir. Ulu öndər Heydər Əliyev və onun davamçısı İlham Əliyev tərəfindən aparılan uğurlu siyasətin önəmli bir hissəsi sosial siyasətdir. Bu sahədə aparılan islahatların əsas məqsədi insanların sosial vəziyyətinin, həyat səviyyəsinin yaxşılaşdırılması və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsidir.

Nəzərə alsaq ki, müstəqilliyinin cəmi 27-ci ilini yaşayan və bu müstəqilliyi mübarizə yolu ilə qazanan, eyni zamanda torpaqlarının işğal olunması ilə müharibə şəraitində qoruyub saxlaya bilən gənc bir dövlət üçün uğurlu sosial siyasət qurmaq çox az bir müddətdir.

Bildiyimiz kimi əsasən qərb ölkələrində kapitalizmin güclü inkişafı, urbanizasiya proseslərinin sürətlənməsi, işsizlik və cinayətkarlıq hallarının artması sosial işin bir elm sahəsi və xüsusi fəaliyyət kimi inkişafına səbəb olmuşdur.

Çox zaman sosial iş və ya sosial işçinin cəmiyyətdə funksiyası müxtəlif formalarda anlaşılır və ya ümumiyyətlə bu fenomenin anlanılmasında tam bir təsəvvürün formalaşması çətinlik törədir. Carlz Zastrov sosial iş haqqında belə yazır: "Sosial iş elə bir sahədir ki, o insanların rifahı üçün sosial dəyişikliklər edir, insanlar arasındakı problemləri həll edir və insanların rifahını yüksəltmək üçün onları daxili güclərinə və potensiallarına arxalanmağa yönəldir və öz problemlərinin həllində müstəqil olmalarına şərait yaradır." (6, s.2).

Bildiyimiz kimi sosial iş bir elm sahəsi olaraq sovetlər məkanında eyni zamanda Azərbaycanda öyrənilməmiş və tədris edilməmişdir. Amma bu gün biz Azərbaycan dövlətinin sosial xidmət siyasətində sosial xidmətlərin yerindən danışdıqda onun tarixinə nəzər salmalı və "Azərbaycanda sosial iş heç vaxt olmayıb" məhfumuna bir açıqlama gətirməliyik. Nə üçün biz bunu belə deyirik? Bu doğrudanmı belədir? Bu suallarla bir az sovetlərdən öncəki tariximizə, məhz dünyada sosial işin ilk addımlarının atıldığı zamanlarda Azərbaycanda gedən proseslərə nəzər salaq.

Sosial işin tarixinə nəzər saldıqda görürük ki, ilk sosial rifah qurumları 1800-cü illərdə Amerikada kənd yerlərində yaşayan insanların ehtiyaclarını qarşılayacaq bir fəaliyyətlə başlamışdır. Beləcə bu cür qurumlar və xidmətlər ilk vaxtlarda inanc üzərində qurulmuş və dini başlanğıcla xeyriyyəçilər tərəfindən təşkil edilmişdir (6, s.5).

Təbii ki, 1800-cü illərdə ayrı-ayrı xanlıqlardan ibarət olan Azərbaycanı Çar Rusiyası özünə birləşdirmək arzusunda idi. 1803-cü ildə ərazisi böyük hərbi-strateji əhəmiyyətə malik

olan Car-Balakən camaatı tabe etdirildi. 1804-cü ildə Gəncə müdafiəçilərinin müqavimətini qırmaq mümkün oldu, 1805-ci ildə isə əzəli Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzur işğal edildi. Bu hadisələr Qafqaz uğrunda Rusiya-İran və Rusiya-Türkiyə müharibələrinə səbəb oldu. Bu müharibələr nəticəsində isə Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri ilə Azərbaycanın şimal hissəsi Rusiya imperiyasının tərkibinə daxil edildi (5, s.9).

Xeyriyyəçilik ən qədim zamanlardan Azərbaycanda mövcud olmuşdur. Hətta xanlıqlar dövründə belə onu daha çox mərhəmət, rəhmdillik adlandırırdılar və müsəlman qadın və kişilərinin qəlbinin və həyatının bir parçası olmuşdur. Tarixi əsərlərimizi və xalq ədəbiyyatını oxuyarkən belə kömək etməyin insanların, ailələrin hələ o zamanlardan insanın mənəvi borcu olduğunu görürük. Dədə Qorqud dastanında "Qazan Xanın evinin yağmalanması" – yəni ayda bir dəfə öz evini könüllü olaraq xalqın ixtiyarına verməklə evində olan hər şeyin xalq tərəfindən müsadirə olunması (İnsanlar kim nə istəyirdisə xanın evindən götürə bilərdi.). Azərbaycanda ilk sosial aksiyaların çox qədim dövrlərə təsadüf etdiyini göstərir.

XIX əsrin əvvəllərində Azərbaycanda yaşanan əsas sosial problemlərdən biri də savadsızlıq, xüsusilə qızların təhsili məsələsi idi. Bu məsələ o zamanın dahi mütəfəkkirlərini, eyni zamanda Həsən bəy Zərdabini çox düşündürürdü. Beləki, savadsızlığın aradan qaldırılması məqsədi ilə məktəblərin açılması üçün ilk xeyriyyə təşkilatının yaradılması ideyası ilə Həsən bəy Zərdabi çıxış edir və buna nail olur. 1871 ci ildə çox çətinliklərlə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" yaradılır. H.B.Zərdabinin bu ideyasını ən çox dəstəkləyən isə H.Z.Tağıyev olur (2, s.5).

Çarizm Azərbaycana Rusiyanın xammal mənbəyi kimi baxaraq, yalnız özünün inkişaf etməkdə olan sənayesi üçün gərəkli olan sahələrə uyğun xətt yeridirdi. Lakin 1860–70-ci illərdə çar hökumətinin ölkənin sosial-iqtisadi inkişaf tələbatını nəzərə alaraq Azərbaycanda apardığı dəyişikliklər yeni istehsal münasibətlərinin intensiv inkişafına kömək etdi. Bu sahibkarlar və muzdlu işçilər kimi yeni zümrələr meydana gəlməsinə şərait yaratdı (5, s.9).

H.Z.Tağıyev kimi çox çətinliklərlə belə əhali üçün iş yerlərinin açılması və iri istehsal sahələrinin yaradılmasına qoyulan ciddi sədlərə baxmayaraq insanların sosial həyatını düşünən xeyriyyəçi insanlar vardı.

Məhz onun çox ciddi çətinlik və uzun müddət gözləmələrdən sonra çarın icazəsi ilə tikdirdiyi Qafqazda ilk və ən iri Toxuculuq fabrikinin açılmasının əsas nəticəsi minlərlə az təminatlı insanın sosial müdafiəsi məsələsi idi və onların iş və pulsuz ev ilə təmin edilməsi demək idi. Fabrikdə pulsuz ambulatoriya və məktəb də vardı (4, s.3).

Bu cür çətin dövrdə, müstəmləkə şəraitində insanlar üçün öz işlədiyi yerdə yaradılan bu təşəbbüsü təkcə xeyriyyəçilik deyil məhz tibbi sosial xidmət modelinin ilkin forması olaraq qiymətləndirməliyik  Almaniyada bu dövrdə 1883 cü ildə Bismark modeli əsasında bütün alman xalqını əhatə edən yalnız işləyən insanların Tibbi, sosial və əmək sığortası haqqında qanun qəbul edilmişdir.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətində yaşanan dəyişikliklərin təsiri altında cəmiyyətin təhsilli hissəsində məişətin dini, patrialxal əsaslarından dünyəvi əsasına keçidi baş vermişdir və bu zaman xeyriyyəçilik haqqında təsəvvürlər də dəyişikliyə uğrayırdı. Elmi-tarixi ədəbiyyatda bu prosesdə Rusiya və Avropa təsirinin mövcudluğu da etiraf edilmişdir (3, s.89).

Belə ki, dünyada baş verən dəyişikliklər, ilk sosial rifah qurumlarının və təşkilatlarının yaranması, sosial iş tarixində sosial rifah göstərən ilk qurumlar olaraq 1778-ci ildə Almaniyada Hamburq şəhərində siyasi iqtisadçı Byuşh və Fokst tərəfindən əsası qoyulmuş "yoxsulları himayə" cəmiyyəti, Amerikada 1820-ci ildə Con Griskomun yaradıcısı olduğu "Yoxsulluğun qarşısını alma dərnəyi", daha sonra 1877-ci illərdə COS hərəkatı, Toynbi Hall (1884) sığınacaqlarının yaranması prosesi özlüyündə Şərq ölkələrində, xüsusilə inkişafa

can atan müsəlman şərqində də digər sahələrdə olduğu kimi sosial rifah sahəsində də düşüncə və yanaşmaların dəyişilməsinə səbəb olmuşdur.

XX əsrin əvvəllərində cəmiyyətdə dünyəvi öhdəlikdən xalq qarşısında mənəvi borca doğru bu borcun dərkindən isə cəmiyyəti sosial ədalət ideyalarına yaxınlaşdırmaqla, onu təkmilləşdirmək arzusuna doğru gedilirdi.

Azərbaycan tarixinin müxtəlif dövrlərində xüsusilə XX əsrin əvvəllərində baş verən sosial siyasi dəyişikliklər fonunda məhz könüllü formada ilk sosial xidmət göstərən qurumların qadın xeyriyyə cəmiyyətləri tərəfindən başlanmasını görürük.

Bu dövrdə xalq arasında baş verən bir oyanış, ictimai təşkilatların formalaşması prosesi gedirdi və bu təşkilatlar arasında qadınların yaratdığı və təşəbbüskarı olduqları təşkilatlar xüsusi yer tuturdu. Belə ki, fəaliyyətlərində xalqın əsas problemlərini – sosial müdafiə, səhiyyə, təhsil və s. bu kimi məsələləri qabardaraq həllinə və bu sahələrdə islahatların aparılmasına çalışırdılar, eyni zamanda savadsızlıq kimi problemin aradan qaldırılması ən önəmli məsələlərdən idi.

Amma müsəlman şərqində qızların təhsili məsələsinin önəmli bir məsələ kimi qaldırılması çar hökumətini narahat edirdi. Təbii ki, burada siyasi məqamlar vardı. Azərbaycanlı qadınların oxumağa, təhsilə və elmə həvəsinin artması ictimai siyasi vəziyyəti də dəyişə bilərdi və onlar öz tərbiyə etdikləri övladlarını da daha proqressiv ruhda böyüdərdilər.

Əslində ilk rusdilli qız məktəblərinin yaranması da xeyriyyə cəmiyyətləri və bu cəmiyyətləri idarə edən qadınlarla bağlı idi. Bu cəmiyyətlər isə xeyriyyə cəmiyyəti olaraq adlandırılmaqlarına baxmayaraq əslində o zaman könüllülük hərəkatının əsasını qoymaqla cəmiyyətin sosial, mədəni və siyasi həyatlarında mühüm rol oynayırdılar. Bu isə bir sosial iş hərəkatının başlanğıcı idi. Demək ki, Azərbaycanda sosial işin ilkin addımları məhz savadsızlığın ləğvi ilə bağlı həyata keçirilən könüllü fəaliyyətlərlə başlamışdır.

Bu dövrdə Amerikada sosial işin ilk pionerlərindən olan Jeyn Adamz (1860-1935) Rokford seminariyasının məzunu olaraq, qısa müddət tibb fakultəsində oxuduqdan sonra, xəstəliyi ilə bağlı təhsilini yarımçıq qoyub Avropaya səyahət edərək 25 yaşında yoxsullara xidmət edən kilsəyə qoşulmaqla ilk sosial iş hərəkatını başlayır və daha sonra Avropaya qayıdır. Toynbi Hall kimi ilk sosial iş dərnəyinin qurulmasında iştirak edir. Bir müddət Avropada bu fəaliyyəti davam edərək, bu işi daha yaxşı öyrəndikdən sonra öz ölkəsinə-Amerikaya qayıdır və sonralar o özünün “Hull Hauz” adlanan dərnəyini yaradır və yoxsullara xidmət edir. Hull Hauzda qadınlar üçün ədəbiyyat oxuma, sosial münasibətlər, idman, musiqi, rəsm kimi dərnəklər və uşaq evi də fəaliyyət göstərirdi (6, s.10).

Azərbaycanda bu dövrə nəzər saldıqda bu hərəkatın pionerləri olan qadınların dəstəyi ilə 1848-ci ildə Şamaxıda “Müqəddəs Nina” cəmiyyəti tərəfindən açılan məktəb, daha sonra 1850-ci ildə, yenə də, aktiv azərbaycanlı qadınlar tərəfindən təşkil edilmiş İrəvan qız məktəbi, 1875-ci ildə Şuşada qız məktəbinin açılması, 1894-cü ildə Nuxada “Darüssuada” məktəbi nəzdində məktəbin qız şöbəsinin yarandığını görürük.

O dövrdə qızların kiçik qruplar, tək-tək siniflər və hətta bəzi hallarda oğlanlarla birgə siniflərdə təhsil almağa başlaması böyük, həm də çox çətin bir təbliğat-təşviqat işinin nəticəsi idi ki, bu işi mütərəqqi azərbaycan qadınları, həmin dövrün mütərəqqi və uzaqgörən kişiləri ilə birgə həyata keçirirdilər.

Məsələn, Şamaxıda 1850-ci ildə açılan 2 qız məktəbindən biri tanınmış Mesenat Mahmud ağanın bacısı Güllübəyim xanımım öz evində açdığı məktəb, digəri isə maarifpərvər xanım Dilbər xanımın öz atası Mirmahmudun köməyi ilə evində açdığı qız məktəbi və s. bu kimi ictimai hərəkatlar onu göstərirdi ki, ilk sosial iş fəaliyyətlərində kişilər də yaxından iştirak edirdi.

Təbii ki, o dövr üçün qadınların bü təşəbbüslə çıxış etmələri bəzən onları çətin vəziyyətə salırdı və qızların məktəbə getməsi fikri yaxşı qarşılanmırdı. Belə cəmiyyətlərdə fikirləri dəyişmək, onlara təsir etmək xüsusi

bir bacarıq tələb edirdi. Bu cür ağır cəmiyyətlərdə maarifləndirmə və təbliğat işi aparmaq isə bu insanların məhz sosial işçiyə lazım olan vacib bacarıqlarının olmasından xəbər verirdi. Məsələn 1906-cı ildə ilk pedaqoq xanımlardan olan Mədinə xanım Vəkilova-Qiyasbəylinin Salahlı kəndində açdığı ilk kənd qız məktəbinə qızların yığılması kənddə yaxşı qarşılanmamışdı. Məhz buna görə də o təbliğat işini öz qohum əqrəbasından başlamışdır və daha sonra onun sinfində qızların sayı 30 nəfərə çatmışdı, hətta məktəb çox məşhurlaşmışdı. Məktəbdə türk dilini Əhməd Ağa Gülməmmədov, təbiətşünaslığı Mədinə xanımın atası Mehdi ağa, digər fənnləri isə özü tədris edirdi (7). Demək ki, Azərbaycanda ilkin sosial iş fəaliyyətləri təkcə qadınların təşəbbüsü ilə deyil, həm də kişilərin dəstəyi ilə həyata keçirilirdi.

Evlərdə, kiçik siniflərdə başlayan qız təhsilini dünyəviləşdirmək önəmli məsələ idi. Bu məsələ isə yenə də Azərbaycanın mütərəqqi ziyalı kişilərini qadınlarla bərabər düşündürürdü. 1896 cı ildə Həsən bəy Məlikov (Zərdabi) Bakı qubernatoruna müsəlman qızlar üçün rus-müsəlman məktəbinin açılması xahişi ilə müraciət etmişdir. Amma təəssüflər olsun ki, rus administrasiyası bu məktəbin açılışına icazə versə də, dövlət tərəfindən heç vaxt bu kimi təkliflərə maliyyə ayrılmırdı.

Nəhayət, eyni ildə H.Z.Tağıyevin çox çətinliklə (öz şəxsi maliyyəsi hesabına) tikilişi üçün icazəsini aldığı qız məktəbinin 1901-ci ildə açılışı və ilkin qəbul üçün 50 nəfərin nəzərdə tutulduğu halda 58 nəfərin müraciət edərək bütün xərclərin (geyim, yemək, qalmaq, oxumaq və s.) Tağıyevin hesabına ödənilməsi təkcə xeyriyyəçilik deyil, bir xalqın, millətin sosial müdafiə, təhsil məsələsinə verilən böyük bir töhfə oldu.

Açılan məktəbdə Tağıyevin təqdimatı ilə məktəbin müdirəsinin də qadın olması, (Həsən bəy Zərdabinin həyat yoldaşı Həmidə xanım Məlikova) bu dövrdə əsası qoyulan ilk sosial xidmət və könüllü formada aparılan sosial iş tariximizdə qadınların rolunun nə dərəcədə böyük olduğunu göstərir. Tağıyevin göstərişi ilə məktəbə qeydiyyat zamanı varlı qızların qeydiyyatını azaldaraq daha çox imkansız ailələrdən olan qız uşaqlarının qəbuluna şərait yaradılırdı. Məktəbin ilk müdirəsi və rus dili müəllimi olan Həmidə xanım Məlikova isə çox təhsilli və ziyalı bir qadın idi.

1915-ci ildə Bakıda 5 qız məktəbi vardı. Məktəbdə müsəlman ənənələri Avropa modernizmi ilə bacarıqla birləşdirilərək Azərbaycanda dünyəvi qadın təhsilinin əsası qoyulmuşdu və məhz bu məktəbin məzunu olmuş ziyalı qadınlar sonradan Azərbaycanda ictimai təşkilatların yaranmasında çox böyük rol oynamışlar.

1902-ci ilin əvvəllərində ilk qadın təşkilatlarından biri təsis edilmişdir. Bu təşkilat “Qadınları müdafiə təşkilatı” olmuşdur. Müxtəlif mənbələrə görə, bu təşkilat “ehtiyacı olan qadınlara hərtərəfli dəstək verməklə, qadınlara mənəvi və maddi yardımın göstərilməsi ilə məşğul olurdu. Cəmiyyətin nəzdində işləmək istəyən qadınlar üçün iş axtarışı ilə məşğul olan xüsusi büro da fəaliyyət göstərirdi (3, s.79-80).

Burada bir maraqlı məqam da diqqəti çəkir. Cəmiyyətin köməyinə möhtac olan qadınların arasında azərbaycanlılar yox idi. Bunun əsas səbəbi isə azərbaycanlıların milli və dini xüsusiyyətləri ilə izah edilə bilər. Çünki milli adət ənənəyə görə dul qalmış və ya müxtəlif səbəblər üzündən müdafiəsiz vəziyyətə düşmüş qadınları onların yaxın qohumları, hətta kişi qohumları öz himayəsi altına alırlar. Ailələr arasında bir-birinə yardım etmə və qohumluq münasibətlərinin qorunub saxlanılması bu gün də Azərbaycan xalqı tərəfindən qorunub saxlanılır və ailə institutumuzun möhkəm dayaqlar üzərində durduğunun bir göstəricisidir.

“Kaspi” qəzetinin 1902-ci il oktyabr ayındakı saylarından birində cəmiyyətin nizamnaməsinin nazirlik tərəfindən verilməsi qeyd olunaraq, cəmiyyət tərəfindən kişilərin döymələrindən, işgəncələrindən əziyyət çəkən, hətta fahişəxanaları tərk etmiş fahişələrə sığınacaq, sığınacağın nəzdində emalatxana, hüquq bürosu, arayış bürosu və qadınlara ucuz mənzillərin verilməsinin təmin olunması göstərilirdi.

Bu onu deməyə əsas verir ki, bu dövrdə sosial işin tətbiq edildiyi əsas problemli sahələrdən olan məişət zorakılığı məsələsi də aktual olaraq qaldırılan məsələlərdən olmuş və hətta ilkin sosial xidmətlər zorakılıqdan əziyyət çəkən qadın və uşaqların yerləşdirilməsi və müdafisəi üçün tətbiq edilmişdir.

1904-1908-ci illər rus yapon müharibəsi zamanı Rusiyada yaranmış müxtəlif qeyri-hökumət təşkilatlarının nümunəsi əsasında Bakıda da Qırmızı Xaç cəmiyyətinin xanım komitəsi fəaliyyət göstərmiş və onun fəaliyyəti müharibə bitənədək davam etmişdir.

1908-ci ildə Bakıda şəfqət bacıları icması da açılmışdır ki, burada qadınlar könüllü olaraq xəstələrə yardım edir və hətta onların psixoloji vəziyyətlərinin yaxşılaşması üçün də əllərindən gələni edirdilər.

1905-1907-ci illərdə Azərbaycanda “Nicat”, “Nəşri maarif”, “Səadət” kimi maarifçi cəmiyyətlər və məktəblər təsis edilirdi. Bu cəmiyyətlərdə Xədicə xanım Ağayeva, Şəfiqə xanım Əfəndizadə, Nabat Nərimanova, və başqaları var idi.

Bu dövrdə Azərbaycan qadınlarının xeyriyyə cəmiyyətlərində birləşməsi və bu cəmiyyətlər vasitəsilə ictimai şüura təsir etmələri açıq aydın görünürdü. Baxmayaraq ki, bu xeyriyyə cəmiyyətləri əsasən qeyri-müsəlman qadınlarının rəhbərliyi ilə açılırdı, amma bu təşkilatlar məhz müsəlman xeyriyyə cəmiyyətlərinin yaranmasını stimulaşdırırdı.

Lakin təəssüflər olsun ki, çar hakimiyyət orqanları müsəlmanların ictimai fəaliyyətini və öz cəmiyyətlərini yaratmaq həvəslərini məhdudlaşdırırdı. Əslində bu cəmiyyətlərin adlarının “xeyriyyə cəmiyyəti” qoyulması məsələsi də siyasi bir xarakter daşıyırdı. Bu cəmiyyətlərin fəaliyyətləri ilə bağlı hesabatlara baxdıqda görürük ki, onların o dövr üçün şərti olaraq adlandırdıqları xeyriyyə təşkilatları bir çox işləri həyata keçirirdi ki, bu dövrdə həm insanlar arasında mövhümati fikirlərin dəyişdirilməsinə, sosial aktivliyə, könüllülük prinsiplərinin yayılmsına və sosial məsələlərin həlli istiqamətində lobbiçiliyə xidmət edirdi. Bəzən hətta xeyriyyə təşklilatlarının qeydiyyata alınması məsələləri çətinlik törədirdi. Çünki, özündə bir çox istiqamətləri birləşdirən, təkcə kasıb kütlənin geyim və yemək ehtiyaclarını ödəməklə kifayətlənməyən bu təşkilatlar, müxtəlif sosial-ictimai məsələləri qaldırmaqla təhsil, səhiyyə və sosial xidmətlərin yaxşılaşdırılmasına çalışır və dövlət qarşısında müzakirəyə çıxarırdı. Xeyriyyə təşkilatları nəznində klublar yaradılır, tez-tez yığıncaqlar keçirilir, kurslar təşkil olunurdu. Məhz buna görə də artıq Çar hökumətinin yerli nümayəndələri bu təşkilatların çoxalmasına birmənalı yanaşmır və hətta onların qeydiyyatı üçün bəhanələr tapırdılar. Çar hökumətinin razılığını almaq isə çox hallarda yerli Qubernatorun azərbaycanlılara və həyata keçirilən fəaliyyətə olan münasibətindən də asılı olurdu.

Məsələn, 1903-cü ildə Bakı general-qubernatoru Nakaşidzeyə xeyriyyə cəmiyyətinin açılması üçün nizamnamə təqdim edilir və onun azərbaycanlılara qarşı xoş münasibətinin olması, çar hökumətindən icazə alması üçün tutarlı bəhanə tapmasına səbəb olur və bu bəhanə isə bütün ölkədə baş alıb gedən vəba epidemiyasının qarşısının alınması üçün dövlətin kifayət qədər vəsait ayıra bilməməsi olur və beləliklə Nakaşidze bu ad altında təşkilatı yaradaraq yoxsul müsəlman ailələrinə kömək etməyi onlara təklif edir.

1905-ci ildə ermənilərin Azərbaycanda keçirdikləri kütləvi soyqırımlar və münaqişələr insanların siyasi baxışlarında dəyişikliklərə səbəb oldu və bu qırğınlardan əziyyət çəkən ailələrə və insanlara yardım etmək üçün müxtəlif cəmiyyətlər yaranırdı. Qarabağda və ölkənin digər ərazilərində aparılan qırğınlar nəticəsində insanlar qaçqın və məcburi köşkün vəziyyətində yaşayırdılar. Qarabağ camaatına yardım göstərmək üçün Qönçə xanım Muxtarovanın və Sona xanım Tağıyevanın təşəbbüsü və dəstəyi ilə qadın dərnəyi yaradıldı. Bu dərnək o zaman küçələrdə tökülüb qalan, öz ölkəsində məcburi köçkün və qaçqın vəziyyətinə düşmüş insanların, ağır vəziyyətdə olan uşaqların yardımına çataraq onlara hər cür köməklik göstərməyə çalışırdı. Hətta qadınlardan ibarət qrup, gözü qarşısında işgəncələr

yaşamış, övladlarını, yaxınlarını itirmiş analara mənəvi dəstək. psixoloji yardım kimi fəaliyyətləri də həyata keçirirdilər. Çətin vəziyyətə düşmüş qadınlara, kişilərə iş tapmaq, ev qurmaqda yardımçı olurdular.

Beləcə, 1908-ci ildə ilk müsəlman xeyriyyə cəmiyyəti yarandı və öz yaranışı ilə qadınların da öz müsəlman xeyriyyə cəmiyyətlərini yaratmağa təkan verdi.

Bəzi tədqiqatlar onu deməyə əsas verir ki, əslində 1906-cı ildə ilk müsəlman qadın xeyriyyə cəmiyyəti Tiflisdə təsis edilmişdir. Və Həmidə xanım Cavanşir və Sofya xanım Şaxtaxtinskaya bu cəmiyyətin təsisçiləri və fəal üzvləri olmuşdular. Həmidə xanım Cavanşir görkəmli ictimai xadim, Ağcabədidə anadan olmuş, Cavanşirlər nəslindən idi. O, Zaqafqaziya qurultayında çıxış edərək iş adamlarının diqqətini əhalinin sosial problemlərinin həllinə yönəltmiş, pambıqçılıqda su ilə bağlı problemlərin həlli üçün təkliflər vermişdir. O, öz vəsaiti hesabına məktəb açmış və burada dərs demişdir (1, s.153).

Bu xanımlardan digəri isə general Səməd bəy Mehmandarovun həyat yoldaşı Ümgülsüm xanım Şeyxəliyevanın fəaliyyətidir ki, onun xeyriyyəçilik fəaliyyəti nəticəsində neçə-neçə müsəlman ailələrinin sosial müdafiəsi təmin olunmuşdur. Onun təşkilatçılığı ilə keçirdiyi xeyriyyə gecələrində toplanan vəsait hesabına çox böyük yardımlar verilir və insanların sosial problemləri həll olunurdu.

Bu dövrün mühüm sosial problemlərindən biri də uşaq ölümü məsələsi idi. Geniş yayılmış vərəm, vəba xəstəlikləri, uşaqların fiziki inkişafında ləngimələrlə müşahidə olunan digər uşaq xəstəlikləri uşaq ölümlərinin sayını çoxaltmışdı. 1905-ci ildən məşhur uşaq həkimi Gindesin rəhbərliyi altında "Bakı uşaq ölümü ilə mübarizə cəmiyyəti" yarandı və cəmiyyətin məqsədi dinindən, əqidəsindən asılı olmayaraq bütün uşaqların fiziki inkişafına çalışmaq və yüksək uşaq ölümünə şərait yaradan bütün səbəblərlə mübarizə idi. Cəmiyyətin fəal üzvləri Murtuza Muxtarovun həyat yoldaşı Liza Muxtarova, H.Z.Tağıyevin həyat yoldaşı Sona Tağıyeva, xanım Əlixanova, xanım Yüzbaşova idilər.

Gindes Yevsey Yakovleviç Gindesi o zaman "Uşaq allahı" adlandırırdılar. O uşaqlar arasında yayılan yoluxucu xəstəliklərin müalicəsi üzrə çox böyük fədakarlıqlar edirdi.

1906-cı ildə Gindesin təşəbbüsü ilə Bakıda ilk dəfə məktəb şagirdləri üçün yay düşərgələri təşkil edilmiş və fəhlə uşaqları üçün körpələr evi-gün ərzində qayğı göstərən bir müəssisə təşkil etmişdir.

Hətta o Qafqazda ilk uşaq məsləhətxanasının və uşaqlar üçün qida rasionunun düzgün aparılması məqsədi ilə "Bir damla süd" mətbəxinin də yaradıcısı olmuşdur. Milyonçu Ağa Musa Nağıyev, Murtuza Muxtarov, İsa bəy Aşurbəyli, Fətəli xan Xoyski və digər üzdə olan ziyalılar cəmiyyətin fəxri üzvi olaraq killi miqdarda vəsait xərcləmişlər. Uşaq ölümü ilə mübarizə cəmiyyəti ehtiyacı olan ailələrin uşaqlarına pulsuz yemək verir, onlara tibbi yardım göstərir, kimsəsiz qalan uşaqları uşaq evi və sanatoriyalara yerləşdirirdilər. Cəmiyyətin tərkibində işləyən gənc xanımlar uşaqlara qulluq edir, həftənin müəyyən günlərində uşaqların qidalanması ilə bağlı valideynlərə məsləhətlər verilirdi. O zaman mədə-bağırsaq xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün Balaxanıda müalicə mərkəzi yaradılmışdı, 5-14 yaşlı vərəmdən əziyyət çəkən uşaqlar üçün mərkəz də fəaliyyət göstərirdi. Daha sonra Gindes ADR yarandıqda onun 1918-19-cu illərdə Xalq Səhiyyə Naziri olmuşdur.

Sadalanan bütün bu faktlar dünyada sosial işin tarixinin yarandığı bir dövrdə Azərbaycanda eyni prosesin baş verdiyini və hələ ilk müstəqil demokratik respublikanın qurulmasından öncə ictimai şüurun formalaşdığı bir dövrdə əsasən dövrün üzdə olan insanlarını, ziyalılarını düşündürən əsas məsələlərin dinindən, dilindən asılı olmayaraq bütün insanların sosial müdafiəsi məsələsi olduğunu sübut edir.

**Ədəbiyyat:**

1. Azərbaycan Sovet Ensiklopediyası. Baş redaktor: C.B.Quliyev. 10 clddə. III cild. Bakı, 1979, 600 s., -s.153.
2. Cavadov C. Azərbaycanda Xeyriyyəçilik hərəkatı (XIX əsrin sonu – XX əsrdə). Bakı: Elm, 1999, 256 s.
3. Əliyeva L. Azərbaycan Qadınları Emansipasiya Yollarında (1918-1920-ci illər). Bakı 2018, 280 s.
4. İbrahimov M. H.Z.Tağıyevin toxuculuq fabrikinin yaradılması // "İqtisadçı" jurnalı, 1992, may, №13
5. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. İşlənmiş, əlavələr olunmuş II nəşri. Bakı: OKA Ofset, 2004. 348 s.
6. Charles Zastrow. Introduction to social work and social welfare. Australia, Belmont, 2010, 617p.
7. http://www.qazax.net/az/zp_mqiyasbeyli.htm

***Açar sözlər:*** *Azərbaycan, sosial iş, sosial rifah, sosial xidmət, sosial siyasət, sosial təminat, sosial xidmətlərin tarixi*

**Jeyran Rahmatullayeva**
*Candidate for a degree, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan,*
*Lecturer of the Social Work Program, Azerbaijan State University of Culture and Arts*

## THE HISTORY OF SOCIAL WORK AND SERVICES IN AZERBAIJAN

## SUMMARY

The article examines the history of social work and services. With regard to this, the first social services in the history of social policy of Azerbaijan were being discussed.

The author of current article analyzed existing views on the place and role of social services in Azerbaijan and provided appropriate recommendations. Large-scale reforms in the social, economic and political life of the society in the Republic of Azerbaijan, the establishment of market relations, the construction of a legal and democratic state have a positive impact on both the legal system and its individual spheres and institutions. New amendments in the legislation on social security are currently being implemented at a high level and intensively.

Significant reforms are being made in the institutions of retirement, social benefits, medical aid and social assistance, and meantime not only the scope of the forms, amounts, and social benefits of these types of social security, but also sources of funding are being revised.

Currently, the establishment of social work institutes and raising the professionalism of social workers are among the actual problems of Social Work in Azerbaijan. The Social Work has not been studied and taught as a science in Azerbaijan, as the country was part of Tsardom of Russia, then the Soviet Union. But today when it comes to social services in the social service policy of Azerbaijan, its history should also be considered. In the article, the author analyzed the comparative analysis of social and business history in the world and in Azerbaijan.

***Key words:*** *Azerbaijan, Social Work, Social Welfare, Social Service, Social Policy, Social Provision, History of Social Services*

**Джейран Рахматуллаева**
*Диссертант Академии Государственного Управления
при ПрезидентеАзербайджанской Республики,
преподаватель кафедры Социально-культурной деятельности
Азербайджанского Государственного Университета Культуры и Искусств.*

## ИСТОРИЯ ВОЗНИКНОВЕНИЯ СОЦИАЛЬНОЙ РАБОТЫ И СОЦИАЛЬНЫХ УСЛУГ В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

В статье анализируется процесс возникновения и развития социальной работы в Азербайджане. Обсуждаются первые социальные услуги в истории социальной политики Азербайджана. Автор также анализирует существующие подходы о роли и месте социальных служб в Азербайджане и дает соответствующие рекомендации в этом направлении.

Крупномасштабные реформы, проводимые в социальной, экономической и политической сферах в Азербайджане, установление рыночных отношений, построение правового и демократического государства оказывают положительное влияние не только на совершенствование правовой системы в целом, но и на ее отдельные механизмы и институты. В современном мире изменения законодательной системы в сфере социального обеспечения имеют интенсивный характер и осуществляются на высоком уровне. Реализуются серьезные реформы в медицинских учреждениях и учреждениях социальной помощи, в пенсионных вопросах и вопросах социального обеспечения, в том числе пересматриваются не только формы и виды социальных пособий, но также и источники финансирования. На сегодняшний день одним из важных актуальных вопросов является создание Института социальной работы и повышение профессионализма социальных работников. В период царской России и Советского Союза социальная работа в Азербайджане не рассматривалась как отдельная научная единица, и не изучалась. В своей статье автор проводит сравнительный анализ социальной работы в мире и Азербайджане.

***Ключевые слова:*** *Азербайджан, социальная работа, социальное благополучие, социальные услуги, социальная политика, социальное обеспечение, история возникновения социальных услуг*

## G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R
## Y O U N G  R E S E A R C H E R S

## S İ Y A S İ  İ N S T İ T U T L A R  V Ə  S İ S T E M L Ə R
## P O L I T I C A L  I N S T I T U T I O N S  A N D  S Y S T E M S

UOT 328; 342.5; 351/354

**ZÜRİYƏ QARAYEVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının doktorantı**
*e-mail: zuriye.babayeva@hotmail.com*

# PREZİDENT VƏ PARLAMENT İDARƏÇİLİK FORMALARININ MÜQAYİSƏSİ

### Giriş

İdarəçilik formalarının təsnifatında həm demokratik, həm qeyri-demokratik təsnifat mövcuddur. Həmin təsnifata əsasən hakimiyyət qollarının birliyi ilə mütləq monarxiya, diktatura; bölünməsi əsasında isə parlament, prezident və qarışıq idarəçilik formaları ortaya çıxmışdır. Bu formalar dövlət iqtidarının hansı şəkildə təşkilatlandığının və fəaliyyət göstərdiyinin göstəricisidir və əsasən ölkənin siyasi, sosial-iqtisadi və mədəni şərtlərinə görə dəyişir. Qanunverici və icraedici hakimiyyət qolları arasındakı əlaqə və bu əlaqəyə əsaslanaraq formalaşan idarəçilik formalarının müqayisəsinin siyasi ədəbiyyatda uzun tarixi var. Xüsusən son dövrlər bir neçə dövlətdə parlament və prezident idarəçilik formalarının bir-birinə siyasi transformasiyasının geniş yayılması belə bir sual doğurur: hansı idarəçilik forması daha güclüdür? Hökumətin parlamentin içərisindən yaranaraq ona tabe olması, yoxsa hər iki qanadın xalq tərəfindən seçilərək müstəqil olması daha uğurlu nəticələr ortaya çıxarır? Bu suallar bir çox elmi araşdırmanın məqsədlərini təşkil etsə də, onlara obyektiv cavab ortaya qoyulmamışdır. Müvafiq sistemlərin prinsipləri təhlil edilsə də, demokratik mühit üçün labüd olan faktorlar diqqətə alınmamışdır. Məqalədə müasir siyasi təcrübəyə əsaslanaraq seçki sistemi, partiya strukturu, siyasi mədəniyyət, əsas hüquq və azadlıqların qorunması kimi faktorlar nəzərə alınaraq yuxarıda sadalanan sualların obyektiv cavabı tapılmağa çalışılacaqdır.

### 1. Parlament idarəçiliyinin xüsusiyyətləri

Hal-hazırda parlament formasında idarəçilik üsulu müasir dünyada monarxiya, yaxud respublika quruluşuna məxsus olmasından asılı olmayaraq geniş yayılmış idarəetmə formasıdır. Bu formanı, dünya əhalisinin təxminən 2/5-ni (38%) əhatə edən 74 dövlət qəbul edib. Onlardan 38-i konstitusiyalı monarxiya, qalanları isə respublikadır. Parlament formalı idarəetmə üsulu liberal-demokrat və yeni yaradılmış demokratik dövlətlərdə də geniş tətbiq olunur. Bu dövlətlərdən 19-u Avropanın şimal və qərb hissəsində, 11-i Karib regionunda, 10-u isə Okeaniyada yerləşir. Bu cür idarəetmə üsulu, əsasən, kiçik dövlətlərdə üstünlük təşkil edir. Bununla belə, əhalisinin sayına görə dünyada ikinci yerdə olan Hindistanda da parlament formasında respublika idarəetmə üsulu mövcuddur [10, s.25].

Əsası İngiltərədə qoyulan parlament idarəçilik sistemində Nazirlər Kabineti parlament içərisində yaranır və onun qarşısında məsuliyyət daşıyır. Respublikalarda qanunverici məclisdə ən çox yerə sahib olan partiya rəhbəri dövlət başçısı təyin edilir. Hökumətin qurulmasında parlamentin etimadı vacibdir. Nazirlər Kabinetinin əsas vəzifəsi ölkənin ümumi siyasətini müəyyənləşdirmək və hökumət

olaraq dövləti idarə etməkdir. Dövlət başçısı isə icraçı deyil, təmsilçi roluna sahibdir [14, s.57]. Beləliklə, parlament respublikasında icra hakimiyyəti dövlət başçısı və Nazirlər Kabineti olmaqla iki ayrı orqan tərəfindən həyata keçirilir.

Parlament idarəçiliyində dövlət başçısı hansı yolla hakimiyyətə gəlirsə gəlsin, siyasi toxunulmazlığı var. Bu o deməkdir ki, parlament və ya başqa orqan tərəfindən səlahiyyətlərinə son qoyulması mümkün deyil [6, s.80-81]. Cəza toxunulmazlığı isə monarxiya və respublikalarda fərqlidir. Monarxiyalarda kralın şəxsiyyəti müqəddəs sayıldığından mütləq toxunulmazlığa sahibdir [6, s.108]. Respublikalarda isə, cəza toxunulmazlığı nə şəxsi cinayətləri, nə də vəzifəylə bağlı vətənə xəyanət və konstitusiya qaydalarını pozmaq kimi cinayətləri əhatə etmir. Parlament sistemində dövlət başçısının toxunulmazlıq hüququ olduğuna görə, onun yazılı prosedurlarının hüquqi və siyasi baxımdan məsuliyyətini daşımaq üçün müvafiq nazirin və baş nazirin imzasına ehtiyac var. "Ortaq imza" adlandırılan bu qayda ilə həyata keçirilən prosedurdan dolayı yaranacaq məsuliyyət nazirə və baş nazirə keçir [13, s.311].

Nazirlər Kabinetinin siyasi məsuliyyəti parlament idarəçiliyinin fərqli xüsusiyyətlərindən biridir. Nazirlər fərdi və kollektiv olaraq parlament qarşısında məsuliyyət daşıyırlar. Kollektiv məsuliyyət nazirlər kabinetinin ümumi siyasətinin müəyyən olunması və tətbiqindən yaranmışdır və bunun nəticəsində parlament etimadsızlıq göstərərək nazirlər kabinetinin səlahiyyətinə son verə bilər. Baş nazirə etimadsızlıq göstərildiyi halda da kabinet istefaya getmək məcburiyyətindədir. Fərdi məsuliyyət isə bir nazirin öz xidmətlərindən dolayı səlahiyyətlərinə son verilməsi halında ortaya çıxır. Fərdi məsuliyyət üçün müvafiq addımın nazirlər kabinetinin ümumi siyasətinə aid olmaması mütləqdir. Ancaq ümumi siyasətə aid olduğunu açıqlayaraq fərdi məsuliyyəti kollektiv məsuliyyətə çevirmək mümkündür [13, s.323-24].

Parlament sisteminin fərqli xüsusiyyətlərindən biri də, dövlət başçısının parlamenti fəaliyyət müddəti başa çatmadan istefaya göndərə bilməsidir. Parlament sisteminin "yumşaq" hakimiyyət bölgüsünə əsaslanması həm də bu xüsusiyyəti ilə bağlıdır [4, s.155].

Parlament respublikası qanunverici hakimiyyətin müəyyən qədər üstünlüyünə əsaslansa da, icraedici hakimiyyətin də parlamentdən üstünlüyünü təmin edəcək səlahiyyətləri mövcuddur. Belə ki, icraedici hakimiyyətin qanun təklifetmə haqqından əlavə, məclisin irəli sürdüyü qanun təkliflərini gözdən keçirmə və gecikdirmə haqqı var. Büdcəni icraedici hakimiyyət hazırlayır, parlament qəbul edir. Dövlətlərarası sazişləri icraedici hakimiyyət imzalayır, parlament təsdiqləyir. Hökumət parlamentdən aslı olmadan müstəqil siyasət yeridə bilər. Parlament isə hökumətə təlimat verə bilməz, sadəcə etimad göstərməyərək onu istefaya göndərə bilər [12, s.5]. Yəni, icraedici hakimiyyətin parlament qarşısında siyasi məsuliyyəti olsa da, parlament sistemində hər iki orqan hüquqi olaraq bir-birindən ayrı hakimiyyət qollarıdır.

**2. Prezident idarəçiliyinin xüsusiyyətləri**

"Prezident" termini Avropada ilk dəfə Fransada Beşinci Respublika dövründə dövlət başçısını bildirmək üçün istifadə edilmişdir. Amerika modeli" kimi adlandırılan prezident idarəçiliyi (presidential government) anlayışı isə ilk dəfə İngiltərəli yazıçıların əsərlərində vətəndaş müharibəsindən (1861-1865) əvvəl ABŞ-da mövcud olan siyasi sistemi ifadə etmək üçün işlədilmişdir. [11, s.9] ABŞ prezidenti Vudro Vilson kitabında Amerikan idarəçilik sistemini "konqres hökuməti" adlandırmışdır. Amerika modeli" kimi adlandırılan [10, s.87] prezident idarəçiliyinin klassik olaraq tətbiq edildiyi ABŞ-ın 1787-ci il konstitusiyasının əsas məqsədi hakimiyyətlər arasında balans yaratmaq olub. ABŞ-da ölkənin tarixi şərtləri, partiya sistemi, təzyiq qruplarının varlığı, ideoloji və etnik parçalanmadan uzaq siyasi mədəniyyət kimi amillər səbəbiylə çəkindirmə və tarazlaşdırma mexanizminin düzgün fəaliyyət göstərməsi sistemin uğurlu olmasına səbəb olmuşdur. Ona görə də

prezident respublikası deyilərkən ağla ilk bu dövlət gəlir. Hətta prezident respublikasına üstünlük verən ölkələr Amerika təcrübəsini nümunə olaraq qəbul edirlər. Icra hakimiyyətinin başçısı birbaşa vəya dolayısı ilə xalq tərəfindən seçildiyi və fəaliyyəti üçün parlamentin etimadına ehtiyacı olmadığı prezident idarəçiliyinin [9, s.20] 3 ən vacib xüsusiyyəti var. Bunlardan birincisi, hakimiyyətin qatı şəkildə bölünməsi; ikincisi, icraedici hakimiyyətin qanunverici hakimiyyətdən nisbətən üstün olması; üçüncüsü, hakimiyyət qollarının bir-birinə nəzarət etməsi. Hüquqi olaraq bərabər olan bu hakimiyyət qollarından icraedici hakimiyyət reallıqda daha üstün olduğu üçün bu idarəçilik forması prezident üsul-idarəsi adlanır. İcraedici, qanunverici və məhkəmə hakimiyyətləri bir-birinə qarışmırlar. Bu mexanizm ilə qanunverici hakimiyyət ABŞ Konqresinə, icraedici hakimiyyət prezidentə, məhkəmə hakimiyyəti isə ABŞ Ali Məhkəməsinə verilmişdir. Bu sistemdə prezident parlamenti ləğv edə bilmədiyi kimi, parlament də onu vəzifəsindən kənarlaşdıra bilməz [10, s.86-87].

Prezident respublikasında hakimiyyət qolları arasında "çəkindirmə və tarazlaşdırma" mexanizminin ABŞ konstitusiyası əsasında aşağıdakı qaydalarını göstərmək olar: bəzi dövlət məmurlarının (vitse-prezidentlər, hakimlər, səfirlər və s.) vəzifəyə təyinatında və eləcə də vəzifədən kənarlaşdırılmasında prezidentin təqdimatı əsasında Senatın təsdiqi [17, m.2/2]; müvafiq səs çoxluğu toplanmazsa prezidentin Nümayəndələr Palatası, vitse-prezidentin Senat tərəfindən təyin edilməsi[17, m.2/1]; prezidentin Konqresin qəbul etdiyi qanun təkliflərinə veto səlahiyyətinin olması (hər iki palatanın 2/3 səs çoxluğu ilə veto etdiyi qanunlar yenidən qüvvəyə minə bilər) [17, m.1/7]; vitse-prezidentin həm də Senatın rəhbəri olması; vətənə xəyanət, rüşvət və ağır cinayətlər törədildikdə Nümayəndələr Palatasının 2/3 səs çoxluğu ilə prezidenti İmpiçment vasitəsilə vəzifədən uzaqlaşdırması [17, m.1/2]; beynəlxalq müqavilələrin imzalanması, eləcə də müharibə və sülh elan edilməsi prezidentin səlahiyyətlərinə daxil olsa da, Senatın 2/3 səs çoxluğu ilə təsdiq edilməsi[17, m.1/8]; büdcənin icraedici hakimiyyət tərəfindən hazırlanıb qanunverici hakimiyyətin təsdiqinə təqdim edilməsi və Konqres büdcəni qəbul etməmə və ya dəyişmə səlahiyyətinə sahib olması; Konqresin icraedici hakimiyyətin fəaliyyətiylə bağlı araşdırma aparması (Ancaq araşdırma neqativ halları üzə çıxarsa belə prezidentə qarşı heç bir hüquqi tədbir görülə bilməz (impiçment üçün nəzərdə tutulan hallar istisna olmaqla)) [7, s.94]; prezidentin birbaşa qanun təklifi səlahiyyəti olmasa da, hər ilin yanvar ayında hər iki palatanın birlikdə keçirilən iclasında Konqresdə qəbul edilməsini zəruri görən təklifləri səsləndirməsi [7, s.96]; məhkəmənin qanunların konstitusiyaya uyğunluğuna nəzarət etməsi; məhkəmə üzvlərinin Senat tərəfindən mühakimə edilməsi [17, m.3/2].

### 3. Hansı idarəçilik forması daha güclüdür?

Parlament və prezident idarəçilik sistemləri həm güclü, həm də zəif cəhətlərə malikdirlər. Bu cəhətləri müasir dövlət nümunələrini göz önündə tutaraq təhlil edək.

Prezident idarəçiliyinin dəstəklənməsində əsas səbəb qatı hakimiyyət bölgüsü, parlamentlə hökumət arasında çəkindirmə və tarazlıq mexanizminin olmasıyla dövlət gücünün məhdudlaşdırılması və nəticədə insan hüquq və azadlıqlarının qorunması üçün daha yaxşı sistemin qurulmasıdır. Prezident olmaq istəyən şəxs birbaşa xalqın dəstəyinə ehtiyacı olduğu üçün xalqa qarşı daha həssas olur. Ancaq qatı hakimiyyət bölgüsü baxımından yanaşdıqda, bu idarəçiliyin ideal nümunəsi olan ABŞ-da belə prezidentin digər hakimiyyət orqanlarına təsiri özünü göstərir. Məsələn, ABŞ dövlət başçısı öz mövqeyinə yaxın hakimləri məhkəmə orqanlarına təyin edir [18] və nəticədə hakimlərin prezidentin fikirlərinə uyğun qərarlar qəbul etməsinə səbəb olur. Bu halda məhkəmənin müstəqillik və tərəfsizlik prinsipi pozulmuş sayılır. ABŞ-da həmçinin prezidentlərin mesaj və gizli görüşmələr vasitəsilə Konqres üzvlərinə təsir edərək büdcə haqqında

qanunun Konqresdən keçməsini təmin etdikləri görülmüşdür. Müharibə elan etmə qərarı Konqresə aid olsa da, Amerika tarixində prezidentlərin Konqresin təsdiqi olmadan hərbi əməliyyatlara başlaması faktına iki yüz dəfədən çox rast gəlinmişdir [11, s.80]. Bütün bunlar göstərir ki, prezidentin büdcə və qanun qəbulu səlahiyyətlərinin olmaması reallığa uyğun deyil və belə güclü dövlət başçılarının «çəkindirmə və tarazlaşdırma» prinsipinə tabe tutulması mümkün olmur.

Prezident idarəçiliyində qərar qəbulu prosesi digərindən daha sürətlidir. Xüsusən, prezident və parlamentdəki çoxluq eyni mövqedə olarsa eyni siyasi proqram uğurla həyata keçirilmiş olur. Fərqli partiyaya mənsub olduğu zaman isə prezident idarəçiliyində prezident və parlament hər ikisi xalq tərəfindən seçildiyi üçün və bir-birlərindən aslı olmadığı üçün ikili legitimlik iddiası yarana bilir. Bu ehtimal hökumət ilə parlament arasında qarşılıqlı iddialaşmalara və iqtidar mübarizələrinə yol aça bilər. Xüsusilə, bu iki hakimiyyət siyasi baxışlarına görə fərqlənərsə onlar arasında əməkdaşlıq aradan qalxar və sistem kilidlənmələrinə (kilidlənmə – legitimlik mübarizəsi və qütbləşmə nəticəsində qanunun qəbul edilə bilməməsidir) səbəb ola bilər. Buna misal olaraq qeyd etmək olar ki, 1995-ci ildə ABŞ-da Demokratlar Partiyasından Bill Klinton və Respublikaçıların üstünlük təşkil etdiyi Konqres nəticədə, hətta büdcə layihəsində belə razılığa gələ bilməmişdir [17]. Türkiyədə isə 2017-ci ildə qəbul edilən dəyişikliklərə əsasən tətbiq edilmiş yeni prezident sistemində Ədalət və İnkişaf Partiyasının irəli sürdüyü dəyişiklik bu vəziyyətin həlli kimi hər iki hakimiyyət qoluna vaxtından əvvəl seçkiyə getmək imkanı vermişdir [5, s.280]. Lakin bu vəziyyət də hökumət sabitliyi aradan qalxmış olur.

Prezident respublikasında prezidentə parlament tərəfindən etimad göstərilməməsi siyasi sabitliyi təmin edir və hökumət böhranları yaşanmır. Ancaq bu sabitlik sadəcə hökumət çərçivəsində mövcud olarsa siyasi sabitliyi təmin etmiş sayılmaz. Hökumət sabitliyi demokratiya yaradarsa siyasi sabitliyə çevrilər. Əks halda bu idarəçilik parlament idarəçiliyinə alternativ ola bilməz [2, s.405].

Prezident idarəçiliyinin başqa üstünlüyü seçicilər üçün daha çox seçim imkanı verir. və hakimiyyət üçün fərqli partiyaları seçmək imkanı verməsidir. Belə ki, seçicilər qanunverici orqan üçün bir partiyanın, icraedici hakimiyyət üçün başqa partiyanın namizədini dəstəkləyə bilirlər [11, s.7]. Parlament idarəçiliyində isə hökumət də parlament içərisindən çıxdığına görə hər iki orqan üçün eyni partiya dəstəklənmiş olur (Bu qayda xalis parlament idarəçiliyinə məxsusdur. Prezidentin də xalq tərəfindən seçildiyi pozulmuş parlament idarəçiliyinə aid deyil).

Prezident üsul idarəsində səlahiyyət müddətinin sabit olması, icraedici və qanunverici hakimiyyətlərin hər ikisinin xalq tərəfindən seçilməsi bir-biri üzərində hegemoniya qura bilməməsi baxımından demokratiyaya daha yaxın olsa da [1, s.407], bir şəxsin iki dəfədən çox seçilə bilməməsi xalq tərəfindən bəyənilən prezidentlərin bir seçki periodunu gözləmək məcburiyyətində qoyur və ya bir daha seçilməməsinə səbəb olur. Bu qayda uğurlu siyasətçilərin kariyeralarına mane olduğu kimi, hakimiyyətdə olan prezidentin də müxalifətin tələblərini diqqətə almamasına səbəb ola bilir [11, s.7].

Bu idarəçilikdə prezident çox səlahiyyətə sahib olduğu üçün avtoritarlığa meyl edə [11, s.8], qalib olan hər şeyi qazana, məğlub olan isə hər şeyi itirə bilər. Belə olduqda, tabeçilik münasibətlərinin hökm sürdüyü partiya sistemi və siyasi mədəniyyətin zəif olması qütbləşmə yaradır və bu da sistemin kilidlənməsinə səbəb ola bilir. Sartorinin fikrincə, Latın Amerikası ölkələrində prezident idarəçiliyinin uğurlu olmamasının əsas səbəbi partiya sisteminin bu idarəçiliyə uyğun olmamasıdır [5, s.286].

Parlament idarəçilik formasında isə hökumət məclis içərisindən çıxdığı üçün ikili legitimliyin yaranma ehtimalı azdır, yaransa da hər ikisinin bir-birini istefaya göndərmək səlahiyyəti olduğu üçün problem xalq səsverməsi ilə tez zamanda həll edilir. Hökumət və parlament eyni proqramı tətbiq edir. Prezident isə siyasi proqramı olmayan, neytral mövqeli

fiqur sayılır (Türkiyədə 1982-ci il konstitusiyası prezidentə simvolik səlahiyyətlərdən daha artığını verdiyi üçün bu sistem ``pozulmuş parlament sistemi`` adlanır). Parlamentdəki çoxluqla hökumət eyni partiyaya məxsus olmadıqda isə orada məclisin hökuməti etimadsızlıq göstərərək istefaya göndərmə səlahiyyəti olduğu üçün sistem daha elastikdir və böhranların rahat həlli mümkündür. Bu fikir Duverger tərəfindən də dəstəklənmişdir. Duverger, İngiltərə baş nazirinin ABŞ prezidentindən daha güclü olduğunu bildirmişdir [5, s.284].

Parlament sistemində prezident idarəçiliyindən fərqli olaraq, qalib olan hər şeyi qazanmaz, məğlub olan isə hər şeyi itirməz. Çünki, hökumət parlamentə tabedir. Hökumətin istefaya göndərilməsi ehtimalı kiçik partiyaların da tələblərini diqqətdə saxlamağa məcbur edir. Digər tərəfdən, bu sistemdə koalisiya hökumətləri də qurulduğu üçün, bir çox siyasi partiyaya hökumətdə yer almaq şansı verilir.

Lakin etimadsızlıq və hökumətə təsir mexanizmlərinin güclü olması parlament üsul-idarəsinin ən zəif cəhəti olan hökumət böhranlarına da yol aça bilir. Türkiyədə 1969-1982-ci illərdə 19 hökumət dəyişikliyi yaşanmışdır. İtalyada 1948-1992-ci illərdə 50 dəfə hökumət qurulmuşdur. Belçika, Danimarka, Finlandiya, Hollandiya, Norveç, İsveç kimi parlament üsul-idarəsi olan dövlətlərdə ortalama hökumət ömrü 22 aydır [3, s.115]. Ancaq bu fikrin özünü də tənqid edənlərə görə, bu sistemdə nizamsızlıq yaradan amil koalisiya hökumətləri və dolayısı ilə partiya sistemləridir.

Bundan əlavə, parlament idarəçiliyində xalqın birbaşa hökuməti seçə bilməməsi, kimin hökumət edəcəyinin əvvəldən məlum olmaması, koalisiya hökumətlərində xalqın hansı partiyanı günahlandıracağını bilməməsi zəif demokratiyaya yol aça bilər [3, s.114]. Nəticədə hakimiyyət xalqın siyasi iradəsini əks etdirməyə bilər.

Beləliklə, hər iki idarəçilik sisteminin güclü və zəif tərəfləri var. Hər sistemin də uğurlu olduğu ölkələr var. Məsələn, prezident idarəçiliyi ABŞ-da, parlament sistemi isə İngiltərədə uğurludur. Lakin bu o demək deyil ki, başqa ölkələrdən də eyni uğuru gözləmək olar. Məsələn, Ermənistan kimi tabeçilik münasibətlərinə əsaslanan partiya sisteminin mövcud olduğu, seçki nəticələrinin əvvəlcədən məlum olduğu, hakimiyyətin xalqa hesabat vermədiyi bir dövlətdə parlament idarəçiliyinin İngiltərədəki kimi nəticələr verməyi mümkün deyil. İngiltərəli siyasətşünas alim Norman Barriyə görə, demokratik bir sistemde azad, rəqabətli və ədalətli seçkilər əsasında idarəçiliyin formalaşması vacibdir. [8, s.103] Seçki periodunda və hökumət qurulduqdan sonra müxalif fikirlərə qarşı tolerantlıq, sərbəst toplaşma, siyasi iştirak, uzlaşma mədəniyyəti də seçkilər qədər vacibdir. Bu baxımdan yalnız "hakimiyyət bölgüsü" prinsipi kifayət etmir.

**Nəticə**

Son dövrlərin həm təcrübə, həm də nəzəri baxımdan aktual mövzularından biri də idarəçilik formalarının əsasən parlament və prezident idarəçiliklərinin transformasiyası. Bu mənada bu idarəçilik formalarından hansının daha güclü olduğu, demokratik nəticələr doğuracağı daima diqqətdədir. Lakin fərqli siyasi mədəniyyətin, seçki və partiya sisteminin mövcud olduğu ölkələrin hamsından eyni nəticəni gözləmək mümkün deyil. Ona görə də bu suallara cavab axtararkən həmin faktorları diqqətdən qaçırmaq olmaz. ABŞ-da prezident üsul-idarəsinin uğurlu olması bu idarəçiliyin parlament sistemindən üstün olduğunu deməyə kifayət etmir. Eləcə də, Ermənistan kimi demokratiyanın kasad olduğu dövlətdə parlament idarəçiliyi rejim daxilindəki xaosun səbəbkarı deyil. Təhlildən göründüyü kimi, hər iki sistemin güclü tərəfləri digərinin zəif tərəfidir.

Yekun olaraq, yuxarıda adları çəkilən idarəçilik formalarının hansının tətbiq olunmasından asılı olmayaraq, idarəçilik formasının müəyyən dövlətdə demokratik olması orada xalqın hakimiyyətin formalaşmasında nə dərəcədə iştirak etməsiylə bağlıdır. Hakimiyyət qolları arasında əlaqənin xarakterindən asılı

olmadan, əgər hüquq dövləti, əsas hüquq və azadlıqların işləmə mexanizmləri, məhkəmə nəzarət sistemi, vətəndaş cəmiyyəti, siyasi mədəniyyət kimi amillər qaydasında deyilsə orada demokratiyadan söz açıla bilməz. Bir ölkədə mətbuat nümayəndələri fikirlərinə görə həbs edilirsə, fikir azadlığı mövcud deyilsə, məmurlar hesabat verməkdən yayınırsa, onların özbaşınalıqları mühakimə edilmirsə o ölkə hansı idarəçilik sisteminə məxsus olmasından aslı olmayaraq demokratiyadan uzaqdır. İstər prezident, istərsə də parlament üsul-idarəsində idarə olunanlar idarə edənləri seçməkdə sərbəstdirsə, idarə edənlər isə idarə olunanlar qarşısında cavabdeh olub yenidən seçilmələri üçün onların etimadını qazanması vacibdirsə, təşkilatlanma hüququ məhdudlaşdırılmamışsa, siyasi fərqliliklər özünü rahat büruzə verirsə, bu zaman həmin idarəçilik demokratik sayıla bilər.

**Ədəbiyyat:**


1. Akçalı, P. ‘‘Genel Özellikleri Yararları Ve Sakıncaları Işığında Başkanlık Sistemleri’’, Yeni Türkiye, Sayı: 51, 2013
2. Aktaş M., Coşkun B. “Başkanlık sistemi Karşılaştırmalı Bir İnceleme ve Türkiye İçin Değerlendirmeler”, 1. Basım, Ekim 2013
3. Çağlar, N. ``Avantaj ve dezavantajlariyla parlamenter hükümet sistemi``. Kastamonu Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi- Cilt 19, Sayı 4, s 111-117, 2017
4. Efe H.; Kemahli F.; Kotan M.L. “Türkiye’nin Parlamenter Sistem Deneyiminin Önemi", KAÜ İİBF Dergisi, 6(11), s.149-176, 2015.
5. Faruk Atay. ``Adalet ve Kalkınma Partisinin başkanlık sistemi üzerine değerlendirme``. Alternatif Politika, Cilt 5, Sayı 3, 266-294, Aralık 2013.
6. Gözler K. Devlet Başkanları: Bir Karşılaştırmalı Anayasa Hukuku İncelemesi, Bursa 2001.
7. Gözler K. Anayasa Hukukuna Giriş. Bursa: Ekin Basım Yayın Dağıtım, 2007
8. Gül, H. “Amerikan Başkanlık ve Fransız Yarı-Başkanlık Sistemleri Işığında Türkiye’nin Yeni Cumhurbaşkanlığı Hükümeti Sistemi”, Strategic Public Management Journal Volume 3, Special Issue, p.p 101-120 December, 2017
9. Gürcan, E. C. Hükümet Sistemleri., Özdağ Ü. (Editör). 21. Yüzyılda Prens: Devlet ve Siyaset Yönetimi, Kripto Yayınları, Ankara, 2012
10. Həsənov Ə., Vəliyev A. Dünya ölkələrinin müasir siyasi sistemləri, Bakı, Zərdabi LTD, 2013
11. Karşılaştırmalı hükümet sistemleri: başkanlık sistemi (ABD, Arjantin, Azerbaycan, Brezilya ve Nijerya örnekleri). TBMM Araştırma Hizmetleri Başkanlığı. Ankara, 2017, https://www.tbmm.gov.tr/yayinlar/baskanlik_sistemi.pdf
12. Karşılaştırmalı Hükümet Sistemleri: Parlamenter Sistem (Almanya, Güney Afrika, Hindistan, İngiltere, İtalya ve Japonya Örnekleri), TBMM Araştırma Hizmetleri Başkanlığı yayınları, 2-ci baskı, Ankara, 2017, https://www.tbmm.gov.tr/yayinlar/parlamenter_sistem.pdf
13. Özbudun, E.Türk Anayasa Hukuku, Gözden Geçirilmiş 6. Baskı, Yetkin Yayınları, Ankara 2000
14. Shugart, “Presidentialism, Parliamentarism, and the Provision of Collective Goods in Less-Developed Countries”, s. 57, https://slideheaven.com/presidentialism-parliamentarism-and-the-provision-of-collective-goods-in-less-de.html
15. Teziç, E.‘‘Başkanlık Rejimini Anlamak’’, Yeni Türkiye, Sayı: 51, 2013
16. “Disadvantages of presidential system”, https://www.academia.edu/9165588/Disadvantages_of_presidential_system
17. “The Constitution of the United States”, http://constitutionus.com/

***Açar sözlər:*** *idarəçilik forması, parlament, hökumət, prezident idarəçiliyi, parlament idarəçiliyi*

**Zuriya Garayeva**
*PhD student, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## COMPARISON OF PRESIDENTAL AND PARLIAMENTARY FORMS OF GOVERNMENT

### SUMMARY

There are three types of democratic republic governance forms. It includes presidential system where executive and legislative branches are elected by people, without any responsibility to each other; parliamentary system where only legislative branch or even more head of the state are elected by people, but government derives its democratic legitimacy from its ability to command the confidence of the legislature; semi-presidential system, which consists of the mixed properties of these two forms of government.

In the modern world practice, as the political system adjustment is experienced between presidential and parliamentary governments, the article is mostly concentrated on these two forms of governance.

The article is devoted to a comparative analysis of the presidential and parliamentary forms of governance. Considering modern practices, the aim of current study is to analyze which form of government is stronger and leads to democratic outcomes.

In this context, firstly the principles of parliamentary and presidential forms of governance were examined, strong and weak sides were listed, then a comparative analysis was conducted and responses were presented to the above-mentioned questions.

This analysis was conducted due to the investigation of the sources related to the subject, the examination of the obtained results, the analysis and synthesis of the arguments and also the comparative analysis method.

***Key words:*** *Forms of Government, Parliament, Government, Presidential System, Parliamentary System*

**Зурия Гараева**
*Докторант Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

## СРАВНЕНИЕ ПРЕЗИДЕНТСКИХ И ПАРЛАМЕНТСКИХ ФОРМ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ

### РЕЗЮМЕ

Существует три типа республиканской формы демократического госуправления. Это президентское управление, в котором президент и парламент всенародно избираются отдельно, не подчинены друг другу. Парламентское управление, где только законодательный орган или глава государства избираются всенародно, но состав правительства выходит из парламента и подчинены парламенту. Полупрезидентское или смешенное управление, в котором вовлечены специфики двух вышеуказанных форм управления. Статья посвящена сравнительному анализу президентских и парламентских форм государственного управления. Цель исследования - проанализировать, какие формы правления сильнее и могут привести к демократическим результатам, учитывая современную практику. В этом контексте были рассмотрены принципы парламентских и президентских форм управления, указаны их сильные и слабые стороны, затем был проведен сравнительный анализ и представлены ответы на вышеупомянутые вопросы. Этот анализ проводился с изучением источников, связанных с предметом, анализом полученных результатов, анализом и синтезом аргументов, а также методом сравнительного анализа.

***Ключевые слова:*** *формы государственного управления, правительство, парламент, президентская управления, парламентская управления*

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R
I N T E R N A T I O N A L R E L A T I O N S

UOT 327; 930.22

**ŞAİQ ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının dissertantı**
*e-mail: aliyev-ays@mail.ru*

# REGİON DÖVLƏTLƏRİNİN CƏNUBİ QAFQAZ SİYASƏTİNİN XÜSUSİYYƏTLƏRİ (RUSİYA, TÜRKİYƏ, İRAN)

Cənubi Qafqaz – qədim dövrdən günümüzə qədər Şərq və Qərb dövlətləri arasında əlaqələndirici olmaqla yanaşı, Yaxın və Orta Şərqlə Avropa arasında yerləşən ticarət yollarını birləşdirən regiondur. Bu səbəbdən tarix boyu Cənubi Qafqaz regionu miqrasiya dalğası ilə nəticələnən işğalçı dövlətlərin hücumlarına məruz qalmışdır. Müasir dövrdə regionun böyük dövlətlərinin hər birinin Cənubi Qafqazda siyasi və iqtisadi maraqları mövcuddur. Yazılmış məqalədə region dövlətlərinin Cənubi Qafqaz dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərinin inkişaf etdirilməsi ilə yanaşı, bu inkişafa maneə törədən məsələlər də araşdırılmışdır. Regionda iqtisadi layihələrin həyata keçirilməsində dövlətlərin əməkdaşlığının əhəmiyyəti verilmişdir.

Zbiqnev Bjezinskinin 1998-ci ildə yazdığı «Böyük Şahmat taxtası» adlı kitabında Cənubi Qafqazı coğrafi olaraq «Asiyanın Balkanları» adlandırdığı əraziyə daxil etmişdir. Burada o, baş verən geosiyasi və geoiqtisadi prosesləri təhlil etməklə yanaşı, 2015-ci ilə qədər Cənubi Qafqazda baş verə biləcək hadisələr haqqında proqnozlarını da vermişdi. Bjezinski yazır: «Avrasiya Balkanları»nda tarixi ambisiyalar və təhlükəsizlik ambisiyaları baxımından ən azı üç ən güclü qonşuların, yəni Rusiya, Türkiyə və İranın, həmin ərazidə siyasi maraqları get gedə daha da artacaqdır. Buna baxmayaraq, bu üç dövlət üçün «Avrasiya Balkanları» və həmin əraziyə daxil olan Cənubi Qafqaz da iqtisadi mənfəətlər baxımından mühüm əhəmiyyət kəsb edir» (8, s.65). Təbii ki, regionun qızıl, təbii qaz və neft ehtiyatlarının olması ilə yanaşı, onların Qərbə nəqlinin də bu baxımdan vacib olmasını qeyd etmək lazımdır.

Cənubi Qafqaz dövlətləri ilə həmsərhəd olan Türkiyə, Rusiya və İran kimi regionun üç böyük dövləti ilə ayrı-ayrılıqda münasibətlərinə nəzər yetirsək tarixi kökləri, etnik və din faktorlarından daha üstün iqtisadi faktorların olduğunu görərik. Müasir dövrdə Cənubi Qafqazda geosiyasi və geoiqtisadi maraqları mövcud olan İran hər üç dövlətlə ayrı ayrılıqda qarşılıqlı münasibətləri inkişaf etdirməkdədir. İran İslam Respublikasının regionda vacib geostrateji vəziyyətinin olması faktı da heç kimə sirr deyil. Qeyd olunan faktorlardan əlavə, İran Qafqaz, Orta Şərq, Mərkəzi Asiya, Xəzər dənizi hövzəsi, Fars və Oman körfəzlərinə nəzarət edən və Hind okeanına çıxışı olan bir dövlətdir. Regionda baş verən etnik və dini münaqişələr, hərbi və iqtisadi qarşıdurmalar, qaçqınlarla bağlı problemlər, narkobizneslə bağlı problemlər, terror və separatizmlə bağlı problemlər iqtisadi və siyasi münaqişələr İranın təhlükəsizliyinə təhdidlər sırasına daxildir. Təbii neft-qaz ehtiyatlarının mövcudluğu və enerji ehtiyatlarının daşınması baxımından İran regionda aparıcı mövqeyə malikdir. İslam Respublikasının Cənubi Qafqaz

dövlətləri ilə münasibətlərini birmənalı şəkildə qiymətləndirmək olmaz. Tarixi köklərə və dini faktora baxmayaraq, Bakı və Tehran arasında «qardaş» münasibətləri olduğunu qeyd etmək çətin olardı. Həm rəsmi Bakı, həm də Tehran daim iki ölkə arasında dostluq və sıx münasibətlərin dərin tarixi köklərə əsaslanaraq inkişaf etdiyini qeyd edir. Lakin, məhz tarixi köklərə əsaslanaraq iki dövlət arasında münasibətlər müasir dövrdə əks yöndə inkişaf etməkdədir (6). Məsələn, İranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Ermənistan dövlətinin tərəfində olması iki dövlət arasında dostluq münasibətlərinə maneə olduğunu söyləmək olar. İran da öz növbəsində Azərbaycanı özünün əbədi düşmənləri İsrail və ABŞ-la strateji tərəfdaşlıqda günahlandırır. İran nöqteyi-nəzərindən şimal qonşu olan Azərbaycan İslam Respublikasına qarşı potensial aqressiya üçün potensial plasdarma çevrilmişdir. Tehran belə hesab edir ki, Bakı İsrailə İranın nüvə bazalarına hücumu üçün hərbi arena yaradılmasına şərait yaratmağa hazırdır. Lakin son dövrlərdə baş verən hadisələr Tehranın Azərbaycana qarşı olan iddialarının əsassız olduğunu göstərdi. Bütün bunlara baxmayaraq, İranla Azərbaycan arasında iqtisadi və humanitar sahədə münasibətlər inkişaf etməkdədir.

Cənubi Qafqazın digər bir dövləti olan qriqoryan Ermənistanı ilə şiə təriqətli İranı praktiki olaraq müttəfiq hesab etmək olar. İki dövlət arasında yüksək səviyyədə münasibətlər və siyasi dialoqlar olması ilə yanaşı, iqtisadi, hərbi və mədəni əlaqələr ciddi şəkildə inkişaf etdirilir. XX əsrin ikinci onilliyindən başlayaraq Ermənistan İranla strateji əhəmiyyət kəsb edən bir çox layihə həyata keçirmişdir. Dəmir yolunun tikilişi, neft terminalının tikilişi, Ermənistan ərazisində Araz çayı üzərində ən böyük yüksək voltlu elektrik enerjisinin ötürülməsi və su elektrik stansiyasının tikilişi əsas layihələrdəndir. 2012-ci ildə İran Xarici İşlər Naziri Əli Salehinin «Ermənistanla dost münasibətlərin mövcudluğu bizim dövlət üçün böyük əhəmiyyət kəsb edir və günü-gündən bu münasibətlər daha da dərinləşir...» (7) sözləri və onun erməni həmkarı Eduard Nalbandyanın eyni dövrdə Ermənistan və İran arasında heç bir problem olmamasını qeyd etməsi rəsmi səviyyədə bu münasibətlərin dostluq və müttəfiqlik münasibətləri olmasını sübut etmişdir. Rəsmi səviyyədə keçirilən görüşlərdə Ermənistan, İranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı «balanslaşdırılmış» siyasətindən razı qaldıqlarını bildirməsi Tehranın Bakı ilə münasibətlərinin gərginləşməsinə səbəb olmaqdadır.

İran-Gürcüstan münasibətlərinə gəldikdə, iki dövlət arasında siyasi və iqtisadi maraqlardan əlavə ideoloji aspektlərin olmasının şahidi oluruq. İran rəhbərliyi dəfələrlə ABŞ-ın regionda hərbi cəhətdən mövcudluğunun narazılığını bildirmişdir. Tehranın fikrincə Cənubi Qafqazda Tiflisin Vaşinqtonla müttəfiqliyi İranın təhlükəsizliyinə birbaşa təhdiddir. Gürcü-amerikan əməkdaşlığının daha çox hərbi yardıma əsaslanması və ABŞ-ın hərbi qüvvələrinin Gürcüstanda mövcudluğu İranı əsaslı şəkildə narahat edir. Bəzi ekspertlər bu əməkdaşlığı «ABŞ-ın hərbi nüfuzunu nəzərə alaraq Gürcüstanın təhlükəsizliyinin və suverenliyinin qarantı», digərləri isə «regionda müharibələrin aparılması üçün ABŞ tərəfindən plasdarmın yaradılması» kimi qiymətləndirirdilər. 2009-cu ilin yanvarında ABŞ və Gürcüstan arasında imzalanmış strateji tərəfdaşlıq haqqında müqavilənin əsasında 2012, 2014, 2016-cı illərdə ABŞ-ın hərbi müdafiə ekspertlərinin Gürcüstana gəlməsi İranı narahat etməyə bilməzdi. Bütün qeyd olunan məsələlərə baxmayaraq, həm tarixi, həm coğrafi nöqteyi- nəzərdən hər üç Cənubi Qafqaz dövləti İranı bir güc faktoru kimi nəzərdə saxlamaqla yanaşı, münasibətləri inkişaf etdirməkdə maraqlıdılar (7).

Yuxarıda deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, İranın Cənubi Qafqazın üç dövləti ilə münasibətləri zaman-zaman birmənalı olmamaqla yanaşı, ağır da hesab etmək olar. Belə olduğu halda İranın Cənubi Qafqaz dövlətləri üçün hər hansı bir ciddi təhlükə yaratdığını qeyd etmək olmaz. Yalnız Azərbaycan Respublikası üçün islam və ideoloji cəhətdən İran tərəfindən ekspansiya təhlükəsi ola bilərdi

ki, 25 illik müstəqillik tarixində regionda öz iqtisadi gücünü möhkəmləndirən Azərbaycan Respublikasının belə bir təhlükə ilə qarşılaşması qeyri mümkündür. İranın Cənubi Qafqaz dövlətlərinin iqtisadi ekspansiyasından söhbət belə gedə bilməz. Belə ki, İranın Cənubi Qafqaz qonşuları ilə iqtisadi-ticari dövriyyəsi yalnız bir neçə yüz milyon dollar təşkil edir. Bundan əlavə hər üç dövlət iqtisadi münasibətlərin inkişaf etdirilməsində Qərbə üstünlük verir. Hərbi ekspansiyanın isə qədim dövrlərdə qaldığını qeyd etmək olar. Regionda mövcud hərbi münaqişələr fonunda Ermənistan İranla hərbi əməkdaşlıq etsə də, Gürcüstan və Azərbaycanın ABŞ və NATO-nun təhlükəsizlik çətirinin altında olması qüvvələr nisbətinin kimin xeyrinə inkişaf etdiyini açıq göstərir.

Müəyyən zaman çərçivəsində Cənubi Qafqaz Türkiyə-Rusiya, Rusiya-İran, Türkiyə-İran arasında qarşıdurmaların səbəbi olmuşdu. XX əsrin 20-ci illərində Cənubi Qafqazda sovet hökumətinin yaradılması və regionun Rusiyaya birləşdirilməsi 70 il ərzində Türkiyənin regiondan uzaqlaşması ilə nəticələnmişdir. XX əsrin son 20 ilində isə Türkiyə Cümhuriyyəti Cənubi Qafqaz dövlətləri ilə geniş münasibətlər yaratmağa nail olmuşdur. Müasir Türkiyə bütün post-Sovet məkanında əhəmiyyətli iqtisadi və maliyyə ağırlığına malikdir. Cənubi Qafqaz dövlətləri ilə münasibətlərin inkişaf etdirilməsi bu Avrasiya respublikası üçün Qara dəniz sərhədlərini idarə etməyə imkan verən strateji mövqeyi və Xəzər-Qara dəniz regionunda təhlükəsizliyin təmin edilməsi baxımından önəmli rol oynayır.

Türkiyə İslam dinini tanıyan, dini və siyasi proseslərə təsir göstərməyə çalışan güclü dövlət olmaqla yanaşı, keçmiş Sovet İttifaqının bütün xalqları ilə qarşılıqlı mədəni əlaqələri inkişaf etdirməyə çalışır. Orta Şərqdəki bir sıra müsəlman ölkələri ilə müqayisədə regionda Türkiyənin təsiri daha güclüdür. Qeyd etmək lazımdır ki, Türkiyə müasir dövrdə Orta Şərqdə İslamın üstün olduğu dövlətdir və o, dünyəvi siyasi sistemə malik olaraq Qərb tərzində demokratiyanın elementlərini uğurla birləşdirməyi bacarmışdır.

Cənubi Qafqaz dövlətləri arasında Türkiyə ilə dostluq və qardaşlıq əsasında münasibətlərin qurduğu dövlət Azərbaycan Respublikasıdır. Bu münasibətlər bütün müstəvilərdə, həmçinin iqtisadi, siyasi, mədəni, humanitar sahələrdə yüksək səviyyədə inkişaf etdirilir. Türkiyə Cümhuriyyəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması istiqamətində beynəlxalq kürsülərdə Azərbaycanı dəstəkləməklə yanaşı, istər hərbi cəhətdən təchiz olunma, istərsə də hərbi tədris və təlimlər baxımdan əməkdaşlıq yüksək səviyyədədir. 1994-cü il sentyabrın 20-də imzalanmış «Əsrin müqaviləsi»nin xarici neft şirkətlərinin konsorsiumunda «Türk petrolları» şirkətinin təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının ilk əsas təzahürü idi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci il mayın 5-8-də Türkiyəyə rəsmi səfəri zamanı keçirilən bütün görüşlərdə ölkəmizin Türkiyə ilə münasibətlərinin daha da inkişafına xüsusi əhəmiyyət verdiyi göstərildi. Belə ki, səfər çərçivəsində «Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında Bəyannamə», eləcə də iki ölkə arasında münasibətləri yüksək səviyyəyə qaldırmış və müxtəlif sahələri əhatə edən ümumilikdə 9 sənəd imzalandı (1). Günümüzə qədər Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında ikitərəfli və qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi istiqamətində onlarla sənəd və müqavilələr imzalanmışdır.

Azərbaycan regionda həyata keçirilən qlobal iqtisadi layihələrində Türkiyənin yaxından iştirakına daim xüsusi diqqət yetirir. Avropa ilə Şərq ölkələri arasında nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılması sahəsində mühüm əhəmiyyət kəsb edən «Avropa-Qafqaz-Asiya Transqafqaz» nəqliyyat dəhlizi (TRASEKA) proqramının dəstəyi ilə 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın iştirakı ilə tarixi «Böyük İpək Yolu»nun bərpasına dair Bakıda keçirilmiş beynəlxalq konfrans Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlığın genişlənməsinə

yeni stimul vermişdi. (2,s98) Bu layihə ilə yanaşı, digər iqtisadi layihələrin həyata keçirilməsi istiqamətində atılan addımlar, xüsusilə Xəzərin enerji resurslarının dünya bazarlarına nəql olunması sahəsində Azərbaycan ilə Türkiyə arasında davamlı əməkdaşlığın genişləndirilməsi hər iki dövlətin regionda siyasi-iqtisadi və strateji maraqlarının təmin edilməsinə xidmət edir.

Azərbaycanın neft strategiyasının həyata keçirilməsi regional sabitliyin möhkəmləndirilməsi və qonşu dövlətlərlə, xüsusilə Türkiyə ilə strateji tərəfdaşlıq münasibətlərinin daha da dərinləşməsində mühüm əhəmiyyət kəsb edir. Xəzər regionunda fəal mövqeyi ilə seçilən və Azərbaycanın bütün məsələlər üzrə müttəfiqi hesab edilən Türkiyə dövləti əsas diqqətini respublikamızın neft ehtiyatlarının xarici bazarlara çıxarılması üzərinə cəmləşdirib. Bu məqsədlə də Türkiyə hökuməti Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri marşrutunu irəli sürüb və kəmərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bir sıra təkliflərlə çıxış edib. 2008-ci il Rusiya-Gürcüstan müharibəsindən sonra Türkiyə də Rusiya kimi regionda qüvvələr nisbətini bərabərləşdirmişdi. Belə ki, rəsmi Ankara Ermənistanla münasibətlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qurulacağını, işğal olunmuş ərazilərin geri qaytarılacağı təqdirdə düzələcəyini bütün kürsülərdə dəfələrlə vurğulamaqdadır.

Türkiyə ilə Ermənistan arasında münasibətlərin gərgin olmasının tarixi kökləri, qondarma «erməni soyqırımı» və Türkiyənin Avropa İttifaqına qəbul olunmamasında erməni lobbisinin fəaliyyəti və bir sıra məsələlər durur. 2009-cu ildən başlayaraq iki dövlət arasında münasibətlərin inkişaf etdirilməsi istiqamətində protokollar imzalandı və yol xəritələri hazırlandı (9, s126). Lakin Ermənistanın Türkiyəyə qarşı siyasətində heç bir müsbət dəyişiklik olmadığı üçün iki dövlət arasında münasibətlər gərgin olaraq qalmaqdadır.

Cənubi Qafqazda Türkiyə ilə müttəfiq olan digər bir dövlət Gürcüstandır. Amerikalı sosioloq və politoloq Samuel Hantinqtonun qeyd etdiyi kimi, milli mənafeyin tanınması üçün əvvəl millətin özünü tanıması və kim olduğu barədə bir fikrə sahib olması lazımdır. Rusiya, Sovet İttifaqının dağılmasından sonra keçmiş Sovet İttifaqının torpaqlarının 75%-nə malik bir dövlət kimi Qərbdən Şərqə doğru geniş bir məkanda, fərqli strategiyalar izləyəcək bir mövqedə beynəlxalq siyasətdə yerini almışdır (11, s.203).

Regionun ən böyük dövləti olan Rusiyanın Cənubi Qafqaza təsirinin böyük olmasının bir çox səbəbləri var. Belə ki, 70 ildən artıq bir müddətdə Sovet İttifaqının tərkibində qalmasından daha əvvəl XIX əsrin əvvəlindən Cənubi Qafqaz torpaqlarının Rusiya hakimiyyəti altında olmasını nəzərdən qaçırmaq olmaz. XX əsrin əvvəllərində qısa bir müddətdə Cənubi Qafqaz dövlətləri müstəqilliyini əldə etsələr də, regionun digər güclü dövlətlərindən fərqli olaraq Rusiya Federasiyasının regiona müasir dövrdə də davam edən siyasi təsiri mövcuddur. 1991-ci ildə Sovet İttifaqının dağılması ilə regionda siyasi və iqtisadi tənəzzül baş vermişdir. Bu, yenicə müstəqillik əldə etmiş Cənubi Qafqaz dövlətləri ilə rəsmi Moskva arasında münasibətlərdə öz əksini tapmışdır.

Rusiya Cənubi Qafqaz dövlətlərindən Ermənistanla ittifaq, Azərbaycanla mühüm siyasi və iqtisadi tərəfdaş münasibətlərinə malikdir. Ən aşağı səviyyədə Rusiya-Gürcüstan münasibətləri xarakterizə edilir və bu əsasən Gürcüstanın hakim elitasının anti-Rusiya siyasəti ilə müəyyənləşdirilir. Cənubi Qafqaz dövlətləri ilə münasibətlərdə bu fərqlərin ən azından Moskvanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Gürcüstan-Abxaziya və Gürcüstan-Osetiya münaqişələri ilə bağlı mövqeyini müəyyənləşdirdiyini qeyd etmək olar.

Ümumiyyətlə, ABŞ-dan fərqli olaraq Cənubi Qafqaz regionunda Rusiya siyasəti, demək olar ki, sistemsiz formada həyata keçirilir. Əsas məqsəd regionda nəzarəti əldən qaçırmamaqdır. Cənubi Qafqaz respublikalarının əhalisi arasında rus dilinin və mədəniyyətinin

yayılmasını, Rusiyanın rolunu əhatə etmək sahəsində fəal iş aparmasını da nəzərə almaq lazımdır. Rusiya qlobal informasiya məkanında dövlətin imicini yaxşılaşdırmağa, Cənubi Qafqazda həyata keçirilən Qərb layihələrində daha fəal iştirak etməyə çalışır.

SSRİ dağıldıqdan sonra, Rusiya Federasiyası yaşanmışları həzm etdikdən sonra ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq Cənubi Qafqaz dövlətləri ilə qarşılıqlı və hərtərəfli münasibətləri inkişaf etdirməyə başlamışdı. Təbii, tarixin uzun keçən dövrü ərzində Cənubi Qafqaz dövlətlərini mərkəzdən əmrlər verməklə idarə etdiyi halda, indi regionda yaranmış olan müstəqil dövlətlərlə münasibətlərin qurulmasını xarici siyasət konsepsiyasına daxil etməli idi. Cənubi Qafqaz ABŞ-ın xarici siyasət prioritetlərinin ən qabaqcıl məsələlərindən biri olmasa da , bu regiona diqqəti mühümdür. Lakin ABŞ-dan tam fərqli olaraq Cənubi Qafqaz dövlətlərinin hər biri ilə münasibətlərin qurulması Rusiyanın xarici siyasətinin əsas prioritet məsələlərindən biridir.

Rusiya XX əsrin 90-cı illərinin ortalarından başlayaraq Azərbaycanla sıx iqtisadi münasibətlər qurmağa başlamışdı. XX əsrin 90-cı illəri üçün iki dövlət arasında mal dövriyyəsi milyardlarla dollar həcmində ölçülürdü. Gürcüstanla iqtisadi münasibətlər qurularkən əsasən enerji bazarlarında aktiv fəaliyyət göstərməyə başlamışdı. Ermənistan isə müasir dövrə qədər yeganə Cənubi Qafqaz dövlətidir ki, buradakı rus hərbi bazaları hələ də saxlanılmaqdadır, hətta inkişaf etdirilməkdədir.

Rusiyanın son zamanlarda yürütdüyü beynəlxalq və regional təhlükəsizlik siyasəti, Ukraynada həyata keçirdiyi hərbi geostrateji kurs, bu ölkəni təmsil edən bəzi rəsmi dairələrin anti-Qərb və anti–NATO mövqeyi Qərbin rəsmi dairələrini ciddi narahat etsə də, bu ölkənin neçə illərdir ki, Cənubi Qafqazda işğalçı Ermənistana ATƏT-in nəzarətindən kənar çoxsaylı və təmənnasız hərbi yardım göstərməsi, Ermənistan vasitəsilə, həm də dolayı yolla Dağlıq Qarabağdakı separatçı rejimi silahlandırması faktı onlar tərəfindən sükutla qarşılanır.(3,s 655) Təbii ki, bu, Rusiya üçün Cənubi Qafqaz regionunda milli təhlükəsizliyi təmin etmək baxımından vacibdir. Bu günə qədər Cənubi Qafqaz ölkələrinin Rusiya ilə münasibətləri yalnız öz maraqlarının müdafiəsi istiqamətində aparılmışdır.

2008-ci ildə baş vermiş Rusiya-Gürcüstan müharibəsi Sovet İttifaqının dağılmasından sonra Rusiyanın hər hansı müstəqil dövlətə qarşı ilk hərbi əməliyyatı olaraq tarixə keçmişdi. Müharibə nəticəsində Rusiyanın ATƏT üzvü olan ölkənin sərhədlərinə hücumuna cəld reaksiya verməkdə çətinlik çəkən Qərb təhlükəsizlik sisteminin zəif cəhətləri ortaya çıxsa da Qərbi Avropa və Şərqi Avropa ölkələri arasındakı bölünmə Rusiya ilə münasibətlərdə də özünü biruzə verdi. Rusiya bu müharibə ilə Ukrayna və digər post-Sovet dövlətlərinə NATO-ya mümkün daxil olma cəhdlərinin xarici işğal və ölkənin iflası ilə nəticələnəcəyi mesajı verdi (13). Abxaziyanın effektiv ilhaqı da Rusiyanın əsas geosiyasi hədəflərindən biri idi. Bunu biz Ukrayna hadisələrində Rusiyanın Krıma və Dombasa hərbi müdaxiləsindən sonra görürük.

Gürcüstanın ABŞ və NATO ilə hərbi əməkdaşlığının inkişaf etdirməsi nəinki rəsmi Tehranı, həmçinin rəsmi Moskvanı da narahat edən məsələlərdən biridir. Belə ki, İran kimi Rusiya da Cənubi Qafqazda hərbi qüvvələrin mövcudluğunu öz təhlükəsizliyinə təhdid kimi qəbul edir. Şərqi Avropa və Yaxın Şəqrdə baş verən hadisələr Cənubi Qafqaz dövlətlərinin geosiyasi və geoiqtisadi vəziyyətinə də təsirsiz ötüşməmişdir. Krım müharibəsinə ABŞ-ın münasibəti Avropa İttifaqının daxilində baş verən iqtisadi və siyasi problemlərə də gətirib çıxarmışdı. Bunlara Böyük Britaniyanın Avropa İttifaqından çıxması, Rusiya-Gürcüstan münasibətlərinin gərginləşməsi nəticəsində ABŞ-ın mövcud vəziyyətə hakim olması, Yaxın Şərq regionunda sabitliyin pozulması nəticəsində beynəlxalq enerji bazarlarında dəyişikliklər kimi hadisələri misal göstərmək olar (14).

Nəticə olaraq qeyd etmək olar ki, Rusiya bölgədəki hər dövlətlə əlaqələrini tənzimləyəcək proqram və layihələr hazırlayıb, irəli

sürməlidir. Məsələn, Avropa İttifaqı tərəfindən Azərbaycan, Ermənistan və Gürcüstan üçün ayrı-ayrılıqda inkişaf etdirilən Tərəfdaşlıq və Əməkdaşlıq Sazişləri və Avropa Tərəfdaşlıq və Qonşuluq Alətləri haqqında sənədləri göstərmək olar. Bu cür sənədlər Rusiyanın Cənubi Qafqaz dövlətləri ilə bağlı daha ardıcıl siyasət aparmağa imkan verməklə yanaşı, Moskvanın xarici siyasətində regionla bağlı xüsusi olaraq nəyi nəzərdə tutduğunu və ikitərəfli münasibətlərin qurulmasında və birgə proqramların həyata keçirilməsində hansı maliyyə və siyasi vasitələrin iştirak edəcəyini aydın şəkildə göstərə də bilər. Cənubi Qafqaz respublikalarının əhalisini əhatə edən xüsusi iqtisadi və humanitar layihələrin maksimuma çıxarılması müsbət məqamdır. Cənubi Qafqaz ölkələrinin ərazilərində yayılacaq bir sıra yüksək peşəkarlığa malik rusdilli mətbuat orqanlarının yaradılması və maliyyələşdirilməsi nəzərdə tutulur. Bu cür media Rusiyanın regionda və hər bir ölkədə siyasətini və xarici qüvvələrin fəaliyyətini əhatə etmək üçün, o cümlədən Qafqazda olmağının səbəbləri və onların fəaliyyətinin mümkün nəticələri barədə məlumatları izah etmək üçün Azərbaycan, Ermənistan və Gürcüstan əhalisinin geniş dairələrinə yönəldilməlidir.

Rusiya hökumət orqanları həm rəsmi xətt, həm də qeyri-hökumət təşkilatları vasitəsilə Cənubi Qafqaz ölkələrində müxalifət partiyaları və hərəkatları ilə daha fəal çalışmaqdadır. Humanitar layihələrin həyata keçirilməsindən iqtisadi problemlərin həllinə qədər geniş tapşırıqların yerinə yetirilməsi üçün çox təsirli vasitə olan qeyri-hökumət təşkilatlarını qeyd etmək lazımdır. Rusiya ilə Cənubi Qafqaz arasında münasibətlərin inkişafının hazırkı mərhələsində Rusiya Avropa İttifaqı kimi qeyri-regional aktorların həyata keçirdiyi layihələrin reallaşmasına birbaşa təsir göstərir (10). Bunun daha da möhkəmləndirilməsi ilə gələcəkdə Rusiyanın əhalisi və keçmiş SSRİ dövlətləri üçün cəlbedici olan öz mədəniyyət layihəsini inkişaf etdirməlidir. Bu, Rusiya dövlətinin inteqrasiya mərkəzi kimi fəaliyyət göstərməsinə imkan verəcəkdir. Belə addımlardan biri də Avrasiya iqtisadi birliyini göstərmək olar.

Sirr deyil ki, Cənubi Qafqazda yalnız İran, Rusiya və Türkiyənin geosiyasi və geoiqtisadi maraqları deyil, həmçinin Rusiya, Türkiyə, ABŞ və Avropa İttifaqının maraqları da kəsişir. Məhz buna görə hər bir Cənubi Qafqaz dövlətinin regional siyasətinin vektorları olaraq ikitərəfli və çoxtərəfli münasibətlər həndəsi fiqurları xatırladaraq birləşdiyini qeyd etmək olar. Cənubi Qafqazda dövlətlərin maraqlarını səkkiz bucaqlı vektorlarla qiymətləndirmək olar: Azərbaycan-Gürcüstan-Ermənistan-Türkiyə-İran-Rusiya-ABŞ-Avropa İttifaqı. Son dövrlərdə bir çox ekspertlər qüvvələr nisbətinin aşağıdakı kimi formalaşdığını da qeyd edirlər: Azərbaycan-Gürcüstan-Türkiyə-ABŞ-İsrail bir tərəfdə, digər tərəfdə İran-Ermənistan-Rusiya. Burada daha çox iqtisadi maraqlar nəzərdə tutulsa da siyasi və hərbi maraqları da gözdən qaçırmaq olmaz.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında sənədlərin imzalanması mərasimində mətbuat üçün bəyanatın – İstanbul, «Çankaya köşkü» 5 may 1997-ci il http://lib.aliyevheritage.org/az/11064341.html
2. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəsmi internet səhifəsi «Azərbaycan-Qafqaz-Asiya-Beynəlxalq Nəqliyyat dəhlizi» http://www.mincom.gov.az/az/view/pages/103/
3. Ə.Həsənov «Azərbaycanın Geosiyasəti» Bakı 2015, 1053 s.
4. İran İslam Respublikası Xarici İşlər Nazirliyinin rəsmi internet səhifəsi - www.mfa.gov.ir:

5. Rusiya Federasiyasının xarici işlər Nazirliyinin rəsmi saytı - www.mid.ru.
6. Mahir Həlifzadə. Иран и Борьба за влияние на Южном Кавказе https://cyberleninka.ru/article/n/iran-i-borba-za-vliyanie-na-yuzhnom-kavkaze
7. Владимир Сажин Иран и Южный Кавказ. Геополитика.ru https://www.geopolitica.ru/article/iran-i-yuzhnyy-kavkaz
8. Збигнев Бжезинский. Великая Шахматная Доска (Господство Америки и его геостратегические императивы). NY., 1997, 255 s. (tərcümə M. 1998)
9. А.Лукиню. Роль Росии и Турции в системе безопасности Южного Кавказа. М.2011
10. Эльшан Насибов. Геополитическое значение южного Кавказа в политике США в отношении России и Ирана. Пересечение стратегических интересов в регионе. http://www.nplg.gov.ge/gsdl/cgi-bin/library.exe
11. Firat Karabayram «Rusya Federasyonunun Güney Kafkaz politikası» Ankara 2007, 309 s.
12. Goncharov P. U.S. in Caspian Region and Russia's Position // RIA Novosti, 4 May 2005 [http://en.rian. ru/analysis/20050504/39817504.html?id].
13. Masimoglu V. Turkey-Azerbaijan Strategic Alliance Treaty and Russia-Armenia Military Agreement: Status-quo in the Southern Caucasus Remains Unchanged //Analytics, APA News Agency, 20 August 2010 [http:// en.apa.az/news.php?id=128191].
14. Engdahl F.W. The U.S. «s Geopolitical Nightmare // Asia Times, 9 May 2006 [http://www.atimes. com/atimes/China/HE09Ad01.html]; Kaliyeva D. The Geopolitical Situation in the Caspian Region // UNISCI DISCUSSION PAPERS. Research Unit on International Security and Cooperation [http://revistas.ucm.es/cps/ 16962206/articulos/UNIS0404130011A.PDF].


***Açar sözlər:*** *Cənubi Qafqaz dövlətləri, iqtisadi maraqlar, qarşılıqlı münasibətlər, hərbi tərəfdaşlıq, regional siyasət*

**Shaiq Aliyev**
*PhD student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## FEATURES OF THE SOUTH CAUCASIAN POLICY OF THE REGIONAL COUNTRIES (RUSSIA, TURKEY, IRAN)

### SUMMARY

The South Caucasus is the coordinating point between the East and the West, as well as a region that unites trade routes between the Middle East and Europe from ancient times to the present. Therefore, throughout the history the South Caucasus has been exposed to the attacks of the occupying states that resulted in migration waves. In the modern era, each of the great states of the region has political and economic interests in the South Caucasus.

The article deals with the development of bilateral and multilateral relations of regional states with the South Caucasus, as well as problems impeding the development of these relations. Importance of cooperation between the states in the implementation of economic projects in the region is also highlighted in this article.

***Key words:*** *South Caucasus, Economic Interests, Mutual Relations, Military Partnership, Regional Policy*

**Шаиг Алиев**
*Диссертант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ХАРАКТЕРИСТИКА ЮЖНОКАВКАЗСКОЙ ПОЛИТИКИ РЕГИОНАЛЬНЫХ ГОСУДАРСТВ (РОССИЯ, ТУРЦИЯ, ИРАН)

### РЕЗЮМЕ

Южный Кавказ является стратегически важным пунктом между Востоком и Западом, а также регионом, объединяющим с древних времен и по сегодняшний день торговые пути между Ближним Востоком и Европой. Поэтому на протяжении всей истории Южный Кавказ подвергался нападениям оккупирующих государств, которые привели к миграционным волнам. В современную эпоху у каждой из региональных держав есть политические и экономические интересы на Южном Кавказе. В статье рассматриваются вопросы развития двусторонних и многосторонних отношений региональных государств с Южным Кавказом, а также проблемы, препятствующие развитию этих отношений. В статье также подчеркивается значение сотрудничества между государствами в реализации экономических проектов в регионе.

***Ключевые слова:*** *Южный Кавказ, экономические интересы, взаимоотношения, военное партнерство, региональная политика*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

***DİA-da "Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi"nin növbəti məşğələsi keçirilib***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Heydər Əliyev Mərkəzinin dəstəyi ilə fəaliyyət göstərən "Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi"nin növbəti açıq məşğələsi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi arasında olan əməkdaşlıq əsasında bu dəfəki açıq məşğələnin dinləyiciləri ASAN könüllülər idi.

Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi ilə tanışlıqdan sonra DİA-nın rektoru, akademik Urxan Ələkbərovun "Davamlı və inklüziv inkişaf üçün innovativ idarəetmə: Azərbaycan Respublikasının təcrübəsi" mövzusunda məruzəsi dinlənilib.

Ümummilli lider Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən, zəngin dövlət idarəçilik təcrübəsinin əhəmiyyətindən danışan akademik U.Ələkbərov Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib. Rektor bu gün əldə edilmiş nailiyyətlərin əsasında Prezident İlham Əliyevin həyata keçirdiyi innovativ inkişaf strategiyasının dayandığını diqqətə çatdırıb. Azərbaycanın bir çox istiqamətlərdə regional və qlobal liderə çevrildiyini qeyd edən akademik U.Ələkbərov son 15 ildə ölkəmizdə davamlı və inklüziv inkişaf üçün iqtisadi baza yaradıldığını vurğulayıb. Qeyd olunub ki, Azərbaycan son illərdə bir çox davamlı inkişaf göstəriciləri və sosial indikatorlara görə "Böyük İyirmilik" və "Böyük Yeddilik" ölkələrinin əksəriyyətini üstələyir. Akademik U.Ələkbərov ölkəmizin inkişaf göstəricilərinin bir çox beynəlxalq təşkilatlar, o cümlədən BMT, Dünya Bankı və digər nüfuzlu qurumların rəsmi sənədlərində, müstəqil ekspertlər tərəfindən hazırlanmış hesabatlarda təsdiqini tapdığını da xüsusi vurğulayıb.

Rektor bildirib ki, qazanılan uğurların kökündə yalnız yaxşı idarəçilik, Prezident İlham Əliyevin tətbiq etdiyi innovativ idarəetmə texnologiyaları və dövlət institutlarının, vətəndaş cəmiyyətinin və özəl sektorun birgə fəaliyyətinin kombinasiyası dayanır. Qeyd edilib ki, 2018-ci ilin yanvarında keçirilən Davos forumunun hesabatında inklüziv inkişaf indeksinə görə Azərbaycan keçid iqtisadiyyatına malik ölkələr arasında üçüncü yerdə qərarlaşaraq, iqtisadi göstəriciləri daha yüksək olan Avropa İttifaqı ölkələrini belə, geridə qoyub. Akademik U.Ələkbərov innovativ inkişaf strategiyasının reallaşdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın xüsusi rolunu qeyd edib və bu sahədə dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyətinin, xüsusilə Heydər Əliyev Fondunun önəmli fəaliyyətini diqqətə çatdırıb.

U.Ələkbərov diqqətə çatdırıb ki, ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə DİA-nın yaradılmasının məqsədi dövlət idarəetmə sahəsi üçün gənc mütəxəssislərin hazırlanması işinin müasir tələblərə uyğun qurulması, onların peşəkarlıq səviyyəsinin artırılması, dövlətimizin möhkəmləndirilməsi və elmi əsaslarla idarə olunmasıdır. Dövlət qulluğu üçün gənc kadrların hazırlanması məsələləri üzrə əsas elmi-metodiki və tədris mərkəzi olan DİA-nın qarşısında çox məsul vəzifə durmaqdadır. Rektor ölkə iqtisadiyyatının sürətli inkişafı istiqamətində aparılan uğurlu siyasətin əsas hədəflərini, eləcə də davamlı inkişafa təsir edən amilləri beynəlxalq təşkilatların hesabatları ilə müqayisəli şəkildə gənclərin diqqətinə çatdırıb.

Sonda gəncləri maraqlandıran suallar cavablandırılıb.

***DİA-da tələbələr üçün seminar keçirilib***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Hüquqşünaslıq ixtisasında təhsil alan tələbələr üçün növbəti seminar keçirilib.

Bu dəfəki seminar Rusiya Federasiyası Hökuməti yanında Ali İqtisadiyyat Məktəbinin Elmi Tədqiqat Universitetinin Hüquq fakültəsinin dekanı, Rusiya Federasiyasının Əməkdar hüquqşünası dos. Evgeni Nikolayeviç Salıgin və onun müavini hüquq üzrə fəlsəfə doktoru Fatima Məmmədovanın iştirakı ilə keçirilib. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının humanitar və sosial məsələlər üzrə prorektoru, h.e.d. prof. Mehdi Abdullayev seminarda qonağı salamlamış, onun haqqında iştirakçılara geniş məlumat vermişdir.

Rusiya Federasiyasının Əməkdar hüquqşünası Evgeni Nikolayeviç Salıgin təmsil etdiyi məktəb haqqında geniş məlumat vermiş, Rusiya hüquq elminin inkişaf trendləri barədə məruzə etmişdir. Daha sonra Dövlət İdarəçilik Akademiyası "Hüquq-I" kafedrasının müdiri h.ü.f.d. dos. Fəxrəddin Nağıyev, müəllimlər Rahib Əkbərov, Araz Qədiməliyev, Leyla Əliyeva, Fəridə Əliyeva, Zaur Məmmədov və digərləri seminarda çıxış edərək öz mülahizələrini bölüşmüşlər. Seminarın sonunda tələbə gəncləri maraqlandıran suallar cavablandırılıb. Sonda qonaqlara Azərbaycan həqiqətlərini əks etdirən disk və kitablar hədiyyə edilmiş, belə tədbirlərin mütəmadi keçirilməsi fikri dəstəklənmişdir.

## *Dövlət İdarəçilik Akademiyasının komandası Beynəlxalq Yarışmanın mükafatçıları sırasında!*

9–11 oktyabr tarixlərində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) Enactus Komandası ABŞ-ın Kaliforniya Ştatının San Jose şəhərində (Silikon vadisi) keçirilən "Enactus" Dünya Kuboku 2018 yarışmasında iştirak etmişdir.

Qeyd edək ki, Enactus – biznesin və sahibkarlığın dəstəyi ilə daha yaxşı və davamlı inkişaf edən dünya üçün bu günün və sabahın liderlərinin təşəbbüslərini bir araya gətirən universitetlərarası beynəlxalq platformadır.

Enactus yarışmasında iştirak edən universitet komandalarının BMT-nin müəyyənləşdirdiyi 2030-cu il üçün 17 davamlı inkişaf məqsədi ətrafında qurulan sahibkarlıq layihələri insanların həyat standarlarını, maddi rifahını artırmaq məqsədilə tələbələrin, universitetlərin və biznesin gücünü birləşdirir. Bu qlobal təşəbbüsə isə, il ərzində 70 minə yaxın tələbə qatılır.

Dünyanın 5 qitəsindən 36 ölkənin 1500-dən çox universitet komandalarının iştirak etdiyi yarışmada ilk növbədə ölkədaxili milli çempionatlar həyata keçirilərək dünya çempionatında ölkəni təmsil edəcək komandalar seçilir. Cari ilin 19 aprel tarixində ADA Universitetində keçirilən Enactus Azərbaycan Milli Çempionatında birincilik əldə etməklə dünya kubokunda ölkəni təmsil etmə haqqını isə DİA Enactus komandası qazanmışdır.

DİA-nın müxtəlif ixtisas və kurslarında təhsil alan təşəbbüskar, yaradıcı və savadlı tələbələrindən ibarət komanda 13 nəfərdən ibarət heyətlə dünya çempionatında təmsil olunmuşdur. Tələbələr beynəlxalq yarışmada bir il müddətində həyata keçirdikləri sosial və ekoloji məsuliyyətli, davamlı biznes layihələri ilə dünyanın qabaqcıl şirkətlərindən olan münsiflər qarşısında təqdimat etmişdir.

Münsiflərin seçiminə əsasən Azərbaycan komandası daxil olduğu liqada 3-cü yerə layiq görülmüşdür. Qeyd edək ki, Enactus Dünya Kubokunu Kanadanı təmsil edən komanda qazanmış, Misir komandası isə ikinci yerə layiq görülmüşdür. Yarışın nəticələrinə əsasən, Azərbaycan komandası Niderland, Çin, Avstraliya kimi ölkə komandalarından yüksək nəticə göstərmiş, MDB ölkələri arasında isə ən yüksək nəticə göstərən ölkə olmuşdur.

DİA komandasının cari ildə əldə etdiyi nəticə indiyə qədər Azərbaycanın yarışmada əldə etdiyi ən yüksək nəticə olmuşdur. Qeyd edək ki, Azərbaycan "Enactus" proqramına 2005-ci ildən etibarən qoşulub və bu müddət ərzində ölkəmizin müxtəlif ali məktəblərinin komandaları bu yarışmaya qatılıb. Dövlət İdarəçilik Akademiyası isə ilk dəfə 2016-cı ildə ölkə

çempionu olaraq Kanadanın Toronto şəhərində keçirilən dünya birinciliyində 17 nəfərlik heyətlə iştirak etmişdir.

Qeyd etmək lazımdır ki, Enactus sadəcə kubok uğrunda bir yarış deyil, eyni zamanda, müxtəlif millətləri təmsil edən komandaları birləşdirən bir platformadır.

Həmçinin tədbir çərçivəsində "Parade of Champions" və "World Cultural Experience" tədbirləri keçirilmişdir. Çempionlar Paradında Azərbaycan bayrağı digər 35 ölkə bayraqları arasında dalğalandırılmış, mədəniyyət günündə isə Azərbaycan mədəniyyəti, mətbəxi, təbiəti və incəsənəti tələbələr tərəfindən təbliğ olunmuşdur.

## *AMEA Rəyasət Heyətinin və Dövlət İdarəçilik Akademiyasının Elmi Şurasının birgə iclası keçirilib*

Oktyabrın 24-də AMEA Rəyasət Heyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi Şurasının birgə iclası keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri, professor Fərəh Əliyeva, Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, professor Etibar Nəcəfov, Milli Məclisin deputatları, elm xadimləri, təhsil ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

DİA-da keçirilən iclası açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə bildirib ki, son vaxtlar Rəyasət Heyəti ilə müxtəlif dövlət qurumlarının, ayrı-ayrı nazirliklərin, nüfuzlu ali təhsil müəssisələrinin birgə iclaslarının keçirilməsi ənənə halını alıb. Müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi və mədəni-mənəvi inkişafının son on beş illik tarixinin bilavasitə Prezident İlham Əliyevin adı ilə bağlı olduğunu deyən akademik vurğulayıb ki, ölkə başçısı Prezidentlik fəaliyyətinə başlayarkən ilk irəli sürdüyü şüar "Neft kapitalını insan kapitalına çevirməliyik!" devizi olub. Akademik bu şüarın təbii resurslara əsaslanan iqtisadiyyatdan biliklər iqtisadiyyatına keçidi ölkənin strateji hədəfi elan etdiyini, son on beş ildə ölkəmizin bu hədəfə doğru addım-addım yol gəldiyini söyləyib.

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "İnklüziv inkişaf və innovativ idarəetmə texnologiyaları: Azərbaycan Respublikasının təcrübəsi" mövzusunda məruzə ilə çıxış edib. Ölkəmizin bu il inklüziv inkişaf sahəsində dünyada yüksək mövqe qazandığını bildirən alim vurğulayıb ki, Davos İqtisadi Forumunun dəyərləndirmələrinə görə, Azərbaycan keçid iqtisadiyyatına malik ölkələr arasında üçüncü yeri tutur. Qeyd edib ki, bu qrupdakı ölkələrin üstün iqtisadi imkanlarının olmasına baxmayaraq, onların arasında Azərbaycan Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvü olan bir çox dövlətlərdən öndədir.

Akademik ölkəmizin inklüziv inkişaf edən cəmiyyətin qurulması istiqamətində qazandığı uğurların başlıca faktorunun insan potensialının formalaşdırılması və səfərbər edilməsinə elmi yanaşma olduğunu söyləyib. O, həmçinin idarəetmədə istifadə olunan bu yeni sinergetik, komplementar və kompensasion texnologiyalar və onların kompleks tətbiqi sayəsində qazanılan nailiyyətləri geniş təhlil edib.

Məruzə dinlənildikdən sonra müzakirə olunub, suallar cavablandırılıb, Rəyasət Heyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi Şurası müvafiq qərar qəbul edib.

İclasda AMEA-nın adlı mükafatları üzrə qaydalara dəyişiklik edilməsi məsələsinə baxılıb. Akademik Akif Əlizadə bildirib ki, AMEA-nın adlı mükafatları elmin inkişafına böyük töhfələr verən və mühüm nailiyyətlər qazanan alimləri daha yüksək səviyyəli tədqiqatlar aparmağa həvəsləndirmək, həmçinin Azərbaycanın bir sıra görkəmli alimlərinin xatirəsini əbədiləşdirmək məqsədilə 2014-cü ildə təsis edilib. Akademik bildirib ki, ötən müddət ərzində hər il adlı mükafatlar üçün müsabiqə elan olunub, müvafiq elm sahələrini təmsil






edən görkəmli alimlər mükafatlarla təltif ediliblər.

Rəyasət Heyəti adlı mükafatlara təqdim olunan alimlərin daha dəqiq meyar və prinsiplər əsasında müəyyənləşdirilməsi məqsədilə müsabiqənin iki ildən bir elan edilməsini qərara alıb.

Gündəlikdə yer alan növbəti məsələ AMEA professorlarının koordinasiya şurasının Əsasnaməsinin təsdiqi ilə bağlı olub. AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyev bildirib ki, "Azərbaycan Milli Elmlər Akademiyasının professoru" elmi adı 2017-ci ildə Rəyasət Heyətinin qərarı ilə təsis olunub.

AMEA-nın professorlarının Akademiyanın elmi və elmi-təşkilati həyatında daha yaxından iştirakına nail olmaq, AMEA Nizamnaməsi ilə müəyyən edilmiş vəzifələrin icrasında, habelə kadr hazırlığında və innovativ fəaliyyətin inkişafında onların fəal iştiraklarını təmin etmək məqsədilə Rəyasət Heyətinin müvafiq qərarı ilə AMEA professorlarının koordinasiya şurası yaradılıb. Həmin qərara əsasən AMEA professorlarının koordinasiya şurasının Əsasnaməsinin layihəsi Rəyasət Heyətinə təqdim edilib.

Rəyasət Heyəti qeyd olunanları nəzərə alaraq şuranın Əsasnaməsini və tərkibini təsdiq edib.

Tədbirdə "Fizika və lirika" beynəlxalq elmi konfransına dair müzakirə aparılıb. AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, akademiya tərəfindən müxtəlif elm sahələri arasında əlaqələri inkişaf etdirmək üçün ənənəvi olaraq "Fizika və lirika" konfransları keçirilir. Bu günə kimi dörd dəfə keçirilmiş konfranslar respublikada geniş əks-səda doğurub, humanitar və tətbiqi elmlərin nümayəndələri tərəfindən rəğbətlə qarşılanıb. Akademik vurğulayıb ki, növbəti tədbirin AMEA-nın və MDB dövlətlərinin humanitar əməkdaşlıq üzrə Beynəlxalq Fondun təşkilati və maliyyə dəstəyi ilə noyabrın 14-dən 18-dək Bakı və Şamaxı şəhərlərində, noyabrın 21-dən 24-dək isə Rusiyanın Dubna şəhərində keçirilməsi nəzərdə tutulur. Rəyasət Heyəti qeyd olunanları nəzərə alaraq, növbəti "Fizika və lirika" beynəlxalq elmi konfransının keçirilməsinə dair müvafiq qərar qəbul edib.

Rəyasət Heyətinin digər qərarları ilə AMEA-nın Elmi-Nəşriyyat Şurasının yeni tərkibi təsdiq olunub, AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi Bürosunun tərkibində isə qismən dəyişiklik edilib. Həmçinin AMEA-nın Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinin qeyd olunması, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Uşaq ədəbiyyatı şöbəsi, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda Eksperimental fonetik araşdırmalar laboratoriyası və AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda təhsil şöbəsinin yaradılması ilə bağlı qərarlar qəbul edilib.

### *Akademik Urxan Ələkbərov: Ölkəmiz 2018-ci ildə inklüziv inkişaf sahəsində dünyada yüksək mövqe qazanıb*

Ölkəmiz 2018-ci ildə inklüziv inkişaf sahəsində dünyada yüksək mövqe qazanıb.

AMEA Rəyasət Heyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) Elmi Şurasının birgə iclasında DİA-nın rektoru, akademik Urxan Ələkbərov çıxışı zamanı deyib.

Akademik bu uğurun kökündə ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi strategiyanın dayandığına diqqət çəkib. Qeyd edib ki, Davos İqtisadi Forumunun dəyərləndirmələrinə görə, respublikamız keçid iqtisadiyyatına malik ölkələr arasında üçüncü yeri tutur. Bu qrupdakı ölkələrin üstün iqtisadi imkanlarının olmasına baxmayaraq, onlar arasında Azərbaycan Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvü olan çox sayda dövlətlərdən irəlidədir. Azərbaycanın inklüziv inkişaf indeksləri ABŞ, Yaponiya, İtaliya, İsrail, İspaniya, Portuqaliya, Türkiyə, Rusiya və başqa ölkələrin göstəricilərini üstələyir. Bu nailiyyət Azərbaycan Respublikasında iqtisadi, sosial və humanitar siyasətin ümumi inkişaf strategiyasının vacib istiqaməti olmasından xəbər verir.

U.Ələkbərov qeyd edib ki, ölkəmizin inklüziv inkişaf edən cəmiyyətin qurulması istiqamətində qazandığı uğurların başlıca faktoru insan potensialının formalaşdırılması və səfərbər edilməsinə elmi yanaşmadadır. Son 15 ildə ölkədə adambaşına düşən gəlirlərin artması, iqtisadi dirçəlişə nail olunması dövlət səviyyəsində elm, təhsil və səhiyyənin inkişafı üçün geniş şərait yaradıb. Təhlillər göstərir ki, Azərbaycan Respublikasında qazanılan uğurların əsasında Prezident İlham Əliyev tərəfindən işlənilmiş, nəzəri əsasları və tətbiq üsulları yeni

olan idarəetmə texnologiyaları kompleksi dayanır.

Məruzədə idarəetmədə istifadə olunan bu yeni sinergetik, komplementar və kompensasion texnologiyalar və onların kompleks tətbiqi sayəsində qazanılan nailiyyətlər geniş təhlil edilib. Qeyd olunub ki, kompleks şəkildə vahid çoxkomponentli bir sistem kimi bu texnologiyalardan inklüziv inkişafın planlaşdırılması və idarəedilməsi üçün ilk dəfə Azərbaycanda istifadə edilib. Bu texnologiyalar ümumilikdə dövlət proqramlarının milli proqramlara çevrilməsini, onların reallaş- dırılmasında vətəndaş cəmiyyəti və fərdi biznesin iştirakını, milli, xarici və beynəlxalq tərəfdaşların müştərək layihələr üzrə maraqlarına diqqətin artırılmasını nəzərdə tutur.

Məruzə dinlənildikdən sonra AMEA Rəyasət Heyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi Şurasının qərarına əsasən respublikada tətbiq edilən və beynəlxalq təşkilatlar tərəfindən yüksək dəyərləndirilən idarəetmə texnologiyalarının tədqiqinin davam etdirilməsi məqsədəuyğun hesab olunub. Bundan başqa, qərarda elmi nəşrlərdə ölkənin inklüziv inkişaf sahəsində nailiyyətlə- rinin təhlili ilə bağlı multidissiplinar elmi tədqiqatların nəticələrinin dərc edilməsi, bu sahəyə dair ali məktəblər üçün xüsusi dərsliyin hazırlanması, orta məktəb proqramlarındakı müvafiq fənlər çərçivəsinə inklüziv inkişafa dair bilik və bacarıqlar aşılayan məlumatların daxil edilməsi və digər məsələlər yer alır.

## *Dövlət İdarəçilik Akademiyasında Yerli İcra Hakimiyyətlərinin əməkdaşlarına növbəti distant təlim keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi birgə “Strateji yol xəritəsinin icrasında yerli icra hakimiyyətlərinin rolu” mövzusunda növbəti distant təlim keçirib.

Distant təlimin əsas məqsədi ölkənin inklüziv inkişafı, elektron hökumətin inkişafı məsələləri ilə bağlı hədəflərin yeni istiqamətləri, strateji yol xəritələrinin icrasında yerli icra hakimiyyətlərinin rolu, strateji yol xəritələrinin monitorinqi və qiymətləndirilməsi: və s. kimi mövzular ilə bağlı biliklərin dinləyicilərə çatdırılması və onlarla ilə fikir mübadiləsinin aparılmasıdır.

Yerli icra hakimiyyətlərinin əməkdaşları üçün təşkil edilən təlimdə, DİA-nın rektoru, akademik Urxan Ələkbərov “İnklüziv inkişaf və innovativ idarəetmə texnologiyaları: Azərbaycan Respublikasının təcrübəsi”, İİTKM-in icraçı direktoru Vüsal Qasımlı isə “Strateji yol xəritələri: davamlı iqtisadi inkişaf və sosial rifah” adlı acılış mühazirəsi ilə çıxış ediblər.

DİA-nın rektoru, akademik Urxan Ələkbərov Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən danışıb, Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini bildirib və bu gün Azərbaycanın iqtisadiyyatının sürətlə inkişaf etdiyini konkret faktlarla diqqətə çatdırıb. Qeyd olunub ki, bir sıra iqtisadi və sosial göstəricilərinə görə müasir Azərbaycan Respublikası hazırda yüzillik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq durumundadır. Dövlətimizin başçısının tətbiq etdiyi və dünya miqyasında ilk dəfə işlənilmiş sinergetik, kompensator idarəçilik texnologiyaları sayəsində 2018-ci ilin yanvarında keçirilən Davos forumunun hesabatında Azərbaycanın inklüziv inkişaf indeksi bir çox Avropa İttifaqına üzv olan dövlətlərin göstəricilərindən yüksək olduğu qeyd edilmişdir.

Akademik U.Ələkbərov ölkənin iqtisadi və ticarət əlaqələrinin genişəndirilməsində müstəsna əhəmiyyətə malik strateji yol xəritəsinin, elektron hökumətin inkişafı ilə bağlı qərarların Azərbaycanın müasir tərəqqisində mühüm rol oynadığı vurğulanıb. U.Ələkbərov Azərbaycanın uğurlu inkişafınında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolu olduğunu qeyd etmişdir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı diqqətə çatdırıb ki, Azərbaycan iqtisadiyyatın-

da aparılan davamlı iqtisadi islahatlar öz bəhrəsini verməkdədir.

Vüsal Qasımlı vurğulayıb ki, ölkədə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji yol xəritələrindən biri də Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına həsr edilib. Burada göstərildiyi kimi elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçiddə əsas məqsəd xidmətlərin göstərilməsi zamanı vətəndaşlarla birbaşa təmasını aradan qaldırmaqla şəffaflığı təmin etmək, həmçinin xidmətlərin daha əlçatan olmasıdır.

İcraçı direktor deyib ki, Azərbaycanın "Doing Business" hesabatında ən islahatçı ölkə statusunu saxlaması da təsadüfi deyil. Çünki, 2018-ci ildə açıqlanacaq "Doing Business-2019" hesabatında Azərbaycanın mövqeyinin gücləndirilməsini təmin edəcək - biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, əmlakın qeydiyyatı, kreditlərin alınması, kiçik investorların maraqlarının qorunması, vergilərin ödənilməsi, xarici ticarətin aparılması, müqavilələrin icrasının təmin edilməsi və müəssisənin bağlanması kimi istiqamətləri üzrə ciddi iqtisadi islahatlar aparılıb.

Vüsal Qasımlı əlavə edib ki, İİTKM tərəfindən gerçəkləşdirilən Azexport portalı, Rəqəmsal Ticarət Qovşağı, vahid online ixrac ərizəsi, EnterpriseAzerbaijan.com saytı kimi layihələr rəqəmsal iqtisadiyyat quruculuğuna ciddi töhfədir.

Daha sonra İqtisadi İslahatların Təhlili və Kommunikasiya mərkəzinin Strateji planlaşdırma və inkişaf departamentinin rəhbəri Ramil Hüseyn "Yerli icra hakimiyyəti orqanlarının Strateji Yol Xəritələrinin icrasında rolu, mərkəzin əməkdaşı Azexport.az portalının meneceri Ayxan Qədəşov "Strateji yol xəritəsinin monitorinqi və qiymətləndirilməsi: 2017-ci il üzrə monitorinq və qiymətləndirmə nəticələrinin şərhi" mövzularında mühazirələrlə çıxış ediblər.

***Xalqımızın qürur mənbəyi - Dövlət bayrağımız***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) 9 noyabr - Dövlət Bayrağı Gününə həsr olunan elmi konfrans keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Tədbirdə üçrəngli bayrağımızın 100 illiyi münasibətilə iştirakçıları təbrik edən DİA-nın



birinci prorektoru, professor Əlikram Abdullayev Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Sərəncamının əhəmiyyətini vurğulayıb.

Respublikamızın suverenliyinin əsas atributlarından olan Dövlət bayrağımızın tarixindən danışan Ə.Abdullayev Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəbul olunmuş üçrəngli bayrağımızın hələ SSRİ vaxtında ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda bir daha ucaldıldığını diqqətə çatdırıb. Professor Ə.Abdullayev ümummilli lider Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişafında müstəsna xidmətlərindən də bəhs edib.

DİA-nın kafedra müdirləri Firdovsiyyə Əhmədova, Fəxrəddin Nağıyev, Tələbə Gənclər Təşkilatının sədri Nail Əliyev, TGT ART Klubun sədr müavini Murad Həsənxanlı və digər çıxış edənlər Dövlət bayrağının xalqımızın sonsuz qürur mənbəyi olduğunu bildiriblər.

Çıxışlarda müstəqil ölkəmizin dünyada nüfuzunun yüksəldiyi vurğulanıb, ermənilər tərəfindən işğal edilmiş torpaqlarımızın Azərbaycan Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində tezliklə azad olunacağına əminlik ifadə olunub.

Sonra Dövlət bayrağına həsr olunmuş videoçarx nümayiş etdirilib.

## *Dövlət İdarəçilik Akademiyasında "Canlı aləmin mühafizəsində təlimin əhəmiyyəti" adlı tədbir keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Heydər Əliyev Fondunun dəstəyi ilə "Canlı aləmin mühafizəsində təlimin əhəmiyyəti" adlı tədbir keçirilib. DİA-nın "Ekosivil Dünya" klubunun təşəbbüsü ilə keçirilən tədbirdə rektor akademik Urxan Ələkbərov tədbir iştirakçılarını salamlamış, gənclərin ölkə ictimai həyatında daha fəal iştirakını təmin edəcək "Ekosivil dünya" klubunun fəaliyyətini yüksək qiymətləndirmişdir.

Tədbirdə məruzə ilə çıxış edən rektor akademik U.Ələkbərov Azərbaycan Respublikasında davamlı inklüziv inkişaf sahəsində ölkə Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi strategiyanın əhəmiyyətindən, dövlət siyasətinin yüksək peşəkarlıqla plan-



laşdırılmasının və idarə edilməsinin innovativ idarəetmə texnologiyaları kompleksinin tətbiqi ilə bağlı olduğunu qeyd etdi. Akademik əldə edilən uğurların əsasında idarəetmə sahəsi üçün mühüm olan sinergetik, komplementar və kompensasion texnologiyaların xüsusi yer tutduğunu vurğuladı. Natiq ölkənin innovativ tərəqqisinin əsası kimi insan potensialının formalaşdırılması konsepsiyasının reallaşdırılmasında ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın milli və beynəlxalq səviyyələrdə fəaliyyətini, ölkənin innovativ tərəqqisinə əvəzsiz töhfə olduğu diqqətə çatdırdı.

Daha sonra "Ekosivil Dünya" klubunun sədri Nəzrin Əhmədzadə klubun fəaliyyəti haqqında tədbir iştirakçılarına məlumat verdi. Tədbirdə Heydər Əliyev Fondunun nümayəndəsi, layihə koordinatoru Sabiq Abdullayev "Toplan" layihəsinin əhəmiyyətini haqqında tədbir iştirakçılarına məlumat verdi. Daha sonra Canlı Aləmin Mühafizəsi Alyansının sədri Mansura Rəsulzadə "Heyvan haqları cəmiyyətin mənəvi inkişafının göstəricisi kimi", "Heyvanların Müdafiə Cəmiyyətinin" sədri Azər Qarayev "Azərbaycanda heyvanların mühafizəsi, indiki vəziyyəti və gələcək perspektivləri", Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Firuzə Sultanzadə "Rəsmi, qeyri-rəsmi və fasiləsiz ekoloji təhsil" mövzularında məruzə ilə çıxış etdilər. Daha sonra DİA-nın "Davamlı inkişafın planlaşdırılması və idarəedilməsi" kafedrasının dosenti Elşan Əhmədov, "Ekosivil Dünya" klubunun adınn ekosivil konsepsiya ilə əlaqələdirmiş, dünyada sürətlə yayılan bu konsepsiyanın ilk dəfə Azəraycanda irəli sürüldüyünü və müəllifin akademik Urxan Ələkbərov olduğunu qeyd etmişdir. Ekosivil konsepsiyanın mahiyyətinin yaşıl təfəkkür olduğunu bildirərək, bu cür təlimlərin yaşıl təfəkkürün formalaşmasında vacib rol oynadığını qeyd etmişdir.

Sonda rektor akademik U.Ələkbərov Heydər Əliyev Fondunun rəhbərliyinə, nümayəndələrinə, dövlət və özəl qurumların təmsilcilərinə tədbirə verilən dəstək üçün minnətdarlıq ifadə etmişdir.

***Dövlət İdarəçilik Akademiyasında Türkiyə Respublikasının Xaricdə yaşayan Türklər və Əqrəba İcmaları Departamentinin rəhbəri Abdullah Erenlə görüş keçirilib***

Türkiyə Respublikasının Xaricdə yaşayan Türklər və Əqrəba İcmaları Departamentinin rəhbəri Abdullah Erenin başçılıq etdiyi nümayəndə heyəti Dövlət İdarəçilik Akademiyasında olublar. Akademiyada qonaqları salamlayan rektor, akademik Urxan Ələkbərov



rəhbərlik etdiyi təhsil ocağının tarixi və inkişafı haqqında nümayəndə heyətinə məlumat verib və DİA-nın Türkiyə universitetləri ilə əməkdaşlıq əlaqələrindən söhbət açdı. Daha sonra rektor ölkəmizin son illər əldə etdiyi uğurlardan və bu uğurların təməlində ümummilli lider Heydər Əliyevin üzaqgörən, düşünülmüş siyasətinin və bu gün Prezident İlham Əliyev tərəfindən həyata keçirilən innovativ inkişaf strategiyasının dayandığını nümayəndə heyətinin diqqətinə çatdırıb. Akademik innovativ inkişaf strategiyasının reallaşdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rolunu xüsusi qeyd etdi və bu sahədə dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyətinin, Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etdi.

Səmimi qəbula görə minnətdarlığını bildirən Türkiyəli qonaq Azərbaycan və Türkiyə arasında təhsil sahəsində əlaqələrin indiki vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri haqqında, "Türkiyə bursları" çərçivəsində Türkiyədə təhsil alan Azərbaycan vətəndaşlarının təhsili ilə bağlı məsələlər barədə fikirlərini bildirib. Abdullah Eren Azərbaycan universitetləri ilə Türkiyə universitetləri arasında elmi-texniki əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu və bundan sonra da bu əlaqələrinin daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Görüşdə DİA-nın I (tədris işləri üzrə) prorektoru prof.Ə.Abdullayev və Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri dos.R.Rəhimli iştirak ediblər.

### *Dövlət İdarəçilik Akademiyasında Bern universitetinin professorunun məruzəsi dinlənilib*

Dövlət İdarəçilik Akademiyasında Bern Universitetinin professoru Volf Linderin və İsveçrə Konfederasiyasının Azərbaycandakı səfiri Filip Ştalder ilə DİA-nın müəllim və tələbə heyətinin görüşü olub. Görüşdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov Azərbaycan ilə İsveçrə arasında münasibətlərin bütün sahələrdə inkişaf etdiyini qeyd etdi. Rektor Azərbaycanın uğurlarından söz açaraq bildirdi ki, bu gün ölkəmizin sürətli inkişafının və davamlı inklüziv inkişaf tempinə görə dünyanın aparıcı ölkələrindən irəlidə olmasının əsasında ölkə Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasəti dayanır. O, həmçinin, ölkəmizin sürətli inkişaf prosesində vətəndaş cəmiyyətinin, xüsusən də Heydər Əliyev Fondunun, onun rəhbəri, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rolunu xüsusi vurğuladı.

Görüşdə çıxış edən səfir cənab Filip Ştalder Bern Universitetinin professoru ilə görüşü təşkil etdiyinə görə Akademiyanın rəhbərliyinə təşəkkürünü bildirdi və bu cür görüşlərin ölkələrimiz arasında elmi əlaqələrin inkişafında əhəmiyyətli rol oynadığını qeyd etdi. Daha sonra professor Volf Linderin "Demokratiyaya gedən bir çox yol - İsveçrə niyə və necə fərqlidir" mövzusunda məruzəsi dinlənildi. Təqdimat zamanı İsveçrədə demokratiyanın tarixi, inkişaf mərhələləri, səciyyəvi xüsusiyyətləri və müasir vəziyyəti haqqında məlumatlar iştirakçıların nəzərinə çatdırıldı. Professor birbaşa demokratiya və onun xüsusi forması olan referendumun keçirilməsi qaydaları, əhalinin siyasi qərar qəbul etmə proseslərində iştirakı, həmçinin İsveçrənin Avropa İttifaqı ilə bu istiqamətdə əməkdaşlığının müxtəlif aspektləri barədə geniş məlumat verdi. Qarşılıqlı diskussiya şəraitində keçən görüşün sonunda tədbir iştirakçılarının çoxsaylı sualları cavablandırıldı. İlk dəfə Azərbaycana səfər edən qonağa Azərbaycan haqqında kitab hədiyyə olundu.

### *Dövlət İdarəçilik Akademiyasının müəllimi ABŞ-da təcrübə keçib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəetməsi və menecment" kafedrasının müəllimi Ruslan Nuriyev ABŞ Dövlət Departamentinin Beynəlxalq Təhsil üzrə Amerika Şurasının keçirdiyi Peşəkar İxtisasartırma Proqramının 2018-ci il payız müsabiqəsinin qalibi olmuşdur. O, proqramda iştirak

etmək məqsədi ilə 2018-ci ilin 8 oktyabr – 17 noyabr tarixlərində ABŞ-a ezam olunmuşdur.

Proqram ABŞ-ın qanunverici və icraedici orqanlarında peşəkar təcrübə keçmək, federal və yerli hökumət orqanlarının fəaliyyəti, dövlət nəzarətinin həyata keçirilməsi və digər məsələlərlə yaxından tanış olmaq imkanlarını nəzərdə tutur. Proqrama 63 ölkədən (Şərqi Avropa, Balkan, MDB, Afrika, cənub-şərqi Asiya və Okeaniyadan) ümumilikdə 310 nəfər iştirakçı qatılmışdır. Tədbirin birinci həftəsində iştirakçılar ABŞ-ın ilk universiteti olan Corctaun Universitetinin MakKourt Siyasət Məktəbində liderlik mövzusunda təlimdə iştirak etmişlər. Universitetin Beynəlxalq Tədris Mərkəzində keçirilən kursa mühazirəçilər qismində siyasət və idarəetmə üzrə tanınmış professor-müəllim və ekspert heyətinin cəlb olunduğu bildirilir. Oktyabr ayının 14-dən etibarən MDB paneli üzrə Azərbaycan, Rusiya, Belarus, Ukrayna, Moldova, Qazaxıstan, Gürcüstandan seçilmiş 25 nəfər iştirakçı təcrübə üçün ABŞ-ın müxtəlif ştatlarında federal və yerli idarəetmə orqanlarına göndərildi. R.Nuriyev ABŞ Kənd Təsərrüfatı Departamentinin Risklərin İdarə olunması Agentliyində ixtisasartırma proqramında iştirak etmişdir.

Bildirilir ki, Kənd Təsərrüfatı Departamentinin tabeliyində 1996-cı ildə təsis edilmiş Risklərin İdarə olunması Agentliyi kənd təsərrüfatında sığorta məsələlərini koordinasiya edən, həmçinin Kənd Təsərrüfatı Məhsullarının Sığortası üzrə Federal Korporasiyanın idarəetməsini həyata keçirən dövlət orqanıdır. Proqram ərzində ABŞ-ın aqrar sahədə idarəetmə təcrübəsi və qanunvericilik bazası öyrənilmiş, Minnesota, Ayova, Viskonsin, Miçiqan, İllinoys ştatlarının müxtəlif bölgələrinə edilmiş səfərlər zamanı isə iştirakçılar buradakı təsərrüfat və müəssisələrin fəaliyyəti ilə tanış olmuşlar. Noyabr ayının 13-də ABŞ-ın müxtəlif bölgələrinə göndərilmiş proqram iştirakçıları yenidən paytaxt Vaşinqtona qayıdaraq tədbirin yekun həftəsində iştirak etmişlər.

Yekun proqramın "ölkələrin fərdi təqdimatı" hissəsində tədbir iştirakçılarına Azərbaycanın tarixi və mədəniyyəti barədə, ölkəmizdə qəbul edilmiş dövlət proqramları haqqında, o cümlədən qeyri-neft sektorunun inkişafı, habelə aqrar sahədə həyata keçirilən institusional islahatlar, kənd təsərrüfatına dövlət dəstəyi barədə məlumat verilmişdir. Noyabrın 16-da proqramın yekunlaşması münasibəti ilə iştirakçılar üçün ABŞ Dövlət Departamentində rəsmi qəbul təşkil edilmiş və onlara sertifikatlar təqdim edilmişdir.

Proqramda yerli mütəxəssislərin iştirakı ABŞ-ın qabaqcıl təcrübəsinin öyrənilməsi, bu sahədə geniş praktiki məlumat bazasının toplanılması baxımından əhəmiyyətli və faydalı olmuşdur.

## *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Ekologiya və Təbii Sərvətlən Nazirliyi arasında Memorandum imzalanmışdır*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında birgə əməkdaşlıq, kadr potensialının gücləndirilməsi kimi məsələlərinə dair Memorandum imzalanmışdır.

Tədbirdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqindən danışdı. Akademik U.Ələkbərov Azərbaycan Respublikasında davamlı inklüziv inkişaf sahəsində ölkə Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi strategiyanın əhəmiyyətindən söz açdı, dövlət siyasətinin yüksək peşəkarlıqla planlaşdırılmasının və idarə edilməsinin innovativ idarəetmə texnologiyaları kompleksinin tətbiqi ilə bağlı olduğunu qeyd etdi. Akademik əldə edilən uğurların əsasında idarəetmə sahəsi üçün mühüm olan sinergetik, komplementar və kompensasion texnologiyaların xüsusi yer tutduğunu vurğuladı. Rektor ölkənin innovativ inkişafının əsası kimi insan potensialının formalaşdırılması konsepsiyasının reallaşdırılmasında ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti



Mehriban xanım Əliyevanın milli və beynəlxalq səviyyələrdə fəaliyyətini, ölkənin innovativ tərəqqisinə əvəzsiz töhfə olduğu diqqətə çatdırdı.

Sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin ekologiya sahəsinə olan xüsusi diqqət və qayğısından danışdı. Nazir ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə səmərəli istifadə edilməsinin ölkədə aparılan sosial-iqtisadi islahatların tərkib hissəsi olduğunu bildirdi. O, ümumilikdə ölkəmizdə ekoloji vəziyyət, təbii ehtiyatlar, onların mühafizəsi və bərpasının davamlı inkişaf konsepsiyasının tərkib hissəsinə çevrildiyini, ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə, alternativ enerji mənbələrindən yararlanmaq və enerji effektivliyinə nail olmaq, qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi, həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsinin Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqaməti olduğunu qeyd etdi.

Sonda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Ekologiya və Təbii Sərvətlən Nazirliyi arasında qarşılıqlı əməkdaşlığa dair Memorandum imzalandı.

## *DİA-da "Bələdiyyə idarəçiliyinin aktual problemləri" istiqaməti üzrə qısamüddətli ixtisasartırma kursu və "Rəqəmsal iqtisadiyyat" mövzusunda təlim keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 26-30 noyabr 2018-ci il tarixlərində "Bələdiyyə idarəçiliyinin aktual problemləri" istiqaməti üzrə qısamüddətli ixtisasartırma kursu keçirilib. Kursa yerli özünüidarəetmə orqanlarında çalışan bələdiyyə sədrləri cəlb olunub.

"Bələdiyyə idarəçiliyinin aktual problemləri" istiqamətində kursun əsas məqsədi Yerli özünüidarəetmənin hüquqi əsasları və hüquqi təminatları, Azərbaycan Respublikasının inklüziv inkişafı və onun davamlılığında bələdiyyələrin rolu, Yerli özünüidarəetmənin maliyyə-iqtisadi əsasları və s. problemlərlə

bağlı biliklərin dinləyicilərə çatdırılması və onlar ilə fikir mübadiləsinin aparılmasıdır.

Kurs ərzində "Bələdiyyə idarəçiliyinin aktual problemləri" istiqaməti üzrə - Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri Arif Rəhimzadə, Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov, Milli Məclisin Regional Məsələlər Komitəsinin üzvü Kamran Bayramov, Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin əməkdaşları-aparıcı məsləhətçi Səfa Cəfərov, aparıcı məsləhətçi İlyas Kərimov, aparıcı məsləhətçi İsgəndər Orucov, aparıcı məsləhətçi Bahadur Kərimov, məsləhətçi Nailə Rəsulzadə, Azərbaycan Qəsəbə Bələdiyyələri Milli Assosiasiyasının icra katibi Tofiq Həsənov, DİA-nın əməkdaşları – professor Xatirə Hüseynova, dosent İbrahimxəlil İbrahimov, dosent Murtəza Həsənov, dosent Ağamehdi Mehdiəliyev müxtəlif mövzularda mühazirələrlə çıxış etmişlər.

Kursun sonunda Akademiyanın rektoru akademik Urxan Ələkbərov və Akademiyanın Tədris işləri üzrə I prorektoru professor Əlikram Abdullayev dinləyicilər qarşısında çıxış etmiş və onlara kursu müvəffəqiyyətlə bitirdiklərinə görə sertifikatlar təqdim edərək gələcək işlərində uğurlar arzu etmişlər.

DİA-da eyni zamanda ASAN Xidmətdə çalışan könüllülər üçün "Rəqəmsal iqtisadiyyat" mövzusunda təlim təhlil edilmişdir. Təlimdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, iqtisad elmləri üzrə fəlsəfə doktoru Tahir Mirkişili və digərləri çıxış etmişlər.

### *Dövlət İdarəçilik Akademiyasında ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb*

Dekabrın 11-da ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında tədbir keçirilib. Tədbirdən öncə ulu öndərin Akademiyadakı büstü önünə əklil qoyulub, xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Anım tədbirində çıxış edən DİA-nın rektor, akademik Urxan Ələkbərov ümummilli lider, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərini xatırlatdıb. Qeyd edib ki, Azərbaycanın müasir tarixində Heydər Əliyevin müstəsna xidmətlərinin ictimai-siyası mahiyyəti hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacaq, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsi Azərbaycan adı yaşadıqca, o da daim xalqımızın yaddaşında, ürəklərdə yaşayacaqdır. Rektor, Heydər Əliyevin ölkəmizin inkişafı sahəsində başladığı nəhəng işlər, möhtəşəm layihələrin bu gün onun layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla davam etdirildiyini diqqətə çatdırıb.



Tədbirdə çıxış edən Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutunun direktoru, Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının professoru Musa Qasımlı, Milli Məclisin deputatı, Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor Elman Nəsirov, Dövlət İdarəçilik Akademiyasının "Siyasi idarəetmə" fakültəsinin dekanı, "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov və çıxış edən digər natiqlər dünya şöhrətli siyasi xadim Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu islahatlardan danışmış, onun parlaq zəkası, dövlətçilik təcrübəsi, yenilməzliyi və cəsarəti ilə müstəqil Azərbaycan dövlətini məhvolma təhlükəsindən qoruyub saxlamasını, ümummilli lider Heydər Əliyevin vətən və xalq qarşısında xidmətləri xatırlanmışdır. Tədbirdə ümummilli liderə həsr olunmuş sənədli film nümayiş etdirilib.

### *Dövlət İdarəçilik Akademiyasında "Miqrasiya proseslərinin dövlət tənzimlənməsi" istiqaməti üzrə ixtisasartırma kursu təşkil edilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Miqrasiya proseslərinin dövlət tənzimlənməsi" istiqaməti üzrə ixtisasartırma kursunun açılışı olub.

Tədbirdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov və Xidmət rəisi Vüsal Hüseynov çıxış edərək ölkədə miqrasiya proseslərinin idarə olunması və bu istiqamətdə reallaşdırılan dövlət siyasətinin hüquq-mühafizə və digər dövlət qurumlarında çalışan rəhbər əməkdaşlara çatdırılması, izahı və şərh edilməsi məqsədilə kursun əhəmiyyətindən danışıblar. İxtisasartırma kursu respublikada miqrasiya sahəsinə aid islahatların aktual problemləri, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, beynəlxalq insan hüquqları konsepsiyası və digər məsələlərlə bağlı biliklərin sistemləşdirilməsinə, dinləyicilərə yeni biliklərin verilməsinə xidmət edir.

### *Dövlət İdarəçilik Akademiyasında "Xəzər hövzəsi və enerji təhlükəsizliyi" kitabının təqdimatı olub*

Dekabrın 10-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında siyasi elmlər üzrə fəlsəfə doktoru Rufiz Qonaqovun "Xəzər hövzəsi və enerji təhlükəsizliyi" adlı kitabının təqdimatı olub. Kitabın elmi redaktoru və ön sözün müəllifi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovdur.

Tədbiri açan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov əsas prioritetləri ulu öndər Heydər Əliyev tərəfindən müəyyən olunan və bu gün Prezident İlham Əliyevin siyasi iradəsi ilə balanslaşdırılan enerji siyasətinin uğurlarını qeyd edib. O, "Xəzər hövzəsi və enerji təhlükəsizliyi" kitabının Xəzərin hüquqi statusunun müəyyən olunduğu bir vaxtda ərsəyə gəlməsinin əhəmiyyətindən danışıb.

Akademik bildirib ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan balanslaşdırılmış enerji siyasəti kursunun həm də enerji təhlükəsizliyi baxımından təhlili məsələləri, Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi, Xəzərin hüquqi statusu ilə bağlı danışıqlar prosesi, xəzəryanı dövlətlərin münasibətləri, əldə edilən nəticələrin təhlili tədqiqatın başlıca məqsəd və vəzifələri sırasındadır. Elmi-praktiki əhəmiyyətə malik yeni nəşrdə xəzəryanı ölkələrin regional maraqlarının analitik təhlili aparılıb.

Kitabın rəyçilərindən olan Milli Məclisin deputatı, professor Elman Nəsirov deyib ki, elmi-tədqiqat əsərində enerji resurslarının mühüm siyasi çəkiyə malik olduğu göstərilib. Bir zamanlar fövqəldövlət anlayışı nüvə silahına sahib olmaqla müəyyənləşdirilirdi. Bu gün isə bu, enerji resurslarına malik olmaqla təyin olunur. Azərbaycanın Avropanın enerji təhlü-





kəsizliyinin təminində mühüm rol oynadığını deyən E.Nəsirov vurğulayıb ki, ölkəmiz köhnə qitə üçün enerji mənbəyidir. Azərbaycanın bu cür önəmli yerə sahib olması ulu öndər Heydər Əliyevin əsasını qoyduğu regional enerji siyasəti ilə bağlıdır. Bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək Xəzər dənizində sülh və əmin-amanlığı möhkəmləndirib.

Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bu gün enerji təhlükəsizliyinin mühüm önəm daşıdığını bildirib. O qeyd edib ki, müəllif kitabda enerji təhlükəsizliyi məsələləri ilə bağlı ayrı-ayrı dövlətlərin enerji siyasətini təhlil edib, problemin nəzəri və təcrübi aspektlərinə xüsusi yer ayırıb. Kitabda dünyada baş verən münaqişələr kontekstində Xəzərin statusu ilə əlaqədar Xəzəryanı dövlətlər arasında əldə edilmiş konsensusun beynəlxalq hüquqi və politoloji əhəmiyyəti uğurla tədqiq edilib, hövzə dövlətləri arasında Azərbaycanın potensial imkanları və onun üstün cəhətləri sistemli şəkildə müqayisə olunub.

Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə bildirib ki, kitabda Xəzər ətrafında gedən siyasi proseslər düzgün təhlil olunub. “Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi düzgün strategiyanın nəticəsidir ki, ölkə-

miz bu gün müstəqil siyasətə və iqtisadiyyata malikdir", - deyən komitə sədri Azərbaycanın XXI əsrdə enerji və enerji təhlükəsizliyi məsələləri istiqamətində ən sabit ölkə olacağını, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan böyük layihələrin həm də regionu sabitlik diyarına çevirəcəyini bildirib.

Daha sonra filologiya üzrə elmlər doktoru Rövşən Məmmədov, "BP Azerbaijan" şirkətinin əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, siyasi elmlər üzrə fəlsəfə doktoru Hüseyn İbrahimov çıxış edərək "Xəzər hövzəsi və enerji təhlükəsizliyi" kitabının aktuallığından danışıb, onun geniş oxucu kütləsi, eləcə də ekspertlər üçün vacib əhəmiyyət daşıdığını bildiriblər.

Sonda çıxış edən müəllif Rufiz Qonaqov tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib, kitab haqqında ətraflı məlumat verib.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kollektivi ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib***

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kollektivi ümummilli lider Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə əlaqədar Fəxri xiyabanı ziyarət edib.





Akademiyanın kollektivi müstəqil dövlətimizin qurucusu ulu öndər Heydər Əliyevin xatirəsini hörmət və ehtiramla yad edib, məzarı üzərinə gül dəstələri düzüblər.

### *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi arasında Əməkdaşlıq Memorandumu imzalanıb*

13 dekabr 2018-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi arasında "Davamlı İnkişaf üzrə Gənclərin Tədqiqat və Təlim Mərkəzi"nin yaradılması haqqında Əməkdaşlıq Memorandumu imzalanıb.



Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərəcək Mərkəzin əsas məqsədi davamlı inkişaf sahəsi, xüsusilə Dayanıqlı İnkişaf Məqsədləri mövzusu ətrafında gənclər arasında tədqiqat fəaliyyətinin təşviqi, ardıcıl və məqsədyönlü formada təşkili, idarə edilməsi və istiqamətləndirilməsi olacaqdır.

Rektor, akademik Urxan Ələkbərov ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqindən danışdı. Akademik U.Ələkbərov Azərbaycan Respublikasında davamlı inklüziv inkişaf sahəsində ölkə Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi strategiyanın əhəmiyyətindən söz açdı, dövlət siyasətinin yüksək peşəkarlıqla planlaşdırılmasının və idarə edilməsinin innovativ idarəetmə texnologiyaları kompleksinin tətbiqi ilə bağlı olduğunu qeyd etdi. Akademik əldə edilən uğurların əsasında idarəetmə sahəsi üçün mühüm olan sinergetik, komplementar və kompensasion texnologiyaların xüsusi yer tutduğunu vurğuladı. Rektor ölkənin innovativ inkişafının əsası kimi insan potensialının formalaşdırılması konsepsiyasının reallaşdırılmasında ölkənin Birinci vitseprezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın milli və beynəlxalq səviyyələrdə fəaliyyətini, ölkənin innovativ tərəqqisinə əvəzsiz töhfə olduğu

diqqətə çatdırdı. Bütün bu fəaliyyətin əsasında gənc kadrların, ölkə gəncliyinin fəaliyyətinə diqqət çəkdi, gənclərin potensialının idarəedilməsinin əhəmiyyətini qeyd etdi.

Akademik Urxan Ələkbərov DİA-da açılacaq mərkəzin hazırda dünyada aparıcı mövzulardan biri olan davamlı inkişaf üzrə Azərbaycan gənclərinin bilik və bacarıqlarını artırmasına böyük töhfə verəcəyini vurğuladı. Qeyd olundu ki, artıq bir neçə ildir ki, Dövlət İdarəçilik Akademiyasında davamlı inkişaf üzrə dərslər keçirilir. Yeni açılacaq Mərkəz də öz növbəsində gənclər üçün yeni tədqiqat imkanları yaradacaq, onları qlobal məqsədlərə dəstək olmağa ruhlandıracaq.

Daha sonra çıxış edən Azərbaycan Respublikasının Gənclər və İdman Naziri Azad Rəhimov, 2015-ci ilin sentyabr ayında Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul olunmuş Dayanıqlı İnkişaf Məqsədlərinin Azərbaycan Respublikasında reallaşdırılması istiqamətindən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının səmərəli əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 6 oktyabr 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradıldığını xatırlatdı. Qeyd olundu ki, 2030-cu ilədək icrası nəzərdə tutulan bu qlobal məqsədlər, xüsusilə gənclər üçün böyük əhəmiyyət kəsb edir. Bildirildi ki, Azərbaycanda DİM-lərə nail olmaqda gənclərin iştirakının təşviqi məqsədilə Gənclər və İdman Nazirliyinin BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirdiyi "Qlobal siyasi müzakirələrdə gənclərin fəal iştirakını dəstəkləmək üçün yeni əsasların yaradılması" layihəsi çərçivəsində "Dayanıqlı İnkişaf Məqsədləri üzrə Gənc Səfirlər" seçilmişdir.

Tədbirin sonunda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi arasında qarşılıqlı əməkdaşlığa dair Memorandum imzalandı.

## *Dövlət İdarəçilik Akademiyasında "İqtisadi islahatların strateji idarəedilməsi: nəticələr və perspektivlər" mövzusunda ictimai mühazirə dinlənilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "İqtisadi islahatların strateji idarəedilməsi: nəticələr və perspektivlər" mövzusunda birgə ictimai mühazirə keçirib.

İctimai mühazirənin əsas məqsədi ölkənin inklüziv inkişafı, elektron hökumətin inkişafı məsələləri ilə bağlı hədəflərin yeni istiqamətləri, strateji yol xəritələrinin icrasında strateji idarəetmənin rolu, strateji yol xəritələrinin qiymətləndirilməsi və s. kimi mövzular ilə bağlı biliklərin elmi tədqiqatçılara çatdırılması və onlarla ilə fikir mübadiləsinin aparılmasıdır.

DİA-da təhsil alan magistrant və doktorantlar üçün nəzərdə tutulmuş mühazirədə DİA-nın rektoru, akademik Urxan Ələkbərov "İnklüziv inkişaf və idarəetmə texnologiyaları: Azərbaycanın təcrübəsi", İİTKM-in icraçı direktoru Vüsal Qasımlı isə "İqtisadi islahatların strateji idarəedilməsi: nəticələr və perspektivlər" adlı acılış mühazirəsi ilə çıxış ediblər.

DİA-nın rektoru, akademik Urxan Ələkbərov Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən danışıb, Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini bildirib və bu gün Azərbaycanın iqtisadiyyatının sürətlə inkişaf etdiyini konkret faktlarla diqqətə çatdırıb. Qeyd olunub ki, bir sıra iqtisadi və sosial göstəricilərinə görə müasir Azərbaycan Respublikası hazırda yüzillik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq durumundadır. Dövlətimizin başçısının tətbiq etdiyi və dünya miqyasında ilk dəfə işlənilmiş sinergetik, kompensator idarəçilik texnologiyaları sayəsində 2018-ci ilin yanvarında keçirilən Davos forumunun hesabatında Azərbaycanın inklüziv inkişaf indeksi bir çox Avropa İttifaqına üzv olan dövlətlərin göstəricilərindən yüksək olduğu qeyd edilmişdir.

Akademik U.Ələkbərov ölkənin iqtisadi və ticarət əlaqələrinin genişəndirilməsində müstəsna əhəmiyyətə malik strateji yol xəritəsinin, elektron hökumətin inkişafı ilə bağlı qərarların Azərbaycanın müasir tərəqqisində mühüm rol oynadığı vurğulanıb. U.Ələkbərov Azərbaycanın uğurlu inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolu olduğunu qeyd etmişdir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı məruzə ilə çıxış edərək diqqətə çatdırıb ki, Azərbaycan iqtisadiyyatında aparılan davamlı iqtisadi islahatlar öz bəhrəsini verməkdədir. Vüsal Qasımlı vurğulayıb ki, ölkədə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji yol xəritələrindən biri də Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına həsr edilib. Burada göstərildiyi kimi elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçiddə əsas məqsəd xidmətlərin göstərilməsi zamanı vətəndaşlarla birbaşa təmasını aradan qaldırmaqla şəffaflığı təmin etmək, həmçinin xidmətlərin daha əlçatan olmasıdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru V.Qasımlı qeyd edib ki, Azərbaycanın "Doing Business" hesabatında ən islahatçı ölkə statusunu saxlaması da təsadüfi deyil. Çünki, 2018-ci ildə açıqlanacaq "Doing Business-2019" hesabatında Azərbaycanın mövqeyinin gücləndirilməsini təmin edəcək - biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, əmlakın qeydiyyatı, kreditlərin alınması, kiçik investorların maraqlarının qorunması, vergilərin ödənilməsi, xarici ticarətin aparılması, müqavilələrin icrasının təmin edilməsi və müəssisənin bağlanması kimi istiqamətləri üzrə ciddi iqtisadi islahatlar aparılıb.

Vüsal Qasımlı əlavə edib ki, İİTKM tərəfindən gerçəkləşdirilən Azexport portalı, Rəqəmsal Ticarət Qovşağı, Bir Pəncərə İxraca Dəstək Mərkəzi, vahid online ixrac ərizəsi, EnterpriseAzerbaijan.com saytı kimi layihələr rəqəmsal iqtisadiyyat quruculuğuna ciddi töhfədir.

Daha sonra müzakirələr aparılıb, suallar cavablandırılıb.

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**...........7
.
**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**..............................15

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**.........................................39

Xızı və Quba rayonlarına səfər ........................................................................................39
Lənkəran, Astara və Lerik rayonlarına səfər ................................................................46
Türkiyə Respublikasına işgüzar səfər ............................................................................58
İmişli rayonuna səfər ........................................................................................................62
Qax rayonuna səfər ..........................................................................................................75
Şəki şəhərinə səfər ...........................................................................................................80
Ağdam rayonuna səfər .....................................................................................................87
Sumqayıt şəhərinə səfər ..................................................................................................96
Belarus Respublikasına rəsmi səfər ..............................................................................101
Türkmənistana rəsmi səfər ...........................................................................................107
Rusiya Federasiyasına işgüzar səfər ............................................................................116

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri** .............................................................................................117

Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında İlham Əliyevin giriş nitqi .................................117

Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında iclasında İlham Əliyevin yekun nitqi ................120

VI Beynəlxalq Humanitar Forumun rəsmi açılış mərasimində İlham Əliyevin nitqi.................126

2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdə İlham Əliyevin nitqi............................130

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dünya azərbaycanlılarına müraciəti ...132

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Rossiya-24” telekanalına müsahibəsi ..............................................................................................................132

### SİYASƏT

**Али Гасанов.** Ильхам Алиев – пятнадцать лет на посту президента летопись достижений (2003-2018)...........................................................................137

### REGİONLAR

**İslam Rzayev.** Balakən rayonu inkişaf edir, müasirləşir...........................................................151

### DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ

**Elman Nəsirov.** On beş il: sabit və təhlükəsiz Azərbaycan........................................................161

## İQTİSADİ NƏZƏRİYYƏ

**Руфат Кулиев.** Управление государственным долгом как инструмент регулирования экономики ........................................................................................173

## SİYASİ NƏZƏRİYYƏ

**Cavanşir Feyziyev.** Qlobal inteqrasiya prosesləri və müasir türk sivilizasiyası........................181

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Rustam Soli.** Tajikistan and the European Union: sustainable cooperation ..............................189

**Məhsəti Əliyeva.** Beynəlxalq münasibətlərin meydana gəlməsi və inkişafı..............................203

**Nafilə Rəhimova.** Türkiyə-Rusiya arasında hərbi-texniki əməkdaşlıq .....................................211

## İCTİMAİ FİKİR

**Vüqar Rəhimzadə.** Sosial şəbəkələr yeni media forması kimi: müasir jurnalistlərin senzurasız və sərhədsiz fəaliyyət platforması ..............................................................219

## DÖVLƏT İDARƏÇİLİYİ

**Rəcəb Rəhimli.** Dövlət qulluğunda etika və onun əsas komponentləri ....................................225

## SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR

**Nurəddin İbrahimov.** Prezidentli və parlamentli respublikalarda prezidentliyin əsas xüsusiyyətləri ...........................................................................................................237

## VƏTƏN TARİXİ

**Firdovsiyyə Əhmədova.** Hakimiyyətinin 10-cu ilində Mərkəzin Azərbaycana dair sosial-iqtisadi siyasət kursu.........................................................................................249

## TƏHSİLİN TƏŞKİLİ VƏ PLANLAŞDIRILMASI

**Məmməd Məmmədov.** Azərbaycanda fasiləsiz və çoxsəviyyəli peşə təhsilinin inkişafı istiqamətləri...........................................................................................................257

## KONFLİKTOLOGİYA

**Elşad Mirbəşir oğlu.** Siyasi münaqişələrin sona çatma formaları...........................................269

## TARİXİ COĞRAFİYA

**Малахат Фараджева.** Гая арасы - самая древняя из известных стоянок Гобустана ........277

## GƏNC TƏDQİQATÇILAR

### SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR

**Ceyran Rəhmətullayeva.** Azərbaycanda sosial işin və xidmətlərin yaranma tarixi .................287

**Züriyə Qarayeva.** Prezident və parlament idarəçilik formalarının müqayisəsi.........................295

### BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Şaiq Əliyev.** Region dövlətlərinin Cənubi Qafqaz siyasətinin xüsusiyyətləri (Rusiya, Türkiyə, İran)..................................................................................................303

**Dövlət İdarəçilik Akademiyasında**..........................................................................................311

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına**
**məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal**
**«Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

**Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»**

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2018, №4(64)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və müəllim *F.Şammədov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *Şəbnəm Həsənova* tərəfindən redaktə edilmişdir.

Redaktoru ***Günay Maqsudova***
Kompüter dizayneri ***İradə Təhməzova***
Korrektoru ***İradə Təhməzova***

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.org.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Sifariş 12. Tiraj 1000.

// Journal of Public Administration: Theory and Practice

# Journal of Public Administration:
## Theory and Practice

*Scientific and theoretical journal*

**2018, №4(64)**

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B.Hagverdiyev, Ph.D. in Psychology, assistant professor*
and *F.Shammedov,* lecturer, all from Academy of Public Administration.

Summary of the articles were translated into English
by *Shabnam Hasanova.*

Editor ***Günay Maqsudova***
Computer designer ***Irada Tahmazova***
Corrector ***Irada Tahmazova***

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.org.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed from the diapositivs at
«Tahsil Publishing-Polygraphy»
Order 12. Number of copies printed 1000.